ƏZİZ OXUCULAR!

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi" 1961-ci ildən nəşr edilir. 1970-ci ilin oktyabr ayından "Kitabxana işçisinə kömək" adı ilə çap olunan vəsaitin nəşri 1992-ci ildə dayandırılmış, 2005-ci ildən isə yenidən "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə çap olunmağa başlanmışdır.

Bu illər ərzində təqvim daha da təkmilləşdirilmiş, mövzu üzrə bölmələrin sayı artırılaraq həcmi genişləndirilmiş, əhatəli məlumat mənbəyi kimi formalaşdırılmışdır.

Təqvimi nəşr etməkdə məqsəd geniş oxucu kütləsinə və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən mühüm əlamətdar hadisələri və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Mədəniyyət işçiləri, müəllimlər, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin hər buraxılışının müqəddiməsində nəşrin məzmunu, forması geniş şəkildə açılır.

Təqvimin bu dəfəki sayı dahi Azərbaycan şairi, mütəfəkkiri və ictimai-siyasi xadimi Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuşdur.

Molla Pənah Vaqif XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Vaqif yaradıcılığı ilə Azərbayçan şeiri tarixində yeni bir dövr başlanmış, Vaqif lirikası ilə poeziyada yeni bir səhifə açılmış, poeziyamızda nikbin bir əhvali-ruhiyyə, həyati və dünyəvi gözəlliyə pərəstiş hissləri qüvvətlənmişdir.

2016-2017-ci illərdə YUNESKO-nun yubileylər proqramı çərçivəsində Qazaxıstan, İran və Türkiyənin dəstəyi ilə ölkəmizin təklifi əsasında böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) vəfatının 600, Molla Pənah Vaqifin anadan olmasının 300 (1717-1797), eləcə də Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınmasının 200 (1817) illik yubileyləri qeyd ediləcək.

Qeyd etmək lazımdır ki, YUNESKO-nun yubileylər proqramına təqdim edilən şəxsiyyətlər və hadisələr təsadüfi seçilmir. Belə ki, Molla Pənah Vaqifin 300 illik yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsi ilə M.P.Vaqifin yaşayıb yaratdığı Qarabağ xanlığının tarixinin canlandırılması nəzərdə tutulur.

Təqvimdə Molla Pənah Vaqifin həyat və fəaliyyətinə dair zəngin məlumatlar öz əksini tapmışdır.

2017

KBT Я25
UOT (059)

Baş redaktor: **Kərim Tahirov,**
professor,
Əməkdar mədəniyyət işçisi

Məsul katib: **Nailə Alışova**

Redaktor: **Gülbəniz Səfərəliyeva,**
Əməkdar mədəniyyət işçisi

Əlamətdar və tarixi günlər təqvimi - 2017 /M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; baş red. K.Tahirov; red. G.Səfərəliyeva; məsul katib N.Alışova.- Bakı, 2016.- 420 s.

ISBN 978 9952 504 47 7

© Azərbaycan Milli Kitabxanası, 2016.

Təqvim - 2017

Təqvimdə 2017-ci ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlər haqqında məlumatlar və əlamətdar hadisələr aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq; Musiqi. Opera. Balet; Teatr. Kino; Milli Qəhrəmanlar; Siyasət. Hərbi iş; Tarix; Fəlsəfə. İqtisadiyyat. Hüquq; Mədəniyyət. Maarif. Təhsil; İdman; Coğrafiya. Geologiya; Riyaziyyat. Fizika. Astronomiya; Kimya. Biologiya. Tibb; Texnika; Kitabxanaşünaslıq. Biblioqrafiya; Tarixdə bu gün.

Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, eləcə də tarixi hadisələr haqqında məlumatlar daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin başvermə tarixi göstərilmişdir.

2017-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, təqvimin sonunda isə ***köməkçi əlifba göstəric****isi* tərtib edilmişdir.

Təqvim materialları üçün ədəbiyyat seçilərkən ən yeni və məzmunca uyğun kitablara, jurnal və qəzet məqalələrinə, ən çox müraciət olunan internet resurslarına və Milli Kitabxananın nəşrlərinə üstünlük verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, fikir və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
E-mail: metodik@anl.az

Xoruz ili

Yaponiyada və digər Şərq ölkələrində qəbul edilmiş təqvimə əsasən 12 illik dövr daxilində hər bir il müəyyən heyvan işarəsi altında keçir. Şərqdə çox məşhur olan bu təqvimə əsasən 2017-ci il Xoruz (ədabaz) ilidir. Xoruz ilində dünyaya gələnlərin xarakteri aşağıdakı kimidir:

Xoruz xəyalpərvərdir. O, ağzına gələni danışmaqdan çəkinmir və bəzən özünü təcavüzkar aparır. Açıqürəkli və səmimi olub sözü üzə deyəndir. Düşündüyünü deyir. Bu, Xoruzu eqoizmə aparır. Başqalarının zəifliklərini bağışlamır, güzəştə getmir; elə ona görə də diplomatik karyeraya doğru yola bağlıdır.

Xoruz mühafizəkardır. Hətta özünə ziyanlı olsa da, tamamilə haqlı olduğunu güman edir. Heç kimə etibar etmir, yalnız özünə bel bağlayır. Eyni zamanda səxavətlə məsləhətlər verir.

Xoruz mücərrəd, boş xəyallara qapılaraq özünü qəhrəman kimi təsəvvür edir. O, filosofdur, ancaq burnundan uzağı görmür.

Xoruz utancaq deyil, əksinə igid və cəsarətlidir. Lazım gəlsə öz həyatını riskə qoya bilir. Ondan yaxşı döyüşçü çıxır.

Əslində lovğa olub, iş görməkdən daha çox danışır. İntim münasibətlərdən daha çox cəmiyyət arasında zahirən parlamağa üstünlük verir. Böyük zəhmətkeşdir. Çox vaxt öhdəsinə gücü çatandan artıq iş götürür.

Xoruz pulu ağır əməklə qazanır.

Uğurlu fəaliyyət sahəsinə düşsə, var-dövlət də qazana bilər.

Xoruz hamının diqqət mərkəzində olmağı sevir. Çox xəyalpərvər olsa, avara-filosofa çevrilər ki, bu da özünə diqqəti cəlb etməyin bir üsuludur.

Xoruz kənd təsərrüfatına meyillidir, insanlarla işləməyi sevir. Çox bədxərcdir; qazandığını daima xərcləyir. Çox vaxt müflisləşmə, yoxsullaşma ilə üzləşir. Heç vaxt qənaətcil ola bilmir.

Sevgidə istədiyi adamı çətinliklə əldə edib saxlaya bilir.

Kişi-Xoruz qadınların cəmiyyətini xoşlayır.

Xoruz ailəcanlı və mühafizəkar Öküzlə xoşbəxt olacaq. O, İlanla birlikdə filosofluq edəcək. Əgər vasitəçi ilə hərəkət etsə Əjdahadan və xüsusilə bu Əjdaha-qadındırsa, tamamilə ondan razı qalacaq. Pişikdən uzaq qaçmalıdır. O, Xoruzun ədabazlığına nifrət edir.

Xoruzun həyatının hər üç mərhələsində həm maliyyə cəhətdən, həm də hissiyyat baxımından qabarma və çəkilmələr olacaq. Onun həyatı yoxsulluqdan zənginliyə doğru, ideal məhəbbətdən sevginin ən yaramaz təzahürlərinə qədər dəyişəcək. Lakin qocalığı xoşbəxt olacaq.

Ə d ə b i y y a t

Xoruz ili //Ulduzlar və talelər.- Bakı, 2010.- S.142.

Xoruz ili //Ulduz falları: Druidlərin falı. Qərb zodiak falı. Şərq Yapon falı. Şərq Çin falı /tərc. ed.: İ.İsgəndərov, M.İsgəndərova; red. T.Məmmədov.- Bakı, 2006.- S.76-77.

Xoruz ili //Bürclər taleyimizdən xəbər verir /tərc. və tərt. ed. R.Nəbioğlu.- Bakı, 2010.- S.146-147.

YANVAR

22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamıdır. Metalı dəmir, uğurlu rəngi tünd-yaşıl, qara, göy, uğursuz rəngi ağdır. Uğurlu daşı rubin, oniks, enerji verən çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

B.	1
B.E.	2
Ç.A.	3
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	8
B.E.	9
Ç.A.	10
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	17
Ç.	18
C.A.	19
C.	**20**
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	24
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	29
B.E.	30
Ç.A.	31

- *Yeni il (01.01)*
- ***Ümumxalq hüzn günü (20.01.1990)***
- *Azərbaycanın ATƏT-ə üzv qəbul olunmasının (30.01.1992) 25 illiyi*
- *Gömrük İşçiləri Günü (30.01.1992)*

300 il Molla Pənah Vaqif 1717-1797

Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də, ümumiyyətlə, ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi.

Molla Pənah Vaqif Azərbaycan xalqının fəxri, böyük şairimizdir.

Heydər Əliyev,
Azərbaycan xalqının ümummilli lideri

YANVAR

2017

Milli ədəbiyyat

Yazıçı Qasımov Əlfi Səhlik oğlunun (05.01.1927-12.03.1985) anadan olmasının 90 illiyi 9

Əməkdar incəsənət xadimi, yazıçı Babanlı Vidadi Yusif oğlunun (05.01.1927) anadan olmasının 90 illiyi 10

Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Axundlu Yavuz İbrahimxəlil oğlunun (07.01.1927) anadan olmasının 90 illiyi

Yazıçı, tənqidçi, pedaqoq Sadıqzadə Hüseyn Mirkazım oğlunun (Seyid Hüseyn) (25.01.1887-01.08.1938) anadan olmasının 130 illiyi 11

Filologiya elmləri doktoru, professor, tənqidçi Məmmədli Cahangir Əbdüləli oğlunun (26.01.1942) anadan olmasının 75 illiyi

Folklor

Aşıq Hacıyev Şakir Şahverdi oğlunun (Aşıq Şakir) (24.01.1922-10.04.1979) anadan olmasının 95 illiyi 12

Dünya ədəbiyyatı

Fransız dramaturqu Molyer Jan Batistin (15.01.1622-16.02.1673) anadan olmasının 395 illiyi

Beynəlxalq Sülh mükafatı laureatı, türk şairi, ictimai xadim Nazim Hikmət Ranın (20.01.1902-03.06.1963) anadan olmasının 115 illiyi 13

Rus yazıçısı Katayev Valentin Petroviçin (28.01.1897-12.04.1986) anadan olmasının 120 illiyi

Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar inşaatçı Ələsgərov Hənifə Əlisgəndər oğlunun (01.01.1912-1991) anadan olmasının 105 illiyi

Rəssam, boyakar və qrafika ustası Kəngərli Bəhruz (Şamil) Şirəlibəy oğlunun (22.01.1892-07.02.1922) anadan olmasının 125 illiyi 14

Əməkdar memar Fərəcov Fərəc Səttar oğlunun (27.01.1912-07.09.1990) anadan olmasının 105 illiyi

Musiqi. Opera. Balet

Xalq artisti, professor, pianoçu Səfərəliyeva Kövkəb Kamil qızının (03.01.1907-27.06.1985) anadan olmasının 110 illiyi 15

Naxçıvan MR-nın Əməkdar artisti, müğənni Qubadov Hüsnü Baba oğlunun

(04.01.1922-13.08.1991) anadan olmasının 95 illiyi
Əməkdar incəsənət xadimi, tarzən Mansurov Mirzə Mansur Məşədi Məlik oğlunun (05.01.1887-30.06.1967) anadan olmasının 130 illiyi 16
Əməkdar incəsənət xadimi, musiqişünas Abasova Elmira Əbdülhəmid qızının (10.01.1932-12.02.2009) anadan olmasının 85 illiyi 17
Xalq artisti, rəqqasə Məlikova Afaq Süleyman qızının (18.01.1947) anadan olmasının 70 illiyi 18
Xalq artisti, dirijor Abdullayev Kamal Cahanbaxış oğlunun (18.01.1927-05.12.1997) anadan olmasının 90 illiyi
Xalq artisti, rəqqas Məmmədov Böyükağa Mircəfər oğlunun (23.01.1927) anadan olmasının 90 illiyi 19
Xalq artisti, balerina Vəkilova Leyla Məhəd qızının (29.01.1927-20.02.1999) anadan olmasının 90 illiyi 20
Avstriya bəstəkarı Şubert Frans Peterin (31.01.1797-19.11.1828) anadan olmasının 220 illiyi

Teatr. Kino

Xalq artisti, aktyor Mirzəyev Mikayıl Şahvələd oğlunun (Mikayıl Mirzə) (01.01.1947-03.06.2006) anadan olmasının 70 illiyi 21
Xalq artisti Zeynalov Eldəniz Məmməd oğlunun (01.01.1937-05.11.2002) anadan olmasının 80 illiyi 22
SSRİ Xalq artisti Hacıyev İsmayıl Yusif oğlunun (İsmayıl Dağıstanlı) (06.01.1907-01.04.1980) anadan olmasının 110 illiyi 23

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Mirzəyev Şirin Vəli oğlunun (05.01.1947-09.09.1992) anadan olmasının 70 illiyi 24
Azərbaycanın Milli Qəhrəmanı Səfərov Cəlil Əziz oğlunun (28.01.1962-15.05.1992) anadan olmasının 55 illiyi 25

Siyasət. Hüquq. Hərbi iş

Əməkdar həkim, tibb elmləri doktoru, professor Əliyev Əziz Məmmədkərim oğlunun (01.01.1897-27.07.1962) anadan olmasının 120 illiyi 26
Hüquq elmləri doktoru, professor Mövsümov Cəfər Hacı Həsən oğlunun (01.01.1927-22.05.2005) anadan olmasının 90 illiyi
Dövlət xadimi Axundov Ruhulla Əli oğlunun (01.01.1897-21.04.1938) anadan olmasının 120 illiyi
Görkəmli dövlət xadimi Rəfibəyli Xudadat bəy Ələkbər bəy oğlunun (12.01.1877-01.06.1920) anadan olmasının 140 illiyi 27
ABŞ dövlət xadimi Ruzvelt Franklin Delanonun (30.01.1882-12.04.1945) anadan olmasının 135 illiyi

Tarix

Akademik Sumbatzadə Əlisöhbət Sumbat oğlunun (21.01.1907-28.01.1992) anadan olmasının 110 illiyi 28

Fəlsəfə. İqtisadiyyat

Akademik Məlikov Firuz Əli oğlunun (07.01.1902-12.11.1965) anadan olmasının 115 illiyi
Akademik Babayev Məhərrəm Pirverdi oğlunun (13.01.1937) anadan olmasının 80 illiyi 29
Görkəmli neftçi, professor Tağıyev Eyyub İsmayıl oğlunun (27.01.1912-1967) anadan olmasının 105 illiyi

Riyaziyyat. Fizika. Astronomiya

Akademik Quliyev Hətəm Hidayət oğlunun (06.01.1947) anadan olmasının 70 illiyi

Coğrafiya. Geologiya

Akademik Məmmədov Qərib Şamil oğlunun (06.01.1947) anadan olmasının 70 illiyi 30
Akademik Qaşqay Mirəli Seyidəli oğlunun (07.01.1907-23.04.1977) anadan olmasının 110 illiyi 31
Akademik Məmmədov Pərviz Ziya oğlunun (12.01.1937) anadan olmasının 80 illiyi

Kimya. Biologiya.Tibb

Biologiya elmləri doktoru, professor Ağabəyli Rəna Ağaxan qızının (03.01.1942) anadan olmasının 75 illiyi
Akademik Salmanov Məmməd Əhəd oğlunun (12.01.1932) anadan olmasının 85 illiyi 32
AMEA-nın müxbir üzvü Babanlı Məhəmməd Baba oğlunun (22.01.1952) anadan olmasının 65 illiyi
Tibb elmləri doktoru, professor Axundov İsmayıl Əbdülxalıq oğlunun (25.01.1897-22.03.1952) anadan olmasının 120 illiyi

Mühəndis işi. Texnika

AMEA-nın müxbir üzvü, Əməkdar mühəndis Abdullayev Əsgər Ələkbər oğlunun (01.01.1927-1998) anadan olmasının 90 illiyi 33
Əməkdar mühəndis Əzizov Tofiq Müseyib oğlunun (18.01.1932-1998) anadan olmasının 85 illiyi

Tarixdə bu gün

Yeni il (01.01) 34
Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə diplomatik əlaqələr qurmasının (07.01.1992) 25 illiyi
Krasnovodskdan Bakıya üzən sərnişin bərəsinin erməni terrorçuları tərəfindən partladılması nəticəsində 25 nəfər ölmüş, 88 nəfər yaralanmışdır (08.01.1992)

Dünya Qoruqlar və Milli Parklar Günü (11.01.)
"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun qüvvəyə minməsinin (14.01.1992) 25 illiyi
Azərbaycan Milli Olimpiya Komitəsinin təsis edilməsinin (14.01.1992) 25 illiyi 35
Ümumxalq hüzn günü (20.01.1990) 36
ABŞ-ın Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımasının (23.01.1992) 25 illiyi
Şuşa yaxınlığında Daşaltı əməliyyatı keçirilmişdir (26.01.1992)
1992-ci ildən ABŞ-da Azərbaycana qarşı tətbiq edilən qadağının - "Azadlığa Dəstək Aktı"na 907 saylı düzəlişin qüvvədən düşməsi barədə sənəd imzalanmışdır (26.01.2002)
"Ağdam-Şuşa" marşrutu ilə uçan "Mİ-8" mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vurulmuşdur (28.01.1992)
Gömrük İşçiləri Günü (29.01.1992)
Azərbaycanın ATƏT-ə üzv qəbul olunmasının (30.01.1992) 25 illiyi
Şamaxıda böyük dağıntı və tələfat törədən zəlzələnin (31.01.1902) 115-ci ildönümü 37

90 illiyi

Əlfi Qasımov 1927-1985

Yazıçı

Əlfi Səhlik oğlu Qasımov 1927-ci il yanvar ayının 5-də Ağdam rayonunun Poladlı kəndində anadan olmuşdur. Şelli-Qaradağlı kəndinin yeddiillik məktəbini bitirdikdən sonra Ağdam Pedaqoji Texnikumunda təhsil almışdır. 1943-1944-cü illərdə Ağcabədi rayonunda Xocavənd və Boyad kənd məktəblərində müəllim işləmişdir.

1944-1946-cı illərdə Ağdamda ikiillik Müəllimlər İnstitutunda təhsilini davam etdirmiş, 1946-cı ildə ADUnun jurnalistika fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra "Azərbaycan müəllimi" qəzetində xüsusi müxbir, şöbə müdiri və redaktor müavini vəzifələrində işləmişdir. 1958-1966-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetində məsul katib, 1966-1983-cü illərdə Azərbaycan SSR Dövlət Poliqrafiya, Nəşriyyat və Kitab Ticarəti İşləri Komitəsində nəşriyyatlar idarəsinin rəisi, baş redaktor vəzifələrində çalışmışdır. 1956-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

1983-cü ilin fevralından ömrünün sonuna kimi Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri vəzifəsində işləmişdir. Uzun müddət Azərbaycan Dövlət Televiziyasında "Kitablar aləmi" verilişinin aparıcısı olmuşdur.

Əlfi Qasımov ədəbi yaradıcılığa ilk dəfə 1945-ci ildə Ağdamda Müəllimlər İnstitutunda oxuyarkən başlamış, "Xalq arzusu" adlı ilk şeiri Ağdamda çıxan "Lenin yolu" qəzetində dərc edilmişdir. Universitetdə oxuduğu illərdə də Ə.Qasımovun şeirləri respublikanın müxtəlif qəzet və jurnallarında çap edilmişdir.

Yazıçının "Əriməzin ətəklərində" adlı ilk oçerklər kitabı 1954-cü ildə çapdan çıxmış, sonralar "Şagird briqadaları" (1960), "Odlu ürək" (1962), "Dnepr qəhrəmanı" (1963), "Ulduz karvanı" (1967), "Saçlar ağarsa da" (1970) adlı kitabları nəşr olunmuşdur.Əlfi Qasımov, həmçinin, "Adilənin taleyi" romanının (1960), "Məni qınamayın" (1968) adlı povest və hekayələr kitabının, "Qızburunda tək məzar" (1970) adlı sənədli povestin və s. əsərlərin müəllifidir.

Yazıçının çoxsaylı oçerk, hekayə, povest və roman kitabları, həmçinin tərcümələləri və tərtib etdiyi digər kitabları nəşr olunub. Əsərləri rus, qırğız, türkmən və tacik dillərinə tərcümə edilib.

Görkəmli yazıçı Əlfi Qasımov 1985-ci il mart ayının 12-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

İnsan qaranquş deyil: povestlər və hekayələr /Əlfi Qasımov.- Bakı: Gənclik, 1981.- 962 s.

Toy gecəsi: romanlar /Əlfi Qasımov; [red. O.Salamzadə].-Bakı: Yazıçı, 1985.- 382, [2] s.

Vətən çağıranda: sənədli hekayələr /Əlfi Qasımov; [red. Z. Qiyasbəyli].- Bakı: Azərnəşr, 1975.- 225 s.

Quliyeva, S. Müasir Azərbaycan nəsrində sosial-psixoloji və mənəvi-əxlaqi problemlərin bədii inikası (Əlfi Qasımovun yaradıcılığı əsasında): filol. e. üzrə fəls. d-ru al. dər. a. üçün təq. ol. dis-nın avtoreferatı: 10.01.01 /S.Ş.Quliyeva; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı, 2010.- 27 s.

Əlfi Qasımov //Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): Ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.266.

Unutmadığımız qəhrəman obrazlarının müəllifi: 80-ci illərin nostaljisini yaşadanlardan biri //Azadlıq.- 2013.- 18 may.- S.14.

İ n t e r n e t d ə

http://www.azadliq.info/30815.html

https://az.wikipedia.org/wiki/Əlfi_Qasımov

90 illiyi

Vidadi Babanlı 1927

Yazıçı

Ə d ə b i y y a t

Bulanlıq dünya: roman /V.Babanlı.- Bakı: Şərq-Qərb, 2011.- 347 s.

Qəribə eşq: roman /V.Babanlı.-Bakı: Çinar-Çap, 2007.-220 s.

Seçimli şeirlər /V.Babanlı; Rəyçi və ön sözün müəllifi N.Cəfərov.- Bakı: Pedaqogika, 2007.-160 s.

Vicdan susanda: roman /V.Babanlı.- Bakı: Çaşıoğlu, 2009.- 629 s.

Vidadi Babanlı //Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): Ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.919.

Vidadi Babanlı //Qazaxdadır: Qazax şair, yazıçı və aşıqları /red. T.Əhmədov.- Bakı, 2007.- S.130-135.

İ n t e r n e t d ə

haqqinda.az/Şairlər.../3307-Vidadi+Babanlı.htm...

http://ek.anl.local:8080/search/query?term_1=babanl%C4%B1+v&theme=e-kataloq

https://az.wikipedia.org/wiki/Vidadi_Babanlı

Vidadi Yusif oğlu Babanlı 1927-ci il yanvar ayının 5-də Qazax rayonunun Şıxlı (indiki Muğanlı) kəndində, müəllim ailəsində doğulmuşdur. Kənddə orta məktəbi bitirdikdən sonra 1944-1949-cu illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. Bir il Sabirabad şəhər orta məktəbində müəllim işləmiş, Bakıya köçdükdən sonra "Azərbaycan müəllimi" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsində çalışmışdır.

Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almağa göndərilmiş, aspiranturaya daxil olsa da, səhhəti üzündən təhsilini yarımçıq qoyaraq Bakıya qayıtmalı olmuşdur.

1954-1960-cı illərdə "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi, sonra isə şöbə müdiri vəzifəsində işləmişdir.

1961-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında Nəsr şöbəsinə başçılıq etmiş, 1974-1976-cı illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının Dublyaj şöbəsində baş redaktor əvəzi, 1978-1981-ci illərdə "Yazıçı" nəşriyyatında baş redaktor müavini olmuşdur.

Ədəbi fəaliyyətə 1947-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilmiş "Anam sən oldun" şeiri ilə başlamışdır. "Dönüş", "Təbrizdə bir gecə" poemaları dövri mətbuatda "Vidadi Şıxlı" təxəllüsü ilə çap olunmuşdur.

1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

1954-cü ildə nəşr edilən "Gəlin" povesti ilə nəsr yaradıcılığına başlamış, roman, povest, hekayə, oçerk, publisistik məqalələr, kinossenarilər qələmə almışdır. "Vicdan susanda" romanı ona böyük şöhrət gətirmişdir.

Əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. 2003-cü ildə "Öz evində qonaq" pyesi tamaşaya qoyulmuşdur.

Şeirləri dövri mətbuatda müntəzəm çap olunur. 2002-ci ildə "Kişilik haqqında himn" şeirlər toplusu "Xəzər" nəşriyyatında kütləvi tirajla nəşr edilmişdir. "Dərd məni dilləndirir" (2003) publisistik əsərlər toplusu, "Mənim gizlinlərim" (2002-2003) avtobioqrafik romanı, "Ana intiqamı" (1995) povesti rəğbətlə qarşılanıb.

Yazıçı eyni zamanda tərcüməçiliklə də məşğul olmuş Valentin Rasputinin "Mariyaya pul lazım idi", "Sonuncu şöhrət" əsərlərini rus dilindən dilimizə tərcümə etmişdir.

İspaniya, Fransa, İtaliya, Almaniya, Polşa və bir sıra xarici ölkələrdə ezamiyyələrdə, yaradıcı səfərlərdə olmuşdur.

Vidadi Babanlı 1977-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş, 1986-cı ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2002-ci ildən Prezident təqaüdçüsüdür.

130 illiyi

Seyid Hüseyn 1887-1938

Yazıçı

Ə d ə b i y y a t

Hekayələr /S.Hüseyn; [red. M.Zeynalova].-Bakı: Gənclik, 1977.- 182 s.

Həzin bir xatirə: hekayələr /S.Hüseyn.-Bakı: Gənclik, 1973.-76 s.

İki həyat arasında /S.Hüseyn.- Bakı: Gənclik, 1987.- 124 s.

Kənan, A. Bir ailənin faciəsi //Kənan A. XX əsrdə repressiyaya məruz qalanlar /red. və ön sözün müəl. N.Şəmsizadə.- Bakı, 2011.- S.142-151.

Nəhmətova, K. Seyid Hüseyn: Arzular, ümidlər, iztirablar //Nəhmətova K. Bir ömrün qəlpələri: Seyid Hüseynin qardaşı Mir Paşa /elmi red. L.Əlizadə.- Bakı, 2015.- S.63-72.

Seyid Hüseyn //Azərbaycan nəsri antologiyası: 5 cilddə /tərt. ed. Z.Əsgərli.- Bakı, 2006.- C.III.- S.37-53.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Seyid_Hüseyn_Sadiq

www.azadliq.info/8087.html

http://ek.anl.local:8080/search/query?term_1=seyid+h%C3%BCseyn&theme=e-kataloq

Seyid Hüseyn (Hüseyn Mir Kazım oğlu Sadıqzadə) 1887-ci il yanvar ayının 25-də Bakı şəhərində, dənizçi ailəsində anadan olmuşdur. Beş yaşında atasını itirən Seyid, babası Mirsadiq Mirhəsənin himayəsində böyüyüb tərbiyə almışdır. Əvvəl mollaxanada, sonra dövrünün görkəmli maarif xadimlərindən olan Mahmud bəy Mahmudbəyovun açdığı "Rustatar" məktəbində dörd ilə yaxın təhsil alaraq, Azərbaycan, rus, fars dillərini mükəmməl öyrənmişdir.

1904-cü ildə – babasının vəfatından sonra ailənin qayğısı S.Hüseynin üzərinə düşdüyündən, o, XX əsrin əvvəllərində "Kaspi" və "Tazə həyat" qəzetlərinin mətbəələrində mürəttiblik etmişdir. "Bəhlul", "Kəlniyyət" jurnallarının naşiri, 1913-1914-cü illərdə "İqbal" qəzetinin baş redaktoru olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Seyid Hüseyn ibtidai və orta məktəblərdə, texnikumlarda Azərbaycan dili və ədəbiyyatı fənnlərini tədris etmiş, həmçinin "Kommunist" qəzeti, "Şərq qadını" jurnalının redaksiyalarında və Azərbaycan Dövlət Nəşriyyatında Bədii ədəbiyyat şöbəsinin redaktoru vəzifələrində işləmişdir.

Seyid Hüseyn bədii yaradıcılığa 1907-ci ildə yazdığı "Ata və oğul" hekayəsi ilə başlamışdır. XX əsrin əvvəllərində, əsasən tənqidçi kimi fəaliyyət göstərən ədib 1920-ci ildən sonra daha çox nəsr əsərləri yazmağa başlamış, qəzet və jurnallarda məqalə və felyetonları ilə çıxış etmişdir. Mətbuatda "Kazımoğlu", "Hüseyn Sadiq", "Seyid Hüseyn Sadıqzadə", "Mühərrir" və b. imzalarla fəaliyyət göstərmişdir. Onun "Gələcək həyat yollarında", "Şirinnaz", "İki həyat arasında", "Yatmış kəndin qış gecələrində", "Gilan qızı" povest və hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanır. "Altun", "Yalan", "Gözəllik nədir?" və s. məqalələri isə öz aktual mövzuları ilə oxucuların diqqətini cəlb edir. Müəllifin müxtəlif illərdə: "Ağ valideyn, yaxud zavallı Məşədi Zaman" (1911), "Qaçaq oğul, yaxud ata məhəbbəti" (1915), "Yeni həyat yollarında" (1928) və s. kitabları nəşr edilmişdir.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Azərbaycan ədəbiyyatının bir çox görkəmli xadimləri kimi repressiya dalğası ondan və ailəsindən də yan keçməmişdir. 1936-cı ildə Seyid Hüseyn Yazıçılar İttifaqının üzvlüyündən çıxarılmış, əsərləri kəskin tənqid olunaraq, onlara siyasi rəng verilmiş, adına "xalq düşməni" damğası vurulmuşdur. 1937-ci ildə "Əksinqilabçı milliyyətçi fəaliyyətinə görə" həbs olunmuş və üzücü istintaqlardan sonra SSRİ Ali məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə 1938-ci ildə güllələnmişdir.

95 illiyi

Aşıq Şakir 1922-1979

Aşıq-şair

Şakir Şahverdi oğlu Hacıyev (Aşıq Şakir) 1922-ci il yanvar ayının 24-də Ağsu rayonunun Xəlilli kəndində anadan olmuşdur. 1939-cu ildə Ərəbmehdibəy kənd məktəbinin 8-ci sinfini bitirmişdir. Şakirin lap kiçik yaşlarından aşıq sənətinə böyük həvəsi olduğunu hiss edən atası onu göyçaylı Aşıq Mürsələ şəyird vermişdir.

1941-1945-ci illər Böyük Vətən müharibəsində və Sovet-yapon müharibəsində iştirak etmiş, 1947-ci ildə ordudan tərxis olunduqdan sonra Kürdəmirə gələrək rayon mədəniyyət evində işə başlamışdır. Aşıq sənəti ilə məşğul olmuş, məlahətli səsi, gözəl ifaları ilə qısa müddətdə tanınaraq şöhrətlənmişdir.

Aşıq Şakir 1955-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. O, aşıq kimi yeganə şəxs idi ki, deputatlıq mandatı ona nəsib olmuşdur.

1961-ci ildə Azərbaycan aşıqlarının III qurultayına nümayəndə seçilmişdir. Azərbaycanın sənət korifeylərinin - Bülbülün, Fikrət Əmirovun, Niyazinin, Mirzə İbrahimovun iştirak etdiyi qurultayda Aşıq Şakir də məruzə ilə çıxış etmişdir.

Ustad Aşıq Şakir iki dastanın, 20-yədək qoşma, gəraylı və müxəmməsin müəllifidir. Sənət möhürü vurduğu Azərbaycan radiosunun "Qızıl Fondu"nda saxlanılan "Kəndimiz" mahnısının xoş sədaları bugünümüzə kimi toyların-məclislərin, el şənliklərinin bəzəyidir. Təkcə bu mahnı deyil, ilk dəfə ustad Aşıq Şakirin ifasında "Nərgiz", "Nə bağ bildi, nə də bağban", "Maral", "Şirvan şikəstəsi", "İnciməsin" (buna "Şakir gözəlləməsi" də deyirlər), "Səhər-səhər" və s. kimi onlarca məlahətli, şux mahnılar eşidənləri məftun etmişdir.

1957 və 1960-cı illərdə Bakıda nəşr olunmuş "Aşıqlar", 1970-ci ildə çapdan çıxmış "Aşıq sözü" kitablarında Aşıq Şakirin onlarla şeir və qoşması dərc edilmişdir.

Azərbaycanın Moskvada keçirilən mədəniyyət və incəsənət ongünlüklərində istedadlı sənətkar kimi Aşıq Şakir də respublikamızı layiqincə təmsil edərək yüksək mükafatlara layiq görülmüşdür.

Azərbaycan mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə 1950-ci ildə Azərbaycan Respublikası Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsi tərəfindən aşıq Şakirə "Xalq aşığı" fəxri adı verilmiş, 1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. Həmin il Aşıq Şakir Ümumittifaq özfəaliyyət incəsənət festivalının respublika baxışında, eləcə də 1972-ci ildə keçirilmiş respublika miqyaslı təntənəli müsabiqədə I dərəcəli diplomla təltif olunmuşdur.

Şakir Şahverdi oğlu Hacıyev 1979-cu il aprel ayının 10-da, 57 yaşında vəfat etmişdir.

Yaşadığı küçəyə, eləcə də Kürdəmir rayonundakı mədəniyyət evlərindən birinə ustadın adı verilmişdir.

Ədəbiyyat

Abdullayev, T. Getməz qulaqlardan səsi Şakirin /T.Abdullayev //Mədəni həyat.-2014.- № 4.- S.27-30.

Abdullayev, T. "...Şakirəm, hüsnünə min dastan qoşum..." /T.Abdullayev //Azərbaycan.- 2012.- 12 aprel.- S.7.

Babadağlı, M. Aşıq Şakir ədəbi xatirələrdə //Babadağlı M. Şairlər dastanı /red. A.Musa.- Bakı, 2013.- S.175-184.

Fərəcov, S. Unudulmaz aşıq-xanəndə /S.Fərəcov //Mədəniyyət.- 2014.- 14 may.- S.15.

Sayılov, Q. Aşıq Şakir Hacıyev //Sayılov Q. XX əsr Şirvan aşıqları /elmi red. A.Xəlil; AMEA Folklor İn-tu.-Bakı, 2007.- K.I.- S.53-57.

İnternetdə

http://ek.anl.local:8080/lib/hamo:84693&theme=e-kataloq

video.net.az/movie/1bJIcSZ09Ns

news.milli.az/culture/108212.html

115 illiyi

Nazim Hikmət 1902-1963

Türk yazıçısı

Ədəbiyyat

Seçilmiş əsərləri /N.Hikmət; tərt. ed. A.Babayev; ön söz müəl. Anar; bədi tərtibat və dizayn müəl. T.Qorçu.- Bakı: Şərq-Qərb, 2009.- 517 s.

Abdulla, A. Gördüyüm və sevdiyim Nazim Hikmət /A.Abdulla.- Bakı: Elm və təhsil, 2014.- 43 s.

Anar. Zəfərin mübarək, Nazım! /Anar; red. E.İsgəndərzadə.- Bakı: Vektor, 2014.- 94 s.

Özkan, H.S. Azərbaycan ədəbiyyatında Nazim Hikmət: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 5717.01 /H.S.Özkan; AMEA, akad. Z.M.Bünyadov ad. Şərqşünaslıq İn-tu.- Bakı, 2015.- 29 s.

Tulyakova-Hikmət, V. Nazimlə son söhbət /V.Tulyakova-Hikmət; rus-cadan tərc. N.Ağayeva.- [Bakı]: [Qanun], [2013].- 439 s.

İnternetdə

portal.azertag.az/node/2167

https://az.wikipedia.org/wiki/Nazim_Hikmət

Nazim Hikmət Ran 1902-ci il yanvar ayının 15-də Salonikidə, zadəgan ailəsində anadan olmuşdur. 1918-ci ildə İstanbulda Hərbi Dənizçilik məktəbinə daxil olmuş, Türkiyənin xarici müdaxiləçilər tərəfindən işğalı əleyhinə şeir yazdığı üçün 1919-cu ildə məktəbdən xaric edilmişdir.

"Sərvliklərdə" adlı ilk şeiri 1918-ci ildə "Yeni məcmuə" jurnalında dərc edilmişdir. 1920-ci ildə o, işğal olmuş İstanbuldan milli azadlıq uğrunda vuruşan Anadoluya, 1921-ci ildə Sovet Rusiyasına getmiş və 1922-1924-cü illərdə Moskvada Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində oxumuşdur.

1924-cü ildə Türkiyəyə qayıdaraq, inqilabi "Oraq-çəkic" qəzetində, "Aydınlıq" jurnalında Lenin ideyalarını tərənnüm edən əsərlərlə çıxış etmişdir. Həmin orqanlar bağlandıqdan sonra təqib olunan və 1925-ci ildə qiyabi surətdə 15 il həbsə məhkum edilən Nazim Hikmət 1927-ci ildə yenidən gizli olaraq SSRİ-yə qayıtmışdır.

Bakıda "Günəşi içənlərin türküsü" adlı ilk şeirlər kitabı nəşr olunmuşdur.

1938-ci ildə Türkiyəyə qayıtmış və 8 ay həbsdə saxlanılmışdır. 1929-1932-ci illərdə yazdığı "835 sətir", "Baron-3", "1+1=1", "Səsini itirmiş şəhər" kitabları, "Cokonda və Şi-Ya–u" poeması, "Benerci özünü niyə öldürdü" mənzum romanı ilə imperializmin müstəmləkə siyasətinə qarşı çıxmışdır. 1932-ci ildə türk kommunistlərini yekdil mübarizəyə səsləyən "Gecə gələn teleqram" şeir toplusuna görə yenidən 5 il həbs cəzasına məhkum olunmuş, bir il sonra amnistiya əsasında azad edilsə də, 1938-ci ildə sübut olunmamış ittiham əsasında 28 il 4 ay həbs cəzasına məhkum edilmişdir. Həbsxanada məşhur "İnsan mənzərələri" epopeyasını, "Həbsxanadan məktublar" silsiləsini, "Məhəbbət əfsanəsi", "Yusif və Züleyxa" pyeslərini və başqa əsərlərini yazmışdır.

1950-ci ildə əfv edilərək azadlığa buraxılan Nazim Hikmət SSRİ-yə köçmüş və bu dövrlərdə "Türkiyədə", "Qərib adam", "İvan İvanoviç vardımı, yoxdumu", "Domokl qılıncı" və başqa pyeslərini, şeir və poemalarını, poeziyaya və dramaturgiyaya dair məqalələrini qələmə almışdır. 1950-ci ildə Beynəlxalq Sülh Mükafatı laureatı olmuşdur. SSRİ-də Nazim Hikmətin ssenariləri və əsərlərinin süjetləri əsasında "Bir məhəlləli iki oğlan", "Sevdalı bulud", "Yaşamaq gözəldir, qardaşım", "Məhəbbətim, kədərim mənim" filmləri çəkilmişdir. Bəstəkar Arif Məlikov şairin "Məhəbbət əfsanəsi" pyesi əsasında eyniadlı balet yazmışdır.

Nazim Hikmət dəfələrlə Bakıya gəlmiş, Azərbaycan şair və yazıçılarının bir çoxu ilə şəxsən dost olmuş, onlarla yaradıcılıq əlaqəsi saxlamışdır. Əsərləri Azərbaycanda dönə-dönə nəşr olunmuş, pyesləri tamaşaya qoyulmuşdur.

Nazim Hikmət Ran 1963-cü ildə Moskva şəhərində ürək tutmasından vəfat etmiş və Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur.

125 illiyi

Bəhruz Kəngərli 1892-1922

Rəssam

Bəhruz (Şamil) Şirəlibəy oğlu Kəngərli 1892-ci il yanvar ayının 10-da Naxçıvanda anadan olmuşdur.

Uşaq ikən ciddi xəstəlik keçirən Kəngərli, ağır eşitdiyindən ümumtəhsil məktəbinə gedə bilməmiş, rəssamlığa meyl göstərmişdir. 1910-1915-ci illərdə Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki boyakarlıq və heykəltəraşlıq məktəbində oxumuşdur.

Bəhruz Kəngərlinin rəssam kimi püxtələşməsində Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının böyük rolu olmuşdur. Yaradıcılığının ilk dövründə müəllimi – mollanəsrəddinçi rəssam O.Şmerlinqin və tələbə yoldaşı L.D.Qudiaşvilinin portretlərini çəkmiş, karikatura və satirik rəsmlər, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və boyakarlıq əsərləri yaratmışdır ("Qoca kişi", "Toy", "Elçilik" və s.). Naxçıvan teatrında "Ölülər" (C.Məmmədquluzadə), "Hacı Qara" (M.F.Axundzadə), "Pəri-cadu" (Ə.Haqverdiyev) tamaşalarına bədii tərtibat və geyim eskizləri vermişdir.

1914-cü ilin iyununda rəssamın Naxçıvanda ilk böyük yaradıcılıq sərgisi açılmışdır. Cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmağa macal tapmış Bəhruz Kəngərli 2000-ə qədər rəsm əsəri yaratmışdır. O, realist ifadəliliyi, yüksək bədii-estetik dəyəri ilə diqqəti cəlb edən çoxlu portret, mənzərə, natürmort çəkmişdir. Bəhruz Kəngərli 1918-1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, azərbaycanlı qaçqınların portretlərindən ibarət "Qaçqınlar" silsilə əsərlərini yaratmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə(1918-1920)BəhruzKəngərli yaradıcılıqdan qalmır, boyakarlıq və qrafika əsərləri yaradır, rəssamlıq sənətini gənclərə öyrətmək, bu sənəti sevdirmək üçün xüsusi dərnək açır, fərdi sərgilərini təşkil edirdi.

1921-ci ildə Bakıda açılan ilk böyük sərgidə Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilmişdir. Əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskva Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır. Kəngərli həm də milli teatr rəssamlığının banilərindəndir.

A.Babayevin "Yarımçıq şəkil" pyesi Kəngərliyə həsr olunmuşdur.

Bəhruz Kəngərli 1922-ci il fevral ayının 7-də Naxçıvanda, 30 yaşında vəfat etmişdir.

2001-ci ildə Naxçıvan MR Ali Məclisi sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" sərəncamına əsasən, Naxçıvan şəhərində muzeyi yaradılmış, qəbirüstü abidəsi ucaldılmışdır.

Ə d ə b i y y a t

Bəhruz Kəngərli, 1892-1922 [İzomaterial]: rəngkarlıq, qrafika /layih. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. X.Əsədova.-Bakı: Sərvət, [Şərq-Qərb], 2013.-104 s.

Azərbaycan rəssamlıq sənətinin banisi //Azərbaycan incəsənəti. Təsviri sənət, dekorativ-tədbiqi sənət, memarlıq /tərt.: Z.Əliyev, A.Xəlilov; Azərb. Resp. Gənclər və İdman Nazirliyi, "Bizim Nəsil Gənclərin Regional inkişaf Assosiasiyası İctimai Birliyi".-Bakı, 2011.- C.II (X-Ö) [C.III (P-Z)].-S.5-12.

İsmayıl. Azərbaycanı kətana köçürən dahi...: Bəhruz Kəngərli milli rəssamlıq sənətimizi, rəsmlərdə azərbaycançılığı təbliğ edən ustaddır /İsmayıl //Şərq.-2014.- 31 oktyabr.- S.11.

İ n t e r n e t d ə

www.az.wikipedia.org
www.anl.az
www.elibrary.azlib.net
www.kitab.biz

110 illiyi

Kövkəb Səfərəliyeva 1907-1985

Pianoçu

Ədəbiyyat

Azərbaycan bəstəkarlarının polifonik pyesləri [Not]: fortepiano üçün /tərt. ed. K.Səfərəliyeva.-Bakı, 1970.- 17 s.
Qamma və arpeciolar [Not]: musiqi məktəblərinin şagirdləri üçün (f-no sinfi üzrə) /K.Səfərəliyeva.- Bakı: İşıq, 1982.- 68 s.
Qara Qarayevin seçilmiş əsərlərinin fortepiano üçün konsert işləməsi və köçürmələri [Not] /tərt. ed. və red. K.Səfərəliyeva.-Bakı: İşıq, 1980.-96 s.
Major və minor qammaları tersiyalarla orta ixtisas musiqi məktəblərinin yuxarı sinif şagirdləri üçün: f-no üçün /tərt. K.Səfərəliyeva; Ü.Hacıbəyov ad. Azərb. Dövlət Kons-sı.- Bakı: İşıq, 1977.- 24 s.
Маилова, А. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафар-Алиевой.- Баку: Адильоглы, 2003.-465с.

İnternetdə

www.anl.az
www.president.az

Kövkəb Kamil qızı Səfərəliyeva 1907-ci il yanvar ayının 3-də Bakı şəhərində anadan olmuşdur.

1915-ci ildə, səkkiz yaşında ikən Marinski adına ümumtəhsil məktəbinə daxil olmuş, eyni zamanda həm də fortepiano sinfində musiqi dərsləri almış, 1916-cı ildən təhsilini Musiqi texnikumunda davam etdirmişdir. 1926-cı ildə Kövkəb Səfərəliyeva Musiqi texnikumunu bitirmiş və Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Oxumaqla yanaşı, çox gənc olmasına baxmayaraq onu Türk qadın seminariyasına işə dəvət etmişlər. Kövkəb xanım Dövlət Konservatoriyasında Üzeyir bəylə tanış olmuş və uzun illər birgə fəaliyyət göstərmişlər. Təhsil illərində Üzeyir bəy onu konservatoriyanın nəzdində fəaliyyət göstərən birinci və ikinci dərəcəli hazırlıq siniflərində dərs deməyə dəvət etmişdir. 1926-1927-ci illərdə əvvəlcə təcrübəçi-pedaqoq kimi ümumi fortepiano fənnindən dərs demiş, 1928-ci ildən isə xüsusi fortepiano sinfində məşğələlər aparmağa başlamışdır.

Öz dövrünün dəyərli mütəxəssislərindən dərs alan bu istedadlı musiqiçi 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirərək, ali təhsil almış ilk professional Azərbaycan pianisti kimi tarixə düşmüşdür. Azərbaycanda fortepiano sənətinin yaranması və inkişafı onun adı ilə bağlıdır. 1952-ci ildə həmin tədris müəssisəsinin professoru olmuşdur.

Kövkəb Səfərəliyeva 1934-cü ildə Azərbaycan Opera və Balet Teatrında konsertmeyster vəzifəsinə dəvət almış, 1935-1936-cı illərdə Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında professor A.V.Şaskesanın sinfində təhsilini davam etdirmişdir.

Musiqi təhsilinin inkişafında böyük əməyi olan Kövkəb xanım 1937-ci ildə konservatoriyanın nəzdində orta ixtisas musiqi məktəbini (indiki Bülbül adına məktəb) yaratmış, 1937-1952-ci illərdə həmin məktəbə rəhbərlik etmişdir.

Kövkəb Səfərəliyeva bir sıra elmi-metodik dərsliklərin, fortepiano üçün külliyyatın tərtibçisi, musiqi haqqında məqalələrin müəllifidir.

Musiqiçi kadrlar hazırlanmasında, Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə 1972-ci ildə ona Azərbaycan SSR-in "Xalq artisti" fəxri adı verilmiş, 1977-ci ildə anadan olmasının 70 illik yubileyi münasibəti ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Kövkəb Səfərəliyeva 27 iyun 1985-ci ildə Bakıda vəfat etmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədilə Bakı şəhərindəki küçələrdən birinə onun adı verilmişdir.

130 illiyi

Mirzə Mansur 1887-1967

Tarzən

Mirzə Mansur Məşədi Məlik oğlu Mansurov 1887-ci il yanvar ayının 5-də (köhnə tarixlə yanvarın 17-də) Bakı şəhərində anadan olmuşdur. 11 yaşında Sınıq-qala məscidindəki mədrəsədə təhsil almış, burada fars dilini mükəmməl öyrənmişdir. Daha sonra atası Məşədi Məlik onu rus-tatar məktəbinə qoymuş, Mansur orada 4 il təhsil almışdır. Kiçik yaşlarından tar çalmağa başlayan Mirzə Mansurun atası Məşədi Məlik musiqi aləmi ilə sıx bağlı olmuşdur. Mansur evlərində tez-tez keçirilən Bakı muğam məclislərinin şahidi olmuş, birdəfəlik taleyini musiqiyə bağlamışdır. İlk tar dərslərini də o zamanın ən məşhur tarzəni Mirzə Fərəc Rzayevdən almışdır. İfa etdiyi ilk muğamlar da "Rast" və "Şur" muğamları olmuşdur.

Mirzə Mansur haqlı olaraq Azərbaycan muğam sənətinin tanınmış nəzəriyyəçisi kimi qəbul edilir. Peşəkar tarzən kimi o, Sadıqcan məktəbinin layiqli davamçısı idi.

Görkəmli tarzən 1920-ci ildən başlayaraq Üzeyir Hacıbəylinin təşkil etdiyi Dövlət Türk Musiqi Məktəbində, 1926-1946-cı illərdə isə Azərbaycan Dövlət Konservatoriyasında muğamdan dərs vermişdir. O, Üzeyir Hacıbəylinin təşəbbüsü ilə tar sinfi üçün ilk muğamların tədris proqramının tərtibçilərindən biri olmuşdur. Ü.Hacıbəyli Mirzə Mansuru istedadlı tarzən, müəllim, muğam sənətinin sirlərini bilən ifaçı kimi qiymətləndirmiş, hətta bəzi məsələlərlə bağlı Mirzə Mansurla məsləhətləşmişdir. Belə ki, muğamların nota salınmasında Üzeyir bəyin məhz Mirzə Mansur yaradıcılığına müraciət etməsi heç də təsadüfi olmamışdır. Axı, məhz Mansurovlar klassik muğamların ifaçılıq ənənələrini qoruyub saxlamışdılar. Üzeyir bəyin tapşırığı ilə gənc bəstəkarlar Tofiq Quliyev və Zakir Bağırov Mirzə Mansurun ifasından 1930-cu illərin ortalarında "Rast", "Dügah" və "Zabul" muğamlarını ilk dəfə nota salmışlar.

Mirzə Mansur tarın bütün incəliklərinə bələd idi. Ü.Hacıbəylinin təşəbbüsü ilə o, tar alətini təkmilləşdirmiş, tarın rekonstruksiyasına gətirdiyi yeniliklər ifaçıların işini xeyli asanlaşdırmışdır. Mirzə Mansurun yenilik verdiyi 4 tardan biri Ermitaj, ikincisi Luvr, üçüncüsü isə İstanbul muzeylərində qorunur. Sonuncu tarı isə özünə saxlamışdı.

Mirzə Mansurun tarda ifa etdiyi iki maqnitofon yazısı qalıb: "Xocəstə" və "Mahur-hindi" muğamları.

1940-cı ildə Mirzə Mansur Mansurova Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

Görkəmli tarzən və müəllim Mirzə Mansur 1967-ci il iyun ayının 30-da, 80 yaşında vəfat etmişdir. Bakı şəhərində, Yasamaldakı köhnə qəbiristanlıqda dəfn edilmişdir.

Ədəbiyyat

Mansurov, E. Mansurovlar: Azərbaycan Respublikasının Xalq artisti, görkəmli tarzən Bəhram Mansurovun anadan olmasının 100 illiyinə ithaf edilir /E.Mansurov; elmi red. İ.Rəhimli.- Bakı: Çaşıoğlu, 2011.- 285 s.

Əzimli, T. Ustad sənətkar Mirzə Mənsur haqqında xatirələr /T.Əzimli //Ədalət.- 2015.- 3 noyabr.- S.6.

Fərəcov, S. Mahir tarzən, qayğıkeş müəllim /S.Fərəcov //Mədəniyyət.- 2013.- 23 oktyabr.- S.15.

İnternetdə

http://anl.az/down/meqale/adalet/2015/noyabr/461750.htm

85 illiyi

Elmira Abasova 1932-2009

Musiqişünas

Abasova Elmira Əbdülhəmid qızı 1932-ci il yanvar ayının 10-da Bakı şəhərində anadan olmuşdur. 1946-1950-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində oxumuş, eyni zamanda 1949-cu ildə 18 saylı məktəbi qızıl medalla bitirmişdir.

1950-1955-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında musiqişünaslıq ixtisası üzrə təhsil almışdır.

1958-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul edilmiş, ittifaqın musiqi tənqidi bölməsinin sədri, katibi işləmişdir. Elmira Abasova 1967-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında dosent, 1980-ci ildən isə professor kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

1962-ci ildə Moskva Ümumittifaq Sənətşünaslıq İnstitutunda "Üzeyir Hacıbəyovun komediyalarında opera və musiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Elmira Abasova yeganə qadın rektordur ki, uzun müddət Azərbaycan Dövlət Konservatoriyasına rəhbərlik etmişdir. Onun yaradıcılığının mərkəzində həmişə Üzeyir Hacıbəyli irsinin tədqiqi dayanırdı. Müəllif tərəfindən dahi bəstəkar haqqında beş kitab və 1961-ci ildə ilk biblioqrafiya yazılmışdır.

Elmira Abasovanın digər tədqiqat işi dünya şöhrətli bəstəkar Qara Qarayevin yaradıcılığıdır. Onun tədqiqatları Qara Qarayevə həm dünyada, həm də doğma vətənində əbədiyaşarlıq gətirdi.

Eyni zamanda Soltan Hacıbəyov, Niyazi, Bülbül, Səid Rüstəmov, Fikrət Əmirov, Rauf Hacıyev, Rəşid Behbudov, Qurban Pirimov, Bəhram Mansurov, Cövdət Hacıyev, Arif Məlikov və başqalarının yaradıcılığı ilə bağlı Elmira Abasovanın tədqiqatları görkəmli sənətşünaslar tərəfindən yüksək dəyərləndirildi.

Elmira Abasovanın araşdırdığı elmi-tədqiqat işlərindən biri də Azərbaycan muğamları olub. Onun tədqiqatları həmişə orijinallığı və dolğunluğu ilə seçilir, hər bir janrın funksiyasını, üslub xüsusiyyətini və Azərbaycan bəstəkarlarının yaradıcılığındakı təsirini elmi dəlillərlə sübut edirdi.

1971-ci ildə Moskvada, 1973-cü ildə Alma-Atada, 1978, 1983, 1987-ci illərdə Səmərqənddə keçirilən Beynəlxalq musiqi simpoziumlarının iştirakçısı və məruzəçisi olmuşdur. 22 kitabın, 300-dən artıq məqalənin müəllifidir.

1967-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1981-ci ildə "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif edilmişdir. 1992-ci ildə Üzeyir Hacıbəyov Cəmiyyətinin fəxri sədri seçilmişdir.

Görkəmli musiqişünas, professor Elmira Abasova 2009-cu ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Üzeyir Hacıbəyov ensiklopediyası /müəl. və red. hey.: E.Abasova və b.; Azərbaycan Mədəniyyətinin Dostları Fondu.- Bakı, 2007.- 264+[16] s.

Abasova Elmira //Azərbaycanın tanınmış xanımları. Ensiklopedik nəşr /tərt. ed. və baş red. E.İsgəndərzadə; ing. dilinə tərc. ed. və ing. mətninin red-ru A.Qədiməliyeva.- Bakı, 2002.- S.4.

Dadaşzadə, Z. Elmira Abasova müasir Azərbaycan musiqisinin araşdırıcısı kimi /Z.Dadaşzadə //Musiqi dünyası.- 2010.- № 1-2.- S.27-29.

Əfəndiyeva, İ. Elmira Abasovanın tədqiqatlarında nəzəri problemlərin araşdırılması /İmruz Əfəndiyeva //Musiqi dünyası.- 2010.- № 1-2.- S.29-31.

Xəlilzadə, F. Yorulmaz tədqiqatçı, unudulmaz pedaqoq: Elmira Abasova - 80 /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 14 yanvar.- S.5.

70 illiyi

Afaq Məlikova 1947

Rəqqasə

Afaq Süleyman qızı Məlikova 1947-ci il yanvar ayının 18-də Bakıda anadan olmuşdur.

Uşaqlıqdan eşitdiyi musiqilərə rəqs etməyi çox sevən qızlarının rəqsə hədsiz marağını görən valideynləri 5 yaşlı Afaqı Respublika Pioner Evinin rəqs dərnəyinə yazdırmışlar. Yaşı çatanda isə Bakı Xoreoqrafiya Məktəbinə daxil olmuşdur. Xoreoqrafiya məktəbinin sonuncu sinfində məşhur rəqqasə Əminə Dilbazi məktəbin yetirmələri arasında ənənəvi baxış keçirmiş və A.Məlikovanın ifasını bəyənərək onu Dövlət Mahnı və Rəqs Ansamblının kollektivinə qəbul etmişdir.

15 yaşından bu ansamblda fəaliyyətə başlayan rəqqasə görkəmli sənətkar Leyla Vəkilovanın tələbəsi olmuşdur.

Afaq Məlikova 1963-1974-cü illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında solist kimi çalışmışdır.

O, insanları heyran qoyan Azərbaycan milli rəqsləri ilə bütün dünyanı (Türkiyə, MƏR, Polşa, Fransa, İngiltərə, Kanada, Portuqaliya, Almaniya, İspaniya və s.) qarış-qarış gəzmiş, milli mədəniyyətimizin, milli ruhumuzun dilmancı olan rəqslərimizi təmsil edərək, alqışlar qazanmışdır.

1975-ci ildə Dövlət Rəqs Ansamblı yaradılır. Mütəxəssislər təklif edirlər ki, o, Dövlət Mahnı və Rəqs Ansamblında deyil, məhz Rəqs Ansamblında çalışmalıdır. Filarmoniyanın direktoru Şəmsi Bədəlbəyli onun rəyini öyrənmədən əmrini verir. 1981-ci ildə həmin vəzifədə çalışan maestro Niyazi isə Afaq xanımı ansambla baletmeyster təyin edir. Az sonra Dövlət Rəqs Ansamblının bədii rəhbəri olur və 75 nəfərlik bir kollektivə başçılıq etmək ona tapşırılır.

Ömrünün 45 ilini səhnəyə həsr edən rəqqasə rəqslərin quruluşunu və musiqisini özü hazırlayır, hər il Xoreoqrafiya məktəbindən ansambla oğlan və qızlar cəlb edir. Milli rəqslərin mahir ifaçısı olan A.Məlikovanın repertuarında Şərq xalqlarının rəqsləri də geniş yer tutur. Bu gün Afaq Məlikova 30-dan çox rəqsin müəllifi, bir çox tanınmış rəqqasın müəllimidir.

Afaq Məlikova Azərbaycan rəqs ifaçılığının inkişafındakı xidmətlərinə görə 1978-ci ildə Azərbaycan SSR-in "Xalq artisti" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

40 il dayanmadan rəqs /Afaq Məlikova //Mədəniyyət.-2011.- 27 aprel .- S. 7.

Afaq Məlikova //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC); kitabın müəl. Mehriban Vəzir; layihənin müəllifi və rəhbəri Ş.İsmayılova; red.: B.Əhmədov, S.İsmayılova; tərc. F.Axundov; rəssam G.Şəmsiyeva; dizayner S.Yüzbaşiyev.- Bakı, 2008.- S.99-100.

Xəlilzadə, F. Xoreoqrafiya sənətinin yaradıcıları /F.Xəlilzadə //Azərbaycan.- 2007.- 30 yanvar.- S.7.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/adalet/2015/noyabr/461750.htm

90 illiyi

Böyukağa Məmmədov 1927

Rəqqas

Böyükağa Mircəfər oğlu Məmmədov 1927-ci il yanvar ayının 23-də Bakıda anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Mahnı və Rəqs Ansamblında fəaliyyətə başlamışdır. Burada rəqsin sirlərini öyrənmiş, yaşıdlarından həm rəqsi, həm də həvəsilə fərqlənmişdir.

1955-ci ildə Bakı Xoreoqrafiya məktəbini bitirmiş, 1946-1966-cı illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti olmuşdur. 1951-ci ildən "Səməni" rəqs kollektivinə rəhbərlik etmişdir. Tanınmış bir rəqqasa çevrilən sənətkar Böyükağa Məmmədov 1960-cı ildə "Cücələrim" rəqs ansamblına rəhbərlik etməyə başlamışdır.

O, tələbə və gənclərin Berlin (1951-qızıl medal), Varşava (1953) və Moskvada (1957) keçirilən Ümumdünya festivallarının laureatıdır.

1966-cı ildən Texniki və Bədii Yaradıcılıq Evi, Y.Qaqarin adına Pionerlər Sarayı rəqs kollektivlərinin bədii rəhbəri olmuşdur.

1971-ci ildən Bakı Xoreoqrafiya məktəbində dərs demişdir. Azərbaycan rəqsinin inkişafı və təbliğində böyük zəhməti olan Böyükağa Məmmədov unudulmuş, yaddaşlardan silinmiş havalara, xüsusilə "Tərəkəmə", "Nəlbəki", "Şadlıq", "Naz eləmə", "Qaytağı" rəqslərinə yeni nəfəs vermiş, böyük məharətlə onları ifa etmişdir.

Böyükağa Məmmədov Azərbaycan rəqsini Fransa, İsveçrə, İran, İraq, Türkiyə, İsveçrə, Əfqanıstan, Polşa, Almaniya, Macarıstan və digər ölkələrdə layiqincə təmsil etmişdir.

Ömrünün 61 ilini Azərbaycan rəqs sənətinə həsr etmiş Böyükağa müəllim bu illər ərzində iki Xalq artisti, 16 Əməkdar artist, eləcə də iki SSRİ Xalq artisti yetişdirmişdir. Dünyanın 121 ölkəsində Azərbaycan incəsənətini layiqincə təmsil etmişdir.

Azərbaycan mədəniyyətinə verdiyi töhfələrə görə 1965-ci ildə Böyükağa Məmmədov Azərbaycan SSR-in "Xalq artisti" adına layiq görülmüşdür.

Hal-hazırda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Məmmədov, M. Tanınmışların rəqs müəllimi: Onu tanıyın /Mirməmməd Məmmədov //Mədəniyyət.- 2009.- 12 iyun.- S.11.

Böyükağa Məmmədov //Mədəni-maarif.- 2007.- №5.-S.18.

İ n t e r n e t d ə

anl.az/down/.../may/medeniyyet2007_may_478.htm

https://az.wikipedia.org/wiki/Böyükağa_Məmmədov

https://www.youtube.com/watch?v=H2Oq6Hyye4cportal.azertag.az/node/786

90 illiyi

Leyla Vəkilova 1927-1999

Balet ustası

Leyla Məhəd qızı Vəkilova 1927-ci il yanvar ayının 29-da ziyalı ailəsində dünyaya göz açmışdır. Orta məktəbdə oxumaqla yanaşı 1935-ci ildə Bakı Xoreoqrafiya Məktəbinə daxil olmuşdur. 1943-cü ildə Xoreoqrafiya məktəbini uğurla bitirən gənc balerina Azərbaycan Dövlət Opera və Balet Teatrının balet truppasına solist kimi qəbul olunmuşdur.

1945-1946-cı illərdə SSRİ Dövlət Akademik Böyük Teatrının nəzdindəki Moskva Xoreoqrafiya məktəbində xüsusi təhsil almışdır.

Görkəmli balet ustası 1946-cı ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, 1953-cü ildən ömrünün son gününə kimi Bakı Xoreoqrafiya Məktəbində klassik rəqslər fənnindən dərs demiş və 1992-ci ildən həm də bu təhsil ocağına bədii rəhbərlik etmişdir.

"Qu gölü" baleti Leyla Vəkilovanın sənət taleyinin əbədi nəğməsi idi. O, səhnəyə ilk dəfə bu baletlə ayaq açmış, səhnə həyatı boyu dəfələrlə həmin baletdəki Odetta və Odiliya obrazlarını ifa etmişdir.

Leyla Vəkilova "Qız qalası" baletində Gülyanaq, "Gülşən" baletində Gülşən, "Yeddi gözəl" baletində Aişə, "Yatmış gözəl" baletində Avrora, "İldırımlı yollarla" baletində Sari, "Jizel" baletində Jizel, "Məhəbbət əfsanəsi" baletində Şirin rolları, "Qırmızı lalə" baletində Tao Xoa, "Bağçasaray fontanı" baletindəki Zarema partiyalarını ifa etmişdir. Opera teatrında tamaşaya hazırlanan "Aleko", "Leyli və Məcnun" operalarına rəqs quruluşları vermişdir.

O, müxtəlif vaxtlarda Moskva və Tiflis balet teatrlarının kollektivləri ilə birgə səhnələri bölüşmüş, Varşavada keçirilən Beşinci Dünya Gəncləri Festivalının iştirakçısı kimi xüsusi mükafata layiq görülmüşdür.

Həm mahir ifaçı, həm də böyük bir balet məktəbinin yaradıcısı kimi ömrü boyu Azərbaycan incəsənətinin əsl fədaisi və yorulmaz təbliğatçısı idi. 1976-cı ildən 1982-ci ilə kimi Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri kimi, milli rəqsimizin ən gözəl nümunələrini bir çox dünya səhnələrində uğurla başqa xalqlara nümayiş etdirmişdir.

Milli balet sənətinin inkişaf və tərəqqisində göstərdiyi xidmətlərinə görə, Leyla Vəkilova 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist", 26 aprel 1958-ci ildə "Xalq artisti", 31 oktyabr 1967-ci ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüş,balet sənətinin inkişafındakı xidmətlərinə görə 1997-ci il yanvarın 29-da "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Leyla xanım Vəkilova 1999-cu il fevral ayının 20-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Əlioğlu, Y. Qu quşunun nəğməsi...: Xalq artisti Leyla Vəkilovaya həsr olunur /Y. Əlioğlu; elmi red. İ.Rəhimli; [baş red. S.Bektaşi; burax. məsul S.İsmayılova; dizayner G.Qurbanova].- Bakı: Şərq-Qərb, 2014.- 102, [2] s.

Ləman, F. Leyla Vəkilova //Ləman F., Əhmədli S. İncilər: Qazax-Ağstafa: [ensiklopedik toplu] /red.: Ş.Bünyadova, Q.Xəlilova.- Bakı, 2011.- S.83.

70 illiyi

Mikayıl Mirzə 1947-2006

Aktyor

Mikayıl Şahvələd oğlu Mirzəyev 1947-ci il yanvar ayının 1-də Şamaxı rayonunun Talış kəndində (indiki Ağsu rayonu) anadan olmuşdur.

1969-cu ildə ADİİ-nin (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsini bitirmişdir. Azərbaycan Dövlət Teatr İnstitutunda görkəmli rejissor və pedaqoq, SSRİ Xalq artisti, professor Mehdi Məmmədovun kursunda dərs almışdır. İnstitutu bitirdikdən sonra bir müddət Tədris Teatrında çalışmış, 1976-cı ilin yanvar ayından Akademik Milli Dram Teatrına dəvət edilmişdir.

Teatr sənətinin sirlərinə dərindən yiyələnmək qabiliyyəti Mikayıl Mirzəyə səhnəmizdə bir-birindən maraqlı, dolğun obrazlar yaratmağa imkan vermiş, ona əsl xalq məhəbbəti qazandırmışdır. Azərbaycan teatrının səhnəsində yaratdığı Aslan (M.İbrahimov "Kəndçi qızı"), Mirzə Ələkbər Sabir, Tərs Tahir (Anar "Sizi deyib gəlmişəm", "Adamın adamı"), Qoca (L.Frank, "Yad adam"), Eyvaz, Muratov (İ.Əfəndiyev "Tənha iydə ağacı", "Qəribə oğlan"), Zahid, Şair (B.Vahabzadə "Fəryad", "Yollara iz düşür), Bəxtiyar (A.Şaiq "Fitnə"), İxtiyar (H.Cavid "İblis") və başqa rolları aktyorun istedadının müxtəlif çalarlarını açır. C.Məmmədquluzadənin "Dəli yığıncağı" (Cinni Mustafa), S.Vurğunun "Vaqif" (Kürd Musa), C.Cabbarlının "Od gəlini" (Elxan) tamaşalarında aktyorun yaratdığı surətlər bu pyeslərin böyük uğurunu təmin etmiş, sənətçiyə şöhrət gətirmişdir.

M.Mirzəyevin Akademik Milli Dram Teatrında quruluş verdiyi C.Cabbarlının "Aydın" tamaşası teatr sənəti tarixində layiqli səhnə əsəri kimi qiymətləndirilir. O, "Dədə Qorqud", "Yeddi oğul istərəm", "Uzun ömrün akkordları", "Babək", "Qatır Məmməd" və onlarca digər ekran əsərlərində bir-birindən fərqli surətlər qalereyası yaratmışdır.

Mikayıl Mirzəyevin "Günahsız Abdulla" (Abdulla), "Topal Teymur" (Şair Kirmani) kimi teletamaşalarda yaratdığı təkrarolunmaz rolları milli televiziyamızın tarixində ayrıca bir mərhələ təşkil etmiş, tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır. "Bir aktyorun teatrı"nı yaradan sənətkar televiziyada A.S.Puşkinin "Motsart və Salyeri", "Qaraçılar", H.Cavidin "Azər", X.Rzanın "Məhəbbət dastanı", M.İsmayılın "Saz", R.Rzanın "Qızılgül olmayaydı...", C.Novruzun "Qərbi Berlin" mono-tamaşalarında bir-birinə bənzəməyən obrazlar qalereyasını tamaşaçı yaddaşına əbədi həkk etmişdir.

Mikayıl Mirzə Azərbaycanın ictimai-siyasi həyatında da fəal rol oynamışdır. O, iki çağırış 1995-2000-ci və 2002-2005-ci illərdə Milli Məclisin deputatı seçilmişdir. Akademik Milli Dram Teatrında aktyor kimi çalışmaqla yanaşı, 1992-1995-ci illərdə həm də Bakı Mədəni-Maarif Texnikumunun direktoru vəzifəsində işləmişdir.

Azərbaycan teatr və kino sənətinin inkişafındakı xidmətlərinə görə Mikayıl Mirzəyev 1987-ci ildə Azərbaycan SSR-in "Əməkdar artist", 1991-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Mikayıl Mirzə 2006-cı il iyun ayının 3-də vəfat etmiş, Bakıdakı II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Elsevər, S. Qiraətin axırıncı istinad nöqtəsi: Mikayıl Mirzə Azərbaycan mədəniyyətinin işıqlı siması kimi xatırlanır /S.Elsevər //Kaspi.- 2016.- 22 yanvar - S.7.

Mirzə, M. İstiqlal sənətkar: Mikayıl Mirzə-65 /Mətin Mirzə //Yeni Azərbaycan.- 2012. - 13 noyabr.- S.8.

Yusif, M. İstedadlı aktyor, gözəl pedaqoq və ictimai xadim: Mikayıl Mirzə /M.Yusif //Ekran-efir.-2013.- 18 yanvar.- S. 9.

İ n t e r n e t d ə

http://www.mikayilmirze.tk/2012/04/mikayl-mirz.html

http://www.anl.az/down/meqale/kaspi_az/2016/yanvar/473673.pdf

80 illiyi

Eldəniz Zeynalov 1937-2002

Aktyor

Eldəniz Məmməd oğlu Zeynalov 1937-ci il yanvar ayının 1-də Bakı şəhərində anadan olmuşdur. Hələ məktəbli ikən, dayısı - aktyor Həsənağa Salayevin tövsiyəsi ilə Azərbaycan Dövlət Dram Teatrında uşaq rollarında çıxış etmişdir. 1956-1962-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunda təhsili almış, dövrünün ən məşhur pedaqoqu Adil İsgəndərovun tələbəsi olmuşdur.

İncəsənət İnstitutunu bitirdikdən sonra Akademik Dram Teatrında işə başlamış, ilk dəfə "Sevil" tamaşasında Gündüz rolunu oynamışdır. Bir müddət kinostudiyada işləsə də, yenidən teatra qayıtmış və ömrünün sonunadək bu teatrda çalışmışdır.

Teatr və kinoda, televiziya və radio tamaşalarında, "Mozalan" satirik kinojurnalının bir çox süjetlərində yaddaqalan obrazlar yaratmışdır.

Kinoda ilk işi 1963-cü ildə Adil İsgəndərovun rejissoru olduğu "Əhməd haradadır?" musiqili komediyasındakı rəngsaz Əhməd olmuşdur. Lakin 1969-cu ildə Eldar Quliyev onu özünün çəkdiyi "Bir cənub şəhərində" filminə baş rola dəvət etmiş, bu filmlə də onun yaradıcılıq həyatı kinematoqrafiya ilə sıx bağlı olmuşdur. Paralel olaraq "Azərbaycanfilm" kinostudiyasında da çalışmışdır. Eldəniz Zeynalovun kinoda fəaliyyətə başladığı dövr kinomuzun "qızıl dövrü" hesab olunur.

A.İsgəndərovun seçimi ilə 30-dan artıq filmdə çəkilərək öz adını Azərbaycan kinosu tarixinə yazdırmışdır. Onun çəkildiyi ən məşhur filmlər arasında: "Əhməd haradadır?" (1963), "İyirmialtılar" (1966), "Bir cənub şəhərində" (1969), "Bizim Cəbiş müəllim "(1969), "Yeddi oğul istərəm..." (1970), "Dörd bazar günü" (1975), "Arvadım mənim, uşaqlarım mənim" (1978), "Kontor" (1978), "Yeganə çıxış yolu" (1980), "Yol əhvalatı" (1980) "Babamızın babasının babası" (1981), "Bağ mövsümü" (1985), "Bəyin oğurlanması" (1986), "Qonşu qonşu olsa..." (1989), "Bir Eldənizimiz yoxdur" (2002) və b.-nın adlarını çəkmək olar. Həmçinin xarici film istehsalçılarının "Dulsineya Tobosskaya" (Mosfilm), "Təyyarələr enmədi" (Özbəkfilm) filmlərində çəkilmişdir.

Yaradıcılığının son dövrü Akademik Milli Dram Teatrı ilə daha sıx bağlı olmuşdur. Bu teatrda "Ah Paris, Paris", "Dəlilər və ağıllılar", "Köhnə ev" və başqa tamaşalarda yaddaqalan obrazlar yaratmış, rolları ilə səhnədən də sözünü deməyi bacarmışdır.

1980-ci illərin axırlarında ilk "Satira Teatrı"nı təşkil etmişdir. Teatr "Gül, sevin, gül" tamaşası ilə bütün Azərbaycanı gəzmişdir.

Yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1974-cü ildə Azərbaycan SSR-in "Əməkdar artist", 2001-ci ildə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1999-cu ildə "Humay" mükafatı ilə təltif edilmişdir.

Sevilən aktyor Eldəniz Zeynalov 2002-ci il noyabr ayının 5-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Babayev, A. Aramızda olmasa da... /A.Babayev //Mədəni həyat.-2014.- №10.- S.72-73.

Əhmədova, N. "O, obrazlarını yüksək peşəkarlıqla oynayırdı". Nuriyyə Əhmədova: "Onun kimi aktyorun səhnəmizə gələcəyinə inanmıram" /N.Əhmədova; müsah. apardı Rəqsanə //Üç nöqtə.- 2014.- 6 noyabr.- S. 13.

İsaq, İ. Dünyadan dəhşətli ağrılarla köçən Eldəniz Zeynalov /İradə İsaq //Həftə içi.-2015.- 6 yanvar.- S.6.

Kazımzadə, A. Sözə nəfəs verən, can verən idi /A.Kazımzadə //Mədəniyyət.- 2012.- 11 yanvar.- S. 10.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azadliq/2012/iyun/09.htm

https://az.wikipedia.org/wiki/Eldəniz_Zeynalov

110 illiyi

İsmayıl Dağıstanlı 1907-1980

Aktyor

İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev) 1907-ci il yanvar ayının 6-da Qax rayonunun Zərnə kəndində anadan olmuşdur. Nuxa (indiki Şəki) rayonuna peşə təhsili arxasınca gələn İsmayıl Hacıyev 1925-ci ildə Mərkəzi fəhlə klubunda dram dərnəyinə üzv olmuşdur. 1927-1930-cu illərdə Bakı Teatr Məktəbində təhsil almış, səhnə haqqında müəyyən təcrübəsi olduğuna görə elə birinci kursdan Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrdə, sözsüz epizodik rollarda çıxış etmişdir. Müəllimi, böyük ədib və teatr xadimi Əbdürrəhim bəy Haqverdiyevin təklifi ilə "Dağıstanlı" ləqəbini götürmüşdür.

Teatr məktəbində təhsilini başa vurduqdan sonra Akademik teatrda aktyor ştatına götürülmüşdür. Müxtəlif vaxtlarda İrəvan Dövlət Azərbaycan Dram Teatrında (1936-1937), Dərbənd Dövlət Azərbaycan Dram Teatrında işləmişdir. 1938-ci ildən Akademik Milli Dram Teatrının əsas aktyorlarından biri olmuşdur.

Milli Dram Teatrının səhnəsində Lenin rolunu ilk dəfə İsmayıl Dağıstanlı ifa etmiş, dramaturqlarımızdan Cəfər Cabbarlının "Od gəlini" (Qorxmaz və Aqşin), "1905-ci ildə" (Baxşı və Eyvaz), "Yaşar" (Yaşar), "Oqtay Eloğlu" (Oqtay), "Solğun çiçəklər" (Bəhram), "Almaz" (Barat), Zeynal Xəlilin "Qatır Məmməd" (Qatır Məmməd), Səməd Vurğunun "Vaqif" (Əli bəy, Qacar və Vaqif), Mehdi Hüseynin "Cavanşir" (Bəhram şah), "Nizami" (Şirvan şahı), Mirzə İbrahimovun "Madrid" (Karlos), İlyas Əfəndiyevin "İşıqlı yollar" (Yelmar), "Bahar suları" (Uğur), Vilyam Şekspirin "Otello" (Otello), "Maqbet" (Yaralı əsgər), "Hamlet" (Horatsio) və "On ikinci gecə" (Sebastian), Fridrix Şillerin "Məkr və məhəbbət" (Zikov), muq" (Ninkir Sin), Nazim Hikmətin "Türkiyədə" (Kamil bəy), "Yarovaya" (Koşkin) əsərlərindəki rolları daha diqqətçəkəndir.

Aktyor "Azərbaycanfilm"in istehsal etdiyi "Səbuhi" (Səbuhi, Mirzə Fətəli Axundzadə), "T-9 nömrəli sualtı qayıq" (Komissar), "Qara daşlar" (Aslan Aslanov), "Kölgələr sürünür" (Zahidov), "Qatır Məmməd" (General) filmlərində müxtəlif maraqlı, yaddaqalan obrazlar yaratmışdır.

"Möhsün Sənani", A.Şərifzadə barədə "Böyük sənət ustası", "SSRİ Xalq artisti Akaki Xorava", "Cəfər Cabbarlı və teatr" kitablarının müəllifidir.

Sənətdə qazandığı uğurlara görə 1940-cı il may ayının 4-də Azərbaycan SSR-in "Əməkdar artist", 1949-cu il iyul ayının 21-də "Xalq artisti", 1974-cü il iyul ayının 11-də isə SSRİ-nin "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1948-ci ildə Ə.Məmmədxanlının "Şərqin səhəri" pyesinin tamaşasındakı Kirov roluna görə Stalin mükafatı, 1972-ci ildə İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramındakı Böyük bəy roluna görə isə Respublika Dövlət mükafatı ilə təltif edilmişdir.

Ömrünün son illərində Azərbaycan İncəsənət İnstitutunda kafedra müdiri vəzifəsində çalışmışdır.

İsmayıl Dağıstanlı 1980-ci il aprel ayının 1-də Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Akademik Milli Dram Teatrı [Qeyri musiqili səsyazma]: Od gəlini, Almaz, Bahar suları, Hacı qara, Hamlet, İldırım, Kəllə, Kəndçi qızı, Otello, Sevil, Ölülər, Şeyx Sənən, Solğun çiçəklər, Vaqif, Yaşar, Xanlar tamaşalarından səslər /tamaşaları səsləndirdilər A.Şərifzadə [və b.].-[Bakı]: [s.n.], [2011].-1 CD.

İsmayıl, L. Mən aktyoram - İsmayıl Dağıstanlı /L.İsmayıl.- Bakı: Hüquq ədəbiyyatı, 2006.- 83 s.

Nemətzadə, Ə. İsmayıl Dağıstanlı /Ə.Nemətzadə; Azərb. Teatr Cəmiyyəti; xüsusi red. K.Cəfərzadə.- Bakı: İşıq, 1981.- 86, [2] s.

Rəhimli, İ. Sənət vurğunu: SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı İ.Dağıstanlının anadan olmasının 70 illiyi münasibətilə /İ.Rəhimli; [red. M.Süleymanlı]; Azərb. SSR Bilik Cəmiyyəti.- Bakı: [s.n.], 1978.- 82 s.

https://az.wikipedia.org/wiki/İsmayıl_Dağıstanlı

70 illiyi

Şirin Mirzəyev 1947-1992

Milli Qəhrəman

Şirin Vəli oğlu Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndində anadan olmuşdur. N.Gəncəvi adına beynəlmiləl orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Bir müddət Bakıda yerləşən Daxili Qoşunlar alayında xidmət etdikdən sonra 1967-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərindəki Ali Siyasi Hərbi məktəbə qəbul olmuş və 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub təyinatla İrəvana göndərilmiş, beş il orada xidmət etdikdən sonra isə Bakıya qayıtmışdır.

1988-ci ildə Hərbi Siyasi Akademiyada təhsil almış, Daxili Qoşunlar alayında 15 illik xidmət yolu keçmişdir. 1991-ci ildə vətənə xidmət arzusu onu Ağdama çəkib gətirmişdi. 1991-ci ilin oktyabr ayında bütün maneələrə və təqiblərə baxmayaraq, polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə batalyonunu yaratmışdır. Artıq 1992-ci ilin may ayında üç tabordan ibarət alay yaradılmışdı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı və həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. 1992-ci il mart ayının 28-də Şirin Mirzəyevin və onun tərəfdarlarının səyi nəticəsində respublikada I tabor yaradıldı və ürəyi vətən sevgisilə çırpınan podpolkovnik Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi.

18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində aparılan döyüş əməliyyatı zamanı minaya düşərək həlak olmuş, iyunun 20-də Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı ilə təltif edilmişdir.

Adına Bakı şəhərində küçə var. Xidmət etdiyi 836-cı hərbi hissənin həyətində abidəsi qoyulmuşdur.

Hərbi jurnalist İbrahim İbadoğlu Şirin Mirzəyevin həyatından bəhs edən "Sərkərdə" kitabını qələmə almışdır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Mirzəyev Şirin Vəli oğlu – polkovnik leytenant – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Şirin Mirzəyev /Vüqar Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.211.

Mirzəyev Şirin Vəli oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərb. Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.147-149.

Seyidzadə, M. Mirzəyev Şirin Vəli oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.160.

Şirin Mirzəyev //Azərbaycan Respublikası Xatirə Kitabı: 20 cilddə: [ensiklopediya] /AMEA; baş red. N.R.Hacızadə.- Bakı, 2010.- C.X.- S.444.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Şirin_Mirzəyev

www.xankendi.az/shehidlarimiz,483/lang,az/

55 illiyi

Cəlil Səfərov 1962-1992

Milli Qəhrəman

Cəlil Əziz oğlu Səfərov 1962-ci il yanvar ayının 28-də Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində anadan olmuşdur. Ailəlikcə Sumqayıt şəhərinə köçdüklərinə görə orta təhsilini də burada almış, 1977-ci ildə səkkizinci sinfi bitirərək C.Naxçıvanski adına Hərbi liseyə qəbul edilmişdir. 1980-ci ildə təhsilini başa vurmuş və həmin il Vladiqafqaz Hərbi Raket Zenit Komandirlər Məktəbinə daxil olmuşdur. Təhsilini Saratov vilayətinin Engels şəhərində tamamlamışdır.

1984-cü ildə leytenant rütbəsi ilə Qazaxıstanın Priozyorsk və Balxaş şəhərində yerləşən hərbi hissələrdə çalışmağa başlamışdır. 8 il işlədikdən sonra Azərbaycana qayıtmış və Respublika Müdafiə Nazirliyinin Operativ İdarəsində baş zabit vəzifəsinə təyin edilmişdir.

Bir müddətdən sonra zabitlər qrupu ilə birlikdə Dağlıq Qarabağa ezam olunmuş, ezamiyyət müddəti bitdikdən sonra döyüş bölgəsində qalaraq hərbi hissədə xidmət etməyi üstün tutmuşdur. O, Şuşa döyüş bölgəsində erməni yaraqlılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə döyüşmüş, düşmən texnikasına dəqiq və sarsıdıcı top zərbələri endirilməsinə başçılıq etmişdir. Bunun nəticəsində bir neçə yaşayış məntəqəsini azad edərək, dinc sakinlərin təhlükəsiz yerlərə köçürülməsini təmin etmişdir. Təcrübəli zabit C.Səfərov 15 may 1992-ci ildə Şuşa rayonunun Turşsu-Zarıslı istiqamətində gedən ağır döyüşlərdə iştirak edərkən, qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Resbublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə kapitan Səfərov Cəlil Əziz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Sumqayıt şəhərindəki 10 saylı orta məktəb onun adını daşıyır. Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində abidəsi ucaldılmışdır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Səfərov Cəlil Əziz oğlu – kapitan – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Səfərov Cəlil Əziz oğlu //Əsgərov Vüqar. Azərbaycanın Milli Qəhrəmanları.- (Yenidən işlənmiş II nəşr).- Bakı, 2010.- S.260.

Seyidzadə, M. Səfərov Cəlil Əziz oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.201.

Səfərov Cəlil Əziz oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərb. Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.187.

İ n t e r n e t d ə

veten-ugrunda.az/.../287-sfrov-clil-ziz-olu.html

https://az.wikipedia.org/wiki/Cəlil_Səfərov

120 illiyi

Əziz Əliyev 1897-1962

Dövlət xadimi

Ə d ə b i y y a t

Əziz Əliyev: Böyük ömrün anları /[tərt. ed., ön sözün müəl., burax. məs. Hidayət; red. S.Nəzərli; rəssam. A.Hüseynov].- Bakı: Nurlan, 2007.- 168 + 191, [1] s.

Görkəmli dövlət və elm xadimi, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş elmi konfransın materialları /Azərb. Resp. Səhiyyə Nazirliyi, Azərb. Tibb Un-ti; elmi red. Ə.T.Əmiraslanov.- Bakı: [Təbib], 2007.-395,[2] s.

Əmiraslanov, Ə. Vətənpərvər ziyalı, görkəmli dövlət və elm xadimi Əziz Əliyev ictimai-siyasi, tibbi xidmətləri ilə nümunəyə çevrilib /Ə.Əmiraslanov //Azərbaycan .-2016.- 6 yanvar.- S.5.

Sarıyeva, İ. Elm fədaisi, görkəmli dövlət xadimi Əziz Əliyev... /İ.Sarıyeva //Bakı xəbər.-2014.- 7-8 noyabr.- S.15.

http://www.anl.az/down/meqale/baki_xeber/2014/noyabr/401620.htm
http://www.mnj.az/index.php/bash-sehife/5-aziz-m-mm-dk-rim-o-lu-liyev

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci il yanvar ayının 1-də İrəvan quberniyasının Hamamlı kəndində, Məmmədkərim Kərbəlayı Qurbanəli oğlunun ailəsində anadan olmuşdur.

1908-ci ildə İrəvandakı gimnaziyaya daxil olmuş, 1917-ci ildə oranı bütün fənlər üzrə "əla" qiymətlərlə bitirmişdir. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Hərbi Tibb Akademiyasına daxil olsa da, təhsili yarımçıq qalmışdır. 1923-cü ildə Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarlığı Şurasının katibi vəzifəsini icra etmişdir. İşləməklə bərabər 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini BDU-nun tibb fakültəsində davam etdirmişdir. 1927-ci ildə təhsilini bitirmiş və universitetin daxili xəstəliklər kafedrasında saxlanılmışdır.

1929-cu ildə namizədlik, beş il sonra isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1930-cu il iyun ayının 19-da BDU-nun tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılmış, Əziz Əliyev 1932-ci ildə həmin institutun rektoru təyin edilmişdir.

1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi altında Azərbaycan dilində latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin ixtiyarına verilmişdir.

"Tibb nəşriyyatı"nı yaratmış, 1933-cü ildə "Praktiki və nəzəri tibb jurnalı"nın baş redaktoru təyin edilmişdir. 1933-cü ildə onun təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapı qaydaya salınmışdır. Hazırda bu qəzet "Təbib" adı ilə Azərbaycan Tibb Universitetində çap olunmaqdadır.

1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır. Ə.Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırışlarının deputatı olmuşdur. 1949-1950-ci illərdə Moskvada ÜİK (b) PMK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdir. 1956-cı ildə professor elmi rütbəsini almışdır. Ə.Əliyev 87 elmi əsərin müəllifidir, onlardan 70-i təbabətin ayrı-ayrı sahələrinə, 17-si isə tarixi və siyasi problemlərə aiddir.Vətən və xalq qarşısındakı misilsiz xidmətlərinə görə o, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" , "I dərəcəli Vətən müharibəsi" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdir. 1960-cı ildə Azərbaycan SSR "Əməkdar həkim" fəxri adına layiq görülmüşdür.

Əziz Əliyev 1962-ci il iyul ayının 27-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı, Naxçıvan və Mahaçqalanın mərkəzi küçələrindən biri onun adını daşıyır.

140 illiyi

Xudadat bəy Rəfibəyli 1877-1920

Dövlət xadimi

Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyli 1877-ci il yanvar ayının 12-də Gəncə şəhərində anadan olmuşdur.

İlk təhsilini Gəncə gimnaziyasında almış, 1904-cü ildə Xarkov İmperator Universitetinin tibb fakültəsini bitirmiş, həmin universitetin qospital - klinikasının cərrahiyyə şöbəsində 3 il ordinator olaraq işləmişdir. Xarkovda tələbə dostları ilə birlikdə azərbaycanlılardan ibarət "Zemlyaçestvo" ("Həmyerlilər") dərnəyi yaratmışdır.

1907-ci ildə Gəncəyə qayıtmış, qubernatorun əmri ilə şəhər xəstəxanasına direktor təyin olunmuşdur. 1912-1913-cü tədris ilində Sankt-Peterburqdakı İmperator Klinik İnstitutunda 12 ixtisas üzrə dinləyici olmuşdur.

Xudadat bəy Rəfibəyli titulyar müşavir (1909), kollej asessoru (1910), saray müşaviri (1912) rütbələrinə layiq görülmüş, 1909-1916-cı illərdə Gəncə Mahal Məhkəməsində fəxri barışıq hakimi (mirovaya sudya) işləmişdir. 1915-ci il noyabrın 18-ində kollej müşaviri rütbəsinə irəli çəkilmiş, 1916-cı ildə III dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif olunmuşdur.

1914-cü ildə Həsən bəy Ağayevlə birlikdə Azərbaycanda ilk səhiyyə-sağlamlıq cəmiyyəti olan "Gəncə tibb cəmiyyəti"ni yaratmışdır. 1917-ci ilin martında Gəncədə yaranmış Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyski tərəfindən Gəncədə təşkil edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin 2-ci hökumət kabinəsində Xudadat bəy Rəfibəyli xalq səhiyyəsi və himayədarlıq naziri təyin olunmuşdur. Cümhuriyyət hökuməti dövründə Xudadat bəy yenə də nazir vəzifəsinə təyin edilmişdir. Müstəqil səhiyyə sisteminin yaradılmasında Xudadat bəy fəal rol oynamışdır. 1918-ci ilin dekabrında Fətəli xan Xoyski hökuməti istefa verdikdə, Xudadat bəy xalq səhiyyəsi naziri vəzifəsini tərk etmişdir.

Azərbaycan hökuməti 1919-cu ilin mayında onu Gəncə quberniyasının qubernatoru vəzifəsinə təyin etmişdir. O, ilk gündən ərazidə azərbaycanlılara qarşı soyqırımının qarşısının alınması, hərc-mərcliyə, soyğunçuluğa son qoyulması, asayişin bərqərar edilməsi, sabitlik yaradılması üçün qəti tədbirlər görmüşdür. Qərbi Azərbaycandan qovulmuş 20 mindən çox soydaşımızı Gəncə mahalında yerləşdirmək sahəsində gərgin fəaliyyət göstərmişdir.

1920-ci il aprel işğalından sonra bolşeviklərin tələbi ilə qubernator kimi səlahiyyətlərini yeni yaranmış inqilab komitəsinə təhvil vermişdir.

Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyli 1920-ci il may ayının 12-də həbs olunmuş, erməni kəndlərinin yandırılması, quberniyanın erməni sakinlərinin sıxışdırılması ittihamı ilə bolşeviklər tərəfindən Nargin adasında güllələnmişdir.

Azərbaycan Respublikası Prokurorluğunun 1990-cı il 2 iyul tarixli qərarı ilə Xudadat bəy Rəfibəyli barəsində cinayət işinə cinayət hadisəsi tərkibi olmadığına görə xitam verilmiş və bəraət qazanmışdır.

Ə d ə b i y y a t

Hüseynov, R. Yetim ağ at //Hüseynov R. Yurdun adındakı can /red. C.Həsənli, L.Kərimli (Rəfibəyli).- Bakı, 2010.- S.183-282.

İsmayıl. Vətənpərvər ziyalı... Xudadat bəy Rəfibəylinin bütün həyatı azərbaycançılığa xidmətdə keçib /İsmayıl //Şərq .-2014.- 18 iyun.- S.11.

İ n t e r n e t d ə

http://www.gencekitab.az/kdc.shtml

http://axc.preslib.az/az_a9.html

110 illiyi

Əlisöhbət Sumbatzadə 1907-1992

Akademik



Əlisöhbət Sumbat oğlu Sumbatzadə 1907-ci il yanvar ayının 21-də (bəzi mənbələrdə 8-də) Bakının Əmircan kəndində anadan olmuşdur.

1921-1926-cı illərdə Bakı oğlanlar seminariyasında (indiki Azərbaycan Dövlət Pedaqoji Kolleci), 1926-1930-cu illərdə Azərbaycan Dövlət Universitetin (indiki BDU) Şərqşünaslıq fakültəsinin tarix-etnologiya şöbəsində təhsil almışdır.

1930-cu ildə namizədlik, 1948-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1954-cü ildə professor elmi rütbəsini almış, həmin ildə Azərbaycan SSR EA-nin müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1957-1959-cu illərdə Azərbaycan SSR EA-nın vitse prezidenti olmuşdur.

1958-ci ildə Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutu təşkil olunduqda Əlisöhbət Sumbatzadə həmin elm mərkəzində öyrənilən "Yaxın və Orta Şərq ölkələrində milli azadlıq və fəhlə hərəkatı" probleminin rəhbəri, 1959-1963-cü illərdə EA-nın İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1963-1969-cu illərdə EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru, 1970-1972-ci illərdə EA-nın Tarix İnstitutunun direktoru, 1970-1981-ci illərdə EA-nın İctimai Elmlər bölməsinin akademik-katibi, 1982-1992-ci illərdə İctimai elmlər üzrə Elmi Məlumat Mərkəzində şöbə müdiri vəzifələrində işləmişdir.

1964-cü ildə "XIX əsrdə Azərbaycan sənayesi" əsəri ilə tarixşünaslığımızda yeni bir elmi istiqamətin - iqtisadi tarixin, 1990-cı ildə "Azərbaycanlılar - etnogenez və xalqın formalaşması" adlı monoqrafiyası ilə elmdə mənşəyimiz haqqında yeni konsepsiyanın əsasını qoymuşdur. "Müasir dövrdə Sovet Azərbaycanının iqtisadiyyatının inkişafı" (B., 1980), "Sovet tarix elmi 1975-1979-cu illərdə" (M., 1980), "Azərbaycan xalqının etnogenezi" (B., 1988) və s. kollektiv əsərlərin müəlliflərindən və redaktorlarından olmuşdur.

Ölkə və beynəlxalq miqyaslı simpozium, konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir. 1957-1982-ci illərdə onun elmi rəhbərliyi altında aparılan tədqiqatlar xalqımızın milli tarixi, arxeologiyası, etnoqrafiyası, memarlığı, incəsənəti, dili, ədəbiyyatı, iqtisadiyyatı, fəlsəfi fikri və şərqşünaslığının ən ümdə problemlərinin araşdırılmasına yönəldilmişdir. Azərbaycan tarixi və iqtisadiyyatında bu gün əzmlə çalışan yüzlərlə yüksəkixtisaslı alim-tədqiqatçılar məhz Ə.Sumbatzadənin adı ilə bağlı məktəbin yetirmələridir.

Əlisöhbət Sumbatzadə Azərbaycan SSR Ali Sovetinin (V çağırış) deputatı və Rəyasət Heyətinin üzvü (1959-1963) seçilmiş, 12 cildlik "SSRİ tarixi"nin baş redaksiya heyətinin, ASE elmi redaksiya şurasının üzvü olmuşdur. 1958-ci ildə Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı, 1977-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1987-ci ildə "Xalqlar Dostluğu" ordeni və medallarla təltif edilmişdir.

Əlisöhbət Sumbat oğlu Sumbatzadə 1992-ci il yanvar ayının 28-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Səmədzadə, Z. Əlisöhbət Sumbat oğlu Sumbatzadə //Səmədzadə Z. İqtisadi tərəqqiyə həsr edilən ömürlər: Azərbaycanın iqtisadçı alimləri: MEA-nın həqiqi və müxbir üzvləri, professorlar, iqtisad elmləri doktorları /elmi red.: S.Səfərov, T.Hüseynov.- Bakı, 2002.- S.28-37.

Əlisöhbət Sumbat oğlu Sumbatzadə //A.A.Bakıxanov adına Tarix İnstitutu /elmi red. Y. Mahmudov; tərt. G.N.Məmmədova; red. C. Ə.Bəhramov, E.Ə.Məhərrəmov; AMEA.-Bakı, 2005.- S.10.

Азербайджанцы-этногенез и формирование народа /А.С.Сумбатзаде; АН АзССР, Ин-т Истории, Востоковедения и Центр Научной Информации.- Баку: Элм, 1990.- 304 с.

İ n t e r n e t d ə

www.istoriya.az/img/.../A.S.Sumbatzade.doc

http://qafqazmedia.az/medeniyyet/1767-azrbaycann-tannmxsiyytlri.html

80 illiyi

Məhərrəm Babayev 1937

Akademik

Məhərrəm Pirverdi oğlu Babayev 1937-ci il yanvar ayının 13-də Bərdə şəhərində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Kənd Təsərrüfatı (indiki AKTA) İnstitutunu bitirmiş, Azərbaycan SSR Torpaqşünaslıq və Aqrokimya İnstitutunda fəaliyyətə başlamışdır. 1963-1966-cı illərdə institutun əyani aspirantı kimi təhsilini davam etdirmiş, 1966-1971-ci illərdə institutda elmi işçi, 1971-1975-ci illərdə baş elmi işçi, 1975-1981-ci illərdə laboratoriya rəhbəri, həmçinin Meyvə-Tərəvəz Təsərrüfatı Nazirliyi Elmi Tədqiqat Tərəvəzçilik İnstitutunda direktor (1981-1985), Aqrar Sənaye Komitəsinin sədr müavini (1986-1989) vəzifələrində çalışmışdır.

1995-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda Torpaqların genezisi, coğrafiyası və xəritəçiliyi laboratoriyasının rəhbəri olmuş, 2001-2014-cü ilədək isə institutun direktoru vəzifələrində çalışmışdır.

Alimin tədqiqatı respublika torpaqlarının genezisi, müasir nomenklaturası və təsnifatı, suvarılan torpaqlara antropogen təsirin nəzəri əsasları və torpaqların deqradasiyasının öyrənilməsinə həsr olunmuşdur.

Məhərrəm Babayev 1966-cı ildə elmlər namizədi, 1981-ci ildə elmlər doktoru elmi dərəcəsini, 2000-ci ildə professor elmi rütbəsini almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmişdir. Görkəmli yerşünas-alim 10 kitab, 300 məqalə, 28 xəritə və 11 patentin müəllifidir.

Onun rəhbərliyi altında yüksək ixtisaslı 16 elmlər, 4 fəlsəfə doktoru hazırlanmışdır.

M.Babayev Ümumittifaq Torpaqşünaslar Cəmiyyətinin üzvü, AR Ali Attestasiya Komissiyasının Biologiya və kənd təsərrüfatı elm sahələri üzrə Müdafiə şurasının sədri olmuşdur. AMEA Biologiya Bölməsinin büro üzvü, Azərbaycan Respublikası Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutundakı Doktorluq Dissertasiyası Müdafiəsi üzrə D-004.16.01 İxtisaslaşdırılmış Şuranın sədridir.

Azərbaycan elminə verdiyi töhfələrə görə 1986-cı ildə "Şərəf nişanı" ordeni ilə, medal və fəxri fərmanlarla təltif olunmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan torpaqlarının müasir təsnifatı = Современная классификация почв Азербайджана = Contemporary soil classification of Azerbaijan /M.P.Babayev, Ç.M.Cəfərova, V.H.Həsənov; elmi red. A.İ.İsmayılov; AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu.- Bakı: Elm, 2006.- 360 s.

Azərbaycan torpaqlarının morfogenetik diaqnostikası, nomenklaturası və təsnifatı /M.P.Babayev [et al.]; elmi red. A.P.Gərayzadə; AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu.- Bakı: Elm, 2011.- 452 s.

Məhərrəm Pirverdi oğlu Babayev: biblioqrafiya = Магеррам Пирверди оглы Бабаев: библиография = Magerram Pirverdi oglu Babayev: bibliography /AMEA, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, AMEA Mərkəzi Elmi Kitabxana; tərt. R.İ.Mirzəzadə; ing. dilinə tərc. R.C.Məhərrəmova; red.: V.H.Həsənov, Ç.M.Cəfərova.- Bakı: Elm, 2008. - 164 s.

Müxtəlif torpaq-ekoloji şəraitdə tərəvəz bitkilərindən yüksək məhsul almağın idarə olunması /M.P.Babayev, N.H.Orucova, S.M.İsgəndərov; elmi red. A.B.Gərayzadə; rəyçi M.Nəbiyev; AMEA, Torpaqşünaslıq və Aqrokimya İn-tu.- Bakı: Elm, 2007.- 240 s.

elibrary.az/.../cgiirbis_64.exe?...Babayev,%20...
http://www.nkpi.az/?page=addread&id=604

70 illiyi

Qərib Məmmədov 1947

Akademik

Qərib Şamil oğlu Məmmədov 1947-ci il yanvar ayının 6-da Ermənistan SSR-in Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya-biologiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə Kənd Təsərrüfatı Nazirliyinin Eroziya bölməsində laborant vəzifəsində başlamış, sonra AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya rəhbəri, institutun direktoru (1993-2001) vəzifəsində işləmişdir.

Aqrar elmlər üzrə fəlsəfə doktoru (1979), ekologiya ixtisası üzrə biologiya elmləri doktoru (1992) elmi dərəcələrini və professor elmi rütbəsini almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü seçilmişdir.

1996-cı ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1997-ci ildən 2015-ci ilə qədər Azərbaycan Respublikası Dövlət Torpaq Komitəsinin (2001-ci ildən Azərbaycan Respublikası DTXK) sədri olmuşdur.

2004-cü ildən BDU-nun Biologiya fakültəsinin (hazırda Ekologiya və Torpaqşünaslıq fakültəsinin) Torpaqşünaslıq kafedrasının müdiridir. 2011-ci ildən AMEA-nın Aqrar Elmlər Bölməsinin akademik-katibidir.

Alim tərəfindən Azərbaycan Respublikası üzrə torpaqların aqroekologiyası və bonitirovkası, torpaqların ekoloji münbitlik modelləri, torpaqların coğrafiyayılma qanunauyğunluqları müəyyən edilmiş və xəritələşdirilməsi aparılmış, torpaq örtüyü strukturası (TÖS) tədqiq edilmişdir; landşaft komplekslərinin və torpaq kadastr rayonlarının ekoloji qiymətləndirilməsi, ekoloji monitorinqi aparılmış və 3 dildə (Azərbaycan, rus, ingilis) Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi xəritələri hazırlanmışdır. Azərbaycan Respublikası Milli Atlasının məsul katibi olmuşdur.

Q.Məmmədov 673 elmi əsərin, o cümlədən 25 metodik tövsiyə və kitabçaların, 36 müəlliflik şəhadətnaməsi və patentin, 5 səmərəli təklifin, 12 dərslik və 30 monoqrafiyanın müəllifidir. Q.Məmmədov Beynəlxalq Noosfer Akademiyasının, Rusiya Ekologiya Akademiyasının, Beynəlxalq Ekoenergetika Akademiyasının və bir sıra başqa nüfuzlu beynəlxalq akademiyaların həqiqi üzvüdür. Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvüdür.

AMEA-nın "Xəbərləri" (Aqrar elmləri seriyası), "Aqrar və ekologiya elmləri" jurnallarının baş redaktoru (2003), Azərbaycan Respublikası Prezidenti Yanında AAK Ekspert Şurasının və Milli Ensiklopediya Şurasının üzvüdür. Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatın (YUNESKO) üzvü seçilmişdir (2012).

Q.Məmmədov elmi nəticələri, elmi-təşkilati və pedaqoji fəaliyyətinə görə akademik H.Əliyev adına mükafat, fəxri diplom və medalla təltif olunmuşdur (1997). 2013-cü ildə Kembric Universitetinin sertifikatına və "Əsrin tanınmış alimi" Beynəlxalq diplomuna və bir sıra yerli və beynəlxalq nüfuzlu təşkilatların mükafat və diplomlarına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Azərbaycan təbiət elminin patriarxı = The patriarch of natural science in Azerbaijan = Рамриарх естественных наук Азербайджана /Q.Məmmədov.-Bakı: [n. y.], 2007.- 128 s.

Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları: monoqrafiya /Q.Məmmədov; elmi red. M.Cəfərov.- Bakı: Elm, 2007.- 856 s.

Ekologiya, ətraf mühit və insan: dərslik /Q.Məmmədov, M.Xəlilov; elmi red. B.Budaqov.- Bakı: Elm, 2006.- 608 s.

Meşə ekologiyası: dərslik /Q.Məmmədov, K.Əsədov; elmi red. M.Xəlilov.-Bakı: Elm, 2010.- 452 s.

Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları /Q.Məmmədov.- Bakı, Elm, 2007.- 660 s.

İ n t e r n e t d ə

185.80.172.217/.../cgiirbis_64.exe?...Məmməd..page=addread&id=570

110 illiyi

Mirəli Qaşqay 1907-1977

Akademik

Mirəli Seyidəli oğlu Qaşqay 1907-ci il yanvar ayının 7-də Gəncə şəhərində, zadəgan ailəsində anadan olmuşdur. İlk təhsilini Gəncə şəhər gimnaziyasında almışdır. Musiqi ilə məşğul olmuş, tarda özəl ifa dərsləri almışdır. 15 yaşında olarkən, bolşeviklərin hakimiyyətə gəlməsi ilə həyatı tamamilə dəyişmiş, təhsili yarımçıq qalmış, ailəsini dolandırmaq üçün toylarda tar çalmaqla pul qazanmışdır. Yeni açılan teatrın orkestrində tar çalmış, daha sonra isə orkestrin rəhbəri seçilmişdir.

1923-cü ildə Gəncədən Bakıya gəlmiş, 1924-cü ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun dağmədən fakültəsinin geologiya kursuna qəbul olunmuşdur. 1930-cu ildə, institutu bitirdikdən sonra Zəglik alunit yataqlarında geoloji axtarış aparmaq üçün dəstəyə rəhbər təyin edilmişdir. 1930-1935-ci illərdə SSRİ EA-nın Petroqrafiya İnstitutunda aspiranturada təhsil almış, Şimali Qafqaza, Azərbaycana, Sibirə ekspedisiyaların tərkibində ezam olunmuş və dəyərli elmi məqalələrlə çıxış etmişdir.

1934-cü ildə İsti-su mineral bulaqlarının geoloji-petroqrafik və geokimyəvi səciyyəsinə dair namizədlik, 1942-ci ildə isə "Azərbaycanın əsas və ultrasəs süxurları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Mirəli Qaşqay bütün ömrünü Qafqazın geologiyasını və faydalı qazıntılarını öyrənməyə həsr etmişdir. Onun elmi fəaliyyəti mineralogiya və geologiya, tektonika və maqmatizm, petrologiya və metallogeniya, mineral suları və termal sular, stratiqrafiya və litologiya, tikinti materialları və s. elm sahələrini əhatə etmişdir.

O, Kiçik Qafqazda və Sibirdə bir sıra metal və qeyri-metal faydalı qazıntı yataqlarını və Kəlbəcərdə yerləşən perlit yatağını açmışdır. Akademik Mirəli Qaşqay filiz əmələgəlmə proseslərinin bir sıra fundamental problemlərini həll etmişdir.

O, nəinki görkəmli alim, həm də bacarıqlı elm təşkilatçısı idi. 1938-ci ildə Geologiya İnstitutunun, 1945-ci ildə isə Azərbaycan EA-nın təsisçilərindən biri və ilk akademik katibi olmuşdur. Onun təşəbbüsü və köməyi ilə BDU-da geoloji-coğrafiya fakültəsi, petroqrafiya, mineralogiya və kristaloqrafiya kafedrası, geologiya və faydalı qazıntılar muzeyi yaradılmışdır. Uzun illər ərzində akademik Mirəli Qaşqay Geologiya İnstitutunda filiz yataqlarının geokimyası və mineral kimya şöbəsinə rəhbərlik etmiş və böyük bir məktəb yaratmışdır.

Elmi rəhbərliyi altında 35 namizədlik, 10 doktorluq dissertasiyası müdafiə edilmişdir. 600-dən artıq elmi əsərin və 35 monoqrafiyanın müəllifidir.

"Azərbaycanın əsas və ultrasəs süxurları", "Azərbaycan mineral suları", "Perlitlər və obsidianlar və onların fiziki-kimyəvi xüsusiyyətləri", "Daşkəsənin petrologiyası və metallogeniyası", "Alunitlər, onların genezisi və istifadəsi", "Listvenitlər, onların genezisi və təsnifatı", "Azərbaycan alunit yataqları" kimi fundamental əsərləri dünya elminə qiymətli töhfədir.

Mirəli Qaşqay 1977-ci il aprel ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

2007-ci il aprelin 17-də 100 illik yubileyi ilə bağlı rejissor Elçin Musaoğlunun quruluşunda Mirəli Qaşqayın həyat və yaradıcılığından bəhs edən sənədli film hazırlanmışdır. "Qaşqayın son proqnozu" adlı filmin prodüseri isə Oqtay Mirqasımovdur.

Ə d ə b i y y a t

Azərbaycanın alunit yataqları /M.Qaşqay (red), İ.Babayev; AzSSR Elmlər Akad., akad. M.Qubkin ad. Geologiya İn-tu.-Bakı: Elm, 1976.-143 s.

Qiymətli və yarımqiymətli rəngli daşlar /M.Qaşqay, Ə.Mahmudov; [red.V.Hüseynov].-Bakı: Azərnəşr, 1973.-343 s.

Perlit və onun xalq təsərrüfatında əhəmiyyəti /M.Qaşqay, H.Mahmudov; [red. M.Məmmədov]; AzSSR "Bilik" Cəmiyyəti.-Bakı: Elm, 1972.-27 s.

Mirəli Qaşqay: bibliqrafiya /AzSSR EA Əsaslı Kitabxana; tərt. ed. İ.Səfərov; red. R.Kazımov.- Bakı: AzSSR EA, 1967.-159, [4] s.

Мир-Али Кашкай /Р.Агаев; [глав. ред. А.В.Петров].-Москва: Молодая гвардия, 2008.-282с

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Mirəli_Qaşqay
ganca.org/index.php?option...

85 illiyi

Məmməd Salmanov 1932

Akademik

Ədəbiyyat

Mikrobiologiya /M.Ə.Salmanov, Ömer Tav, B.Əlibəyov; elmi red.: P.Z.Muradov, İ.M.Kazımov.- Bakı: Nurlan, 2005.- 264 s.

AMEA Mikrobiologiya İnstitutu: mikrobiologiya elminin inkişafı /Məmməd Salmanov //Respublika.- 2014.- 13 iyun.- S.5.

Bir daha su haqqında /Məmməd Salmanov //Respublika.- 2013.- 28 avqust.- S. 3.

Tərəqqi dahisi: [ümummilli lider Heydər Əliyev haqqında] /M.Salmanov //Respublika.- 2013.- 15 may.- S.7.

İnternetdə

https://az.wikipedia.org/wiki/Məmməd_Salmanov haqqında. az/Qərbi.../49405-Məmməd+Salmanov.html

www.azmbi.az/salmanov.html

http://www.anl.az/down/meqale/respublika/2013/may/01.htm

Məmməd Əhəd oğlu Salmanov 1932-ci il yanvar ayının 12-də Qərbi Azərbaycanın İrəvan mahalının Zəngibasar (Uluxanlı) bölgəsinin Qaraqışlaq kəndində doğulmuşdur. 1955-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu (Gəncə) əla qiymətlərlə bitirdiyinə görə xüsusi vəkalətnamə ilə Azərbaycan Milli Emlər Akademiyasında aspiranturaya qəbul edilmişdir. 1956-1959-cu illərdə su mikrobiologiyası sahəsində daha geniş tədqiqatlar aparmaq məqsədilə, SSRİ Elmlər Akademiyasının Mikrobiologiya İnstitutuna və sonradan Lomonosov adına Moskva Dövlət Universitetinə mikrobiologiya sahəsində müxtəlif təcrübə proqramları çərçivəsində elmi işlərini davam etdirmək üçün ezam edilmişdir.

Məmməd Salmanovun Azərbaycanda su mikrobiologiyası elminin ərsəyə gəlməsi sahəsində böyük xidmətləri vardır. Ölkənin bütün su hövzələrinin və o cümlədən də Xəzər dənizinin ekologiya, hidrobiologiya, mikrobiologiyası baxımından araşdırılması onun birbaşa rəhbərliyi və iştirakı ilə həyata keçirilmişdir. Məmməd Salmanovun sanballı elmi tədqiqatlarından biri və başlıcası isə son 50 ildə Azərbaycanın əsas içməli su mənbələri olan Kür və Araz çaylarının başlanğıcından Xəzər dənizinə töküldüyü yerə qədər 5 dövlətin - Türkiyə, Gürcüstan, İran, Ermənistan və Azərbaycan ərazilərindəki dəyişikliklərin kompleks öyrənilməsidir.

1960-cı ildə "Kuybışev və Mingəçevir su anbarlarının formalaşmasında mikroorqanizmlərin rolunun müqayisəli öyrənilməsi" adlı namizədlik, 1982-ci ildə isə "Xəzər dənizində mikrobioloji rejim, fitoplanktonun məhsulu və üzvi maddələrin destruksiyası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edən Məmməd Salmanov 2001-ci ildə Azərbaycan MEA-nın müxbir, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Alim 325 elmi əsərin, o cümlədən 4 monoqrafiya, 6 elmi-kütləvi kitab, 3 dərslik və 2 elmi-metodiki tövsiyənin müəllifidir. Onun 280 elmi-populyar məqaləsi, oçerkləri nəşr edilmişdir.

Dünyanın müxtəlif ölkələrində keçirilmiş beynəlxalq elmi simpozium və konfranslarda iştirak etmişdir. Məmməd Salmanovun rəhbərliyi altında biologiya üzrə 12 fəlsəfə doktoru və 2 elmlər doktoru hazırlanmışdır. 2002-ci ildən AMEA Mikrobiologiya İnstitutunun direktoru vəzifəsində çalışır.

2005-ci ildə "Şöhrət" ordeni ilə təltif olunan Məmməd Salmanov bu gün də aktiv şəkildə elmi fəaliyyətlə məşğuldur.

90 illiyi

Əsgər Abdullayev 1927-1998

Mühəndis

Əsgər Ələkbər oğlu Abdullayev 1927-ci il yanvar ayının 1-də Qubadlı rayonunun Eyvazlı kəndində anadan olmuşdur.

1943-cü ildə Kəlbəcər şəhərində orta məktəbi bitirmiş, 1944-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) energetika fakültəsinə qəbul olmuşdur. 1949-cu ildə institutu bitirmiş, AEK-nın Energetika İnstitutunun əyani aspiranturasına qəbul olmuş, 1951-ci ildə SSRİ EA-nın Avtomatika və Telemexanika elmi-tədqiqat İnstitutunun (Moskva) aspiranturasına ezam edilmişdir. 1953-cü ildə "Ümumi qida magistralı ilə birləşmiş kompressor quyu qruplarının avtomatik tənzimlənməsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Həmin institutda işlədiyi illərdə adi aspirantdan yüksəkixtisaslı mütəxəssis səviyyəsinə qədər yol keçmişdir. 1954-cü ildə vətənə qayıdaraq Azərbaycan Neft Maşınqayırma Elmi-Tədqiqat İnstitutunda "Avtomatika və telemexanika" laboratoriyasını yaratmış və ona rəhbərlik etmişdir.

1957-ci ildə Ə.Adullayevə yaratdığı "Avtomatika və telemexanika" bölməsi əsasında Sumqayıtda neft və neftkimya sənaye sahələrinin kompleks avtomatlaşdırılması üzrə Elmi-Tədqiqat və Layihə İnstitutu yaratmaq həvalə olunmuş, 1959-cu ildə instituta direktor təyin edilmişdir. Onun rəhbərliyi ilə hazırlanmış 500-dən artıq qurğu hal-hazırda Azərbaycan, Qərbi Sibir, Qazaxıstan, Türkmənistan, Başqırdıstan və Tatarıstanın neft mədənlərinin quyularında istifadə edilir.

Ə.Abdullayev 1970-ci ildə dissertasiya müdafiə edərək elmlər doktoru adını almış, professor vəzifəsinə qədər yüksəlmiş, 1969-cu ildə respublika Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Respublikada ilk elm xadimidir ki, SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. Onun rəhbərlik etdiyi institut SSRİ-də neft və kimya sənayesinin avtomatlaşdırılması sahəsində yeganə elm ocağı idi.

1980-ci ildə Əli Bayramlıda (indiki Şirvan) "Cihazqayırma" və "Avtomatika və telemexanika" zavodları, Sumqayıtda təcrübə bazası işə salınmış, Horadiz qəsəbəsində, Cəbrayılda, Şuşada (Malıbəylidə), Qubadlıda, Lənkəranda zavod filialları, Qroznıda, Volqoqradda institutun filialları yaradılmışdır.

1985-ci ildə Bakı şəhərindəki Təcrübə zavodu və Əli Bayramlıdakı iki zavod əsasında "Neftqazavtomat" Elmi İstehsalat Birliyi yaradılmış, Ə.Abdullayev orada əvvəlcə baş direktor, 1994-cü ildən isə baş məsləhətçi vəzifəsində çalışmışdır.

Alimin rəhbərliyi altında 200-dən artıq texnika elmləri doktoru və namizədi yetişmişdir. O, 10-dan çox monaqrafiyanın, 300 elmi məqalənin, 60-dan artıq ixtiranın müəllifidir.

Əsgər Abdullayev 1988-ci ildə SSRİ Nazirlər Sovetinin mükafatını almışdır. "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" və "Oktyabr inqilabı" ordenləri ilə də təltif olunmuşdur. Avtomatik idarəetmə sistemi üzrə SSRİ Milli Komitəsi Bakı ərazi qrupunun, SSRİ Cihazqayırma Nazirliyinin "İdarəetmə sistemləri və vasitələri" elmi-texniki şurasının, ASE redaksiya heyəti "Kimya" redaksiya şurasının üzvü, "Bilik" cəmiyyətinin Sumqayıt şəhər şöbəsinin sədri olmuşdur.

Əsgər Ələkbər oğlu Abdullayev 1998-ci ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Avtomatik tənzimləmə: nəzəri əsasları: ali texniki məktəblər üçün dərs vəsaiti /Ə.Ə.Abdullayev; elmi red. T.Əliyev.-Bakı: Maarif, 1972.-471, [1] s.

Əsgər Ələkbər oğlu Abdullayev: Biblioqrafiya /AMEA; elmi red.T.A.Əliyev; tərtibçi G.Ə.Abdullayeva.-Bakı: Elm, 2007.-184 s.

İ n t e r n e t d ə

http://www.qubadli-ih.gov.az/page/11.html

Yeni il

Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Yeni ili bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

Yeni il bayramı Azərbaycanda da geniş qeyd edilir. Bu bayramın öz tarixçəsi var. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır. Başqa bir mənbə isə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə cəhd etmiş, bayramın yaranmasının azı 25 əsrlik tarixi olduğunu iddia etmişdir.

Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, İsa peyğəmbər dekabrın 24-də anadan olduğu üçün xristianlar bu günü İsa Məsihin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) "xilaskar allahın doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri Şaxta babadır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmir, torbalarındakı hədiyyələrlə uşaqları sevindirirlər.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. İlin başa çatdığını göstərən saat zənginin təntənəli sədaları altında sağlıqlar söyləyir, sonra isə şampan şərabı ilə dolu qədəhləri toqquşdurur, yeni ildə bir-birinə xoş günlər və sağlamlıq arzulayırlar.

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli yolkasız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu yolka təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq naminə süni yolkalarla da keçinmək olar. Çoxları yolka bəzəmək ənənəsini də xristian diniylə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan yolkanın bəzənməsi tarixi xristianlıqdan əvvəl başlamış və hansısa bir dinlə bağlı deyil. Yeni il yolkası haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində şam ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Amerikaya isə yolkanı burada məskunlaşan almanlar gətirmişlər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilmişdir. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilmiş, beləcə yolka bütün dünyada məşhurlaşmışdır.

Ə d ə b i y y a t

Anar. İstəklərin, amalların ortaqlaşdığı bayram /Anar //Xalq qəzeti.- 2016.- 6 yanvar.- S.3.

Əlibalaqızı, S. Dünyada Yeni il: Fərqli ənənə və mərasimlər /S.Əlibalaqızı //Mədəniyyət.- 2014.- 30 dekabr.- S.15.

İkramqızı, F. Yeni ili necə qarşılamalı? /F.İkramqızı //İki sahil.- 2013.- 29 dekabr.- S.13.

Mustafayev, O. Dünya xalqlarının yeni il ənənələri /O.Mustafayev //Azərbaycan müəllimi.- 2012.- 28 dekabr.- S.12.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/xalqqazeti/2016/yanvar/471081.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2014/dekabr/411677.htm

25 illiyi

Milli Olimpiya Komitəsi 1992

Azərbaycanda Milli Olimpiya Komitəsi 1992-ci il yanvar ayının 14-də keçirilmiş Ümumrespublika konfransında təsis edilmişdir. Milli Olimpiya Komitəsinin yaradılması və onun Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması ilə ölkəmizin Olimpiya Hərəkatında yeni bir dövr başlayır. Milli Olimpiya Komitəsinin tarixi, müstəqilliyimizin tarixi ilə üst-üstə düşür. 1992-ci ildən fəaliyyət göstərən Milli Olimpiya Komitəsinə 1997-ci ildə cənab İlham Əliyev sədr seçiləndən sonra Azərbaycanda olimpiya hərəkatının dirçəliş dövrü başlamışdır. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngiməyib. Hazırda ölkəmizin demək olar ki, bütün bölgələrində olimpiya idman kompleksləri vardır. Bir sıra ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Artıq Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatına müstəqil bir dövlət kimi qoşularaq öz idman potensialını tam nümayiş etdirmək imkanı əldə etdi. İdmanın müxtəlif növlərinin inkişafı üçün konkret addımlar atılmış, federasiyaların rəhbərliyi gücləndirilmişdir. Nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, idman cəmiyyətləri, klublar bir ailə kimi fəaliyyətə başlamış və beləliklə, idman uğurlarımızı şərtləndirmişdir.

Azərbaycan Beynəlxalq və Avropa Olimpiya komitələrinin fəal üzvüdür. Bizim uğurlarımız beynəlxalq idman qurumları tərəfindən qiymətləndirilir. İdmanın inkişafına verilən beynəlxalq dəstək və qiymət çox yüksək səviyyədədir. Beynəlxalq Olimpiya federasiyalarının dəstəyi ilə ölkəmizdə çoxsaylı idman yarışları - Avropa və dünya çempionatları, Olimpiya, qeyri-olimpiya idman növləri üzrə çempionatlar keçirilmişdir.

Milli Olimpiya Komitəsi Azərbaycanda Olimpiya Hərəkatının daha da genişlənməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onların beynəlxalq yarışlarda iştirakının təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Milli Olimpiya Komitəsi bu mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qurumları ilə, habelə dünyanın ayrı-ayrı olimpiya və idman təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilmişdir. Milli Olimpiya Komitəsi idmanın maddi-texniki bazasının genişləndirilməsi və müasirləşdirilməsi istiqamətində böyük uğurlar əldə etmişdir. İdmançılarımızın Olimpiya Oyunlarındakı nailiyyətləri, mötəbər idman yarışlarının keçirilməsində toplanmış təcrübə və beynəlxalq əlaqələrin yüksək səviyyədə qurulması Milli Olimpiya Komitəsini qitə olimpiya qurumlarının ön sıralarına çıxarmaqla nüfuzlu təşkilata çevirmişdir. Respublikamızın paytaxtı Bakı şəhəri 2020-ci il Olimpiya Oyunlarının keçirilməsi üçün namizədliyini irəli sürmüş və iddiaçı şəhər kimi qeydə alınmışdır.

2015-ci ildə Avropanın idman tarixində ilk dəfə baş tutan I Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycan, qitənin idman tarixinə yeni bir səhifə yazmağı bacardı. Azərbaycan ölkələrin medal cədvəlində fəxrlə II yerdə qərarlaşdı.

Bakı dünyada çox nüfuzlu "Formula-1" yarışlarına ev sahibliyi etdi. Dünya Şahmat Olimpiadası, İslam Həmrəylik Oyunları da ölkəmizdə keçiriləcək.

Ədəbiyyat

Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi 20 il: [1992-2012] /[Ç.Hüseynzadə, C.Rəhmanov; tərc. L.Hüseynova; dizayner A.Əliyev; foto. D.Nəcəfov [və b.]].- Bakı: [İMAK], 2012.- 455 s.

Əlizadə, Ş. Azərbaycan bu gün dünyada idman dövləti kimi tanınır: Dövlətimizin başçısı İlham Əliyev bildirib ki, ölkəmizin idman nailiyyətləri artıq dünyada yüksək qiymətləndirilir /Ş.Əlizadə //Respublika.-2015.- 7 yanvar.- S.1.

İnternetdə

http://www.anl.az/down/meqale/respublika/2015/yanvar/412435.pdf

Ümumxalq hüzn günü 1990



Ə d ə b i y y a t

Qasımova, M. Ağla, qərənfil, ağla...: Bakı. Fəlakətin gerçək məqamları /M.A.Qasımova, O.B.Qasımov; red. Ə.Ə.Qasımov.-Bakı: [s.n.], 2014.-244 s.

Aslanlı, H. Ermənilər yaxşı tanıyaq: xatirələr və düşüncələr /H.P.Aslanlı, F.Əmirli; red. B.Nəcəfov.- Bakı: Günəş-N, 2015.- 259, [1] s.

20 yanvar. Tariximizin qanlı və şanlı səhifəsi /layih. rəh. Ə.Həsənov, A.Aslanov; tərt., red. Ə.Mehdiyev, V.Əliyev, D.İsmayılov, E.Qədirli; tərc.: N.İsmayılov, N.Xıdırov, Ş.Əliyev [və b.].- Bakı: AzərTAc, 2014.- 353 s.

Süleymanzadə, M. Qara yanvar dialoqu: 1990-cı il 20 Yanvar faciəsinin 25 illiyinə həsr edilmiş kitab Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin tövsiyəsi ilə nəşr olunur /M.B.Süleymanzadə, Ş.Yaqubov; red. Y.Kərimov.- Bakı: Elm və təhsil, 2015.-191 s.

İ n t e r n e t d ə

www.20 january.az

20 Yanvar faciəsi Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır. 26 il öncə Azərbaycan xalqının taleyində də nəhs və qorxunc günlər yaşanırdı. Xalqımız qırmızı imperiyanın "Qızıl ordusu"nun, sovet hərb maşınının hücumuna məruz qalmış, təcavüzə uğramış, günahsız insanlar gülləbaran edilmiş, milli heysiyyətimiz tankların tırtılları altına atılmışdı.

20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq (Qarabağ) uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağı və acı ilə xatırlanacaq gün deyil, həm də xalqımızın şan və şərəf günüdür. 1990-cı ilin 20 yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri təhlil edilmiş, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilmişdir.

...Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu (rəsmi rəqəm 35 mini göstərir) yeridilmişdir. SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda faciə zamanı 137 insan öldürülmüş, 744 nəfər ağır xəsarət almış, 841 nəfər isə qanunsuz olaraq həbs edilmişdir. Sovet ordusunun əməliyyatları nəticəsində 200 mənzil, ev, şəxsi və dövlət əmlakı dağıdılmışdır. Öldürülənlər arasında beş millətin nümayəndələri, qadınlar və uşaqlar var idi. Qara Yanvarın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmış və bir daha geri qaytarılmamışdır.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi tədqiqatlarda da təsdiqlənir.

O gün Moskvada matəm saxlayan Heydər Əliyevin etiraz səsi bütün dünyaya yayılmışdı. O gün heç kəs başını aşağı əymədi, "Azadlıq!" sədası göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik... İndi nəyin bahasına olursa-olsun biz hamımız azadlığımızı qorumalıyıq. Budur bizim şəhidlər qarşısında müqəddəs borcumuz!

115 illiyi

Şamaxı zəlzələsi 1902



Azərbaycan ərazisində 9 ballıq seysmik zonaya daxil olan Şamaxıda tarix boyu dəfələrlə güclü zəlzələlər baş vermişdir. Lakin sonuncu dəfə 1902-ci il Şamaxı zəlzələsi - Azərbaycan tarixinin ən güclü, ən dəhşətli zəlzələsi hesab olunur. 1902-ci il yanvar ayının 31-də gündüz saat 12 radələrində baş vermiş zəlzələ nəticəsində şəhər tamamilə dağılmışdır. Təsadüfi deyil ki, o zamanın bir sıra mətbuat nümunələri bu təbii fəlakəti "Qiyamət günü" ilə müqayisə edərək onun dəhşətləri barədə məlumatlar dərc ediblər.

Sonrakı günlərdə fəlakətin miqyası aydınlaşdı. Zəlzələ təkcə Şamaxını yox, ətraf 125 kəndi də əhatə edirdi. Məlumatlara görə, 1902-ci ildəki zəlzələ zamanı şəhərin 2 min nəfərdən artıq sakini həlak olmuş, minlərlə insan yaralanmış, 20 min nəfərədək əhali evsiz-eşiksiz qalmış, 4 min yaşayış evi, 8 qədim məscid, iki kəlisa, 10-dan artıq mədrəsə, 40 qədim Şərq hamamı, onlarla ticarət obyekti, bazar-dükan dağılaraq yerlə yeksan olmuşdur. Şəhərdə zəlzələsonrası böyük panika yaşanmış, əhali qorxu içərisində qaçmağa başlamışdır.

Şəhərdəki 5 min evdən 4 mini tamamilə dağılmış, Şamaxı uyezdində yerləşən 126 kənddə 3 mindən çox ev, 40 məscid və çoxlu təsərrüfat tikilileri uçmuşdur.

Daha əvvəl - 1806, 1859 və 1872-ci illərdə də şəhər zəlzələdən dağılmış, hər dəfə yenidən tikilmişdi. 1859-cu il zəlzələsindən sonra Şamaxı quberniya paytaxtı statusunu itirmiş, paytaxtı Bakı olmaqla Bakı quberniyası yaradılmışdır.

Zəlzələdən sonra hökumət rəsmiləri əhaliyə yardım etmək üçün əraziyə gəlmişdilər. Bütün bu faktlar ötən əsrin əvvəllərində Sankt-Peterburq şəhərində çap olunan "Niva" adlı dərginin 97-ci sayında rəsmən öz təsdiqini tapmışdır. Hazırda həmin dərginin zəlzələ ilə bağlı səhifələri Şamaxı Diyarşünaslıq Muzeyində saxlanmaqdadır.

Zəlzələdən 5 gün sonra - fevralın 5-də "Kaspi" qəzeti yazırdı: "Şəhərin aşağı və orta hissəsi, yəni, tatarlar yaşayan hissələr torpaqla bir olub. Bütün tikililər minlərlə adamı udmuş xarabalıqlara dönüb. Hər şey - məktəblər, məscidlər, o cümlədən əvvəlki zəlzələlərə tab gətirməyi bacarmış Cümə məscidi, hamamlar, birmərtəbəli və ikimərtəbəli evlər, varlıların və yoxsulların evləri - hamısı zəlzələyə qurban gedib. 12 hamamın xarabaları altında çoxlu qadın qalıb. Yanvarın 31-i cümə axşamı günüydü və həmin gün hamamlarda qadınların yuyunmaq növbəsi idi... Rus-tatar məktəbi uçub. Şamaxının yuxarı hissəsi - erməni məhəlləsi də dağılıb və cəmisi 30-40 ev salamat qalıb. Pravoslav kilsəsi, kazarmalar, xəzinədarlıq binası dağılıb, türmə və qəza idarəsinin binası zədələnib. Bu hissədə küçələr enli olduğundan ölənlər azdır. 30 ermənininin və 200 müsəlmanın cəsədləri çıxarılıb. Hesablamalara görə, uçqunların altında hələ 2 min adam qalmaqdadır."

Birinci hadisə yerinə Qafqaz dağlıq idarəsinin tapşırığı üzrə mədən mühəndisi Şahqulu Mirzə gəldi. Onun apardığı araşdırmaların nəticələrinə əsasən ilk yazılar 1902-ci ildə nəşr olundu, 1903-cü ildə zəlzələ haqqında yazılan kitab işıq üzü gördü.

Baş verən böyük dağıntıların və qurbanların iki səbəbi təyin edildi. Birinci səbəb Şamaxının çox hissəsinin zəif qruntlar üzərində, yəni yumşaq, su ilə təmin edilmiş torpaqlarda yerləşməsi, ikinci səbəb şəhərdəki tikinti işlərinin pis aparılması idi.

Ə d ə b i y y a t

Kifayət. 1902-ci il. Şamaxı zəlzələsi xatirələrdə /Kifayət //Azad Azərbaycan.- 2013.- 20 avqust, № 118.- C.7.

Zəlzələ //Şamaxı ensiklopediyası /ideya müəl. və naşir E.Süleymanov; baş red. F.Babayev.-Bakı, 2015.- S.325-329.

İ n t e r n e t d ə

http://www.bizimyol.info/news/6642.html

portal.azertag.az/node/3146

FEVRAL

21 yanvar-
18 fevral

Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xarakterə emosional, təbiətcə həssas olurlar.

Ç.	1
C.A.	2
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	7
Ç.	8
C.A.	9
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	14
Ç.	15
C.A.	16
C.	**17**
Ş.	18
B.	19
B.E.	20
Ç.A.	21
Ç.	22
C.A.	23
C.	24
Ş.	25
B.	**26**
B.E	27
Ç.A.	28

- *Gənclər Günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- ***Xocavənd rayonunun Qaradağlı kəndinin işğalının 25-ci ildönümü (17.02.1992)***
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- ***Xocalı soyqırımının 25-ci ildönümü (26.02.1992)***

300 il Molla Pənah Vaqif 1717-1797

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Şairin əsl adı Pənah, atasının adı isə Mehdi ağadır. Vaqif yaxşı təhsil görmüş, fars və ərəb dillərini öyrənmişdi. Astronomiya, riyaziyyat, musiqi və poetika üzrə geniş biliyə malik idi.

Qazaxda, sonra isə Qarabağda mədrəsələrdə dərs deyib, elmi və bacarığı ilə fərqləndiyinə görə Molla Pənah adını almışdır. Şairin şöhrəti Qarabağ hakimi İbrahimxəlil xana çatmış və saraya dəvət edilərək Qarabağ xanının vəziri vəzifəsini tutmuşdur. Vaqif özünü layiqli dövlət xadimi, müdrik və uzaqgörən bir siyasətçi kimi göstərə bilmişdir.

Vaqif Şərq poeziyasının bütün klassik formalarından istifadə etsə də, yaradıcılığında əsas yeri qoşma janrı tutub və o, heca vəznində Azərbaycan poeziyasının bir çox parlaq nümunələrini yaradıb.

Onun "Durnalar", "Heyran olmuşam", "Toy adamları", "Sonalar kimi", "Tel nazik" və başqa şeirlərinə mahnılar bəstələnib. Səməd Vurğun "Vaqif" dramını və Ramiz Mustafayev eyniadlı operanı istedadlı şairə həsr edib.

Milli ədəbiyyat

Əməkdar mədəniyyət işçisi, nasir, publisist, filologiya elmləri doktoru Rəhmanzadə Fazil Şamil oğlunun (09.02.1942) anadan olmasının 75 illiyi 43
Şair İsgəndərov İsgəndər Etibar oğlunun (İsgəndər Etibar) (15.02.1937) anadan olmasının 80 illiyi
Əməkdar incəsənət xadimi, yazıçı Əzimzadə Yusif Əhmədulla oğlunun (22.02.1917-06.03.1984) anadan olmasının 100 illiyi 44
Əməkdar jurnalist, yazıçı-publisist Akif Əlinin (22.02.1952) anadan olmasının 65 illiyi

Dünya ədəbiyyatı

İngilis yazıçısı Dikkens Çarlzın (07.02.1812-09.06.1870) anadan olmasının 205 illiyi 45
Fransız yazıçısı Hüqo Viktor Marinin (26.02.1802-22.05.1885) anadan olmasının 215 illiyi
Fransız maarifçi filosofu Russo Jan Jakın (28.02.1712-02.07.1778) anadan olmasının 305 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

AMEA-nın müxbir üzvü, professor, memar Qasımzadə Ənvər Əli oğlunun (12.02.1912-12.03.1969) anadan olmasının 105 illiyi 46

Musiqi. Opera. Balet

Xalq artisti, bəstəkar Mansurov Eldar Bəhram oğlunun (28.02.1952) anadan olmasının 65 illiyi 47

Teatr. Kino

Xalq artisti, rejissor Haşımov Məhərrəm Kazım oğlunun (02.02.1912-02.05.1969) anadan olmasının 105 illiyi 48
Xalq artisti, rejissor Məmmədbəyov (Məmmədbəyli) Lütfi Şahbaz oğlunun (06.02.1927-01.02.2004) anadan olmasının 90 illiyi 49
Xalq artisti Cəfərxanova Roza Heydər qızının (23.02.1927) anadan olmasının 90 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əkbərov Akif Abbas oğlunun (02.02.1952-

08.10.1992) anadan olmasının 65 illiyi 50

Azərbaycanın Milli Qəhrəmanı Şamoyev Firudin İsa oğlunun (07.02.1962-13.04.1992) anadan olmasının 55 illiyi 51

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Rövşən Şəmil oğlunun (22.02.1967-11.05.1992) anadan olmasının 50 illiyi 52

Azərbaycanın Milli Qəhrəmanı Mahmudov Ərəstun İspəndi oğlunun (23.02.1957-28.01.1992) anadan olmasının 60 illiyi 53

Azərbaycanın Milli Qəhrəmanı İsmayılov İnqilab Ələkbər oğlunun (24.02.1962-12.06.1992) anadan olmasının 55 illiyi 54

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Elman Süleyman oğlunun (28.04.1952-22.09.1993) anadan olmasının 65 illiyi 55

Siyasət. Hüquq. Hərbi iş

İqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə dövlət müşaviri Axundov Vahid Cümşüd oğlunun (09.02.1942) anadan olmasının 75 illiyi 56

Amerika dövlət xadimi Vaşinqton Corcun (22.02.1732-14.12.1799) anadan olmasının 285 illiyi 57

General-mayor Həmidov Məmmədşərif Həbibulla oğlunun (23.02.1917-14.02.1969) anadan olmasının 100 illiyi 58

Fəlsəfə. İqtisadiyyat

SSRİ-nin fəxri neftçisi, texnika elmləri doktoru, professor Quliyev İsrafil Piri oğlunun (13.02.1917-1981) anadan olmasının 100 illiyi 59

Professor, fəlsəfə elmləri doktoru Rüstəmov İzzət Əşrəf oğlunun (15.02.1932) anadan olmasının 85 illiyi

Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Xəlilov Səlahəddin Sədrəddin oğlunun (22.02.1952) anadan olmasının 65 illiyi

Mədəniyyət. Maarif. Təhsil

Görkəmli mədəniyyət xadimi, miniatür kitab muzeyinin təsisçisi və rəhbəri Salahova Zərifə Teymur qızının (02.02.1932) anadan olmasının 85 illiyi 60

Akademik, ədəbiyyatşünas Axundov Ağamusa Ağası oğlunun (02.02.1932-05.09.2015) anadan olmasının 85 illiyi 61

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas Qəhrəmanov Cahangir Vahid oğlunun (10.02.1927-29.06.1995) anadan olmasının 90 illiyi 62

Filologiya elmləri doktoru, professor Xəlilov Əmirxan Məhərrəm oğlunun (23.02.1937) anadan olmasının 80 illiyi 63

Coğrafiya. Geologiya

Əməkdar elm xadimi, coğrafiya elmləri doktoru Nəzərova Balacaxanım Teymur qızının (25.02.1917) anadan olmasının 100 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Akademik, riyaziyyatçı alim İbrahimov İbrahim İbiş oğlunun (28.02.1912-06.11.1994) anadan olmasının 105 illiyi 64

Kimya.Biologiya.Tibb

Tibb elmləri doktoru, nevropotoloq Əfəndiyeva Fəridə Məmməd qızının (06.02.1922) anadan olmasının 95 illiyi
Virusoloq, baytarlıq elmləri doktoru Əliyeva Nəcibə Abbas qızının (22.02.1927) anadan olmasının 90 illiyi
Akademik Sadıxov Kamil İsmayıl oğlunun (27.02.1927) anadan olmasının 90 illiyi 65
AMEA-nın müxbir üzvü Qasımov Xəlil Məmmədəli oğlunun (28.02.1942) anadan olmasının 75 illiyi

Texnika.Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru Əliyev Rafiq Əziz oğlunun (10.02.1942) anadan olmasının 75 illiyi 66

İdman

Əməkdar bədən tərbiyəsi və idman xadimi Babanlı Tofiq Xanlar oğlunun (14.02.1937) anadan olmasının 80 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Kitabxanaşünas, pedaqoq, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədov Mehmanəli Əkbər oğlunun (18.02.1957) anadan olmasının 60 illiyi 67

Tarixdə bu gün

Gənclər Günü (02.1997) 68
Siyəzən rayonu yaradılmışdır (02.02.1992)
Ümumdünya Xərçəng Günü (04.02)
Beynəlxalq İnternet Təhlükəsizliyi Günü (09.02.2004)
Şuşa rayonunun Quşçular və Malıbəyli kəndlərinin işğalının 25-ci ildönümü (11.02.1992-ci il) 69
Azərbaycan Respublikası Mərkəzi Bankı yaradılmışdır (11.02.1992)
Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)
Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO - Economic Cooperation Organization) üzvlüyə qəbul olunmuşdur (16.02.1992)
Xocavənd rayonunun Qaradağlı kəndinin işğalının 25-ci ildönümü (17.02.1992) 70
Ümumdünya Su Məmələlərinin Mühafizəsi Günü (19.02.1986)
Beynəlxalq Ana Dili Günü (21.02.1999) 71
Xocalı soyqırımının 25-ci ildönümü (26.02.1992) 72-73
Ümumdünya Televiziya Günü (28.02.1997)

QAN YADDAŞIMIZ!

Vətən torpaqları bizi gözləyir!

1988-ci ilin fevral ayından Ermənistanın Azərbaycan Respublikası ərazisinə qarşı təcavüzünə, Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalına başlanmışdır. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayon işğal edilmişdir.

Beləliklə, Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m^2-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir.

İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də aqibəti belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4,4 000 km²

Xankəndinin işğal tarixi - 28 dekabr 1991-ci il (ərazisi - 1043 km², əhalisi-57000)
Xocalının işğal tarixi - 26 fevral 1992-ci il (ərazisi - 936 km², əhalisi-25332)
Şuşanın işğal tarixi - 8 may 1992-ci il (ərazisi - 289 km², əhalisi-31499)
Laçının işğal tarixi - 17 may 1992-ci il (ərazisi – 1835 km², əhalisi 72 228)
Xocavəndin işğal tarixi - 2 oktyabr 1992-ci il (ərazisi - 1458 km² , əhalisi-41 725)
Kəlbəcərin işğal tarixi - 2 aprel 1993-cü il (ərazisi - 3054 km², əhalisi-85 228)
Ağdərənin işğal tarixi - 7 iyul 1993-cü il (ərazisi - 1705 km², əhalisi-14000)
Ağdamın işğal tarixi - 23 iyul 1993-cü il (ərazisi - 1 154 km², əhalisi-175400)
Cəbrayılın işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1049 km², əhalisi-54430)
Füzulinin işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1386 km² , əhalisi-105000)
Qubadlının işğal tarixi - 31 avqust 1993-cü il (ərazisi - 802 km², əhalisi-37 400)
Zəngilanın işğal tarixi - 29 oktyabr 1993-cü il (ərazisi - 707 km², əhalisi-33900)

75 illiyi

Fazil Rəhmanzadə 1942

Yazıçı-publisist

Ə d ə b i y y a t

Bu isimdə bir can...: Azərbaycanın XX yüzildəki intibahı ilə bağlı tarixi-nəzəri, bədii-sənədli, publisistik qeydlər /F.Rəhmanzadə; məsl. və baş red. R.Hüseynov; red. Ş.Rəhmanzadə.-Bakı: [Apostroff MMC], 2015.- K.1.-583 s.

Böyük yaşantının naxışları: Xalq rəssamı Tahir Salahovun həyatına bir baxış = Узоры большой жизни: взгляд на жизнь народного художника Таира Салахова /F.Rəhmanzadə; bur. məs. T.Salahov; red.: O.Şıxəliyev, F.Qurbanova.- Bakı: İndigo, 2008.- 135 s.

Lütfiyar İmanov: ömür yollarından məqamlar, yaradıcılıq səhifələri /F.Rəhmanzadə; elmi red. R.Zöhrabov; red. F.Qurbanova.- Bakı: Zərdabi LTD MMC NPM, 2008.- 224, [35] s.

Yol: tarixi-publisistik qeydlər /F.Rəhmanzadə; red.: Ş.Rəhmanzadə, F.Qurbanova.- Bakı: Azərnəşr, 2012.- K.II.- 672 s.

Fazil Şamil oğlu Rəhmanzadə 1942-ci il fevral ayının 9-da Bakıda anadan olmuşdur. 199 saylı orta məktəbi bitirmiş, 1961-1965-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin axşam şöbəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1959-cu ildə "Azərbaycan bədən tərbiyəçisi" ("İdman") qəzeti redaksiyasında korrektor kimi başlamışdır. 1961-ci ildən "Bakı" qəzeti redaksiyasında ədəbi işçi, 1966-cı ildən sonra isə uzun müddət redaksiyanın Mədəniyyət və incəsənət şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Mətbuatda müxtəlif səpkili yazılarla çıxış etmişdir. Məqalə və resenziyaları Azərbaycandan əlavə Moskva, Bolqarıstan, Özbəkistan, Yuqoslaviya, Tacikistan, Türkiyə, İran, Misir, İraq qəzet və jurnallarında da dərc edilmişdir. Xüsusən onun "Jurnalistin cib dəftərindən" rubrikası ilə çıxan səviyyəli yazıları müəllifinə böyük şöhrət qazandırmışdır.

Fazil Rəhmanzadə xeyli publisistik kitabın müəllifidir. "Haradasa görüşmüşük", "Gözəlliyə açılan pəncərə", "Adın yadigar qalsın", "Ömür qısa deyil", "Əsrə bərabər gecə", "Yol", rus dilində "Tale töhfəsi" («Дар судьбы»), "Doqquza qədər say" və çox sayda kitablar bu qəbildəndir.

Müəllifin Azərbaycan incəsənət və mədəniyyətinin ən görkəmli nümayəndələrinə həsr olunmuş irihəcmli kitabları, habelə çox önəmli yaradıcı sənət adamlarından söhbət açan sanballı məqalə və resenziyaları oxucular tərəfindən maraqla qarşılanmışdır. "Nəsibə Zeynalova", "Nəğmə dolu könül" (Zeynəb Xanlarova haqqında), "Oxuyan ürəkdir" (Lütfiyar İmanov haqqında),"Sənətkar qüdrəti" (Şəmsi Bədəlbəyli haqqında), "Bədəlbəylilər", "Sən olmasaydın..." (Müslüm Maqomayev haqqında) və s. kitabları monumental yaradıcılıq məhsullarıdır.

1994-cü ildə Vaşinqtonun "Caan book" şirkətinin nəşr evi F.Rəhmanzadənin "Sən mənimsən, Azərbaycan" kitabını ingilis dilində amerikalı oxuculara çatdırmışdır. Həmin əsər Azərbaycan tarixinin, varlığının real məna daşıyan dövrlərinə diqqəti yönəldir.

Dövri mətbuatda mütəmadi olaraq Fazil Rəhmanzadə yaradıcılığını, onun mətbuat tariximizdə, xüsusən publisistikamızda mövqeyini, yerini çox yüksək dəyərləndirən çoxsaylı resenziyalar və rəylər dərc edilməkdədir. Akademik Urxan Ələkbərovun, professorlar Gülnaz Abdullazadənin,Kamran Məmmədovun, Qulu Xəlilovun, Xalq artisti, rejissor Vasif Babayevin və digərlərinin "Exo", "Zerkalo", "Xalq qəzeti", "Respublika", "525-ci qəzet" və s. mətbuat orqanlarında çıxan sanballı qeydləri, məqalə və resenziyaları buna misaldır.

O, ilhamlı yaradıcılıq fəaliyyətini yenə də gənclik eşqi ilə davam etdirir. Son illərdə onun "Yol" (ikinci hissə), "Bu isimdə bir can..." (iki kitab) kimi fundamental bədii-publisistik əsərləri işıq üzü görmüşdür.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin və Qərb Universitetinin professoru, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının filologiya elmləri doktorudur.

Fazil Rəhmanzadənin yaradıcılığı layiqincə qiymətləndirilmişdir. O, Azərbaycanın Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, "Qızıl qələm", "Dan ulduzu", "Humay", habelə H.B.Zərdabi adına mükafatlarla təltif edilmişdir.

100 illiyi

Yusif Əzimzadə 1917-1984

65 illiyi

Yazıçı

Yusif Əhmədulla oğlu Əzimzadə 1917-ci il fevral ayının 22-də Bakıda anadan olmuşdur.

1930-1937-ci illərdə natamam orta məktəbi bitirib N.Nərimanov adına Sənaye Texnikumunun elektrik-mexanika şöbəsində təhsil almışdır.

1934-1937-ci illərdə həm də Bakı şəhər rayonlarının elektrik yarımstansiyalarında işləmişdir.

Tələbə ikən şeirləri "Ədəbiyyat", "Gənc işçi", "Yeni yol" və "Azərbaycan gəncləri" qəzetlərində müntəzəm çap olunmuşdur. Əsərləri müstəsna hallarda "Ə.Yusif", yaxud "Y.Əhədoğlu" imzaları ilə nəşr edilirdi.

1937-1939-ci illərdə Bakı hərbi məktəbini leytenant rütbəsi ilə bitirmişdir. Qərbi Ukraynanın azad olunmasında, ağ finlərə qarşı döyüşlərdə iştirak etmişdir.

1940-cı ildə xəstəliyinə görə tərxis olunmuş, iki il "Abşeron kolxozçusu" qəzeti redaksiyasında ədəbi işçi, katib, 1942-1944-cü illərdə isə "Ədəbiyyat qəzeti"ndə, "İnqilab və mədəniyyət" jurnalında ədəbi işçi, Nəsr şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

1944-1945-cü illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun Böyük Vətən müharibəsi şöbəsində baş elmi işçi, 1945-1947-ci illərdə M.Qorki adına Bakı Gənc Tamaşaçılar Teatrında ədəbi hissənin şöbə müdiri, 1948-1951-ci illərdə "İnqilab və mədəniyyət" jurnalında tənqid şöbəsinin müdiri, 1951-1952-ci illərdə Azərnəşr və Uşaqgəncnəşrdə Bədii ədəbiyyat şöbəsinin redaktoru, "İnqilab və mədəniyyət" jurnalı, sonra "Ədəbiyyat qəzeti" redaksiyalarında məsul katib, "Göyərçin" jurnalının məsul redaktoru, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru, 1966-1971-ci illərdə "Ulduz" gənclik jurnalında redaktorəvəzi, Azərbaycan Yazıçılar Birliyində bədii tərcümə üzrə məsləhətçi, 1971-1978-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor olmuşdur. 1971-ci ildə Bakı şəhəri və 26 Bakı Komissarı adına rayon Sovetinin deputatı seçilmişdir.

1957-ci ildə "Anacan" pyesinə görə musiqili teatrların ümumittifaq festivalının laureatı diplomuna layiq görülmüşdür. Keçmiş SSRİ respublikalarının teatrlarında "Çiçəklər səltənəti", "Anacan", "Nəsrəddin", "Aprel səhəri" və "Qonşular" dram əsərləri səhnəyə qoyulmuşdur. Onun tərcümə etdiyi pyeslər (Konstantin Simonovun "Rus məsələsi", Sergey Mixalkovun "Qırmızı qalstuk", Y.Soloviçin "Qəribə dilənçi", O.Bodıkovun "Qaraqum faciəsi", Ş.Xusainovun "Anam gəldi") Azərbaycan teatrlarında səhnələşdirilmişdir.

"Pravda", "İzvestiya", "Trud" və "Literaturnaya qazeta" kimi mərkəzi qəzetlərdə müntəzəm çıxış etmişdir. Ümumittifaq Yazıçılar İttifaqının V qurultayına nümayəndə seçilmişdir. Moldaviyada Azərbaycan mədəniyyəti günlərində (1960), Bryansk, Voroşilovqrad və Qərbi Sibirin Tümen vilayətində Sovet ədəbiyyatı günlərində (1970, 1973, 1974) iştirak etmişdir. SSRİ medalları və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif edilmişdir. 1979-cu ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Yusif Əhmədulla oğlu Əzimzadə 1984-cü il mart ayının 6-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Həmişə borcluyuq: bədii-sənədli nəsr, publisistika /Y.Ə.Əzimzadə; [red. S.Hüseynova].- Bakı: Yazıçı, 1980.- 284 s.

O, qərib deyildi: roman /Y.Ə.Əzimzadə; [red. M.Zeynalov].- Bakı: Gənclik, 1981.- 269, [3] s.

Mənim mahnılarım: [povestlər və hekayələr] /Y.Ə.Əzimzadə.- Bakı: Azərnəşr, 1976.-302 s.

Unutmayın /Y.Ə.Əzimzadə; [red. R.Hacıyeva].- Bakı: Gənclik, 1973.- 122 s.

Əhmədov, T. Yusif Əzimzadə //Əhmədov T. Azərbycan yazıçıları XX-XXI yüzillikdə: ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.999-1000.

İ n t e r n e t d ə

arxiv.az/az/salamnews.org/9856417

kitabmoz.com/pa_tercuemci/yusif-əzimzadə

65 illiyi

Akif Əli
1952

Yazıçı-publisist

Akif Əli oğlu Əli (Akif Əli) 1952-ci il fevral ayının 22-də Şuşa şəhərində, hüquqşünas ailəsində anadan olmuşdur. Orta məktəbi Bakıda bitirmişdir. 1974-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) ali təhsilini başa vurmuşdur.

1978-1987-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində radionun Satira və yumor şöbəsində kiçik redaktor, redaktor və şöbə müdiri, televiziyanın isə Gənclər üçün proqramlar Baş redaksiyasının Baş redaktoru vəzifələrində çalışmışdır. Çoxlu sayda elmi və bədii-publisistik məqalələrin, kino-tele-radio ssenarilərinin, kitabların, "Mozalan" kino-süjetlərinin və tərcümə əsərlərinin müəllifidir.

1989-cu ildə Bakı Ali Partiya Məktəbinin əyani kursunu bitirmişdir. 1990-cı ildə "Vətən səsi" qəzetinin yaradılmasında iştirak etmiş, 1991-1993-cü illərdə həmin qəzetin baş redaktoru vəzifəsində çalışmışdır. Elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda (indiki Dövlət İdarəçilik Akademiyası) baş müəllim, dosent, Mədəniyyətşünaslıq kafedrasının müdiri (1992-1994) işləmişdir. 1988-ci ildə filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini almış, 2000-ci ildə dosent elmi rütbəsinə yiyələnmişdir.

1974-1978-ci illərdə "Azərbaycan film", "Tacikfilm", "Lenfilm" kinostudiyalarında filmlərə çəkilmişdir. "Uzun müharibədə qısa görüşlər" ("Tacikfilm") filmində Rüstəm, "Tütək səsi" filmində Tapdıq, "Arxadan vurulan zərbə" filmində ("Azərbaycanfilm") Fazil və başqa obrazları yaratmışdır.

Akif Əli məhsuldar ədəbi fəaliyyət göstərmiş - "Gözəlliyin qədrini bilək" (1984), "Azərbaycanın müasir kinoaktyorları" (1984), "Unudulmaz yollar" (1985), "Məhəbbət təranələri" (1989), "Qaragöz oyunu" (1999), "M.Ə.Sabirin satira sənətkarlığı" (1999, 2012), "Öncə – vətəndir" (2003), "Böyük ömrün anları" (2004), "İdrak" (2007), "Vətən mücadiləsi" (2011), "Azman" (2013) kitabları çap olunmuşdur. Bunlardan başqa A.Qessenin "Olmuşlar, düşüncələr", V.Mayakovskinin "Taxtabiti", M.Zoşşenkonun "Nəhs günü", J.B.Molyerin "Meşşanın zadəganlığı", A.Soljenitsinin "Matryonanın ocağı", A. Çexovun "Hekayələr", Qrimm qardaşlarının "Bremen musiqiçiləri", M.Takaxasi "Kəpənək mövsümü", M.Qelprin "Şam yanırdı" və s. əsərləri tərcümə etmişdir.

"Qızıl qələm" mükafatı laureatı, "Məmməd Araz" ("Kaspi" qəzeti) və "Dəfnə" (Azərbaycan Tərcümə Mərkəzi) ədəbi müsabiqələrinin qalibidir. 2013-cü ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş, 2015-ci ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

1994-cü ildən Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışır. II dərəcəli Dövlət müşaviridir.

AzTv-nin "Mədəniyyət" kanalında "Zaman və məkan", İTV-də isə "Vətənin səsi" televiziya proqramlarının müəllifi və aparıcısıdır.

Ədəbiyyat

Böyük ömrün anları: Mustafa Kamal Atatürkün və Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən fəlsəfi-publisistik foto-illüstrativ esse /Akif Əli.- Bakı: Təhsil, 2004.- 220 s.

Mirzə Ələkbər Sabirin satira sənətkarlığı /Akif Əli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2012.- 253, [3] s.

"Açıq kitabxana" və ya oxunan və oxunmayan kitablar /Akif Əli //İki sahil.-2016.- 20 iyul.- S.14.

Odlar Yurdunun mədəniyyəti: Publisistik düşüncələr /Akif Əli //İki sahil.-2016.- 28 sentyabr.- S.22.

İnternetdə

www.akifali.com

https://az.wikipedia.org/wiki/Akif_Əli

news.lent.az/news/110002

105 illiyi

Ənvər Qasımzadə 1912-1969

Memar

Ə d ə b i y y a t

Daşdəmirli, Ə. Azərbaycan Memarlıq və İnşaat Universitetində professor Ənvər Qasımzadənin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib /Ə.Daşdəmirli //Azərbaycan müəllimi.- 2012.- 20 aprel.- S.2.

Ələsgərov, A. Milli memarlığımızın görkəmli nümayəndəsi /Abbas Ələsgərov //Xalq qəzeti.- 2012.- 12 fevral.- S.8.

Дадашев. Усейнов /Э.А.Касим-заде, Ю.С.Яралов; [ред. А.З.Гимпельсон; худож. И.И.Фомина].- [Москва]: Гос. изд-во лит. по строительству и архитектуре, 1951.- 129, [3] с., [2] л. Мастера советской архитектуры.

Касимзаде Энвер Али оглы //Большая советская энциклопедия.- М., 1973.- Т.XI.- С.496.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/az_muellimi/2012/aprel/246794.htm

Ənvər Əli oğlu Qasımzadə 1912-ci il fevral ayının 12-də Bakı quberniyasının Salyan şəhərində anadan olmuşdur. İlk təhsilini Bakı Müəllimlər Seminariyasının nümunəvi məktəbində almış, 1930-cu ilin dekabrında N.Nərimanov adına Azərbaycan Sənaye Texnikumunun inşaat şöbəsini bitirmiş və M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna göndərilmişdir. 1936-cı ildə burada ali təhsilini bitirmiş və mühəndis-memar ixtisasına yiyələnmişdir.

1934-cü ildən əmək fəaliyyətinə başlamış, "Azəridövlətlayihə" təşkilatında çalışmışdır. Həmin dövrdə həmçinin Bakı İnşaat Texnikumunda dərs demişdir. 1941-ci ildə Azərbaycan SSR Kommunal Təsərrüfatı Xalq Komissarlığı yanında Mənzil Kommunal Baş İdarəsinin rəisi və eyni zamanda, Bakı İnşaat Texnikumunun direktoru vəzifələrinə təyin edilmişdir.

1946-cı ilin iyununda Azərbaycan hökümətinin müraciəti əsasında hərbi xidmətdən geri çağırılmışdır. 1947-ci ildən Azərbaycan SSR Nazirlər Sovetinin Memarlıq İşləri üzrə İdarəsinin rəisi, 1951-1953-cü illərdə Bakı Şəhər Soveti İcraiyyə Komitəsi sədrinin I müavini, 1953-1955-ci illərdə Tikinti naziri, 1955-1957-ci illərdə Dövlət Tikinti Komitəsinin sədri, 1957-1959-cu illərdə nazir - Dövlət Plan Komitəsi sədrinin I müavini vəzifələrində çalışmışdır. O çalışırdı ki, müasir Azərbaycan memarlığında toplanmış tarixi irsimiz, milli çalarlarımız, ornamentlərimiz geniş tətbiq olunsun, özünəməxsusluğunu itirməsin.

Ə.Qasımzadə 1959-cu ildə Azərbaycan Memarlar İttifaqına rəhbərlik etmiş, 1962-ci ildə Azərbaycan Politexnik İnstitutuna rektor təyin olunmuşdur. Onun rektorluğu dövründə Azərbaycan Politexnik İnstitutunun Gəncə şəhərində filialı açılmış, avtomatika, sintetik materialların texnologiyası, metallurgiya və poliqrafiya fakültələri təşkil edilmişdir.

Ənvər Qasımzadə 1964-cü ildə memarlıq doktoru elmi adını almış, 1966-cı ildə professor, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Onun layihələri əsasında Bakıda, Gəncədə, Daşkəsəndə, Xankəndində onlarca yaşayış evi və ictimai binalar ucaldılmışdır.

Bunlardan Bakının Azərbaycan prospektindəki (keçmiş Hüsü Hacıyev küçəsi), İnşaatçılar prospektindəki, keçmiş Şimali Sovet meydanındakı, Ağa Nemətulla küçəsindəki evləri, hazırda Gömrük Komitəsi və Maliyyə Nazirliyinin inzibatı binalarını, Bakıxanov küçəsindəki Azərbaycan Tibb Universitetinin əsas korpuslarını, metronun "Ulduz" stansiyasını və başqalarını yada salmaq kifayətdir. Ənvər müəllim 60-dan çox elmi məqalənin və 7 monoqrafiyanın müəllifidir. Dəfələrlə Bakı Şəhər Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat, Azərbaycan Kommunist Partiyasının Bakı Şəhər Komitəsinə və Azərbaycan KP Mərkəzi Komitəsinə üzv seçilmişdir.

"Qırmızı Bayraq", "Qırmızı Ulduz", I və II dərəcəli "Böyük Vətən müharibəsi" ordenləri ilə və altı medalla təltif edilmişdir. "Əməkdar inşaatçı" fəxri adına layiq görülmüşdür.

Ə.Qasımzadə 1969-cu il mart ayının 12-də, 57 yaşında vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir. Bakı şəhərində və Salyandakı küçələrdən biri onun adını daşıyır.

65 illiyi

Eldar Mansurov 1952

Bəstəkar

Eldar Bəhram oğlu Mansurov 1952-ci il fevral ayının 28-də Bakıda, İçərişəhərdə məşhur tarzən Bəhram Mansurovun ailəsində anadan olmuşdur.

1968-1972-ci illərdə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinin fortepiano sinfində, 1974-1979-cu illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində professor Cövdət Hacıyevin sinfində təhsil almışdır.

Kiçik fortepiano prelüdiyaları ilə yaradıcılığa başlayan Eldar Mansurov çoxjanrlı əsərlər: fortepiano pyesləri, xor üçün müxtəlif janrlı musiqilər, instrumental əsərlər, simfoniyalar, marş, kantatalar yazmağa başlamışdır. Bu janr müxtəlifliyi bəstəkarın inkişafına böyük zəmin yaratmışdır.

Muğam mövzusu bəstəkarın yaradıcılığında önəmli yer tutur. Atasının əziz xatirəsinə həsr etdiyi "Bəhramnamə" simfoniya yaradıcılığında növbəti mərhələ oldu. Bir zamanlar Bəhram Mansurovun ifa etdiyi muğamlardan istifadə edərək, bəstəkar yeni janr-"sinforokmuğam" yaratdı. Bu yenilik tək ölkəmizdə deyil, həm də dünyanın bir çox ölkələrində musiqisevərləri heyran etdi.

Eldar Mansurov klassik janra da müraciət etmiş və bir çox əsərlər yaratmışdır. Belə ki, bəstəkar "Kleopatra", "Olimp" rok-baletlərinin, "Yeddi gözəl" rok-operasının, 5 simfoniya, 2 simfonik poema, violin və orkestr üçün konsert, "Mahur-hindi" simfonik muğamının, kamera instrumental və xor əsərlərinin, həmçinin xeyli sayda filmlərə və teatr tamaşalarına yazılmış musiqilərin müəllifidir.

Bəstəkarın daha bir uğuru "Bayatılar" mahnısıdır. Onlarla ölkədə, onlarla ifaçı tərəfindən, müxtəlif dillərdə səslənən bu mahnı ona dünya şöhrəti gətirmişdir. Yaradıcılığının əsas hissəsini təşkil edən mahnılar : "Halımı sorma", "İstəmirəm", "Oyna gözəl", "Yarı məndə, yarı səndə", "Ay yalançı", "Karvan", "Xan qızı", "Uzaqlıq", "Bu sevgi", "Gecələr keçir", "Mən aydan gəlmişəm", "Sən hardasan", "Namə yaz göndər", "Qara gözlüm" və yüzlərcə bu kimi əsərlər xalqımız tərəfindən yüksək qiymətləndirilmiş və sevə-sevə dinlənilmişdir.

1981-ci ildən SSRİ və Azərbaycanın Bəstəkarlar, 1999-cu ildən Azərbaycan Kinematoqrafçılar İttifaqlarının üzvüdür.

2007-2012-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin katibi vəzifəsində işləyib.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 2005-ci ildə "Əməkdar incəsənət xadimi", 2012-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Eldar Mansurov həm də elmi fəaliyyətlə məşğul olmuşdur. Bir tədqiqatçı kimi muğamların tarixi ilə maraqlanmış, 1987-ci ildə Səmərqənd şəhərində keçirilən Beynəlxalq Muğam simpoziumunda "Muğam adlarının yaranma tarixi" adlı elmi məqaləsi ilə çıxış etmişdir. Sonralar bu yazıların bir çoxu müəllifin "Muğam düşüncələrim" adlı kitabında toplu şəklində çap olunmuşdur.

Ə d ə b i y y a t

Eldar Mansurov 60 [Səsyazma]: CD albom /E.Mansurov.- Bakı: [s. n.], 2012.- 12 elektron opt. disk (CD) futlyarda: 19 sm. + Qoşma sənəd (26 s., şəkilli; 17 x 12 sm.)

Freskalar [Notlar]: kamera orkestri üçün /E.Mansurov.- Bakı: 2004.-20 s.

Mansurov, M.S. Xatirələr /M.S.Mansurov; tərt. ed. E.Mansurov; red. İ.Dadaşov.- Bakı: EQ, 2005.- 139 s.

Sonatina [Notlar]: fortepiano üçün /E.Mansurov.- Bakı: Səda, 2003.- 19 s.

Bədəlov, N. Əgər tale gətirsə... /N.Bədəlov //El.- 2006.- № 45. - S.4-21.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Eldar_Mansurov

105 illiyi

Məhərrəm Haşımov 1912-1969

Rejissor

Ədəbiyyat

Ömrün səhifələri = Страницы жизни = Pages of Life /Azərbaycan Teatr Xadimləri İttifaqı; rus dilinə tərc. S.Məmmədzadə; ing. dilinə tərc. L.Məmmədova; tərt.: Ç.Ələsgərli, K.Cəfərzadə, A.Qafarova; mətnin müəl. Ç.Ələsgərli; red. K.Cəfərzadə.- Bakı: Elm və Təhsil, 2013.-79 s. - Azərbaycan Respublikasının Xalq artisti Məhərrəm Haşımovun 100 illiyinə həsr olunur.

Xəlilzadə, F. Xalqa və sənətə xidmət missiyası: Məhərrəm Haşımov - 100 /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 3 fevral.- S.7.

Rəhimli, İ. Məhərrəm Haşımov //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.354.

Zeynalov, P. Əbədi sənət üçün /P.Zeynalov //Mədəni həyat.- 2012.- № 2.- S.60-61.

İnternetdə

https://az.wikipedia.org/wiki/Məhərrəm_Haşımov

Məhərrəm Kazım oğlu Haşımov 1912-ci il fevral ayının 2-də Bakıda anadan olmuşdur.

1936-cı ildə A.V.Lunaçarski adına Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirmişdir. 1944-cü ilə qədər Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissor və baş rejissor işləmişdir. 1937-ci ilin repressiyaları dövründə yaradıcılıqla məşğul olmaq min bir əzabla başa gəlirdi. O, bu teatrın səhnəsində Şillerin "Qaçaqlar", Cəfər Cabbarlının "Aydın" kimi tamaşalarına quruluş vermişdir. Əlbəttə, dövrün küləkləri onun da həyatından izsiz keçməmişdir. Müxtəlif təzyiqlərə, iradlara, hətta xəbərdarlıqlara tuş gəlsə də, öz həyat həqiqətinə, sənət prinsiplərinə sadiq çıxmışdır. 1948-ci ildən 1951-ci ilə qədər Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor və direktor vəzifələrində çalışmışdır. Məhərrəm Kazım oğlu Haşımovun Azərbaycan Dövlət Rus Dram Teatrında rejissorluq fəaliyyətinin əsas məğzində müasir fəlsəfi-realist teatr yaratmaq məqsədi dururdu. Əsas işləri "Döngədə ev" (Tur qardaşları. 1949), "Xəzər üzərində şəfəqlər" (İmran Qasımov. 1950), "Balıqçı oğlu" (Vilis Latsis. 1953), "Dəniz cəsurları sevir" (İmran Qasımov və Həsən Seyidbəyli. 1954), "Kino çəkilir..." (Edvard Radzinski. 1966), "Teleqramla hekayət" (V.Osipov. 1966), "Milyonçu qadın" (Bernard Şou. 1966), "İntervensiya" (Lev Slavin. 1967), "Ənənəvi toplanış" (Viktor Rozov. 1968) tamaşalarına verdiyi quruluşlardır.

1951-1956-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrında işləmişdir. 1956-cı ildən 1960-cı ilə kimi yenidən Rus Dram Teatrına göndərilərək kollektivin baş rejissorluğu ona tapşırılmışdır. Bu vəzifədə coşğun həvəslə, ciddi yaradıcılıq ehtirası ilə çalışmışdır.

1960-1965-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında direktor işləmişdir. Həmin illər Məhərrəm Haşımovun rəhbərliyi ilə istehsal olunan bədii filmlər: "Koroğlu", "Səhər", "Bizim küçə", "Telefonçu qız", "Əhməd haradadır?", "Möcüzələr adası", "Romeo mənim qonşumdur", "Sehrli xalat", "Ulduz", "Su ərizəsi", "Arşın mal alan" (ikinci dəfə) və s. bu gün də tamaşaçıların sevə-sevə izlədikləri filmlərdir.

1966-cı ildə Rus Dram Teatrına yenidən qayıdaraq kollektivə baş rejissor kimi rəhbərlik etmişdir. O, fasilələrlə 20 ildən artıq işlədiyi bu mədəniyyət ocağında direktor, baş rejissor kimi fəaliyyət göstərərək, sənətkarlıq məharətinin hərtərəfli diqqət çəkməsi, inkişaf etməsi üçün bir zaman qazandı.

İmran Qasımovun "Xəzər üzərində şəfəqlər" pyesinə verdiyi quruluşa görə Məhərrəm Haşımov və tamaşanın bir qrup yaradıcı heyəti 1951-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşlər. 1969-cu ildə isə "Damokl qılıncı" (Nazim Hikmət), "Maskarad", (Mixail Lermontov) və "Kino çəkilir..." (Edvard Radzinski) tamaşalarına verdiyi monumental quruluşlara görə rejissor Mirzə Fətəli Axundzadə adına Respublika mükafatına təqdim olunub.

Uzun illər Azərbaycan Dövlət Teatr İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmuş, tələbələrə rejissor və aktyor sənətinin sirlərini öyrətmişdir.

Məhərrəm Haşımov 1969-cu ildə, 57 yaşında vəfat etmişdir.

90 illiyi

Lütfi Məmmədbəyli 1927-2004

Rejissor

Lütfi Şahbaz oğlu Məmmədbəyov (Məmmədbəyli) 1927-ci il fevral ayının 6-da Ağdaş rayonunda anadan olmuşdur.

1943-1947-ci illərdə Teatr Texnikumunda təhsil almışdır. 1947-ci ildə oranı bitirdikdən sonra bir müddət Musiqili Komediya Teatrında fəaliyyət göstərmiş, 40-cı illərin sonunda teatr müvəqqəti olaraq bağlandığından Gənc Tamaşaçılar Teatrının truppasına daxil olmuşdur. Burada çalışarkən Bakıda o vaxtkı 26-lar Mədəniyyət Sarayında dram dərnəyinə rəhbərlik etmişdir. 30 ildən sonra 1961-ci ildə Xalq Teatrı statusu alan bu dərnəkdə Azərbaycan aktyorlarının bir neçə nəslini yetirmişdir. 1961-1966-cı illərdə Mirzağa Əliyev adına İncəsənət İnstitutunun rejissorluq fakültəsində təhsilini davam etdirmişdir.

Lütfi Məmmədbəyli 1961-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına dəvət olunmuş və ömrünün sonunadək burada çalışmışdır. Bu teatrın səhnəsində bir neçə tamaşanın quruluşçu rejissoru da olmuşdur.

L.Məmmədbəylinin teatrla yanaşı, Azərbaycan televiziyasında və kinodakı fəaliyyəti də uğurlu olmuşdur. O, 60-dan çox televiziya tamaşasının, o cümlədən "Göz həkimi", "Yağışdan sonra", "Səninlə sənsiz", "Yad qızı" kimi əsərlərin rejissoru olmuşdur.

L.Məmmədbəylinin kinoda oynadığı iri və kiçik rollar da yaddaqalandır. Onun çəkildiyi "Bəxtiyar", "Qızmar günəş altında", "O olmasın, bu olsun", "Səhər" kinofilmlərində yaratdığı obrazlar özünəməxsus yer tutur. Lütfi Məmmədbəyli respublikamızda televiziya serialları çəkən ilk rejissordur. 1993-cü ildə tanınmış yazıçı Əlibala Hacızadənin "İtkin gəlin" əsəri əsasında 12 seriyalı filmə quruluş vermişdir. Bundan sonra 6 seriyalı "Dodaqdan qəlbə" (1998), yenə də 6 seriyalı "Yağışdan sonra" (1998) seriallarını çəkmiş, tamaşaçılarının ixtiyarına təqdim etmişdir.

O, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi pedaqoji fəaliyyət göstərmişdir.

Lütfi Məmmədbəyli 1953-1976-cı illərdə filmlərin Azərbaycan dilinə dublyaj olunmasında bir aktyor kimi də çox məhsuldar iştirak etmişdir. Eyni zamanda, respublika teleradio yayımlarında kamera, mikrofon qarşısında mahir aparıcılardan biri olmuşdur. Dövrün məşhur televiziya verilişləri - "Səhər" musiqili informasiya proqramı, "Teatr görüşləri", "Sənətkar və zaman", "Aktyorlar, rollar" məhz L.Məmmədbəylinin səyi, istedadı, aparıcılığı sayəsində illərlə ekran ömrü yaşamış, tamaşaçı alqışı, sevgisi qazanmışdır.

Lütfi Məmmədbəylinin milli mədəniyyətin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. O, müxtəlif illərdə bir sıra mükafatlara ("Qızıl Dərviş" mükafatı) və 1991-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, 1997-ci ildə müstəqil Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Lütfi Şahbaz oğlu Məmmədbəyli 2004-cü il fevral ayının 1-də vəfat etmişdir.

Ədəbiyyat

Kazımzadə, A. Özünə əbədilik qazanmış sənətkar /A.Kazımzadə //Kaspi.- 2013.- 29 iyun-1 iyul.- S.23.

Mükərrəmoğlu, M. Qayğıkeş insan, pedaqoq, görkəmli rejissor /M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2012.- 12 fevral.- S.5.

İnternetdə

www.anl.az/down/meqale/xalqqazeti/2012/fevral/231115.htm
azertag.az/.../lutfi_sahbaz_oglu_mam...
https://az.wikipedia.org/wiki/Lütfi_Məmmədbəyli

65 illiyi

Akif Əkbərov 1952-1992

Milli Qəhrəman

Akif Abbas oğlu Əkbərov 1952-ci il fevral ayının 2-də Cəbrayıl rayonunun Balyand kəndində anadan olmuşdur. 1969-cu ildə 1 saylı Beyləqan şəhər orta məktəbini bitirmişdir.

1970-ci ildə ordu sıralarına çağırılmış, 1972-ci ildə ordudan tərxis olunmuşdur.

1974-cü ildə Beyləqan rayon Daxili işlər şöbəsində polis nəfəri kimi fəaliyyətinə başlamışdır. Sonuncu iş yeri polis şöbəsinin dövlət avtomobil müfəttişliyi bölməsi olmuşdur. Akif Əkbərov həmin bölmədə yolpatrul xidməti müfəttişi vəzifəsində işləmişdir.

1991-ci il avqust ayının 5-də Beyləqan rayon Polis Şöbəsinin bir qrup əməkdaşı Kəlbəcər rayonunun "Sarı yer" yaylağındakı mülki şəxslərin təhlükəsizliyini təmin etmək üçün ezam olunan polislərin arasında Akif Əkbərov da olmuşdur. Erməni quldurları tez-tez yaylaqlara qəfil basqınlar etdiyindən, polislərimiz hər zaman sayıq olmağa çalışırdılar.

Avqust ayının 12-i ermənilər Cermuq şəhəri tərəfdən "Sarı yer" yaylağına hücuma keçirlər. Əhalini qorumaq üçün polis işçiləri döyüşə girirlər. Akif elə döyüş mövqeyi tutmuşdu ki, ermənilər başlarını qaldırmağa belə macal tapmırdılar. Təxminən 6 saat davam edən bu döyüşdə Akif Əkbərov xüsusilə fərqlənmişdir. Düşmənin xeyli canlı qüvvəsi məhv edilsə də qəfil düşmən gülləsi Akifdən də yan keçməmişdir. O, qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Əkbərov Akif Abbas oğlu ölümündən sonra " Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Beyləqan rayonunda dəfn edilmişdir. Orada büstü qoyulmuşdur.

Beyləqan rayonundakı küçələrdən biri onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əkbərov Akif Abbas oğlu – yol keşik xidməti müfəttişi – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əkbərov Akif Abbas oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.53.

Əsgərov, V. Əkbərov Akif Abbas oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.73.

Seyidzadə, M. Əkbərov Akif Abbas oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.50.

https://az.wikipedia.org/wiki/Akif_Əkbərov

veten-ugrunda.az/.../220-kbrov-akf-abbas-olu...

55 illiyi

Firudin Şamoyev 1962-1992

Milli Qəhrəman

Firudin İsa oğlu Şamoyev 1962-ci il fevral ayının 7-də Qazax rayonunda anadan olmuşdur. Orta təhsilini doğma rayonunda almış, 1981-ci ildə hərbi xidmətə çağırılmışdır.

1983-cü ildə ordudan tərxis olunaraq Qazax rayonuna qayıtmış və Təmir Tikinti İdarəsində çilingər işləməyə başlamışdır.

Firudin 1991-ci il iyul ayının 8-də könüllülərdən ibarət dəstəyə yazılmış, 707 nömrəli hərbi hissədə minaatan bölüyünün komandiri vəzifəsinə təyin olunmuşdur. Qazax rayonunun Bağanıs Ayrım, Məzəm, Quşçu Ayrım və digər kəndlərinin erməni faşistlərindən müdafiəsi zamanı xüsusi qəhrəmanlıq nümayiş etdirmişdir. Öz qayğıkeşliyi, mehribanlığı və cəsarəti ilə komandirlərinin və cəbhə yoldaşlarının hörmət və məhəbbətini qazanmışdır.

F.Şamoyev 1992-ci il aprel ayının 13-də Quşçu Ayrım kəndi ətrafında gedən agır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 nömrəli Fərmanı ilə Şamoyev Firudin İsa oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Qazax rayonundakı Şəhidlər Xiyabanında dəfn olunmuş, rayondakı orta məktəblərdən birinə qəhrəmanın adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Şamoyev Firuddin İsa oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Şamoyev Firudin İsa oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.268.

Seyidzadə, M. Şamoyev Firudin İsa oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.211.

Şamoyev Firudin İsa oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.193.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Firudin_Şamoyev

www.e-qanun.az/framework/7468

www.muallim.edu.az/www.old/arxiv/.../

50 illiyi

Rövşən Hüseynov 1967-1992

Milli Qəhrəman

Rövşən Şəmil oğlu Hüseynov 1967-ci il fevral ayının 22-də Ağdam rayonunun Quzanlı kəndində doğulmuşdur. 1984-cü ildə burada orta məktəbi bitirdikdən sonra Ağdam rayon Mədəniyyət Evində işləmişdir.

1985-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuş, lakin ordu sıralarında hərbi xidmətə çağırılmışdır. 1985-1987-ci illərdə hərbi xidmətdə olmuş, qayıtdıqdan sonra təhsilini davam etdirmişdir. Ölkəmizə erməni təcavüzkarlarının hücumu başlayanda, Rövşənin təşəbbüsü ilə 1992-ci ildə Bakı Dövlət Universitetinin iyirmi tələbəsi dövlət imtahanlarının başlanmasına üç ay qalmış, təhsillərini yarımçıq qoyaraq iki ay hərbi hazırlıq keçirlər. Sonra onlar ən qaynar döyüş nöqtəsinə - Goranboya yollanırlar. Tələbə taqımı 703 saylı hərbi hissəyə təhkim olunmuşdu. Ən ağır sınaq saatı Holandağ yüksəkliyi uğrunda gedən döyüşlərdə olmuşdur. Holandağdan Ergəc, Mənəşli, Buzluq və Şaumyana (Ağcakənd) nəzarət etmək mümkün idi. Düşmənin 300-dən artıq əsgər və zabiti müasir hərbi texnika ilə silahlanaraq Holandağa hücuma keçmişdi. 1992-ci il aprel ayının 28-də ilk hücumun qarşısı məharətlə alınmışdı. Tələbə taqımı qarşısındakı bu məğlubiyyətdən qəzəblənən düşmən dörd gündən sonra daha böyük qüvvə toplayaraq hücuma keçmişdi. Rövşənin taqımı düşmənin iki zirehli texnikasını və onlarla canlı qüvvəsini məhv etmişdi. Düşmənin Holandağı alıb Çaykəndə çıxmaq planı alt-üst edilmişdi.

1992-ci il mayın 11-də gedən döyüşdə Mingəçevir bölüyünün 27 döyüşçüsü mühasirəyə düşmüşdü. Briqadakomandiri onlarımühasirədən qurtarmaq üçün tələbə döyüşçülərə müraciət etmiş və Mingəçevir bölüyünü mühasirədən çıxarartsalar da, özləri mühasirəyə düşmüşlər. Bu qeyri-bərabər döyüşdə tələbələrdən ikisi həlak olmuş, bir neçəsi yaralanmışdı. Rövşən vəziyyəti ani olaraq qiymətləndirmiş və döyüş dostlarının əsir düşəcəyini görüb, atəş nöqtəsini öz üzərinə götürmüşdü. Onun pulemyotu düşmənin başına od ələyirdi. Cəsur komandirin əmrilə döyüş dostları mühasirədən çıxmış, özü isə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Hüseynov Rövşən Şəmil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ağdam rayonunun Quzanlı kəndində dəfn edilmiş, Bakı Dövlət Universitetində büstü qoyulmusdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Rövşən Şəmil oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Rövşən Şəmil oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.-S.124-125.

Hüseynov Rövşən Şəmil oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərb. Milli Kitab-sı; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.90.

Seyidzadə, M. Hüseynov Rövşən Şəmil oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.96.

http://veten-ugrunda.az/milliqehremanlar/88-hseynov-rvn-ml-olu.html
https://az.wikipedia.org/.../Rövşən_Hüseynov_(...

60 illiyi

Ərəstun Mahmudov
1957-1992

Milli Qəhrəman

Ərəstun İspəndi oğlu Mahmudov 1957-ci il fevral ayının 23-də İsmayıllı rayonunun Pirəbilqasım kəndində doğulmuşdur. Ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, 1974-cü ildə Bakının Nizami rayonundakı 220 saylı orta məktəbi bitirmişdir. 1975-ci ildə Leninqrad vilayətinin Vıborq şəhərində yerləşən Mülki Aviasiya Məktəbinə daxil olmuşdur.

1978-ci ildə təhsilini başa vurub, Azərbaycan Hava Yollarının Zabrat Aviasiya Şirkətində texnik-mexanik kimi AN-2 təyyarəsində əmək fəaliyyətinə başlamışdır. O, idmanın ağır atletika növü ilə məşğul olurdu. Azərbaycanda, keçmiş SSRİ məkanında və eləcə də bir sıra xarici ölkələrdə keçirilən mötəbər yarışların iştirakçısı olmuş, müxtəlif mükafatlara layiq görülmüşdür.

1990-cı ildə Ukraynanın Kremençuq şəhərində ixtisasartırma kursuna göndərilmişdir. Kursu bitirdikdən sonra Mİ-8 vertolyotunun bort-mexaniki təyin edilmişdir. Bir müddətdən sonra Dağlıq Qarabağ və Ermənistanla həmsərhəd olan rayonlarda döyüş əməliyyatı keçirən ekipajın tərkibinə daxil edilmişdir.

Ərəstun Mİ-8 vertolyotunun heyəti ilə dəfələrlə döyüş bölgələrinə ezam edilmiş, dinc əhalinin köçürülməsində, döyüş bölgələrinə ərzaq və müəyyən ləvazimatın çatdırılmasında iştirak etmişdir. Cəbhə bölgələrinə son uçuşu 28 yanvar 1992-ci ildə olur. Ağdam və Şuşa marşrutu üzrə yerli əhalini daşıyarkən Mİ-8 vertolyotu erməni yaraqlıları tərəfindən raketlə vurulur. Bütün heyətlə birlikdə Ərəstun Mahmudov da qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Mahmudov Ərəstun İspəndi oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Oxuduğu 220 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Mahmudov Ərəstun İsfəndi oğlu – Mİ-8 vertolyotunun mexaniki – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sov Sovetinin Məlumatı.- 1992.- № 22.- S.68.-(Ölümündən sonra).

Əsgərov, V. Mahmudov Ərəstun İspəndi oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.128.

Mahmudov Ərəstun İspəndi oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.193.

Seyidzadə, M. Mahmudov Ərəstun İspəndi oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.135.

http://www.milliqahramanlar.az/hero/130

https://az.wikipedia.org/.../Ərəstun_Mahmudov raufmardiyev.com/tag/ərəstun-mahmudov/ -

https://www.facebook.com/.../9999904566913...

55 illiyi

İnqilab İsmayılov 1962-1992

Milli Qəhrəman

İnqilab Ələkbər oğlu İsmayılov 1962-ci il fevral ayının 24-də Qarabağın dilbər guşəsi olan Xocalıda anadan olmuşdur. Orta məktəbi 1979-cu ildə bitirmişdir.

1981-ci ildə ordu sıralarına çağırılmış və daxili qoşunlarda xidmətə başlamışdır. Hərbi xidmətdə olduğu vaxtda Xarkov şəhərində gizirlik məktəbini bitirmişdir.

1984-cü ildə doğma Xocalıya qayıdır və sovxozda traktorçu işləyir. 1988-ci ildən başlayaraq Dağlıq Qarabağda vəziyyət gərginləşirdi. Erməni quldurları azərbaycanlılara qarşı tez-tez təxribatlar törədir, hər vəchlə onları yurd-yuvalarından sıxışdırıb çıxarmağa çalışırdılar. Gənclər gecə-gündüz Xocalının keşiyini çəkirdilər. İnqilab da onların sırasında idi. O, 1990-cı ildə Xocalı polis şöbəsində işə düzəlir. Bu vaxtlar hücumların ardıarası kəsilmirdi. Hər gün ermənilər şəhərə raket zərbəsi endirirdilər. Partlayışlar nəticəsində evlər dağılır, ailələr faciəli surətdə həlak olurdular. Vəziyyət get-gedə gərginləşirdi. Xocalı hər tərəfdən mühasirəyə alınmışdı. Tezliklə buradan uşaqları, qadınları və qocaları çıxarmaq lazım idi. İnqilab bu işdə camaata öz köməyini əsirgəmirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni quldurları ilə Rusiyanın 366-cı motoatıcı alayı birləşərək tarixdə misli görünməmiş soyqırımı törətdilər. İnqilab yoldaşları ilə birlikdə vuruşa-vuruşa sağ qalmış camaatın bir hissəsini düşmən mühasirəsindən çıxara bildi. O, əhalinin çoxunu Oğuz rayonunda yerləşdirib, yenidən cəbhə xəttinə döndü. Fəaliyyətini isə Ağdam rayon Polis Şöbəsinin post-patrul xidməti alayında davam etdirməli oldu. İ.İsmayılovun xidmət etdiyi post-patrul alayı Daşbaşı yüksəkliyini göz bəbəyi kimi qoruyurdu. Erməni silahlı birləşmələri bu yüksəkliyi ələ keçirmək üçün dəfələrlə hücuma keçir, lakin ağır itki verərək geri çəkilirdi.

Düşmən 1992-ci ilin 12 iyununda böyük qüvvə ilə Daşbaşı yüksəkliyinə yenidən hücum etdi. Cəsur döyüşçülər bu dəfə də hücumun qarşısını məharətlə aldılar və düşmənin 6 postunu sıradan çıxardılar. İnqilab bu döyüşdə qələbəni öz qanıyla yazdı. Cəbhə dostları nə qədər cəhd etsələr də, onun cəsədini döyüş meydanından çıxara bilmədilər.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə İsmayılov İnqilab Ələkbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakının Xətai rayonundakı küçələrdən biri onun adını daşıyır. Həmin küçədə xatirə lövhəsi vurulub.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [İsmalılov İnqılab Ələkbər oğlu – polis nəfəri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1-(Ölümündən sonra).

Əsgərov, V. İsmayılov İnqilab Ələkbər oğlu /Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.145-146.

İsmayılov İnqilab Ələkbər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.108.

Seyidzadə, M. İsmayılov İnqilab Ələkbər oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.111.

https://az.wikipedia.org/wiki/İnqilab_İsmayılov
veten-ugrunda.az/.../110-smayilov-nqlab-lkbr-...
www.muallim.edu.az/www.old/arxiv/.../

65 illiyi

Elman Hüseynov 1952-1993

Milli Qəhrəman

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Elman Süleyman oğlu –mayor – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.- 1995.- 17 yanvar.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Elman Süleyman oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.120.

Hüseynov Elman Süleyman oğlu //Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya /Azərb. Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- Bakı, 2008.- S.86.

Seyidzadə, M. Hüseynov Elman Süleyman oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.-S.92.

https://az.wikipedia.org/wiki/Elman_Hüseynov
arxiv.az/az/news.lent.az/146430

Elman Süleyman oğlu Hüseynov 1952-ci il fevral ayının 28-də Tərtər rayonunun Azadqaraqoyunlu kəndində anadan olmuşdur. 1958-1968-ci illərdə Azadqaraqoyunlu kənd orta məktəbində təhsil, 1968-1973-cü illərdə Azərbaycan Politexnik İnstitutunda mühəndis ixtisası üzrə ali təhsil almışdır.

1973-1975-ci illərdə Gürcüstanın Axalkalaki şəhərində leytenant, baş leytenant rütbəsində zabit kimi xidmət etmişdir.

1980-1982-ci illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır.

1982-1985-ci illərdə Tərtər rayon Xalq Nəzarəti Komitəsinin sədri, 1985-1988-ci illərdə Tərtər rayon Xalq Deputatları İcraiyyə Komitəsi sədrinin müavini, rayon Partiya Komitəsində məsul vəzifələrdə çalışmışdır. Nazirlər Kabineti nəzdində Xalq Təsərüffatını İdarəetmə İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

Dövlət idarəetmə orqanlarında mühüm vəzifədə işləməsinə baxmayaraq, Qarabağda baş verən hadilələrlə əlaqədar 1991-ci ildə könüllü olaraq Tərtərin müdafiəsi üçün tabor yaradılması ilə bağlı Müdafiə Nazirliyinə müraciət etmiş, 1991-ci ilin sentyabrında Tərtər özünümüdafiə qərərgahının rəisi təyin olunmuşdur.

12 noyabr 1991-ci ildə Müdafiə Nazirinin müvafiq əmri ilə təşkilatçılığı ilə yaradılan Tərtər ərazi özünümüdafiə batalyonunun (813 saylı əlahiddə hərbi hissənin) komandiri təyin olunmuşdur. Qısa zaman ərzində Tərtər rayonunun və ətraf sərhəd kəndlərinin müdafiəsi üzrə mühüm strateji postların yaradılmasını təşkil etmiş, sonralar Ağdərə rayonunun və ətraf yaşayış məntəqələrinin düşməndən azad olunmasında fəal iştirakı, şəxsi şücaəti və rəhbərliyi altında keçirilmiş döyüş əməliyyatları nəticəsində düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilmişdir. Döyüşlərdə iki dəfə yaralanmışdır.

1993-cü il yanvarın 15-də Vəng yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. 1995-ci il yanvar ayının 15-də Azərbaycan Respublikasının Prezidentinin 262 saylı Fərmanı ilə mayor Hüseynov Elman Süleyman oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

E.Hüseynov Tərtər rayonunun Qaraqoyunlu kəndində dəfn edilmiş, Tərtər rayonundakı küçələrdən birinə onun adı verilmişdir. Tərtər şəhərində qəhrəmanın büstü ucaldılmışdır.

75 illiyi

Vahid Axundov 1942

Dövlət müşaviri

Vahid Cümşüd oğlu Axundov 1942-ci il fevral ayının 9-da Bakı şəhərində anadan olmuşdur.

1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirmişdir. Mühəndis-iqtisadçıdır.

Vahid Axundov 1970-ci ildə iqtisad elmləri üzrə namizədlik, 1980-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1987-ci ildə professor elmi rütbəsini almışdır.

150 elmi əsərin müəllifidir.

1959-1960-cı illərdə Bakı Dəri Qalantereya fabrikində çilingər, 1964-cü ildə Avtomobil Ehtiyatları zavodunda mühasib, 1965-1966-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsində iqtisadçı, 1966-1970-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda mühəndis-iqtisadçı, 1970-1987-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1976-cı ildən direktorun elmi işlər üzrə müavini, 1981-ci ildən direktor işləmişdir.

1987-1991-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun elmi işlər üzrə prorektoru, 1991-ci ildən Azərbaycan Respublikasının İqtisadi siyasət üzrə Dövlət müşaviri, 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq üzrə Mərkəzinin direktoru – Baş nazirin baş iqtisadi müşaviri vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri təyin edilmişdir.

2012-ci ildə Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətlərinə görə Vahid Cümşüd oğlu Axundov "Şərəf" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

V.C.Axundovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 fevral 2012-ci il //Azərbaycan.- 2012.- 10 fevral.- S.1.

Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı /burax. məs. V.Axundov; tərt. ed. T.Əhmədov; Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi.-Bakı: [Nurlar], 2009.-183 s.

Axundov Vahid Cümşüd oğlu //Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı /T.Cahangir; red. Ə.Cəfərov; [ing. dilinə çevirən X.Hüseynova; dizayner R.Səttarov].- Bakı, 2010.- S.11.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/azerbaycan/2012/fevral/232531.htm

www.president.az/.../vahid_akhundov?locale=a...

report.az/ru/персона/вахид-ахундов/

285 illiyi

Corc Vaşinqton 1732-1799

Siyasi və hərbi xadim

Corc Vaşinqton 1732-ci il fevral ayının 22-də (bəzi mənbələrdə 11-də) Virciniyada, varlı plantator Avqustin Vaşinqtonun ailəsində anadan olmuşdur.

1748-ci ildə Corc yerölçən kimi fəaliyyətə başlamışdır.

1752-ci ildə o, mayor rütbəsinə yüksəlmişdir. Çox keçmir ki, 22 yaşlı Corc polkovnik rütbəsində fransız-hindu müharibəsinə cəlb edilmiş, özünü bacarıqlı hərbçi kimi göstərmişdir. 1759-cu ildə istefaya getmişdir.

C.Vaşinqtonun 1759-1775-ci illərdəki həyat və fəaliyyəti Amerika plantatorlarının hüquqlarının qorunması uğrunda mübarizə ilə bağlı olub. Vəziyyətdən çıxış yolunu öz plantasiyalarında aqrar islahatlar aparmaqda görən Vaşinqton 1763-cü ildən etibarən taxıl yetişdirməyə başlamışdır. Böyük dəyirman tikdirməklə 60-cı illərin sonuna yaxın un ixracında uğurlar qazanmışdır.

1763-cü ildə İngiltərə və Fransa arasında yeddi illik müharibə sonuncunun Şimali Amerikadakı əsas torpaq sahələrini itirməsi ilə başa çatmışdır.

1773-cü ildə çay yüklənmiş bir neçə gəminin Boston limanında batırılması etirazların kulminasiyası olmuşdur. 10 may 1775-ci ildə Filadelfiyada İkinci Kontinental Konqresində Corc Vaşinqton Şimali Amerika Hərbi qüvvələrinin Ali Baş Komandanı seçilmişdir.

1776-cı il iyulun 4-də Filadelfiyada Konqres "İstiqlaliyyət bəyannaməsi" qəbul edilmişdir. Müharibə başa çatdıqdan sonra 1787-ci ilin mayında yeni kontitusiya hazırlanması üçün Konstitusiya Konventi yaradılmışdır. Xüsusən A.Hamilton və C.Medisonun təkidi ilə Vaşinqton Konventə sədr seçilmişdir. Yeni hazırlanmış konstitusiya özündə federal dövlət quruluşunu əks etdirirdi. Uzun müzakirələrdən sonra Konstitusiya qəbul edilmişdir.

1789-cu il fevral ayının 4-də keçirilən prezident seçkilərində Corc Vaşinqton ABŞ-ın ilk prezidenti seçilmişdir. Cəmiyyətdəki nüfuzuna baxmayaraq, o, ikinci dəfə prezident seçilmək istəmirdi. Maunt Vernona qayıdıb sakit həyat sürmək onun başlıca arzusu idi. Lakin nazirlər arasındakı hərc-mərclik onu çox narahat edirdi. 1792-ci il seçkilərində ikinci dəfə ABŞ-ın prezidenti seçilmişdir.

İstefaya çıxdığı 15 mart 1797-ci il tarixindən sonra Maunt Vernon malikanəsində yaşamağa başlamışdır. Təsərrüfatla məşğul olan Vaşinqton gündəlik yazmışdır. Bu gündəlikdəki sonuncu qeyd 13 dekabr 1799-cu ildə edilmişdir. Corc Vaşinqton vəsiyyətnaməsində ona məxsus olan bütün qulların azad edilməsini yazmışdır. O, Müstəqillik haqqında Bəyənnaməsinin prinsiplərini əsas tutaraq quldarlığı qəbul etmir, lakin quldarlığın tam şəkildə ləğv edilməsini də o dövr üçün qeyri-mümkün hesab edirdi. Onun vəsiyyəti Marta Vaşinqton tərəfindən həyata keçirilmişdir.

Ədəbiyyat

Bayramov, B.Corc Vaşinqton /B.Bayramov, R.İsmayılov.- [Bakı]: [Altun kitab MMC], [2015].- 15 s.

Orucov, T. ABŞ: beşikdən zirvəyə gedən yol /T.X.Orucov.- Bakı: Adiloğlu, 2008.- C.I.- 526 s.

ABŞ-ın ilk prezidenti: Corc Vaşinqton kim idi? (1789-1799) //Azadlıq.- 2012.- 11-12 noyabr.- S.10.

Яковлев, Н.Н. Джордж Вашингтон: все о первом президенте США /Н.Н.Яковлев.- Москва: Эксмо : Алгоритм, 2003.- 410, [6] с.

İnternetdə

www.anl.az/down/meqale/azadliq/2012/noyabr/276486.htm

100 illiyi

Məmmədşərif Həmidov 1917-1969

İctimai xadim

Məmmədşərif Həbibulla oğlu Həmidov 1917-ci il fevral ayının 23-də Şəki şəhərində anadan olmuşdur.

1929-cu ildə ibtidai məktəbi bitirdikdən sonra ailə vəziyyətləri ağır olduğundan uşaq yaşlarından yerli ipəksarıma müəssisəsində işləməyə məcbur olmuşdur. Eyni zamanda ipəkçi ixtisasına yiyələnmək məqsədilə texniki peşə məktəbində oxumuşdur. 1936-cı ildə Moskvada Toxuculuq İnstitutuna daxil olmuşdur. Lakin səhhətinə görə bir ildən sonra təhsilini yarımçıq qoymaq məcburiyyətində qalmış, 1937-ci ildə Nuxaya qayıdıb, əvvəlcə rayon komsomol, sonra isə partiya komitələrində işləmişdir. 1940-cı ildə o, ordu sıralarına səfərbər edilmişdir. Birinci Moskva – proletar atıcı diviziyasının sıravi topoqraf-hesablayıcı Məmmədşərif Finlandiya müharibəsinin ilk günlərində özünü igid bir döyüşçü kimi göstərmişdir. Böyük Vətən müharibəsində 1941-1945-ci illərdə vzvod komandirinin köməkçisi, batalyon qərargahının rəisi, diviziya qərargah əməliyyatının bölmə rəisinin köməkçisi olmuşdur. 1942-ci ildə Moskvanın müdafiəsində iştirak etmişdir. 1943-cü ildə batalyon qərargahına rəis təyin olunmuşdur. 1944-cü ilin iyulundan 1945-ci ilin martına kimi Üçüncü Belarusiya cəbhəsində döyüşən atıcı diviziyalarından birinə başçılıq etmiş və şərqi Prussiyanın Geniqsberqin (indiki Kalininqrad) alınmasında iştirak etmişdir.

1945-ci ildə Ali zabitlər məktəbini, 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

1941-1945-ci illər Böyük Vətən müharibəsi başa çatdıqdan sonra da M.Həmidov hərbi xidmətdən ayrılmamış, gənc döyüşçülərin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. O, 1946-1949-cu illərdə Xaçmaz rayon Hərbi Komissarı, 1949-1956-cı illərdə Azərbaycan SSR Hərbi Komisarlığında şöbə rəisi, 1956-1960-cı illərdə Bakı şəhəri Hərbi Komissarı, 1960-1969-cu illərdə Azərbaycan Hərbi Komissarı vəzifələrində çalışmışdır. 1962-ci ildə Sovet hərbi xadimi adına, general mayor rütbəsinə layiq görülmüşdür. 2-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir.

1969-cu il fevral ayının 12-dən 14-dək Gəncə şəhərində ezamiyyətdə olmuş, fevralın 14-də geri qayıdarkən minik avtomaşınının qəzaya uğraması nəticəsində M.Həmidov həlak olmuşdur. Bakı şəhərində, Fəxri Xiyabanda dəfn edilmişdir.

Anadan olduğu evə xatirə lövhəsi vurulmuş, 1969-cu ildə Şəki Şəhər Soveti İcraiyyə Komitəsinin qərarı ilə "Texnik" küçəsi Məmmədşərif Həmidov küçəsi adlandırılmış, o vaxtki Toxuculuq texnikumuna isə general M.Həmidovun adının verilməsi haqqında əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılmışdır. Həmçinin, 1990-cı ildə rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrindən birinə general M.Həmidovun adı verilmişdir.

Ədəbiyyat

Bəşarət. Nəsillərə nümunə /Bəşarət //Gələrsən-görərsən.- 2008.- № 3.- S.58-59.

Həmidov Məmmədşərif //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- Cild X.- S.196-197.

İnternetdə

www.anl.az/down/meqale/azadliq/2012/noyabr/276486.htm

100 illiyi

İsrafil Quliyev 1917-1981

Neftçi alim

İsrafil Piri oğlu Quliyev 1917-ci il fevral ayının 13-də Bakı şəhərində anadan olmuşdur.

1931-ci ildə İndustrial Texnikumuna daxil olmuş, 1932-ci ildə oxumaqla yanaşı "AzNeft" neft mədənlərində əmək fəaliyyətinə başlamışdır. 1933-1935-ci illərdə "Azizbekovneft" və "Ordjonikidzeneft" treslərində qazıma üzrə texnik işləmişdir. Texnikumu bitirdikdən sonra 1940-cı ildə Azərbaycan İndustrial İnstitutunun neft mədən fakültəsinə daxil olmuşdur. İnstitutu neft yataqlarının işlənməsi və istismarı ixtisası üzrə bitirərək, Bakı şəhəri Qaradağ rayonunun "Azərneft-axtarış" trestində baş mühəndis işləmişdir.

Böyük Vətən müharibəsi başladıqda müharibəyə getmişdir. 1946-1950-cı illərdə "Qazıma" laboratoriyasının elmi işçisi, Azərbaycan Elmlər Akademiyası Neft İnstitutunda elmi katib işləmişdir.

1949-cu ildə "Turbin-mailli qurğuların azimutunun dəyişməsinin tədqiqatı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1950-1978-ci illərdə "Dənizneftlayihə" institutunun elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir. Bu müddət ərzində 10 il institut direktorunun vəzifəsini icra etmişdir.

1959-cu ildə "Dənizdə neft quyularının tikintisinin əsas məsələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, Xəzər dənizində neft, qaz mədənlərinin tikintisi ilə əlaqədar layihə-konstruksiya və elmi-tədqiqat işlərinə rəhbərlik etmiş, həmçinin Qara, Azov və Oxot dənizlərində neft, qaz yataqlarının kəşfiyyat və işlənmə təşkilatı işlərində iştirak etmişdir. 1978-1981-ci illərdə AzNKİ-da Neft sənaye təşkilatçılarının hazırlanması və İqtisadiyyat, təşkilat və istehsalatın idarə edilməsi kafedralarına rəhbərlik etmiş, onun rəhbərliyi altında keçmiş SSRİ-nin neft, qaz sənayesi və geologiyası üçün rəhbər kadrlar hazırlanmışdır. Dəniz neft mədənlərinin tikintisi və qaz yataqlarının işlənilməsi, dəniz neftdaşıyan akvatoriyaların geoloji-texnoloji və mürəkkəb təbii şəraitlərinin tədqiqi və onların neft və qaz yataqlarının istehsalı məsələləri ilə uyğunlaşdırılması məsələlərini tədqiq etmişdir.

Elmi, texniki və "Yerin təkinin və dərin qazımanın tədqiqatı", "Korroziyadan müdafiə", "Xəzər dənizinin problemi", problemləri üzrə SSRİ Nazirlər Soveti Dövlət Komitəsinin idarələrarası elmi şuralarının üzvü olmuşdur.

230-dan çox elmi məqalənin, 18 monoqrafiyanın və kitabın müəllifidir. İxtiralarına görə 22 müəlliflik şəhadətnaməsi almışdır. Onun rəhbərliyi altında 30-dan artıq elmlər namizədi yetişmişdir.

İsrafil Piri oğlu Quliyev "Azərbaycan SSR dəniz neft mədənlərinin kompleks tikintisi" monoqrafiyasına görə SSRİ Lenin mükafatı laureatı və "SSRİ Fəxri neftçi" adlarına layiq görülmüşdür. "Şərəf nişanı" ordeni və medallarla mükafatlandırılmışdır.

İ.Quliyev 1981-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Neft: orta məktəbin VIII sinfi üçün dərs vəsaiti /İ.P.Quliyev, Ə.F.Qasımov; [elmi red. S. Quliyev].- Bakı: Azərtədrisnəşr, 1960.-79 s.

Süxurlar mexanikasının əsasları: quyudibi proseslər nəzəriyyəsi /İ.P.Quliyev, A.Ə.Hüseynova; red. M. Seyid-Rza.-Bakı: Azərneftnəşr, 1956.-171, [1] s.

İnternetdə

https://az.wikipedia.org/wiki/İsrafil_Quliyev

85 illiyi

Zərifə Salahova 1932

Mədəniyyət xadimi

Zərifə Teymur qızı Salahova 1932-ci il fevral ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

1952-ci ildə Sabir adına Pedaqoji məktəbi bitirmiş, 1952-1956-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunda təhsil almışdır. İnstituta "xalq düşməni"nin qızı kimi daxil olsa da, ali məktəbi bitirəndə bu ad üstündən götürülmüş, əvvəlcə il yarım Xankəndində müəllim işləmişdir. Oranın havası səhhətində problem yaratdığından Mingəçevirdə dayısıgildə qalaraq Xaldanda rus dili müəlliməsi kimi çalışmışdır. 1958-1962-ci illərdə "Minqeçaurskiy raboçiy" və "Kommunist Sumqaita" qəzetlərinin əməkdaşı olmuşdur.

1962-1966-cı illərdə Azərbaycan Kommunist Partiyası Sumqayıt Şəhər Komitəsinin təlimatçısı, mühaziraçisi, təbliğat və təşviqat şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1966-1967-ci illərdə Sov. İKP MK yanında Ali Partiya Məktəbinin dinləyicisi, 1970-1981-ci illərdə Azərbaycan KP MK-nin təşkilat-partiya işi şöbəsinin partiya informasiya sektorunun müdiri olmuşdur.

1981-1993-cü illərdə Azərbaycan SSR Kitab Həvəskarları Könüllü Cəmiyyətinin İdarə Heyəti sədrinin birinci müavini vəzifəsini tutmuşdur.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir.

1993-cü ildən "Kitab" Cəmiyyəti İdarə Heyətinin sədridir. Azərbaycan dilində ilk miniatür kitab məhz Zərifə xanımın fədakar əməyi nəticəsində işıq üzü görmüşdür. Ulu öndər Heydər Əliyev Azərbaycanda miniatür kitab nəşri sahəsində Zərifə xanım Salahovanın fəaliyyətini yüksək qiymətləndirmiş, onun qayğısı sayəsində 2002-ci il aprelin 23-də Bakıda dünyada yeganə Miniatür Kitab Muzeyi açılmışdır. 2002-2007-ci illərdə onun təşəbbüsü ilə Azərbaycanda 30 miniatür kitab nəşr edilmişdir. Onların arasında klassik ədəbiyyatın seçilmiş nümunələri, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası, ulu öndər Heydər Əliyevin Prezident seçilməsi münasibətilə 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində söylədiyi "Vətənə, dövlətə, xalqa sədaqət andı" nitqi və bir sıra digər əsərləri göstərmək olar.

2002-ci ildən Azərbaycan Qadınları Bakı Assosiasiyasının sədridir. 2005 və 2010-cu illərdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən İctimai Televiziya və Radio Yayımları Şirkəti Müşahidə Şurasının üzvü təyin edilmişdir.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanda kitab mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Zərifə Salahova "Şöhrət" ordeni ilə , 2012-ci ildə Belarus Prezidentinin fərmanına əsasən Belarus Respublikasının dövlət mükafatı "Fransisk Skarina" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Miniatür Kitab Muzeyi /Z.Salahova; [Azərb. Resp. Mədəniyyət və Turizm Nazirlyi].- Bakı: [s.n.], [2010].- 32 s.

Balaca kitabların muzeyi Ginnesin Rekordlar Kitabında: Z.Salahova: "Bu uğuru qazanmaq üçün 6 aya yaxın gərgin işlədik" /Z.Salahova; müsah. apar. S.Osmanova //Həftə içi.- 2015.- 27 yanvar.- S.7.

Qəlbləri duyan böyük insan: Heydər Əliyev mənim həyatımda /Z.Salahova //Azərbaycan.-2013.-29 mart.- S.3.

Musaqızı, L. Atasının güllələndiyini 18 il sonra öyrənən döyüşkən qız Zərifə Salahova: "Anam bizə peraşkidən sup bişirirdi" /L.Musaqızı //Kaspi.- 2015.- 11 dekabr.- S.20-21.

Зарифа Салахова - служение Книге и преданность Делу /Э.Алиева; [дизайн М.Гусейнов].- Баку, [2012].- 372 с.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/kaspi_az/2015/dekabr/467488.htm http://www.anl.az/down/meqale/hafta_ichi/2015/yanvar/416331.jpg https://az.wikipedia.org/wiki/Zərifə_Salahova www.azerbaijan-news.az/index.php?mod=3...

85 illiyi

Ağamusa Axundov 1932-2015

Akademik

Ə d ə b i y y a t

Azərbaycan dilinin izahlı lüğəti: bircildlik /A.Axundov; red. E.Abdullayeva.-Bakı: Elm, 2005.- 452 s.

Dil və ədəbiyyat: 2 cilddə /A.Axundov.-Bakı: [s. n.], 2003.- C.I.-660 s.;C.II.- 2003.- 438 s.

Ümumi dilçilik: Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları: ali məktəb tələbələri üçün dərslik /A.Axundov.- Bakı: Şərq-Qərb, 2006.- 280 s.

Böyük insan, vətənpərvər alim və ictimai xadim: [akademik Cəlal Əliyev haqqında] /A.Axundov //Elm.- 2013.- 30 may.- S.10.

Ağamusa Ağası oğlu Axundov: biblioqrafik göstərici = Агамуса Агаси оглы Ахундов: библиографический указатель /AMEA Mərkəzi Elmi Kitabxana; tərt. Ə.Əfəndiyev; red. Z.Əliyeva.- Bakı: Elm, 2002.- 160 s.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/elm/2013/may/314027.htm
static.bsu.az/w8/Folklorwunasliq/.../140-143.pd...

Ağamusa Ağası oğlu Axundov 1932-ci il fevral ayının 2-də Kürdəmir şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1950-1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almış, 1955-1958-ci illərdə isə universitetin aspiranturasında təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1958-ci ildən etibarən Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində başlayan Ağamusa Axundov 1990-cı ilədək müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri və dekan vəzifələrini tutmuşdur. Universitetdə çalışmaqla yanaşı o, 1959-1965-ci illərdə Azərbaycan Dövlət Dillər İnstitutunda ikinci ali təhsil almışdır.

Ağamusa Axundov 1990-cı ildən 2011-ci ilədək Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru və eyni zamanda 2001-2011-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi işləmişdir. O, 2011-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri olmuşdur.

Ağamusa Axundov 1958-ci ildə filologiya elmləri üzrə namizədlik, 1964-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1967-ci ildə professor elmi rütbəsini almışdır. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Türk dillərinin səs quruluşu və təbiətindən irəli gələn bəzi səciyyəvi qanunauyğunluqların üzə çıxarılması Ağamusa Axundovun əsas elmi nailiyyətləri sırasındadır. Onun iyirmi ildən artıq baş redaktor olduğu dövrdə beynəlxalq "Türkologiya" jurnalı öz nüfuzunu daha da artırmışdır.

Ağamusa Axundov bu illər ərzində Bakı Dövlət Universitetində yüksəkixtisaslı kadrların hazırlanmasına böyük qüvvə sərf etmişdir. Alimin yetirmələri bu gün ölkənin elmi-mədəni həyatında uğurla çalışırlar.

Ağamusa Axundovun çoxillik axtarışlarının nəticələri ölkədə və onun hüdudlarından kənarda 500-dən çox elmi əsərdə, 30-dan artıq kitabda, monoqrafiya və dərsliklərdə əksini tapmışdır. Alimin rəhbərliyi ilə 40-dək fəlsəfə doktoru və elmlər doktoru hazırlanmışdır. İştirakçısı olduğu mötəbər beynəlxalq simpozium, konfrans və forumlarda konseptual xarakterli çıxışları ilə Ağamusa Axundov Azərbaycan elminə şöhrət qazandırmışdır. O, 1965-1966-cı illərdə Misirə ezam edilərək Qahirənin Eyn-Şəms Universitetində Azərbaycan dili və ədəbiyyatından mühazirələr oxumuşdur.

Akademik Ağamusa Axundovun Azərbaycan dilçiliyi sahəsində mühüm xidmətləri və səmərəli elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1986-cı ildə "Azərbaycan dilinin fonetikası" əsərinə görə Dövlət Mükafatına layiq görülmüş, 1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adını almışdır. 2000-ci ildə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ağamusa Ağası oğlu Axundov 2015-ci il sentyabr ayının 5-də vəfat etmiş, Bakıda II Fəxri Xiyabanda dəfn edilmişdir.

90 illiyi

Cahangir Qəhrəmanov 1927-1995

Ədəbiyyatşünas

Ə d ə b i y y a t

Azərbaycan tarix və mədəniyyət abidələrini mühafizə cəmiyyəti /mətnin müəl. və tərt. C.Qəhrəmanov.- Bakı: İşıq, 1991.-35 s.

Nəsimi divanının leksikası /C.Qəhrəmanov; red.: C.Əfəndiyev, Ə.Xanbabayeva; AzSSR EA, Respublika Əlyazmaları Fondu.- Bakı: Elm, 1970.-564, [4] s.

Praktiki transfoneliterasiya işləri /C.Qəhrəmanov; AMEA, M.Füzuli adına Əlyazmalar İn-tu.- Bakı: Nurlan, 2007.- 284 s.

Yusif Məddah. "Vərqa və Gülşah": XIV əsr Azərbaycan yazılı abidəsi. Mətn və qrammatik oçerk /C.Qəhrəmanov, Z.T.Hacıyeva; AzSSR EA Əlyazmalar İn-tu.-Bakı: Elm, 1988.- 184 s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/.../Cahangir_Qəhrəman...

www.elyazmalarinstitutu.com/.../cahangir_qahr...

Cahangir Vahid oğlu Qəhrəmanov 1927-ci il fevral ayının 10-da Qəbələ bölgəsində doğulmuşdur. 1945-ci ildə Bakı şəhəri 132 saylı orta məktəbi bitirmişdir. 1945-1950-ci illərdə ADU-nun (indiki BDU) şərqşünaslıq fakültəsində təhsil almışdır. 1951-1955-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspirantı olmuşdur. 1955-ci ildə "Azərbaycan ədəbi dilində fəlsəfə terminləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1955-1960-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda baş müəllim, dosent, 1960-1967-ci illərdə Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun baş elmi işçisi işləmişdir. 1962-1963-cü illərdə Daşkənd, Moskva və Bakıda mətnşünas və kataloqşünasların Ümumittifaq müşavirələrində məruzələrlə çıxış etmişdir. 1967-1972-ci illərdə Respublika Əlyazmalar Fondunun Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri olmuşdur. 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1970-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Fədakar əməyə görə" yubiley medalı ilə təltif edilmişdir. 1971-1972-ci illərdə Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun direktor müavini, 1972-1995-ci illərdə (1986-cı ildən Əlyazmalar İnstitutu) direktoru olmuşdur. 1974-cü ildə ona Ali Attestasiya Komissiyası tərəfindən professor elmi rütbəsi verilmişdir. İmadəddin Nəsiminin əsərlərinin tənqidi mətnini hazırladığına görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalını almışdır. 1975-1995-ci illərdə Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq, Dilçilik, Ədəbiyyat institutlarında filologiya elmləri namizədi və doktoru alimlik dərəcələri verən ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü, Əlyazmalar İnstitutunda mətnşünaslıq ixtisası üzrə mudafiə şurasının sədri, ilahiyyat elmləri namizədi alimlik dərəcəsi verən müdafiə şurasının üzvü olmuşdur.

SSRİ Elmlər Akademiyasının "Памятники письменности Востока" seriyasından nəşrlərinin, "Советская тюркология" jurnalı, "Ədəbiyyat və incəsənət" qəzeti, "Архивы Азербайджана" jurnalı və Azərbaycan Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzinin referativ xarici ədəbiyyat məcmuəsi filologiya və incəsənət seriyasının redaksiya heyətlərinin üzvü, Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutu kataloqlarının, "Əlyazmalar xəzinəsində" elmi əsərlər toplusunun və "Keçmişimizdən gələn səslər" bülleteninin baş redaktoru olmuşdur.

1982-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə ona Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. "Sərəf nişanı" ordeni, "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.

Cahangir Qəhrəmanov 1995-ci il iyun ayının 26-da Bakı şəhərində vəfat etmişdir.

80 illiyi

Əmirxan Xəlilov
1937

Alim

Əmirxan Məhərrəm oğlu Xəlilov 1937-ci il fevral ayının 23-də Gürcüstan Respublikasının Marneuli (Sarvan) şəhərində anadan olmuşdur.

Orta məktəbi Marneuli (Sarvan) şəhərində bitirmiş, 1956-1961-ci illərdə BDU-da təhsil almışdır. 1965-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş və 1968-ci ildə bitirmiş, elmi işçi vəzifəsində işləmişdir.

1968-ci ildə "Cəfər Cabbarlının ədəbi-tənqidi görüşləri" mövzusunda namizədlik, 1987-ci ildə "Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri (1920-1980)" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1971-ci ildən dosent, 1988-ci ildən etibarən professor elmi adlarını almışdır.

Ə.M.Xəlilov 1970-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur. Moskva, Riqa, Daşkənd şəhərlərində və Beynəlxalq konfranslarda mühazirələrlə çıxış etmiş, Azərbaycan ədəbiyyatının fəal təbliğatçılarından biri olmuşdur. 1975-1976-cı illərdə bir neçə dəfə Daşkənd Universitetində mühazirələr oxumuşdur.

Uzun illərdir dünya və şərqi slavyan ədəbiyyatından mühazirələr oxuyan professor Əmirxan Xəlilov ali məktəb tələbələri üçün yazılmış "Rus sovet ədəbiyyatı tarixi" (1976), "XX əsr rus ədəbiyyatı tarixi" (1992) dərsliklərinin əsas müəlliflərindən biridir. Habelə "Aleksandr Blok" (1980), "Sergey Yesenin: Mərdəkanın payızı və yazı" (1996) və s. kitabların, bir-birinin ardınca nəşr olunan "Günəşi içirik, günəşlənirik" (2001), "Məmməd Araz dühası" (2002), "Ə.Kürçaylı" (2003), "Olimpə gedən yolda" (2005) kitab-monoqrafiyaların müəllifidir.

Professor Ə.Xəlilov universitetdə işlədiyi müddətdə 15 kitab və 200-dən çox elmi-ədəbi məqalə çap etdirmişdir. 2011-ci ildə onun yeni dərs vəsaiti "Dünya ədəbiyyatı" (I cild, 450 səh.) tələbələrin istifadəsinə verilmişdir. 3 elmlər namizədi yetişdirmişdir.

O, ədəbi fəaliyyətinə görə Məmməd Araz adına "İti qələm", "Qızıl qələm" və "Məmməd Araz" mükafatlarını almışdır.

Əmirxan Xəlilov yüksəkixtisaslı kadrların hazırlanması sahəsində uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və anadan olmasının 75 illiyi münasibətilə Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Həyata müdrik baxış: şair-təbib - Mirəfsəl Təbib /Ə.M.Xəlilov.- Bakı: Mütərcim, 2009.- 208 s.

Dünya ədəbiyyatı: mühazirələr, ədəbi portretlər: dərs vəsaiti /Ə.M.Xəlilov; rəy. N.Q.Cəfərov [et al.]; elmi red. B.Ə.Nəbiyev.- Bakı: Araz, 2011.- C.I : Antik dövr.- 458 s.; C.II: İntibah dövrü və XVII-XVIII əsr dünya ədəbiyyatı.- 2013.- 536 s.; C.III: XIX əsr dünya ədəbiyyatı.- 2014.- 552 s.; C.IV.- 2012.- 566 s.; C.V.-2012.- 616 s.; C.VI.- 2013.- 528 s.; C.VII.-2013.- 472 s.

İ n t e r n e t d ə

www.anl.az/down/eqale/.../2013/.../300357.ht...

105 illiyi

İbrahim İbrahimov 1912-1994

Akademik

İbrahim İbiş oğlu İbrahimov 1912-ci il fevral ayının 28-də Qaryagin qəzasının (indiki Füzuli rayonu) Qarğabazar kəndində anadan olmuşdur.

Orta təhsilini Gəncədə tamamlayan İ.İbrahimov Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1935-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. O, Azərbaycan Dövlət Universitetində aspiranturaya daxil olmuş, sonradan isə M.Lomonosov adına Moskva Dövlət Universitetində təhsilini davam etdirmişdir.

İ.İbrahimov 1939-cu ildə məşhur sovet riyaziyyatçısı A.Qelfondun elmi rəhbərliyi ilə namizədlik, 1946-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Azərbaycanda ilk dəfə olaraq riyaziyyat sahəsində elmlər namizədi adını almış azərbaycanlı alimdir. 1968-ci ildən Azərbaycan SSR EA-nın akademiki seçilmişdir.

İ.İ.İbrahimov analitik funksiya vasitəsilə düzələn bəzi sistemlərin tamlığını tədqiq edərək riyazi analiz sahəsində klassik nəticələr əldə etmişdir. Elmi fəaliyyətini davam etdirən alim funksiyaların konstruktiv nəzəriyyəsi sahəsində görkəmli riyaziyyatçılar M.Keldış, S.Bernşteyn, S.Nikolski, A.Qelfond, M.Lavrentyev və başqaları ilə yaxından əlaqə saxlamış, onlarla birgə işləmişdir.

Akademik İ.İ.İbrahimov 170-dən çox elmi əsərin, bir sıra monoqrafiya və dərsliklərin müəllifidir. Onun Azərbaycanın ali məktəblərində ali riyaziyyatın tədrisi və təşkili sahəsində böyük xidmətləri var. İ.İ.İbrahimovun 1955-ci ildə "Ədədlər nəzəriyyəsinin əsasları", 1957-ci ildə "Sıralar nəzəriyyəsinin əsasları" və 1962-ci ildə "Riyazi analiz kursu" dərslikləri çap edilmişdir. 1950-1952-ci illərdə K.Rosse və İ.Privalov tərəfindən ali məktəblər üçün yazılmış "Diferensial hesabı" və "İnteqral hesabı" kimi iki hissədən ibarət olan kitabları Azərbaycan dilinə tərcümə etmişdir.

İ.İbrahimov Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoru, Azərbaycan Riyaziyyat Cəmiyyətinin prezidenti olmuşdur.

Akademik İ.İ.İbrahimov riyazi analizin müxtəlif sahələrində və riyaziyyatın tədrisi metodikası üzrə 40-dan çox elmlər namizədi və 4 nəfər elmlər doktoru hazırlamışdır.

Akademik İ.İ.İbrahimovun xidmətləri yüksək qiymətləndirilmiş, o, "Əməkdar elm xadimi" fəxri adına və Dövlət mükafatına layiq görülmüşdür.

Görkəmli akademik İbrahim İbrahimov 1994-cü il noyabr ayının 6-da vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Ədədlər nəzəriyyəsinin əsasları: dərslik /İ.İbrahimov; red. R.Sultanov.- Bakı: Azərnəşr, 1955.- 379 s.

Riyazi analiz kursu: ali məktəblər üçün dərslik /İ.İbrahimov.- Bakı: Azərtədrisnəşr, 1962.- 869 s.

Riyaziyyata həsr olunmuş ömür /İ.İ.İbrahimov; tərt. ed. və red. S. İbrahimova; red. A. Məmmədov.-Bakı: Elm, 2002.- 328 s.

Sıralar nəzəriyyəsinin əsasları /İ.İ.İbrahimov; [red. R.Sultanov].- Bakı: Azərnəşr, 1957.- 501 s.

İ.İ.İbrahimov: Biblioqrafiya / tərt. Ç.H.Əhmədova; red. Z.V.Mustafayeva; Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 1984.-103 s.

Hacıyev, A. Dünya şöhrətli alim /A.Hacıyev //Respublika.-2012.- 28 fevral.- S.10.

İ n t e r n e t d ə

azertag.az/.../AMEA_da_akademik_Ibrahim_Ib..

mechmath.bsu.edu.az/.../akademik_brahim_bi_...

https://ru.wikipedia.org/wiki/Ибрагимов,_Ибрагим_Ибишевич

90 illiyi

Kamil Sadıxov 1927

Akademik

Ə d ə b i y y a t

Нефтяные и синтетические сульфонатные присадки к моторным маслам /К.И.Садыхов; ред. В.М.Фарзалиев.- Баку: Элм, 2006.- 180 с.

Присадки к смазочным маслам: история науки /В.М.Фарзалиев, Н.Д.Исмайлова, М.Э.Мусаева; гл. ред. К.И.Садыхов.- Баку: Элм, 2009.- 230 с.

Fərzəliyev, V. Aşqarlar kimyası sahəsində görkəmli alim /V.Fərzəliyev //Azərbaycan.- 2012.- 4 mart, № 52.- S.6.

Seyidov, N. Neft kimyası və neft emalı sahəsində görkəmli alim Akademik Kamil Sadıxov - 85 /N.Seyidov //Elm.-2012.- 24 fevral.- S.26.

İ n t e r n e t d ə

https://ru.wikipedia.org/wiki/Садыхов,_Камиль_Исмаил_оглы

www.science.gov.az/forms/deystvitelnyie.../65

www.anl.az/down/meqale/.../mart/237445.htm

arxiv.az/az/azerbaijan-news.az/2078640

Kamil İsmayıl oğlu Sadıxov 1927-ci il fevral ayının 27-də Şimalı Qafqazda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1948-ci ildə, V.Kuybışev adına AzETNİ-də başlamış, sonralar onun bazasında yaradılan Neft-Kimya Prosesləri İnstitutunda (NKPİ) və 1965-ci ildən Aşqarlar Kimyası İnstitutunda (AKİ) çalışmışdır.

K.Sadıxov 1956-cı ildə namizədlik, 1967-ci ildə doktorluq dissertasiyalarını müdafiə edərək 1957-ci ildə kimya elmləri namizədi, 1968-ci ildə texnika elmləri doktoru alimlik dərəcəsi, 1969-cu ildə kimya və neft kimyası ixtisası üzrə professor elmi adını almışdır. 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1996-cı ildə Nyu-York EA-nın həqiqi üzvü, 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Alim 1965-1988-ci illərdə "Mühərrik yağlarına sulfonat aşqarlarının sintezi və YSM-lər" laboratoriyasına, sonrakı 10 il ərzində "Mühərrik yağlarına aşqarlar və YSM-lər" şöbəsinə, 1998-ci ildə şöbələr ləğv edildikdə 2000-ci ilə kimi "YSM-lərə aşqarlar" laboratoriyasına rəhbərlik etmişdir. 2001-ci ildən baş elmi işçi vəzifəsində fəaliyyət göstərmişdir.

Professor K.Sadıxov aşqarlar sahəsindəki işlərinə görə 1970-ci ildə elm və texnika sahəsində Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Uğurlu işlərinə görə K.Sadıxov dəfələrlə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalları, D.İ.Mendeleyev adına Ümumittifaq Kimya Cəmiyyətinin diplomları və fəxri fərmanları ilə, "SSRİ ixtiraçısı" döş nişanı ilə mükafatlandırılmışdır.

Akademikin uzun illər ərzində apardığı dəyərli tədqiqat işləri 400-dən çox elmi əsərində, o cümlədən 100-dən çox müəlliflik şəhadətnaməsi və patentdə öz əksini tapmışdır. Bu ixtiralardan yalnız 16-nın nəticələrinin sənayedə tətbiqi xalq təsərrüfatına milyonlarla manat iqtisadi səmərə vermişdir.

Alim mütəxəssislər tərəfindən geniş istifadə olunan 4 kitabın "Almaz və cilalayıcı alətlər üçün yağlayıcı və soyuducu mayelər" (1978), "Sürtkü yağlarına sulfonat aşqarları" (1982) və tək yazdığı "Motor yağlarına neft və sintetik sulfonat aşqarları" (2006), "K.İ.Sadıxovun elmi əsərlərinin külliyatı" (2006) müəllifidir.

O, Neft kimyası və neft emalı Koordinasiya Şurasının, doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış elmi şuraların üzvüdür. 1989-2000-ci illər ərzində AEA Kimya Bölməsinin büro üzvü, dəfələrlə BDU-da və Azərbaycan Dövlət Neft Akademiyasında buraxılış imtahanları üzrə dövlət komissiyalarının sədri olmuşdur.

K.Sadıxovun xidmətləri layiqincə qiymətləndirilmişdir. 1970-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş,1987-ci ildə "Şərəf nişanı", 2004-cü ildə "Şöhrət" ordenləri ilə təltif edilmişdir.

75 illiyi

Rafiq Əliyev 1942

Alim

Ə d ə b i y y a t

Avtomatik idarəetmə nəzəriyyəsi: ali məktəblər üçün dərslik /R.Ə.Əliyev, R.R.Əliyev.- Bakı: Çaşıoğlu, 2007.- 639 s.

İnformatika və hesablama texnikasının əsasları: Ümumtəhsil məktəblərinin 10-11-ci sinifləri üçün dərslik /R.Əliyev, T.Əliyev, M.Salahlı.- Bakı: Maarif, 2003.- 236 s.

Robotlardan avtomatzavodlaradək /R.Əliyev; Azərbaycan SSR EA, Kibernetika İn-tu.- Bakı: Elm, 1989.- 98, [3] s.

Soft Kompütinq (nəzəriyyə, texnologiya və praktika) [Ali məktəblərin "İnformasiya emalı və idarəetmənin avtomatlaşdırılmış sistemləri" ixtisası üçün dərs vəsaiti] /R.Əliyev, R.R.Əliyev.- Bakı: Çaşıoğlu, 2004.-624 s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/.../Rafiq_Əliyev_(profe..

science.ab.az/forms/hlenyikorrespondentyi/79

https://rafiqaliyev.wordpress.com/page/9/

Rafiq Əziz oğlu Əliyev 1942-ci il fevral ayının 10-da Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. 1948-1958-ci illərdə Ağdamda orta məktəbdə təhsil almış, məktəbi qızıl medalla bitirmişdir.

1958-1963-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda oxumuş, İnstitutu fərqlənmə diplomu ilə başa vurmuşdur.

1964-1967-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyası İdarəetmə Problemləri İnstitutunun aspirantı olmuşdur. 1967-ci ildə texnika elmləri namizədi, 1975-ci ildə texnika elmləri doktoru alimlik dərəcəsi almışdır. 1976-cı ildən professordur.

1967-1969-cu illərdə Neftkimyaavtomat Elmi-Tədqiqat və Layihə İnstitutunda (ETLİ) elmi-tədqiqat laboratoriyasının müdiri vəzifəsində çalışmışdır.

1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

1989-cu ildən 2011-ci ilə kimi Azərbaycan Dövlət Neft Akademiyasının Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri olub. 1998-ci ildən indiyə kimi Azərbaycan Dövlət Neft Akademiyası və Corciya Dövlət Universitetinin (Atlanta, ABŞ) MBA proqram direktoru, 2001-ci ildən indiyə kimi isə bu universitetlərin BBA proqram direktorudur.

İnformatika və idarəetmə nəzəriyyəsi sahəsində nüfuzlu elmi məktəbin yaradıcısı olan Rafiq Əliyev dünyanın bir çox universitetinin Corciya Dövlət Universiteti (ABŞ), Təbriz Universiteti (İran), Zigen Universiteti (Almaniya), Yaxın Doğu Universiteti (Şimali Kipr) professorudur. İnformatika və idarəetmə, süni intellekt, qeyri-səlis məntiq və Soft Kompütingə həsr olunmuş 70-ə yaxın kitabın, 350-dən çox elmi məqalənin müəllifidir.

Nəşr edilən kitablarından 48-i xarici ölkələrdə çap olunub, "Soft kompüting" və "Soft komputing its aplications" bestseller-kitabları dünyanın bir - çox ölkələrində dərsliklərə salınıb.

Azərbaycan və bir sıra xarici ölkələrdə informatika və idarəetmə sahəsində elmi-tədqiqat işlərinin təşkilində böyük rolu olmuşdur. Azərbaycanda, Rusiyada, Almaniyada və İranda 150-dan çox elmlər namizədi, 30 elmlər doktoru hazırlamışdır. Tələbələri hazırda təkcə Azərbaycanın elm mərkəzlərində deyil, digər ölkələrdə də (ABŞ, Almaniya, Türkiyə, Rusiya, İran və s.) fəaliyyət göstərirlər.

Bilavasitə rəhbərliyi və iştirakı ilə 1994-cü ildən başlayaraq hər iki ildən bir Avropanın bir sıra ölkələrində "Qeyri-səlis sistemlərin tətbiqi", 2000-ci ildən hər iki ildən bir Özbəkistan Respublikasının Daşkənd şəhərində "Qeyri-səlis sistemlərin tətbiqi və Soft Kompütinq", 2000-ci ildən hər iki ildən bir Türkiyənin Antalya şəhərində "Sistem təhlilində, qərarqəbuletmə və idarəetmədə sözlə işləyən kompüter və Soft Kompütinq" üzrə beynəlxalq elmi konfranslar keçirilir.

60 illiyi

Mehmanəli Məmmədov 1957

Alim

Ə d ə b i y y a t

Elmi-texniki kitabxana şəbəkələrində mütəxəssislərə kitabxana-informasiya xidmətinin təşkili: dərs vəsaiti /M.Məmmədov.- Bakı, 2009.- 115 s.

Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti: dərs vəsaiti /M.Məmmədov, A.Qurbanov, P.Kazımi.- Bakı: Mütərcim, 2012.- 207 s.

Sənəd-informasiya daşıyıcıları: elmi-metodiki vəsait /M.Məmmədov, Ə.Rüstəmov.- Bakı: Uniprint, 2010.- 283 s.

Kitabxanaların idarə edilməsində marketinqin rolu /M.Məmmədov //Kitabxanaşünaslıq və biblioqrafiya.-2009.- № 1.- S. 47-54.

Kitabxanaların maliyyələşdirilməsində beynəlxalq təşkilatların rolu /M.Məmmədov //Kitabxanaşünaslıq və informasiya.- 2012.- № 1.- S. 94-105.

Məmmədov Mehmanəli Əkbər oğlu //Azərbaycan Kitabxana Ensiklopediyası.- Bakı, 2015.- S.417-418.

Məmmədov Mehmanəli Əkbər oğlu 1957-ci il fevral ayının 18-də Astara rayonunun Artupa kəndində anadan olmuşdur. 1974-cü ildə Səncərədi kənd orta məktəbini bitirmiş, 1975-1977-ci illərdə ordu sıralarında xidmət etmişdir. 1977-1978-ci illərdə Bakı şəhəri Sahil qəsəbəsində Dəniz Kəşfiyyat İdarəsində qazmaçı köməkçisi işləmişdir.

1979-cu ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinə daxil olmuş, 1984-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Tələbəlik illərində fakültə komsomol təşkilatının katibi kimi dəfələrlə tələbə inşaat dəstəsinin komandiri olmuş və ictimai fəaliyyətinə görə keçmiş Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin fəxri fərmanı ilə təltif edilmişdir.

1984-1986-cı illərdə Azərittifaqın "Azkoopkitab ticarət birliyi"ndə əmtəəşünas və baş əmtəəşünas vəzifələrində işləmişdir. 1987-ci ildən BDU-nun Kitabxanaşünaslıq kafedrasında baş laborant və laboratoriya müdiri, 1993-cü ildə Kitabşünaslıq və Nəşriyyat işi kafedrasında baş müəllim kimi fəaliyyət göstərmişdir. 2003-cü ildən Kitabxanaşünaslıq kafedrasının dosentidir.

1990-1994-cü illərdə BDU-nun Kitabxanaşünaslıq kafedrasının qiyabi aspirantı olmuş, 2000-ci ildə "Azərbaycan Respublikası kitabxanalarında kitabxanalararası abonement sistemi" mövzusunda dissertasiya işini Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A. Xələfovun rəhbərliyi ilə müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır.

"Kitabxana işinin təşkili və idarə edilməsi", "Kitabxanaların elmi-metodik təminatı", "Kitabxana işinin iqtisadiyyatı", "Texniki kitabxanalarda mütəxəssislərə kitabxana-informasiya xidmətinin təşkili" və s. fənləri tədris edir. "Respublika Elmi Texniki kitabxanasında KAA təşkili" (1994), "Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası" (2005), "Elmi-texniki kitabxana şəbəkələrində mütəxəssislərə kitabxana informasiya xidməti" (2009), "Sənəd-informasiya daşıyıcıları" (2010), "Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi" (2007) və s. adlı 8 monoqrafiya və dərs vəsaitinin, 100-dən çox elmi məqalənin müəllifidir.

Mehmanəli Məmmədov səmərəli elmi fəaliyyət ilə yanaşı, həm də təşkilatçılıq və idarəçilik keyfiyyətinə də malikdir. O, 1994-2004-cü illərdə Kitabxanaçılıq-informasiya fakültəsi həmkarlar bürosunun sədri olmuş, 2004-cü ildən isə fakültədə bakalaviatura üzrə dekan müavini vəzifəsində çalışır.

Hazırda M.Məmmədovun əsas tədqiqat obyekti Respublika Elmi Texniki kitabxalarında mütəxəssislərə kitabxana-informasiya xidmətinin təşkili, fondun komplektləşdirilməsi, onun tematik-tipoloji tərkibinin öyrənilməsi, optimallaşdırılması və digər problemlərdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Mehmanəli Məmmədovu elmi-pedaqoji və yüksəkixtisaslı kadrların hazırlanmasında səmərəli fəaliyyətinə görə 2009-cu və 2012-ci illərdə Fəxri Fərmanla təltif etmişdir.

Gənclər Günü 1997

2 feval gününün Gənclər Günü kimi elan olunması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz o, hakimiyyətə ikinci dəfə qayıdışından sonra, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi gündəmə gətirmişdir. Bu məqsədlə 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması barədə fərman imzalamış, 1995-ci ildə isə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk forumu, növbəti dəfə II Forum - 1999, III Forum - 2003, IV Forum - 2005, V Forum - 2008, VI Forum - 2011, VII Forum - 2014-cü ildə keçirilmişdir. 1 fevral 1997-ci ildə forumun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ulu öndər "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Proqram çərçivəsində görülən işlər gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi yönündə ciddi irəliləyişə gətirib çıxarmışdır. Prezident İlham Əliyevin bu sahəyə olan diqqəti özünü ayrıca bir ilin (2007-ci il) "Gənclər ili" elan edilməsində də göstərmişdir. 2007-ci ildə cənab Prezident İlham Əliyev "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Sərəncam imzalamışdır. Proqram çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. 2011-ci ilin 6 aprel tarixində Prezident İlham Əliyev "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncamının əsas məqsədi ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir. Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 19 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam vermişdir. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyuldu. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsidir.

Ə d ə b i y y a t

Baxşəliyev, R. Gənclər cəmiyyətin avanqard qüvvəsinə çevrilib: 2 fevral Gənclər Günüdür /R.Baxşəliyev //Azərbaycan.- 2014.- 2 fevral.- S.4.

Cavanşir. Gənclər siyasətində Azərbaycan modeli: Azərbaycan gənclərinin sosial və siyasi sferada fəallığı günü-gündən artmaqdadır /Cavanşir //Azad Azərbaycan.- 2015.- 26 aprel.- S.5.

Hacıyev, F. Gənclər cəmiyyətin avanqard qüvvəsidir. 2 fevral - Azərbaycan Gəncləri Günü /F.Hacıyev; söhbətləşdi Ə.Hüseynzadə //Təhsil.- 2014.- №2.- S.42-44.

Sarıyeva, İ. Gənclər bayramı gəncliyin milli şüurunun formalaşmasında necə rol oynayır? /İ. Sarıyeva //Bakı xəbər.-2014.- 3 fevral.- S.12.

İ n t e r n e t d ə

az.trend.az › Cəmiyyət
lib.aliyevheritage.org/az/9476535.html
www.anl.az/down/meqale//.../105754.htm

Şuşa rayonunun Quşçular və Malıbəyli kəndlərinin işğalının 25-ci ildönümü 1992

1992-ci il fevralın 10-da erməni birləşmiş hərbi hissələri Malıbəyli kəndinə üç tərəfdən hücuma keçdilər. Həmin gün Malıbəyli və Quşçular əhalisindən 8 nəfər şəhid oldu, 3 nəfər girov götürüldü, 20 nəfər ağır yaralanaraq bədən xəsarətləri aldı. Hər iki qədim kənd fevralın 11-dən 12-nə keçən gecə işğal olundu. Bundan sonra Şuşa, Xocalı ardınca digər rayonlar zəbt edildi.

Qarabağın ən iri yaşayış məskənlərindən olan Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri Şuşa rayonunda, Qarabağ silsiləsinin dağətəyi ərazisində, rayon mərkəzindən 14 kilometr şimal-şərqdə, Xankəndi şəhərinin 2,5 kilometrliyində, Ağdam-Şuşa avtomobil yolundan 2 km aralıda yerləşirdi. Əsrlər öncə bu kəndlərdə karvansaralar, əttar, əllaf, baqqal dükanları, aşxanalar, çayxanalar, hamam, məscid, qala divarları, hətta kanalizasiya xətti də varmış. Bu qədim kəndlər Qarabağın ən ağır-batman, qayım-qədim obalarından idi. İşğal ərəfəsində kəndin 4 min nəfərə yaxın əhalisi var idi. Əhalinin əsas məşğuliyyəti əkinçilik və tərəvəzçilik olub. Kənddə 2 orta məktəb, kitabxana, mədəniyyət evi, klub, kinoqurğu, məişət evi, poçt-rabitə şöbəsi, ambulatoriya, minarəli məscid, çay daşlarından tikilmiş hamam kompleksi, tunc dövrünə aid kurqanlar var idi. XX əsrin əvvəllərində - 1909-cu ildə dövrünün ziyalısı Məmməd Qarayev Malıbəyli kəndində qızlar üçün əyalətdə ilk rus-tatar məktəbini açdırmışdı. Kəndin şimal-şərqində yaşı 300 ili çoxdan adlamış Səfəvi dövrünün yadigarı olan səkkizguşəli, çatma tağlı, iki günbəzdən və su hovuzundan ibarət olan hamam tikilisi də var idi.

Quşçular oykonimi Qarabağda yaşamış türkdilli quşçu tayfalarının adı ilə bağlıdır. Yeri gəlmişkən qeyd edək ki, Aşağı və Yuxarı Quşçular yaşayış məntəqələri Malıbəyli kəndi ilə birlikdə xəritədə Xocalı rayonu ərazisində bir adanı xatırladır. Odur ki, erməni terrorçuları Xocalını işğal etmək üçün ilk növbədə Malıbəyli və Quşçular kəndlərini zəbt etdilər. Xalqımızın uzaq tarixində ağrılı-acılı səhifələr çoxdur. Yaxın keçmişimizin Malıbəyli və Quşçular faciəsi də bu qəbildəndir.

Ə d ə b i y y a t

İsmayılqızı, X. Erməni məkri: Sumqayıt hadisələri, Qaradağlı, Malıbəyli qırğını, Xocalı soyqırımı... /X.İsmayılqızı //İki sahil.- 2013.- 2 mart.- S.15.

Məmmədqızı, R. Xocalıdan öncə hədəf Qaradağlı-Malıbəyli-Quşçular idi /R.Məmmədqızı //Kaspi.- 2012.- 16 fevral.- S.12.

İ n t e r n e t d ə

shusha-ih.gov.az/news/145.html
arxiv.az/az/news.milli.az/62356152

Xocavənd rayonunun Qaradağlı kəndinin işğalının 25-ci ildönümü 1992



Qaradağlı kəndinin işğalı Xocalı qətliamına qədər Azərbaycanın yaşadığı ən faciəli hadisə, erməni işğalçı dəstələrinin törətdiyi müdhiş bir qırğın idi. Ermənilər Xocalı soyqırımına son "hazırlığı", həmin qətliamın "baş məşqini" məhz Qaradağlı kəndində keçmişdilər.

1988-ci ildən mənfur qonşularımızın torpaq-ərazi iddiası başlayan dövrdən etibarən Qaradağlı kəndinin dinc sakinləri hər gün ermənilərin hücumuna məruz qalmışdır. Erməni təxribatçıları tərəfindən törədilmiş terror aktları nəticəsində 1991-ci ilin 28 iyun tarixində 3 nəfəri qadın olmaqla 6 nəfər diri-diri yandırılmış, 1991-ci ilin sentyabr ayında sərnişin avtobusunun gülləbaran edilməsi nəticəsində 8 nəfər öldürülmüş, çoxlu sayda insan yaralanmış, güllə yarası alanlardan 5 nəfəri sonradan dünyasını dəyişmişdir. 17 fevral 1992-ci il tarixində erməni hərbi birləşmələri tərəfindən keçmiş SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə Dağlıq Qarabağ bölgəsindəki mühüm yaşayış məntəqələrindən biri - Xocavənd (Martuni) rayonunun Qaradağlı kəndi işğal edilmişdir. 118 nəfər əsir götürülmüş, 33 nəfər ermənilər tərəfindən güllələnmiş, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzlərini torpaqlamışlar. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanılması, döyülərək öldürülməsi insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir.

Öldürülənlərdən 10 nəfəri qadın, 8 nəfəri məktəbli olmuşdur.

İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmışdır. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşmüşdür.

İşğal altında olan başqa torpaqlarımız kimi Qaradağlı kəndi də azad olunacağı günü gözləyir.

Ə d ə b i y y a t

Qaradağlı, Ə.Qaradağlı qəhrəman kənddir /Ə.Qaradağlı; red. S.Ağayev.- Bakı: Şuşa, 2010.- 130 s.

Zülfüqarlı, M. Dağlıq Qarabağda erməni terroru. Qaradağlı faciəsi. 17 fevral 1992-ci il /M.Zülfüqarlı.- Bakı: Qanun, 2010.- 35 s.

Qaraca, B. Qaradağlıdan başlayan faciələr: Qaradağlı faciəsindən 23 il keçir /B.Qaraca //Azərbaycan.- 2015.- 17 fevral.- S.5.

Quliyev, L. Unudulmayan dərdlər: Qaradağlı faciəsindən 23 il keçir /L.Quliyev //Azərbaycan.- 2015.- 17 fevral.- S.5.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/respublika/2013/fevral/294827.htm

http://www.anl.az/el/Kitab/2013/Azf-260571.pdf

Beynəlxalq Ana Dili Günü 1999

Dil yalnız ünsiyyət yaratmır, mədəniyyətləri, xasiyyətləri, tarixi, insani keyfiyyətləri və soykökü təyin edir. YUNESKO 1999-cu ildə fevralın 21-ni Beynəlxalq Ana Dili Günü kimi təsis edib. Bu günün qeyd olunmasında məqsəd ana dilinin təbliği, inkişafı və öyrənilməsinin bütün formalarını müdafiə etməkdən ibarətdir.

Hər bir dil ayrılıqda dünya haqqında bilik, dünyanı görmək və anlamaq üçün vasitədir. Hər millətin özünəməxsus ana dili onun mənəvi diriliyidir. Əbəs yerə deyilmir ki, bir millətin malını, dövlətini və hətta vətənini işğal etsən, ölüb-itməz, amma dilini alsan, məhv olar və ondan nişan qalmaz. Ana dili insan şəxsiyyətinin inkişafının əsasını təşkil edir. Yəni hər bir kəs ömrünün axırınadək dilinə arxalanır.

Bu günün yaranma tarixi isə bir qədər də əvvələ gedir. 21, 22 fevral 1952-ci ildə Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz olaraq keçirilən aksiyada polis və silahlı qüvvələrin müdaxiləsi nəticəsində 4 nəfər şəhid olub.

Banqladeş nümayəndələri fevralın 21-ni məhz həmin şəhidlərin xatirəsinə ehtiram əlaməti kimi Ana Dili Günü adlandırılması haqqında müraciət ediblər.

YUNESKO-nun Baş Konfransında 21 fevral Beynəlxalq Ana Dili Günü elan olunub və üzv ölkələrə bildirilib ki, həmin gün məktəblərdə, universitetlərdə ana dilinin əhəmiyyəti ilə bağlı tədbirlər, konfranslar, seminarlar keçirilsin.

Azərbaycan dili də dünyanın ən zəngin dilləri sırasındadır. Bu gün dünyanın müxtəlif ölkələrində 50 milyondan çox azərbaycanlı yaşayır və Azərbaycan dilində danışır. Ana dilimiz Altay dilləri ailəsinin türk qoluna daxildir.

Millətin dilinin dövlət statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Bu mənada dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşamışdır. Bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına, onun mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərdiyinə görə ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə Ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olmuşdur. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ana dilimizi qorumaq, inkişaf etdirmək hamımızın müqəddəs borcudur.

Xocalı soyqırımının 25-ci ildönümü 1992

- **Ərazisi: 936 km²**
- **Əhalisi: 25332 nəfər**

Ötən əsrin 1992-ci ilinin fevralında tarixdə görünməmiş qətliam baş verdi. Türkləri özlərinin əbədi düşməni hesab edən ermənilər məskunlaşdıqları türk torpaqlarında insanlığa xas olmayan vəhşiliklər törətməklə, Xocalı adlı bir yurd yerini yer üzündən sildilər – insanları amansızlıqla qətlə yetirildilər, əsir götürüldülər, şəhər isə oda qalandı. Bu, Qarabağ müharibəsinin ən qəddar səhifəsi idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu, ən dəhşətli soyqırım törədildi. Buna qədər isə Xocalı erməni-daşnaklar tərəfindən tam mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, Xocalı taleyin ümidinə buraxılmışdı. Halbuki xocalılar ermənidaşnak hərbi qüvvələrinə mərdliklə müqavimət göstərir, şəhəri çətinliklə də olsa qoruyub saxlayırdılar. Düşmən elə buna görə də Xocalı sakinlərini vəhşiliklə, qəddarlıqla və kütləvi surətdə qətlə yetirdi. Faciənin miqyası son dərəcə böyük və dəhşətli idi. Ermənilər qadınlara və uşaqlara, qocalara və xəstələrə rəhm etmədən hamını güllələyərək süngüdən keçirmişdilər.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ümummili lider Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir". Xocalı soyqırımının 25 ili tamam olur. Bu faciə zamanı böyük bir yaşayış məntəqəsi yer üzündən silinib, azərbaycanlılara qarşı amansız soyqırımı törədilib: 613 nəfər qətlə yetirilib, 1275 nəfər əsir götürülüb. Qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürüblər. Habelə azğınlaşmış erməni hərbçiləri əsir və girov götürdükləri azərbaycanlıları xüsusi amansızlıqla, işgəncə verərək qətlə yetiriblər. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetiriliblər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon Daxili işlər şöbəsində işgəncə verilməklə öldürülüb. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilib, dözülməz işgəncələr verilib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb.

Xocalıya hücum edən erməni dəstələri ölkə iqtisadiyyatına 170 milyon dollardan artıq ziyan vurub. Şəhərin toxuculuq fabriki, onlarla ictimai iaşə obyekti dağıdılıb. 200 nəfərdən çox insan müxtəlif dərəcəli əlilə çevrilib. Ermənilər buna görə cavab verməlidirlər. Əgər bunu edə bilməsək, gələcək nəsillər bizi heç vaxt bağışlamayacaqdır!

Azərbaycan Milli Məclisi (Parlamenti) hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edir.

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.

Heydər Əliyev Fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması istiqamətində böyük işlər görüb. Dünyanın, Avropanın onlarla ölkəsində Xocalı soyqırımının ildönümlərində tədbirlərin, sərgilərin keçirilməsi, filmlərin nümayiş olunması və sair bu qəbildəndir. Xocalı soyqırımına dair müxtəlif dillərdə Fond tərəfindən filmlər hazırlanıb, həmin filmlərin təqdimatı keçirilib. Həmçinin Xocalı soyqırımı ilə bağlı fotosərgilərin təqdimatı dünyanın onlarla ölkəsində düzənlənib. Xocalı soyqırımı ilə bağlı xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının qələmə aldıqları məqalələrin sərgisi keçirilib. Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi və sair böyük tədbirlər təşkil olunub. Bunlar hamısı Fondun və ələlxüsus Mehriban xanımın Xocalı soyqırımının tanıdılması istiqamətində çox böyük xidmətləridir. Özü də nəinki Xocalı soyqırımının, ümumilikdə bütün Azərbaycan həqiqətlərinin təbliği istiqamətində bu xidmətlər ölçüyəgəlməzdir. Eyni zamanda Leyla xanım Əliyeva dünya ictimaiyyətinin diqqətini erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayətlər haqqında obyektiv məlumatlara cəlb etmək, sözügedən faciələrə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsində milli maraqlarının müdafiə olunması məqsədilə "Xocalıya ədalət – Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") devizi altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. "Xocalıya ədalət!" - artıq dünyada bu kampaniyaya qoşulan insanların sayı günü-gündən çoxalmaqdadır. Bu kampaniya daha da genişlənməkdədir. Bu baxımdan çox güman ki, bu kampaniya və təbii ki, bu istiqamətdə görülən işlər bundan sonra da davam edəcək. Amma söhbət ondan gedir ki, bizim hər birimiz bu kampaniyalara dəstək verməliyik. Harada yaşamağından asılı olmayaraq – Azərbaycanda da, Azərbaycandan kənarda da. Hərənin gücü nəyə çatırsa, Azərbaycan həqiqətlərinin, Xocalı həqiqətlərinin təbliğ edilməsi, bütövlükdə Qarabağ savaşında şəhid, əlil olmuş, yaralanmış qəhrəmanlarımızın, ümumən Azərbaycan xalqının başına gətirilən bütün müsibətlərin təbliğ edilməsi, erməni yalanlarının qarşısının alınması istiqamətində öz fəaliyyətini ortaya qoymalıdır.

Tarix heç nəyi unutmur!

Allah bütün şəhidlərə rəhmət eləsin!

Ə d ə b i y y a t

Abdullayev, Ə. Keçmişini unudan-gələcəyini itirər: (əsər Xocalı faciəsinin 22-ci ildönümünə həsr edilmişdir): [monoqrafiya] /Ə.Abdullayev; elmi red. H.Cəfərov; [baş red. İ.Səfərov; red. İ. Hüseynova]; Azərb. Resp. Təhsil Naz., Azərb. Döv. İqtisad Un-ti.-Bakı: [İqtisad Universiteti], 2015.-157 s.

Xocalı - 1992 /Heydər Əliyev İrsini Araşdırma Mərkəzi; yaradıcı heyətinin rəhbəri F. Babayev; elmi məsləhətçi E. Süleymanov; red. G. Xocalı soyqırımı /[Qarabağ Azadlıq Təşkilatı]; red. hey. A.Nağı [və b.]; [naşir N. Həbibov].-Bakı: [s. n.], 2014.-36 s.

Xocalı soyqırımı - 20: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. Xocalı soyqırımı: 24 il sonra.- Bakı: 2016.- 28 s.

M.Məmmədova; burax. məs. və ixt. red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2012.- 313 s.

Leyla Əliyeva: "Xocalıya Ədalət!": Beynəlxalq erməni terroruna qarşı yeni strateji model: üç cilddə /V.Səmədov, R.Vəlizadə; ön sözün müəl. R.Hüseynov; baş elmi məsl. A.Mustafayeva; elmi red. İ.Quliyev, C.Bəhramov; red. İ.Məmmədova, S.Sadıxqızı; Azərb. MEA, İnsan Hüquqları İn-tu; "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası; "Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyi.-Bakı: [s. n.], 2014.- C.1.- 341 s.; C.2.- 373 s.; C.3.- 476 s.

Nəsibov, İ. Muxtarova; dilçi-red. M. Babayeva; dizayner F.Əliyev.-Bakı: [s.n.], 2012.- 211, [1] s.,

Khojaly genocide /Embassy of the Republic of Azerbaijan Jakarta.- Jakarta: [s.n.], 2015.- 44, [44] p.

İ n t e r n e t d ə

http://web.anl.az/el/Download/02.2014/Ar2011-1999.pdf

http://www.anl.az/el/m/ms_xs.pdf

www.azhistorymuseum.az/index.php?mod=5...

http://xocali-ih.gov.az

MART

19 fevral-
20 mart

Balıq bürcünün Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuisiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər.

C.A.	1
C.	2
Ş.	3
B.	4
B.E.	5
Ç.A.	6
Ç.	7
C.A.	8
C.	9
Ş.	10
B.	11
B.E.	12
Ç.A.	13
Ç.	14
C.A.	15
C.	16
Ş.	17
B.	18
B.E.	19
Ç.A.	20
Ç.	21
C.A.	22
C.	23
Ş.	24
B.	25
B.E.	26
Ç.A.	27
Ç.	28
C.A.	29
C.	30
Ş.	31

- *Beynəlxalq Qadınlar Günü (08.03.1910)*
- *Milli Teatr Günü (10.03.1873)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- ***Azərbaycanlıların soyqırımı günü (31.03.1918)***

300 il Molla Pənah Vaqif 1717-1797

Ulu öndər Heydər Əliyev klassik ədəbiyyatı dərindən bilən və qiymətləndirən böyük şəxsiyyət idi. O, ədəbi irsin qorunmasına qayğı göstərərək Azərbaycanın klassik şair və ədiblərinin ev-muzeylərinin yaradılması, xatirələrinin əbədiləşdirilməsi üçün böyük işlər görmüşdür. Azərbaycanda üç məşhur şairin məzarı üstündə məqbərə tikilib: Nizami Gəncəvi, Molla Pənah Vaqif və Hüseyn Cavid. Maraqlıdır ki, son iki məqbərənin ucaldılması ümummilli liderin adı ilə bağlıdır. Hakimiyyətə gəldikdən dərhal sonra, Azərbaycan KP MK bürosunun 1969-cu il 12 avqust tarixli iclasında Qazaxda Molla Pənah Vaqifin ev-muzeyini yaratmaq barədə qərar qəbul edildi. Doğulduğu rayonda Vaqifin xatirə muzeyi yaradıldı. Ulu öndər 1982-ci ilin yanvar ayında yağan güclü qarın altında, soyuqda, Şuşada görkəmli Azərbaycan şairi, Ağa Məhəmməd şah Qacarın yürüşü zamanı Qarabağ xanının xarici məsələlərə baxan vəziri işləmiş, Molla Pənah Vaqifin məqbərəsini böyük təntənə ilə açdı. Onun Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Hələ 1967-ci ildə Şuşada olarkən Heydər Əliyev Vaqifin məzarını ziyarət etmək istəmişdi. Lakin axtarsalar da, məzarı tapa bilməmişdilər. Onun xahişindən sonra məzarı tapmışdılar. Ulu Öndər dağılmış, bərbad halda olan məzarı ziyarət etmişdi. Sonralar o, nitqlərinin birində deyirdi ki, gördüyü bu məzar Vaqifə layiq deyildi. O, məzarın Vaqifə layiq tikilməsi qərarına gəlsə də, respublikanın birinci şəxsi olmadığı üçün istəyini reallaşdıra bilməmişdi. Heydər Əliyev bu barədəki düşüncələrini yalnız 70-ci illərdə həyata keçirməyə başladı. Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, türbə tikildi. Əslində bu, eyni zamanda gözəl memarlıq abidəsi idi.

Milli ədəbiyyat

Nasir, tərcüməçi, geologiya-minerologiya elmləri namizədi Süleymanov Manaf Fərəc oğlunun (03.03.1912-24.05.2001) anadan olmasının 105 illiyi 79

Yazıçı Kərimov Fərman İsmayıl oğlunun (Fərman Kərimzadə) (03.03.1937-17.03.1989) anadan olmasının 80 illiyi 80

Şair, publisist Əfəndiyev Ağamalı Əhməd oğlunun (Ağamalı Sadiq) (08.03.1947-24.12.1995) anadan olmasının 70 illiyi

Dramaturq Rəsulov Qeybulla İbadulla oğlunun (18.03.1922-11.09.1988) anadan olmasının 95 illiyi

Şair, nasir, filologiya elmləri doktoru, professor Xəlilov Zahid Abdulla oğlunun (Zahid Xəlil) (20.03.1942) anadan olmasının 75 illiyi 81

Nasir, publisist Talıblı Böyükağa Mirqasım oğlunun (21.03.1897-1939) anadan olmasının 120 illiyi

Cənubi Azərbaycan yazıçısı Fəthi Həmzə Əli oğlunun (Fəthi Xoşginabi) (22.03.1922-1989) anadan olmasının 95 illiyi 82

Əməkdar incəsənət xadimi, yazıçı Ordubadi Məmməd Səid Hacağa oğlunun anadan olmasının (24.03.1872-01.05.1950) 145 illiyi 83

Azərbaycanın mühacir şairi Almaszadə İldırım Hacı Əbdülməhəmməd oğlunun (Almas İldırım) (24.03.1907-14.01.1952) anadan olmasının 110 illiyi 84

Əməkdar mədəniyyət işçisi, Əməkdar jurnalist, publisist Məmmədli Qulam Məmməd oğlunun (25.03.1897-18.11.1994) anadan olmasının 120 illiyi 85

Əməkdar jurnalist Hacıyev Əşrəf Əhmədpaşa oğlunun (25.03.1932-05.07.2001) anadan olmasının 85 illiyi

Folklor

Aşıq, şair Mikayılov Bilal Mustafa oğlunun (Aşıq Mirzə Bilal) (12.03.1872-1937) anadan olmasının 145 illiyi 86

Dünya ədəbiyyatı

Rus yazıçısı Korneyçuk Nikolay Vasilyeviçin (Çukovski Korney İvanoviç) (31.03.1882-28.10.1969) anadan olmasının 135 illiyi

Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar rəssam Ağayeva Sima Abbas qızının (15.03.1932) anadan olmasının 85 illiyi

Musiqi. Opera. Balet

Xalq artisti, kamança ifaçısı Eyvazova Şəfiqə Alxas qızının (09.03.1947) anadan olmasının 70 illiyi 87
Əməkdar artist, xanəndə Kələntərli Yavər Əli qızının (26.03.1902-05.02.1979) anadan olmasının 115 illiyi 88
Dünya şöhrətli musiqiçi, dirijor Mstislav Leopoldoviç Rostropoviçin (27.03.1927-27.04.2007) anadan olmasının 90 illiyi 89

Teatr. Kino

Xalq artisti, aktyor Şaşıqoğlu Nodar İzzətoviçin (13.03.1927-12.04.2013) anadan olmasının 90 illiyi 90
Xalq artisti, aktyor Gəraybəyov Ağasadıq Ağəli oğlunun (Ağasadıq Gəraybəyli) (15.03.1897-05.12.1988) anadan olmasının 120 illiyi 91
Rusiyanın Xalq artisti, rejissor Behbudov Ənvər Məcid oğlunun (20.03.1912-28.03.1994) anadan olmasının 105 illiyi
Xalq artisti, aktyor Vəliyev Yusif Abdulla oğlunun (22.03.1917-18.03.1980) anadan olmasının 100 illiyi 92

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Nəcəfov Fəxrəddin Vəliyəddin oğlunun (31.03.1967-04.09.1992) anadan olmasının 50 illiyi 93

Siyasət. Hüquq. Hərbi iş

Böyük Azərbaycan-türk hökmdarı, Qacar şahlığının banisi Qovanlı Ağa Məhəmməd Şah Qacarın (03/14.03.1742/20.10.1741-26.10.1797) anadan olmasının 275 illiyi 94

Fəlsəfə. İqtisadiyyat

Akademik Daşdəmirov Əfrand Firudin oğlunun (12.03.1942) anadan olmasının 75 illiyi 95
Fəlsəfə elmləri doktoru Quluzadə Zümrüd Əliqulu qızının (17.03.1932-07.04.2015) anadan olmasının 85 illiyi 96

Mədəniyyət. Maarif. Təhsil

Filologiya üzrə elmlər doktoru, professor, Əməkdar incəsənət xadimi, kinoşünas, kinodramaturq, rejissor Dadaşov Aydın Ərşad oğlunun (01.03.1952) anadan olmasının 65 illiyi 97

Ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Arzumanlı Vaqif Minad oğlunun (05.03.1947-09.07.2014) anadan olmasının 70 illiyi 98

Akademik, arxeoloq Qiyasi Cəfər Əli oğlunun (24.03.1942) anadan olmasının 75 illiyi 99

Coğrafiya. Geologiya

AMEA-nın müxbir üzvü Əlizadə Elbrus Kərim oğlunun (04.03.1957) anadan olmasının 60 illiyi 100

Paleontoloq, geologiya-mineralogiya elmləri doktoru, professor Xələfova Rəxşəndə Əhməd qızının (14.03.1917-17.04.1973) anadan olmasının 100 illiyi

Geoloqiya-mineralogiya elmləri doktoru Vəkiova Fatma İsmayıl ağa qızının (30.03.1912-28.08.1987) anadan olmasının 105 illiyi

Kimya. Biologiya. Tibb

Əməkdar həkim, tibb elmləri doktoru, professor Məcidov Balababa Fərəc oğlunun (12.03.1912-03.07.1975) anadan olmasının 105 illiyi

Akademik, biologiya elmləri doktoru, professor Tağıyev Şamxal Kərim oğlunun (15.03.1922-2007) anadan olmasının 95 illiyi

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, həkim Salayeva Zəhra Məmməd qızının (15.03.1922-28.11.2005) anadan olmasının 95 illiyi 101

Əməkdar həkim, tibb elmləri doktoru, professor Tağızadə Zərəngiz Əli qızının (16.03.1927) anadan olmasının 90 illiyi

Kimyaçı (neft kimyası), texnika elmləri doktoru, professor Məmmədəliyev Həbib Mehdi oğlunun (20.03.1912-14.05.1975) anadan olmasının 105 illiyi

AMEA-nın müxbir üzvü Quliyev Novruz Məhəmməd oğlunun (22.03.1952) anadan olmasının 65 illiyi 102

Oftalmoloq, tibb elmləri doktoru, professor Musayev Paşa İsmayıl oğlunun (Paşa Qəlbinur) (30.03.1952) anadan olmasının 65 illiyi 103

Texnika. Mühəndis işi

Akademik Əfəndizadə Azad Əli oğlunun (20.03.1907-1998) anadan olmasının 110 illiyi 104

Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Ramazanzadə Malik Heydər oğlunun (21.03.1912-22.07.1987) anadan olmasının 105 illiyi

Əməkdar mühəndis, texnika elmləri namizədi Biləndərli Abbas Əliməhəmməd oğlunun (21.03.1912) anadan olmasının 105 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Azərbaycan Respublikası Milli Məclisinin Parlament Kitabxanasının fəaliyyətə başlamasının (19.03.1997) 20 illiyi 105

Tarixdə bu gün

Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)
Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)
Bədən Tərbiyəsi və İdman Günü (05.03.)
Qızıl Aypara Günü (07.03.2008)
Beynəlxalq Qadınlar Günü (08.03.1910) 106
Qazax rayonunun Xeyrimli kəndinin işğalının 25-ci ildönümü (08.03.1992)
Milli Teatr Günü (10.03.1873) 107
Daxili Qoşunlar Günü (12.03.1995)
Qazax rayonunun Aşağı Əskipara kəndinin işğalının 25-ci ildönümü (12.03.1992)
Dağlıq Qarabağın Sırxavənd, Qaraşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndlərinin işğalının 25-ci ildönümü (12.03.1992)
Beynəlxalq Novruz Günü (21.03.2010) 108
İrqi Ayrı-Seçkiliyin (diskriminasiyanın) Ləğv Edilməsi Uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Ümumdünya Meşələr Günü (21.03.)
Ümumdünya Su Günü (22.03.1992)
Erməni terrorçuları tərəfindən Qazax rayonu ərazisində avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır (22.03.1992)
Ümumdünya Meteoroloq Günü (23.03.1961)
Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik üzrə ATƏM (ATƏT) tərkibində 11 ölkənin nümayəndələrinin daxil olduğu Minsk qrupu yaradılmışdır (24.03.1992)
"Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı təsis edilmişdir (25.03.1992)
Beynəlxalq Teatr Günü (27.03.1948) 109
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997)
"İzvestiya" qəzetinin nəşrə başlamasının (30.03.1917) 100 illiyi
Azərbaycanlıların soyqırımı günü (31.03.1918) 110-111

105 illiyi

Manaf Süleymanov 1912-2001

Nasir

Manaf Fərəc oğlu Süleymanov 1912-ci il mart ayının 3-də İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olmuşdur. 1930-cu ildə pedaqoji təmayüllü 18 saylı Bakı şəhər məktəbini bitirmiş, 1932-1937-ci illərdə Azərbaycan Neft-Kimya İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsində təhsil almışdır.

M.Süleymanov əmək fəaliyyətinə Qaradağ neft-qaz mədənləri idarəsində mühəndislikdən başlamış, Sənaye İnstitutunda assistent işləmişdir. 1939-cu ildən institutun Neft-qaz yataqları geologiyası axtarışı kafedrasının dosenti olmuşdur.

Ədəbi yaradıcılığa 1947-ci ildə "Azərbaycan" jurnalında dərc olunan "Yerin sirri" romanı ilə başlamış, dövri mətbuatda məqalələrini "Fərəcoğlu" imzası ilə çap etdirmişdir.

Oxucular ingilis dilindən onun tərcüməsində Cek London, Con Steynbek, O'Henri, M.Kopelen, A.Qrasi, Oqoto, Aleks La Çuma, Y.A.Makmani, Piter Abrahams, R.Riv, A.Paton, Fillis Altman, Somerset Moem kimi görkəmli ingilis yazıçılarının əsərləri ilə tanış olmuşlar.

1949-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Manaf Süleymanov keçmiş SSRİ-nin və Azərbaycandakı dövlət arxivlərində 30 ilə yaxın çalışaraq qiymətli sənədlər toplamış, ilk dəfə olaraq Bakı tarixindən, Bakı milyonçuları və qoçularından, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin şəxsiyyətlərindən elmi-publisistik kitablar yazıb, nəşr etdirmişdir. Öz şəxsi fondundakı sənədlərini isə 1988-ci ildə Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizəyə təqdim etmişdir. Bu sənədlər əsasında onun 636 saylı şəxsi fondu yaradılmışdır. M.F.Süleymanov ingilis, fars, ərəb dillərini bilməklə yanaşı, rus dilində də yazıb yaratmışdır. Müəllifin əsərlərinin ilk əlyazmaları doğma Azərbaycan dilində, lakin ərəb əlifbasındadır.

Müstəqilliyimizi qazandıqdan sonra müəllifin "Son bahara çatdıq", "Neft milyonçusu", "Şərqdə ilk demokratik cümhuriyyət", "Şagirdlik illərim" adlı kitabları çap edilmişdir. Yazıçının ən məşhur və ona şöhrət qazandıran 1987-ci ildə yazdığı "Eşitdiklərim, oxuduqlarım, gördüklərim..." əsəridir. Bu kitabda insanlar ilk dəfə Bakı milyonçularının millətin tərəqqisi naminə gördüyü işlərdən, xeyirxah əməllərindən xəbər tutdu.

1989-cu ildə Samsun Universiteti yazıçının "Bir kitabdan bir gaç sətir" toplusunu nəşr etdirmişdir.

Görkəmli yazıçı Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və bir medalla təltif edilmiş, 1991-ci ildə "Əməkdar mədəniyyət xadimi" fəxri adına layiq görülmüşdür.

Manaf Süleymanov 2001-ci il sentyabr ayının 12-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə /M.Süleymanov.- Bakı: Azərnəşr, 1993.- C.I.- 452 s.; C.II.- 248 s.

Eşitdiklərim, oxuduqlarım, gördüklərim: kitabın nəşri Manaf Süleymanovun 100-illik yubileyinə həsr olunur /M.F.Süleymanov.- Bakı: [Qanun], [2012].- 480 s.

Xəlilzadə, F. Həyatın və illərin rəngləri /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 3 mart.- S.6.

"Küçələrə su səpmişəm, Türk gələndə toz olmasın: Arayan, araşdıran, toplayan və qələmə alan yazıçı... //Azadlıq.- 2013.- 19 may.- S.14.

İnternetdə

http://www.anl.az/down/meqale/azadliq/2013/may/310474.htm

www.anl.az/down/meqale/azerbaycan/2012/mart/237290.htm

https://ru.wikipedia.org/wiki/Сулейманов,_Манаф_Фараджʼ_оглы

80 illiyi

Fərman Kərimzadə 1937-1989

Yazıçı



Ədəbiyyat

Seçilmiş əsərləri: 5 cilddə /F.Kərimzadə; tərt. ed. Q.Kərimzadə.- Bakı: Ağrıdağ, 2002.- C. 1: Xudafərin körpüsü: roman.-390 s.; C.2: Çaldıran döyüşü: roman.- 326 s.; C.IV: Təbriz namusu roman.- 320 s.

Xudafərin körpüsü: roman /F. Kərimzadə.- [Bakı]: [Qanun], [2012].-479 s.

İsmayıl. Fərman Kərimzadənin Vətən sevgisi...: Tariximizi bu əsərlərində əks etdirən yazıçı, azərbaycançılığın ədəbi sütunlarını yaradıb /İsmayıl //Şərq.- 2014.- 22 iyul.- S.11.

Mədətoğlu, Ə. Axırıncıdan əvvəlki aşırım: Ruhun şad olsun, Fərman Kərimzadə! /Ə.Mədətoğlu //Ədalət.- 2014.- 25 oktyabr.- S.6.

İnternetdə

http://www.anl.az/down/meqale/adalet/2014/oktyabr/398885.htm

anl.az/down/meqale/sherq/

Fərman İsmayıl oğlu Kərimov (Fərman Kərimzadə) 1937-ci il mart ayının 3-də Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olmuşdur.

1944-1951-ci illərdə ibtidai təhsilini kənddə almış, 1949-cu ildə doğma kəndindən zorla çıxarılaraq, Azərbaycanın Beyləqan (keçmiş Jdanov) rayonuna deportasiya olunmuşdur. 1954-ci ildən orta məktəbin yuxarı siniflərini Beyləqan rayonunun Şahsevən kəndində bitirmişdir. 1955-1960-cı illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır.

1962-1965-ci illərdə İsmayıllı və Beyləqan rayonlarında orta məktəb müəllimi kimi fəaliyyət göstərmiş, 1962-1965-ci illərdə "Yüksəliş" rayon qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, məsul katib işləmişdir.

1965-1967-ci illərdə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari fakültəsinin ikinci kursunu bitirmişdir.

1966-1970-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, böyük redaktor, "Abşeron", "Ədəbiyyat və incəsənət" qəzetlərinin redaksiyasında şöbə müdiri, ədəbi işçi, 1970-1977-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kollegiya üzvü, 1977-1980-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin xüsusi müxbiri olmuşdur.

1980-1981-ci illərdə Şüvəlan Yaradıcılıq Evinin direktoru işləmişdir.

1958-ci ildə qələmə aldığı "41 nömrəli ayaqqabı" hekayəsi ilk təcrübə olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dil ilə oxucuya çatdıra bilmişdir. "Son eksponat", "Toy toğlusu" hekayələri də müharibə mövzusunda olub onun ağrı-acılarından bəhs edir.

60-cı illərdən etibarən kitabları nəşr olunmağa başlamışdır. Yaradıcılığında əsas yeri tarixi mövzular tutur. Bəlkə də Fərman Kərimzadənin yaşadığı dəhşətli, ağrılı-acılı həyat onu bir yazıçı kimi klassikləşdirdi, bir şəxsiyyət kimi erkən müdrikləşdirdi, insan kimi erkən qocaltdı. "Qarlı aşırım"ı çap etdirəndə 30 yaşı vardı, bu əsərin əsasında "Axırıncı aşırım" bədii filmi ekranlara çıxanda - 33. Fərman Kərimzadə tariximizin qaranlıq səhifələrini vərəqləyir, milli dəyərlərimizi ədəbiyyata gəirir, millətə öz böyüklüyünü ,əzəmətini tarixi hadisələr fonunda əyani şəkildə göstərərək onu bu təcrübədən nəticə çıxarmağa,özünü, dostunu və düşmənini tanımağa çağırırdı. Hər biri ədəbiyyatımızda hadisə olan biri-birindən dəyəli tarixi romanları - "Xudafərin körpüsü" (1981), "Çaldıran döyüşü" (1984-1985), "Qarlı aşırım" 2-ci variantı (1986-1987), "Təbriz namusu", "Vedinin yanı dağlar", "Qoca qartalın ölümü" (1988) qələmə almışdır.

Fərman Kərimzadə 1989-cu il mart ayının 17-də, 52 yaşında vəfat etmişdir.

75 illiyi

Zahid Xəlilov 1942

Yazıçı

Zahid Abdulla oğlu Xəlilov 1942-ci il mart ayının 20-də Yevlax şəhərində anadan olmuşdur. Orta təhsilini Yevlax şəhərindəki M.Ə.Sabir adına 2 nömrəli məktəbdə almışdır.

1959-cu ildə "Yeni Yevlax" qəzetində "Vətənim" adlı ilk şeiri nəşr olunmuşdur. 1960-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində qiyabi təhsil almış, müxtəlif mətbuat orqanlarında ədəbi işçi, məsul katib, redaktor vəzifələrində çalışmışdır. 1969-cu ildə "Uçan çıraqlar" adlı ilk şeirlər kitabı çap olunmuşdur. 1970-ci ildə Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında müəllim işləmişdir. 1971-ci ildə "Qarışqalar" adlı kitabı Azərbaycan və fars dillərində nəşr olunmuşdur. 1974-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1990-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsini, 1991-ci ildə professor elmi rütbəsini almışdır. 1981-ci ildə "Ballıca" adlı ilk nəsr kitabı nəşr olunmuşdur. 1982-ci ildə "Literaturnaya qazeta"da dərc olunan "Kölgələr" və "Limonad içməyin" hekayələrinə görə redaksiyanın "Zolotoy telyonok" mükafatına layiq görülmüşdür. Moskvanın "Detskaya literatura" nəşriyyatında çap olunmuş "Detskaya literatura Azerbaydjana" (tərcümə edəni İ.Motyaşovdur) adlı monoqrafiyası (1987) Lomonosov adına Moskva Dövlət Universitetində dərslik kimi qəbul olunmuşdur. Onun "Göydən üç alma düşdü" (1974), "Torağaylar oxuyur" (1979), "Çıraq nənənin nağılları" (1983), "Cırtdanla Azmanın yeni sərgüzəştləri" (1986), "Dünyanın ən balaca nağılları" (2002), "Orxan və dostları" (2004), "Qızlar şeir oxuyur sevgi yaşında" (2007) və sair əsərləri işıq üzü görmüşdür. Keçmiş SSRİ Dövlətnəşrkomun və SSRİ Yazıçılar İttifaqının uşaq ədəbiyyatı şuralarına üzv seçilmişdir. 2002-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatına layiq görülmüş, 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 2008-2010-cu illərdə 6 cildlik "Seçilmiş əsərləri" nəşr olunmuşdur. 2009-cu ildə II sinif şagirdləri üçün "Azərbaycan dili" dərsliyi (həmmüəllif), 2011-ci ildə ali məktəblər üçün yenidən işlənmiş "Uşaq ədəbiyyatı" dərsliyi (F.Əsgərli ilə birlikdə), 2011-ci ildə isə "Yumru Yumaq və Qumru" kitabı nəşr olunmuşdur.

2010-cu ildə Ankaranın Hacıtəpə Universitetində keçirilən Beynəlxalq simpoziumunda "Uşaqlar nə üçün oxumaq istəmir" və həmin ildə YUNESKO-nun Moskva Şəhər Pedaqoji Universitetində keçirilən Beynəlxalq konqresində "Azərbaycanda məktəbəqədər təhsilin problemləri" mövzularında məruzələr etmişdir.

2010-cu ildə yaradıcılığı haqqında Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası çapdan çıxmışdır.

Ə d ə b i y y a t

Əsərləri: uşaqlar üçün şeirlər /Zahid Xəlil; tərt. ed. Ş.Xəlil; ön söz müəl. F.Əsgərli; red. V.Əliyev.- Bakı: [s.n.], 2008.- I cild.- 387, [1] s.

Seçilmiş əsərləri: kiçik nağıllar və hekayələr /Zahid Xəlil; tərt. ed. və ön sözün müəl. Ş.Xəlil; red. V.Əliyev.- Bakı: [s.n.], 2008.- C.II.- 411, [3] s.

Dünyanın ən balaca nağılları /Zahid Xəlil.- Bakı: Nağıl evi, 2002.- 152 s.

Zahid Xəlil: biblioqrafik göstərici /tərt.-müəl. B.Ələsgərov; elmi red. F.Əsgərli; red. F.Quliyeva; F.Köçərli ad. Resp. Uşaq Kitabxanası.- Bakı: [Pedaqoji Universitet], 2012.- 249, [1] s.

Xələfov, A. Görkəmli uşaq şairi və tədqiqatçısı haqqında biblioqrafiya /A.Xələfov //İqtisadiyyat.- 2012.- 17-30 avqust.- S.4.

Seyidzadə, H.T. Qələmin iti olsun, Zahid müəllim!: Zahid Xəlil-70 /H.T.Seyidzadə //Azad Azərbaycan.- 2012.- 10 aprel.- S.7.

İ n t e r n e t d ə

http://web.anl.az/el/Kitab/2013/2011-1890.pdf

95 illiyi

Fəthi Xoşginabi 1922-1989

Yazıçı



Ə d ə b i y y a t

Ata. İki qardaş: romanlar /H.F.Xoşginabi.- Bakı: Yazıçı, 1989.- 388 s.

Hekayələr /F.H.Xoşginabi; [red. İ. Şəms].- Bakı: Azərnəşr, 1956.- 110, [2] s.

Marağayi, Z. İbrahim bəyin səyahətnaməsi və ya təəssübkeşliyin bəlası /Z.Marağayi; farscadan tərc. ed. və ön sözün müəl. H.Məmmədzadə; farscadan tərc. red. H.Xoşginabi.- Bakı: Avrasiya Press, 2006.- 456 s.

Fəthi Xoşginabi //Azərbaycan nəsri antologiyası: beş cilddə.- Bakı, 2006.- Cild IV.- S.198.

Polad, Ə. Fəthi Xoşginabi //Polad Ə. Mədəniyyətlərin beşiyi: Təbriz.- İstanbul, 2015.- S.732.

İ n t e r n e t d ə

ekitap.kulturturizm.gov.r /.../11166,fethixosginabipdf.pdf?0

https://az.wikipedia.org/i/Cənubi_Azərbaycan_ədəbiyyatı

Fəthi Həmzə Əli oğlu (Fəthi Xoşginabi) 1922-ci il mart ayının 22-də Cənubi Azərbaycanın Xoşginab kəndində, kəndli ailəsində dünyaya gəlmişdir. İlk təhsilini mədrəsədə almışdır. Məktəbdə cəmi bir il təhsil aldıqdan sonra yarımçıq qoyub işləmək üçün İranın bəzi şəhər və kəndlərinə getmiş, orada fəhləlik etmişdir. Elə bu illərdə də qürbətin nə demək olduğunu öyrənmişdir.

Ədəbi fəaliyyətə 15 yaşında ikən miniatür şeirlər və nəsr əsərləri yazmaqla başlamışdır. Onun əsərləri Cənubi Azərbaycan həyatından bəhs edir. 1941-ci ildən etibarən şeir, hekayə və məqalələri müntəzəm olaraq mətbuat orqanlarında işıq üzü görmüşdür.

XX əsrin 40-cı illərində siyasi hərəkata qoşulmuşdur. 1945-1946-cı illərdəki Milli demokratik hərəkat Xoşginabinin də yaradıcılığında yeni bir mərhələnin başlanğıcı olmuşdur. Kəskin siyasi, ictimai mövzulu məqalələri, satirik şeir və yazıları "Zeynəb", "Züleyxa", "Məsum və Məsumə", "Mehri", "İbrahim" kimi hekayələri, ilk irihəcmli əsəri olan "Eşq və müharibə" povesti də bu illərin yeni tərz, realist və demokratik ruhlu bədii nəsrinin və ədəbi-populist nəsrin təməlini təşkil etmişdir.

Siyasi mühacirətdə olduğu zaman Xoşginabi yazıçı kimi fəaliyyətinə Quzey Azərbaycanda davam etmişdir. "Ata", "İki qardaş" romanları və çox sayda hekayələri bu dövrün məhsuludur.

Mühacirət illərində Xoşginabi dram əsərlərinin müəllifi kimi də şöhrət tapmışdır. Onun farsca yazdığı "Siyavuş", "Bijen və Menijə" adlı pyesləri Tacikistanda Düşənbə teatrlarının səhnələrində müvəffəqiyyətlə səhnələşdirilmişdir.

1946-cı il dekabrın 12-də siyasi mühacir kimi Sovet İttifaqına gəlmiş, burada "Azərbaycan" qəzeti redaksiyasında ədəbi işçi, məsul redaktor, Tacikistan Maarif Nazirliyində məmur, SSRİ EA Şərqşünaslıq İnstitutunda böyük elmi işçi vəzifələrində çalışmışdır. Sonralar 1958-ci ildə Moskvada ali ədəbiyyat kursunu və 1967-ci ildə İctimai Elmlər Akademiyasının aspiranturasını bitirmişdir. 1979-cu il İran inqilabından sonra Təbrizə köçərək, orada Azərbaycann şairlər və yazıçılar cəmiyyətini yaratmış, onun sədri seçilmişdir.

Fəthi Xoşginabi 1989-cu ildə Moskvada vəfat etmiş, nəşi Bakıya gətirilərək dəfn edilmişdir.

145 illiyi

Məmməd Səid Ordubadi 1872-1950

Yazıçı

Ə d ə b i y y a t

Dumanlı Təbriz: roman /M.S.Ordubadi; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2012.- K.I: I-II Hissə.-375s.; Kitab II: III-IV Hissə.-Bakı: Təhsil, 2012.-720 s.

Həyatım və mühitim /M.S.Ordubadi; [Miniatür Kitab Muzeyi].- Bakı: [s.n.], 2015.- 262 s.

Qanlı illər: 1905-1906-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi: sənədli povest /M.S.Ordubadi; ərəb əlifb. çev., sadələş. çapa haz. Ə.Bağırov; Qafqazın Strateji Tədqiqatlar İn-tu.- Bakı: Elm və təhsil, 2012.-118 s.

Qılınc və qələm: roman /M.S.Ordubadi.-Bakı: Qanun:Əli və Nino, 2013.- Hissə 1, 2.- 614 s.

Məmməd Səid Ordubadi arxivinin izahlı təsviri /AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu; təsvir ed.: Ə.Cəfərzadə, M.Paşayeva, M.Məmmədova; elmi. red. və ön söz müəl. İ.Həbibbəyli; çapa haz. M.Məmmədova.- Bakı: Elm və təhsil, 2015.-370 s.

Məmməd Səid Hacağa oğlu Ordubadi 1872-ci il mart ayının 24-də Naxçıvanın Ordubad şəhərində, şair Fəqir Ordubadinin ailəsində dünyaya gəlmişdir. Ordubadda mollaxanada və Məhəmməd Tağı Sidqinin "Əxtər" məktəbində təhsil almışdır.

Ordubad ipək fabriklərində (1886-1904) fəhlə, Culfa gömrük xidmətində çalışmışdır. Birinci rus inqilabının (1905-1907) təsiri altında siyasi mübarizələrə qoşulmuş, "Hümmət" sosial-demokrat təşkilatının tərkibində İran Məşrutə hərəkatına kömək edən qrupun fəal üzvlərindən olmuşdur. 1915-ci ildə siyasi fəaliyyətinə görə Saritsına sürgün edilmiş, Fevral inqilabından (1917) sonra Dağıstana gəlmiş, Rusiya Kommunist (bolşeviklər) Partiyası sıralarına daxil olaraq, siyasi fəaliyyətini davam etdirmişdir.

1918-ci ildə Nəriman Nərimanovun dəvətilə Həştərxana gedərək, "Hümmət" qəzetinin redaksiyasında çalışmışdır. 1920-ci ildə XI Qırmızı Ordunun tərkibində Dağıstana gəlmiş, Temirxan-Şura şəhərində "Qırmızı Dağıstan" qəzetinin nəşrini təşkil etmişdir.

1920-ci il mayın 2-də Bakıya gələn Ordubadi "Əxbar" qəzetinin redaktor müavini vəzifəsinə təyin edilmiş, "Əxbar" və "Kommunist" qəzetləri birləşdirildikdən sonra onun redaksiya heyətinin üzvü və redaktor müavini, 1920-ci ilin sentyabrından isə "Füqəra füyuzatı" jurnalının redaktoru olmuşdur. Ordubadi ədəbi fəaliyyətə XIX əsrin 90-cı illərində başlamışdır. İlk şeirləri 1903-cü ildə "Şərqi-Rus" qəzetində dərc olunmuş, "Qəflət" (1906), "Vətən və hürriyyət" (1907) adlı şeir kitablarını nəşr etdirmişdir.

"Qanlı sənələr" (1911) kitabı, "İki cocuğun Avropa səyahəti" (1908), "Bağişah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) tarixi pyesləri, "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngi-məab" (1914) romanları nəşr olunmuşdur. Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. XX əsrin əvvəllərində Cənubi Azərbaycanda milli azadlıq mübarizəsinə həsr olunmuş dördcildlik "Dumanlı Təbriz" (1933-1948) epopeyasının, Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" (1946-1948), inqilabi mövzuda "Döyüşən şəhər" (1936), "Gizli Bakı" (1940) romanlarının müəllifidir. M.S.Ordubadinin əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuşdur. Şeirlərinə F.Əmirov və S.Rüstəmov mahnı və romanslar yazmışlar. Əsərləri müxtəlif dillərə tərcümə edilmişdir.

Xidmətləri yüksək qiymətləndirilmişdir. "Lenin" və "Şərəf nişanı" ordeni, fəxri fərmanlarla mükafatlandırılmış, 1938-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Məmməd Səid Ordubadi 1950-ci il may ayının 1-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ordubadda ev-muzeyi yaradılmış, Ordubadda və Naxçıvanda büstləri qoyulmuşdur.

110 illiyi

Almas İldırım 1907-1952

Şair

Almaszadə İldırım 1907-ci il mart ayının 24-də Bakı yaxınlığında, Qala kəndində anadan olmuşdur. Azərbaycan ədəbiyyatı tarixinə Almas İldırım kimi daxil olmuş şairin əsl adı Əbdülhəsəndir. 1913-cü ildə Almas altı yaşında ikən ailələri Şüvəlana, 1920-ci ildə isə Çəmbərəkəndə köçmüşdür. Kiçik Almas 1914-1915-ci tədris ilindən "İttihad" məktəbində təhsil almağa başlamış, burada eyni zamanda fars dili fənnini də mənimsəmişdir. 1925-ci ildə o, təhsilini Abdulla Şaiqin nümunə məktəbində davam etdirməyə başlayaraq bu məktəbdə dərs deyən A.Şaiq, S.Hüseyn, Q.Əfəndiyev (Qantəmir) kimi görkəmli ziyalılarla ünsiyyətdə olmuş, bu da gənc Almasın intellektual inkişafında, bədii yaradıcılıq istedadının parlamasında önəmli rol oynamışdır.

Ədəbi fəaliyyətə 1926-cı ildə "Qızıl qələmlər ittifaqı"nın üzvü kimi, ittifaqın nəşr etdirdiyi "Gənc qızıl qələmlər" məcmuəsində altı şeiri ("Hindli qız", "Şərqə", "Yarın", "Ey Hindistan", "Nəriman", "Qərbə") ilə başlamışdır. 1927-ci ildə indiki BDU-nun şərqşünaslıq fakültəsinə daxil olsa da, az sonra atası vaxtı ilə tacir olduğundan təhsil ocağından xaric olunmuşdur.

1928-ci ildə yeni təsis olunmuş Azərbaycan Proletar Yazıçıları cəmiyyətinə daxil olmuşdur. Yaradıcılığa başlayan gündən adı bolşeviklərin qara siyahısına düşən Almas İldırımın 1930-cu ildə çap olunan "Dağlar səslənirkən" adlı kitabı kommunizm əleyhinə fikirlər aşılayan bir məxəz kimi mağazalardan yığılıb müsadirə olunmuş, özü isə Türkmənistana sürgün edilmişdir. Aşqabadda çıxan "Zəhmət" qəzeti səhifələrində şeirlərini və məqalələrini dərc etdirən şair tezliklə ədəbi ictimaiyyətin diqqət və marağını çəkmişdir. Lakin burada da onu rahat buraxmamış, fəaliyyətini və yazılarını izləmiş, təftiş etmiş, təqib və təzyiqlərə məruz qoymuşlar.

Gözlənilən təhlükələrdən xilas olmaq üçün ailəsi ilə birgə İrana keçən şair sərhədçilər tərəfindən həbs olunmuş, bir aya yaxın ağır işgəncələrə məruz qalmışdır. Azadlığa buraxıldıqdan sonra, 1934-cü ildən Türkiyəyə köçərək orada məskunlaşan Almas İldırım ömrünün sonlarına qədər qürbətdə yaşamağa məcbur olmuş, Azərbaycan mühacirət poeziyasının ən qüdrətli nümayəndələrindən birinə çevrilmişdir. 1934-cü ildə Almas İldırım Türkiyə vətəndaşlığına qəbul edilmişdir. O, burada katibliklə, kargüzarlıqla məşğul olmuş, ibtidai məktəbdə dərs demişdir. Ömrünün təqribən 12 ilini isə yaradıcılığını davam etdirməklə yanaşı müxtəlif ölkələrdə bucaq müdirliyində (qəsəbə bələdiyyəsində) çalışmış, bədii yaradıcılıqla məşğul olmuşdur. Müəllifin şeirləri əsas etibarı ilə Türkiyədə yayınlanan mətbuatda, Almaniyada Azərbaycan mühacirətinin mətbu orqanı olan "Qurtuluş" dərgilərində, Van və Malatyada çıxan yerli qəzetlərdə dərc edilmişdir.

Almas İldırım 1952-ci il yanvar ayının 14-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /A.İldırım; red. N.Cabbarlı; tərt. ed. M.Teymur.- Bakı: Öndər, 2004.- 160 s.

Boğulmayan bir səs /Almas İldırım; ön söz. B.Nəbiyev.- Bakı: Avrasiya Press, 2007.- 392 s.

Cabbarlı, N. Azərbaycan mühacirət poeziyası: icmallar və portretlər /N.M.Cabbarlı; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Elm və təhsil, 2014.- 117 s.

Səmədov, A. Almas Yıldırım yaradıcılığında azərbaycançılıq ideyasın tərənnümü: dərs vəsaiti /A.Səmədov; Gəncə Dövlət Un-ti.-Gəncə: [s.n.], 2014.- 252 s.

Abbaslı, T. "...Mənim tacım, taxtım oy! Vətənimizi bu sayaq şimşək misralarla yad edirdi Almas İldırım!.. /T.Abbaslı //Mədəniyyət.- 2016.- 13 yanvar.- S.13.

İsmayıl. Sürgün və qürbət Almas İldırım yaradıcılığında azərbaycançılıq ideyasını fərqli şəkildə yaşatdı /İsmayıl //Şərq.-2014.- 9 aprel.- S.11.

İ n t e r n e t d ə

anl.az/el/i/ia_se.pdf
https://vaqifsultanli.wordpress.com/.../almas-ildi...

120 illiyi

Qulam Məmmədli
1897-1994

Publisist, teatrşünas

Ə d ə b i y y a t

İmzalar /Q.Məmmədli; elmi red. A.Zamanov.- Bakı: Azərnəşr, 1977.- 118 s.
Molla Nəsrəddin: salnamə /Q.Məmmədli; tərt. və ön sözün müəl. İ.Həbibbəyli; red. İ.Hacıyev.- Naxçıvan: Əcəmi, 2009.- 518 s.
Sizə kim lazımdır?: biblioqrafik məlumat kitabı /Q.Məmmədli; elmi red. Ə.Mirəhmədov, X.Məmmədov.- Bakı: Maarif, 1990.- 192 s.
Rəhimova, A. Qulam Məmmədli təzkirəsi: "Azərbaycanlı alim, yazıçı, şair və başqa görkəmli xadimlər haqqında biblioqrafik materiallar" /A.Rəhimova; elmi red. A.Musabəyli; red. A.Ramazanov; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.-Bakı: Elm və təhsil, 2012.-681 s.
Yusifli, V. O, XX əsrin canlı ensiklopediyası idi /V.Yusifli //Ədalət.-2015.- 26 noyabr.- S.7.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/adalet/2015/noyabr/465066.htm
http://www.anl.az/down/meqale/kaspi_az/2013/br/323874.htm

Qulam Əli Məmməd oğlu Məmmədli 1897-ci il mart ayının 25-də Təbrizdə anadan olmuşdur. Həmin il ailəsi Aşqabada köçmüşdür. İlk təhsilini mollaxanada alan Q.Məmmədli kiçik yaşlarından mətbəədə işləmişdir. 1914-1923-cü illərdə Aşqabadda türkmən və Azərbaycan dillərində nəşr olunan "Dan ulduzu","Sədayi-füqəra","Qızılyulduz" qəzetlərinin mətbəələrində mürəttiblik etmişdir. 1923-cü ildə Bakıya köçmüş və III Beynəlmiləl mətbəəsində işə girmişdir. 1929-1940-cı illərdə "Kommunist", "Yeniyol", "Kəndli qəzetəsi", "Azərbaycan kolxozçusu" qəzetləri redaksiyalarında çalışmışdır.

II Dünya müharibəsi illərində Sovet Ordusunun tərkibində müxbir kimi Təbrizə getmişdir. Təbrizdə nəşr edilən "Vətən yolunda" qəzeti redaksiyasında siyasi və ədəbi işçi kimi fəaliyyət göstərmiş, sonra yenidən Bakıya qayıdaraq ömrü boyu ədəbiyyatımıza, mədəniyyətimizə dair mənbələri araşdırmış və bir-birindən dəyərli tədqiqat əsərləri yazmışdır.

Bakıya qayıdan tədqiqatçı özü ilə Təbrizdən çoxlu sayda sənədlər, əlyazmalar, mətbuat nümunələri gətirmiş, bunların araşdırılması ilə məşğul olmuşdur. Hazırda AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan şəxsi arxivi öz zənginliyi ilə diqqəti cəlb edir. Q.Məmmədli arxivində C.Məmmədquluzadənin həyat və yaradıcılığına dair materiallar, məktublar, xatirələr toplanmış, Bakıda və ondan kənarda - Naxçıvan, Şuşa, Tiflis, Aşqabad, İrəvan, Həştərxan, Daşkənd, Moskva, Orenburq, Təbriz, İstanbul və s. şəhərlərdə çıxan qəzet və məcmuələrdən kəsilmiş məqalə və resenziyalar da yerləşdirilmişdir. O, bu materiallar əsasında 1966-cı ildə "Molla Nəsrəddin" adlı əsərini çap etdirmişdir. 1952-1959-cu illərdə Q.Məmmədli "Kirpi" jurnalının məsul katibi və redaktoru olmuşdur. Yaradıcılıq illərində "Xiyabani" (1949), "Azərbaycan lətifələri" (1954), "Qara və buzov" (1954), "Atmacalar" (1958, 1961), "Qapı oğrusu" (1960), "Molla Nəsrəddin" (1966), "Cahangir Zeynalov", "Hüseyn Ərəblinski" (1968) kimi kitabları çap edilmişdir.

1950-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür.

Ədəbi və ictimai fəaliyyətinə görə 1977-ci ildə Azərbaycan SSR-in "Əməkdar mədəniyyət işçisi", 1984-cü ildə "Əməkdar jurnalisti" fəxri adlarına layiq görülmüşdür. 1972-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatı laureatı olmuş, 1976-cı ildə Əmək veteranı, İttifaq əhəmiyyətli təqaüdçü (1987), M.F.Axundov adına ədəbi mükafat laureatı (1989), "50 il partiya veteranı" nişanı, dörd dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Qulam Məmmədli 1994-cü il noyabr ayının 18-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

145 illiyi

Aşıq Mirzə Bilal 1872-1937

Aşıq, şair

Mirzə Bilal Mustafa oğlu Mikayılov 1872-ci il mart ayının 12-də Şirvan qəzasının Qəşəd kəndində anadan olmuşdur. Həmyerlisi Molla Xasının məktəbində oxumuş, sonra Şamaxıda böyük maarifçi Seyid Əzim Şirvaninin məktəbində təhsilini davam etdirmişdir. Burada o, ərəb-fars dillərini kamil öyrənmiş, klassik poeziyaya dərindən bələd olmuşdur.

Şamaxı ədəbi mühiti – "Beytüs-səfa" və mesenat Mahmud Ağa Əhməd Ağa oğlunun musiqi-şeir məclisi onu sənət dünyasına bağlamışdır. Mahmud Ağa məclisində Əngəxaranlı Aşıq İbrahimlə tanışlığı onun uşaqlıqdan qəlbini ovsunlayan aşıq sənətinə məhəbbətini coşdurmuşdur. Ustadının məsləhəti ilə o, muğamlarımızın sirlərini "Şirvan bülbülü" Mirzə Məhəmmədhəsəndən mükəmməl şəkildə mənimsəmiş, el məclislərinə ayaq açmışdır.

Az zaman içərisində o, təkcə Şirvanda deyil, Azərbaycanın bir çox bölgələri, eləcə də İran, Dağıstan, Orta Asiya, Gürcüstan və İrəvanda məşhur olur. Yaradıcı sənətkar olan Aşıq Mirzə Bilal Azərbaycan xalq dastanları ilə yanaşı, Şirvanın klassik – "Aşıq Saleh və Maral", "Barıtday Soltan və Kövsər", "Koroğlunun Şirvan səfəri", "Şirvanlı Qəhrəman şah", "Şahzadə Qasım", "Miskin Baba və Nigar xanım", "Aşıq Ağaməmməd və Məryəm", "Küçə Rza", "Mustafa və Sənəm xanım", "Adgözəl və Aslan şah", "Zəncanlı Qurban", "Kərəmin Beşdaş səfəri" dastanlarını dəqiq bildiyi kimi, ustalıqla da ifa etmişdir.

"Səfiyyə və Ziyad", "Aşıq Bilal və Soltan xanım", "Yetim Soltan", "Mustafa xan", "Asıq İbrahim və Pəri", "Aşıq Bilal və Sənəm", "Həzrət Baba" adlı dastanlar bağlayan ustad sənətkar, altmışdan artıq klassik saz havalarını bacarıqla ifa etmiş və özü də on beşdən artıq saz havası bəstələmişdir. Bu havacatların bir qismi unudulsa da, çoxusu bu gün Şirvan aşıqlarının repertuarını bəzəməkdədir.

Aşıq Bilal şeirləri, habelə bəstələdiyi mahnıları ilə də tanınmışdır. Onun "Görünməz oldu", "Ala gözlər" kimi mahnıları, deyişmələri dillər əzbəri olmuşdur. Təsadüfi deyildir ki, o dövrdə Azərbaycanda "Mirzə" titulunu qazanan 8 ziyalıdan məhz biri də Aşıq Bilal olmuşdur.

Azərbaycan Aşıqlarının I qurultayının iştirakçısı olan Aşıq Bilal , Ü.Hacıbəyov, C.Qaryağdıoğlu, S.Şuşinski, Aşıq Sənəm, Aşıq Mirzə, Aşıq Əsəd, Aşıq İslam, Aşıq Məhəmməd və başqaları ilə dost olmuşdur. O, qırx ilə yaxın Şirvanda bu sənəti yaşatmış və onlarla şagird yetişdirmişdir.

Şirvanlı Aşıq Mirzə Bilal 1937-ci il iyun ayının 17-də həbs edilmiş, həmin ilin noyabr ayının 26-da "xalq düşməni" adı altında güllələnmişdir.

Azərbaycan Respublikası prokurorluğunun 28 oktyabr 1993-cü il tarixli qərarı ilə Bilal Mustafa oğlu bəraət almışdır.

Ə d ə b i y y a t

Bir vaxt şam-çıraqla gəzərlər məni /Şirvanlı Aşıq Mirzə Bilal; topl., tərt. ed., qeyd və izahların müəl. S. Qəniyev; red. E. Məmmədli; Azərb. Milli EA, Folklor in-tu -Bakı: Elm və təhsil, 2012.-103 s.

Ağalaroğlu, E. Bizim nəsil: [xatirələr, şeirlər, hekayələr. Aşıq Mirzə Bilalın şəcərə kitabı] /E.Ağalaroğlu; red. və ön söz müəl. R.Fərəcov.-Bakı: Yazıçı, 2014.-160 s.

Qəniyev, S. Şirvanlı Aşıq Mirzə Bilal /Seyfəddin Qəniyev; AMEA, Folklor İnstitutu.- Bakı: Nurlan, 2003.- 308 s.

Sayılov, Q. Aşıqlar atası Bilal /Q.Ə.Sayılov; red. A.Nəbiyev; AMEA, Folklor İn-tu.-Bakı: Elm və təhsil, 2011.-111 s.

Nərimanoğlu, M. Haqqı alınan haqq aşığı: Mirzə Bilal da represiya qurbanı olub /M.Nərimanoğlu //Azərbaycan.-2012.- 29 dekabr.- S.7.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2012/dekabr/286857.htm
www.shamaxi-ih.gov.az/news/39.html
https://mikayilliagalar.ress.com/.../asiq-mi...

70 illiyi

Şəfiqə Eyvazova 1947

Kamança ifaçısı

Şəfiqə Alxas qızı Eyvazova 1947-ci il mart ayının 9-da Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini aldıqdan sonra, 1962-ci ildə Asəf Zeynallı adına Musiqi məktəbinə daxil olmuş, görkəmli bəstəkarlardan dərs almışdır. Kamança üçün işlənmiş ən yaxşı əsərləri çalmış, muğam və xalq mahnıları ilə yanaşı, Avropa bəstəkarlarının əsərlərini öyrənmişdir.

1963-cü ildə 16 yaşlı Şəfiqə Eyvazova Azərbaycan Radiosunun Xalq Çalğı Alətləri Orkestrinə dəvət edilmişdir. Elə həmin il məşhur tarzən Əhsən Dadaşov Xalq Çalğı Alətləri ansamblını yaratmış və Ş.Eyvazovanı yeni kollektivə solist qəbul etmişdir.

1965-ci ildən solo konsertlərlə çıxış etməyə başlamışdır. Kamanda ifa etdiyi "Rast", "Çahargah", "Rahab", "Şüştər", "Şur" və s. muğamlar musiqisevərlər tərəfindən rəğbətlə qarşılanmışdır. Müxtəlif musiqi kollektivlərində çalışan ifaçı, eyni zamanda təhsilini davam etdirmiş, Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1971-ci ildə həmin təhsil ocağının kamança sinfini bitirmişdir.

1970-ci ildə Voronej şəhərində, 1973-cü ildə Berlində keçirilən festivalların qalibi olmuşdur. SSRİ xalqlarının folklor musiqisi festivalında (1978, Bişkek; 1979, Moskva), musiqişünasların Beynəlxalq simpoziumunda (1987, Səmərqənd), eləcə də YUNESKO xətti ilə ABŞ-da keçirilən "Şərq xalqlarının musiqi folkloru" festivalında (1988, Alim Qasımov və Ramiz Quliyevlə birgə) iştirak etmişdir.

Musiqi sahəsindəki göstərdiyi böyük xidmətlərlə yanaşı, 1974-cü ildən Azərbaycan Dövlət Konservatoriyasında çalışan Şəfiqə Eyvazova həm də pedaqoji fəaliyyətlə məşğuldur. (indiki Bakı Musiqi Akademiyası). Halhazırda Azərbaycan Milli Konservatoriyasının professorudur.

Şəfiqə Eyvazova 20-dən çox xarici ölkədə, eləcə də ABŞ, İsveçrə, Almaniya, Fransa, Polşa, Belçika, İtaliya, Əfqanıstan və s. ölkələrdə qastrolda olmuş, Azərbaycan musiqisini yüksək səviyyədə təmsil etmişdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra bu kaman ustadının yaradıcılıq coğrafiyası daha da genişlənmişdir. Bu gün fəxrlə deyə bilərik ki, Şəfiqə Eyvazova 2003-cü ildən Türkiyənin "Tekşen-Kara Dəniz" Simfonik Orkestrinin solisti kimi çalışır.

Onun ifasında yeni zirvə tapan "Şur", "Şüştər", "Rahab" və bir çox digər muğamlar Azərbaycan Radiosu və Televiziyasının Qızıl Fondunda qorunur.

Şəfiqə Eyvazova 2000-ci ildə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Əhsən Dadaşovun rəngləri: metodik vəsaiti /BMA; tərt. ed. A.Əsədullayev; red. Ş.Eyvazova; rəy.: O.Rəcəbov [və b.].- Bakı: [s. n.], [2014].- 28, [1] s.

Kamana 5-ci sim lazımdırmı? /Ş.Eyvazova //Ekspress.-2009.-2-4 may.- S. 31.

Xəlilzadə, F. Simlərdən süzülən duyğular /Flora Xəlilzadə //Azərbaycan.- 2013.- 10 mart.- S.6.

Şəfiqə Eyvazova //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar / Rasional İnkişaf uğrunda Qadınlar Cəm-ti; müəl. M.Vəzir; layih. müəl. və rəhb. Ş.İsmayılova; red.: B.Əhmədov, S.İsmayılova; tərc. F.Axundov.- Bakı, 2008.- S.97-98.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Şəfiqə_Eyvazova
http://www.anl.az/down/meqale/azerbaycan/2013/mart/297956.htm
anl.az/down/meqale/azerbaycan/.../297956.htm
http://web.anl.az/el/Kitab/2015/2003-1659.pdf

115 illiyi

Yavər Kələntərli 1902-1979

Xanəndə

Yavər Abbas (bəzi mənbələrdə Əli) qızı Kələntərli (qızlıq familiyası Zamanova) 1902-ci il mart ayının 26-da Şamaxıda anadan olmuşdur. Yeniyetmə çağlarında dayısı Əlicabbar Orucəliyevin ailəsilə birgə Bakıya köçmüş, dayısı onu Rəhilə Hacınskayanın Qızlar məktəbinə qoymuşdur.

Yavər xanım uşaqlıqdan musiqiyə, ifaçılığa böyük maraq göstərmişdir. Üzeyir bəylə Yavər xanımın qardaşı Hacıbala Zamanov Qori seminariyasında bir yerdə oxuduğu üçün, dost olmuş, onlara tez-tez gələn Üzeyir bəy "Leyli və Məcnun" operasının məşqinin aparıldığı vaxtlarda Yavərin oxumasını dinləmiş və çox bəyənmişdi.

İlk dəfə 1916-ci ildə "Cəmiyyəti xeyriyyə" məktəbində qızlar tərəfindən oynanılmış "Arşın mal alan" musiqili komediyasında Əsgər rolunu ifa etmişdir. 1922-ci ildə Üzeyir bəyin təşəbbüsü ilə yaradılmış birillik musiqi kursunu bitirmişdir. Kursu bitirməsi münasibətilə Üzeyir bəy ona pianino hədiyyə etmişdi. Sonralar Cabbar Qaryağdıoğlundan, Seyid Şuşinskidən dərs almışdır. Hətta Yavər xanımın ifasını bəyənən Cabbar Qaryağdıoğlu ona öz qavalını bağışlamışdı. Beləliklə, xanəndənin yaradıcılığı həm ictimaiyyət, həm də professional xanəndələr tərəfindən rəğbətlə qarşılanmışdır.

Yavər xanım ilk konsertini 1923-cü ildə, indiki Sabir bağının yanında "Maarif evi"ndə vermişdir. Müğənnini tarda Bədəl bəy Bədəlbəyli (bəstəkar Əfrasiyab Bədəlbəylinin atası), skripkada Cəmo Cəbrayılbəyli müşayiət edirdi. Lənkəranlı Xudaverdi Kələntərli adlı bir şəxslə ailə həyatı quran Yavər xanımın bu nigahdan bir oğlu dünyaya gəlmişdir. Təəssüf ki, Şahbaz cavan yaşlarında dünyasını dəyişmişdir. 1937-ci ildə həyat yoldaşından ayrılan Yavər xanım onun soyadından imtina etməmişdir.

1937-1941, 1945-1951-ci illərdə Opera və Balet Teatrının solisti olmuş, teatrın səhnəsində Leyli, Əsli, Ərəbzəngi, Gülçöhrə və bu kimi yaddaqalan obrazlar yaratmışdır.

Onun repertuarı, əsasən, muğam və xalq mahnılarından, təsniflərdən ibarət idi. Qadın xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri olan Yavər xanım yaddaşlarda "Bayatı-Şiraz", "Şur", "Bayatı-Kürd", "Segah" və bu kimi muğam və təsniflərin mahir ifaçısı olaraq qalmışdır.

1932-1937-ci illərdə Azərbaycan radiosunun solisti olmuşdur. 1938-ci ildə qrammafon valı buraxılmışdır. 1941-ci ildə İranda səfərdə olmuş, Təbrizdə, Mərənddə, Şapurda, Xoyda, Miyanədə konsertlər vermişdir. Hətta Təbrizdəki konserti anşlaqla keçmişdir.

Xanəndənin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1939-cu ildə Azərbaycan SSR-nin "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Yavər Kələntərli 1979-cu il fevral ayının 5-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Çəmənli, M. Nəğməli xatirələr //Mustafa Çəmənli. Sənət hekayələri.- Bakı, 2014.- S.274-290.

Çəmənli, M. Yavər Kələntərli //Mustafa Çəmənli. "Leyli və Məcnun" 100 il səhnədə.- Bakı, 2008.- S.163-167.

Gəncəvi, S. Yavər Kələntərli //Sabir Gəncəli. Qadın, gözəllik və ülviyyət (Ensiklopedik toplu).- Bakı, 2001.- 257 s.

Xəlilzadə, F. Ürəyin hökmü, səsin rəngi Yavər Kələntərli - 110 /Flora Xəlilzadə //Azərbaycan.- 2012.- 18 mart.- S.6.

Kələntərli Yavər Əli qızı //Azərbaycan Sovet Ensiklopediyası.- Bakı, 1981.-C.V.- S.336.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/azerbaycan/2012/mart/240150.htm

90 illiyi

Mstislav Rostropoviç 1927-2007

Dirijor



Mstislav Leapoldoviç Rostropoviç 1927-ci il mart ayının 27-də Bakıda, tanınmış violonçel ifaçısı və vaxtilə Pavlo Kasalasın tələbəsi olmuş Leopold Rostropoviçin ailəsində anadan olmuşdur. Rostropoviç uşaqlıq və gənclik illərini Bakıda keçirmiş, İkinci Dünya müharibəsi illərində ailəsi Orenburqa, daha sonra isə 1943-cü ildə Moskvaya köçmüşdür. Rostropoviç artıq dörd yaşında ikən anasından pianino ifaçılığının sirlərini, on yaşında isə atasından ilk dəfə violençin incəliklərini öyrənmişdir.

1943-1948-ci illərdə, 16 yaşında Moskva Konservatoriyasına qəbul olunan Rostropoviç piano və violenç ifaçılığı ilə yanaşı dirijorluq və bəstəkarlıq ixtisaslarına da yiyələnmişdir. Müəllimləri arasında isə Dmitri Şostakoviç və Sergey Prokofyev kimi rus musiqisinin nəhənglərini misal göstərmək olar. O, 1945-ci ildə Sovetlər Birliyində ilk dəfə keçirilən gənc musiqiçilərin birinciliyində qızıl medala layiq görülməklə istedadlı violenç ifaçısı kimi nəzər-diqqətləri cəlb etmişdir. Rostropoviç ilk violenç konsertini 1942-ci ildə vermiş, 1947, 1949 və 1950-ci illərdə Praqa və Budapeştdə keçirilən beynəlxalq musiqi müsabiqələrinin qalibi olmuşdur. 1950-ci ildə, cəmi 23 yaşında olarkən, o zaman Sovetlər Birliyində ən ali mükafat hesab olunan Stalin Mükafatına layiq görülmüşdür. Artıq bütün SSRİ-də şöhrət qazanmış gənc və son dərəcə istedadlı Rostropoviç Leninqrad (indiki Sank-Peterburq) və Moskva konservatoriyalarında pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1948-ci il 10 fevral tarixində "formalist" bəstəkarlar haqqında qəbul edilmiş fərman nəticəsində müəllimi Şostakoviçin Leninqrad və Moskva konservatoriyalarında professorluq dərəcələrindən məhrum edilməsinə cavab olaraq 21 yaşlı Rostropoviç etiraz əlaməti olaraq konservatoriyanı tərk etmişdir. Sovet hakimiyyətinə qarşı müxalif fikirlərinə, yazıçı Aleksandr Soljenitsına öz evində sığınacaq verdiyinə görə hakimiyyətin qəzəbinə tuş gəlmiş, 1974-cü ildə Sovetlər İttifaqını tərk edərək ABŞ-a yollanmışdır. Kəskin çıxışlarına görə Sovet vətəndaşlığından məhrum edilmişdir. 1990-cı ildə isə artıq Amerika vətəndaşı olmasına baxmayaraq ruslar onun Rusiya vətəndaşlığını bərpa etmişlər.

1977-ci ildən Vaşinqton Milli Simfonik Orkestrinin rəhbəri və baş dirijoru olmuş və 17 il bu orkestrə rəhbərlik etmişdir. 2002-ci il mart ayının 4-də Bakıda ev-muzeyi açılmışdır. 2007-ci ildə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. Həmyerlimiz 22 dəfə Qremmi mükafatına layiq görülmüşdür. Həmçinin Yaponiya, Böyük Britaniya, Fransa, ABŞ da daxil olmaqla 44 dövlətin ordenini almışdır.

Dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç 2007-ci il aprel ayının 27-də Moskva şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan mədəniyyətinin təbliğatçısı-Rostropoviç //Olaylar.- 2013.- 16-18 mart.- S.15.

Hüseynov, F. Rostropoviçlərin ev-muzeyində görüş /F.Hüseynov //Mədəniyyət.- 2015.- 3 iyun.- S.11.

Великий Бакинец. Ростропович /Фонд Гейдар Алиева; Фонд Друзей Культуры Азербайджана.- Баку: Шярг-Гярб, 2008.- 244, [4] с.

Уилсон, Э. Мстислав Ростропович: [композитор, учитель, легенда] /Элизабет Уилсон; [пер. с англ. К.Савельева]; худож. оформ. Е.Савченко.- Москва: Эксмо, 2011.- 509, [3] с.

İnternetdə

http://www.anl.az/down/meqale/medeniyyet/2015/iyun/441539.htm

90 illiyi

Nodar Şaşıqoğlu 1927-2013

Aktyor

Nodar Şaşıqoğlu İzzətoviç 1927-ci il mart ayının 13-də Batumi şəhərində anadan olmuşdur. Əmisi, böyük aktyor Ülvi Rəcəb və onun həyat yoldaşı Mərziyə Davudova onun bir aktyor kimi yetişməsində böyük rol oynayıblar. Tiflisdə orta məktəbi bitirdikdən sonra, 1950-ci ildə Şukin adına Moskva Teatr məktəbini bitirərək, Moskvada Y.Vaxtanqov adına Taqanka Teatrında və Leninqrad (indiki Sankt-Peterburq) A.S.Puşkin adına Akademik Dram Teatrında aktyor işləmişdir. Don Juan (A.S.Puşkin "Kiçik tragediyalar"), Sirano (E.Rostan "Sirano de Bercerak"), Kreont (Q.Qauptman "Antiqo-solntsa"), Cilbert (V.Hüqo "Mariya Tüdor") və s. kimi unudulmaz obrazlar yaratmışdır.

Onun filmdə ilk rolu "Mosfilm"də Albaniya dövlətçiliyinin əsasını qoyan Georgi İsgəndərbəyov haqqında çəkilən filmdə türk imperiyasının əsasını qoyan Mehmet bəy Fateh obrazı olmuşdur. Sonra Sergey Paracanovun ilk rejissor işi olan "Andrieş" filmində baş rola dəvət almışdır.

Bu filmdən sonra "Odessa" kinostudiyasında çalışan N.Şaşıqoğlu "Mosfilm", "Dovjenko", "Odessa", "Azərbaycanfilm" kinostudiyalarında çəkilən bir sıra filmlərdə rol almışdır.

Kino yaradıcılığı daha çox Azərbay-canla bağlıdır. Ona məşhurluq qazandıran "Uzaq sahillərdə" (1958) filmində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin obrazını yaratdıqdan sonra bir-birinin ardınca "Əsl dost" (1959), "Səhər" (1960), "Mateo Falkone" (1961), "Onun böyük ürəyi", "Bizim küçə" (1961), "Leyli və Məcnun" (1961), "Telefonçu qız" (1962) filmlərinə çəkilmişdir.

2003-cü ildən N.Şaşıqoğlu S.Vurğun adına Rus Dram Teatrına qayıtmış və teatrın səhnəsində Sorin (A.P.Çexov "Qağayı"), Kral Lir (U.Şekspir "Kral lir") obrazlarını parlaq ifa etmişdir. Nodar Şaşıqoğlu Kral Lir obrazını oynayan ən yaşlı aktyor olmuş, bu rolu 82 yaşında oynamışdır.

Aktyorun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1983-cü ildə Azərbaycanın "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

2007-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Nodar Şaşıqoğlu 2013-cü il aprel ayının 12-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Həyatda ikinci dubl olmur /N.Şaşıqoğlu; müsahibəni apardı N.Əlişova //Kafkaz News.- 2012.- 29 iyun.- S.4.

Məhərrəmova, T. Kral öldü, pərdə qapandı: 86 yaşlı Nodar Şaşıqoğlu onu sevən tamaşaçılarına həmişəlik vida etdi /Təranə Məhərrəmova //Kaspi.- 2013.- 13-15 aprel.- S.8.

Mirzəxanlı, N. Bəşəriyyətin aktyoru /Nurəddin Mirzəxanlı //Kafkaz Nevs.- 2012.- 29 iyun.- S.9.

Tahirə."Mixaylo"nun son roluna hamı üzüldü: Ömrünün son iki gününü yataqda keçirdi və bizi tərk etdi /Tahirə //Şərq.- 2013.- 13 aprel.- S.14.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/kaspi_az/2013/aprel/303397.htm

120 illiyi

Ağasadıq Gəraybəyli 1897-1988

Aktyor

Ağasadıq Ağəli oğlu Gəraybəyli (Gəraybəyov) 1897-ci il mart ayının 15-də Şamaxıda anadan olmuşdur. Körpə yaşlarından ailəsi Bakıya köçmüş, burada türk-rus (rus-tatar) məktəbində təhsil almışdır. Məktəbdə Müslüm Maqomayevdən və Məmmədhənifə Terequlovdan musiqi savadı öyrənmiş, klarnetdə sərbəst ifa etməyi bacarmışdır. 1908-ci ildə Hüseyn Ərəblinskinin truppasında rejissor köməkçisi olan qardaşı Ağayarın təşəbbüsü ilə ilk dəfə səhnəyə çıxmışdır.

1916-cı ildə Politexnik məktəbinə daxil olmuş və orada Cəfər Cabbarlı ilə dostluqlarının təməli qoyulmuşdur. Tələbəlik illərində "Nicat", "Səfa" cəmiyyətlərinin teatr truppalarında epizodik rollar oynamışdır. 1920-ci ilin mayında Milli Dram Teatrının yeni təşkil olunan truppasına götürülmüş, 1921-1932-ci illərdə müəyyən fasilələrlə Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında işləmişdir.

Aktyorun C.Məmmədquluzadənin "Ölülər" (İsgəndər), N.Şapovalenkonun "1881-ci il" (Birinci Nikolay), M.F.Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri" (Xan), U.Şekspir "Romeo və Cülyetta" (Lorenso), Lope de Veqanın " Rəqs müəllimi" (Tebano) və s. tamaşalarda oynadığı rollar tamaşaçıların rəğbətini qazanmışdır.

Ağasadıq Gəraybəylinin kino yaradıcılığı 1920-ci ildən başlamışdır. O, ilk dəfə "Qız qalası" səssiz filmində Əyan epizod roluna çəkilmiş, sonra "Hacı Qara" (Əsgər bəy), "O olmasın, bu olsun" (Rüstəm bəy), "Bəxtiyar" (Ağabala), "Qızmar günəş altında" (Sərdarov), "Poçt qutusu" (Bəy), "Leyli və Məcnun" (İbn Xalid), "Sevil" (Balaş) və s. filmlərdə fərqli xarakterli rollar yaratmışdır.

Obrazın xarakterindən asılı olaraq öz ifasında surətin tələb etdiyi xeyirxahlıq və mənsəbpərəstlik, sadəlik və xudbinlik, qəhrəmanlıq və qorxaqlıq, prinsipiallıq və bürokratlıq, vətənsevərlik və riyakarlıq kimi birbirinə zidd, təzadlı cəhətləri emosional bədiiliklə yoğurub aydınlıqla tamaşaçılara çatdırmışdır.

Geniş diapazonlu yaradıcılığa malik olan aktyor 1936-cı ildə "Əməkdar artist", 1940-cı ildə "Xalq artisti" fəxri adları ilə təltif edilmişdir. VI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Ağasadıq Gəraybəyli 1988-ci il dekabr ayının 5-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Rəhimli, İ. Ağasadıq Gəraybəyli: həyat və yaradıcılığı haqqında monoqrafiya /İlham Rəhimli; xüs. red. M.İsgəndərova; Azərb. Teatr Cəmiyyəti.- Bakı: Yazıçı, 1979.- 125, [3] s.

Abdin, T. 90 ilin bir neçə saatı //Abdin T. Onların dünəni: Publisistika-1.- Bakı, 2012.- S.64-75.

Oktay. Bəy nəslindən olan peşəkar aktyor: Ağasadıq Gəraybəyli yaddaşlarda Rüstəm bəy, Ağabala kimi qalıb /Oktay //Xalq cəbhəsi.- 2012.-17 mart.- S.13.

Rəhimli, İ. Ağasadıq Gəraybəyli //Rəhimli İ. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı: Teatrın 1873-2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi: 3 cilddə.- Bakı, 2013.- Cild II: 1937-1969 S.413-417.

İ n t e r n e t d ə

http://web.anl.az/el/Kitab/2014/2012-2237.pdf

100 illiyi

Yusif Vəliyev 1917-1980

Aktyor

Yusif Abdulla oğlu Vəliyev 1917-ci il mart ayının 22-də Dərbənddə anadan olmuşdur. Bakıda, Teatr Texnikumunda təhsil aldığı illərdə (1933-1936) Milli Dram Teatrının tamaşalarında, kütləvi səhnələrdə fəal iştirak etmişdir. Texnikumu bitirdikdən sonra Şəki Dövlət Dram Teatrında işləməyə göndərilmiş, 1949-cu ilədək orada çalışmışdır. Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Əşrəf bəy), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Hacı Qara), "Molla İbrahimxəlil kimyagər" (İbrahimxəlil), Sabit Rəhmanın "Toy" (Surxay), Cəfər Cabbarlının "Almaz" (Şərif), "1905-ci ildə" (General-qubernator), "Aydın" (Aydın), "Oqtay Eloğlu" (Oqtay), "Od gəlini" (Elxan), "Sevil" (Balaş), "Solğun çiçəklər" (Bəhram) dramlarının, Georgi Mdivaninin "Vətən namusu" tərcüməsinin (Nadir), Səməd Vurğunun "Vaqif" (Vaqif), Mirzə İbrahimovun "Həyat" (Süleyman), Vilyam Şekspirin "Otello" (Yaqo), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Fəxrəddin) faciələrinin tamaşalarında xaraktercə fərqli rollar oynamışdır. Teatr tamaşaları ilə yanaşı, opera və operettalarda da rollar yaratmışdır.

1940-cı ildə Bakıya qayıdan aktyor əvvəlcə Azərbaycan Dövlət Rus Dram Teatrında işləmiş, sonra Gənc Tamaşaçılar Teatrını seçərək, ömrünün sonunadək orada çalışmışdır.

Teatrın səhnəsində Yusif Vəliyevin oynadığı rolları saymaqla qurtarmaz: Hacı Nuru ("Molla İbrahimxəlil kimyagər", M.F.Axundov), Harun Ər Rəşid ("Bir saatlıq xəlifəlik", A.Şaiq), Ovod ("Ovod", E.Voyniç), Lorenso ("Romeo və Culyetta", V.Şekspir), Hacı Səməd ağa ("Bəxtsiz cavan", Ə.Haqverdiyev), Gəray bəy ("Komsomol poeması" S.Vurğun) və s.

Yusif Vəliyevin xüsusi səs tembri, ciddi görkəmi vardı. Bəstəboy aktyor səhnədə çox əzəmətli, pəhləvan cüssəli kimi görünürdü. Bütün bu keyfiyyətlər təbii ki, o dövrün kino rejissorlarının da diqqətini cəlb etməyə bilməzdi. Çəkildiyi bütün filmlərdə olduqca maraqlı, yaddaqalan xarakterlər yaratmışdır: Teymurləng ("Nəsimi"), Halvaçı ("Qatır Məmməd"), Komissiya üzvü ("Bəxtiyar"), Qılınc Qurban ("Tütək səsi"), iş icraçısı ("Uşaqlığın son gecəsi"), Qurd Cəbrayıl ("Arxadan vurulan zərbə"), Səfərəli ("Bir cənub şəhərində"). "Axırıncı aşırım" filmində məhz Adil İsgəndərovun şəxsi istəyi ilə Kərbəlayı İsmayıl obrazını Yusif Vəliyev səsləndirmişdir.

Görkəmli sənətkar teatr və kino sahəsində qazandığı uğurlara görə 1960-cı ildə Azərbaycanın "Əməkdar artist", 1979-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Yusif Vəliyev 1980-ci il mart ayının 18-də vəfat etmiş, Bakı şəhərindəki "Qurd qapısı" qəbiristanlığında dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Azəri, L. Dövlət Film Fondunda Yusif Vəliyevin xatirə gecəsi /Lalə Azəri //Mədəniyyət.- 2012.- 20 aprel.- S.5.

Kazımzadə, A. Xalqın sevimli sənətkarı /Aydın Kazımzadə //Mədəniyyət.- 2012.- 18 aprel.- S. 10.

Sadıqova, Z. Teymurun özü, Kərbəlayının səsi, kədərli Novruz hədiyyəsi...: Görkəmli aktyorumuz Yusif Vəliyevin həyat hekayəti... /Zemfira Sadıqova //Olaylar.- 2011.- 14 oktyabr.- S.10.

Unudulmaz aktyor Yusif Vəliyev //Ekran-efir.- 2014.- 20 mart.- S.9.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/olaylar/2011/oktyabr/205309.htm
www.anl.az/down/meqale/medeniyyet/2012/aprel/245451.htm
www.anl.az/down/meqale/medeniyyet/2012/aprel/246290.htm

50 illiyi

Fəxrəddin Nəcəfov
1967-1992

Milli Qəhrəman

Fəxrəddin Vəliyəddin oğlu Nəcəfov 1967-ci il mart ayının 31-də Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Nəsimi rayonu 19 saylı orta məktəbi bitirmiş, Bakı Çini Qablar zavodunda əmək fəaliyyətinə başlamışdır. Bir il sonra hərbi xidmətə çağırılmış, Arxangelsk vilayətində xidmətini yerinə yetirdikdən sonra vətənə qayıtmışdır. DİN-in Yanğından Mühafizə İdarəsində işə qəbul olunaraq, 1988-ci ildə nazirliyin təqdimatı ilə Xarkov Yanğından Mühafizə Ali Hərbi məktəbinə göndərilmişdir. Təhsilini başa vuran F.Nəcəfov 1990-cı ildə 14 saylı Yanğından Mühafizə İdarəsində mühafizə rəisi vəzifəsinə təyin olunmuşdur. 1991-ci ildə vətənin müdafiəsi üçün könüllü olaraq Qarabağ cəbhəsinə yollanmışdır. İlk döyüşə Goranboy rayonundan başlayan Fəxrəddin 1992-ci ildə Ağdam cəbhəsində hərbi hissələrdən birinə bölük komandiri təyin edilmişdir. Həmin vaxtlarda Ağdamın Canyataq və Gülyataq kəndlərində ağır döyüşlər gedirdi. Onun bölüyünə düşmən ərazisinə düşən təyyarəçimizi xilas etmək tapşırığı verilmişdi. F.Nəcəfov təyyarəçini xilas edərkən Canyataq kəndində öz dəstəsi ilə mühasirəyə düşmüş, bir neçə gün qızğın döyüşlərdən sonra, nəhayət, bölük mühasirə həlqəsini yara bilmişdi. Həmin döyüş zamanı bir neçə yerindən yaralanan Fəxrəddin müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmış, 1992-ci il sentyabrın 4-də Ağdərənin Çaldıran kəndi istiqamətində gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Nəsimi rayonundakı 266 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbin həyətində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Fəxrəddin Nəcəfov /Ənsər B. Necə də yaşamaq istəyirdim: [Həyatı, təhsili və döyüş şücaəti haqqında] //Ənsər B. Ağrıdağlı qəhrəmanlar.-B., 2004.- S. 51-53.

Fəxrəddin Nəcəfov /Əsgərov, V."Azərbaycanın Milli Qəhrəmanları" (Yenidən işlənmiş II nəşr). Bakı: "

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/kaspi_az/2013/fevral/296576.htm

275 illiyi

Ağa Məhəmməd şah Qacar 1742-1797

Hərbi xadim



Azərbaycan türk xalqının tarix səhnəsinə yetişdirib çıxardığı dəyərli şəxsiyyətlərdən biri də Ağa Məhəmməd şah Qacardır. O, Azərbaycan və dünya tarixinə 146 illik hakimiyyət sürmüş (1779-1925) bir dövlət-Qacarlar imperatorluğu bəxş etmişdir.

Mənşəcə Qacar türk tayfasından olan Ağa Məhəmməd şah Qacar 1742-ci il martın 14-də Mazandaranın Əstərəbad (bəzi mənbələrdə Astrabad) vilayətinin Əstərabad şəhərində Məhəmmədhəsən xan Qacarın ailəsində dünyaya göz açmışdır. Qacar tayfası Azərbaycanın dövlətçilik tarixində şərəfli rol oynamışdır.

Yürüşlərin birində atası Məhəmməd Həsən xan 13 yaşlı oğlu Ağa Məhəmmədi özü ilə götürmüş, ona qabaqda gedən dəstənin rəhbərliyini tapşırmışdı. XVIII əsrin ortalarında mövqeyini daha da möhkəmləndirmiş Məhəmməd Həsən xan bütün yürüşlərdə onun yanında olan Ağa Məhəmməd xanı Azərbaycana vali təyin etmişdir. 1758-ci ildə Məhəmməd Həsən xan həmin dövrdə Mərkəzi İranda baş qaldırmış Zəndlər tayfası ilə apardığı döyüşlərin birində həlak olmuş, hakimiyyət böyük oğlu Ağa Məhəmməd şah Qacara keçmişdi. 1761-1762-ci ildə Kərim xan Zənd Nəcəf şəhəri yaxınlığında 4 minlik qoşunla Ağa Məhəmməd xanı mühasirəyə almış, Ağa Məhəmməd xan 9 yara alaraq Kərim xan Zəndin əlinə keçmişdi. Bundan sonra 16 il əsir kimi Şirazda qalan Ağa Məhəmməd xan mədrəsəyə getməyə başlamış, ilahiyyatı, fəlsəfəni, riyaziyyatı, astronomiyanı və klassik ədəbiyyatı öyrənmişdir.

Ömür boyu hakimiyyətə can atan Ağa Məhəmməd xanın məqsədi, vaxtilə qüdrətli Səfəvilər dövlətinin dağılmış və bölüşdürülmüş torpaqlarını qaytarmaq, onun şöhrətini İran xalqına çatdırmaq idi. Bu yolda durmadan çalışmış və nəhayət, 1779-cu ildə Kərim xan Zəndin vəfatından sonra əsirlikdən azad olub, 1785-ci ildə Mazandaranı ələ keçirmişdi. Həmin döyüşlərdə ona qardaşı sərkərdə Cəfərqulu xan Qacar yardım etmişdi. Ağa Məhəmməd şah Qacarlar sülaləsinin İranda hakimiyyətinin əsasını qoymuşdur. 1786-cı ildə o, Tehranı yeni dövlətin paytaxtı, 1791-ci ildə isə özünü İran şahənşahı elan etmişdir.

Qacarlarla Zəndlər arasında son qanlı döyüş 1794-cü ildə Girman yaxınlığında baş vermiş və Ağa Məhəmməd şahın tam qələbəsi ilə başa çatmışdır. Bununla da Zəndlər nəslinin adı İran tarixindən tamamilə silinmişdir. Ağa Məhəmməd şah Qacar iki dəfə Qarabağı ələ keçirmək üçün cəhd göstərmiş, 1796-cı ildə məğlub olaraq geri çəkilsə də, 1797-ci il iyun ayının 17-də Şuşa qalasını ala bilmişdir. Lakin səhəri gün öz nökərləri tərəfindən qətlə yetirilmişdir.

Onun şahlığı, şəxsiyyəti haqqında çoxlu sayda kitab, əsər yazılmışdır.

Ə d ə b i y y a t

Gevr, J. Xacə şah: tarixi roman /Jan Gevr; farscadan tərc. ed. Hüseyn Əhədi.- Bakı: Hüquq ədəbiyyatı, 2012.- 646, [2] s.

İranda şah sülaləsinin əsasını qoymuş Ağaməhəmməd xan Qacarın ölümünə qədər həyatında baş vermiş əsas hadisələrin qısa xülasəsi ilə tərcümeyi-halı /tərc. və dəqiqləşdirmələr. M.Qacar; red. və ön sözün müəl. Ə.Çingizoğlu.- Bakı: Mütərcim, 2011.- 53, [2] s.

Tahirzadə, Ə. Ağaməhəmməd şah Qacar: Tərcümeyi-hal oçerki /Ə.Tahirzadə; elmi red.: İ.Musayev; bədii tərt. ed.: E.Faxralı, F.Xırxatalalı; ön sözün müəllifi. B.Vahabzadə.- Bakı: Kür, 2002.- 44 s. Azərbaycan imperatorları 2.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/A%C4%9Fa_M%C9%99h%C9%99mm%C9%99d_%C5%9Fah_Qacar

75 illiyi

Əfrand Daşdəmirov 1942-2015

Akademik

Ədəbiyyat

Millət və cəmiyyət tarixin sərt dönəmlərində /Ə.Daşdəmirov; elmi red. C.Quliyev; AMEA, Arxeologioya və Etnoqrafiya İn-tu.- Bakı: Elm, 2008.- 342, [2] s.

Məmmədli, Ə. Məhsuldar elmi, pedoqoji və ictimai fəaliyyətdə /Ə.Məmmədli //Elm.- 2012.- 30 aprel.- S.14.

Идеологические проблемы межкавказских отношений /А.Дашдамиров; НАНА, Инс-т Общественно-Политических Исследований и Информации.- Баку: [б.и.], 2001.- 87, [1] с.

Азербайджану надо наращивать экономический потенциал: Интервью с главным редактором российской газеты «Азербайджанский конгресс» профессором Афрандом Дашдамировым /А.Дашдамиров //Бакинский рабочий.- 2011. - 12 октября. - С. 6.

İnternetdə

www.anl.az/down/meqale/bakrabochiy/2011/oktyabr/204628.htm
www.anl.az/down/meqale/elm/2012/aprel/04.htm

Əfrand Firudin oğlu Daşdəmirov 1942-ci il mart ayının 12-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1968-ci ildə Moskvada "İndividual şüurun milli məqamları" mövzusunda namizədlik, 1977-ci ildə, "Şəxsiyyətin sosial varlığının milli və beynəlmiləl formaları" mövzulu doktorluq dissertasiyasiyalarını müdafiə etmişdir. Əfrand Daşdəmirov Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində rəhbər vəzifələr tutmuş, Bakı Ali Partiya Məktəbində kafedra müdiri işləmişdir. Ə.Daşdəmirov uzun illər həm də Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda milli münasibətlər və beynəlmiləl tərbiyə şöbəsinin müdiri olmuşdur. 1983-cü ildə Ə.Daşdəmirov Azərbaycan MEA-nın müxbir üzvü, 1989-cu ildə həqiqi üzvü seçilmişdir. 1991-ci ildən isə Rusiya Federasiyası Prezidenti yanında Rusiya Dövlət Qulluğu Akademiyasının professoru idi.

Ə.Daşdəmirovun elmi fəaliyyətinin əsasını millətlərin və millətlərarası münasibətlərin inkişafının sosial fəlsəfi, politoloji, kulturoloji, etnopsixoloji problemlərinin elmi-tədqiqi, müasir etnosiyasi, etnomədəni proseslərin dərkinin fundamental nəzəri-metodoloji məsələləri təşkil edib. Ə.Daşdəmirov Rusiyada Azərbaycan diasporunun formalaşmasında və inkişafında yaxından iştirak etmiş, orada yaşayan azərbaycanlıların 2002-ci ildə Moskvada yaranan Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti seçilmişdir. 10 il "Azərbaycan Konqresi" qəzetinin (rus dilində) baş redaktoru vəzifəsində çalışmışdır. Xüsusilə ölkəmizin üzləşdiyi Qarabağ problemi, tariximizdəki faciəli hadisələr, Xocalı soyqırımıyla, Qarabağətrafı rayonlarımızın işğalıyla bağlı yazdığı məqalələr təqdirə layiqdir.

Əfrand Daşdəmirov dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. Rusiya Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti Federal Şurasının üzvü, Rusiyada çıxan "Azerros" qəzetinin yaradıcısıdır.

8 monoqrafiyanın, 250-dən çox elmi əsərin müəllifidir, onun rəhbərliyi ilə 10 elmlər, 30-dan çox fəlsəfə doktoru yetişmişdir. Ə.Daşdəmirovun "Milli münasibətlərin sosioloji strukturu", "Şəxsiyyət və millət", "Milli ideya və etniklik", "Cəmiyyətşünaslığın nəzəri-metodoloji problemləri: yeni yanaşmalar haqqında qeydlər və düşüncələr" və b. nəşri tarixindən asılı olmayaraq, bu gün də öz aktuallığını saxlamaqdadır. Bu əsərlər təkcə elmi planda deyil, həm də mühüm praktik əhəmiyyətə malikdirlər.

Əfrand Daşdəmirov 2015-ci il aprel ayının 7-də vəfat etmişdir.

85 illiyi

Zümrüd Quluzadə 1932

Filosof

Zümrüd Əliqulu qızı Quluzadə 1932-ci il mart ayının 17-də Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. 1939-1949-cu ildə rusdilli orta məktəbi fərqlənmə ilə bitirmişdir. 1949-1954-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin azərbaycandilli fəlsəfə bölməsini bitirmiş, 1954-1957-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Fəlsəfə kafedrasının aspiranturasında təhsilini davam etdirmişdir. 1957-1960-cı illər arasında Azərbaycan Politexnik İnstitutunda fəlsəfə fənni üzrə assistent və baş müəllim vəzifələrində işləmişdir. 1959-cu ildə Moskva Dövlət Universitetində fəlsəfə fakültəsinin Elmi Şurasında "Antaqonist cəmiyyətdə üst qurumun rolu" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1960-cı ildən bugünə kimi fasiləsiz Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda Fəlsəfə və ictimai fikir tarixi şöbəsində elmi işçi, böyük elmi işçi, şöbə müdiri vəzifələrində işləmiş və hazırda baş elmi işçi vəzifəsində çalışır.

1969-cu ildə "Hürufilik və onun Azərbaycanda nümayəndələri" mövzusunda doktorluq dissertasiyası Azərbaycan məkanında ən böyük fəlsəfi cərəyanlardan birinə - hürufiliyə və Azərbaycanda onun görkəmli nümayəndələrinə həsr olunmuşdur. Sonralar onun bu qəbildən olan tədqiqatları sırasına "Nəsimi-Şərqin filosof və şairi", "Qasım Ənvərin dünyagörüşü" (1976), "Nizamişünaslıq və Şərq mədəniyyət tarixinin nəzəri problemləri" (1987), "VII-XVI əsrlər Azərbaycan fəlsəfə tarixindən" (1992), "Fizulişünaslığın problemləri" (2006) kimi əsərləri də daxil etmək olar.

Azərbaycan məkanında Qərb-Şərq problemi fəlsəfi aspektdə ilk dəfə Zümrüd Quluzadə tərəfindən "XIII-XVI əsrlər Şərq fəlsəfəsinin inkişaf qanunauyğunluqları və Şərq-Qərb problemi" monoqrafiyasında tədqiq olunmuşdur. O, ilk dördcildlik "Azərbaycan fəlsəfə tarixi"nin I, II, cildlərinin (qədim dövrdən XVIII əsr də daxil olmaqla) müəlliflərindən biri və məsul redaktorudur.

Zümrüd Quluzadə 1983-1986-cı və 1997-2010-cu illərdə Fəlsəfə və Hüquq İnstitutunun "Fəlsəfə və İctimai fikir" şöbəsinin müdiri, 1996-2005-ci illərdə Azərbaycan Fəlsəfə Cəmiyyətinin Fəlsəfə tarixi şöbəsinin rəhbəri olmuşdur. 1996-cı ildən onun təşəbbüsü ilə və təklif etdiyi elmi konsepsiyaya müvafiq nəşr edilən "Şərq fəlsəfəsi problemləri" beynəlxalq elmi-nəzəri jurnalın baş redaktorudur. 2010-cu ildən Rusiya Fəlsəfə Cəmiyyətinin üzvüdür.

Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" və Prezident təqaüdçüsüdür. 2015-ci ildə "Şöhrət" ordeni və "2000-ci ilin qadını" fəxri diplomu ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Gender Azərbaycanda: Azərbaycan, ingilis və rus dillərində /Z.Quluzadə; BMT-nin Əhali Fondu (UNFPA).- Bakı: [s. n.], 2006.- 324, [4] s.

Azərbaycanda XIX əsrdə fəlsəfi fikir /Z.Quluzadə //Xalq cəbhəsi.- 2014.- 21 iyun.- S.14.

Azərbaycan fəlsəfəsinin qədim dövrü: Fəlsəfi fikrin təşəkkülü və inkişafının ideya əsasları /Zümrüd Quluzadə //Xalq cəbhəsi.- 2014.- 28 fevral.- S.14.

Bir daha Azərbaycan tarixşünaslığının məxəzləri olan "Kitabi-Dədə Qorqud" dastanı və Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri haqqında /Z.Quluzadə //Respublika.- 2015.- 11 iyul.- S.6.

Zümrüd Əli Qulu qızı Quluzadə: Biobiblioqrafik göstərici: azərbaycan, rus, ingilis, türk, alman, fransız, ərəb və fars dillərində /tərt. ed. R.Nəcəfov; elmi red. İ.Məmmədzadə.- Bakı: [s.n.], 2015.- 151 s.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/fevral/355521.htm

http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/iyun/378763.htm

65 illiyi

Aydın Dadaşov 1952

Kinoşünas

Aydın Ərşad oğlu Dadaşov 1952-ci il mart ayının 1-də Ağdam şəhərində anadan olmuşdur. 3 saylı şəhər orta məktəbi bitirdikdən sonra 1968-1973-cü illərdə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1973-1974-cü illərdə "Azərbaycanfilm" kinostudiyasında iqtisadçı, bədii filmlər üzrə direktor kimi başlamışdır. 1975-1980-ci illərdə Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun dramaturgiya sənəti fakültəsində təhsilini davam etdirmişdir. Təhsilini başa vurduqdan sonra 1980-1984-cü illərdə "Azərbaycanfilm" kinostudiyasında redaktor olmuş, 1984-1986-cı illərdə Moskvada ali ssenari kursunu bitirmişdir. Bir müddət Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunun teatr və kino şöbəsində və Nizami adına Ədəbiyyat İnstitutunun nəzəriyyə şöbəsində işləmişdir.

"Azərbaycanfilm" və "Telefilm" kinostudyalarında 60-dan çox müxtəlif janrlı filmlərdə filmin direktoru, rejissoru, ssenari müəllifi kimi çalışaraq, "Mənim bəlalı sevgilim", "Yarımçıq qalmış mahnı", "Birisi gün gecəyarısı", "Gümüşü furqon", "Bulaq", "Tənha narın nağılı" və s. filmləri ərsəyə gətirmişdir. Eyni zamanda pedaqoji fəaliyyət göstərərək ali məktəblərdə dram nəzəriyyəsi, ekran dramaturgiyası və reklamşünaslıq fənlərini tədris etmişdir.

Azərbaycanda bir sıra ciddi şirkətlərin marketinq proqramlarının müəllifidir.

"Ekran dramaturgiyasında informasiya gerçəkliyi" mövzusunda namizədlik, "Ekran dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildə dosent, 2006-cı ildən isə professor elmi rütbəsinə yüksəlmişdir.

Bir çox dərslik və monoqrafiyaların müəllifidir: "Müasir Azərbaycan dramaturgiyası" (dərslik, Bakı, 2012), "Qarabəy Qarabəyov" (monoqrafiya "Letterpres" nəşriyyatı, 2012), "İran kinosunun inkişaf təmayülləri" (monoqrafiya "Elm" nəşriyyatı, 2012) və s.

Aydın Dadaşov 1987-ci ildə Dövlət Mükafatı laureatı olmuş, 2005-ci ildə isə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Hal-hazırda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışır.

Ədəbiyyat

Dramaturgiya: dərslik /A.Dadaşov; elmi red. X.Əlimirzəyev.- Bakı: BDU-nun nəşr, 2004.-320 s.

İran kinosunun inkişaf təmayülləri: monoqrafiya /A.Dadaşov; elmi red. İ.Kərimov.- Bakı: Elm, 2012.- 189, [3] s.

Kinoşünaslıq: dərslik /A.Dadaşov; elmi red. R.Bədəlov; rəyçi. N.Mehdi, A.Salayev; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Elm və Təhsil, 2009.- 539, [3] s.

Qarabəy Qarabəyov: Q.Qarabəyovun ictimai siyasi mühiti və idealları: monoqrafiya /A.Dadaşov; elmi red. T.Musayeva.- Bakı: Letterpress, 2012.- 266, [1] s.

Müasir Azərbaycan dramaturgiyası /A.Dadaşov; elmi red. B.Nəbiyev; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Elm və təhsil, 2012.- 303, [1] s.

Kinomuzun ilk qadın kinorejissoru: [Qəmər Salamzadə haqqında] /A.Dadaşov //525-ci qəzet.- 2013.- 13 sentyabr.- S.7.

İnternetdə

http://www.anl.az/down/meqale/525/2013/sentyabr/325697.htm

http://science.gov.az/http://web.anl.az/el/

70 illiyi

Vaqif Arzumanlı 1947-2014

Ədəbiyyatşünas alim

Ədəbiyyat

Azərbaycan diasporu: Reallıqlar, qayğılar, problemlər /V.Arzumanlı; red. V.Həbiboğlu; AMEA, Beynəlxalq Münasibətlər İns-tu.- Bakı: Qartal, 2001.- 800 s.

Beynəlxalq Münasibətlər İnstitutu-10 /V.Arzumanlı; elmi red. V.Həbiboğlu; AMEA, Beynəlxalq Münasibətlər İns-tu.- Bakı: Qartal, 2002.- 219 s.

Türk dünyası və "Böyük Ermənistan" xülyası /V.Arzumanlı, X.Baxşəliyeva; elmi red. M.Qasımlı; ön sözün müəl. H.Çetin.- Bakı: [s.n.], 2008.- 238, [2] s.

Professor Vaqif Arzumanlı - 60: Soraq kitabı /Red. İ.Vəliyev, tərt. ed.: O.İsmayılova, B.Əzizəliyeva; İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi Araşdırmalar Mərkəzi; AMEA.- Bakı: Qartal, 2007.- 705 s.

http://web.anl.az/el/Kitab/2013/2011-1890.pdf

http://www.anl.az/down/meqale/medeniyyet/2014/iyul/383258.htm

Vaqif Minad oğlu Arzumanlı 1947-ci il mart ayının 5-də Quba rayonunun Söhüb kəndində anadan olmuşdur. Xudat şəhərində onbirillik məktəbi qızıl medalla bitirdikdən sonra, ADU-nun filologiya fakültəsində təhsil almışdır (1964-1969). Ədəbi fəaliyyətə 1963-ci ildən "Ocaqçının söhbəti" oçerki ilə başlamışdır. 1965-1968-ci illərdə Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqı Kino aktyorluq studiyasının kino aktyoru fakültəsində oxumuşdur. Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutundan Litva EA Litva dili və ədəbiyyatı institutuna məqsədli aspiranturaya göndərilmiş, təhsilini davam etdirmişdir (1969-1973). Bakıya qayıtdıqdan sonra Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda böyük elmi işçi, eyni zamanda universitetdə SSRİ xalqları ədəbiyyatı kafedrasında müəllim işləmişdir.

1973-cü ildə "Azərbaycan-Litva əlaqələri" mövzusunda filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1974-cü ildə Litvanın Xalq şairi Salomeya Neris mükafatına layiq görülmüşdür. 1978-ci ildən Yazıçılar İttifaqının üzvü idi. 1980-1991-ci illərdə Azərbaycan EA SSRİ Xalqlar Dostluğu Respublika Sarayında "Ədəbi, mədəni və elmi əlaqələr" şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1984-cü ildə "Azərbaycan-Pribaltika ədəbi əlaqələri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1991-ci ildə Milli Münasibətlər İnstitutunun (Beynəlxalq Münasibətlər İnstitutunun) direktoru, 1992-ci ildən isə "Millimədəni etnodil prosesləri" şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1992-ci ildən Azərbaycan Dövlət Universitetinin Türk və şərqi slavyan xalqları ədəbiyyatı kafedrasının professoru adını almışdır.

1997-ci ildə anadan olmasının 50 illiyi münasibətilə Azərbaycan Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuşdur."Nizami Gəncəvinin dünya şöhrəti" monoqrafiyası Füzuli adına Beynəlxalq Mükafata təqdim edilmişdir. 1999-cu ildə Dağıstan Respublikası Dərbənd – "Gülüstan" Yazıçılar Birliyinin üzvü seçilmişdir. 2000-ci ildə "Nizami Gəncəvinin dünya şöhrəti" monoqrafiyası Təbrizdə fars dilinə tərcümə edilərək "Şöhrəti cahani Nizami" adı ilə nəşr olunmuşdur. 2000-ci ildə Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru olmuşdur. "Ədəbi əlaqələr" toplusunun baş redaktoru işləmişdir. 2001-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. 2002-ci ildə MEA-nın Fəlsəfə və Hüquqi Tədqiqatlar İnstitutunun "Avropa ölkələri" şöbəsinin müdiri olmuşdur. Milli qəhrəman Əlif Hacıyev adına və görkəmli türkoloq Bəkir Çobanzadə adına Beynəlxalq, eləcə də "Mir Cəlal Paşayev" mükafatlarına layiq görülmüşdür.

2014-cü ilin iyul ayında ağır xəstəlikdən sonra dünyasını dəyişmiş, Xudatda öz vəsiyyəti ilə atasının dəfn olunduğu "Şıxlar" qəbiristanlığında torpağa tapşırılmışdır.

75 illiyi

Cəfər Qiyasi 1942

Memar-alim

Cəfər Əli oğlu Qiyasi 1942-ci il mart ayının 24-də Ərdəbil şəhərinin Piləçay elinin Hüşnə kəndində anadan olmuşdur. 1946-cı ilin dekabr ayında Azərbaycan Milli Hökümətinin süqutundan sonra ailəsi ilə birlikdə Quzey Azərbaycana köçmüşdür. Orta təhsili Nuxa (indiki Şəki) şəhərində 5 saylı məktəbdə almış, 1961-1967-ci illər arasında Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində memar ixtisasına yiyələnmişdir. 1967-ci ildə "Soyuzkurortproyekt" İnstitutunun Qafqaz filialının Azərbaycan şöbəsində böyük mühəndis, 1968-ci ildə qrup rəhbəri vəzifələrinə təyin edilmişdir.

1968-ci ildə SSRİ Memarlar İttifaqına üzv qəbul edilmişdir. 1971-ci ildə Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun əyani aspiranturasına daxil olmuş, 1973-cü ildə "Abşeron boyları (Memarlıq haqqında söhbətlər)" adlı ilk kitabını çap etdirmişdir. 1978-ci ildə "Təbriz memarlıq məktəbi (XIII-XVII əsrlər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. C.Qiyasi 1985-ci ildə çap olunmuş "Yaxın-uzaq ellərdə (Orta əsr Azərbaycan memarlarının beynəlxalq əlaqələri haqqında)" kitabı ilə Azərbaycanın İslam dünyası memarlığının inkişafında necə önəmli rol oynadığını aydınlaşdırmışdır. Dahi şair Nizami Gəncəvinin 850 illik yubileyi münasibəti ilə C.Qiyasinin 1991-ci ildə yazdığı "Nizami dövrü memarlıq abidələri" monoqrafiyası orta əsr Azərbaycan memarlığının yüksək inkişaf mərhələlərindən olan Səlcuqlar dövrünün, XI-XIII yüzillərin memarlığını dolğun əks etdirən ən sanballı əsərdir. 1992-ci ildə Tarix və Mədəniyyət Abidələrinin Bərpası və İstifadəsi üzrə Elmi Tədqiqat Layihə İnstitutunun rektoru vəzifəsinə təyin edilmişdir. 1996-cı ildə Ankarada türk dilində nəşr edilmiş "Erməni kültür terroru" kitabında C.Qiyasi ermənilərin sistemli şəkildə Azərbaycan türk mədəni irsinə qarşı apardıqları terror problemini ilk dəfə elmi ictimaiyyətin nəzərinə çatdırmışdır. 1997-ci ildə "Memar Xacə Əlişah Təbrizi (dövrü və yaradıcılığı)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1999-cu ildə müəllifi olduğu İqdır şəhərində "Soyqırım anıtı və muzeyi" kompleksinin tikintisi tamamlanmışdır. Onun rəhbərliyi altında yaradılmış sənədlər əsasında 2000-ci il "İçərişəhər Qız Qalası və Şirvanşahlar sarayı ilə birlikdə" və 2007-ci ildə "Qobustan Milli Dövlət tarix-bədii qoruğu" abidələri YUNESKO-nun Dünya İrsi siyahısına daxil edilmişdir. 2000-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Abidələrin Bərpası Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru vəzifəsinə təyin edilmişdir. 2005-ci ildə Dünya Azərbaycanlıları Konqresinin "Bütöv Azərbaycan məfkurəsinə xidmət ödülü" və Ankarada 2009-cu ildə Türksoy xidmət binasına görə onur "Şərəf" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Erməni mənəvi terroru: Adlar dəyişsə də tarix qalır /C.Qiyasi, İ.Bozyel; red.: R.Məmmədli, D.Ramazanlı; İğdır Azərbaycan Türk Kültürünü Tanıtma Dərnəyi.- Bakı: Kitab klubu, 2007.- 36 s.

Memar Xacə Əlişah Təbrizi (Dövrü və yaradıcılığı): elmi məruzə şəklində memarlıq d-ru e. dər. a. üçün dis-ya: 18.00.01. /C.Qiyasi; Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu.- Bakı, 1997.- 78 s.

Nizami dövrü memarlıq abidələri /C.Qiyasi; elmi red. Ş.S.Fətullayev; rəy. R.M.Bayramov.- Bakı: İşıq, 1991.-264 s.

Cəfər Əli oğlu Qiyasi: biblioqrafik göstərici /AMEA, Mərkəzi Elmi Kitabxana tərt. İ.Səfərov; red. A.Əliyeva-Kəngərli, N.Bağırbəyova.- Bakı: Elm, 2003.- 140, [3] s. Azərbaycanın elm və mədəniyyət xadimləri

İ n t e r n e t d ə

http://science.gov.az/

60 illiyi

Elbrus Əlizadə 1957

Alim

Elbrus Kərim oğlu Əlizadə 1957-ci il mart ayının 4-də Ağdaş rayonunun Aralbir kəndində anadan olmuşdur. 1964-1974-cü illərdə Ağdaş şəhərində orta məktəbdə təhsil almışdır. 1974-1979-cu illərdə ADU-nun (indiki BDU) geologiya-coğrafiya fakültəsinin coğrafiya şöbəsində əyani təhsil almış və oranı fərqlənmə diplomu ilə bitirmişdi.

1984-cü ildə "Cənub-Şərqi Qafqazın cənub yamacının relyefinin kosmofotoşəkillərinin deşifrələnmə materiallarının tətbiqi ilə morfostruktur təhlil" mövzusunda namizədlik, 2004-cü ildə isə "Alp-Himalay qovşaq zonası mərkəzi hissəsinin Şərq seqmenti dağ sistemlərinin morfostruktur diferensiasiyası qanunauyğunluqları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Universiteti bitirdikdən sonra təyinatla Azərbaycan EA Coğrafiya İnstitutuna işə göndərilmişdir. Həmin institutda baş laborant vəzifəsindən bölmə müdiri, baş elmi işçi vəzifəsinədək yüksəlmişdir.

1992-ci ildən BDU-nun Coğrafiya fakültəsində müəzirə oxuyur. 2005-ci ildən həmin fakültənin Fiziki coğrafiya kafedrasının professorudur.

YUNESKO-nun nəzdində Rusiya Federasiyasının Vladiqafqaz şəhərində fəaliyyət göstərən "Dağların tarazlı inkişafı" elmi mərkəzinin Müşahidəçilər Şurasının üzvüdür. H.Əliyev ad. Coğrafiya İnstitutunun direktor müavini, coğrafiya elmləri doktoru, baş elmi işçidir.

Elbrus Əlizadə 2 monoqrafiyanın, 2 dərsliyin, 3 tədris vəsaitinin, 5 tədris proqramının, 150-dən artıq elmi məqalənin, bir neçə xəritə və 40-a yaxın elmi-metodiki vəsaitin müəllifidir.

Elbrus Əlizadənin əsərləri ABŞ-da, Böyük Britaniyada, İspaniyada, Slovakiyada, Rusiyada, Ukraynada, Qazaxıstanda, Türkmənistanda nəşr olunmuşdu.

2014-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Ə d ə b i y y a t

Экзоморфодинамика рельефа гор и ее оценка: (на примере северо-восточного склона Большого Кавказа) /Э.Ализаде, С.Тарихазер; науч. ред. Б.Будагов; НАН Азерб. Респ., Ин-т Географии им. акад. Г.А.Алиева.-Баку: [б. и.], 2010.-236 с.

Выявление «каркаса» морфотектонических блоков восточной части Малого Кавказа и сопредельных территорий по КС /Э.Ализаде //Геоморфология /АН СССР.- 1991.- № 4.- С.51-57.

Структура опасных геоморфологических процессов на Малом Кавказе (в пределах Азербайджана) /Э.Ализаде, С.Тарихазер //Вестник КРАУНЦ. Науки о Земле.- 2013.- № 1, вып. 21.- С.138-146.

İ n t e r n e t d ə

http://science.gov.az/
http://www.igaz.az/index.php/az/2012-12-04-15-19-23/2012-12-04-15-19-55/9-uncategorised/431-lizad-elbrus-k-rim-o-lu

95 illiyi

Zəhra Salayeva 1922-2005

Alim

Zəhra Məmməd qızı Salayeva 1922-ci il mart ayının 15-də Bakı şəhərində anadan olmuşdur. 1939-cu ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1943-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1953-cü ildə Azərbaycan Tibb İnstitutunda "Azərbaycanda neyromalyariya" mövzusunda dissertasiyanı müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1964-cü ildə tibb elmləri doktoru elmi adını, 1967-ci ildə professor elmi rütbəsini almışdır.

Tədqiqatı, əsasən, Azərbaycanda neyromalyariyaya, hemorragik ensafalitin klinika və patomorfologiyasına həsr edilmişdir.

1967-ci ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Sinir xəstəlikləri kafedrasının müdiri vəzifəsinə seçilmiş və bu vəzifədə 1989-cu ilə qədər fəaliyyət göstərmişdir.

Professor Zəhra Salayeva 160-a qədər elmi əsərin, 3 monoqrafiyanın, Azərbaycanda nevropatologiya və neyrogenetika üzrə 4 dərsliyin və bir neçə metodik tövsiyənin müəllifidir. Zəhra xanım Azərbaycanda neyroinfeksiyanın öyrənilməsi sahəsində Sinir xəstəlikləri kafedrasının ənənələrini davam etdirərək baş beynin iltihabı xəstəliklərinin daha tez-tez rast gəlinən formalarını özündə əks etdirən "Ensefalitlər" adlı iş və "Xoreya haqqında nə bilmək lazımdır?" adlı kitabça nəşr etdirmişdir.

Baş beynin damar patologiyasının təbabətində mühüm bir problem olduğunu nəzərə alaraq bu sahədə də bir sıra işlər görmüşdür ki, onlardan biri də "Beyin damarlarının xəstəlikləri və profilaktikası" adlı əsəridir.

Professor Zəhra Salayeva dəfələrlə ümumittifaq nevropatoloqlar və psixiatrlar elmi cəmiyyətinin rəyasət heyətinin üzvü seçilmişdir. O, "Böyük Tibbi Sovet Ensiklopediyasının" redaktorlarından biri, "Nevropatologiya və psixiatriya" jurnalının, "Azərbaycan Tibb Jurnalının", "Azərbaycan Sovet Ensiklopediyası"nın redaksiya heyətlərinin üzvi olmuş, Qafqaz regionunda ilk dəfə təşkil olunan İnsultla Milli Mübarizə Assosiasiyanın yaradıcısıdır.

1973-cü ildə Səhiyyə əlaçısı, 1979-cu ildə Azərbaycan Tibbi Genetiklər Cəmiyyətinin sədri olmuşdur, 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Ali Sovetinin 7-ci çağırış deputatı olmuşdur.

Zəhra Salayeva 2005-ci il noyabr ayının 28-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Beyin qan damarları xəstəlikləri, onların müalicə və profilaktikası /Z.M.Salayeva; red. M.İ.Məmmədəliyev; AzSSR Səhiyyə Nazirliyi, Resp. Sanitariya Maarifi Evi.- Bakı: [s.n.], 1964.- 19, [1] s.

Nevrologiyadan praktiki məşğələlər: Tibb İnstitutu və orta tibb məktəbləri üçün dərs vəsaiti /Z.M.Salayeva; AzSSR Səhiyyə Nazirliyi, N.Nərimanov adına Azərb. Döv. Tibb İn-tu.- Bakı: [s.n.], 1980.- 83, [1] s.

Nevroloji semiologiya: məlumat kitabı /Z.M.Salayeva, G.Ş.Hacıyev; [ixtisas red. L. Məmmədbəyova].- Bakı: Azərnəşr, 1982.-188, [4] s.

Sinir xəstəliklər: Tibb institutu tələbələri üçün dərslik /Z.M.Salayeva.- Bakı: Maarif, 1983.- 284 s.

İnternetdə

http://www.azerbaijans.com/content_1483_az.html

https://az.wikipedia.org/wiki/Z%C9%99hra_Salayeva

65 illiyi

Novruz Quliyev 1952

Alim

Novruz Məhəmməd oğlu Quliyev 1952-ci il mart ayının 22-də Cəbrayıl rayonunun Əmirvarlı kəndində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini, 1977-ci ildə isə SSRİ EA-nın Biokimya İnstitutunun aspiranturasını bitirmişdir.

1974-cü ildə əmək fəaliyyətinə Elmi-Tədqiqat Əkinçilik İnstitutunda başlamışdır. 1978-ci ildə biologiya elmləri üzrə namizədlik, 1992-ci ildə doktorluq alimlik dərəcələrini almışdır. 1981-ci ilin may ayından AMEA-da böyük, aparıcı elmi işçi vəzifələrində və eyni zamanda Botanika İnstitutunda laboratoriya müdiri vəzifəsində işləmişdir.

1995 və 2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Elmi nailiyyətləri ilk dəfə olaraq fototrof bakteriyalarda universal tənzimləyici sistem olan tsiklik adenozinmonofosfat sistemini aşkarlamış və bu sistemin həmin orqanizmlərdə rolu haqqında ilkin fikirlər söyləmişdir. Bitki mənşəli karboanhidraza fermentini kristal şəklində almış, fermentin strukturfunksional təşkilini hərtərəfli öyrənmiş və dördüncü quruluşunun molekulyar modelini təklif etmişdir. Fotosintetik fermentlərin bitkilərin ekstremal şəraitə uyğunlaşmasında və məhsuldarlıq proseslərində rolu aydınlaşdırılmışdır.

Professor N.Quliyev "Локализация ферментов малатдегидрогеназной системы в дифференцированных тыканьях листьев амаранта и участие их в формировании адаптации к условиям почвенной засухи" (Днепропетровск, 2013); "Effects of temperature and light intensity on photosynthetic enzyme activities in C4 species of Chenopodiaceae family in the natural environment" (Moscow, Russia, 2014); İşığın intensivliyinin, temperaturun və quraqlığın buğda yarpaqları malatdehidrogenazasının aktivliklərinin tənzimində rolu" (Bakı, 2013) və s. kimi əsərlərin həmmüəllifidir.

AMEA-nın Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

2005-ci ildən Ekologiya və Təbii Sərvətlər nazirinin müavinidir.

Ə d ə b i y y a t

Локализация ферментов малатдегидрогеназной системы в дифференцированных тыканьях листьев амаранта и участие их в формировании адаптации к условиям почвенной засухи /Бабаев Г., Мехвалиева У., Абыев Г., Гулиев Н. //Материалы III Международной Научно-метод. Конф.- Днепропетровск, 2013.- С. 88-91.

Activities of C4- photosynthetic enzymes in different wheat genotypes under continuous soil drought conditions /Babayev H., Bayramov Sh., Mehvaliyeva U., Aliyeva M., Guliyev N., Huseynova I., Aliyev J. //Journal of Biochemistry Research.- 2013.- Vol. 1 (1).- P.7-16.

İ n t e r n e t d ə

http://science.gov.az/

www.peakjournals.orq/sub-journals-JBR.html

65 illiyi

Paşa Qəlbinur 1952

Oftalmoloq

Paşa İsmayıl oğlu Musayev 1952-ci il mart ayının 30-da Şəmkir rayonunun Çinarlı kəndində anadan olmuşdur. 1958-1968-ci illərdə M.Müşfiq adına kənd orta məktəbini qızıl medalla bitirmiş, 1968-1975-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsilini davam etdirmişdir.

Təhsilini bitirdikdən sonra bir müddət, 1975-1977-ci illərdə Gəncə şəhər Göz Xəstəxanasında və 1 saylı Uşaq Poliklinikasında həkim-okulist işləmişdir. 1977-1978-ci illərdə N.Nərimanov adına Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasında baş laborant vəzifəsində çalışmış, təhsilini davam etdirmək üçün İ.M.Seçenov adına 1-ci Moskva Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının nəzdində əyani aspiranturaya qəbul olunmuşdur (1978-1981). 1981-1988-ci illərdə N.Nərimanov adına Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasında assistent, həm də ictimai peşələr fakültəsində dekan müavini işləmişdir.

1988-ci ildən həmin kafedranın professoru, 1991-ci ildən kafedranın müdiri olmuşdur.

Tibb elminə dair yüzdən çox elmi əsərin, on elmi kəşfin müəllifidir. Brüsseldə 51-ci Ümumdünya İxtiralar salonunda "Brüssel Evrika 2002" sərgisində oftalmologiyada yeni dərman preparatı "Aktirol"un kəşfi böyük qızıl medala və Belçika Maliyyə Nazirliyinin xüsusi prizinə layiq görülmüşdür.

P.Qəlbinur 1989-cu ildən Azərbaycan Alimlər İttifaqı İdarə Heyətinin, 1997-ci ildən Amerika və Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyinin idarə heyətinin üzvüdür. 1996-cı ildən Azərbaycan üzrə Nobel İnformasiya Mərkəzinin nəzdində Fiziologiya bölməsinin ekspertidir. 2001-ci ildə Dünya Türk Cümhuriyyətləri Oftalmoloji Birliyi Bilimsəl Qurumunun həmsədri seçilmişdir. 2005-ci ildən Rusiya Elmlər Akademiyasının fəxri doktorudur. 2008-ci ildən Dünya Azərbaycanlıları Konqresinin həmsədri seçilmişdir.

Paşa Qəlbinur eyni zamanda ədəbi fəaliyyətlə də məşğuldur. "Gözlər" adlı ilk şerini 13 yaşında ikən yazmışdır. 1978-ci ildə "Xal", "Ay gecəyə hicran sıxır", "Mən ilhamı gözlərimlə görmüşəm" adlı ilk şeirlər kitabları çap olunmuşdur.

1996-cı ildən "Araz" ali ədəbi mükafatın laureatıdır. 1999-cu ildə Yusif Məmmədəliyev adına mükafata, 2000-ci ildə "İman" izzət və iltifat diplomuna, ABŞ-ın Biblioqrafiya İnstitutunda keçirilən "2000 alim və intellektual" seçimində "İlin adamı" mükafatlarına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Göz xəstəlikləri: dərslik /P. Musayev Qəlbinur, S.Əliyeva, H.Qəhrəmanov; rəy.: K.T.Kəimov, R.V.Hacıyev.- Bakı: Təhsil, 2008.- 533, [3] s., [52] v. şək.

Qara su. Göz dağı: [miniatur romanlar] /P.Qəlbinur.- Bakı: [s.n.], 2012.- 287 s.

İbrahim Topçubaşov olduğu kimi /P.Qəlbinur //525-ci qəzet.- 2012.- 30 dekabr.- S.14-15.

Hilaloğlu, A. Gözlərə nur, könüllərə işıq bəxş edən insan /A.Hilaloğlu //Yeni həyat.- 2013.- 22-28 may.- S.2.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/525/2012/dekabr/287313.htm

110 illiyi

Azad Əfəndizadə 1907-1998

Akademik

Azad Əli oğlu Əfəndizadə 1907-ci ildə mart ayının 20-də Şamaxı şəhərində anadan olmuşdur. İlkin təhsilini Şamaxı realni məktəbində aldıqdan sonra, 1924-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun nəzdində nümunəvi məktəbi bitirmişdir. Həmin il Politexnik İnstitutuna daxil olmuş və təhsilini M.İ.Kalinin adına Leninqrad Politexnik İnstitutunda davam etdirmişdir. 1931-ci ildə institutu bitirdikdən sonra elektrik mühəndisi peşəsinə yiyələnmişdir.

1931-ci ildə əmək fəaliyyətinə başlayan Azad Əfəndizadə Bakıda və Sumqayıtda mühəndis, baş mühəndis, şöbə rəisi vəzifələrində çalışmışdır.

1938-ci ildə Sənaye İnstitutunun Elektrik maşınları kafedrasında işə başlamış, 1939-cu ildə isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının energetika sektorunda çalışmaqla yanaşı Azərbaycan Sənaye İnstitutunun aspiranturasına daxil olmuşdur.

1941-1944-cü illərdə Azərbaycan SSR EA-nın Kirovabad Elmi-Tədqiqat Bazasında direktor, 1952-1960-cı illərdə İ.Yesman adına Elmi-Tədqiqat Energetika İnstitutunun direktor müavini və direktoru olmuşdur. 1960-cı ildən həmin institutun idarəolunan elektrik intiqalları laboratoriyasına rəhbərlik etmişdir.

Azad Əfəndizadə 1945-ci ildə namizədlik, 1952-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1953-cü ildə ona professor elmi rütbəsi verilmiş, 1955-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1969-cu ildə isə həqiqi üzvü seçilmişdir.

O, avtomatik idarəetmə üzrə SSRİ milli komitəsinin Azərbaycan yerli şöbəsinin sədri, Beynəlxalq Avtomatika Terminologiya və Standartlar Komitəsinin üzvü, Sovet-Bolqar Dostluq Cəmiyyəti Azərbaycan şöbəsinin sədr müavini olmuşdur.

Akademik Azad Əfəndizadənin elmi fəaliyyətinin əsas istiqaməti elektrik sistemləri ilə bağlı idi. Alimin elmi nəticələri 2 monoqrafiyada və 250-dən çox elmi əsərdə öz əksini tapmışdır.

Azad Əfəndizadə elmi fəaliyyəti pedaqoji işlə əlaqələndirən tanınmış alim idi. O, 40 ildən artıq müddətdə Azərbaycan Dövlət Neft Akademiyasının professor olmuş və gənc kadrların yetişdirilməsində böyük xidmətlər göstərmiş, 50-dən artıq elmlər doktoru və namizədi hazırlamışdır. Ömrünün son illərində Azərbaycan Neft Akademiyasında işləmişdir. Bir sıra ixtiraların müəllifidir.

Akademik "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri təltif edilmiş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Azad Əfəndizadə 1998-ci il avqust ayının 12-də, ömrünün 92-ci ilində Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Avtomatik idarəetmə nəzəriyyəsi: ali texniki məktəblərin elektrotexnika ixtisasları tələbələri ücün dərslik /A.Əfəndizadə; elmi red. R.Əliyev; rəy verən Y.B.Qədimov.- Bakı: Maarif, 1981.- 349, [3] s.

Furye metodunun elektrotexnika məsələlərində tətbiqi /A.Əfəndizadə; red.: İ.İbrahimov, Z.Kazımzadə; Azərb. SSR EA.- Bakı: Elm, 1970.- 117, [3] s.

Azad Əfəndizadə: Nekroloq /Heydər Əliyev, M.Ələsgərov, A.Rasizadə, R.Mehdiyev, E.Əfəndiyev və b. //Azərbaycan.- 1998.- 13 avqust.- S.6.

İnternetdə

http://www.ameankpi.org/index.php?page=additionally&id=8&number=8

http://shamakhi-encyclopedia.z/%C9%99f%C9%99ndizad%C9%99-azad-%C9%99li-oglu/

20 illiyi

Azərbaycan Respublikası Milli Məclisinin Parlament Kitabxanası 1997

Müstəqillik illərində respublikamızın əldə etdiyi mədəni nailiyyətlərdən biri də Azərbaycan Respublikası Parlament Kitabxanasının yaradılmasıdır. 1994-cü ildən başlayaraq kitabxananı təşkil etmək, onun statusunu, vəzifələrini və strukturunu müəyyənləşdirmək üçün müxtəlif fikirlər, rəylər və layihələr meydana çıxdı. "Azərbaycan" qəzetinin 1994-cü il 26 oktyabr tarixli sayında "Azərbaycan Respublikasının Parlament Kitabxanası haqqında" qanunvericilik təşəbbüsü qaydasında tərtib edilmiş qanun layihəsi müzakirə üçün çap edildi. Parlament Kitabxanası haqqında qanunun yeni layihəsini hazırlamaq üçün üç nəfərdən ibarət komissiya yaradıldı. Kitabxananın nizamnaməsinin Milli Məclis tərəfindən təsdiqi onun hüquqi bazasının yaradılması üçün zəmin yaratdı. Nizamnamədə kitabxananın statusu, strukturu, vəzifələri müəyyənləşdirildi. Kitabxanaya Milli Məclis aparatının işçilərinə, mütəxəssislərə, ekspertlərə və Milli Məclis deputatlarına kitabxana-informasiya xidməti göstərən elmi kitabxana statusu verildi. Kitabxana ilk növbədə öz fondunda qanun yaradıcılığı üçün zəruri olan hüquqşünaslığa və qanunçuluğa dair ədəbiyyatı, beynəlxalq hüquqi ədəbiyyatı, qanunlar külliyatını, məlumat kitablarını, ayrı-ayrı ölkələrin ensiklopediyalarını, lüğətlərini, sahəvi ensiklopediyaları toplamalı, qanun yaradıcılığının informasiya bazası kimi fəaliyyət göstərməli idi.

Kitabxananın yaradılmasında Türkiyə Respublikasının Böyük Millət Məclisinin mühüm rolu olmuşdur. TBMM-in kitabxanası Azərbaycan Parlament Kitabxananın təşkilinə mühüm metodik köməklik etmiş, qiymətli hüquqi kitablar və qanunvericilik külliyatlarını kitabxanaya bağışlamış, həmçinin müasir kitabxana-informasiya avadanlığı, stollar, stullar, kitab rəfləri, ən mühümü isə yeni tipli kompüterlər hədiyyə etmişdir.

1997-ci ilin mart ayında Parlament Kitabxanasının rəsmi açılışı oldu. Hazırda kitabxananın fondunda 5 minə qədər kitab vardır. Bu kitabların 2500 nüsxəsi Azərbaycan, 1200 nüsxəsi rus, 800 nüsxəsi isə türk dilindədir. Kitab fondu məcburi nüsxələr və yeni ədəbiyyatın alınması yolu ilə komplektləşdirilir. Kitabxana dövri mətbuatla komplektləşmə işinə ciddi fikir verir. Kitabxana Fondunun əsas hissəsini hüquqi ədəbiyyat və məlumat ədəbiyyatı təşkil edir. Kitabxana fondu az da olsa bədii ədəbiyyatla da komplektləşdirilir. Kitabxananın daimi oxucuları Milli Məclis aparatının işçiləri və deputatlardır. Onların sayı 200 nəfərə yaxındır. İl ərzində 1000-1200 oxucu sorğusuna cavab verən kitabxana İnternet şəbəkəsinə qoşulmuş, beynəlxalq əlaqələr yaratmağa müvəffəq olmuşdur. Hazırda Rusiya Federasiyasının Duma Kitabxanası, Ukrayna, Belarusiya, Qazaxıstan və Tacikistanın parlament kitabxanaları ilə rəsmi sənədlərin və çap əsərlərinin mübadiləsini həyata keçirilir. Azərbaycan Parlament Kitabxanası Türkiyə Böyük Millət Məclisinin parlament kitabxanası ilə qarşılıqlı əlaqələrə malikdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublika Milli Məclisinin Parlament Kitabxanası //Azərbaycan Kitabxana Ensiklopediyası.- Bakı, 2015.- S.80.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1_Milli_M%C9%99clisinin_kitabxanas%C4%B1

http://www.meclis.gov.az/?/az/content/256

Beynəlxalq Qadınlar Günü
1910

Dünyanın bir çox ölkələrində 8 mart Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Tarixə nəzər salsaq qadın hərəkatının tarixi 1857-ci ildə Nyu Yorklu qadınların 12 saatlıq iş gününə etirazı ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib.

Türk etnoslarında, Azərbaycanda-Oğuz ellərində qadın, ana müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur. Azərbaycan qadını qəhrəmanlıq göstərmiş, hökmranlıq etmiş, diplomat kimi fəaliyyət göstərmişdir. Massaget hökmdarı Tomiris torpaqlarımıza qəsbkar yürüş etmiş Əhəməni hökmdarı II Kiri məğlub etmişdi. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatın qonşu dövlətlərin hökmdarları ilə danışıqlar aparmış, siyasət və diplomatiya meydanında onlara qalib gəlmişdir.

Müstəqillik əldə edildikdən sonra qəbul olunan Konstitusiyamızın 25-ci maddəsinin ikinci hissəsində də kişi ilə qadının eyni hüquqları və azadlıqları təsbit olunmuşdur. Azərbaycan Respublikası 1992-ci il avqustun 4-də "Qadınların siyasi hüquqları haqqında", 1952-ci il BMT Konvensiyasına və 1995-ci il iyunun 30-da "Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında", 1979-ci il tarixli BMT Konvensiyasına qoşulmuşdur.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu 10 oktyabr 2006-cı il tarixində qəbul edilmişdir.

Bu gün Azərbaycan qadınları ölkənin ictimai-siyasi, elm, təhsil və mədəni həyatında yüksək fəallığı, zəngin biliyi, vətənpərvərliyi, dövlətçilik ənənələrinə sədaqəti və mərdliyi ilə seçilirlər. Müasir Azərbaycan qurucusu, ümummilli liderimiz Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qadınlara yüksək qiymət verərək demişdir: "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, qadınsız həyat ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik". Dövlət Qadın siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi isə Azərbaycan qadınlarının məsuliyyətini daha da artırır. Qadınların ictimai-siyasi həyatdakı fəallığı ilbəil yüksəlir. Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir, mötəbər kürsülərdə çıxış edir.

Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının nə qədər fəal olduğunu təsdiq edir. Qərb dünyası Mehriban xanım Əliyevanın timsalında Şərqin ağıllı, müdrik, peşəkar bir siyasətçisinin obrazını görür.

Azərbaycan qadınları mühüm dövlət qurumlarında uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

Ədəbiyyat

Əliyev, İ. 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik /İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti //Azərbaycan.- 2016.- 5 mart.- S.1.

Bayramınız mübarək, əziz qadınlar! //Azərbaycan müəllimi.- 2016.- 5 mart.- S.7.

Bütün qadınlar xoşbəxtliyə layiqdirlər: 8 mart - Beynəlxalq Qadınlar günüdür //Yeni həyat.- 2014.- 7-13 mart.- S.1;4.

İnternetdə

http://www.aztv.az/readnews.hp?lang=az&id=8962

Milli Teatr Günü
1873

XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F.Axundzadənin "Sərgüzəşti-vəzirixani Lənkəran" komediyası tamaşaya qoyulmuşdu.

Bu şərəfli işdə H.Zərdabi və N.Vəzirov mühüm rol oynamışdılar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu. Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Hələ eramızdan əvvəl xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdı. XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərmişdilər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı. Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H.Z.Tağıyevin böyük xidməti oldu. O, Bakı şəhərində ilk teatr binası inşa etdirib.

Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Leyla Bədirbəyli, Hökümə Qurbanova kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. Cümhuriyyət hökümətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının yaradılması oldu.

Bu, Azərbaycan peşəkar teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N.Nərimanovun "Nadir Şah" faciəsinin tamaşası ilə açılmışdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında "Milli Teatr Günü"nün təsis edilməsi haqqında 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Azərbaycan dövlətinin teatr sənətinə göstərdiyi qayğının miqyası günü-gündən artır. Bəllidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 dekabr 2006-cı il tarixində "Teatr və Teatr Fəaliyyəti Haqqında" Azərbaycan Respublikasının Qanununu imzalayıb. Prezident İlham Əliyevin 2007-ci ildə "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" imzaladığı Sərəncam da teatr sənətinə böyük təkan verib. Teatrşünaslar qeyd edir ki, dövlət başçısının mədəniyyətimizə himayəsi Azərbaycan incəsənətində yaradıcılıq əhval-ruhiyyəsini artırıb. Teatrın inkişafı üçün Dövlət Proqramı uğurla həyata keçirilir. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, Dövlət Rus Dram, Dövlət Gənc Tamaşaçılar, Dövlət Akademik Milli Dram, Dövlət Musiqili teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılıb və artıq istismara verilib. Azərbaycan teatrı dünya standartlarına uyğun səviyyədə müasir avadanlıqlarla təchiz olunur.

Ə d ə b i y y a t

Kərimov, İ. Azərbaycan teatr tarixi: 3 cilddə /İ.Kərimov; red. T.Əfəndiyev; rəyçilər: İ.Rəhimli, R.Sadıqov, N.Həbibov, Ə.İsazadə.- Bakı: Elm, 2008.- C.I.- 724 s.
Azərbaycan teatrı yeni inkişaf mərhələsini yaşayır Azərbaycan Prezidentinin Sərəncamı ilə hər il 10 mart "Milli Teatr Günü" kimi qeyd edilir //Səs.- 2015.- 8 mart.- S.12.
http://www.anl.az/down/meqale/ses/2015/mart/425239.jpg

Beynəlxalq Novruz Günü

BMT Baş Assambleyası 2010-cu il fevral ayının 21 mart tarixini mədəniyyətlərarası dialoq və qarşılıqlı anlaşmanı həvəsləndirməyə istiqamətləndirən bayram kimi Beynəlxalq Novruz Günü elan etmişdir. Beynəlxalq Novruz Günü münasibətilə hazırlanan qətnamənin preambula hissəsində bildirilir ki, "yeni gün" mənasını verən, martın 21-də, gecə və gündüzün bərabərləşdiyi gün qeyd olunan Novruz, bütün dünyada 300 milyon nəfərdən artıq şəxs tərəfindən yeni ilin başlanğıcı kimi qəbul olunur.

Bu bayram artıq 3000 ildir ki, Balkanlarda, Qara dəniz hövzəsi regionunda, Qafqazda, Mərkəzi Asiya, Yaxın Şərq və digər regionlarda qeyd olunur. Azərbaycan xalqının tarixin qədim qatlarında yaratdığı, dilimizi, zəngin folklorumuzu özündə yaşadan Novruz bayramı azərbaycançılıq ideyasını, xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirir. Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Təsadüfi deyil ki, Novruz bayramı dünyanın qeyri-maddi mədəni irsi kimi YUNESKO-nun siyahısına daxil edilmişdir.

Novruz ənənələrinə görə, çərşənbələrdə tonqalın üstündən tullanmaqla insanlar bütün ağırlığını-uğurluğunu, əziyyətlərini, eyni zamanda pis xasiyyətlərini, mənfi tərəflərini köhnə ildə qoyub yeni ilə, yeni günə qədəm qoyar, bayram günü küsülülər barışar, insanlar bir-birlərinə qonaq gedər. Bu dəyərlər geniş mənada təkcə cəmiyyət daxilində deyil, eyni zamanda ölkələr arasında anlaşmanı, sülhü təcəssüm etdirir. Bu baxımdan Novruz bayramını, onun milli özəllikləri ilə yanaşı, sülh və barış kimi bəşəri dəyərlərin təcəssümü olaraq dünyaya tanıtmaq, təbliğ etmək çox əhəmiyyətlidir.

Azərbaycan xalqının milli-mənəvi irsinin təcəssümü olan Novruz bayramının dövlət səviyyəsində təkcə ölkəmizdə deyil, dünyada soydaşlarımız yaşadıqları ölkələrdə də qeyd edilməsi çox sevindiricidir. Dünyada Novruz təntənələrini keçirməklə bu bayramın timsalında xalqımızın tarixi dəyərləri, adət-ənənələri təbliğ edilir. Bu isə nəticə etibarilə Azərbaycanın təbliği deməkdir.

Ə d ə b i y y a t

Azərbaycanda Novruz.- Bakı: Çıraq, 2012.- 271 s.

Azərbaycanın xalq bayramı Novruz: bələdçi kitab /layih. rəhb. Ə.Qarayev; mətnin müəl. Ə.Vəliyev, V.Bəhmənli.- Bakı: Təhsil, 2011.- 208 s.

Abdullayeva, S. Novruz - beynəlxalq karnavallar statusunda /S.Abdullayeva //Mədəniyyət.az.- 2016.- № 3.- S.94-97.

Mehparə. Dünyada Novruz şöləni: TÜRKSOY-un beynəlxalq layihəsi uğurla başa çatdı /Mehparə //Mədəniyyət.-2015.- 1 aprel.- S. 9.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/medeniyyet/2015/aprel/427867.htm

Beynəlxalq Teatr Günü 1948

Teatrın vətəni qədim Yunanıstandır. Yunan dilində "tamaşa yeri" mənasını verir. Yunanıstanda qədim zamanlarda şərabçılıq tanrısı Dionisin şərəfinə təntənəli bayramlar keçirilirdi. Azad yunanlar şəhər və kəndlərin küçələrində təntənəli gəzintilər təşkil edir, Dionis haqqında əfsanələrdən bütöv səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilərdi. Tamaşaçılar isə yamacda yer tutub otururdular. Təpənin ətəyində yunanca "skena" adlanan çadır qurulurdu. Burada aktyorlar paltarlarını dəyişirdilər. Sonralar çadır əvəzinə kiçik bina tikdilər. Tamaşa vaxtı burada dekorasiyalar asırdılar. Binanın qarşısında aktyorların və xorun çıxış etməsi üçün meydança - orkestra düzəldirdilər.Beləliklə, e.ə. V əsrdə Yunanıstanda teatr binaları tikməyə başladılar. Qədim yunanlar teatrı çox sevir, onu "böyüklər üçün məktəb" adlandırırdılar. Tamaşalar yarış səciyyəsi daşıyırdı. Aktyorlar tamaşanın məzmununa uyğun maskalar taxırdılar. Parlaq rəngli maskaları ən arxa cərgələrdə belə oturanlar yaxşı görürdülər. Aktyorlar səhnədə hündür görünməkdən ötrü qalın altlığı olan xüsusi ayaqqabılar geyirdilər.Hələ o vaxtlar da qadın rollarını kişilər oynayırdılar. Hər il iki-üç teatr tamaşası göstərilir və hər tamaşa üç gün səhərdən axşamadək davam edirdi. Qədim yunan əfsanələri teatra olduqca zəngin mövzu verirdi. Əfsanələr əsasında tragediyalar adlanan pyeslər yaranırdı. "Tragediya" sözü yunanca "keçilər mahnısı" deməkdir. Tragediyalarda qəhrəmanlar arasında gedən kəskin mübarizə, onların iztirabları, faciəsi təsvir edilirdi. İlk tragediyaları "faciənin atası" adlandırılan Esxil yazmışdır. Esxillə bir dövrdə yaşamış digər faciə ustası olan Sofokl "Antiqona" tragediyasının müəllifdir. Gülməli səhnəciklərdən şən və məzəli pyeslər - komediyalar yarandı. "Komediya" yunan sözü olub, "şən sakinlərin mahnısı" mənasını verir. Yunanlar tamaşa günündə sübh tezdən yemək-içmək götürüb teatra toplaşardılar. Tamaşa qurtardıqda xüsusi komissiya tamaşaçıların rəyini nəzərə alaraq qələbəni ən yaxşı pyes müəllifinə və ən yaxşı aktyorlara verirdi. Onlar çələnglə və qiymətli hədiyyələrlə mükafatlandırılırdılar. Pyes müəllifləri son dərəcə böyük hörmətə malik idilər. Afina teatrında Esxilə və Sofokla heykəl qoymuşdular. Onları "müdriklik dahiləri" adlandırırdılar. Aristofan teatrın rolunu belə qiymətləndirirdi: "Müəllimlər oğlanlara ağıl öyrətdikləri kimi, şairlər də böyükləri tərbiyə edirlər". Teatr sonralar qədim Romada, Şərq ölkələrində - Çində, Hindistanda, Yaponiyada geniş yayıldı.

Ümumilikdə teatr, onun yaranma tarixi və missiyasına nəzər saldıqda bir mənzərə aydın olur: teatr hər bir xalqın özünü ifadə vasitəsidir. Elə buna görə də onun meydana gəlişi xüsusi bir günlə beynəlxalq miqyasda qeyd olunmaqdadır. 1948-ci ildən teatr ictimaiyyəti rəsmi olaraq UNESCO-nun himayəsi altında Beynəlxalq Teatr İnstitutunda birləşməyə başladı. Beynəlxalq Teatr İnstitutunun 1961-ci il martın 27-də Vyanada gerçəkləşən IX konqresi isə dünya sənət təqviminə əlamətdar bir gün bəxş etdi. 27 mart Beynəlxalq Teatr Günü elan edildi. Bu gün bütün dünyada "Teatr xalqlar arasında əməkdaşlıq və sülhün qorunması vasitəsidir" devizi ilə keçirilir və hər il bu münasibətlə nüfuzlu sənət xadimləri dünya ictimaiyyətinə müraciət edirlər. Bu ənənənin əsasını isə fransalı yazıçı Jan Kokto 1962-ci ildə qoyub.

Ə d ə b i y y a t

Həmidə. Dünya teatr bayramı /Həmidə //Mədəniyyət.- 2014.- 28 mart.- S.5.

Mirməmməd, G. Şəki I Beynəlxalq Teatr Festivalı başa çatdı: Sənət bayramının son günü Şəkidə unudulmaz aktyor Lütfəli Abdullayevin büstü açıldı /G.Mirməmməd //Mədəniyyət.-2014.- 24 sentyabr.- S. 9.

Süleymanova, A. Beynəlxalq Teatr günü: 27 mart 2014-cü il /A.Süleymanova //Kaspi.-2014.- 28 mart.- S.11.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/medeniyyet/2014/mart/359162.htm

http://edebiyyat.biz/az/view/5076/beynelxalq-teatr-gununun-qisa-tarixi/?

http://www.anl.az/down/meqale/kaspi_az/2014/mart/359796.htm

Azərbaycanlıların soyqırımı günü 1918

Azərbaycan torpaqları hesabına dövlət quran ermənilər tarixin bütün mərhələlərində xalqımıza qarşı bəşəriyyətə, insanlığa yaraşmayan qanlı əməllər törədiblər. Xalqımız XIX əsrdən başlayaraq müxtəlif dövrlərdə erməni şovinizminin təcavüzünə məruz qalsa da, dünya ictimaiyyəti, xüsusən də Qərb ölkələri əslində nəyin baş verdiyini dilə gətirməkdən yayınıbdır. Bundan yararlanan ermənilər isə "məzlum xalq" pərdəsi arxasında nəinki Qafqazda və Azərbaycanda, dünyanın əksər ölkələrində qanlı hadisələrə, soyqırımlarına və terrora imza atıblar.

Ümumiyyətlə, erməni millətçiliyi və separatizmi Azərbaycanda işğalçılıq niyyətlərini həyata keçirmək, tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün hərbi və ideoloji vasitələrdən yararlanıbdı. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci illər hadisələri zamanı Bakıda və digər bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı siyasətinin ilkin mərhələsi idi. 1915-ci ildən 1920-ci ilədək olan dövrə təsadüf edən ikinci mərhələdə erməni quldur dəstələri yenə Bakıda və Azərbaycanın müxtəlif bölgələrində misli görünməmiş soyqırımı cinayətləri həyata keçiriblər. Həmin dövrdə minlərlə azərbaycanlı, həmçinin etnik azlıq təşkil edən dağ yəhudiləri də soyqırımına məruz qalıb, yüzlərlə kənd dağıdılıb, dinc əhali qaçqın vəziyyətinə düşüb.

Ermənilərin həyata keçirdikləri soyqırımı, deportasiya və etniktəmizləmə siyasəti nəticəsində Azərbaycan 1918-1929-cu illərdə 29,8 min kvadrat kilometr ərazisini itirmişdir, 1991-1993-cü illərdə isə 20 faiz ərazimiz işğal edilmişdir. 2,5 milyon nəfər azərbaycanlı, soyqırımı və deportasiya cinayətlərinin qurbanı olmuşdur. 1918-ci ilin qırğınları ermənilərin xalqımıza qarşı törətdikləri çoxsaylı soyqırımı cinayətlərindən biridir. Həmin ilin mart-aprel aylarında ermənilər Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda 50 mindən artıq azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə insanı yurd-yuvasından didərgin salmışlar. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmiş, 1919-cu və 1920-ci illərdə mart ayının 31-i milli matəm günü kimi qeyd edilmişdir. Xalqımızın məruz qaldığı soyqırımı əsl siyasi-hüquqi qiymətini Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra aldı. Qanlı faciə ilə bağlı ən böyük siyasi sənəd yalnız hadisədən 80 il sonra qəbul edildi. Xalqımızın

ümummilli lideri Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla ilk dəfə olaraq dövlət səviyyəsində 1918-ci ilin qırğınlarına siyasi qiymət verildi. Ən əsası, bu fərman terrorizmə, soyqırımına qarşı mübarizə aparmaq üçün ulu öndərin müəyyən etdiyi bir yoldur. Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənədlə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Lakin artıq dünya ictimaiyyəti reallığı dərk etməyə başlayıb. Bunun da əsas səbəbi Azərbaycan dövlətinin erməni yalanlarının ifşası ilə bağlı həyata keçirdiyi sistemli və ardıcıl fəaliyyətdir. Artıq bu istiqamətdə müəyyən uğurlardan da danışmaq olar. Bu uğurlar Prezident İlham Əliyevin hücum diplomatiyasının nəticəsidir. Prezident İlham Əliyev bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən ermənilər ifşa edir. Hər bir azərbaycanlının mühüm vəzifələrindən biri bu fəaliyyətə yaxından dəstək vermək, xalqımıza qarşı həyata keçirilən soyqırımı cinayətləri haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu hadisələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaqdır. Çünki bu, bizim soyqırımı cinayətlərinin qurbanı olan soydaşlarımızın ruhu qarşısında müqəddəs borcumuzdur.

Ə d ə b i y y a t

Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi /[müəl. İ.Hüseynli və b.]; ideya rəhbəri R.Mehdiyev; red. Ə.Həsənov; burax. məs. B.Sadıqov.- Bakı: [s.n.], 2012.- C.I.- 444 s.; C.II- 422 s.

Həmidov, H.Azərbaycanlıların soyqırımı erməni terrorizminin tərkib hissəsi kimi /H.Həmidov; elmi red. R.Mirzəzadə; red. T.Quliyev..- Bakı: Qartal, 2015.-58 s.

İsgəndərov, A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı: 1918-1920 /A.İsgəndərov; elmi red.: Y.Mahmudov, F.İbrahimli; xüsusi red. Ş.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 396 s.

31 Mart Azərbaycanlıların soyqırımı günüdür: məqalələr toplusu: [elmi - praktik seminar] /Azərb. Resp. Nazirlər Kabineti yan. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Elmi-Mədəni Mərkəz ; elmi red. V. Quliyeva .-Bakı: Elm və təhsil, 2015.-231 s.

Abdullayev, A. 31 Mart - tarixin qanlı səhifəsi /A.Abdullayev //İki sahil.- 2016.- 30 mart.- S.10.

Cavanşir. "31 Mart - Azərbaycanlılara qarşı soyqırımı günüdür" /Cavanşir //Azad Azərbaycan.- 2016.- 1 aprel.- S.5.

Köçərli, X. Azərbaycan xalqına qarşı erməni-daşnak vəhşilikləri: 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü /X. Köçərli //Xalq qəzeti.- 2016.- 31 mart.- S.4.

Мархулия, Г. Геноцид Азербайджанцев /Г. Мархулия.-Тбилиси: [Меридиани], 2015.-625 с.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2015/mart/427660.htm

http://www.anl.az/down/meqale/iki_sahil/2016/mart/483520.jpg

http://www.anl.az/down/meqale/az_azerbaycan/2016/aprel/483210.jpg

APREL

21 mart-
20 aprel

Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

Ş.	1
B.	**2**
B.E.	3
Ç.A.	4
Ç.	5
C.A.	6
C.	7
Ş.	8
B.	9
B.E.	10
Ç.A.	11
Ç.	12
C.A.	13
C.	14
Ş.	15
B.	16
B.E.	17
Ç.A.	18
Ç.	19
C.A.	20
C.	21
Ş.	22
B.	23
B.E.	24
Ç.A.	25
C.	26
C.	27
Ş.	28
B.	29
B.E.	30

- *Ümumdünya Gülüş Günü (01.04.1564)*
- ***Kəlbəcər rayonunun işğalı günü (02.04.1993)***
- *Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)*
- *Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)*
- *Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)*

300 il Molla Pənah Vaqif 1717-1797

Qarabağ xanının vəziri olmuş Vaqif kimi bir el sənətkarının yaradıcılığına sovet dövründə dövlət səviyyəsində yüksək qiymətin verilməsi Heydər Əliyev müdrikliyinin bəhrəsi idi. Ulu öndər bununla, həm də Şuşanı Azərbaycanın qədim mədəniyyət və musiqi beşiyi kimi dəyərləndirirdi. Məqbərənin açılışında Heydər Əliyevin geniş nitqində söylədiyi: "Vaqifin vəfatından 200 il sonra biz Şuşada onun məzarı üzərində əzəmətli bir məqbərə ucaltdıq. Bu, həm Vaqifin yaradıcılığına, həm də, ümumiyyətlə, ədəbiyyata, şeirə, mədəniyyətə olan münasibətimiz idi" sözləri çoxəsrlik Azərbaycan poeziyasına və Vaqifin yaradıcılığına verilən bir qiymət idi.

Heydər Əliyev abidənin tikintisini öz həyatında böyük, əlamətdar hadisə hesab edirdi. Ona görə də açılışa gedərkən yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu aparmışdı. Bu addımı ilə Azərbaycan rəhbəri ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə çıxmalarını tövsiyə edirdi. H.Əliyev türbəni açaraq parlaq nitq söylədi. Bu nitq Azərbaycan rəhbərinin Dağlıq Qarabağa qayğısının göstəricisi idi. Səfər zamanı Heydər Əliyev eyni zamanda Şuşada Poeziya Evini açdı və Vaqif Poeziya Günlərində iştirak etdi. Poeziya evinə toplaşanlarla keçirilən görüşdə H.Əliyev dedi: "Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya Evi də açılmışdır".

Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev müdrik addımı ilə həm də bədnam qonşularımıza bir daha qətiyyətlə çatdırırdı ki, Vaqifin məqbərəsi Azərbaycan ruhunun, poeziyasının simvoludur. O vaxtlar Vaqif Poeziya Günləri Qazaxdan başlanıb Şuşada - məqbərənin önündə başa çatardı. İnanırıq ki, ulu öndərin saldığı o möhtəşəm cığırlardakı tikanlar tezliklə təmizlənəcək, biz yenə də qədim və doğma şəhərimizə qayıdacağıq.

APREL

2017

Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair Cəfərov Ayaz Rza oğlunun (Ayaz Vəfalı) (01.04.1937) anadan olmasının 80 illiyi
Yazıçı, publisist, Əməkdar jurnalist Mirzəyev Osman Mirzə Hüseyn oğlunun (13.04.1937-20.11.1991) anadan olmasının 80 illiyi 116
Nasir, tərcüməçi Qasımov Əli Camal oğlunun (Əli Səbri) (15.04.1892-19.02.1983) anadan olmasının 125 illiyi 117
Şair, publisist Əkbərov Əkbər Qurban oğlunun (Əkbər Məftun) (15.04.1912-14.09.1990) anadan olmasının 105 illiyi 118
Xalq şairi, Əməkdar incəsənət xadimi Hüseynov Məmməd Rahim Abbas oğlunun (Məmməd Rahim) (20.04.1907-06.05.1977) anadan olmasının 110 illiyi 119

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Axundov İsmayıl Hüseyn oğlunun (15.04.1907-13.09.1969) anadan olmasının 110 illiyi 120
İtalyan boyakarı Leonardo da Vinçinin (15.04.1452-02.05.1519) anadan olmasının 565 illiyi

Musiqi.Opera.Balet

SSRİ Xalq artisti, müğənni Məmmədova Şövkət Həsən qızının anadan olmasının (18.04.1897-08.06.1981) 120 illiyi 121
Xalq artisti, dirijor, librettoçu Bədəlbəyli Əfrasiyab Bədəlbəy oğlunun (19.04.1907-06.01.1976) anadan olmasının 110 illiyi 122
Əməkdar incəsənət xadimi, musiqişünas İsmayılov Məmmədsaleh Cəmil oğlunun (22.04.1912-10.05.1994) anadan olmasının 105 illiyi
Əməkdar artisti, professor, Azərbaycan arfa ifaçılığı məktəbinin yaradıcısı Abdullayeva Aida Həmdulla qızının (23.04.1922-2010) anadan olmasının 95 illiyi 123
Xalq artisti, tarzən Quliyev Ramiz Əyyub oğlunun (30.04.1947) anadan olmasının 70 illiyi 124

Teatr.Kino

Xalq artisti, rejissor Əsədov Vaqif Firudin oğlunun (Vaqif Əsəd) (05.04.1947) anadan olmasının 70 illiyi 125
Əməkdar artist, aktyor Dadaşov Məmmədağa Ağakərim oğlunun (12.04.1912-03.12.1996) anadan olmasının 105 illiyi
Xalq artisti, aktrisa Qədri Fatma Qədir qızının (14.04.1907-29.02.1968)

anadan olmasının 110 illiyi 126

Bədii qiraət ustası, pedaqoq, aktyor, rejissor Əbluc Həsən Abbasqulu oğlunun (22.04.1942-13.03.1994) anadan olmasının 75 illiyi 127

Xalq artisti Osmanlı İsmayıl Osman oğlunun (24.04.1902-22.06.1978) anadan olmasının 115 illiyi 128

Əməkdar incəsənət xadimi, rejissor Əzimzadə Gülbəniz Yusif qızının (26.04.1947-07.12.2006) anadan olmasının 70 illiyi 129

Xalq artisti Sadıqova Məhluqə Ələsgər qızının (28.04.1917-15.08.2003) anadan olmasının 100 illiyi 130

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Eyvazov Qorxmaz Abış oğlunun (01.04.1967-10.02.1994) anadan olmasının 50 illiyi 131

Əməkdar jurnalist, Azərbaycanın Milli Qəhrəmanı Mustafayev Alı Mustafa oğlunun (14.04.1952-19.11.1991) anadan olmasının 65 illiyi 132

Azərbaycanın Milli Qəhrəmanı Teymurov Rizvan Rəhman oğlunun (16.04.1967-09.12.1991) anadan olmasının 50 illiyi 133

Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Rasim Səxavət oğlunun (18.04.1962-26.06.1992) anadan olmasının 55 illiyi 134

Azərbaycanın Milli Qəhrəmanı Mədətov Fariz Ələvsət oğlunun (18.04.1972) anadan olmasının 45 illiyi 135

Azərbaycanın Milli Qəhrəmanı Cəbrayılov Mikayıl Əhmədiyyə oğlunun (27.04.1952-06.06.1990) anadan olmasının 65 illiyi 136

Mədəniyyət.Maarif.Təhsil

Filologiya elmləri doktoru, professor Quliyeva Lalə Hüseyn qızının (05.04.1942) anadan olmasının 75 illiyi

Ədəbiyyatşünas, folklorşünas, dramaturq, filologiya elmləri doktoru, professor Təhmasib Məmmədhüseyn Abbasqulu oğlunun (12.04.1907-05.10.1982) anadan olmasının 110 illiyi 137

Filologiya elmləri doktoru, professor Eyvazova Roza Hüseyn qızının (16.04.1937) anadan olmasının 80 illiyi

Coğrafiya. Geologiya

Geoloq, geologiya-mineralogiya elmləri doktoru, professor Əlixanov Ənvər Nəzər oğlunun (17.04.1917) anadan olmasının 100 illiyi

Riyaziyyat. Fizika. Astronomiya

Əməkdar elm xadimi, riyaziyyatçı Cavadov Maqsud Əlisimran oğlunun (13.04.1902-25.05.1972) anadan olmasının 115 illiyi

Akademik Əmirxanov Həbibulla İbrahim oğlunun (28.04.1907-1986) anadan olmasının 110 illiyi 138

Kimya. Biologiya. Tibb

Akademik Seyidov Nadir Miribrahim oğlunun (28.04.1932-05.10.2015) anadan olmasının 85 illiyi

Akademik Qarayev Siyavuş Fərhad oğlunun (30.04.1942-02.01.2015) anadan

olmasının 75 illiyi 139

Tarixdə bu gün

Ümumdünya Gülüş Günü (01.04.1564)
Beynəlxalq Quşlar Günü (01.04.1901)
Beynəlxalq Uşaq Kitabı Günü (02.04.1953) 140
Kəlbəcər rayonunun işğalı günü (02.04. 1993) 141
Azərbaycan Respublikası Rusiya ilə diplomatik əlaqələr qurmuşdur (04.04.1992)
Ümumdünya Sağlamlıq Günü (07.04.1950)
Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən törədilən Ağdaban soyqırımının 25-ci ildönümü (08.04.1992)
Azərbaycan Kitabxana işçilərinin I Qurultayının keçirilməsinin (11.04.1962) 55 illiyi 142
Ermənilər Şuşa şəhərinin müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə etmişdir (12.04.1992)
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Beynəlxalq Mədəniyyət Günü (15.04.1935) 143
Beynəlxalq Ekoloji Bilik Günü (15.04.1992)
Azərbaycan Respublikası Fələstin ilə diplomatik əlaqələr qurmuşdur (15.04.1992)
Ümumdünya Hemofiliya Günü (17.04.1964)
Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983) 144
Parklara Yürüş Günü (19-24.04.1995)
Ümumdünya Yer Günü (22.04.1970)
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996) 145
Azərbaycan Yazıçılar İttifaqının yaradılmasının (23.04.1932) 85 illiyi
Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşulub (25.04.1997)
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Qazax rayonunun Sofulu kəndinin işğalının 25-ci ildönümü (27.04.1992)
Azərbaycan Respublikası Macarıstan ilə diplomatik əlaqələr qurmuşdur (27.04.1992)
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.1996)
Beynəlxalq Rəqs Günü (29.04.1982)
Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin “Koroğlu” operasının ilk tamaşasının nümayiş olunmasının (30.04.1937) 80 illiyi 146

80 illiyi

Osman Mirzəyev 1937-1991

Yazıçı-publisist



Osman Mirzə Hüseyn oğlu Mirzəyev 1937-ci il aprel ayının 13-də Bakıda anadan olmuşdur. 190 saylı orta məktəbi bitirdikdən sonra 1956-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuşdur.

Universiteti bitirdikdən sonra 7 il gənclərin mətbu orqanı olan "Молодежь Азербайджана" qəzetində çalışmışdır. Burada sıravi tərcüməçi kimi işə başlayan Osman Mirzəyev sonralar qəzetin məsul katibi vəzifəsinədək yüksəlmişdir.

1968-1990-cı illərdə "Вышка" qəzetində işləmiş, əvvəlcə şöbə müdiri, sonra məsul katib vəzifələrini icra etmişdir. 1978-ci ildə isə redaktor müavini vəzifəsinə təyin olunmuşdur.

O.Mirzəyevin peşəkarlığı televiziyada da özünü biruzə verirdi. O, Azərbaycan televiziya məkanında ilk bədii-publisistik, ictimai-siyasi "Dalğa" verilişinin yaradıcılarından biri idi.

1990-cı ilin sentyabr ayında Osman Mirzəyev Azərbaycan Respublikasının Prezident Aparatında şöbə müdiri vəzifəsinə təyin olunmuşdur. Azərbaycanın ictimai-siyasi həyatında ön cərgələrdə olmuş, 1991-ci ildə parlament seçkilərində iştirak etmişdir.

Osman Mirzəyev görkəmli jurnalist, publisist və yazıçı kimi geniş ədəbi yaradıcılıqla məşğul olmuşdur. Onun "Qartal uçuşda", "Damla və göl", "Bir dəfə yaşayırıq" oçerklərdən ibarət topluları, həmçinin "Adlarımız" kitabı xalq arasında öz populyarlığını hələ də itirməmişdir.

O.Mirzəyevin «Вышка» qəzetində dərc olunan «Мир твоему дому, брат-карабахец» və «Мадонна из Садарака» məqalələri cəmiyyətdə böyük əks-səda doğurmuş və ozamankı ölkə rəhbərliyinin təşvişinə səbəb olmuşdur. Bu məqalələrdə müəllif Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməkdə vasitəçi olan Moskvanın siyasətini kəskin tənqid atəşinə tutmuşdu.

Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatı ilə təltif olunmuş, 1988-ci ildə mətbuat sahəsində göstərdiyi xidmətlərə görə Azərbaycan SSR-in "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

Osman Mirzəyev 1991-ci ildə Xocavənd rayonu yaxınlığında bir sıra digər dövlət xadimləri ilə birgə olduğu "Mİ-8" vertolyotunun ermənilər tərəfindən vurulması nəticəsində şəhid olmuşdur.

Hazırda Səbail rayonunda yerləşən 190 saylı orta məktəb Osman Mirzəyevin adını daşıyır.

Ə d ə b i y y a t

Adlarımız A-Ş: 70 illik yubiley buraxılışı /O.Mirzəyev.- Bakı: Qanun, 2007.- 266, [2] s.

İmam Mustafayev (siyasi portret): İllər, şəxsiyyətlər /O.Mirzəyev //Ədəbiyyat qəzeti.- 2010.- 13 avqust.- S.1, 2.

Qurbanlı, R. Son mənzili qəlb olanlar: /R.Qurbanlı //Gün.- 2006.- 1-7 aprel.- S.24.

Orxan, R. Osman Mirzəyev yalnız jurnalist yox, həm də vətənpərvərlik missiyası daşıyırdı /Rəhman Orxan //Zaman.- 2015.- 1 dekabr.- S.10.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Osman_Mirzəyev

125 illiyi

Əli Səbri 1892-1983

Tərcüməçi

Əli Camal oğlu Qasımov (Əli Səbri) 1892-ci il aprel ayının 15-də Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. 1899-cu ildən 1906-cı ilə qədər Naxçıvan şəhər rus-tatar məktəbində təhsil almışdır. Bir müddətdən sonra atası müflis olmuş, oğlunu oxutmaq istəməmişdir. Bir təsadüf nəticəsində sənədlərini Qori seminariyasına təqdim etmiş, imtahanları əla qiymətlərlə verdiyinə görə dövlət hesabına oxumaq hüququ qazanmışdır.

1913-cü ildə Zaqafqaziya Qori Müəllimlər Seminariyasını bitirən Əli Qasımov Bakıda doqquzuncu rus-tatar məktəbində müəllimlik etmiş, sonra isə müxtəlif fasilələrlə Bakı ikinci realnı məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Xarkov Universitetində təhsil almaq fikrinə düşən Əliyə Hacı Zeynalabdin Tağıyev imtahanlara hazırlaşması üçün maddi yardım etmiş, lakin bu zaman Birinci Cahan müharibəsi başladığından təhsilini davam etdirə bilməmişdir.

Özünə "Səbri" təxəllüsü götürən Əli Qasımov "Molla Nəsrəddin" jurnalında "Tağı Yuniszadə" imzası ilə satiralar çap etdirmişdir.

Birinci Dünya müharibəsi illərində "Cəmiyyəti-xeyriyyə" xətti ilə keçirilən tədbirlərdə fəal iştirak etmiş, Kars,Trabzon, Batumi və başqa şəhərlərə səfərlər etmişdir. Həmin illərdə Bakı ilə də əlaqəsini kəsməmiş "Açıq söz" qəzetində 1917-ci ildə dərc etdirdiyi "Trabzon məktubları" silsilə yazılarını qələmə almışdır.

1918-1920-ci illərdə Naxçıvanın ictimai-siyasi həyatında fəal iştirak etmiş, ingilis-daşnak hərbi hökuməti Şərur-Naxçıvan ərazisində repressiyaya başlayanda, demokratik fikirli Əli Səbri də həbs olunaraq Aleksandropola (Gümrü) sürgün edilmişdir.

Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra Ə.Səbri 1923-28-ci illərdə Xalq Təhsili İşçiləri İttifaqında inspektor işləmiş, eyni zamanda Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. "Maarif işçisi" jurnalının redaktoru vəzifəsində işləyən yazıçı 1937-ci ilədək qiyabi pedaqoji institutda çalışmışdır. Əliyə 1938-ci ildə yenidən cinayət işi açılmış və həbs olunmuşdur. 1943-cü ildə cəzasını çəkib qayıdan yazıçı 1948-ci ildə yenidən həbs edilmiş, 1949-cu ildə Krasnoyarsk vilayətinə sürgün edilmişdir. Mahir tərcüməçi olan Ə.Səbri 1910-cu ildə Yasnaya Polyanaya - L.N.Tolstoyun görüşünə getmiş, ədibin və daha sonra İ.S.Turgenev, A.P.Çexov, V.Şekspir R.Taqor və başqa yazıçıların bir neçə əsərini Azərbaycan dilinə çevirmişdir.

Müəllifin bir sıra yazıçılar haqqında xatirələri 1983-cü ildə "Ömürdən yarpaq düşür" kitabına daxil edilmişdir. Ə.Səbri həm də fəal publisist və tənqidçi kimi də tanınmışdır. 400-dən çox məqalə yazan ədib həmin materialları Ə.Səbri, Dağyanuszadə,Yəmut Elli və s. imzalarla çap etdirmişdir.

O, bir sıra povest, xatirə və hekayələrin müəllifidir. 1955-ci il noyabr ayının 17-də bəraət aldıqdan sonra, Azərnəşrin bədii ədəbiyyat şöbəsində redaktor, 1976-cı ildən Azərbaycan Yazıçılar İttifaqı Ədəbiyyat fondunun sədri vəzifələrində çalışmışdır.

Yazıçı, jurnalist, tərcüməçi Əli Səbri 1983-cü il fevral ayının 19-da, 91 yaşında Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Ömürdən yarpaq düşür: hekayələr, povestlər və xatirələr /Ə.Səbri.- Bakı: Gənclik, 1983.- 166 s.

Həşimli, H. Əli Səbri /H.Həşimli; red. İ.Həbibbəyli; rəyçi Y.Axundlu.- Bakı: Nurlan, 2007.- 142 s.

Əliyev, N. Əli Səbri Qasımov - unudulmaqda olan diplomat, döyüşçü, yazıçı /N.Əliyev //525-ci qəzet.- 2010.- 2 fevral.- S.6.

Şəymən. Əli Səbri şəxsiyyəti...: Bu böyük azərbaycançı mücahid 10 il sürgün həyatı yaşamalı olub /Şəymən //Şərq.- 2014.- 1 oktyabr.- S.11.

105 illiyi

Əkbər Məftun 1912-1990

Şair

Əkbər Qurban oğlu Əkbərov (Əkbər Məftun) 1912-ci il aprel ayının 15-də Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. 1921-1926-cı illərdə Naxçıvan şəhərində beşsinifli ibtidai məktəbdə təhsil almış, 1926-1930-cu illərdə Pedaqoji Texnikumu bitirmişdir.

Əkbər Məftun 1930-1934-cü illərdə Nehrəm, Dırnıs, Əndəmic kəndlərində müəllim işləmişdir.

1934-1938-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Bu illərdə Ə.Məftun eyni zamanda "Pioner" jurnalı redaksiyasında Bədii şöbənin müdiri, "Azərbaycan pioneri" qəzeti və "Müəllimə kömək" jurnalı redaksiyasında ədəbi işçi, 1935-1941-ci illərdə Bakının 3 (6) saylı məktəbində müəllim işləmişdir.

İkinci Dünya müharibəsinin ilk günlərindən Sovet ordusu tərkibində Kerç uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmış, 1941-1942-ci illərdə hərbi xəstəxanada müalicədən sonra tərxis olunmuşdur. Əkbər Məftun sonralar Ordubad şəhər yeddiillik məktəbində müdir, orta məktəbdə müəllim, eyni zamanda "Ordubad işçisi" (indiki "Yeni Ordubad") qəzeti redaksiyasında məsul katib, redaktor, radio verilişləri qovşağında diktor, məsul katib, 1943-1954-cü illərdə M.S.Ordubadi adına şəhər Dövlət Dram Teatrında müvəqqəti müdir kimi çalışmışdır. 1954-1959-cu illərdə o, S.Vurğun adına Ordubad orta məktəbində direktor işləmişdir.

Ailəliklə Bakıya köçdükdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) nəşriyyatında, sonralar "Maarif" nəşriyyatında baş redaktor işləmişdir.

1968-ci ildə "M.S.Ordubadinin poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1969-1985-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində dosent işləmiş, 1985-ci ildə təqaüdə çıxmış və Ordubada köçmüşdür.

Ədəbi fəaliyyətə "Təyyarəçi" adlı ilk şeiri ilə başlamışdır. Bu şeir 1935-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdur. 1937-ci ildə ilk "Kiçik heykəltəraş" şeirlər kitabı çapdan cıxmışdır. Ə.Məftun 1943-cü ildən Yazıçılar Birliyinin üzvü seçilmişdir.

1940-cı ildə "Vətən qızı", 1943-cü ildə "Sevənlər", 1946-cı ildə "Nəsimi" "Saray", "Şahin" və s. pyeslərini qələmə almışdır. Şairin 1972-ci ildə "Mənim baharım", 1980-ci ildə "Şəfa bulağı" kitabları çap olunmuşdur. 1987-ci ildə "M.S.Ordubadi" adlı monoqrafiyasını qələmə almışdır.

Xidmətlərinə görə "Şərəf nişanı", "SSRİ Silahlı qüvvələrinin 70 illiyi" ordeni və doqquz medalla təltif olunmuşdur. Naxçıvan MR-nın "Əməkdar müəllim" fəxri adına, 1981-ci ildə "Müharibə və əmək veteranı" adına layiq görülmüşdür.

Əkbər Əkbərov 1990-cı il sentyabr ayının 14-də vəfat etmiş, Ordubad şəhərində dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Məmməd Səid Ordubadi /Ə.Məftun; red. F.Hüseynov; rəyçi F.Vəzirova.- Bakı: Yazıçı, 1987.- 135 s. Ədəbi portretlər.

Şəfa bulağı: şeirlər və poema /Ə.Məftun.- Bakı: Yazıçı, 1980.- 88, [4] s.

Yazıçı ömrü: Əkbər Məftun - 100 //Mədəni həyat.- 2012.- № 3/4.- S.29.

110 illiyi

Məmməd Rahim 1907-1977

Şair

Məmməd Abbas oğlu Hüseynov (Məmməd Rahim) 1907-ci il aprel ayının 20-də Bakıda anadan olmuşdur. İbtidai təhsilə Bakıdakı 5-ci rus-tatar məktəbində başlamış, sonra təhsilini 23 saylı məktəbdə davam etdirmişdir. 1928-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun şərqşünaslıq fakültəsinə daxil olmuş, institutu bitirdikdən sonra bir neçə il Bakının orta məktəblərində müəllimlik etmişdir.

Şeir yazmağa hələ orta məktəbdə oxuduğu illərdə başlamışdır. Şairin "Gördüm" adlı ilk şeiri 1926-cı ildə "Gənc işçi" qəzetində, sonra isə "Gənc qızıl qələmlər" adlı məcmuədə dərc olmuşdur. 1930-cu ildə "Arzular" adlı ilk şeirlər kitabı, 1937-ci ildə isə "İkinci kitab", "Partizanın tüfəngi" "Nübar", "İldırımın kitabı", 1942-ci ildə "Vətən sevgisi", 1943-cü ildə "Şəhərin nəgməsi", 1946-cı ildə "Ölməz qəhrəman", 1948-ci ildə "Xəzər sahillərində" əsərləri, 1949-cu ildə "Leninqrad göylərində", 1954-cü ildə "İşıq", "İki qardaş", "Ögey ana" və s. poemaları, 1955-ci ildə "Sevgi", "Balaca bağbanlar", 1957-ci ildə "Məhəbbətin baharı" kitabları çap olunmuşdur.

Şairin 1955-1957-ci illərdə ikicildlik "Seçilmiş əsərləri" Azərnəşr tərəfindən nəşr edilmişdir.

60-70-ci illəri M.Rahimin yaradıcılığında daha məhsuldar dövr adlandırmaq olar. Həmin illərdə bir neçə poema, yüzlərlə şeir yazmış, 10-dan çox kitabını: "Şeirlər və poemalar", "Arzular gül açanda", "Tonqal başında", "Dayağım", "Məhəbbət dastanı" və s. çap etdirmişdir. Görkəmli şairin bir çox əsərləri başqa xalqların dillərinə tərcümə olunmuşdur.

"Leninqrad göylərində" poeması şairə ümumittifaq şöhrəti qazandırmışdır. 1948-ci ildə çap olunmuş poema Azərbaycan ədəbiyyatında xüsusi yer tutan əsərlərdəndir. Poemada olduqca mənalı bir motiv vardır, o da Vətən yolunda həlak olanların ölməzliyidir. Onun "Moskva", "Satqınlara cavab" şeirləri bilavasitə sülh uğrunda mübarizəyə, müharibə qızışdıranların ifşasına həsr edilmişdir. Satira və yumor M.Rahim yaradıcılığında aparıcı xətt olmasa da, hər halda özünəməxsus yer tutur.

Şair 1940-cı ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına, 1948-ci ildə "Leninqrad göylərində" poemasına görə Stalin mükafatına layiq görülmüş, 1950-ci ildə "Lenin" , 1957-ci ildə "Qırmızı əmək bayrağı" ordenləri ilə təltif olunmuşdur. 1964-cü ildə Azərbaycanın "Xalq şairi" fəxri adını almışdır. 1967-ci ildə ikinci dəfə "Lenin", 1977-ci ildə "Oktyabr inqilabı" ordenləri ilə mükafatlandırılmışdır.

Məmməd Rahim 1977-ci il may ayının 6-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: iki cilddə /M.Rahim; tərt. ed.: S.Quliyeva, İ.Əliyeva.- Bakı: Avrasiya Press, 2006.- C.I.- 272 s.

Seçilmiş əsərləri: iki cilddə /M.Rahim; tərt.: ed.: S.Quliyeva, İ.Əliyeva.- Bakı: Avrasiya Press, 2006.- C.II.- 368 s.

Məmməd Rahim - 100 /topl. tərt. ed. və ön söz. müəl. S.Xəyal; red. T.Həsənzadə.- Bakı: [MBM], 2012.- 131, [1] s.

Rəfili, O. M.Rahimin "Leninqrad göylərində" poemasında Hüseynbala surəti //Rəfili O. Fələstin çoxbucaqlısı.- Bakı, 2014.- S.181-183.

Yusifli, V. "Yarat, sən köçəndə ellər söyləsin": Aprelin 20-də Xalq şairi M.Rahimin doğum günü idi /V.Yusifli //Ədalət.- 2015.- 22 aprel.- S.7.

110 illiyi

İsmayıl Axundov 1907-1969

Rəssam

İsmayıl Hüseyn oğlu Axundov 1907-ci il aprel ayının 15-də Bakının Maştağa qəsəbəsində doğulmuşdur. 1921-ci ildə, kənd məktəbini bitirdikdən sonra Bakı Pedaqoji Texnikumuna daxil olmuş, 1924-cü ildən eyni zamanda rəssamlıq məktəbində oxumuşdur. 1928-ci ildə Bakı Rəssamlıq Məktəbini bitirdikdən sonra Moskva Poliqrafiya İnstitutunun nəşriyyat şöbəsində təhsil almışdır. 1932-ci ildə təhsilini başa vurduqdan sonra təyinatla Bakıya göndərilmiş və Azərnəşrdə kitab qrafikası sahəsində işləyərək bir sıra Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinə tərtibat və illüstrasiyalar vermişdir. Öz məsuliyyəti və işgüzarlığı ilə rəhbərliyin diqqətini çəkmiş, qrafika bölməsinə rəhbər təyin edilmişdir.

1937-ci ildən 1940-cı ilə qədər Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin direktoru, 1940-cı ildən Nizami adına Ədəbiyyat Muzeyinin direktoru və baş rəssamı olmuşdur.

1937-ci ildə rejissor Ədil İsgəndərovdan Akademik Milli Dram Teatrına dəvət almış və onun quruluş verdiyi Mirzə İbrahimovun "Həyat", 1938-ci ildə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (həmçinin 1940 və 1957-ci il quruluşlarında), Cabbar Məcnunbəyovun "Yanar dərə", Səməd Vurğunun "Vaqif" tamaşalarında geyim üzrə rəssam olmuşdur.

1938-ci ildə rejissor Məcid Zeynalovun hazırladığı "Müsyö Jordan və dərviş Məstəli şah" (Mirzə Fətəli Axundzadə) tamaşasında ilk tərtibatçı rəssam kimi işləmişdir. Sonralar AMDT-də 1939-cu ildə Onore de Balzakin "Ögey ana", Mehdi Hüseynin "Şöhrət", Cəlil Məmmədquluzadənin "Ölülər", 1943-cü ildə Aleksandr Ostrovskinin "Tufan", 1945-ci ildə Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", 1948-ci ildə Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", 1949-cu ildə Sabit Rəhmanın "Aydınlıq", Cəfər Cabbarlının "Solğun çiçəklər", 1952-ci ildə Karlo Haldoninin "Mehmanxana sahibəsi", 1956-cı ildə Hüseyn Cavidin "Şeyx Sənan" əsərlərinin tamaşalarına həm monumental-romantik, həm də realist səpkilərdə səhnə tərtibatları vermişdir. Böyük Vətən müharibəsi illərində "Agit-pəncərə" üçün 100-dən artıq antifaşist plakat çəkmişdir.

"Kirpi" jurnalının tanınmasında və populyar olmasında İsmayıl Axundovun xidmətləri danılmazdır. O, bir neçə il Azərbaycan Rəssamlar İttifaqının sədri və məsul katibi vəzifəsində çalışmış, Bakı Şəhər Sovetinin, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Təsviri incəsənət sahəsindəki xidmətlərinə görə 1940-cı ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adı almış, 1944-cü ildə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1960-cı ildə Azərbaycan SSR-in "Xalq rəssamı" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" və 1967-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Görkəmli fırça ustası İsmayıl Axundov 1969-cu il sentyabr ayının 13-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Fərəcov, S. Güldürən və düşündürən rəssam: "Kirpi" jurnalının populyarlaşmasında Xalq rəssamı İsmayıl Axundovun mühüm xidmətləri olub /S.Fərəcov //Mədəniyyət.- 2015.-15 aprel.- S.15.

Ахундова, Н.Р. К вопросу историографии проблемы вклада художественной интеллигенции Азербайджана в победу в войне 1941-1945 гг. /Н.Р.Ахундова //Azərbaycan 1941-1945-ci illər müharibəsində: məqalələr toplusu /AMEA, A.Bakıxanov ad. Tarix İn-tu; elmi red.: N.G.Qədirova və b..- Bakı, 2008.- S.121.

Исмаил Ахундов //Сталинские премии: две стороны одной медали: Сб. документов и художественно-публицистических материалов /сост.: В.Ф.Свиньин, К.А.Осеев.- Новосибирск, 2007.- С.393.

İ n t e r n e t d ə

https://ru.wikipedia.org/wiki/Ахундов,_Исмаил_Гусейн_оглы

120 illiyi

Şövkət Məmmədova 1897-1981

Opera müğənnisi

Şövkət Həsən qızı Məmmədova 1897-ci il aprel ayının 18-də Gürcüstan Respublikasının Tbilisi şəhərində, kasıb pinəçi ailəsində anadan olmuşdur. 6 yaşında ikən Tiflisdə özəl məktəbdə təhsil almış, valideynləri Şövkətin musiqiyə olan marağını görüb onu uşaq musiqi məktəbinin fortepiano sinfinə yazdırmışlar. Atası 1910-cu ildə onu Bakıya göndərmiş, Şövkət Romanovlar Musiqi Cəmiyyətinin nəzdindəki musiqi məktəbinin fortepiano sinfində dərs almağa başlamışdır.

Ş.Məmmədova 1911-ci ildə Zeynalabdin Tağıyevin köməyi ilə İtaliyanın Milan şəhərində musiqi məktəbinə daxil olmuş və burada məşhur müğənni Dotti Ambroziodan dərs almağa başlamışdır. Lakin 1912-ci ildə ona olan kömək kəsilmiş və Ş.Məmmədova vətənə qayıtmalı olmuşdur.

1912-ci ildə Bakının Tağıyev Teatrında ilk dəfə professional ifaçı kimi çıxış etmişdir. Üzeyir Hacıbəylinin "Ər və arvad" operettasından bir neçə parçanı ifa edən Ş.Məmmədova konsertdən əldə olunan pul ilə İtaliyada təhsilini davam etdirməli idi. Lakin tamaşadan toplanan 1500 manat pul müsadirə olunmuş və Şövkət Tiflisə qayıdaraq orta məktəbi bitirmişdir.

Şövkət Məmmədova 1915-ci ildə daxil olduğu Kiyev Konservatoriyasını bitirib Bakıya qayıdaraq ilk dəfə Üzeyir bəyin "Arşın mal alan"operettasında Gülçöhrə rolunda çıxış etmiş, az sonra repertuarını genişləndirərək Avropa və Azərbaycan operalarında yeni-yeni obrazlar yaratmağa başlamışdır. 1923-cü ildə Ş.Məmmədovanın təşəbbüsü ilə Bakı Teatr Texnikumu açılmış və o, 1923-1925-ci illərdə texnikumun direktoru işləmişdir. Bu Yaxın Şərqdə ilk teatr təhsil ocağı idi. Azərbaycanda ilk not nəşriyyatı da Şövkət Məmmədovanın təşəbbüsü ilə yaradılmışdır. O, ilk azərbaycanlı müğənnidir ki, 1925-ci ildə Fransada qrammofon valı buraxılmışdır.

1945-ci ildə Azərbaycan Teatr Cəmiyyəti təsis edilmiş və onun ilk sədri Şövkət xanım olmuşdur. O, bu vəzifədə 1952-ci ilə qədər çalışmışdır. Eyni zamanda, 1945-ci ildə Üzeyir Hacıbəylinin rektor olduğu Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlamışdır. 1946-1947-ci illərdə konservatoriyada Vokal kafedrasının müdiri, 1946-1950-ci illərdə həmin kafedranın dekanı olmuşdur. 2 iyul 1949-cu ildə professor elmi rütbəsini almışdır.

Azərbaycan Opera və Balet Teatrında 1921-ci ildən 1948-ci ilədək fasilələrlə solist işləmişdir.

Şövkət xanım Məmmədova 1938-ci ildə SSRİ-nin "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Azərbaycan SSR Ali Sovetinin dörd çağırış deputatı olmuş, iki dəfə "Lenin" iki "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir. Müxtəlif Beynəlxalq festivallarda və müsabiqələrdə münsiflər heyətinin üzvü seçilmişdir.

Şövkət xanım Məmmədova 1981-ci il iyun ayının 8-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Azərbaycanın ilk qadın opera müğənnisi... //Şərq.- 2011.- 24 may.- S.11.

Məhərrəmova, T. Heç vaxt məlahətini itirməyəcək səs sahibi: Şövkət Məmmədova hər tamaşasında bir ömür yaşayırdı /T.Məhərrəmova //Kaspi.- 2009.- 1 aprel.- S.11.

Operamızın şanı, Şövkəti...: Dünən Azərbaycanın ilk qadın opera müğənnisi Şövkət Məmmədovanın doğum günüydü //Ekspress.- 2011.- 19 aprel.- S.23.

Sarıyeva, İ. Milli opera sənətimizin iki zirvəsi- Şövkət Məmmədova və Fatma Muxtarova... /İ.Sarıyeva //Bakı xəbər.-2015.-1 sentyabr.- S.15.

Tahirqızı, Ü.Klassik Avropa üslubunda oxuyan qadın müğənni /Ü.Tahirqızı //Xalq Cəbhəsi.-2013.- 23 noyabr.- S.13.

110 illiyi

Əfrasiyab Bədəlbəyli 1907-1976

Bəstəkar



Ə d ə b i y y a t

Cəfər Cabbarlı haqqında xatirələr [Qeyri musiqili səsyazma]: [ədəbi radio veriliş] /Ə.Bədəlbəyli.- Bakı, 2011.- 1 CD

Qurban Pirimov /Ə.Bədəlbəyli; [red.: R.Təhmasib, C.Məmmədov]; Azərb. Teatr Cəmiyyəti.- Bakı: Azərnəşr, 1955.- 49 s.

Söyüdlər ağlamaz: 3 pərdə (5 şəkil və epiloqlu) opera librettosu /Ə.Bədəlbəyli Bakı: [Kommunist], 1970.- 53, [3] s.

Cəfər Cabbarlının musiqi aləmi /Ə.Bədəlbəyli //Yeni Azərbaycan.-2010.- 3 iyul.- S.11.

Quliyev, İ. Maestro belə yazırdı... /İ.Quliyev.- Bakı: CBS, 2008.- 391, [1] s.

Rəhmanzadə, F. Bədəlbəylilər /F.Rəhmanzadə.- Bakı: Nurlan,2006.- 244 s.

Abduləliyev, A. Əfrasiyab Bədəlbəyli...: Musiqimizin dünəni, bu günü və sabahı /A.Abduləliyev //Ədalət.- 2011.- 20 aprel.- S.7.

Dadaşova, L. Əfrasiyab Bədəlbəylinin Azərbaycan musiqişünaslığında rolu /L.Dadaşova //Mədəni həyat.- 2013.- № 6.- S.90-93.

Şıxəliyeva, Ş. Əfrasiyab Bədəlbəyli "Şüştər"muğamı haqqında /S.Şıxəliyeva //Musiqi dünyası.- 2015.- 2/63.- S.93-95.

Əfrasyab Bədəl oğlu Bədəlbəyli 1907-ci il aprel ayının 19-da Bakı şəhərində, xalq maarifçisi Bədəl bəy Bədəlbəyovun və Şah Qacar nəslinin təmsilçisi Rəhimə xanımın ailəsində anadan olmuşdur. 1912-ci ildə 6-cı rus-müsəlman məktəbinə daxil olmuş, 1917-1924-cü illərdə I realnı məktəbində təhsilini davam etdirmişdir. 1924-cü ildə Azərbaycan Dövlət Türk Musiqi Texnikumuna və eyni zamanda, ADU-nun Şərq fakültəsinin dilçilik şöbəsinə daxil olmuşdur. Musiqi texnikumunda S.L.Bretanitskinin sinifində violino ixtisası üzrə təhsil almışdır.

1928-ci il fevralın 16-da, musiqisi Ə.Bədəlbəyliyə məxsus C.Cabbarlının "Od gəlini" əsərinin premyerası olmuşdur. 1931-cu ildə bəstəkar C.Cabbarlının "Almaz", daha sonra isə "1905-ci ildə" və "Yaşar" pyeslərinə, 1933-cü ildə A.Afinogenovun "Qorxu", 1934-cü ildə M.F.Axundovun "Hacı Qara", 1935-ci ildə isə "Müsyo Jordan" əsərlərinə musiqi bəstələmişdir.

Ə.Bədəlbəyli professional musiqi təhsili almaq məqsədi ilə 1932-ci ildə Moskva Konservatoriyasının dirijorluq fakültəsinə daxil olmuş, professor K.Saracevin sinifində təhsil alaraq bu sənətin incəliklərinə mükəmməl yiyələnmişdir. Ali məktəbdə oxuduğu zaman 8 variasiya, violonçel və fortepiano üçün sonatina, fortepiano üçün etüd, simfonik orkestr üçün üçhissəli süita, 2 violino, alt və violonçel üçün kvartet bəstələmişdir. Lakin bir ildən sonra Bakıya qayıtmış və R.Qlierin "Şahsənəm" operasının yeni quruluşda, C.Cabbarlının librettosu əsasında tamaşaya hazırlanmasında iştirak etmişdir. 1934-cü ilin payızında Leninqrad Konservatoriyası nəzdindəki musiqi məktəbinə daxil olmuş, 1938-ci ildə oranı bitirmişdir. 1939-cu ildən ömrünün sonunadək Azərbaycan Opera və Balet Teatrının dirijoru olmuşdur.

Ə.Bədəlbəyli ilk milli Azərbaycan baleti - "Qız qalası"nın müəllifidir. 1941-ci ildə S.Vurğunun "Fərhad və Şirin" əsərinə musiqi bəstələmişdir. 1965-ci ildə Q.Almaszadə ilə birlikdə S.S.Axundovun eyniadlı povesti əsasında bəstəkar Əşrəf Abbasovun "Qaraca qız" baletinə, 1968-ci ildə qardaşı Turqud ilə birlikdə C.Cabbarlının eyniadlı pyesi əsasında R.Mustafayevin bəstələdiyi "Aydın" operasına libretto yazmışdır.

1969-cu ildə "Elm" nəşriyyatında Ə.Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti" kitabı çap edilmişdir. 1970-ci ildə "Söyüdlər ağlamaz" operası tamaşaya qoyulmuşdur.

1971-ci ilin oktyabrında Xor Cəmiyyətinin sədri vəzifəsinə seçilmişdir.

1940-cı ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, həmçinin bir sıra medallarla təltif edilmişdir.

Əfrasiyab Bədəlbəyli 1976-cı il yanvar ayının 9-da vəfat etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il yanvar ayının 24-də Əfrasiyab Bədəlbəylinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

95 illiyi

Aida Abdullayeva 1922-2010

Arfa ifaçısı

Aida Həmdulla qızı Abdullayeva 1922-ci il aprel ayının 23-də Bakı şəhərində anadan olmuşdur. Ailənin beşinci övladı olan qıza C.Verdinin "Aida" operasının tamaşasından qayıdan dayısı, Aida adını verməyi təklif etmişdir. Repressiya qurbanı olan atası güllələndikdən sonra ailəyə qarşı təqiblər başlamış, yalnız 13 yaşına çatan zaman Aida fəhlə kurslarına getmiş və burada arfa müəllimi Yelizaveta Borisovna Şlezigerlə tanış olaraq arfa sinfində təhsil almağa başlamışdır.

1938-ci ildə şagird kimi iştirak etdiyi ilk konsertdə Üzeyir Hacıbəylinin diqqətini çəkmişdir. 1940-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi tərəfindən ali musiqi təhsili almaq üçün Moskva Dövlət Konservatoriyasına göndərilmişdir. 1941-ci ildə müharibənin başlaması ilə əlaqədar Aida Abdullayeva Bakıya qayıtmış və Opera və Balet Teatrının orkestrində işə qəbul olunmuşdur.

1942-ci ilin payızında ailəsi ilə birlikdə Qazaxıstana sürgün edilmiş, lakin 1943-cü ildə Üzeyir bəy Hacıbəylinin vəsatəti əsasında Azərbaycana qaytarılaraq Bakı Dövlət Konservatoriyasına bərpa olunmuş və Radiokomitənin Simfonik orkestrində işləməyə başlamışdır.

1944-cü ildə Aida Abdullayeva yenidən Moskva Konservatoriyasında professor K.Erdelinin sinfində təhsilini davam etdirmişdir. 1949-cu ildə bu təhsil ocağını bitirdikdən sonra, Bakıda konservatoriyanın arfa sinfinə rəhbərlik etməyə başlamışdır. Azərbaycan arfa ifaçılığı məktəbinin yaradıcısı olan A.Abdullayeva 1969-cu ildə A.Zeynallı adına musiqi məktəbində, 1978-ci ildə isə S.Hacıbəyov adına Sumqayıt musiqi məktəbində arfa siniflərinin açılmasına nail olmuşdur. A.Abdullayeva arfa sinfi üçün proqramlar tərtib etmiş, 1983-1985-ci illərdə "Arfa üçün uşaq pyesləri" və "Azərbaycan bəstəkarlarının arfa üçün pyesləri" toplularını nəşr etdirmişdir. 1977-ci ildə dosent, 1985-ci ildə professor elmi rütbəsini almış, onlarca arfa ifaçısı yetişdirmişdir.

Aida Abdullayevanın Bakıda ilk konserti 1950-ci il aprel ayının 6-da baş tutmuşdu. 1969-cu ilədək M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının simfonik orkestrində çalışmışdır.

1972-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", "Əməkdar artist" fəxri adlarına layiq görülmüşdür.

Aida Abdullayeva 2010-cu il iyun ayının 11-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Taptıqova,Y. Aida Abdullayeva; elmi red. G.A.Abdullazadə.- Bakı: Oka Ofset, 2012.- 304 s.

Reyhan. Sənətdə yaşanan həyat: Görkəmli musiqiçi və pedaqoq Aida Abdullayevanın 90 illik yubileyi qeyd edildi /Reyhan //Mədəniyyət.- 2012.- 18 aprel.- S.3.

70 illiyi

Ramiz Quliyev 1947

Tar ifaçısı



Ramiz Əyyub oğlu Quliyev 1947-ci il aprel ayının 30-da Ağdam şəhərində anadan olmuşdur. 1954-cü ildə Ağdam şəhər 7 illik musiqi məktəbində, 1960-cı ildə Ü.Hacıbəyov adına Ağdam orta ixtisas musiqi məktəbində təhsil almışdır. 1964-1969-cu illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tar və dirijorluq fakültəsinə qəbul olunmuşdur.

1964-1994-cü illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının və Dövlət Konsert Birliyinin solisti olmuş, 1974-1992-ci illər ərzində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Xalq çalğı alətləri kafedrasında tar ixtisası üzrə müəllim, baş müəllim, dosent, professor kimi pedaqoji fəaliyyət göstərmiş, 1992-2002-ci illərdə həmin kafedraya rəhbərlik etmişdir.

1988-ci ildə YUNESKO xətti ilə ABŞ-da keçirilən Beynəlxalq folklor festivalında xüsusi diploma layiq görülmüşdür. 1989-cu ildə "Böyük İpək Yolu" festivalı çərçivəsində Yaponiyanın 30-dan artıq şəhərində konsertlər vermişdir. 1997-ci ilin dekabrında İsrailin Yerusalim şəhərində Beynəlxalq Şərq musiqisi festivalında öz çıxışları ilə fərqlənmiş və orada yaratdığı "Şərq alətləri orkestri"ni nümayiş etdirmişdir. 1987-ci ildə Səmərqənddə keçirilən III beynəlxalq musiqişünaslıq simpoziumunda R.Quliyev Sadıqcan adına muğam üçlüyünün rəhbəri və solisti kimi böyük müvəffəqiyyətlə çıxış etmişdir.

1994-cü ildə Türkiyənin İzmir şəhərinin Ege Universitetində, 1999-cu ildə İsveçrədə keçirilən Beynəlxalq "Lütsern musiqi festivalı"nda Bern şəhərinin "La strimpellata" orkestri ilə uğurlu çıxışlar etmişdir. 2002-ci ilin avqust ayında Norveçin Stavanger şəhərində Beynəlxalq musiqi festivalında iştirak etmiş və konsertlərlə çıxış etmişdir. 2002-ci ildə Tehran Dövlət Mədəniyyət və İncəsənət Universitetində "ustad dərsləri" vermişdir.

1982-ci ildə "Əməkdar artist", 1988-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

1993-cü ildə "Humay" milli mükafatına, 2001-ci ildə "Simurq" milli mükafat fondunun təsis etdiyi "XXI əsrin ilk laureatları" ali dərəcəli mükafatı - "İlin fədakar sənətçisi" fəxri adına layiq görülmüşdür. 2007-ci ilin may ayında ölkənin ən yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ramiz Quliyev Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında öz pedaqoji fəaliyyətini davam etdirir.

Ə d ə b i y y a t

Azərbaycan bəstəkarlarının əsərləri [Notlar] /tar və fortepiano üçün işləyib, köçürəni. R.Quliyev; red. R.Quliyev; rəy.: T.Bakıxanov, T.Məmmədov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirlyi.- Bakı: E.L. MMC, 2009.- 193 s.

"Tarın səsi ilə qəddar məmuru yola gətirmişəm": "O dünyada məndən bir ifa istəsələr, "Ana Segah çalardım" /R.Quliyev //Bizim yol.- 2014.- 18 fevral.- S.15.

Qacar, M. Ramiz zirvəsi: (poema) /M.Qacar; red. M.Mahmudov; ön söz M.Çəmənli.- Bakı: UniPrint, 2007.- 64 s.

Ramiz Quliyev: poema, rəy, məqalələr, müsahibə və xatirələr /red. Z.Yaqub.- Bakı: Adiloğlu, 2004.-296 s.

Əfəndiyeva, İ. İstedadlı tarzən //Əfəndiyeva İ. Axtarış yollarının bəhrəsi.- Bakı, 2014.- S.162-167.

Oktay. Fərdi ifaçılıq üslubu olan tarzən: Ramiz Quliyev artıq çoxdan özünü peşəkar kimi təsdiqləyib /Oktay //Xalq cəbhəsi.- 2012.- 20 dekabr.- S.14.

70 illiyi

Vaqif Əsədov
1947

Rejissor

Vaqif Firudin oğlu Əsədov 1947-ci il aprel ayının 5-də Naxçıvan şəhərində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinə daxil olmuş, 1969-cu ildə oranı bitirmişdir. 1981-ci ilə qədər Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi çalışmış, 1981-ci ildən isə teatrın rejissoru və baş rejissoru olmuşdur.

Rejissor kimi onun Naxçıvan teatrında hazırladığı "Medeya" tamaşası uğurlu tamaşa kimi vaxtı ilə Moskva televiziyası ilə nümayiş etdirilmişdir. O, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində P.Messianinin "Sükut divarı" (1980), Ə.Əylislinin "Mənim nəğməkar bibim" (1984), "Qiymətli qafiyələr" (1985), Sofoklun "Elektra", Y.O'Nilin "Qarağaclar altında məhəbbət" (1987); H.Cavid adına Naxçıvan Poeziya Teatrında "Azər", "Mənim tanrım gözəllikdir, sevgidir", "Yenə o bağ olaydı" əsərlərinə uğurlu quruluş vermiş və özünün fərdi üslubunu formalaşdırmışdır.

Rejissor 1989-cu ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında, həmin ildən də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor kimi fəaliyyət göstərir. V.Əsədovun Dövlət Gənc Tamaşaçılar Teatrında hazırladığı İ.Coşğunun "Açıl, bənövşəm açıl", A.Həsənzadənin "Mağara", "Oxu bülbül" kimi əsərləri gənclərin sevdiyi tamaşalara çevrilmişdir.

Vaqif Əsədov 1992-ci ildə Zəlimxan Yaqubun "Göyçə dərdi" poemasına "Didərginlər" adı ilə, 1994-cü ildə Süleyman Rəşidinin "Mənim Ərdəbilim" komediyasına, 1997-ci ildə Şahin Cəbrayılovun "Sehrli alma" nağılpyesinə, Hidayətin "Məhəbbət yaşayır hələ?!" pyesinə quruluş vermişdir.

V.Əsədov aktyor kimi də bir çox yaddaqalan obrazlar yaratmışdır.

Eyni zamanda bir sıra irimiqyaslı, dövlət səviyyəli tədbirlərin quruluşçu rejissoru və ssenari müəllifi olmuşdur. Belə tədbirlərdən görkəmli ədiblər Cəlil Məmmədquluzadə və Hüseyn Cavidin 120 illik yubileylərini, ümummilli lider Heydər Əliyevin və oftalmoloq alim Zərifə xanım Əliyevanın 80 illik yubileylərini, Xalq şairi Səməd Vurğunun 100 illik yubileyini, "Yeni teatr" gənc rejissorların ümumrespublika festivalının açılış və bağlanış mərasimlərini qeyd etmək olar.

Vaqif Əsədovun fəaliyyəti və yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1986-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 1978-ci ildə "Əməkdar artist", 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Rejissor 2005-ci ildən Prezident təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Gənc Tamaşaçılar Teatrında "Məhv olmuş gündəliklər": doqquz il sonra yeni quruluşda: Rejissorla müsahibə /Vaqif Əsədov; müsah. apardı Reyhan İsayeva //Mədəniyyət.-2011.- 2 sentyabr.- S.7.

İsayeva, R. "Qaraca qız" yeni quruluşda: rejissor, Xalq artisti Vaqif Əsədovun quruluş verdiyi eyniadlı tamaşa Gənc Tamaşaçılar Teatrında oynanıldı /Reyhan İsayeva //Mədəniyyət.- 2013.- 6 fevral.- S.10.

110 illiyi

Fatma Qədri
1907-1968

Aktrisa

Fatma Qədir qızı Qədri 1907-cı il aprel ayının 14-də Rusiyanın Odessa şəhərində doğulmuşdur. On dörd yaşında ailəsi ilə Bakıya köçən Fatma Bakı Dövlət Teatr Texnikumuna daxil olmuşdur. Məktəbin ilk direktoru Şövkət Məmmədova ona analıq qayğısı göstərmiş, A.Tuqanov, A.Muradov, V.Sladkonevsev kimi böyük təcrübəyə malik teatr xadimlərindən dərs almışdır. Teatr məktəbi ilə paralel Ali Qadın Pedaqoji İnstitutunda da təhsilini davam etdirmişdir.

Azərbaycanda ilk professional teatr təhsili görmüş qadın aktrisadır. 1923-1926-cı illərdə Azərbaycan Teatr Texnikumunun ilk buraxılışında aktyor diplomu almışdır. Bakı Türk İşçi Teatrının məktub-tələbnaməsinə əsasən həmin kollektivə təyinat almışdır. 1933-cü ilin yanvarında Türk İşçi Teatrı ədalətsiz qərarla Gəncə şəhərinə köçürülmüş, Fatma Qədri bir müddət orada işləmiş, 1935-ci ilin payızından Bakıya qayıdaraq ömrünün sonunadək Milli Dram Teatrında işləmişdir.

Fatma xanım həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1933-cü ildə Teatr Texnikumunda, Azərbaycan Dövlət Konservatoriyasında, 1946-cı ildən isə Teatr İnstitutunda aktyor sənətindən dərs demişdir.

Görkəmli səhnə xadimi Böyük Vətən müharibəsi illərində hərbi hospitallarda, xəstəxanalarda səhnəciklər təşkil etmişdir. Uzun illər hazırkı Bakı Dövlət Universitetində dram dərnəyinin rəhbəri olmuşdur.

Klassik və çağdaş milli dramaturgiya nümunələrində yaratdığı obrazlar onun yaradıcılığında necə layiqli yer tutmuşsa, tərcümə əsərlərində ifa etdiyi səhnə surətləri də bir o qədər dəyərli olmuşdur. Aktrisa Səməd Vurğunun "Vaqif" (Xuraman), "Fərhad və Şirin" (Şirin və Məryəm), "İnsan" (Amaliya), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri Cadu" (Hafizə), "Köhnə dudman" (Baş hərəm), Cəfər Cabbarlının "Od gəlini" (Solmaz), "Aydın" (Gültəkin), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Şölə xanım), Sabit Rəhmanın "Xoşbəxtlər" (Reyhan), Mirzə İbrahimovun "Kəndçi qızı" (Reyhan xanım), "Məhəbbət" (Məhəbbət), Mehdi Hüseynin "Cavanşir" (Zibeydə xatun), Abdulla Şaiqin "Nüşabə" (Nüşabə), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Həcər), Vilyam Şekspirin "Otello" (Emiliya), "Romeo və Culyetta" (Culyetta), "Kral Lir", Onore de Balzakın "Ögey ana" (Polina), Aleksandr Şteynin "Şəxsi iş" (Aleksandra Xlebnikova), Lope de Veqanın "Rəqs müəllimi" (Felistiana) dramlarının quruluşlarında iştirak etmişdir. Yaratdığı Xuraman, Larisa, Katerina obrazları nəinki sabiq Sovetlər Birliyi ərazisində, hətta dünyanın çox ölkələrində məşhur idi.

F.Qədri aktyorluq nailiyyətlərinə görə 1936-cı il fevral ayının 1-də Azərbaycan Respublikasının "Əməkdar artist", 17 iyun 1943-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə, həmçinin medallarla təltif edilmişdir.

Azərbaycan teatr sənətinin görkəmli xadimlərindən biri Fatma Qədir qızı Qədri 1968-ci il fevral ayının 29-da vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Abbaslı, T. Xalqın qədir-qiymətli qızı: Xalq artisti Fatma Qədir qızı Qədri /Tahir Abbaslı //Mədəniyyət.- 2010.- 16 aprel.- S.14.

Fərəcov, S. Sənətin solmayan portreti /S.Fərəcov //Mədəniyyət.- 2012.- 16 noyabr.- S. 12.

Oktay. Sükutun əbədiliyi: Azərbaycanda ilk professional teatr təhsili görmüş qadın-artist, Azərbaycanın Xalq artisti Fatma Qədri haqqında /Oktay //Xalq cəbhəsi.- 2012.- 24 may.- S.13.

Rəhimli, İ. Fatma Qədri //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.323-325.

Səhnəmizin ilk peşəkar aktrisası Fatma Qədri: Ciddi xarakterlər ustası... //Azadlıq.-2012.- 14 aprel.- S.14.

Təkləli, M. Fatma Qədri: Sərabdan başlanan uğur və məşəqqət yolu /Minaxanım Təkləli //Kaspi.- 2013.- 4 aprel.- S.15.

75 illiyi

Həsən Əbluc
1942-1994

Aktyor

Ə d ə b i y y a t

Kazımzadə, A. Həsən Əbluc //Kazımzadə A. Bizim "Azərbaycanfilm". 1923-2003-cü illər /Azərbaycan Resp. Mədəniyyət Nazirliyi, C.Cabbarlı ad. "Azərbaycanfilm" kinostudiyası.- Bakı, 2004.- S.52.

Abbaslı, T. Həsən Əbluc qiraətləri: Süsən sünbül əsimli, şeyda bülbül sədalı, şəbi-hicran ağrılı, dili-vüsal çağrılı... /T.Abbaslı //Mədəniyyət.-2015.- 13 mart.- S. 11.

Əhmədalılar, T. İfa poeziyası...: Səhnələrin ali səs, hərəki-feli nəfəs dramaturgiyası idi - Həsən Əbluc... /T.Əhmədalılar //Mədəniyyət.-2014.- 23 aprel.- S. 12.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/medeniyyet/2015/mart/426160.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2014/aprel/365618.htm

http://azertag.az/xeber/banzarsiz_sasin_isiginda_aprelin_22_si_hasan_ablucun_dogum_gunudur-475824

http://baki-baku.az/

Həsən Abbasqulu oğlu Əbluc 1942-ci il aprel ayının 22-də Təbriz şəhərində anadan olmuşdur. Cənubi Azərbaycanda demokratik hərəkat süquta uğrayandan sonra ailəsi Bakıya köçmüşdür. Həsən Əbluc hələ uşaq vaxtlarından aktyorluğa böyük həvəs göstərmişdir. Hələ 5-6-cı sinifdə oxuyarkən Gənc Tamaşaçılar Teatrının müqtədir aktyorlarından olan Süleyman Ələsgərovun rəhbərlik etdiyi pionerlər sarayında keçirilən dərnəyin üzvü olmuşdur.

Orta məktəbi bitirdikdən sonra, Azərbaycan Dövlət Politexnik İnstitutuna (indiki Texniki Universitet) daxil olmuşdur. Birinci kursdan sonra sənədlərini M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə vermişdir. Elə həmin il Azərbaycan Dövlət Dram Teatrında rumın yazıçı Sebastyanın "Adsız ulduz" tamaşasına quruluş vermişdir.

H.Əbluc Tofiq Kazımov kimi istedadlı rejissorun Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında hazırladığı tamaşalarda ikinci rejissor işləmiş və həm də onun kursunda təhsilini davam etdirmişdir. 3-cü kursda oxuyanda Akademik Dram Teatrına işə dəvət olunmuşdur. Ona səhnə danışığından Müxlis Cənizadə dərs demiş, Həsənin gözəl danışığına, sənətinə, diksiyasına, savadına görə onu özünə assistent götürmüşdür.

Həsən Əbluc 30 il Azərbaycan Dövlət İncəsənət Universitetində bir pedaqoq kimi gənclərə sənətin sirlərini öyrətmişdir.

Vaxtilə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda Azərbaycan qrupu yaradılmışdı. Məşhur aktyor, rejissor Yevgeni Motfeyev həmin qrupun rəhbəri idi. Ayda bir həftə səhnə danışığından dərs demək üçün Həsən Əblucu Moskvaya dəvət edirdilər.

Həsən Əbluc gözəl, ecazkar, cəlbedici, inandırıcı səsi ilə qəlbi sözə bağlı olanların sevimlisinə çevrilmişdi. O, radio tamaşalarında da saysız-hesabsız baş rollar yaratmışdır. Dublyaj filmlərində bütün rejissorlar baş rolları səsləndirməyi H.Əbluca həvalə edirdilər. Çünki o, dublyajda da öz möhürünü vurmuşdu.

Həm müəllim, həm rejissor, həm də aktyor olan Həsən Əbluc, eyni zamanda biri-birindən maraqlı hekayələr, dram əsərləri yazmışdır.

Həsən Əbluc 1994-cü il mart ayının 13-də vəfat etmişdir.

O, cəmi 52 il yaşadı. Bu işıqlı dünyadan ömrünün kamilliyə yenicə çatdığı bir vaxtda ayrılan Həsən Əbluc yaddaşlarda da öz kamil və ləngərli səsi ilə elə bu yaşda qaldı. Onu səsinin yaşı ilə ömrünün yaşı bəlkə də üst-üstə düşür. Azı ona görə ki, belə qiraət ustasının səsi heç vaxt qocala, titrəyə, öz təravətini itirə bilməzdi...

Sənətkarın qardaşı kinorejissor Ənvər Əbluc onun haqqında "Həsən Əbluc" filmini lentə almışdır. Bu Həsən Əbluca bir qardaş sevgisi ilə yanaşı, həm də bir tamaşaçı aşiqliyindən irəli gəlmişdir.

115 illiyi

İsmayıl Osmanlı 1902-1978

Aktyor



İsmayıl Osman oğlu Osmanlı 1902-ci il aprel ayının 24-də qədim Nuxada (indiki Şəki), kasıb bir ailədə dünyaya göz açmışdır. On bir yaşında olarkən atası vəfat etmiş, bu səbəbdən mükəmməl təhsil ala bilməyən İsmayıl Şəki İpək Fabrikində, dabbaqxanada işləmişdir. Təbiətən çox şux görünən və məşhur Şəki lətifələri söyləməyi xoşlayan İsmayıl özünü daim səhnədə, tamaşaçılar qarşısında təsəvvür edirdi.

1920-ci ildə o, Şəkidəki fəhlə-kəndli klubunda fəaliyyət göstərən, həvəskar aktyorları bir məram ətrafına toplayan dram dərnəyinə üzv yazılmış, lakin iki ildən sonra Gəncəyə köçdüklərindən altı il buradakı həvəskarlar teatrında çalışmışdır. 1928-ci ildə Tiflis Dövlət Azərbaycan Dram Teatrına dəvət alması da məhz Gəncədə tanınması ilə əlaqədar olmuşdur. Həvəskar aktyorun Tiflis həyatı çox çəkməmişdir. Bakıda fəaliyyət göstərən Milli Dram Teatrının truppasına qəbul olan İsmayıl Osmanlı ömrünün və fəaliyyətinin sonuna kimi bu sənət məbədində çalışmışdır.

İsmayıl Osmanlı dram və faciə janrında xarakterik obrazların, dramatik pyeslərdə yumorlu surətlərin, həm də komediyalarda məsxərəli və satirik rolların ifaçısı olmuşdur. Onun yaratdığı Keçəl Aslan, Fon Hols, Şaliko ("Xanlar", "İnsan" və "Vaqif", Səməd Vurğun), Əmrah ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Şeyx Hadi, Vali, Şakro ("Şeyx Sənan", "Səyavuş" və "Knyaz", Hüseyn Cavid), Munis, Kərim Rəhimli ("Nizami" və "Alov", Mehdi Hüseyn), Əliş ("Qatır Məmməd", Zeynal Xəlil), Kefli Bəşir ("Bahar suları", İlyas Əfəndiyev), Cəbi ("Hacı Qəmbər, Nəcəf bəy Vəzirov), Səfər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Əşrəf ("Türkiyədə", Nazim Hikmət) və onlarla yaddaqalan obrazı misal göstərmək olar.

İsmayıl Osmanlı kino sahəsində də uğurlara imza atmış, "Azərbaycanfilm"in istehsal etdiyi "Kəndlilər" (Daxili işlər naziri), "Bir məhəlləli iki oğlan" (Mahmud), "O olmasın, bu olsun" (Rza bəy), "Əsl dost" (Usta Şirəli), "Yenilməz batalyon" (Yusif), "Mən ki, gözəl deyildim" (Poçt müdiri), "26-lar" (Şahbazov), "Ulduzlar sonmür" (Hacı Zeynalabdin Tağıyev), "Nəsimi" (Nəimi), "Yeddi oğul istərəm" (Kələntər) və sair filmlərdə unudulmaz obrazlar yaratmışdır.

İstedadlı və görkəmi aktyorun yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1940-cı ildə Azərbaycan SSR-in "Əməkdar artist", 1949-cu ildə "Xalq artisti" fəxri adlarına, 1974-cü ildə isə SSRİ-nin "Xalq artisti" fəxri adına layiq görülmüşdür. "Şərəf Nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmişdir.

İsmayıl Osmanlı 1978-ci il iyun ayının 22-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Abbaslı, T. Böyük, rəngarəng aktlar aktyoru: Oynanılası nə "növ" rol qalıb ki, İsmayıl Osmanlı onu oynamamış olsun... /T.Abbaslı //Mədəniyyət.-2012.- 25 aprel. - S.12.

Abdin, T. Siz Osmanlıya məktub yazmısınızmı?: İsmayıl Osmanlı kimdir /T.Abdin //Ədalət.- 2009.- 9 may.- S. 15.

Aytək. Hamam hamam içində...: 107 yaşlı İsmayıl Osmanlı /Aytək //Mədəniyyət.-2009.-24 aprel.-S. 10.

Məhərrəmova, T. Dərin xarakterlər ustası: SSRİ Xalq artisti İsmayıl Osmanlının həyat və yaradıcılığı haqqında /Tərənə Məhərrəmova //Kaspi.-2010. 24-26 aprel.- S.15.

Nərimanoğlu, M. Kələntər dayının obrazlar qalereyası: İsmayıl Osmanlı - 110 /Məhəmməd Nərimanoğlu //Azərbaycan.-2012.- 24 aprel.- S.11.

70 illiyi

Gülbəniz Əzimzadə 1947-2006

Rejissor

Gülbəniz Yusif qızı Əzimzadə 1947-ci il aprel ayının 26-da Bakıda, ziyalı ailəsində dünyaya göz açmışdır. Atası Yusif Əzimzadə yazıçı, anası Gülnaz Salamova isə rəssam idi. Erkən çağlarından ədəbiyyata maraq göstərmiş, "Ulduz" jurnalında, "Молодежь Азербайджана" qəzetində maraqlı yazıları dərc olunmuşdur. Rəngkarlığa böyük həvəs göstərmiş, səkkizinci sinfi bitirdikdən sonra 1963-cü ildə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə qəbul olunmuş, 1968-ci ilə qədər təsviri sənətin sirlərinə yiyələnmişdir.

Gülbəniz Əzimzadə rəssamlıq və yazıçılıq istedadını kinoda birləşdirmək qərarına gəlmiş və SSRİ Xalq artisti Ədil İsgəndərovun rəhbərlik etdiyi ikiillik aktyor kurslarına daxil olmuşdur. 1968-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Həsən Seyidbəylinin "Bizim Cəbiş müəllim" bədii filminin çəkiliş prosesində iştirak etmiş və beləliklə bu sənətə ürəkdən bağlanmışdır.

1969-cu ildə Gülbəniz xanım Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun kino rejissorluğu fakültəsinə, professor İ.Talankinin sinfinə daxil olmuşdur. Diplom işi isə R.İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Nəğmə dərsi" qısametrajlı bədii filmi ("Ömrün səhifələri" kinoalmanaxı) olmuşdur.

1974-1998-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-rejissor işləmişdir. Filmləri bir sıra kinofestivallarda mükafatlara layiq görülmüşdür. Anarın "Dantenin yubileyi" povestini müəlliflə birgə 1978-ci ildə ekranlaşdırmışdır. O, uzun illər Kinematoqrafçılar İttifaqında uşaq kinosu bölməsinin müdiri olmuş, 1994-cü ildə "Sinema-lümyer" kino klubunu yaratmış, bir çox maraqlı kinolayihələr həyata keçirmişdir. Azərbaycan Kinematoqrafçılar Birliyinin idarə heyətinin, Azərbaycan Kinorejissorlar Gildiyasının təftiş komissiyasının üzvü seçilmişdir.

G.Əzimzadəyə böyük uğur qazandıran "Təkcə adanı özünlə apara bilməzsən" bədii filmi bir sıra mükafatlara layiq görülmüş, 1982-ci ildə filmin yaradıcı heyətinə, o cümlədən rejissor Gülbəniz Əzimzadəyə Azərbaycanın "Lenin komsomolu" mükafatı verilmişdir.

Bunlardan başqa, G.Əzimzadə "Qaladan tapılan mücrü", "Ötən ilin son gecəsi", "İmtahan", "Qətl günü" kimi maraqlı filmlərin də quruluşçu rejissorudur. Onun "Müqəddəs oda yanaram" və Orxan Fikrətoğlunun ssenarisi əsasında çəkdiyi "Ümid" filmlərində Qarabağ müharibəsinin gətirdiyi faciələr və insanın həyatda öz yerini axtarması kimi mühüm mövzular öz əksini tapmışdır.

2000-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Gülbəniz Əzimzadə 2006-cı il dekabr ayının 7-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Fərəcov, S. Yaratdığı ekran əsərləri onu yaşadır /S.Fərəcov //Mədəniyyət.- 2014.- 6 avqust.- S.14.

Günel. Film fondunda mərhum rejissor Gülbəniz Əzimzadənin 65 illiyi qeyd edilib /Günel //525-ci qəzet.- 2012.- 14 aprel.- S.17.

Kazımzadə, A. Həyatını yaradıcılığa həsr edən qadın: Gülbəniz Əzimzadə - 65 /A.Kazımzadə //Mədəniyyət.- 2012.-11 aprel.-S.12.

Kazımzadə, A. "Qətl günü"nün rejissoru haqqında bilmədiklərimiz /A.Kazımzadə //Mədəni həyat.- 2015.- № 1.- S.78; 81.

100 illiyi

Məhluqə Sadıqova
1917-2003

Aktrisa

Məhluqə Ələsgər qızı Sadıqova 1917-ci il aprel ayının 28-də Şuşa şəhərində, sənətkar ailəsində anadan olmuşdur. Beş il 1 saylı qız məktəbində oxumuşdur. 1930-cu ildə ailəsi Bakı şəhərinə köçmüş və o, 6 saylı məktəbdə yeddinci sinfi, 1936-cı ildə isə Bakı Tibb Texnikumunun diş texnikliyi fakültəsini bitirmişdir.

Texnikumda təhsil almaqla yanaşı rəqs və dram dərnəklərində də məşğul olmuş və Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Rəqs ansamblının üzvü kimi səhnəyə çıxmışdır. 1936-cı ildə Akademik Milli Dram Teatrına işə götürülmüşdür. Bu sənət məbədində ilk rolu "Şahnamə" əsərində Firuzə obrazı olmuşdur. Həvəskar aktrisa kimi səhnəyə gəlişi sonralar ona böyük uğur gətirmişdir. Görkəmli sənət ustaları ilə ünsiyyəti, öyrənməyə can atması, aktyor sənətinin sirlərini rahat mənimsəməsi, müxtəlif rolları fərqləndirməyi bacarması, obrazı olduğu kimi canlandırması tezliklə onu həm kollektivə, həm də tamaşaçılara sevdirmişdir. Aktrisa 54 il bu teatrda çalışmışdır.

1992-ci ildə, Bakı Bələdiyyə Teatrı təzə yarananda həmin teatrda fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan teatr məktəbinə xas olan yüksək peşəkarlıq, böyük emosional təsir gücü, zamanın ruhunu gözəl əks etdirmək bacarığı onun yaradıcılığında öz parlaq ifadəsini tapmışdır. Aktrisa Azərbaycanın böyük sənətkarlar nəslinin yaradıcılıq ənənələrinə həmişə sadiq qalmışdır.

Səhnəmizə Azərbaycan qadınının sadə və təmkinli danışığını, şirin ləhcəsini gətirən Məhluqə Sadıqova XX əsr milli mədəniyyətimiz tarixində məharətli bədii qiraət ustası kimi də yaxşı tanınmışdır. O, uzun illər Azərbaycan radiosunda "Bulaq" verilişinin əvəzsiz aparıcısı olmuş, özünün dərin təsir gücünə malik, emosional və bənzərsiz səsi sayəsində tükənməz xəzinə olan xalq yaradıcılığını Azərbaycan dinləyicisinə sevdirməsi ilə yaddaşlarda silinməz iz qoymuşdur. 40 ildən çox bu verilişin əvəzsiz ifaçılarından biri olmuşdur. Məhluqə Sadıqovanın səsi ulu keçmişimizdən gəlirdi. Tərəf-müqabili Səməndər Rzayevlə birlikdə "Bulağ"ı həqiqətən sevilən, həvəslə gözlənilən bir veriliş kimi təqdim edirdilər.

Üslub və forma, məzmun və mahiyyət, estetik dəyər və psixoloji tutum baxımından bütün janrlarda hazırlanmış tamaşalarda iştirak etmişdir. Aktrisa Sona, Gülüş, Yaxşı ("1905-ci ildə", "Sevil", "Almas", C.Cabbarlı), Tərlan ("Həyat", M.İbrahimov), İntizar ("Vəfa", R.Rza), Zəhra ("Şeyx Sənan", H.Cavid), Sonya ("Vanya dayı", A.Çexov) və s. rollarda məharətlə çıxış etmişdir.

Məhluqə Sadıqova 1949-cu ildə Azərbaycan Respublikasının "Əməkdar artist", 1978-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Milli teatr sənətinin tanınmış nümayəndəsi, lirik və xarakterik obrazların mahir ifaçısı Məhluqə Sadıqova 2003-cü il avqust ayının 15-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Xəlilzadə, F. Sənətdə keçən ömürlər: Şuşanın gözəlləri /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 6 may.- S.10.

Rəhimli, İ. Məhluqə Sadıqova //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.342-343.

Sadıqova Məhluqə //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1984.- C.VIII.- S.256-257.

50 illiyi

Qorxmaz Eyvazov 1967-1994

Milli Qəhrəman

Qorxmaz Abış oğlu Eyvazov 1967-ci il aprel ayının 1-də Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. O, 1984-cü ildə orta məktəbi bitirərək, 127 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1985-ci ildə ordu sıralarına çağırılmış və Ukraynada hərbi xidmətdə olarkən 6 aylıq serjantlıq kursunu bitirmişdir. Xidmət müddətində fəxri fərmanlarla yanaşı, birinci dərəcəli idmançı vəsiqəsi almış və döş nişanı ilə də təltif edilmişdir.

Qorxmaz 1987-ci ildə əsgəri xidmətini başa vurub vətənə dönmüş, 1988-ci ildə Laçında yaradılmış partizan dəstəsinə qoşulmuşdur.

1992-ci ilin mart ayında Laçın rayon Polis şöbəsində işə qəbul edilmişdir.

Sıravi polis işçisi Q.Eyvazovun döyüş yolu öz doğma yurdundan Qazdərəsi, Suarası, Mazutlu kəndlərinə kimi uzanır. Qızartı dağı uğrunda gedən döyüşlər zamanı onun xüsusi fəallığı nəticəsində düşmənin bir tankı ələ keçirilir.

1992-ci ildə avqust ayının 4-də erməni quldurları Qızartı dağını yenidən ələ keçirmək üçün hücuma keçirlər. Cəsur döyüşçü bu vuruşda qolundan güllə yarası alır. O, sağalan kimi, qısa müddətdən sonra yenidən döyüşə atılır, Füzuli rayonu ərazisində gedən döyüşlərdə böyük şücaət göstərir. Horadiz əməliyyatı zamanı göstərdiyi igidliyə görə onu rota komandiri təyin edirlər.

10 fevral 1994-cü ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Qorxmazın son döyüşü olur. O, düşmənin xeyli canlı qüvvəsini məhv etmiş və özü də bu döyüşdə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Qorxmaz Abış oğlu Eyvazova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Laçın rayonunun Güləbird kənd xəstəxanası qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Eyvazov Qorxmaz Abış oğlu-Daxili İşlər Nazirliyi, starşina-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə] : Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.-1995.- 17 yanvar.- S. 1.- (ölümündən sonra).

Adına yaraşan oğul: Rejissor Yalçın Verdiyevin Milli Qəhrəman Qorxmaz Eyvazova həsr etdiyi eyniadlı sənədli filminin təqdimatı keçirilib //Mədəniyyət.-2014.- 2 iyul.-S.7.

Eyvazov Qorxmaz Abış oğlu: biblioqrafiya //Azərbaycanın Milli Qəhrəmanları /Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.48.

Əliyev, O. Eyvazov Qorxmaz Abış oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları.- Müqəddəs amal.- Bakı,2015.-S.183.

Əsgərov, V. Eyvazov Qorxmaz Abış oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.65.

65 illiyi

Alı Mustafayev 1952-1991

Milli Qəhrəman

Alı Mustafa oğlu Mustafayev 1952-ci il aprel ayının 14-də Qazax rayonunun Qazaxbəyli kəndində, fəhlə ailəsində doğulmuşdur. 1959-cu ildə Qazaxbəyli kənd səkkizillik məktəbinə getmiş, 1969-cu ildə Daş Salahlı kənd orta məktəbini bitirmişdir. 1971-1973-cü illərdə ordu sıralarında xidmətdə olmuşdur. 1973-cü ildə əsgəri xidmətini başa vurduqdan sonra Bakı Elektrik Maşınqayırma zavodunda əmək fəaliyyətinə başlamışdır. Zavodda işlədiyi müddətdə "Elektrik" qəzetində tez-tez maraqlı yazılarla, şeirlərlə çıxış etmişdir.

A.Mustafayev 1976-cı ildə zavod həmkarlar təşkilatının və zavod rəhbərliyinin göndərişiylə ADU-nun (indiki BDU-nin) jurnalistika fakültəsinə daxil olmuş, 1981-ci ildə təhsilini bitirib, Azərbaycan Dövlət Teleradio Şirkətinin "Xəbərlər" proqramında jurnalist kimi fəaliyyətə başlamışdır. Çox keçmir ki, "İlin ən yaxşı jurnalisti", "Qızıl Qələm" mükafatlarına layiq görülür. İşləyə-işləyə təhsilini davam etdirərək, Bakı Ali Partiya Məktəbini də bitirir.

1989-1990-cı illərdə Moskva şəhərində Azərbaycan Respublikası Ali Məclisi tərəfindən parlament müxbiri olmuşdur.

Ədəbi-bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Onun lirik şeirləri və publisist yazıları dövri mətbuatda müntəzəm çap edilmişdir. Çevik, qorxmaz bir telejurnalist idi, qaynar nöqtələrdən reporajlar hazırlamağa birinci gedirdi. Erməni faşist quldurlarının Azərbaycana hücumu dövründə Dağlıq Qarabağdan - qaynar nöqtələrdən, eləcə də yüksək dövlət səviyyəli rəsmi görüşlərdən hazırladığı müsahibə və reportajlarla rəğbət qazanmışdı. Bir neçə dəfə vertolyot qəzasına düşsə də, təhlükəli ezamiyyətlərə getməkdən çəkinməmiş, dəfələrlə ölümdən qayıtmışdır.

1991-ci il noyabr ayının 19-da Dağlıq Qarabağın Qarakənd kəndi yaxınlığında sülhməramlı nümayəndələri aparan vertolyotun düşmən mərmisi tərəfindən vurulması nəticəsində şəhid olmuşdur. Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir.

1991-ci ildə fəaliyyətinə görə "İlin ən yaxşı jurnalisti" mükafatına, respublikanın "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür.

Ölümündən sonra ona Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Nərimanov rayonundakı 202 saylı orta məktəb Alı Mustafayevin adını daşıyır.

Bakının 3-cü mikrorayonundakı küçələrindən birinə qəhrəmanın adı verilmişdir.

Ə d ə b i y y a t

Dəli bir ağlamaq keçir könlümdən: şeirlər /A.Mustafayev.- Bakı: Nicat, 1992.- 152 s.

Dəli bir ağlamaq keçdi könlümdən... və ya jurnalist Milli Qəhrəman Alı Mustafayevin həyat yolundan səhifələr //Mövqe.- 2015.- 27 oktyabr.-S.14.

Əsgərov, V. Mustafayev Alı Mustafa oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.219.

Əliyev,O. Mustafayev Alı Mustafa oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı,2015.-S.298.

Məhərrəmova, N. Həm jurnalist, həm də qəhrəman /N.Məhərrəmova //Kaspi.- 2010. 24-26 aprel.- S.13.

Qarakəndin mavi səmasında bitən jurnalist ömrü //Xalq cəbhəsi.- 2015.- 17 aprel.- S.14, Kaspi.-2015.- 25-27 aprel.- S.7.

50 illiyi

Rizvan Teymurov 1967-1991

Milli Qəhrəman

Rizvan Rəhman oğlu Teymurov 1967-ci il aprel ayının 16-da Şuşa rayonunun Quşçular kəndində, ziyalı ailəsində anadan olmuşdur. 1984-cü ildə doğma kəndlərində orta məktəbi bitirmişdir. Bir il sovxozda işləmiş, 1985-ci ildə ordu sıralarına çağırılmışdır. Əsgəri xidmətini Omsk şəhərində başa vurduqdan sonra vətənə qayıtmışdır. 1987-ci ildə Rusiyanın Arxangelsk vilayətinə getmiş, 1990-cı ildə yenidən vətənə qayıdaraq iaşə xidməti sahəsində çalışmışdır. Şuşa rayon DİŞ-in Xüsusi Təyinatlı Polis Dəstəsi yarananda, dəstənin üzvlərindən biri də R.Teymurov olmuşdur. Bu dəstə Qaradağlı, Sırxavənd, Umudlu, Meşəli, Cəmilli kəndlərində erməni yaraqlılarına qarşı mübarizədə iştirak etmişdir.

R.Teymurov Qarabağ torpağını qarış-qarış gəzmişdi. O, Xankəndi, Kərkicahan ətrafındakı döyüşlərdə rəşadətlə vuruşmuşdu.

9 dekabr 1991-ci il... Bu tarix cəsur əsgərin son döyüşü olmuş, o, Xankəndi və Kərkicahan ətrafında gedən qanlı döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Rizvan Teymurov Şuşa şəhərinin Quşçular kəndində dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Teymurov Rizvan Rəhman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakının Nizami rayonundakı küçələrdən birinə qəhrəmanın adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Teymurov Rizvan Rəhman oğlu – starşina – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il /Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (ölümündən sonra).

Əliyev, O. Teymurov Rizvan Rəhman oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı, 2015.- S.351.

Əsgərov, V. Teymurov Rizvan Rəhman oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.274.

Nazim, N. Teymurov Rizvan Rəhman oğlu: (1967-1991) //Nazim N. İstiqlal ulduzları.- Bakı, 1995.- S.166-168.

Seyidzadə, M. Teymurov Rizvan Rəhman oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.216.

55 illiyi

Rasim İbrahimov 1962-1992

Milli Qəhrəman

Rasim Səxavət oğlu İbrahimov 1962-ci il aprel ayının 18-də Bakı şəhəri Əzizbəyov rayonunun Çilov adasında, neftçi ailəsində anadan olmuşdur. 1969-cu ildə buradakı 131 saylı məktəbin birinci sinfinə getmiş və səkkizinci sinifədək həmin məktəbdə təhsil almışdır.

1977-ci ildə C.Naxçıvanski adına Hərbi məktəbə daxil olan R.İbrahimov 1979-cu ilədək burada oxumuşdur. 1983-cü ildə Almaniyaya hərbi xidmətə göndərilən Rasim İbrahimov 1988-ci ildə Bakıya qayıtmış, bir müddət Respublika Hərbi Komissarlığında çalışmışdır. Sonra Ağsu rayon Hərbi Komissarının müavini vəzifasinə təyin edilmişdir. Burada işlədiyi müddətdə Baş Qərargahın Saratov şəhərindəki 3 aylıq kursunda oxumuşdur. Vətənə qayıtdıqdan sonra Füzuli rayonunda hərbi komissarın müavini kimi çalışmışdır.

Həmin vaxtlar erməni silahlı birləşmələri tez-tez Azərbaycanın sərhəd bölgələrinə hücüm edir, kəndləri, şəhərləri atəşə tuturdular. R.İbrahimov bu çətin, qarışıq vaxtda Füzuli rayonunun cəsur oğulları ilə birlikdə könüllü özünümüdafiə taboru yaradır. Təcrübəli zabit olduğunu nəzərə alaraq onu tabora komandir təyin edirlər. Bu tabor Füzuli rayonunun kəndlərini mərdliklə qoruyurdu. Döyüşlərdə göstərdiyi şücaətə görə Rasim İbrahimova mayor rütbəsi verilmişdir.

Tabor 1992-ci il 26 iyun tarixində Tuğ kəndi uğrunda döyüşlərdə onlarla erməni quldurunu məhv edərək digər dəstənin gəlib çatmamasından mühasirəyə düşür. Cəsur komandir R.İbrahimov döyüşçü dostlarını mühasirədən xilas edərkən özü düşmənin mühasirədə qalmış, ermənilərə təslim olmayaraq "Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmayacaq!"- deyərək özünü qumbara ilə partlatmışdır.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ailəli idi. Bir qızı, bir oğlu var. Oğlu bu gün atasının yolunu davam etdirir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə İbrahimov Rasim Səxavət oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Vaxtilə təhsil aldığı 131 saylı orta məktəb indi onun adını daşıyır. Çilov adasında abidəsi ucaldılmış, qəhrəmanın adına xatirə bağı salınmışdır.

Ə d ə b i y y a t

Əliyev, O. İbrahimov Rasim Səxavət oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı,2015.- S.238.

Əsgərov, V. İbrahimov Rasim Səxavət oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.137-138.

Məhərrəmli, Z. Hər oğula qəhrəman demirlər: Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimov haqqında /Z.Məhərrəmli //Bakı.- 1996.- 12 aprel.

Piriyev, Q. Şəhid atası: Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimov, Firudin Mehdiyev, Arif Allahverdiyev haqqında /Q.Piriyev //Xalq qəzeti.- 2001.- 11 iyul.-S.5.

45 illiyi

Fariz Mədətov 1972

Milli Qəhrəman

Fariz Əlövsət oğlu Mədətov 1972-ci il aprel ayının 18-də Yevlax rayonunun Varvara kəndində anadan olmuşdur. 1979-1989-cu illərdə burada təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Mingəçevir şəhərində sürücülük peşəsinə yiyələnmişdir. 1990-1992-ci illərdə hərbi xidmətdə olmuşdur. Almaniyanın Ordrul şəhərində hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıtmışdır. Həmin zaman Qarabağ müharibəsi artıq başlamışdı. F.Mədətov torpaqlarımızı erməni işğalından azad etmək məqsədi ilə Milli Ordu sıralarında döyüşlərə girir.

İlk döyüşü 776 saylı Xüsusi Təyinatlı hərbi hissənin tərkibində Qubadlı rayonunun Başarat kəndində olur. Kəşfiyyatçı kimi çox böyük uğur qazanır. Sonra onu Füzuli rayonuna göndərirlər. Yağlıvənd, Tuğ, Horadiz kəndlərində qaynar döyüşlərə atılır. Fariz bu döyüşlərdə əsl qəhrəmanlıq səhifələri yazır. Daha sonra Kəlbəcər və Goranboy rayonlarında döyüşlərə girir. Bu döyüşlərdə də Fariz öz cəsarəti və qorxmazlığı ilə fərqlənir. O, xeyli erməni yaraqlısını şəxsən özü məhv edir.

1994-cü il Tərtər rayonunun Tonaşen kəndi uğrunda gedən döyüşdə yaralanır. Bir müddət Mingəçevir hospitalında müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdır. 1996-cı il ordudan tərxis olunur və Yevlax rayon Polis İdarəsində çalışmağa başlayır. Fariz 1998-ci ildə Polis Akademiyasına daxil olur 2003-cü ildə təhsilini başa vurur.

O, Yevlax rayon Polis şöbəsində Post Patrul Xidmətinin taqım komandiri vəzifəsində işləmişdir. Kapitan rütbəsinədək yüksələn F.Mədətov indi də polis şöbəsinin Qeydiyyat və Şəxsiyyət qrupunun inspektoru vəzifəsində çalışır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Mədətov Fariz Əlövsət oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" dı verilməsi haqqında: [Mədətov Fariz Əlövsət oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və

şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.

Əsgərov, V.Fariz Mədətov/"Azərbaycanın Milli Qəhrəmanları" (Yenidən işlənmiş II nəşr). Bakı: "Dərələyəz-M", 2010.-S. 186.

Əliyev, O. Mədətov Fariz Əlövsət oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı, 2015.- S.269.

Mədətov Fariz Əlövsət oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- B., 2008.- S.132.

65 illiyi

Mikayıl Cəbrayılov
1952-1990

Milli Qəhrəman

Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov 1952-ci il aprel ayının 27-də Şəki rayonunun Oxut kəndində - Fransa partizan hərəkatının əfsanəvi döyüşçüsü Əhmədiyyə Cəbrayılovun ailəsində anadan olmuşdur. O, səkkizinci sinfə qədər doğulduğu kənddə oxumuş, sonra təhsilini Şəki şəhər 5 saylı fəhlə-gənclər məktəbində davam etdirmişdir.

Əmək fəaliyyətinə Şəki İpək İstehsalat Birliyində başlamışdır. 1971-ci ildə Şəki şəhər Daxili İşlər şöbəsində milis nəfəri vəzifəsinə təyin edilir. 1976-cı ildə Milis məktəbinə oxumağa göndərilən M.Cəbrayılov 1978-ci ildə məktəbi müvəffəqiyyətlə bitirib, leytenant rütbəsi alır və sahə müvəkkili vəzifəsinə təyin edilir.

1990-cı il dekabrın 12-də baş leytenant Mikayıl Cəbrayılov dörd nəfər polis əməkdaşı ilə Qarabağa ezam olunur. Onlar Cəmilli kəndinin müdafiəsində iştirak etməli idilər. Bu o vaxt idi ki, erməni yaraqlıları Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə, eləcə də digər Azərbaycan rayonlarına tez-tez hucum edir, dinc əhaliyə aman vermirdilər. Mikayıl dekabrın 15-də mühasirədə qalmış Cəmilli kəndinin əhalisi üçün ayrılmış 4 ton taxılı gətirmək üçün 15 nəfər əsgərlə Kosalar kəndinə yola düşür. Cəmilli-Kosalar arasında ermənilər qəflətən hücuma keçir. Snayper gülləsi bir polis serjantını yaralayır. Az sonra Mikayıl Cəbrayılov da çiynindən yara alır. O, maşından yerə atılıb, yoldaşlarının həyatını xilas etmək üçün düşmənlə ölüm-dirim mübarizəsinə girir. Kənd sakinlərinə döyüş meydanını tərk etməyi əmr edən Mikayıl quldurlarla təkbətək qalır. Baş leytenant ermənilərin hucumunun qarşısını qəhrəmanlıqla alsa da, son anda döyüş meydanında həlak olur.

Ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Cəbrayılov Mikayıl Əhmədiyyə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Şəki rayonunun Oxut kəndində dəfn edilmişdir. Adına Şəki şəhərində küçə var. Həlak olduğu kənd onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrur əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu-Şəki ŞDİŞ sahə inspektoru, milis baş leytenantı-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.-№13.-S.24.- (ölümündən sonra).

Cəmilzadə, H. Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu //Cəmilzadə H. Azərbaycanın ilk Milli Qəhrəmanları.- Bakı, 1993.- S. 59-66.

Əliyev, O. Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı, 2015.- S.177.

Əsgərov, V. Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu //Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.-S.58-59.

Məhərrəmova, T. Əfsanəvi partizanın igid oğlu /T.Məhərrəmova //Kaspi.-2015.-29 aprel.- S.10.

110 illiyi

Məmmədhüseyn Təhmasib 1907-1982

Ədəbiyyatşünas

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 2 cilddə /M.Təhmasib; red.hey.: K.Abdullayev (elmi red.) və b.; tərt.: M.Cəfərli, A.Hacılı, E.Şükürlü; Azərb.Resp, Təhsil Nazirliyi, Bakı Slavyan Un-ti.-Bakı: Mütərcim, 2010.- C.1.- 487 s.

Seçilmış əsərləri: 2 cilddə /M.Təhmasib; elmi red. K.Abdullayev; Azərb. Resp.Təhsil Nazirliyi, Bakı Slqavyan Un-ti.- Bakı: Kitab aləmi, 2011.- C.2. Azərbaycan Xalq dastanları: Orta əsrlər.- 438 [1] s.

Allahmanlı, M. Yaşayan Məmmədhüseyn Təhmasib /M.Allahmanlı //Kredo.- 2012.- 10 mart.- S.5.

Qasımlı, M. Məmmədhüseyn Təhmasib: Elm yollarında /M.Qasımlı //Ədəbiyyat məcmuəsi: Nizami ad. Ədəbiyyat İnstitutunun Əsərləri.- 2013.- C.XXIV.- S.187-190.

Orucqızı, X. Novruz bayramı M.H.Təhmasibin araşdırmalarında /X.Orucqızı //Təzadlar.- 2013.-14 mart.- S.13; 16 mart.- S.11.

Məmmədhüseyn Abbasqulu oğlu Təhmasib 1907-ci il aprel ayının 12-də Naxçıvan şəhərində anadan olmuşdur. İbtidai təhsilini Naxçıvanda alan Təhmasib 1923-1927-ci illərdə Bakı Pedaqoji Texnikumunda oxumuşdur. Təhsilini başa vurduqdan sonra ilk əmək fəaliyyətini Naxçıvan şəhər orta məktəbində başlamışdır. Dörd il müəllim işlədikdən sonra 1930-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olmuş, 1933-cü idə oranı bitirmişdir. 1933-1936-cı illərdə əmək fəaliyyətini Kürdəmir, Əlibayramlı (indiki Şirvan), Göyçay şəhər maarif şöbələrində metodist kimi davam edən M.Təhmasib, 1939-1951-ci illərdə ADU-nun filologiya fakültəsində baş müəllim işləmişdir. 1944-cü ildən ömrünün sonunadək Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunda Xalq yaradıcılığı şöbəsinin elmi əməkdaşı, sonra isə şöbə müdiri kimi çalışmışdır. M.Təhmasib 1939-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

1946-cı ildə "Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" mövzusunda namizədlik, 1965-ci ildə "Azərbaycan xalq dastanları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1970-ci ildə professor elmi rütbəsini almışdır.

Ədəbi yaradıcılığa 1934-cü ildən başlamışdır. 30-cu illərin sonları, 40-cı illərin əvvəllərindən başlayaraq "Məmmədhüseyn Təhmasib" imzası elmi və ədəbi orqanlarda ciddi və sanballı məqalələrin müəllifi kimi tanınmışdır.

"Qaçaq Nəbi" ssenarisi 1938-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap edilmişdir. Müharibə illərində qələmə aldığı "Əfsanəvi quşlar", "Azərbaycan ədəbiyyatında div surəti" kimi dərin elmi məqalələr alimin elmi nüfuzunun artmasında mühüm rol oynamışdır. Təqribən iyirmi beş il ərzində o, yüzdən yuxarı aşığın repertuarındakı "Koroğlu" qollarını yazıya almışdır.

1960-cı ildə Təhmasibin ssenarisi əsasında "Bir qalanın sirri", "Onu bağışlamaq olarmı?" adlı filmlər çəkilmişdir. 1938-ci ildə "Bahar", 1941-ci ildə "Aslan yatağı", 1951-ci ildə "Çiçəklənən arzular", 1956-cı ildə "Hind nağılı" və b. pyes-nağılları respublikanın teatr səhnələrində tamaşaya qoyulmuşdur.

"Kitabi-Dədə Qorqud" dastanının elm aləmində tanınmasında da böyük xidmətləri olmuşdur.

1967-ci ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə, 1977-ci ildə "Əmək veteranı" və digər medallarla təltif olunmuşdur.

Məhəmmədhüseyn Təhmasib 1982-ci il oktyabr ayının 5-də Bakı şəhərində vəfat etmişdir.

110 illiyi

Həbibulla Əmirxanov 1907-1986

Akademik

Həbibulla İbrahim oğlu Əmirxanov 1907-ci il aprel ayının 28-də Dağıstanın Qunib rayonunun Qaradağ kəndində doğulmuşdur. 1925-ci ildə Bakıya köçmüş və Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun Fizika kafedrası ilə yanaşı, SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan bölməsinin Fizika sektorunda çalışmışdır.

Azərbaycan Elmlər Akademiyasının təşkilinin fəal iştirakçılarından olan Həbibulla Əmirxanov, 1939-cu ildən 1944-cü ilə qədər Azərbaycan Elmlər Akademiyasının Fizika bölməsinin ilk rəhbəri, 1944-1947-ci illərdə Fizika İnstitutunun, 1947-1950-ci illərdə Fizika və Riyaziyyat İnstitutunun ilk direktoru olmuşdur.

1949-cu ildən Azərbaycan SSR Elmlər Akademiyasının akademiki olan H.Əmirxanovun neft fizikası, yarımkeçiricilər, geofizika və fiziki termodinamika sahəsində tədqiqatları, istilik tutumunu və istilikkeçirməni ölçmək üçün yüksək dəqiqliyi ilə fərqlənən cihazları elmi dairələrdə yüksək qiymətləndirilmişdir.

1950-ci ildən SSRİ Elmlər Akademiyasının Dağıstan filialının sədri işləmişdir.

Ümumittifaq "Bilik" cəmiyyətinin Dağıstan MSSR bölməsinin sədri, RSFSR Ali Sovetinin 8-10-cu çağırış üzrə deputatı seçilmişdir.

H.Əmirxanov 1942-ci ildə fizika riyaziyat elmləri doktoru, 1970-ci ildə SSRİ Elmlər Akademiyasının üzvü olmuşdur.

Akademik RSFSR, Azərbaycan SSR və Dağıstan MSSR-in "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür. "Lenin" , "Oktyabr İnqilabı" , 3 dəfə "Qırmızı Əmək Bayrağı" ordenləri ilə, təltif olunmuşdur.

Həbibulla Əmirxanov 1986-cı ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Akademik Həbibula Əmirxanovun 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirildı //Elm.-2007.-30 aprel.-S.16.

Əmirxanov Həbibulla İbrahim oğlu //Azərbaycan Sovet Ensiklopediyası.- Bakı, 1980.- C.IV.- S.205.

85 illiyi

Nadir Seyidov 1932-2015

Akademik

Ədəbiyyat

Azərbaycan alimlərinin 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qələbənin əldə edilməsinə verdikləri elmi töhfələr: Alman faşizmi üzərində Qələbənin 65 illik yubileyinə həsr olunur /N.Seyidov //Elm.- 2010.- 21 aprel.- S.7.

Nadir Mir-İbrahim oğlu Seyidov: biblioqrafik göstərici /AMEA, Y. H.Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tu, Mərkəzi Elmi Kitabxana; tərt. G.Q. Abbasova, V. X. Mirzəyeva; red. V.M.Abbasov, A.H. Əzizov, H.C.İbrahimov.-Bakı: Elm, 2014.-162, [2] s.

Əzizov, A. Ömrün müdriklik zirvəsində: Akademik Nadir Seyidov-80 /A.Əzizov //Elm.-2012.- 5 iyun.- S.13.

Görkəmli akademik Nadir Seyidov son mənzilə yola salınıb //Azərbaycan.- 2015.- 7 oktyabr.- S.9.

İnternetdə

www.anl.az/down/meqale/azerbaycan/2015/oktyabr/457808.htm

www.anl.az/down/meqale/azerbaycan/2015/oktyabr/457605.htm

Nadir Mir-İbrahim oğlu Seyidov 1932-ci il aprel ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini 1938-1948-ci illərdə Naxçıvan şəhərindəki 1 saylı oğlan orta məktəbində almış, 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur.

1957-ci ildə Azərbaycan EA-nın Neft İnstitutunun aspiranturasına qəbul olunmuş, 1960-cı ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1971-ci ildə professor elmi rütbəsini almışdır.

Əmək fəaliyyətinə 1955-ci ildən etibarən Ümumittifaq Elmi Tədqiqat Olefinlər İnstitutunda başlayan Nadir Seyidov 1961-ci ilədək laborant, kiçik elmi işçi, bölmə rəhbəri və şöbə müdiri, 1961-1992-ci illərdə institutun "Elastomerlər" laboratoriyasının müdiri, 1992-1994-cü illərdə "Elastomer" kiçik müəssisəsinin direktoru, 1995-1997-ci illərdə Elmi İstehsalat Olefinlər İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmış, 1997-2008-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda işləmişdir.

1989-cu ildə N.M.Seyidov yüksək molekullu birləşmələr ixtisası üzrə AEA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Yüksəkixtisaslı mütəxəssis olan N.M.Seyidov yüksək molekullu birləşmələr sahəsində özünəməxsus istiqamət yaratmaqla, bu məktəbin əsasını qoymuşdur. 400-dən çox elmi məqalənin, o cümlədən 4 monoqrafiya, 100-dən çox müəlliflik şəhadətnaməsinin, 16 xarici patentin müəllifidir. Onun rəhbərliyi ilə 4 elmlər doktoru, 40-a yaxın tədqiqatçı elmlər namizədi alimlik dərəcəsi almışdır. O, uzun illər respublikamızın bir sıra ali məktəblərində, o cümlədən, Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti), Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, 1997-ci ildə Beynəlxalq Energetika və Ekologiya Akademiyasının həqiqi üzvü seçilmişdir. "Şərəf nişanı" ordeni, "Neft Emalı və Neft-Kimya Nazirliyinin əlaçısı "döş nişanı, Xalq Təsərrüfatı Nailiyyəti Sərgisinin 2 medalı, AMEA-nın Fəxri Fərmanı ilə mükafatlandırılmışdır. 2002-ci ildə N.M.Seyidov Amerika Bioqrafiya İnstitutunun "Cəmiyyətin tərəqqisi naminə" təsis olunmuş qızıl "Amerika Şöhrət medalı"na layiq görülmüşdür. 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

2012-ci ildən Prezident təqaüdçüsü idi.

Nadir Mir-İbrahim oğlu Seyidov 2015-ci il oktyabr ayının 5-də, ömrünün 84-cü ilində vəfat etmişdir.

Beynəlxalq Uşaq Kitabı Günü 1953

Beynəlxalq Uşaq Kitab Gününün bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif etmişdir. Uşaq ədəbiyyatı gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi vardır. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olmuşdur. 1953-cü ildə Yella Lepman uşaq ədəbiyyatı üzrə "balaca nobel mükafatının" - "Hans Xristian Andersen" mükafatının təsis edilməsini təklif etmişdir.

1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası (International Board on Books for Young People-IBBY) tərəfindən isə Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün - aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir.

Ümumiyyətlə, uşaq kitablarının tarixi 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsiylə başlayır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədiylə rəsmlərin yer aldığı kitab nəşr etdirib. XVIII əsrdə uşaqlara öz zövqlərinə görə kitab seçmək imkanı yaranmağa başlayıb. D.Defo və C.Sviftin "böyüklər" üçün yazılmış "Robinzon Kruzo" (1719) və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olunub. Şərqdə "Min bir gecə", "Ələddin", "Əli-Baba və qırx quldur", "Sindibadın yeddi səyahəti" nağılları da qeyd olunmalıdır. Qrim qardaşlarının nağıllar kitabı bu baxımdan diqqəti cəlb edir. 1846-cı ildən başlayaraq H.X.Andersenin qələmə aldığı nağılları uşaqlar bu gün də çox sevirlər. Müəlliflərin və kitabların adını çox sadalamaq olar. XIX əsri uşaq ədəbiyyatının "qızıl əsri" sayanlar da çoxdur. XIX-XX əsrlər Azərbaycanda da uşaq ədəbiyyatının inkişafı ilə xarakterizə olunur.

1953-cü ildən etibarən məşhur nağılçının adını daşıyan bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə, dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsmi çəkən 17 illüstrasiyaçı - rəssama təqdim olunub. İlk dəfə bu, 1956-cı ildə ingilis nağılçısı Eleanor Fardkona, 1958-ci ildə isə isveç yazıçısı Astrid Lindqrenə verilib. Sonra bu sırada alman yazıçısı Erix Keçtner, Ceyms Kryuss, italyan Canni Rodarı və başqalarının adı yer almışdır.

Bu tarix cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etmək üçün təsis edilmişdir.

Beynəlxalq Uşaq Kitabı Günü ölkəmizdə də özünəməxsus şəkildə qeyd olunur. Hər il İçərişəhərdə bununla bağlı müxtəlif rəsm və kitab sərgiləri keçirilir.

Statistikaya görə isə Azərbaycanda 4313 kitabxanadan 104-ü uşaq kitabxanasıdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılır.

Ə d ə b i y y a t

Azəri, L. Uşaqların kitab bayramı /L.Azəri //Mədəniyyət.- 2013.- 3 aprel.- S.5.

Gülər. Beynəlxalq Uşaq Kitabı Günü qeyd olundu: Firudin Köçərli adına Respublika Uşaq Kitabxanasında /Gülər //Mədəniyyət.- 2012.- 4 aprel.-S.5.

Hüseynov, F. Beynəlxalq Uşaq Kitabı Günü sərgi ilə qeyd olunub /F.Hüseynov //Mədəniyyət.- 2015.- 3 aprel.- S.4.

"Kitab nəsillərin vəsiyyətidir": [Zaqatala rayon Mərkəzi Kitabxanasında eyniadlı mövzuda konfrans keçirilib] //Mədəniyyət.- 2015.- 10 aprel.- S.13.

Mehparə. "Uşaq ədəbiyyatımızda yeni yazarlar nəsli yetişməlidir: Beynəlxalq Uşaq Kitabı Günüdür /Mehparə //Mədəniyyət.- 2012.- 30 mart.- S.15.

Tofiqli, N. Uşaqların kitab günü /N.Tofiqli //Bakı təhsili.- 2010.- 2 aprel.- S.3.

Kəlbəcər rayonunun işğalı günü 1993

Ərazisi: 3054 km²
Əhalisi: 85 228

Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də Ermənistan təcavüzkar qüvvələri tərəfindən işğal olunmuşdur. Kəlbəcər rayonunun ərazisi 3054 km², əhalisinin sayı isə 85228 nəfərdir. Rayon sakinləri hazırda Azərbaycanın 59 bölgəsində məskunlaşmışlar.

Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və girov götürülmüşdür, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəymişdir. Ermənistan hərbi birləşmələrinin martın 27-də başlanan genişmiqyaslı hücumu Kəlbəcər rayonunun işğalı ilə başa çatmışdır. Kəlbəcər Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyüdür. İşğal nəticəsində rayon mərkəzi, 150-ə yaxın kənd, həmçinin onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və s. Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Kəlbəcər rayonunun işğalı Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Kəlbəcərin süqutu ermənilərin sonrakı işğalçılıq planlarının həyata keçməsinə - Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı digər rayonların - Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanın, ümumən 17 min kvadratkilometr ərazidə ən məhsuldar torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmasına şərait yaratmışdır. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi faktiki olaraq başa çatmışdır.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin indiyədək həmin qətnamədən irəli gələn heş bir öhdəlik yerinə yetirilməmişdir. Sonradan BMT Təhlükəsizlik Şurasının Ağdam rayonunun azad edilməsi ilə bağlı 854-cü, Füzuli rayonunun azad edilməsi ilə bağlı 874-cü və digər işğal edilmiş rayonların azad edilməsi ilə bağlı 884-cü qətnamələri qəbul edilmiş, lakin həmin qətnamələr kağız üzərində qalmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır. Ermənistan beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq, bütün dünyanın gözü qarşısında Azərbaycanın bənzərsiz mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi zəminində yaranmışdır. Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu əraziyə daxil olan yeddi rayon Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə etmiş və o vaxtdan bəri ATƏT-in Minsk qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır.

BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bu günə qədər yerinə yetirməmişdir.

Ermənistanın yürütdüyü bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdən bəri dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki, beynəlxalq hüqququn normalarına və prinsiplərinə əsasən dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməli, ərazi bütövlüyünün, suverenliyin pozulmasına yol verilməməlidir.

www. kelbecer-ih.gov.az

Azərbaycan Kitabxana İşçilərinin I Qurultayı 1962

1962-ci il aprel ayının 11-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Kitabxana İşçilərinin I Qurultayı keçirilmişdir. Qurultayda Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri M.Qazıyev, Azərbaycanın görkəmli kitabxanaşünas-biblioqraf alimlərindən A.A.Xələvof, Ə.Xələfov və respublikanın digər tanınmış kitabxanaçıları iştirak etmişlər.

Qurultayın gündəliyində "Sov.İKP-nın XXII qurultayının qərarları ilə əlaqədar olaraq Azərbaycan kitabxana işçilərinin vəzifələri haqqında" mövzusu dururdu. Qurultayda kitabxanaların işini daha da yaxşılaşdırmaq, müasir insanın hərtərəfli tərbiyə olunmasında kitabxanaların rolunu yüksəltmək üçün yollar müzakirə olunmuşdur.

Qurultay Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin müdiri M.Qazıyevin nitqi ilə açılmışdı. M.Qazıyev öz çıxışında respublika kitabxanalarının Sov. İKP MK-nın "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarını yerinə yetirdiyini və zəhmətkeşlərin mənəvi tərbiyəsi sahəsində xeyli iş görüldüyü barədə danışmış, eləcə də kitabxanaların iş səviyyəsi xeyli yüksəldiyini, oxucuların sayının artdığını, kitabxanaların maddi-texniki bazasının möhkəmlənmdiyini qeyd etmişdir.

Digər çıxışçı - Azərbaycan SSR Mədəniyyət naziri A.Bayramov "Partiyanın XXII qurultayının qərarları ilə əlaqədar olaraq Respublika kitabxana işçilərinin vəzifələri haqqında" adlı məruzə etmişdir. Məruzəçi Azərbaycanda kitabxanaçılığın xeyli inkişaf etdiyinə dair parlaq misallar gətirmişdir. O, qeyd etmişdir ki, Sovet hakimiyyəti illərində respublikada həyata keçirilmiş mədəni inqilabın gözəl təzahürlərindən biri də, əhalinin hər yüz nəfəri hesabına kitabxanalarda olan kitabların sayına görə respublikamız nəinki qonşuluqdakı Türkiyəni, hətta bir sıra Qərb ölkələrini də ötüb keçmişdir.

Qurultay yeni insan tərbiyəsi uğrunda fəal mübarizə aparan kitabxana işçilərinin tərkibini yaxşılaşdırmaq məsələsinə də diqqəti cəlb etmişdir. Naxçıvan MSSR Mədəniyyət naziri Z.Əliyev, Respublika Elmlər Akademiyası Əsas Kitabxanasının direktoru N.Axundov, Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq və biblioqrafiya fakültəsinin müəllimi Ə.Xələfov qeyd etmişlər ki, kitabxanaçı kadrların hazırlanması işini genişləndirmək və yaxşılaşdırmaq qarşıda duran labüd vəzifədir.

Qurultayda bir çox mühüm vəzifələrin yerinə yetirilməsi haqqında danışılmışdır. Nümayəndələr yekdilliklə bildirmişdirlər ki, kitabxana vasitəsilə hər bir ailəyə kitab çatdırılmasını təmin etmək üçün respublikamızda kifayət qədər kitabxana və kitab fondu vardır. Bunun üçün işi yaxşı təşkil etmək: mövcud kitabxanaların necə yerləşdiyini nəzərdən keçirmək, onları daha səmərəli yerləşdirmək, ictimai əsaslarla işləyən filialların, səyyar kitabxanaların və kitab verən məntəqələrin sayını xeyli artırmaq, hansı idarəyə mənsub olmasından asılı olmayaraq oxucuların bütün kitabxanalardan istədikləri kitabları ala bilmələri üçün şərait yaradılmasını təmin etmək lazımdır.

Qurultay göstərdi ki, bütün bunlarla yanaşı, respublikada bir çox kitabxanaların işi müasir cəmiyyətin qarşısında qoyulmuş vəzifələrə hələ də tam cavab vermir, zəhmətkeşlərin artan mədəni tələblərini lazımınca ödəmir. Bununla əlaqədar olaraq qurultay respublikada kitabxana işini inkişaf etdirməyi, rəhbərliyi daha da gücləndirməyi, oxuculara xidməti günün tələbləri səviyyəsinə qaldırmağı, oxucu fəallarının sayını artırmağı və onların köməyindən geniş istifadə etməyi, yüksək səviyyəli kitabxana işçiləri hazırlamağı və onların siyasi biliklərini artırmağı mühüm bir vəzifə kimi qarşıya qoydu.

Ə d ə b i y y a t

Quliyev, T. Azərbaycanda kitabxanaçılıq işi: Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında /T.Quliyev; elmi red. A.A.Xələfov.- Bakı, 2004.- H.II.- S.18-19.

Beynəlxalq Mədəniyyət Günü 1935

15 aprel mədəniyyət təqviminin ələmatdar günlərindən biridir.

Ümumdünya mədəniyyət gününün qeyd olunması təklifini ilk dəfə 1931-ci ildə Belçikanın Bryuqqe şəhərində keçirilən konfransda rəssam Nikolay Rerix təklif etmişdir. 1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" imzalanmış müqavilə əsasında reallaşmışdır. Bu gün beynəlxalq hüquq təcrübəsində Rerix Paktı kimi də tanınır. 1998-ci ildə "Mədəniyyətin Müdafiəsi Beynəlxalq Liqası" adlı ictimai təşkilat bu tarixin Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunması təşəbbüsü ilə çıxış etmiş, bu gün bir sıra ölkələrdə qeyd olunmağa başlamışdır.

2008-ci ilin dekabrında Rusiya, İtaliya, İspaniya, Arqentina, Meksika, Kuba, Latviya, Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə 15 aprelin Dünya bayrağı altında Ümumdünya mədəniyyət günü kimi təsdiqi üçün Beynəlxalq hərəkat yaranır.

Azərbaycan da öz mədəniyyəti ilə yaşayan və dünyada nümunə göstərilən ölkələr sırasındadır. Dünyanın ən böyük mədəniyyət təşkilatı olan UNESCO ilə sıx əməkdaşlıq edirik, Azərbaycanın mədəni dəyərləri bu qurum vasitəsilə bütün dünyada təbliğ olunur. UNESCO-nun müvafiq siyahılarında ölkəmizin çox sayda maddi və qeyri-maddi mədəni irs nümunəsi yer alır. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanın mədəni irsinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsində Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri böyükdür.

Azərbaycanda müxtəlif beynəlxalq festivallar keçirilir, eyni zamanda ölkəmiz müxtəlif beynəlxalq mədəniyyət tədbirlərində təmsil olunur, bunun özü dünyanın mədəniyyət proseslərində iştirak deməkdir. Əslində, Beynəlxalq Mədəniyyət Günü xoşməramlı təşəbbüsdür.

Bu gün Azərbaycan muğamı bəşəriyyətin şifahi və qeyri-maddi şah əsərləri siyahısına, Azərbaycan aşıq sənəti, milli bayramımız olan Novruz bayramı, Azərbaycanın ənənəvi xalçaçılıq sənəti, habelə tar ifaçılığı sənəti UNESCO-nun bəşəriyyətin qeyri-maddi irs üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan dünya mədəniyyətinə açıqdır //Mədəniyyət.- 2015.- №4.- S12-13.

Əliyeva, İ. Mədəniyyətlərarası dialoq məkanı: 15 aprel Beynəlxalq Mədəniyyət Cünüdür /İ.Əliyeva //Azərbaycan.- 2014.- 15 aprel.- S.11.

Mehparə. 15 Aprel Beynəlxalq Mədəniyyət Cünüdür: "Dünya mədəniyyətinə hörmət hər bir xalqın öz mədəniyyətinə münasibətindən başlayır" /Mehparə //Mədəniyyət.- 2015.- 15 aprel.- S. 10.

Nərimanoğlu, M. Mədəni dəyərlər xalqları bir-birinə yaxınlaşdırır /M.Nərimanoğlu //Azərbaycan.-2015.-15 aprel.-S.10.

Sultanova, M. Mədəniyyətimiz dünya üçün çox anlaşıqlıdır /M.Sultanova //Ekran-efir.- 2015.- 17 aprel.- S.7.

Tarixi Abidələrin Mühafizəsi Günü 1983

Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunmuşdur. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir.

2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi, Qobustan qoruğu YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir. Orta əsrlərə aid abidələr (Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s.) nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Milli mədəni irsin qorunmasını təmin etmək, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" isə bundan sonra görüləcək işlərin istiqamətini dəqiq müəyyən edən qiymətli bir sənəddir.

İşğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalmışdır. Nəticədə tariximiz üçün mühüm əhəmiyyət kəsb edən, milli özünəməxsusluğu özündə əks etdirən minlərlə tarixi və arxeoloji abidəmiz məhv edilmişdir.

Ə d ə b i y y a t

Ağaoğlu, T. Tarixin yadigarları qayğı sevir: 18 aprel Abidələrin Beynəlxalq Mühafizəsi Günüdür: [işğal altında qalan ərazilərdəki tarixi abidələrimiz haqqında] /T.Ağaoğlu //Azərbaycan.- 2009.- 18 aprel.- S. 7.

Əlizadə, O. Tarixi irsimizin əbədi yaddaşı:18 aprel Abidələrin Beynəlxalq Mühafizə günüdür /O.Əlizadə //Azərbaycan.- 2010.- 18 aprel. - S.6.

Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü 1996



23 aprel Dünya Kitab və Müəllif Hüquqları Günü (World Book and Copyright Day) kimi YUNESCO-nun 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında elan edilmişdir. Bu gün dünya şöhrətli söz ustaları - ingilis şairi və dramaturqu Vilyam Şekspirin (1564-1616), görkəmli ispan yazıçısı Migel de Servantesin (1547-1616) və perulu məşhur tarixçi-yazar İnka Qarsilaso de la Veqanın (1539-1616) xatirəsinə ehtiram olaraq təsis edilmişdir. Onların hər üçü eyni gündə, 1616-cı ilin 23 aprelində vəfat etmişlər.

Müəllif hüququnun əqli mülkiyyətin qorunması və idarə edilməsi ilə iki beynəlxalq təşkilat - ÜƏMT və UNESCO məşğul olur. UNESCO-nun hər il iki mindən artıq adda nəşrləri olan, yeganə sayılan Beynəlxalq Tərcümələr Biblioqrafiyasını (100 ölkəni təmsil edən və müəllif haqqında, onun hansı əsəri, hansı dilə və kim tərəfindən tərcümə edilməsini işıqlandıran kataloq) aparır, Ümumdünya Müəlliflik Hüququ haqqında Konvensiyaya başçılıq edir.

Azərbaycanda dövlət müstəqilliyi bərpa edidikdən sonra, 1993-cü ildə bu sahədə vahid dövlət siyasətini həyata keçirən Müəllif Hüquqları Agentliyi yaradılmışdır.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsinə əsasən, "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur". 1996-cı il oktyabrın 8-də qüvvəyə minmiş "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanun müəllif hüquqlarının, habelə əqli mülkiyyətin qorunmasının əsas prinsip və vasitələrini müəyyənləşdirir. Qanunun 25-ci maddəsinə əsasən, müəlliflik hüququ əsərin yazılması ilə yaranır, müəllifin bütün həyatı boyu və ölümündən sonra (bəzi hallar istisna olmaqla) 70 il qüvvədə qalır. Bu, müəlliflərə və onların vərəsələrinə münasib vaxt ərzində iqtisadi fayda götürməyə imkan verir.

2012-ci ildə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanun qəbul edilmiş, Müəllif Hüquqları Agentliyinin tabeliyində "Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi" yaradılmışdır.

Ə d ə b i y y a t

"Azərbaycan folklorunun və ənənəvi biliklərin qorunması: erməni plagiatçılığı": Elmi konfrans //Ədəbiyyat qəzeti.- 2009.- 24 aprel.- S.5.

Kitablar milli mədəniyyətin dirçəliş resursudur: 22 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə Muzey Mərkəzində beynəlxalq konfrans keçirilib //Azərbaycan.-2012.- 24 aprel.- S. 11; Mədəniyyət.- 2012.- 25 aprel.- S. 3.

Müəllif Hüquqları Agentliyində konfrans-seminar keçirilmişdir: Ümumdünya kitab və Müəlliflik Hüququ Günü və Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə // Azərbaycan.- 2005.- 23 aprel.- S.3.

Salmanlı, R. Əqli mülkiyyətin qorunması müstəsna əhəmiyyət kəsb edir: 23 aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür /R.Salmanlı // Azərbaycan.-2015.- 23 aprel.- S.7.

80 illiyi

“Koroğlu” operası 1937

Azərbaycan professional musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin “Koroğlu” operası onun şah əsəri hesab olunur. Xalqın yaddaşında daşlaşmış “Koroğlu” dastanı əsasında opera yazmaq o qədər də asan iş olmasa da, qeyri-adi fitri istedad sahibi Üzeyir bəy möhtəşəm bir opera yaratmışdır. M.S.Ordubadi 1937-ci ildə əsərin librettosu üzərində işləyəndə 1912-ci ildə Bakıda işıq üzü görən kitabçanı nəzərə almasaq, cəmi iki dəfə, 1927-ci ildə V.Xuluflunun, 1936-cı ildə H.Əlizadənin tərtibində “Koroğlu” dastanı çap olunmuşdur. Üzeyir bəy “Koroğlu” operasını yazmaq qərarına gəldikdən sonra iyirmi il xalq musiqisinin əsaslarını dərindən öyrənir. 1932-ci ildə operanı yazmağa başlayır və 1936-cı ildə bitirir.

“Koroğlu” tipik qəhrəmanlıq dastanıdır. Dahi Üzeyir bəy bu əsəri Azərbaycan professional vokal məktəbinin banisi Bülbülün səs diapozonunu nəzərdə tutaraq yazmışdır.

Beş pərdədən ibarət olan operanın librettosu Heydər İsmayılova məxsusdur. Şeirlərin müəllifi Məmməd Səid Ordubadinindir. Tamaşanın rejissoru İsmayıl Hidayətzadə, dirijoru Üzeyir Hacıbəyli, rəssamı Rüstəm Mustafayev olmuşdur.

Mərkəzi Komitə “Koroğlu” operasının ilk tamaşasının Aprel İnqilabının 17-ci ildönümü dövrünə - 1937-ci ilin aprelinə salınması barədə tapşırıq verir.

Beləliklə aprelin 30-da M.F.Axundov adına Böyük Dövlət Opera və Balet Teatrında (o vaxt teatr belə adlanırdı) “Koroğlu” operasının ilk tamaşası olur. Bülbül - Koroğlu, G.İsgəndərova - Nigar, M.Bağırov - Həsən xan, Q.İsgəndərov - Təlxək, Ə.Zülalov - Ehsan paşa, Q.Hüseynov - Həmzə bəy, B.Mustafayev - İbrahim xan rollarında çıxış etmişlər. “Kommunist” qəzetinin 6 may tarixli nömrəsi Üzeyir bəyin böyük portreti ilə açılır, tamaşa haqqında rəylər və şərhlər “Azərbaycan incəsənətinin təntənəsi” adı altında verilmişdir.

1937-ci ildə Moskvada keçiriləcək dekadada “Koroğlu” operasının da nümayiş olunması qərara alınır. Tamaşanın Moskvada nümayişindən əvvəl Üzeyir bəy operaya iki yeni hissə əlavə edir. Ən böyük əlavə isə uvertüra idi. 1938-ci il aprelin 5-də Moskvadakı Bolşoy Teatrda Azərbaycan incəsənət dekadası “Koroğlu” operası ilə açılır və tamaşaya sovet rəhbərləri - Stalin, Molotov, Jdanov da baxır. Tamaşadan sonra Üzeyir bəyə “SSRİ Xalq artisti” fəxri adı verilir. “Lenin” ordeni ilə təltif olunur, 1941-ci ildə isə Stalin mükafatına layiq görülür.

“Koroğlu” operası 1939-cu ildə Aşqabadda türkmən dilində, 1942-ci ildə Yerevanda erməni dilində, 1950-ci ildə Daşkənddə özbək dilində səhnəyə qoyulmuşdur.

Ə d ə b i y y a t

Köroğlu operası: Ü.Hacıbeylinin “Köroğlu” operası uluslararası ilk gösterimi.- Ankara, TÜRKSOY, 2009.- 32 s.

Hüseynov, A. “Koroğlu” operası - qəhrəmanlıq rəmzi /A.Hüseynov //Azərbaycan.-2010.-25 sentyabr.-S.7.

Hüseynov, A. “Koroğlu” operası incəsənət xəzinəsidir: Teatr salonlarında /A.Hüseynov //Azərbaycan.- 2011.- 16 aprel.- S.11.

İdrisoğlu, A. “Koroğlu” operası “Türksoy” Teatrının səhnəsində /A.İdrisoğlu //Azad Azərbaycan.- 2009.- 3 noyabr.- S.7.

MAY

21 aprel-
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

B.E.	1
Ç.A.	2
Ç.	3
C.A.	4
C.	5
Ş.	6
B.	7
B.E.	**8**
Ç.A.	9
Ç.	10
C.A.	11
C.	12
Ş.	13
B.	14
B.E.	15
Ç.A.	16
Ç.	**17**
C.A.	**18**
C.	19
Ş.	20
B.	21
B.E.	22
Ç.A.	23
Ç.	24
C.A.	25
C.	26
Ş.	27
B.	28
B.E.	29
Ç.A.	30
Ç.	31

- ***Şuşa rayonunun işğalının 25-ci ildönümü (08.05.1992)***
- *Faşizm üzərində Qələbə Günü (09.05.1945)*
- *Beynəlxalq Ailə Günü (15.05.1994)*
- ***Laçın rayonunun işğalının 25-ci ildönümü (17-18.05.1992)***
- *Beynəlxalq Muzeylər Günü (18.05.1977)*
- *Respublika Günü (28.05.1990)*

300 il Molla Pənah Vaqif 1717-1797



Şuşanın dağları başı dumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı...

Ustad Xan Şuşinskinin oxudugu bu qədim el mahnısını eşidəndə istər-istəməz adamın ürəyinin başı göynəyir. Çunki əsası Qarabag xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan Şuşanın başını dogrudan dumanlar alıb. Şuşa 1992-ci il mayın 8-də erməni qəsbkarları tərəfindən işgal olunub. Azərbaycan musiqisinin beşiyi sayılan Şuşanın onlarla tarixi abidəsi, o cumlədən Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı "Gövhər aga məscidi", Xurşudbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi yagmalanıb. Hətta Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəli belə duşmən gulləsinə tuş gəlib... Lakin böyükdən-kiçiyə hamı inanır ki, ən yaxın vaxtlarda Şuşanın başının üstündəki qara duman çəkiləcək, Qarabağ savaşında yüzlərlə şəhid verən Şuşa, erməni işğalından azad ediləcək, elindən-obasından didərgin düşən qaçqınlar yenidən öz yurdlarına qayıdacaqlar. Beləcə, Şuşa köhnə yaralara məlhəm qoya-qoya yenə nəğməli-sözlü ömrünü yaşayacaq, yenə havalanacaq "Xanın səsi", "Qarabagın şikəstəsi...".

MAY

2017

Milli ədəbiyyat

Şair, professor Axundzadə Cavad Məhəmmədəli oğlunun (Əhməd Cavad) (05.05.1892-12.10.1937) anadan olmasının 125 illiyi 151

Nasir, tərcüməçi Bağırov Cəfər Səfər oğlunun (Cəfər Bağır) (05.05.1912-17.04.1983) anadan olmasının 105 illiyi

Şair, satirik, ictimai xadim, mütəfəkkir Tahirzadə Mirzə Ələkbər Zeynalabdin oğlunun (Mirzə Ələkbər Sabir) (30.05.1862-12.07.1911) anadan olmasının 155 illiyi 152

Əməkdar jurnalist, nasir Tarverdiyev Fuad Cəfər oğlunun (31.05.1932) anadan olmasının 85 illiyi

Dünya ədəbiyyatı

Gürcü yazıçısı Seretelli Georgi Yefimoviçin (26.05.1842-24.01.1900) anadan olmasının 175 illiyi

Musiqi. Opera. Balet

Xalq artisti, tarzən Quliyev Əliağa Eyvaz oğlunun (09.05.1917-11.01.1998) anadan olmasının 100 illiyi 153

Xalq artisti, bəstəkar Rüstəmov Səid Əli oğlunun (12.05.1907-10.06.1983) anadan olmasının 110 illiyi 154

Xalq artisti, tarzən Bağırov Adil Kamil oğlunun (13.05.1937) anadan olmasının 80 illiyi

SSRİ Xalq artisti, bəstəkar Hacıyev Rauf Soltan oğlunun (15.05.1922-19.09.1995) anadan olmasının 95 illiyi 155

Xalq artisti, müğənni Rzayeva Həqiqət Əli qızının (20.05.1907-02.08.1969) anadan olmasının 110 illiyi 156

Xalq artisti, bəstəkar Əlizadə Aqşin Əliqulu oğlunun (22.05.1937) anadan olmasının 80 illiyi 157

Əməkdar mədəniyyət işçisi, xormeystr Məmmədova Səidə Müslüm qızının (25.05.1942) anadan olmasının 75 illiyi

Xalq artisti, kamança ifaçısı Əliyev Habil Mustafa oğlunun (28.05.1927-17.08.2015) anadan olmasının 90 illiyi 158

Əməkdar incəsənət xadimi, bəstəkar Əlizadə Firəngiz Əliağa qızının (28.05.1947) anadan olmasının 70 illiyi 159

Xalq artisti Qədimova Sara Bəbiş qızının (31.05.1922-12.05.2005) anadan olmasının 95 illiyi 160

Teatr. Kino

Xalq artisti, aktyor Abbasov Ələddin Aslan oğlunun (05.05.1922-13.07.2014) anadan olmasının 95 illiyi 161

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Şükürov Şahlar Əvəz oğlunun (17.05.1952-11.06.1990) anadan olmasının 65 illiyi 162

Azərbaycanın Milli Qəhrəmanı Nəsibov Mərifət Əhməd oğlunun (22.05.1972-28.01.1992) anadan olmasının 45 illiyi 163

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Aytəkin İsrayıl oğlunun (29.05.1967-04.1991) anadan olmasının 50 illiyi 164

Siyasət. Hüquq. Hərbi iş

Görkəmli siyasi xadim, diplomat, hüquqşünas Topçubaşov Əlimərdan bəy Ələkbər oğlunun (04.05.1862-1934) anadan olmasının 155 illiyi 165

İctimai xadim Əlizadə Məsud Ağamehdi oğlunun (20.05.1932-27.07.1968) anadan olmasının 85 illiyi

General-mayor, Əməkdar hüquqşünas Novruzov Abbasəli Ramazan oğlunun (24.05.1937) anadan olmasının 80 illiyi

Fəlsəfə. İqtisadiyyat

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Orucov Sabit Atabala oğlunun (31.05.1912-20.04.1981) anadan olmasının 105 illiyi

Mədəniyyət. Maarif. Təhsil

Filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas Mirzəyev Knyaz İbrahim oğlunun (01.05.1947) anadan olmasının 70 illiyi

Yazıçı, maarifçi və teatr xadimi Adıgözəlov Əsgər ağa Haqverdi bəy oğlunun (Əsgər ağa Gorani) (03.05.1857-09.03.1910) anadan olmasının 160 illiyi 166

Əməkdar jurnalist, ədəbiyyatşünas Novruzov Şövqi Heydər oğlunun (03.05.1937-14.01.2000) anadan olmasının 80 illiyi

Maarifçi-alim, ictimai xadim Mirzə Məhəmmədəli xan Sadıq oğlu Tərbiyətin (26.05.1877-17.01.1940) anadan olmasının 140 illiyi 167

Filologiya üzrə fəlsəfə doktoru Məhərrəmov Ziyəddin Həmil oğlunun (31.05.1947) anadan olmasının 70 illiyi

Geologiya. Coğrafiya

Geologiya-mineralogiya elmləri doktoru, professor Babayev Nəriman İbadulla oğlunun (15.05.1937) anadan olmasının 80 illiyi

Kimya. Biologiya. Tibb

Əməkdar həkim Qazıyeva Zəhra Kərim qızının (02.05.1912-1989) anadan olmasının 105 illiyi

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Sultanov Həsən Abbas oğlunun (09.05.1932) anadan olmasının 85 illiyi

Əməkdar həkim, tibb elmləri doktoru, professor Fərəcova Kübra Yəhya qızının (16.05.1907-1988) anadan olmasının 110 illiyi

AMEA-nın müxbir üzvü, zoologiya-ixtiologiya elmləri sahəsində mütəxəssis Əbdürrəhmanov Yusif Ələkbər oğlunun (18.05.1912-30.11.1977) anadan olmasının 105 illiyi

Akademik, həkim-uroloq Cavadzadə Mirməmməd Cavad oğlunun

(18.05.1927-07.08.2008) anadan olmasının 90 illiyi 168
Akademik, kimyaçı Zeynalov Bahadır Qasım oğlunun (20.05.1917-1995) anadan olmasının 100 illiyi
AMEA-nın müxbir üzvü Qarayeva Ninel İsrafil qızının (25.05.1932) anadan olmasının 85 illiyi
Akademik, kimyaçı Quliyev Əli Musa oğlunun (31.05.1912) anadan olmasının 105 illiyi

İdman

Yunan-roma güləşi üzrə üçqat dünya çempionu, SSRİ və Avropa çempionu Allahverdiyev Məhəddin İsmayıl oğlunun (08.05.1962) anadan olmasının 55 illiyi

Tarixdə bu gün

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993)
Günəş Günü (03.05.1994)
İnsan Alverinə Qarşı Mübarizə Günü (06. 05.2009)
Xızır Nəbi bayramı (06.05.)
Şuşa rayonunun işğalının 25-ci ildönümü (08.05.1992) 169
Faşizm üzərində Qələbə Günü (09.05.1945) 170
Heydər Əliyev Mərkəzinin açılışı olmuşdur (10.05.2012) 171
Qazax rayonunun Qızıl Hacılı kəndinin işğalının 25-ci ildönümü (11.05.1992)
Beynəlxalq Ailə Günü (15.05.1994) 172
Beynəlxalq İqlim Günü (15.05.)
Ümumdünya İnformasiya Cəmiyyəti Günü (17.05.2006)
Beynəlxalq Elektronrabitə Günü (17.05.2006)
Beynəlxalq Muzeylər Günü (18.05.1977)
Laçın rayonunun işğalının 25-ci ildönümü (18.05.1992) 173
"Bəhlul" satirik jurnalının nəşrinin (19.05.1907) 110 illiyi 174
Azərbaycan Avropada adi silahlar haqqında konvensiyaya qoşulub (19.05.1997)
"RUH" Azərbaycan Jurnalistlərinin Müdafiəsi Komitəsi yaranıb (20.05.1992)
Ümumdünya Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik Günü (21.05.2001)
Beynəlxalq Bioloji Müxtəliflik Günü (22.05.2000) 175
Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü (23.05.2007)
Azərbaycan Dövlət Himninin qəbul olunmasının (27.05.1992) 25 illiyi 176
Ümumdünya Balıqçılıq Günü (27.06.1985)
Respublika Günü (28.05.1918) 177
Ümumdünya Metrologiya Günü (30.05. 1875)
Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1987)

125 illiyi

Əhməd Cavad
1892-1937

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Cavad.- Bakı: Şərq-Qərb, 2005.- 295 s.

Qusarda ilk dünyəvi məktəbi Əhməd Cavad təşkil edib: (Qabaqcıl maarif xadimi, müharibə və əmək veteranı Sabir Piroqlanovun Əhməd Cavad haqqında xatirələri) //Azərbaycan.- 2005.- 28 may.- S.16.

Mustafayeva, G. Müstəqil Azərbaycan Respublikasının Əhməd Cavad yaradıcılığında rolu /G.Mustafayeva //Ədalət.- 2006.- 10 mart.- S.7.

Rzalı, R. Altunlar yurdudur bu kasıb ölkə /R.Rzalı //Azərbaycan.- 2002.- 28 may.- S.8.

Rzayeva, M. Əhməd Cavadın haqqını tanıyan Türkiyə oldu /M.Rzayeva //Şərq.- 2006.- 28 fevral.- S.6.

Salmanlı, R. İstiqlal şairi Əhməd Cavad haqqında /R.Salmanlı //Azərbaycan.- 2003.- 28 may.- S.6.

Axundzadə Cavad Məhəmmədəli oğlu (Əhməd Cavad) 1892-ci il may ayının 5-də Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. On yaşında Gəncə şəhərindəki ruhani məktəbinə getmişdir. Məktəbdə yeddi il (1902-1909) oxumuş, sonralar Gəncədə, Bakıda, Qubada müəllimlik etmişdir. Təhsilini Azərbaycan Ali Pedaqoji İnstitutunun tarix və filologiya fakültəsində (1922-1927) davam etdirmişdir. Quba Xalq Maarif şöbəsinin müdiri (1920-1922), Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Azərbaycan və rus dilləri kafedrasında müəllim, dosent, kafedra müdiri (1930-1933), Azərbaycan Dövlət Nəşriyyatının Tərcümə şöbəsində redaktor (1934), "Azərbaycanfilm" studiyasında Sənədli filmlər şöbəsinin müdiri (1935-1936) vəzifələrində işləmişdir.

Əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət bir türk övladı kimi Əhməd Cavadı ciddi narahat etmişdir. O, könüllü əsgər kimi köməyə getmiş, Türkiyənin müstəqilliyi uğrunda türk qardaşları ilə çiyin-çiyinə vuruşmuşdur. Birinci Dünya müharibəsi zamanı, 1915-ci ildə Türkiyədə rus və erməni istilasına, özbaşınalığına qarşı çıxaraq "Azərbaycan xeyriyyə cəmiyyəti" vasitəsilə vaxtaşırı türk xalqına kömək göstərmişdir.

Azərbaycan Cümhuriyyətinin qurulmasını sevinclə qarşılayan Ə.Cavad müxtəlif vəzifələrdə çalışmış, əməli işi, bədii yaradıcılığı ilə xalqının xoşbəxtliyi, azadlığı üçün əlindən gələni əsirgəməmişdir.

Yaradıcılığa 1913-cü ildən şeirlə başlayan şairin 1916-cı ildə "Qoşma" adlı ilk kitabı çapdan çıxmışdır. 1919-cu ildə isə "Dalğa" adlı kitabı nəşr olunmuşdur. Onun məşhur "İstiqlal uğrunda şeirlər" kitabı 1928-ci ildə İstanbulda çap edilmişdir.

İlk yaradıcılığında mücərrəd romantizm əsas yer tutmuşdur. Sovet dövründə yazdığı "Biz qardaş deyilikmi", "Kür", "Pambıq dastanı", "At bu çadranı", "Bayram", "Mən olaydım", "Gürcüstan" və s. şeirlərində yeni həyat, vətənpərvərlik, xalqlar dostluğu ustalıqla tərənnüm olunmuşdur. Əsərləri lirizmi, yüksək şeiriyyəti, ahəngdarlığı, bədii obrazlılılğı ilə seçilmişdir.

V.Şekspirin "Otello" faciəsini, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasını Azərbaycan dilinə tərcümə etmişdir.

Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən Əhməd Cavad, haqsız olaraq 1937-ci il repressiyasının qurbanı olmuş, həbs edilmiş, dəhşətli işgəncələrə məruz qalmış və güllələnmişdir.

155 illiyi

Mirzə Ələkbər Sabir 1862-1911

Şair

Ə d ə b i y y a t

Hophopnamə /M.Ə.Sabir; tərt. ed., müqəd. və qeyd. müəl. A.Bayramoğlu; naşir B.Axundov; elmi red. T.Kərimli; rəssam A.Hüseynov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2012.-549 s.

Eminalıyev, E.M. Mirzə Ələkbər Sabir: həyatı və sənəti /E.M.Eminalıyev; elmi red. B.Nəbiyev.- Bakı: [s.n.], 2012.- 175 s.

Mirzə Ələkbər Sabir - 150: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. M.Həsənova, G.Misirova; ixtisas red. və burax. məs. K.Tahirov; red. M.Vəliyeva.- Bakı, 2012.- 382 s.

Mirza Alakbar Sabir, satiric poet, 1862-1911 /Ministry of Culture and Tourism Republic of Azerbaijan; consulting V.Bahmanli; publishing M.Khan; trans. K.Nasibova; editor N.Jabbarli, J.Huseynov; design T.Farzi; art V.Saftarov.- Baku: Khan, 2015.- 36 p.

Qərib. Milli şairimiz Sabir /Qərib //Ədəbiyyat qəzeti.- 2015.- 30 may.

Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (M.Ə.Sabir) 1862-ci il may ayının 30-da qədim Şamaxı şəhərində anadan olmuşdur. Balaca Ələkbər 1874-cü ildə 12 yaşına qədər dini düzgün anlamayan və təbliğ etməyən mövhumatçıların yanında oxumuş, sonra Seyid Əzimin açdığı yeni üsullu məktəbə keçmişdir. Bu məktəb onun üçün faydalı olmuş, xüsüsilə biliyinin və şairlik istedadının inkişafına kömək etmişdir. Müəllimi Ələkbərə fars dilindən şeirlər tərcümə etdirir, sonra bu tərcümələri oxuyub ona məsləhətlər verir, məktəbli şairin yaradıcılıq həvəsini artırırdı.

Sabir bədii yaradıcılığa kiçik yaşlarında, Seyid Əzim Şirvaninin məktəbində oxuduğu zaman başlamış, ilk şeirlərini Şərqin Firdovsi, Sədi, Füzuli kimi böyük klassiklərinin təsiri ilə qəzəl janrında əsasən, mədhiyyə, növhə, mərsiyə yazmışdır. Bir müddət ziyarət adı ilə Aşqabad, Buxara, Səmərqənd, Mərv, Səbzəvar, Xorasan şəhərlərində yaşayıb, özbək və türkmən ziyalıları ilə yaxından tanış olması, həyat müşahidələrini, bilik və məlumatlarını zənginləşdirmişdir. XIX əsrin axırı və XX əsrin əvvəllərində C.Məmədquluzadə, F.Köçərli, A.Səhhət, S.M.Qənizadə və b. ilə dostluğu, qabaqcıl ictimai ideyaların təsiri onun yaradıcılıq inkişafına ciddi təkan vermişdir. Milli oyanışa nail olmağın yolunu şair elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, maariflənməkdə görürdü. Ona görədir ki, M.Ə.Sabirin yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşağa, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. Onun bu mövzuda yazdığı yüzlərlə şeiri Azərbaycan ədəbiyyatında satirik-demokratik janrın ən gözəl nümunələridir.

"Molla Nəsrəddin" jurnalında iştirakı (1906-1911) Sabir yaradıcılığının ən yetkin və məhsuldar dövrüdür.

M.Ə.Sabir 1911-ci ildə qaraciyər xəstəliyindən vəfat etmiş, Şamaxıdakı "Şahi-Xəndan" xiyabanında dəfn olunmuşdur.

Sabirin əsərlərinin külliyyatı ilk dəfə olaraq vəfatından sonra, 1912-ci ilin axırlarında "Hophopnamə" adı altında çapdan çıxmışdır. Kitaba ad seçərkən Abbas Səhhət şairin "Molla Nəsrəddin"də işlətdiyi ilk gizli (Hophop) imzasını əsas götürmüşdür.

Şairin adı Azərbaycan xalqı tərəfindən əbədiləşdirilmiş, adına kitabxanalar açılmış, Şamaxıda ev-muzeyi yaradılmış, 100 illiyi münasibətilə poçt markası buraxılmışdır. Bakıda Sabir adına kütləvi kitabxana uzun illərdir ki, fəaliyyət göstərir.

1958-ci ildə Bakının mərkəzi küçələrinin birində heykəltəraş M.Qaryağdının yaratdığı M.Ə.Sabirin yeni heykəli əvvəllər burada qoyulmuş abidəni əvəz etmişdir.

100 illiyi

Əliağa Quliyev 1917-1998

Tarzən

Əliağa Eyvaz oğlu Quliyev 1917-ci il may ayının 9-da Bakıda doğulmuşdur.

1934-cü ildə Ə.Quliyev Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin tar sinfinə qəbul olunmuş, birinci kursda oxuyarkən Üzeyir bəyin təşkil etdiyi gənc istedadlar - tarzənlər arasında müsabiqədə iştirak etmiş, yeni yaradılan Xalq Calğı Alətləri Orkestrinə işə qəbul olunmuşdur. 1936-cı ildə Ə.Quliyev Opera teatrında və radionun orkestrində daimi işləməyə başlamışdır.

1937-ci ildə böyük uğurla qarşılanan "Koroğlu" operasının premyerasında, 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə tar ifaçısı kimi ansamlda ifa etmişdir. 1939-cu ildə konservatoriyanın xor-dirijorluq fakültəsinə qəbul edilən gənc tarzən İkinci Dünya müharibəsinin başlanması ilə təhsilini yarımçıq qoyub cəbhəyə yola düşmüşdür.

1946-cı ildə vətənə qayıdanda döyüşlərdə göstərdiyi şücaətlərə görə Əliağa Quliyev I və II dərəcəli "Böyuk Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, iki "Döyüş xidmətlərinə görə" medalı və mükafatlara layiq görülmüşdür.

Əhməd Bakıxanovun ansamblında əsl məktəb keçən tarzən 1951-ci ildə yeni bir ansambl yaratmış, Paris, Marsel, Neapol, İstanbul, Ankara, Varşava, Praqa, Qahirə Tehran, Dehli, Cakarta, Aleksandriya və başqa şəhərlərdə çıxışları ilə Azərbaycan musiqisini dünyada təbliğ etmişdir.

Əliağa Quliyev 1971-ci ildə Moskvada Ümumdünya musiqi konqresində, 1973-cü ildə Alma-Atada Asiya ölkələri xalqlarının musiqi festivalında, 1983-cü ildə "Daşkəndin qızıl payızı" müsabiqəsində, UNESCO-nun xətti ilə keçirilən bir çox tədbirlərdə Azərbaycanın milli musiqi mədəniyyətini ləyaqətlə təmsil etmişdir. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının radio yazılışını solo tarda müşayiət edən məşhur sənətkar, həm də bir sıra mahnıların müəllifidir.

Onun "Dağlar", "Alyanaq", "Vüsal" kimi populyar nəğmələrini tanınmış müğənnilər ifa ediblər. Əliağa Quliyev həm də fəal ictimaiyyətçi idi. Uzun müddət Azərbaycan Dövlət Filarmoniyasında partiya təşkilat katibi, Azərbaycan Dövlət Qastrol - Konsert Birliyi Həmkarlar Təşkilatının sədri olmuşdur.

Onun Azərbaycan musiqisinin təbliğində xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycanın "Əməkdar artist", sonra isə "Xalq artisti" fəxi adlarına layiq görülmüşdür.

Əliağa Quliyev 1998-ci il yanvar ayının 11-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Əliyeva, İ. Sarı simlə möcüzələr yaradırdı /İ.Əliyeva //Azərbaycan.- 2014.- 15 avqust.- S.7.

İncə duyğular tərənnümçüsü //Mədəniyyət.- 2014.- 9 may.- S. 13.

110 illiyi

Səid Rüstəmov 1907-1983

Bəstəkar

Ə d ə b i y y a t

Rzayeva, G. Səid Rüstəmov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətində rolu /G.Rzayeva.- Bakı: Gənclik, 2015.- 119 s.

Abdullayeva, Z. Səid Rüstəmov: həyat və yaradıcılığı //Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı: dərslik.- Bakı, 2009.- H.II.- S.22-30.

Günəş, R. Səid Rüstəmovla bağlı xatirələr /R.Günəş //Azərbaycan müəllimi.- 2015.- 23 may.- S.12.

Mükərrəmoğlu, M. Bəstəkar ömrünün anları: S.Rüstəmov /M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2012.- 7 avqust.- S.8.

Təhmirazqızı, S. Sənətkar ömrü: Səid Rüstəmov /S.Təhmirazqızı //Mədəniyyət.- 2010.- 12 may.- S.14.

Zöhrabova, L. Səid Rüstəmov və Azərbaycan xalq musiqisi /L.Zöhrabova //Mədəni həyat.- 2015.- №1.- S.30; 33.

Səid Əli oğlu Rüstəmov 1907-ci il may ayının 12-də İrəvan şəhərində anadan olmuşdur. 1918-ci ildə İrəvanda baş verən erməni quduzluğu zamanı ailəsi ilə qaçqın düşmüş - Türkiyəyə, Gəncəyə, Ağdaşa, sonra isə Bakıya köçmüşlər. 1921-ci ildə Bakı Müəllimlər Seminariyasında təhsil almış, ancaq musiqiyə olan həvəsi 1924-cü ildə onu Azərbaycan Musiqi Texnikumuna gətirmişdir. O, Xalq çalğı alətləri şöbəsində məşhur tarzən Mirzə Mansur Mansurovun sinfində oxumuş, Üzeyir Hacıbəylidən not savadını öyrənmişdir.

1926-cı ildə Müəllimlər Seminariyasını bitirən S.Rüstəmov məktəbdə pedaqoji fəaliyyətə başlamışdır. Pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə Pedaqoji İnstituta daxil olmuş və 1932-ci ildə oranı bitirmişdir.

S.Rüstəmovun 1937-ci ildə nota aldığı "Azərbaycan xalq rəqsləri", 1938-ci ildə Cabbar Qaryağdının oxumasından "50 Azərbaycan xalq mahnısı", həmin ildə "Aşıq mahnıları" adı ilə nəşr olunmuş 4 məcmuəsi musiqi folklorşünaslığının inkişafında mühüm addım olmuşdur.

S.Rüstəmovun pedaqoji fəaliyyətinin mühüm bir dövrü Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası ilə bağlı olmuşdur. Dahi Üzeyir Hacıbəyovun vəfatından sonra Azərbaycan Bəstəkarlar İttifaqının sədri vəzifəsinə seçilməsi və 1953-cü ilədək həmin postda ustad müəllimin adına layiq çalışması həm də onun ictimai xadim kimi yetişməsini göstərirdi.

1946-cı ildə S.Rüstəmov Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Bəstəkar 1947-ci ildə Süleyman Rüstəmin mətni əsasında "Durna" musiqili komediyasını, 1961-ci ildə Məhərrəm Əlizadənin librettosu əsasında "Rəisin arvadı" musiqili komediyalarını yazmışdır.

S.Rüstəmovun mahnı yaradıcılığı sahəsində böyük uğurları vardır. "Sürəyya", "Neftçi qız", "Həkim qız", "Sumqayıt", "Mən sülhə səs verirəm" mahnıları geniş dinləyici kütləsi tərəfindən böyük rəğbətlə qəbul olunmuşdur. "Ana məktəb", "Dəstə rəhbəri", "Şaxta baba", "Kəpənəyim", "Qaranquşum", "Uşaq və buz" və s. uşaq mahnılar bu gün də uşaq bağçalarında, məktəblərdə sevilə-sevilə oxunur.

S.Rüstəmov 1938-ci ildə Azərbaycan Respublukasının "Əməkdar incəsənət xadimi", 1957-ci ildə isə "Xalq artisti" fəxri adlarına, 1951-ci ildə isə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. İki dəfə "Qırmızı Əmək Bayrağı" və "Xalqlar Dostluğu" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Səid Rüstəmov 1983-cü il iyun ayının 10-da Bakı şəhərində vəfat etmişdir.

95 illiyi

Rauf Hacıyev 1922-1995

Bəstəkar

Rauf Soltan oğlu Hacıyev 1922-ci il may ayının 15-də Bakı şəhərində dünyaya göz açmışdır.

1938-ci ildə Bakı Orta İxtisas Musiqi Məktəbinin nəzəri-bəstəkarlıq şöbəsinə daxil olmuşdur. 1940-cı ildə, 18 yaşında olarkən Mustafa Mərdanovun librettosu əsasında "Tələbələrin kələyi" adlı musiqili komediyasını yazmışdır.

1941-ci ildə R.Hacıyev Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, təhsilini yarımçıq qoyaraq könüllü ordu sıralarına getmişdir. Ordudan tərxis olunduqdan sonra, 1948-ci ildə yenidən Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş və bir müddətdən sonra Moskva Dövlət Konservatoriyasına təhsilini davam etdirmək üçün göndərilmişdir.

R.Hacıyev müxtəlif illərdə 150-dən artıq mahnı bəstələmişdir. "Mənim Azərbaycanım", "Sevgilim", "Lirik mahnı", "Leyla", "Bahar gəlir", "Məhəbbət haqqında mahnı" və onlarca bəstə onun yaradıcılığının nadir sənət nümunələri hesab olunur.

Rauf Hacıyev 15-dən artıq bədii və sənədli filmə musiqi yazmışdır. Onların arasında "Əhməd haradadır?", "Qara daşlar", "Bir qalanın sirri", "Mən rəqs edəcəyəm" kinofilmlərinin adını çəkmək olar.

R.Hacıyevin axırıncı operettası Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Ordan-burdan" əsəridir.

1964-cü ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında direktor, 1965-ci ildə isə Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsində çalışmışdır.

Böyük bəstəkar 1971-ci ildə xaricə işləməyə getmiş, 1971-1975-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasında çalışan mədəniyyət qrupunun rəhbəri olmuşdur.

1976-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının katibi, 1979-1985-ci illərdə birinci katib, 1986-cı ildə isə SSRİ Bəstəkarlar İttifaqının katibi olmuşdur.

1978-ci ildə "SSRİ Xalq artisti" fəxri adına layiq görülmüş, "Lenin" , "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

Rauf Hacıyev 1995-ci il sentyabr ayının 19-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Zöhrabov, R. Rauf Hacıyev: monoqrafiya /R.F.Zöhrabov.- Bakı: Şur, 1993.- 24 s.

Aygün. Rauf Hacıyevin yaradıcılığı özünəməxsus cəhətləri ilə seçilib /Aygün //Üç nöqtə.- 2013.- 15 may.- S.13.

Gözəl bəstəkar, unudulmaz Mədəniyyət naziri: Yeddi operettasından beşi Moskva səhnəsində //Azadlıq.- 2011.- 6-8 noyabr.- S.14.

Mühacirova, V. Rauf Hacıyevin xatirəsinə "Talelər qovuşanda" /V.Mühacirova //Kaspi.- 2012. 5-7 may.- S.22.

Sevgi bəstəkarı //Ekran-efir.- 2013.- 28 iyun.- S.4, 8.

Мирзоева, Э. Рауф Гаджиев /Э.Мирзоева; ред. А.Аббасов.- Москва: Ишыг, 1983.- 130 с.

110 illiyi

Həqiqət Rzayeva 1907-1969

Müğənni

Həqiqət Əli qızı Rzayeva 1907-ci il may ayının 20-də Lənkəran şəhərində dünyaya göz açmışdır. Şaqraq səsi ilə Lənkəranda həvəskar xanəndə kimi tanınan atası Əlinin vaxtsız vəfatı ailəyə çətin günlər yaşatmış, ailə üç uşaq anası Zinyət xanımın ümidinə qalmışdır.

Həqiqət ilk təhsilini maarifçi Teymur bəy Bayraməlibəyovun qızı Məryəm xanımın Lənkəranda, evində açdığı məktəbdə almışdır. 1923-cü ildə ali təhsil almaq məqsədilə Bakıya gəlmiş və Pedaqoji Texnikuma daxil olmuşdur. Burada dram dərnəyinə də yazılmışdı. Oynadığı tamaşalarda arasıra muğam parçaları ifa edirdi. Həmin dövrdə Bakıda "Damğa" adlı satirik teatr açılmışdı. Aktyorluq həvəsi onu bu teatra gətirir, bir - çox tamaşalarda iştirak edir.

Həqiqət Rzayeva 1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının muğam şöbəsinə qəbul olunmuş, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və Qurban Pirimov kimi sənətkarlardan dərs almışdır. 1927-ci ildə Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Ərəbzəngi rolunu ilk dəfə olaraq 20 yaşlı Həqiqət xanım oynamışdır. Sonralar eyni opera səhnəsində Ərəbzəngini, Leylini, Əslini, həm də Şahsənəmi ifa etmişdir.

O, həm də pedaqoji fəaliyyət göstərmiş, A.Zeynallı adına Bakı Musiqi Məktəbində dərs demişdir.

1939-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə "Arşın mal alan" operasında Telli obrazını özünəməxsus şəkildə ifa edən Həqiqət xanım tanınmış tənqidçilərin, sənət adamlarının marağına səbəb olmuş, rəğbətini qazanmışdır.

1946-cı ildə görkəmli sənətkarın əməyi yüksək qiymətləndirilmiş, ona "Xalq artisti" fəxri adı verilmişdir.

Həqiqət Rzayeva bir neçə bədii filmə də çəkilmişdir. "Ögey ana" filmində yaratdığı Qəmər xala obrazı bu gün də maraqla izlənilir.

Azərbaycan xalq mahnı və muğamlarını böyük məhəbbətlə sevən və təbliğ edən görkəmli sənətkar 1969-cu il avqust ayının 2-də, 62 yaşında vəfat etmişdir

Ə d ə b i y y a t

Cəfərov, C. Həqiqət Rzayeva /C.Cəfərov; [red. S.Dadaşov]; Azərbaycan Teatr Cəmiyyətinin Rəyasət Heyəti.- Bakı: Azərb. Teatr Cəmiyyəti, 1957.- 55 s.

Fərəcov, S. Fərqli xarakterlərin mahir ifaçısı /S.Fərəcov //Mədəniyyət.- 2015.- 3 iyun.- S. 15.

Həqiqət Rzayeva //Qadınlar Azərbaycanın musiqi həyatında.- Bakı, 2004.- S.20-21.

Əsgərova, V. Həqiqət Rzayevanın opera yaradıcılığı /F.Əsgərova //Mədəni həyat.- 2013.- №1/2.- S.52-54.

Rzayev, A. Milli operanın ilk priması: Azər Rzayev: "Anam Həqiqət Rzayeva sərt qadın idi, kişilərlə dostluq edirdi" /A.Rzayev; müsahibəni apardı İ.Hacıxanoğlu //Ekspress.- 2013.- 22-24 iyun.- S.19.

80 illiyi

Aqşin Əlizadə 1937-2014

Bəstəkar

Aqşin Əliqulu oğlu Əlizadə 1937-ci il may ayının 22-də Bakıda anadan olmuşdur. 1962-ci ildə Bakı Konservatoriyasının Cövdət Hacıyevin bəstəkarlıq sinfini bitirmişdir. Tələbə vaxtı yazdığı sonata Gənc Bəstəkarların I Ümumittifaq Müsabiqəsində I dərəcəli diploma (1962), sonra yadığı Birinci simfoniya "Zaqafqaziya Baharı" festivalında I diploma layiq görülmüşdür. 16 simli alətlər üçün yazılan "Ekspressiya" əsəri aleatorik və sonor texnikası üçün maraqlı təcrübədir. "Bayatılar" əsəri Azərbaycan musiqisində özünəməxsus eksperiment olaraq, daha çox monodik xarakter daşıyır.Aqşin Əlizadənin yaradıcılığının ümumi cəhətləri virtuoz etnoqrafizm, dərin fəlsəfi ümumiləşdirmə, emosional genişlik, konstuktivlik, şərqsayağı əlvan dekor və ciddi forma mütənasibliyidir.

Əsas əsərləri "Babək" , "Qafqaza səyahət" , "Ümid valsı" baletləri, 5 simfoniya, xor üçün "Bayatılar", "Təntənə", "Azərilər" kantatası, "Ana torpaq", "Qədim lay-lay", kamera orkestri üçün "Pastoral", "Aşıqsayağı", "Cəngi", "Kənd suitasi", "Uşaq süitasi", fortepiano üçün sonata, "Dastan", "Qədim oyunlar", "Portret", xoreoqrafiq simfoniya musiqisevərlərə yaxşı tanışdır.

A.Əlizadə 50-dən artıq bədii filmə, cizgi filminə və tamaşaya musiqi yazmışdır.

1979-1985-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi, 1985-1990-cı illərdə birinci katibi olmuşdur. 30 ildən artıq Bakı Musiqi Akademiyasında, Y.Məmmədəliyev adına Naxçıvan Universitetlərində və Türkiyənin Van Universitetində dərs deyən bəstəkarın musiqiçilər nəslinin yetişməsində böyük xidmətləri olmuşdur.

1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, 1987-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüşdür. 1997-ci ildə "Şöhrət", 2012-ci ildə "Şərəf" ordenləri ilə tətif edilmişdir.

Görkəmli bəstəkar Aqşin Əlizadə 2014-cü il may ayının 3-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Aqşin Əlizadənin xor əsərləri: "Dirijorluq" ixtisası üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti /Azərb. Resp. Təhsil Nazirliyi, Üzeyir Hacıbəyli ad. Bakı Musiqi Akad.; tərt. ed. A.M.Qafulov; elmi red. G.İmanova.- Bakı: [s.n.], 2015.- 103 s.

Aqşin Əliqulu oğlu Əlizadə //Azərbaycan.- 2014.- 4 may.- S.5.

Baxşıyeva, G. Aqşin Əlizadənin "Dastan əsərində janr-üslub və faktura xüsusiyyətləri /G.Baxşıyeva //Müasir mədəniyyətşünaslıq: elmi, metodiki, publisistik jurnal.- 2012.- №1(9).- S.51-55.

Əliyeva, F. Aqşin Əlizadə /F.Əliyeva //Musiqi dünyası.- 2003.- №1-2.- S. 121-123.

Məmmədova, A. Musiqidə yaşanan ömür /A.Məmmədova //Mədəniyyət.- 2012.- 18 may.- S.11.

Tağızadə, A. İstedadla, zəhmətlə: (bəstəkar A.Əlizadə haqqında) //Tağızadə A. XX əsr Azərbaycan musiqisi: məqalə, oçerk, esse toplusu.- Bakı, 2011.- S.135-138.

Təhmirazqızı, S. Aqşin Əlizadənin sirli musiqi aləmi /S.Təhmirazqızı //Mədəniyyət.- 2014.- 21 may.- S.11.

90 illiyi

Habil Əliyev 1927-2015

Kamança ifaçısı

Habil Mustafa oğlu Əliyev 1927-ci il may ayının 28-də Ağdaş rayonunun Üçqovaq kəndində anadan olmuşdur. Ağdaşda orta məktəbi və eyni zamanda yeddiillik musiqi məktəbini bitirdikdən sonra Pedaqoji Texnikumda təhsil almışdır. 1952-1956-cı illərdə Bakı Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin kamança sinfində oxumuşdur.

O, ustad sənətkarlar - tarzən Qurban Pirimov və xanəndə Xan Şuşinskidən Azərbaycan xalq musiqisinin, muğamlarının bütün incəliklərini öyrənməklə ifaçılıq sənətinin sirlərini dərindən mənimsəmişdir.

Habil Əliyev əmək fəaliyyətinə Nəcəf bəy Vəzirov adına Ağdaş Dövlət Dram Teatrında başlamış, 1953-cü ildən isə Bakıya gələrək, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam üçlüyündə kaman ifaçısı olaraq fəaliyyət göstərmişdir. 1956-1978-ci illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, 1978-ci ildən Azərbaycan Dövlət Qastrol-Konsert Birliyinin solisti olmuşdur.

Ötən əsrin 50-ci illərinin sonunda böyük sənət aləminə qədəm qoyduğu ilk vaxtlardan o, özünəməxsus səs tembrinə malik kamançanın təsirli avazına yeni guşələr, xallar və rənglər qatmaqla imkanlarını görünməmiş yüksəkliklərə qaldırmışdır.

Kamança ilə solo ifaçılığının musiqi mədəniyyətimizdəki hazırkı mövqeyi mütəxəssislər tərəfindən Habil Əliyev fenomeni kimi qiymətləndirilir.

Sənətkarın ifasında "Sarı gəlin", "Qaragilə", "Sona bülbüllər" və digər xalq mahnıları mədəniyyətimizin qızıl fonduna daxildir. Habil Əliyevin ifaçılıq üslubu şəxsən ona həsr olunmuş simfonik bəstələrin işıq üzü görməsinə yol açmışdır.

Habil Əliyev "Segah", "Bayatı-Qacar", "Bəstənigar", "Bayatı-Şiraz", "Rahab", "Bayatı-Kürd", "Cahargah", "Rast", "Zabul" muğamlarına yeni kamança həyatı vermişdir. Virtuoz ifaçı eyni zamanda onlarla mahnıların müəllifidir.

Milli mədəniyyətin inkişafı və təbliği sahəsində mühüm nailiyyətlərinə görə, Habil Əliyev 1964-cü ildə Azərbaycan SSR-in "Əməkdar artist", 1978-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1998-ci il avqust ayının 21-də "Şöhrət" ordeni ilə, 2007-ci il oktyabr ayının 19-unda "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Görkəmli sənətkar, bənzərsiz kaman ifaçısı, qayğıkeş və səmimi insan Habil Mustafa oğlu Əliyev 2015-ci il avqust ayının 15-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Ol, Ə. Habil Əliyev ucalığı /Əjdər Ol.- Bakı: Nurlar, 2007.- 128 s.

Rəhimli, İ. Habil kaman /İ.Rəhimli.- Bakı: İşıq, 1987.- 79 s.

Əhmədalılar, T. Bir alətin məlahətləri...: Bu kamandır - hər ecaza qabil Habil Kaman əlində /T.Əhmədalılar //Mədəniyyət.- 2014.- 28 may.-0 S.12.

Xələfli, Ə. Habil "Segah"ı Bəxtiyar Vahabzadə fəlsəfəsində /Ə.Xələfli //Kredo.- 2012.- 16 iyun.- S.3.

Kərimov, Y. "Virtuoz sənətkarlarımız" dəftərindən /Y.Kərimov //Kaspi.- 2009.- 13 mart.- S.11.

70 illiyi

Firəngiz Əlizadə 1947

Bəstəkar

Ə d ə b i y y a t

Qara Qarayev /müəl. və tərt. F.Əlizadə.- Bakı: [s. n.], 1997.- 111, [1] s., [24] v.

Babayeva, H. Firəngiz Əlizadə /H.Babayeva.- Bakı, 2014.- 31 s.

Hacıxanoğlu, İ. Dünyanın sülh bəstəkarı: Firəngiz Əlizadə Azərbaycan musiqi mədəniyyətini dünya miqyasında layiqincə təmsil edən ən parlaq şəxsiyyətlərdən biridir /İ.Hacıxanoğlu //Kaspi.- 2016.- 24 fevral.- S.15.

Франгиз Али-заде: триумфальные пересечения Востока и Запада /Heydər Əliyev Fondu; [авт. и сост. Х.Ордуханова; худож. оформление Н.Новрузов].- Баку: 2009.- 415, [1] с.

Frangis Ali-Sade: Leben und Schaffen der aserbaidschanischen Komponistin und Pianistin /com. U.Patow.- Hamburg: PFAU-verlag, 2007.- 192, [1] s.

Firəngiz Əliağa qızı Əlizadə 1947-ci il may ayının 28-də ziyalı bir ailədə anadan olmuşdur. Balaca Firəngizin musiqiyə olan həvəsi elə uşaq yaşlarından özünü büruzə verməyə başlamışdı.

İlk musiqi təhsilini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası nəzdində Orta İxtisas Musiqi Məktəbində almışdır. F.Əlizadənin konservatoriyaya daxil olduğu ildə rektor - proessor Cövdət Hacıyev qəbul imtahanında F.Əlizadəni bir pianoçu kimi dinlədikdən sonra, bəstəkar kimi də ikinci ixtisas almasını məsləhət görmüşdür. Firəngiz Əlizadə 1970-ci ildə U.Xəlilovun fortepiano sinfini, 1972-ci ildə isə Q.Qarayevin bəstəkarlıq sinfini bitirmişdir.

Fortepiano üçün sonata (1970), fortepiano ilə orkestr üçün konsert (1972), simli kvartet (1974), simfoniya (1976), "Vətən haqqında nəğmələr" oratoriyası (N.Xəzrinin sözlərinə), violonçel ilə fortepiano üçün "Habilsayağı" (1979), orqan üçün fantaziya (1982), "Ağ atlı haqqında əfsanə" rok-operası (1985), "Üç akvarel" vokal silsiləsi (N.Rəfibəylinin sözlərinə), simli kvartet üçün "Dilogiya-1" (1988), "Dilogiya-II" (1989), "Boş beşik" (1993) baleti, "Dərviş" (Nəsiminin sözlərinə, 2000) əsərlərinin müəllifidir.

Bir çox müasir musiqi festivallarında iştirak etmişdir (İtaliya, İsveç, Qərbi Berlin, Meksika, ABŞ, İngiltərə, Hollandiya).

A.Şönberq, A.Berq, O.Messian, C.C.Keys, A.Şnitke, S.Qubaydulina, E.Denisov, V.Silvestrov kimi XX əsr avanqard musiqi klassiklərinin və öz əsərlərinin ilk ifaçısıdır. Zəmanəmizin tanınmış amerikalı skripkaçısı Xilari xanımın xahişi ilə "İmpuls" əsərini yazmış və bu əsər artıq İstanbuldan Rio-de-Janeyroya qədər konsert salonlarında böyük müvəffəqiyyət qazanmış və dünyanın ən nüfuzlu musiqi mükafatına - Qremmi mükafatına layiq görülmüşdür.

1970-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyir. 1990-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi, 2007-ci ildən sədridir.

Firəngiz Əlizadənin yaradıcılığı və fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1990-cı ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi", 2000-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1999-cu uldə professor elmi rütbəsini almışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvüdür. 2008-ci ildə YUNESKO tərəfindən "Sülh uğrunda YUNESKO-nun artisti" fəxri adına layiq görülmüşdür.

Bəstəkarın əsərlərinin çoxluq təşkil etdiyi albom "İlin ən yaxşı kamera musiqisi" nominasiyasının qalibi seçilmişdir.

95 illiyi

Sara Qədimova 1922-2005

Xanəndə

Sara Bəbiş qızı Qədimova 1922-ci il may ayının 31-də Bakıda anadan olmuşdur. Uşaq yaşlarından mahnı ifa etməyə başlayan Sara Qədimovanın gələcəkdə müğənni olacağına heç kimdə şübhə yeri qalmamışdı. Xanəndə Zülfü Adıgözəlov 16 yaşlı Saranı Əbilov adına Mədəniyyət evində rəhbərlik etdiyi musiqi dərnəyinə cəlb edir. Orta məktəbi bitirdikdən sonra Tibb Texnikumuna daxil olan Sara, sonra Tibb İnstitutuna qəbul edilir. Ancaq institutun 4-cü kursundan o, təhsilini yarımçıq qoyub 1938-1941-ci illərdə A.Zeynallı adına musiqi məktəbində H.Sarabskinin sinfində muğamdan dərs alır. O, 1941-ci ildə, 19 yaşında ikən Azərbaycan Dövlət Filarmoniyasına solist qəbul olunur.

Azərbaycan Dövlət Opera və Balet Teatrında aparıcı partiyalarda çıxış edən Sara Qədimovanın adı opera səhnəsində yaratdığı Leyli və Əsli obrazları ilə yadda qalıb. Onun oxuduğu "Bayatı-Şiraz", "Şur", "Şahnaz", "Qatar", "Mahur-hindi", "Xaric segah" muğamları, müxtəlif Azərbaycan xalq mahnıları ifaçılıq sənəti tariximizə qızıl hərflərlə yazılıb. Müğənninin ifasında "Qarabağ şikəstəsi" isə Azərbaycan musiqisi tarixində özünəməxsus yer tutur. Dinləyicinin daxili aləminə nüfuz etmək, onda güclü emosional təsir yaratmaq bacarığı Sara Qədimova yaradıcılığının xarakterik xüsusiyyəti idi. Müğənninin altmış ildən artıq bir dövrü əhatə edən yaradıcılığının başlıca qayəsi Azərbaycan mədəniyyətinə xidmət göstərmək olub. Sara Qədimovanın milli musiqimizə hədsiz sədaqətlə səciyyələnən həyat yolu gənc xanəndələr nəsli üçün daim örnək olacaq.

Sara xanım mahnı ifaçılığı ilə yanaşı bütün əsas muğamlarımızı ifa etmiş yeganə qadın xanəndə olmuşdur. O, 1965-ci ildə xanəndələrin çox ehtiyatla müraciət etdikləri son dərəcə mürəkkəb "Şur" dəsgahı və "Cahargah" muğamlarını da ifa etmişdir.

Sara xanım ən çətin və ən mürəkkəb mahnıları ustalıqla ifa edirdi. Güclü səs tələb olunan xalq mahnısı "Qara qaşın vəsməsi", Şəfiqə Axundovanın "Lirik mahnısı", "Axı mən nə dedim", "Nə deyim", Əfrasiyab Bədəlbəylinin Cəfər Cabbarlının "Od gəlini" tamaşasına yazdığı "Solmazın mahnısı", Ramiz Mirişlinin "Səni tapdım", Habil Əliyevin "Ürəkdir sevən səni", Arif Məlikovun "Naz edirsən", Hacıbaba Həsənovun "Xatirələr", "Tar çalan oğlan" və digər mahnıları ilk dəfə Sara xanım ifa edərək, onlara öz "möhürünü" vurmuşdur. 1950-1960-cı illər onun şöhrətinin və məşhurluğunun zirvəsi idi. Onlarca xarici ölkələrdə olub, Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

Sara xanımın əməyi və istedadı dövlət və xalq tərəfindən yüksək qiymətləndirmişdir. O, Azərbaycan Respublikasının "Əməkdar artist", 1963-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Keçmiş SSRİ-nin "Şərəf nişanı", Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Sara Qədimova 2005-ci il may ayının 12-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Fərəcov, Ç. Milli musiqimizin əvəzolunmaz ifaçısı: böyük xanəndə Sara Qədimovanın əziz xatirəsinə /Ç.Fərəcov //525-ci qəzet.- 2016.- 4 fevral.- S.7.

Fərəcov, Ç. Səhnəmizin gözəl Sarası /Ç.Fərəcov //Xalq qəzeti.- 2012.- 23 may.- S.5.

Fərəcov , Ç. Milli musiqimizin əvəzolunmaz ifaçısı: Böyük xanəndə Sara Qədimovanın əziz xatirəsinə /Ç.Fərəcov //525-ci qəzet.- 2016.- 4 fevral.- S..6.

Xəlilzadə, F. Nəğmələr gülüstanının Sarası /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 1 iyun.- S.10.

Sara Qədimova //Qadınlar Azərbaycanın musiqi həyatında /Tərt. və red. A.Bayramova.- Bakı, 2004.- S.46-47.

95 illiyi

Ələddin Abbasov 1922-2014

Aktyor

Ələddin Aslan oğlu Abbasov 1922-ci il may ayının 5-də Gəncədə doğulmuşdur. On beş yaşında Gəncə DDT-nin nəzdindəki aktyor studiyasına qəbul olunmuş, iki il təhsil müddətində teatrın yardım heyətində çalışıb, repertuardakı tamaşalarda kütləvi səhnələrə çıxmışdır. 1939-cu ildən C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının aktyoru kimi fəaliyyətə başlamış və yaradıcılığı yalnız bu kollektivlə bağlı olmuşdur.

Ə.Abbasovun yaradıcılığı romantik və realist aktyor məktəblərinin poetika göstəriciləri çərçivəsində formalaşmışdır. Onun xarakterik səs tembri, ifadəli üz cizgiləri, cazibəli səhnə görkəmi vardı. Aktyorluq təhsili olmasa da yaradıcılığı yüksək peşəkarlıq zəminində formalaşmışdır. Ələddin Abbasov müxtəlif xarakterli dolğun, emossional səhnə obrazları yaratmışdır.

Əsas rolları: Səyavuş (“Səyavuş”, H.Cavid), Fərhad (“Fərhad və Şirin”, S.Vurğun), Nəbi (“Qaçaq Nəbi”, S.Rüstəm), Qatır Məmməd (“Qatır Məmməd”, Z.Xəlil), Aydın, Səməd bəy (“Aydın”, “Oqtay Eloğlu”, C.Cabbarlı), Otello (“Otello, U.Şekspir), Kreont (“Antiqona”, Sofokl), Silvio (“İkiağanın bir nökəri”, K.Qoldoni), Domrul (“Dəli Domrul”, A.Məmmədov; “Kitabi_Dədə Qorqud” dastanı əsasında), Əli müəllim (“Unutmaq istəyirəm”, N.Məmmədova), Böyük bəy (“Mahnı dağlarda qaldı”, İ.Əfəndiyev) və s.

Ə.Abbasov “Mən ki, gözəl deyildim” (1968), “Qatır Məmməd” (1974), “Nizami” (1982), “Məkanın melodiyası” (2005) və s. kinofilmlərə də çəkilmişdir.

İ.Şıxlının eyniadlı romanı əsasında ekranlaşdırılmış “Dəli Kür” (1969) filmində yaratdığı Cahandar ağa obrazı ona böyük şöhrət qazandırmışdır.

Ə.Abbasov sənət uğurlarına görə 1958-ci ildə Azərbaycan SSR-in “Əməkdar artist”, 1971-ci ildə “Xalq artisti” fəxri adlarına layiq görülmüş, 1981-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Fədakar aktyor 2014-cü il iyul ayının 13-də, 92 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Abbasov Ələddin //Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə.- Bakı, 2009.- C.I.- S.18.

Nərimanoğlu, M. Ekranın Cahandar ağası /M.Nərimanoğlu //Azərbaycan.- 2012.- 4 may.- S.11.

Oktay. Azərbaycan kinosunun Cahandar ağası /Oktay //Xalq cəbhəsi.- 2012.- 21 iyul.- S.13.

Tanrıverdiyev, V. Ələddin Abbasovun Cahandar ağa obrazı /V.Tanrıverdiyev //Respublika.- 2012.- 24 iyul.- S.6.

65 illiyi

Şahlar Şükürov 1952-1990

Milli Qəhrəman

Şahlar Əvəz oğlu Şükürov 1952-ci il may ayının 17-də Kəlbəcər rayonunun Zülfüqarlı kəndində doğulmuşdur. Məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universiteti) daxil olmuşdur. 1972-ci ildə təhsilini bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır. Ordu sıralarından tərxis olunduqdan sonra Bakıdakı islahəmək müəssisələrinin birində əmək fəaliyyətinə başlamış, sonra fəaliyyətini Ucar rayon Daxili İşlər Şöbəsində davam etdirmişdir.

1986-cı ildə Rostov Ali Polis Akademiyasını bitirmişdir. 1987-ci ildə Zərdab rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyin edilmişdir. Polis mayoru rütbəsi almışdır.

O, tez-tez qaynar nöqtələrdə olur, erməni yaraqlılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak edirdi. 1990-cı il iyul ayının 11-də hərbi qulluqçuların müşayiəti ilə Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı Ağdərə ərazisindən keçərkən, düşmənin qəfil hücumu ilə rastlaşır. O, bu qeyri-bərabər döyüşdə son nəfəsinədək döyüşmüş və qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə polis mayoru Şükürov Şahlar Əvəz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilmişdir.

Zərdab rayonunda adına küçə var. Rayondakı məktəblərin birinə qəhrəmanın adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: (Şükürov Şahlar Əvəz oğlu- Zərdab Polis Şöbəsinin rəis müasvini, polis mayoru – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə): Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1. (Ölümündən sonra).

Əsgərov, V. Şükürov Şahlar Əvəz oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.271.

Əliyev, O. Şükürov Şahlar Əvəz oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı, 2015.- S.345.

Sara. Milli Qəhrəman Şahlar Şükürov doğum günündə yad edilib /Sara //525-ci qəzet.- 2010.- 18 may.- S.7.

Sultan, R. Elin şah vüqarlı Şahlar oğlu / R.Sultan //Təzadlar.- 2010.- 7 dekabr.- S.11.

Zamanlı, A. Yaşasaydı, bu gün doğum gününü qeyd edərdik...: Milli Qəhrəman Şahlar Şükürov onu sevənlərin qəlbində həmişə yaşayacaq /A.Zamanlı //Təzadlar.- 2012.- 17 may.- S.11.

45 illiyi

Mərifət Nəsibov 1972-1992

Milli Qəhrəman

Mərifət Əhməd oğlu Nəsibov 1972-ci il may ayının 22-də Qazax rayonunun Məzən kəndində dünyaya göz açmışdır. 1979-cu ildə məktəbə getmiş, 1989-cu ildə isə Aşağı Əskipara kənd orta məktəbini bitirmişdir. 1990-cı ildə Qazax rayon Hərbi Komissarlığının göndərişi ilə sürücülük peşəsinə yiyələnmişdir. Elə həmin il hərbi xidmətə çağırılmışdır. Sovet Ordusu sıralarında bir il xidmət etdikdən sonra Vətənə qayıtmış və könüllü olaraq Milli Orduya yazılmışdır. M.Nəsibov ilk gündən torpaqlarımızın müdafiəsində fəal iştirak etmiş, şəxsi igidlik və fədakarlıq nümunəsi göstərmişdir. Mərifət Nəsibov torpağa, döyüş dostlarına çox sadiq bir gənc idi. O, Həmişə öndə gedir, Qazax rayonunun Ermənistanla sərhəd kəndlərini cəsur bir əsgər kimi qoruyurdu.

1992-ci il yanvar ayının 28-i... M.Nəsibovun son döyüşü... O, Qazax rayonunun Quşçu Ayrım kəndində gedən mövqe döyüşləri zamanı qəhrəmancasına həlak oldu.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Nəsibov Mərifət Əhməd oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qazax rayonunun Məzəm kəndində dəfn edilmişdir. Qazax rayonundakı H.Əliyev adına parkda adına bulaq tikilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycan Milli Qəhrəmanı" adı verilməsi haqqında: (Nəsibov Mərifət Əhməd oğlu-sıravi -Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə): Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.25. (Ölümündən sonra).

Əsgərov, V. Nəsibov Mərifət Əhməd oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.227.

Əliyev, O. Nəsibov Mərifət Əhməd oğlu //Əliyev O., Abbasov N. Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları - Müqəddəs amal.- Bakı, 2015.- S. 306.

Nəsibov Mərifət Əhməd oğlu (1972-1992) //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.M.Həmidova.- B., 2008.- S.163.

50 illiyi

Aytəkin Məmmədov 1967-1991

Milli Qəhrəman

Aytəkin İsrayıl oğlu Məmmədov 1967-ci il may ayının 29-da Gədəbəy rayonunun Göyəmli kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Bakıdakı 54 nömrəli texniki peşə məktəbində rəngsaz peşəsinə yiyələnmişdir.

1985-1987-ci illərdə Əfqanıstanda hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən sonra Bakı şəhərində müxtəlif tikinti idarələrində rəngsaz-suvaqçı işləmişdir.

1991-ci ilin fevral ayında Aytəkin Məmmədov Azərbaycan Respublikası DİN-nin xüsusi təyinatlı milis dəstəsinə daxil olmuşdur.

1991-ci ilin aprelində döyüşçü dostları ilə birgə Xanlar rayonunun erməni yaraqlıların hücumuna məruz qalan azərbaycanlı kəndlərinə ezam olundu. Xanlar rayonundakı Quşçu kəndini erməni quldurları çoxdan gözaltı eləmişdilər. Düşmən hər gün kəndi aramsız atəşə tuturdu. Baş serjant Aytəkin Məmmədov ən çətin nöqtələtin birində növbəni qəbul edərək keşik çəkirdi. Düşmən tərəfdən davamlı pulemyot atəşi yağırdı. Həmin döyüşdə ermənilər geri çəkilməyə məcbur oldular.

1991-ci il Xanlar rayonu erməni işğalçıları tərəfindən yenidən hücuma məruz qalanda Aytəkin Məmmədov qəhrəmancasına döyüşmüş və aldığı yaradan həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Məmmədov Aytəkin İsrail oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Gədəbəy rayonu Göyəli kənd qəbiristanlığında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: (Məmmədov Aytəkin İsrayıl oğlu- polis nəfəri -Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə): Azərbaycan Respublikası Prezidentinin fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Aytəkin İsrayıl oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.138.

Hüseynov, N. Şəhid adına deyilən nəğmə: Aytəkin Məmmədovun xatirəsinə /N.Hüseynov //Aydınlıq.- 1993.- 9 iyul.- S.2.

Mirzəyev, S. Aytəkin Məmmədovun son döyüşü /S.Mirzəyev //Xalq qəzeti.- 1991.- 6 noyabr.

Nazim, N. Məmmədov Aytəkin İsrail oğlu: (1967-1991) //İstiqlal ulduzları.- Bakı, 1995.- S.108-110.

Zeynalov, R. Məmmədov Aytəkin İsrafil oğlu //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S.5.

155 illiyi

Əlimərdan bəy Topçubaşov 1862-1934

İctimai-siyasi xadim

Ə d ə b i y y a t

Azərbaycanın təşəkkülü /Ə.Topçubaşov.- [İstanbul]: [s. n.], 1918.- 46 s.

Əlimərdan bəy Topçubaşov Azərbaycan mətbuatı səhifələrində /AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu; topl. və tərt. ed. H.Həsənov; red.: H.Həsənov, M.Adilov.- Bakı: Elm, 2005.- 156 s.

Hacıyev, F. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi görüşləri: fəls. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 09.00.03 /F.Hacıyev; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu.- Bakı, 2011.- 143 s.

Həsənli, C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov /C.Həsənli; red. H.Paşayev.- Bakı: ADA, 2013.- 587, [1] s.

Topçubaşov Əlimərdan bəy Ələkbər oğlu //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: iki cilddə.- Bakı, 2005.- C.II.- S.402-406.

International conference dedicated to the 150th anniversary of birth of Alimardan bay Topchubashov. Baku, april, 2014 /Ministry of Foreign Affairs and National Academy of Sciences of the Republic of Azerbaijan.- [Baku]: [Chashioglu], 2014.- 83, [5] p.

Əlimərdan bəy Ələkbər bəy oğlu Topçubaşov (Topçubaşi) 1862/63-cü il may ayının 4-də Tiflisdə anadan olmuşdur.

Əlimərdan bəy Topçubaşov ilk təhsilini 1884-cü ildə Birinci Tiflis gimnaziyasında almış və 1884-cü ildə oranı müvəffəqiyyətlə bitirərək Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Lakin birinci semestrdən sonra o, hüquq fakültəsinə keçmiş və 1888-ci ildə təhsilini uğurla bitirərək hüquq elmləri namizədi adını almışdır. 1894-cü ildə Bakıya gələrək hüquq-mühafizə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi fəaliyyət göstərmişdir. Azərbaycan və rus dillərindən əlavə, fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşov tezliklə H.Z.Tağıyevin diqqətini vəlb etmiş və 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğu ona tapşırılmışdır. Bakının ictimai-siyasi həyatında fəal iştirak edən Topçubaşov Bakı Şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur.

Əlimərdan bəy Topçubaşov 1914-cü idə Bakıda 45 nəfərdən ibarət "Məşvərət məclisi" təşkil etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən Xarici İşlər naziri olmuş, avqustun 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir.

1918-ci il dekabrın 28-də Azərbaycan Hökumətinin və Parlamentin ağsaqqallar şurasının birgə iclasında Ə.Topçubaşov Paris Sülh konfransına göndərilmiş, Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin sədri təyin olunmuş və İstanbuldan birbaşa Parisə yola düşmüşdür.

Parisdə olmağına baxmayaraq, o, 1919-cu ilin dekabrında yenidən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri seçilmişdir.

Vətənimizin 1920-ci il aprel işğalından sonra Parisdə qalıb, mühacir həyatı yaşamağa məcbur olan Topçubaşov siyasi fəaliyyətini dayandırmamış, bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında bir çox toplantıda geniş məlumat vermişdir.

Həyatını təkcə öz xalqının deyil, həm də bütün Rusiyanın türk-müsəlmanlarının istiqlalı uğrunda mübarizəyə həsr etmiş Topçubaşov xaricdəki digər siyasi mühacirlərlə birlikdə Azərbaycan müstəqilliyinin bərpa olunması yolunda fəaliyyətini ömrünün sonuna qədər davam etdirmişdir.

Əlimərdan bəy Topçubaşov 1934-cü il noyabr ayının 8-də Parisdə, Sen-Deni şəhərində vəfat etmiş, Sen Klu şəhər qəbiristanlığında dəfn edilmişdir.

160 illiyi

Əsgər ağa Gorani 1857-1910

Maarifçi

Əsgər ağa Haqverdi bəy oğlu Adığözəlov (Gorani) 1857-ci il may ayının 3-də Gəncə qəzasının Goran kəndində anadan olmuşdur. Azərbaycan yazıçısı, maarifçi, publisist, teatr xadimi və ictimai xadim Mirzə Adıgözəl bəyin nəvəsidir. 1874-cü ildə Bakı realnı məktəbini qızıl medalla bitirmişdir. 1873-cü ildə məktəbdə Həsən bəy Zərdabinin təşəbbüsü, Nəcəf bəy Vəzirovun rəhbərliyi ilə hazırlanmış Mirzə Fətəli Axundzadənin "Mərdi-xəsis" ("Hacı Qara") komediyasının ilk tamaşasında baş rolda oynamışdır.

Təhsilini Moskvada Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasında davam etdirmişdir. 1878-ci ildə akademiyanı torpaqşünas ixtisası üzrə bitirsə də, Qafqazda aqrar münasibətlərdə hərc-mərclik hökm sürdüyündən ixtisası üzrə işləməmişdir. Ədliyyə orqanlarında fəaliyyət göstərmiş, Kutaisi və Tiflis şəhərlərinin dairə məhkəmələrində prokuror müavini vəzifəsində çalışmış, Suxumi, Gəncə və Cəbrayılda mühüm ədliyyə xidmətləri icra etmişdir.

Akademiyada oxuduğu illərdən tələbə hərəkatında iştirak etmiş, gizli "İmdadiyyə" cəmiyyətinin üzvü olmuşdur. H.Zərdabi, N.Vəzirov və digər maarifpərvər ziyalılar ilə bərabər Azərbaycan milli teatrının yaranmasında , "Əkinçi" qəzetinin nəşrində fəal iştirak etmişdir.

1905-ci ildə Gəncə şəhər bələdiyyə idarəsinin sədri vəzifəsinə seçilmiş və 1909-cu ildə Gəncədə öz hesabına qız məktəbi açmışdır. Ədəbi-bədii yaradıcılıqla məşğul olan Əsgər ağa Məhəmməd şah Qacarın Güney Qafqaza hücumundan bəhs edən "Qara yel" tarixi romanının, "Hənək, hənək, axırı dəyənək" pyesinin, cəhalət, nadanlıq və qadın hüquqsuzluğu əleyhinə yazılmış "Qocalıqda yorğalıq" vodevilinin müəllifidir. A.S.Puşkin və M.Y.Lermontovdan tərcümələri var.

Əsgər ağa Goraninin "Qara yel" romanı dünya xalqlarının 20-dən artıq dilinə tərcümə olunmuşdur.

Nizami Gəncəvinin türbəsi vaxtilə Mirzə Adıgözəl bəy Qarabaği və Əsgər ağa Gorani tərəfindən təmir edilmişdir.

Əsgər ağa Adıgözəlov 1910-cu il mart ayının 9-da Gəncə şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Kazımlı, G. Qaranlıqdan işığa /G.Kazımlı; red. R.Hüseynov.- Bakı: [Şuşa], 2016.- 223, [1] s.

Tarverdiyeva, K. Əsgərağa Adıgözəlov Gorani /K.M.Tarverdiyeva.- Bakı: İşıq, 1977.- 37, [3] s.

Abbaslı, T. Səhnəmizin ilk əsgəri... Milli peşəkar teatrımızın ilkini iki baş rolla başlamış Əsgər ağa Gorani /T.Abbaslı //Mədəniyyət.-2016.- 4 may.- S.13.

Adıgözəlov Əsgər ağa Haqverdi ağa oğlu //Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə.- Bakı, 2009.- C.I.- S.92.

Gorani Əsgər ağa //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.- Bakı, 2004.- C.1.- S.397-398.

İsayev, Ə. Tarixə böyük ehtiramla: Mənəvi çıraqlarımız: [Gəncədə yerləşən Əsgərağa Gorani türbəsi haqqında] /Ə.İsayev //Azərbaycan.- 2012.- 9 dekabr.- S.7.

Qəribli, İ. "Əkinçi"nin Moskva müxbirləri: Əsgər Ağa Gorani /İ.Qəribli //Kredo.-2015.- 14 avqust.- S.10; 12.

140 illiyi

Mirzə Məhəmmədəli xan Tərbiyət 1877-1940 *Maarifçi*

Mirzə Məhəmmədəli xan Sadıq oğlu Tərbiyət 1877-ci il may ayının 26-da (bəzi mənbələrdə 1875-ci il kimi də göstərilmişdir) Təbriz şəhərində, ziyalı ailəsində dünyaya göz açmışdır. Şəhərdə mütərəqqi fikirli ziyalı kimi tanınan Mirzə Sadıq oğlunu məhəllədəki Molla Zeynalabdinin açdığı ibtidai məktəbə qoymuşdu. Təbrizin adlı-sanlı həkimlərindən olan Mirzə Nəsrulla xan və Məhəmmədəli xan Küfrinin məsləhəti ilə Məhəmmədəli fransız və alman dillərini öyrənmiş, nücum, riyaziyyat və tibb elmlərini mənimsəmişdir. M.Tərbiyət Təbrizin müasir təhsil sahəsinə töhfələri olan elm adamlarından idi.

M.Tərbiyət 1899-cu ildə Təbrizdə yeni tipli "Tərbiyət" mədrəsəsi və eyniadlı kitabxana açmış, Təbrizin Milli Kitabxanasının qurucusu kimi ad çıxarmışdır. 1903-cü ildə "Gəncineyi-fünun" ("Bilik xəzinəsi") jurnalını nəşr etdirmiş, 1908-ci ildə "İttihad" qəzetinin redaktoru olmuş, bunun sayəsində İran xalqına və təhsilinə öz töhfələrini vermişdir. Bir müddət Bakıda iranlıların "İttihad" məktəbində müdir işləmişdir.

1905-1911-ci il İran inqilabının fəal iştirakçısı olmuş, onun məğlubiyyətindən sonra Berlində və İstanbulda mühacirətdə yaşamışdır. 1921-ci ildə vətənə qayıtmış, Cənubi Azərbaycan Maarif İdarəsinin rəisi, Təbrizin bələdiyyə rəisi olmuş, bir neçə dəfə İran Milli Məclisinə deputat seçilmişdir. Onun 1935-ci ildə yazılmış "Danişməndani-Azərbaycan" əsəri Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinə dair mühüm mənbədir.

"Danişməndani-Azərbaycan" ifadəsinin mənası fars dilində "Azərbaycan alimləri" deməkdir. Əsər orta əsr təzkirələrindən fərqli olaraq isə bütöv Azərbaycan - Şimali və Cənubi Azərbaycanın 919 müxtəlif elm sahəsi ilə məşğul olan ziyalıları və şairləri haqqında məlumat verən ensiklopedik əsərdir. Bu əsər müəllifin 40 ildən artıq elmi araşdırmalarının nəticəsidir.

"Danişməndani-Azərbaycan" təzkirəsinin ədəbiyyat tariximizin öyrənilməsindəki xüsusi əhəmiyyətlərindən biri də odur ki, bu təzkirə Azərbaycan mənbələri içərisində ilk əsər olaraq ədəbiyyat tariximizi – VII əsrdən başlayaraq XX əsrə qədər əsasən əks etdirir.

Mirzə Məhəmmədəli xan Tərbiyət 1940-cı il yanvar ayının 17-də Tehranda vəfat etmişdir.

Ədəbiyyat

Danişməndani-Azərbaycan /M.Tərbiyət; elmi red. M.C.Cəfərov; tərc. ed. İ.Şəms, Q.Kəndli.- Bakı: Azərnəşr, 1987.- 458, [3] s.

Məmmədova, K. Azərbaycanda təzkirəçilik ənənəsi və Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" təzkirəsi: 10.01.01- Azərbaycan ədəbiyyatı; filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı /K.Məmmədova.- Bakı, 2005.

Savalan, F. Dumanlı Təbrizin işıqlı ədibi /F.Savalan //Mədəniyyət.- 2014.- 5 noyabr.- S. 15.

Tərbiyət Məhəmmədəli Mirzə Sadıq oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1986.- C.IX.- S.254-255.

90 illiyi

Mirməmməd Cavadzadə 1927-2008

Akademik

Mirməmməd Cavad oğlu Cavadzadə 1927-ci il may ayının 18-də Lənkəran şəhərində anadan olmuşdur. 1943-cü ildə 1 saylı Lənkəran şəhər orta məktəbini, 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir.

1948-1951-ci illərdə Astara rayon xəstəxanasında baş həkim və Cərrahiyyə şöbəsinin müdiri işləmişdir. 1954-cü ildən Simferopol Tibb İnstitutunun Fakültativ cərrahlıq kafedrasında assistent, dosent, 1957-ci ildən 2-ci Moskva Tibb İnstitutunun urologiya kafedrasında assistent, 1963-cü ildən Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Urologiya və operativ nefrologiya kafedrasının müdiri, 1975-ci ildən həmin institutun rektoru və eyni zamanda Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş uroloqu vəzifələrində çalışmışdır.

1954-cü ildə elmlər namizədi, 1962-ci ildə isə "Böyrəklərin polikistozu" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcələrini, 1964-cü ildə professor elmi rütbəsini almışdır.

1968-ci ildə Azərbaycan SSR "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1974-cü ildə SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, Azərbaycan SSR və SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1982-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

M.Cavadzadənin təşəbbüsü ilə Bakıda ixtisaslaşdırılmış Urologiya klinikası açılmışdır. Uzun müddət bu klinikaya rəhbərlik edərək insanların sağlamlığı uğrunda mübarizə aparmışdır.

Tibb elminin inkişafındakı xidmətlərinə görə 2007-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Akademik M.Cavadzadə 2008-ci il avqust ayının 7-də vəfat etmişdir.

Respublika Uroloji Klinikaya Mirməmməd Cavadzadənin adı verilmişdir.

Ə d ə b i y y a t

Xroniki böyrək çatışmazlığı:etiopatogenezi klinikası, diaqnostika və müalicəsi: monoqrafiya: praktiki həkimlər üçün vəsait /M.C.Cavad-Zadə, İ.M.Həmidov, F.H.Babayev.- Bakı: Çaşıoğlu, 2007.- 175 s.

Urologiya: Tibb İnstitutu üçün dərslik /M.C.Cavadzadə, K.A.İsmayılov; rəyçilər: X.Quliyeva, B.Ağayevə.- Bakı: Maarif, 1974.- 400 s.

Uroloji xəsətəliklərin farmokaterapiyası /M.C.Cavadzadə, A.Ə.Nəzərov, İ.M.İsmayılov.- Bakı: Azərnəşr, 1983.- 217, [3] s.

Cavadzadə Mirməmməd Cavad oğlu //Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə.- Bakı, 2009.- C.V.- S.197.

Kərimov, S. Dünya şöhrətli uroloq-cərrah /S.Kərimov //Azərbaycan.- 2009.- 20 may.- S.6.

Kərimov, S. Tibb elminin görkəmli şəxsiyyəti /S.Kərimov //Azərbaycan.- 2009.- 7 avqust.- S.5.

Şuşa rayonunun işğalının 25-ci ildönümü 1992



Ərazisi: 289 km²
Əhalisi: 31499 nəfər

1992-ci il may ayının 8-nə keçən gecə erməni birləşmələri Şuşa şəhərinin işğalı ilə başa çatan əməliyyat keçirdi. Erməni hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə səhər saat 6-dək şəhəri kütləvi şəkildə artilleriya atəşinə tutdu. Uzun sürən artilleriya atəşindən sonra düşmənin minə yaxın əsgəri üç tərəfdən şəhərə hücuma keçdi və Şuşa işğal edildi. Qeyd etmək lazımdır ki, Şuşaya hücumdan bir neçə saat öncə Tehranda İran Prezidentinin vasitəçiliyilə Ermənistan və Azərbaycan dövlət başçıları Qarabağ münaqişəsinin dinc yolla həllinə dair saziş imzalamışdı.

Azərbaycanın dilbər guşəsi, musiqi, mədəniyyət ocağı olan Şuşa şəhəri dünyanın bəzi aparıcı dövlətlərinin məzlum xalq kimi tanıdıqları, əslində nəinki xalqımıza, bütün insanlığa qarşı terror siyasəti həyata keçirən məkrli ermənilər tərəfindən işğal olunub. 289 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24.900 əhali yaşayıb. İşğalı zamanı 200-ə yaxın insan qətlə yetirilib, 600 nəfər yaralanıb, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edildi. Beş minə yaxın eksponatı olan Şuşa Tarix muzeyi, Dövlət Xalça muzeyinin filialı və Xalq Tətbiqi Sənəti muzeyi, Qarabağ Dövlət Tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılıb və talan olunub, müqəddəs məbəd və məscidlər təhqir edilib, kitabxanalar yandırılıb, misilsiz əlyazma nümunələri məhv edilib. Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ermənilər Azərbaycana məxsus olan bir çox abidənin məhv edilməsinə və ya onların ermənilərdirilməsinə nail olublar. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıdıblar.

Artıq Şuşanın işğalından 25 il ötür. İnanırıq ki, Şuşa ilə görüşməyimizə çox az qalıb.

Ədəbiyyat

Abdullayev, Ə. Qarabağ faciəsi: monoqrafiya /Ə.İ.Abdullayev; elmi red. Ə.Əliyev; baş red. İ.Səfərov /Azərb.Resp. Təhsil Nazirliyi; Azərb. Döv. İqt. Un-ti.- Bakı: İqtisad Universiteti, 2016.- 227 s.

Fərəcov, Ç. Sevgili gözəl Şuşam, dərdim, kədərim Şuşam /Ç.Fərəcov //Azərbaycan.- 2014.- 7 may.- S.14.

Hüseynov, F. Şuşanın dağları başı dumanlı... /F.Hüseynov //Mədəniyyət.- 2015.- 8 may.- S.9.

Qarayev, T. Güllələnən heykəllər, itkin düşən abidələr //Azərbaycan.- 2015.- 8 may.- S.15.

Şuşa - strateji şəhər //Azadlıq.- 2014.- 8 may.- S.11.

Şükürov, Ə. Şuşa Azərbaycanın dilbər guşəsi, cənnətidir /Ə.Şükürov //Azad Azərbaycan.- 2015.- 8 may.- S.5.

Faşizm üzərində Qələbə Günü 1945

İkinci Dünya müharibəsi 1939-1945-ci illəri əhatə etmişdir. 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatmışdır. Müharibədə dünyanın 61 dövlətindən 120 milyon adam iştirak etmişdi. İdeoloji və siyasi yönümündən asılı olmayaraq, 50-dən çox dövlət antifaşist koalisiyasında birləşmiş, dünyanı faşizm taununda xilas etmişdir.

1941-ci il iyunun 22-də keçmiş SSRİ ərazisinə soxulmuş Hitler ordusu yolu üzərindəki bütün şəhər və kəndləri viran etmiş, bir neçə aydan sonra artıq ölkənin Moskva və Leninrad (Sankt-Peterburq) kimi paytaxt şəhərlərinə yaxınlaşmışdı. Belə bir şəraitdə faşizmə qarşı amansız mübarizəyə SSRİ-nin tərkibində olan Azərbaycan da qoşulmalı olmuşdu. Azərbaycan xalqı Böyük Vətən müharibəsinin əsas ağırlığını öz üzərinə götürmüş ölkələrdən biri idi. Ərazisində müharibə getməsə də, bu cənub ölkəsinin vətəndaşları istər ön, istərsə də arxa cəbhədə böyük şücaətlər göstərərək qələbəyə böyük töhfələr vermişdir. Müharibənin ilk illərindən etibarən Azərbaycan SSR-də 87 qırıcı təyyarə və 1124 özünümüdafiə batalyonu təşkil olunmuşdu. 600 mindən çox vətəndaş isə səfərbərliyə alınaraq birbaşa ön cəbhəyə yola salınmışdı. Onların yarıdan çoxu müharibədə həlak oldu. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmiş, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük və şərəfli bir döyüş yolu keçmiş, Berlinin süquta yetirilməsində xüsusi qəhrəmanlıq göstərmişdir. Müharibə illərində 100-dən çox Azərbaycan vətəndaşı SSRİ-nin ən ali mükafatına - "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdü. 30 nəfər "Şərəf" ordeni, 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdu. Sovet İttifaqı Qəhrəmanı adına ilk layiq görülmüş SSRİ vətəndaşları arasında İsrafil Məmmədovun da adı vardı. Bu ada iki dəfə layiq görülmüş həmyerlimiz, general Həzi Aslanovun şöhrəti isə bütün ittifaqa yayılmışdı. 1941-ci ildə Azərbaycanın neft hasilatı tarixində rekord miqdarda - 23,5 milyon ton neft istehsal olunmuşdu. Alman faşizmi üzərində qələbədə Bakı nefti misilsiz rol oynamışdır. Zəngin təbii sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanı işğal etmək Hitler Almaniyasının planlarına daxil idi. Fürer Bakı neftini ələ keçirmək arzusunda idi.

SSRİ-nin dağılmasından, Azərbaycanın müstəqillik qazanmasından sonra da Qələbə Günü bütün MDB ölkələrində qeyd edilir. Azərbaycan da özünün qəhrəmanlarını unutmur. Qədirbilən Azərbaycan xalqı öz şanlı oğullarının xatirəsinə ölkənin hər yerində, hətta ən ucqar kəndlərdə də abidələr ucaldıb.

Azərbaycanın Respublikasının Prezidenti cənab İlham Əliyev hər il Qələbə Günündə həyatda olan müharibə iştirakçılarına və onların həyat yoldaşlarına mükafatlar verir.

Ə d ə b i y y a t

Əmrahov, M. İkinci dünya müharibəsi: 1939-1945 /M.Əmrahov; elmi red. C.Bəhramov; red.S.Mustafayeva.- Bakı: Mütərcim, 2010.- 603 s.

Həsənli, C. İkinci Dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə: (1939-1945) /C.Həsənli; red.: İ.Musa.- Bakı: Yazıçı, 2015.- 538 s.

1941-45-ci illər müharibəsinin veteranları - böyük qələbənin varis varisləridir /tərt. və red. İ.İsmayılov, Ə.Məhərrəmov.- Bakı: Vətən, 2010.- 185 s.

Heydər Əliyev Mərkəzinin açılışının 5-ci ildönümü 2012

2012-ci il may ayının 10-da ulu öndərin anadan olmasının 89 illiyi qeyd edildiyi ərəfədə, Bakıda ölkə başçısının iştirakı ilə möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışı gerçəkləşdi. Bu il Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli Sərəncamı əsasında yaradılan Mərkəzin açılışının 5 ili tamam olur. Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması istiqamətində sistemli fəaliyyət göstərir.

Dünya memarlığının incilərindən sayılan bu bina müasir Bakının rəmzlərindən biri hesab olunur. Binanın layihəsinin müəllifi dünya şöhrətli memar, Pritsker memarlıq mükafatının sahibi Zaha Hadiddir. Binanın quruluşu - yerdən dalğavari şəkildə səmaya doğru yüksəlməsi, sonra isə süzülərək yenidən yerə qovuşması təkcə memarlığın postmodern tərzini deyil, eyni zamanda davamlılığı, sonsuzluğu, üzərindəki xəttlər isə keçmişlə gələcəyin bir-birinə bağlılığını təcəssüm etdirir.

Mərkəzin ümumi sahəsi 57 min kvadrat metrdir. Struktura muzey, 10.854 kvadrat metr sahəsi olan mədəni irs mərkəzi, 985 nəfərlik konfrans zalı, 27.880 kvadrat metrlik çoxfunksiyalı zal, kitabxana və 12.920 kvadrat metrlik media mərkəzi daxildir. Mərkəz həm də beynəlxalq səviyyəli tədbirlərin, konfransların, müsabiqələrin, festivalların, sərgi, konsert və ziyafətlərin təşkili üçün nəzərdə tutulub.

Heydər Əliyev Mərkəzinin ən cəlbedici hissələrindən birində Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Dizaynı və burada tətbiq olunan yeni texnologiyaları ilə fərqlənən muzey Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirir. Burada Heydər Əliyevin həm Sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir. Heydər Əliyev haqqında çəkilən filmləri izləmək istəyənlər üçün müasir avadanlıqlarla təchiz edilmiş xüsusi zal fəaliyyət göstərir. Muzeydə maraq doğuran bölmələrdən biri də ümummilli liderin müxtəlif ölkə rəhbərləri ilə görüşlərini əks etdirən multimediya zalıdır. Burada təqdim olunan Heydər Əliyevin hərbi və mülki geyimləri, iş masası, şəxsi əşyaları, müxtəlif illərdə layiq görüldüyü orden və medallar, dünya ölkələrinin rəhbərləri tərəfindən aldığı hədiyyələr də nümayiş etdirilən eksponatlar siyahısındadır.

Heydər Əliyev Mərkəzinin binasının memarı Zaha Hadid 2014-cü ildə "Design Museum" təşkilatının təsis etdiyi "İlin dizaynı 2014" mükafatına layiq görülmüşdür. Görkəmli memar Zaha Hadid 2016-cı ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Heydər Əliyev Mərkəzi: Fotoalbom.- Bakı: Heydər Əliyev Mərkəzi, 2014.- 493 s.

Əsədov, B. Heydər Əliyev Mərkəzi - Bakının yeni rəmzi /B.Əsədov //Azərbaycan.- 2008.- 4 aprel.- S.2.

Heydər Əliyev Mərkəzi: Azərbaycanın birinci xanımı Mehriban Əliyeva sərginin açılışında iştirak etmişdir //Azərbaycan qadını.- 2014.- yaz.- S.80-86.

Heydər Əliyev Mərkəzi binasının memarlıq təqdimatı olmuşdur //Memar.- 2014.- №2.- S.96-100.

Heydər Əliyev Mərkəzi London Dizayn Muzeyinin mükafatını qazanıb //Mədəniyyət.- 2014.- 2 iyul.- S.3.

Ziyadlı, R. Heydər Əliyev Mərkəzi //Mədəni həyat.- 2014.- №8.- S.26-27.- S.11.

Beynəlxalq Ailə Günü 1994

Hər il may ayının 15-i dünyada təntənə ilə qeyd olunan və insanların diqqətini ailə problemlərinin həllinə bir daha yönəltmək məqsədi daşıyan Beynəlxalq Ailə Günü münasibətilə respublikamızda da silsilə tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bu əlamətdar günlə bağlı təşkil etdiyi "Ailə bayramı"nda nümunəvi ailələrin seçilməsi, respublikanın müxtəlif bölgələrində mərasimlərin keçirilməsi artıq xoş ənənəyə çevrilib.

Müstəqil Azərbaycan Respublikasında sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Bu gerçəkliyi daim nəzərə alan ümummilli lider Heydər Əliyev ölkəmizdə ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə ümummilli lider ailə siyasəti ilə bağlı məsələlərin normativ-hüquqi tənzimini və əməli həllini prioritet vəzifələrdən biri kimi qarşıya qoymuşdur.

Müstəqil Azərbaycanda həyata keçirilən dövlət ailə siyasəti millimənəvi dəyərlərdən qaynaqlanır. Bu barədə Prezident İlham Əliyev demişdir: "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qururunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Respublikada ailə problemlərinin həllinə xüsusi qayğının göstəricisi kimi 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin qarşısında duran ən mühüm vəzifələrdən biri də ailə institutunun hərtərəfli inkişafı və möhkəmləndirilməsi, ailə dəyərlərinin qorunması, onun problemlərinin minimuma endirilməsidir. Bu gün ölkəmizin həyatında önəmli rol oynayan, hər birimiz üçün gözəl nümunə olan Azərbaycan qadın hərəkatının lideri, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən ailə problemlərinin həlli istiqamətində önəmli layihələrin gerçəkləşdirilməsini xüsusilə qeyd etmək lazımdır.

Ə d ə b i y y a t

Ailə cəmiyyətin təməlidir //Mədəniyyət.- 2015.- 22 may.- S.11.

Ailə dəyərləri milli-mənəvi irsdir //Mədəniyyət.- 2014.- 26 dekabr.- S.9.

Hüseynova, H. Ailə millimənəvi dəyərlərin daşıyıcısıdır /H.Hüseynova //Azərbaycan.-2009.-15 may.-S.5.

İsmayıl, Z. Beynəlxalq Ailə Günü və Azərbaycan ailəsi /Z.İsmayıl //İki sahil.- 2014.- 15 may.- S.14.

Uğur. 15 May - Beynəlxalq Ailə Günü /Uğur //Xalq cəbhəsi.- 2012.- 15 may.- S.14.

Laçın rayonunun işğalının 25-ci ildönümü 1992



Ərazisi: 1835 km²
Əhalisi: 72 228 nəfər

Azərbaycanın strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Laçın rayonunun işğalından 25 il keçir. 1992-ci il may ayının 18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıdaraq talan edib. İşğal nəticəsində 63341 min Azərbaycan vətəndaşı öz yurdundan didərgin düşüb. 1835 kvadrat kilometr ərazisi olan rayonun 121 kəndi var. İşğal zamanı 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. İşğal altında 8950 bina, o cümlədən 7 sənaye və tikinti müəssisəsi, 471 xidmət idarəsi, 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi qalıb.

1992-ci il mayın 8-də Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra erməni silahlı qüvvələri intensiv şəkildə ağır artilleriyadan rayon mərkəzini atəşə tutub. Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən mayın 18-də Laçını işğal edib. Əhəmiyyətli geostrateji mövqeyə malik olan Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurub. Təbii sərvətlərlə zəngin olan Laçın rayonunda Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar mövcuddur. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayonun işğalı ilə bağlı yaydığı məlumatda bildirilib ki, Laçın rayonu ərazisində ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü və digər təbii sərvətləri var.

Laçın rayonundakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da hal-hazırda işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü var. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədi ilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri məskunlaşıb. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağkeçisi 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda canavar, porsuq, dələ, qırqovul, kəklik qeydə alınıb. İşğalçı dövlət beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq hazırda Laçında qanunsuz məskunlaşma aparır.

Bu gün bütün Azərbaycan xalqı Qarabağın işğal altından qurtulacağı günü gözləyir. Qarabağa böyük qayıdışın olacağına hamımız inanırıq.

Ə d ə b i y y a t

Abdullayev, Ə. Qarabağ faciəsi: monoqrafiya /Ə.İ.Abdullayev; elmi red. Ə.Əliyev; baş red. İ.Səfərov /Azərb.Resp. Təhsil Nazirliyi; Azərb. Döv. İqt. Un-ti.- Bakı: İqtisad Universiteti, 2016.- 227 s.

Mərdlik qalası Laçın: albom /tərt.ed. və red. Ş.Alışanlı.- Bakı: Elm, 2009.- 126 s.

Allahverdiyev, E. "Ulu yurdum Laçınım" /E.Allahverdiyev //Ekran-efir.- 2013.- 17 may.- S.4.

Qaraca, B. Laçınlar yurdu /B.Qaraca //Azərbaycan.- 2014.- 18 may.- S.6.

Sarıyeva, İ. Laçının işğalı - Azərbaycan dövlətçilk tarixində erməni təcavüzünün ən ağır təzahürlərindən biri kimi... /İ.Sarıyeva //Bakı xəbər.- 2015.- 18 may.- S.11.

110 illiyi
"Bəhlul" satirik jurnalı 1907

Azərbaycanda nəşr edilən ilk satira jurnallarından biri də "Bəhlul" jurnalıdır. "Bəhlul"un ilk nömrəsi 1907-ci il may ayının 19-da, Bakı şəhərində çıxmışdır. Jurnalın redaktoru Azərbaycanın görkəmli inqilabçı və maarif xadimlərindən olan Ələsgər Abdulla oğlu Əliyev (1883-1938) idi. Görkəmli inqilabçının redaktə etdiyi "Bəhlul"un hər nömrəsi 15 gündə bir dəfə buraxılırdı. "Bəhlul"un nəşri 1907-ci ildə noyabr ayının 4-də, 9-cu nömrədən sonra "zərərli məsləkinə görə" dayandırılmışdır. Çünki jurnalın səhifələrində zəhmətkeş kütlələrin 1905-1907-ci illərdəki inqilabi mübarizəsi geniş işıqlandırılmışdı.

Jurnalın cəmi doqquz nömrəsi çıxmışdır. Buna baxmayaraq "Bəhlul" mətbuat və ədəbiyyat tarixini öyrənmək üçün diqqəti cəlb edir. "Bəhlul" ilk nömrəsindən etibarən "Molla Nəsrəddin" ədəbi-siyasi cəbhəsini müdafiə etməyə başlamışdı. Jurnalın adı da Molla Nəsrəddin kimi xalq arasında məzmunlu lətifələri ilə məşhur olan ədalətpərəst, həqiqətpərəst Bəhlul Danəndənin adından götürülmüşdür.

"Bəhlul" səhifələrində olan bütün materiallarda fəhlə həyatı, daha doğrusu Bakı fəhlələrinin inqilabi mübarizəsi çox geniş işıqlandırılmışdır.

1905-1907-ci illər inqilabının təsiri ilə Yaxın Şərq xalqlarının oyanıb mütləqiyyətə və müstəmləkə zülmünə qarşı mübarizə aparmasına "Bəhlul" jurnalı öz münasibətini açıq bildirmişdir. "Bəhlul" Azərbaycanın tərəqqipərvər ziyalılarına arxalanır və çox qısa müddətdə "Molla Nəsrəddin"in yazıçı və rəssamları ilə əməkdaşlıq edirdi. M.Ə.Sabir kimi qüdrətli bir sənətkarın "Bəhlul" jurnalında iştirakı da bu faktı aydın sübüt edir. Bu hadisə jurnalın sonadək "Molla Nəsrəddin" ənənələrinə sadiq qalmasına, həm də M.Ə.Sabirin ədəbi və jurnalistik fəaliyyətinin mühüm bir sahəsinin öyrənilməsində böyük rol oynamasına sübutdur.

Ə d ə b i y y a t

Axundov, N. "Bəhlul" jurnalı /N.Axundov //Azərbaycan.- 1957.- №10.- S.211-219.

Uğur. Azərbaycanın satira jurnalları: dünəndən bu günə /Uğur //Xalq cəbhəsi.- 2014.- 23 sentyabr.- S.11.

http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/sentyabr/392335.htm

http://www.azerbaycanli.org/az/page1335.html

Beynəlxalq Bioloji Müxtəliflik Günü 2000

BMT Baş Assambleyası 22 dekabr 2000-ci ildə 22 may tarixini Beynəlxalq Bioloji Müxtəliflik Günü kimi elan edib. Azərbaycanda da ətraf mühitin mühafizəsi dövlətin daim diqqətində olan məsələdir.

Azərbaycan yüz illər boyu dünyada yeraltı və yerüstü təbii sərvətləri, o cümlədən zəngin fauna və florası ilə tanınıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, hazırda da Azərbaycanda ümumi sahəsi 890 min hektaradək Xüsusi Mühafizə olunan Təbiət əraziləri, o cümlədən 8 Milli Park, 12 Dövlət Təbiət Qoruğu və 23 Dövlət Təbiət Yasaqlığı var. Biomüxtəliflik baxımından Azərbaycan dünyada zəngin fauna və floraya malik ölkələrdən biri hesab edilir. Bioloji müxtəliflik yaşayış mühitində - suda, quruda və digər ekoloji komplekslərdə mövcud olan canlı orqanizmləri özündə birləşdirir. Yəni bioloji müxtəliflik yer üzərində bütün canlıların mikroorqanizm, bitki və heyvanların çoxçeşidliliyi deməkdir.

Hal-hazırda bioloji müxtəlifliyin qorunub saxlanılması və mühafizə edilməsi önəmli məsələlərdən biridir.

2010-cu il Azəırbaycanda "Ekologiya ili" elan olunmuşdu. Bu məqsədlə hər yerdə ağacəkmə, yaşıllaşdırma kampaniyaları geniş vüsət almış, kampaniya çərçivəsində ölkəmizdə 14 milyona yaxın ağac əkilmiş, yeni parklar salınmışdır.

Son illərdə insanların fəaliyyəti nəticəsində, ekosistemlər deqradasiyaya uğramış, bir çox növlər isə məhv olmuş və ya onların sayı kəskin azalmışdır. Bioloji müxtəlifliyin belə sürətlə itkisi Yer kürəsində həyatın özünü təhlükədə qoymaqla qlobal faciəyə səbəb ola bilər. BMT-nin ekspertlərinin məlumatına görə, Yer kürəsində təbii meşələrin 45%-i, əsasən son illərdə qırılaraq məhv edilmişdir. Yer kürəsində bioloji müxtəlifliyin yalnız beynəlxalq əməkdaşlıq yolu ilə xilas etmək mümkünlüyünü nəzərə alaraq Rio de-Janeyro şəhərində 1992-ci ilin iyun ayında keçirilmiş Yer Zirvə toplantısında ilk dəfə olaraq bioloji müxtəlifliyin qorunması, bütün bəşəriyyətin ümumi vəzifəsi və davamlı inkişafın tərkib hissəsi kimi qəbul olunmuş və müvafiq Konvensiya imzalanmışdır.

Ölkəmizdə ətraf mühitin mühafizəsinə yönəldilmiş tədbirlər, o cümlədən yeni milli parkların yaradılması işi indi də uğurla davam etdirilir. Təbii ehtiyatların qorunması üçün uzunmüddətli dövlət planları nəzərdə tutulub. Çünki təbiətin bioloji müxtəlifliyinin qorunmasının özü, hər şeydən əvvəl insanların sağlamlığına xidmət edir.

Ə d ə b i y y a t

Babayev, İ. Bioloji müxtəliflik: Xəzərin Azərbaycan hissəsinin sudaüzən quşları /İ.Babayev və b.; red. X.Eyvazova.- Bakı: Nurlar, 2007.- 136 s.

Əliyev, C. Bioloji müxtəliflik /C.Əliyev.- Bakı: Elm, 2008.- 231 s.

Yusifov, E. Bioloji müxtəliflik: Abşeron yarımadasının təbiət abidələri; red.: F.Əhmədov.- Bakı: Nurlar, 2007.- 424 s.

Cavadov, V. Bioloji müxtəlifliyin qorunması və inkişafı Azərbaycanda lazımi səviyyədə təmin olunur /V.Cavadov //Olaylar.- 2013.- 25 aprel.- S.14.

Mustafayev, İ. Azərbaycanda biomüxtəliflik və onun qorunması problemləri /İ.Mustafayev //Biomüxtəliflik.- 2007.- №1.- S.5-14.

25 illiyi

Azərbaycan Dövlət Himni 1992

Azərbaycan Respublikasının Dövlət himni onun əsas dövlətçilik atributlarından biri olub Vətənimizin dövlət müstəqilliyinin və ölkəmizin milli birliyinin müqəddəs rəmzidir. Hər bir müstəqil dövlətdə olduğu kimi, Azərbaycanın da müstəqilliyini, milli mentalitetini və dövlətçiliyini əks etdirən özünəməxsus milli himni - Dövlət himni vardır. Dövlət himni dövlət müstəqilliyinin musiqi və sözlə ifadə edilən müqəddəs simvolu, rəmzi, atributu olaraq milli və dövlət bayramlarında, tarixi günlərdə, rəsmi mərasimlərdə, beynəlxalq tədbirlərdə, təhsil müəssisələrində və mövcud qanunvericiliklə müəyyən edilən digər hallarda həmişə ayaqüstə, böyük coşqu ilə, milli qürurla oxunur və dinlənilir.

28 may 1918-ci il tarixində Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı və gerbi ilə bərabər, Dövlət himninin də yaradılması və qəbul edilməsi məsələsi qarşıya çıxmışdı.

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası milli himnin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan olundu.

Bununla əlaqədar bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad "Azərbaycan marşı" adlı əsər yazdılar və müsabiqəyə təqdim etdilər. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himninin qəbuluna imkan vermədi.

1991-ci ildə ölkəmiz yenidən müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himninin qəbulu məsələsi gündəmə çıxdı. 1992-ci il mayın 27-də Milli Məclis "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə musiqisi böyük bəstəkar Üzeyir Hacıbəyli və sözləri Əhməd Cavada məxsus "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət himni kimi təsdiq olundu.

1993-cü il Azərbaycan Respublikası Milli Məclisinin 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikası Dövlət himninin əsasnaməsi təsdiq edilmişdir. Bütün dövlət rəmzlərinə, dövlətçilik atributlarına, o cümlədən də Dövlət himninə dərin hörmət və məhəbbətlə yanaşmaq, himnimizin səslənməsindən böyük milli iftixar hissi keçirmək hər bir Azərbaycan vətəndaşının Konstitusiya ilə müəyyənləşən vətəndaşlıq vəzifəsidir...

Ə d ə b i y y a t

Abbas, İ. Himnimizin müəllifi... /İ.Abbas; red.: Ə.Tanrıverdi.- Bakı: Elm və təhsil, 2015.- 98 s.

Bayrağımız, gerbimiz, himnimiz /tərt.ed.: H.Cəmilzadə (Xudiyev).- Bakı: Nağıl evi, 2000.- 20 s.

Əliyev, İ. Azərbaycan Respublikasının Dövlət rəmzləri /İ.Əliyev, E.Məhərrəmov; red. Y.Mahmudov; AMEA A.Bakıxanov ad. Tarix İn-tu; AMEA Arxeologiya və Etnoqrafiya İn-tu.- Bakı: Nurlan, 2008.- 54 s.

Mərdanov, M. Azərbaycan Respublikasının Dövlət rəmzləri /M.Mərdanov, Ə.Quliyev; elmi red.: R.Mehdiyev.- Bakı: Çaşıoğlu, 2007.- 272 s.

Dövlət himni //Mədəni həyat.- 2012.- №5.- S.6.

Qaraqoyunlu, S. Dövlət himnimiz və biz //Ədalət.- 2010.- 8 oktyabr.- S.3.

Respublika Günü 1992

1918-ci il 28 may müsəlman Şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu və Azərbaycan dövlətçiliyinin bərpa edildiyi gündür. Həmin gün Azərbaycan Milli Şurasının iclasında 6 bənddən ibarət Azərbaycanın İstiqlal bəyannaməsi qəbul olundu. İlk konstitusiya aktı - İstiqlal bəyannaməsinin qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyəvi Xalq Cümhuriyyəti formasında elan edildi.

Milli Şuranın iclasında bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Xosrov Paşa bəy Sultanov, Məmmədhəsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınskidən ibarət ilk Azərbaycan hökuməti yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1919-cu ilin 21 mayında 28 may istiqlal gününün bayram edilməsi haqqında qərar qəbul etmiş və bayramın keçirilməsi üçün komissiya yaratmışdı. 1919-cu il mayın 27-28-də istiqlaliyyətin birinci ildönümü münasibətilə Bakıda və bölgələrdə təntənəli bayram mərasimləri və kütləvi tədbirlər keçirildi.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, Azərbaycan xalqının tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrinin yaşamasında və inkişafında mühüm rol oynamışdır. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycan Respublikası Prezidentinin Fərmanı (1992) ilə 28 May – Respublika Günü elan edilərək, hər il dövlət və ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Ə d ə b i y y a t

Əliyev, A. Yaddaşımıza əbədi həkk olunmuş nicat günü /A.Əliyev //Respublika.- 2015.- 10 iyun.- S.10.

Haşımov, C. Müstəqillik xalqımızın böyük tarixi nailiyyətidir /C.Haşımov //Respublika.- 2015.- 15 oktyabr.- S.7.

Həsənova, X. Xalqımızın tarixi nailiyyəti /X.Həsənova //Respublika.- 2014.- 19 oktyabr.- S.11.

Respublika günü //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: iki cilddə.- Bakı, 2005.- C.II.- S.295.

İYUN

22 may

21 iyun

Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünə keçdiyi dövrdə doğulanlar çox ağıllı olub hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

C.A.	1
C.	2
Ş.	3
B.	4
B.E.	5
Ç.A.	6
Ç.	7
C.A.	8
C.	9
Ş.	10
B.	11
B.E.	12
Ç.A.	13
Ç.	14
C.A.	15
C.	16
Ş.	17
B.	18
B.E.	19
Ç.A.	20
Ç.	21
C.A.	22
C.	23
Ş.	24
B.	25
B.E.	26
Ç.A.	27
Ç.	28
C.A.	29
C.	30

- *Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Milli Silahlı Qüvvələr Günü (26.06.1918)*
- *Narkomaniyaya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü (26.06.)*

300 il Molla Pənah Vaqif 1717-1797

Ulu öndərin M.P.Vaqifə münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ona görə də açılışa gedərkən yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə ümummilli lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

Ulu öndər Heydər Əliyev müdrik addımı ilə həm də bədnam qonşularımıza bir daha qətiyyətlə çatdırırdı ki, Vaqifin məqbərəsi Azərbaycan ruhunun, poeziyasının simvoludur. O vaxtlar Vaqif poeziya günləri Qazaxdan başlanıb Şuşada - məqbərənin önündə başa çatardı. İnanırıq ki, ulu öndərin saldığı o möhtəşəm cığırlardakı tikanlar tezliklə təmizlənəcək, biz yenə də qədim və doğma şəhərimizə qayıdacağıq.

Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verdi. Ümummilli liderin Şuşa məscidinə getməsi bir tərəfdən xalqımızın böyük oğlunun dini dəyərlərə olan ehtiramının göstəricisi idisə, digər tərəfdən, azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Ulu öndər erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi. Ümummilli liderin həmin gün Şuşada şəhər ictimaiyyəti ilə keçirilən görüşləri hər bir şuşalının yaddaşında unudulmaz iz qoymuş və bu gün də xatirələrdə yaşayır.

İYUN

2017

Milli ədəbiyyat

Yazıçı-publisist Vəliyeva Afaq Məsud qızının (Afaq Məsud) (03.06.1957) anadan olmasının 60 illiyi 182

Dramaturq, ədəbiyyatşünas Qasımov Həsən Məmməd oğlunun (05.06.1912-08.05.1977) anadan olmasının 105 illiyi

Şair Ağayev Eldar Baxış oğlunun (Eldar Baxış) (22.06.1947-22.05.1996) anadan olmasının 70 illiyi 183

Yazıçı-dramaturq, materialist filosof, ictimai xadim, Azərbaycan dramaturgiyasının banisi Axundov (Axundzadə) Mirzə Fətəli Məhəmmədtağı oğlunun (30.06.1812-10.03.1878) anadan olmasının 205 illiyi 184-185

Folklor

Aşıq, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi Rüstəmov İsfəndiyar Adil oğlunun (25.06.1937) anadan olmasının 80 illiyi

Dünya ədəbiyyatı

Rus şairi Rojdestvenski Robert İvanoviçin (02.06.1932-1994) anadan olmasının 85 illiyi 186

Türk yazıçısı Orhan Pamukun (07.06.1952) anadan olmasının 65 illiyi

Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

İlk azərbaycanlı heykəltəraş qadın Məmmədova Zivər Nəcəfqulu qızının (14.06.1902-22.04.1980) anadan olmasının 115 illiyi 187

Əməkdar memar Zeynalova Şəfiqə Mikayıl qızının (26.06.1922-11.05.1979) anadan olmasının 95 illiyi

Musiqi. Opera. Balet

Xalq artisti, müğənni Haşımova Şahnaz Həsən qızının (02.06.1957) anadan olmasının 60 illiyi

Əməkdar incəsənət xadimi, musiqişünas, sənətşünaslıq doktoru, professor Səfərova Zemfira Yusif qızının (10.06.1937) anadan olmasının 80 illiyi 188

Əməkdar artist, kamança ustası Bakıxanov Tələt Soltan oğlunun (13.06.1927-30.05.2000) anadan olmasının 90 illiyi 189

Xalq artisti, opera müğənnisi Qasımova Fidan Əkrəm qızının (17.06.1947) anadan olmasının 70 illiyi 190

Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Hacıyev Əhməd Cövdət İsmayıl oğlunun (18.06.1917-18.01.2002) anadan olmasının 100 illiyi 191

SSRİ Xalq artisti Məmmədov Murtuza Məşədi Rza oğlunun (Bülbül) (22.06.1897-26.09.1961) anadan olmasının 120 illiyi 192

Teatr.Kino

Görkəmli rejissor, pedaqoq, ictimai xadim, Əməkdar incəsənət xadimi Nemətov Zəfər Əlipaşa oğlunun (05.06.1917-19.11.1971) anadan olmasının 100 illiyi 193

Xalq artisti Bağırov Hacıbaba Ağarza oğlunun (12.06.1932-04.10.2006) anadan olmasının 85 illiyi 194

Xalq artisti Hacıyeva Sona Salman qızının (25.06.1907-24.12.1979) anadan olmasının 110 illiyi 195

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Mövsüm Şahin oğlunun (06.06.1967) anadan olmasının 50 illiyi 196

Azərbaycanın Milli Qəhrəmanı Şahverdiyev İsrafil Şahverdi oğlunun (11.06.1952-13.01.1994) anadan olmasının 65 illiyi 197

Azərbaycanın Milli Qəhrəmanı Behbudov Səfiyar Abuzər oğlunun (18.06.1967-11.03.1992) anadan olmasının 50 illiyi 198

Azərbaycanın Milli Qəhrəmanı Əsədov Malik Hamil oğlunun (27.06.1962-18.01.1992) anadan olmasının 55 illiyi 199

Azərbaycanın Milli Qəhrəmanı Fərəcov Ənvər Səyyad oğlunun (28.06.1952-11.09.1991) anadan olmasının 65 illiyi 200

Siyasət. Hərbi iş

Hərbi xadim, artilleriya general-leytenantı Rəsulbəyov Hüseyn Cümşüd oğlunun (26.06.1917-17.09.1984) anadan olmasının 100 illiyi 201

Mədəniyyət.Maarif.Təhsil

Azərbaycan əsilli rus şərqşünası, tarixçi, türkşünas və filoloqu Məhəmməd Əli Kazımbəy Məhəmməd Qasım Kazımbəy oğlunun (Mirzə Kazım bəy) (22.06.1802-27.11.1870) anadan olmasının 215 illiyi 202

Maarif xadimi, görkəmli mütəfəkkir, publisist Məlikov Həsən bəy Səlim bəy oğlunun (Həsən bəy Zərdabi) (28.06.1842-28.11.1907) anadan olmasının 175 illiyi 203

Fəlsəfə.İqtisadiyyat

Fəlsəfə elmləri doktoru, professor Mustafayev Firuz Qədimalı oğlunun (Firuz Mustafa) (30.06.1952) anadan olmasının 65 illiyi

Riyaziyyat. Fizika. Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycanda nəzəri nüvə fizikası üzrə ilk professor qadın Əbdülvahabova Sacidə Qafar qızının (02.06.1947) anadan olmasının 70 illiyi 204

Fizika-riyaziyyat elmləri doktoru Axundov Qüdrət Əli oğlunun (05.06.1932-05.11.1973) anadan olmasının 85 illiyi

Kimya. Biologiya. Tibb

Əməkdar həkim, tibb elmləri doktoru, professor Quliyeva Səmayə Əli qızının (01.06.1927) anadan olmasının 90 illiyi

Tibb elmləri doktoru, professor, Əməkdar həkim Mahmudbəyova Məhbubə Kərim qızının (11.06.1902-13.01.1976) anadan olmasının 115 illiyi

Tarixdə bu gün

Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)

Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)

Azərbaycanın YUNESKO-ya üzv qəbul edilməsinin (03.06.1992) 25 illiyi 205

Radio və Televiziya Verilişləri Komitəsinin yaradılmasının (04.06.1957) 60 illiyi

Beynəlxalq Təcavüzə Məruz Qalmış Uşaqlar Günü (04.06.1982)

Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972) 206

Qazax rayonunun Yuxarı Əskipara kəndinin işğalının 25-ci ildönümü (08.06.1992)

Ümumdünya Okeanlar Günü (08.06.1992)

Beynəlxalq Qan Donor Günü (14.06.2001)

Milli Qurtuluş Günü (15.06.1993) 207

Ümumdünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü (17.06.1994)

Səhiyyə İşçiləri Günü (17.06.2001)

Azərbaycanda Milli İnsan Hüquqları Günü (18.06.2007) 208

Ümumdünya Qaçqınlar Günü (20.06.2000)

Azərbaycanın BMT-nin Uşaq hüquqları Konvensiyasına qoşulmasının (21.06.1992) 25 illiyi

Beynəlxalq Olimpiya Qaçış Günü (23.06.1967)

Dövlət Qulluqçularının Peşə Bayramı Günü (23.06.2006)

İstanbulda Azərbaycanın da iştirakı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının (25.06.1992) 25 illiyi

“Televiziya və Radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (25.06.2002)

Milli Silahlı Qüvvələr Günü (26.06.1918) 209

Narkomaniyaya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü (26.06.) 210

60 illiyi

Afaq Məsud 1957

Yazıçı-publisist

Ə d ə b i y y a t

Xilas yolunun yolçuları /tərc., ön söz A.Məsud; red. Z.Sarıtorpaq.- Bakı: Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi, 2014.-318 s.

Markes, Q.Q. Patriarxın payızı: roman /Q.Q.Markes; tərc. ed. A.Məsud; ön söz. A.Məsud, M.O.Silva.- Bakı: Qanun, 2011.- 344 s.

Biz artıq genişlənmiş fəaliyyətimizə bir vaxtlar başladığımız yolun davamı kimi baxırıq... /A.Məsud //Xalq qəzeti.- 2014.- 20 may.- S. 7.

Zülfüqarova, F. İngilis və Azərbaycan ədəbiyyatlarında insan konsepsiyası: (Virciniya Vulf və Afaq Məsudun yaradıcılıqları əsasında) /F.Zülfüqarova; elmi red. A.Bayram; rəyçilər İ.Əliyeva, Ş.Xəlilli; ön söz müəl. J.Əliyeva.- Bakı: [Elm və təhsil], 2012.- 231 s.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/xalqqazeti/2014/may/371009.htm

Afaq Məsud qızı Vəliyeva (Afaq Məsud) 1957-ci il iyun ayının 3-də Bakı şəhərində, görkəmli yazıçı Məsud Vəliyevin (Məsud Əlioğlu) ailəsində anadan olmuşdur. 190 saylı məktəbi bitirdikdən sonra 1974-1979-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsində təhsil almışdır.

1979-1987-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor, redaksiya heyətinin üzvü, 1987-1989-cu illərdə (b.m.1986-1988) "Azərbaycantelefilm"in direktoru, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində (Az.Tv) telefilmin baş redaktoru vəzifələrində işləmişdir. Respublika Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin direktor müavini, 1989-cu ildən isə direktoru olmuşdur.

1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyi Katibliyi heyətinə (tərcümə üzrə katib) seçilmişdir.

Əsasən romanlar və hekayələr müəllifi kimi tanınan Afaq Məsudun "Qarğalar nə üçün qarıldayır" adlı ilk yazısı 1970-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunub. Həmin vaxtdan dövri mətbuatda ardıcıl çıxış edən yazar "Duyğular imperiyası" pritçalar silsiləsinin, yüzədək hekayənin, irihəcmli "Üçüncü mərtəbədə" (1971), "Qarğış" (1978), "Keçid" (povest və hekayələr-1981,1988), "Şənbə gecəsi" (1984), "Subbotni veçer" (Moskva 1984), "Cəza" (1987), "Üzü işığa" (1986), "Suiti" (1989), "Fatma" (1989), "İzdiham" (povest və hekayələr-1994), "Tək" (1992), "Azadlıq" (roman, esse, hekayə-1997), "Yazı" (2004), "II İohan" (2009), "Seçimiş əsərləri" (2 cilddə - 2012), "Xilas yolunun yolçuları" (2014) və s. əsərlərin müəllifidir. Əsərləri rus, ingilis, fransız, alman, özbək dillərinə tərcümə edilib.

"Can üstə", "O məni sevir" əsərləri "Yuğ" Dövlət teatrında, "Qatarın altına atılan qadın" əsəri Akademik Milli Dram Teatrında tamaşaya qoyulub. Əsərləri əsasında "Sərçələr", "Qonaqlıq", "Gecə", "Cəza", "Dovşanın ölümü" televiziya filmləri çəkilib. Çox sayda dünya ədəbiyyatı nümunələrini dilimizə tərcümə edib.

Afaq Məsud 2003-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. "Humay" Milli Akademiyası mükafatı laureatıdır. Avrasiya Yazarlar Birliyinin "Beynəlxalq Səhnə Əsərləri müsabiqəsi"nin qalibi olub. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin direktoru vəzifəsinə təyin edilib. "Xəzər" dünya ədəbiyyatı jurnalının baş redaktorudur.

23 dekabr 2015-ci ildə TÜRKSOY-un "Haldun Taner" mükafatına layiq görülüb.

70 illiyi

Eldar Baxış
1947-1996

Şair



Eldar Baxış oğlu Ağayev 1947-ci il iyun ayının 22-də Qubadlı rayonunun Diləli Müşkanlı obasında, kəndli ailəsində anadan olmuşdur. Kənddə ibtidai, Qubadlıda isə onbirillik məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır.

Bakı kəndlərində müəllimlik etmiş, əsgəri xidmətdə olmuşdur. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində kiçik redaktor, redaktor (1972-1988), televiziyanın Ədəbi-dram verilişləri baş redaksiyasının Televiziya tamaşaları şöbəsinin böyük redaktoru (1988-1990) vəzifələrində çalışmışdır. O, "Səs" və "Nəfəs" qəzetlərini yaratmış, onlardan birinin ("Səs") baş redaktoru olmuşdur. Eldar Baxış 1992-1993-cü illərdə yenidən Azərbaycan Televiziya və Radio Şirkətində Gənclik Yaradıcılıq Birliyinin İctimai-Siyasi şöbəsinin müdiri işləmişdir. 1993-cü ildən radionun Bilgi və Uşaq dünyası verilişləri Baş redaksiyasının baş redaktoru olmuşdur.

Eldar Baxış 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Köynək" adlı ilk şeiri 1966-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda müntəzəm olaraq çıxış etmişdir. Əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. 1985-ci ildə Vladivostokda keçirilən Ümumittifaq poeziya festivalında iştirak etmişdir. Bir çox xalqların ədəbiyyatından seçmə nümunələri doğma dilimizə çevirmişdir. 1982-ci ildə Kukla Teatrı onun "Məlikməmməd" pyesini tamaşaya qoymuşdur. Bu pyes Mərdəkan Xalq Teatrı aktyorlarının ifasında Praqada da nümayiş etdirilmişdir. Eyni zamanda Xalq TeatrlarınınTbilisidə keçirilən Ümumittifaq baxışında yüksək mükafata layiq görülmüşdür.

Eldar Baxışın 1981-ci ildə "Azərbaycan" jurnalında çap etdirdiyi "Qaravun dərənin dükançası" onun ilk nəsr əsəridir. "Uzun Həsən" pyesi Şuşa Dövlət Teatrında tamaşaya hazırlansa da erməni təcavüzü üzündən öynanılmamışdır. O, 1992-ci ildə Özbəkistanın "Ürək dostları" klubunun fəxri üzvü seçilmişdir. Eldar Baxış əsasən böyüklər üçün yazan istedadlı şairlərimizdən biri olmuşdur. Onun poeziyasında uşaq dünyasına çox yaxın olan gözəl bir xüsusiyyət vardır. Şair həmişə ən sadə görünən məsələlərdən yazmışdır. Amma bu sadə əhvalatların arxasında onun ciddi, maraqlı fikirləri dayanır. Bu sadəlik Eldar Baxışı uşaqlar üçün də əsər yazmağa sövq etmişdir.

Eldar Baxış 1996-cı il may ayının 22-də Bakıda vaxtsız vəfat etmiş, Xırdalan qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat

Ağ saçların işığı: şeirlər /E.Baxış.- Bakı: Yazıçı, 1985.- 84 s.

Deyə bilmədiyim sözlər: şeirlər və poemalar /E.Baxış.- Bakı: Yazıçı, 1988.- 125 s.

İndinin böyük şairi /E.Baxış //Ədalət.- 2015.- 26 iyun.- S.14.

İydə çiçəyi: şeirlər /E.Baxış.- Bakı: Gənclik, 1977.- 34 s.

Qara ilə Qaracanın nağılı: şeirlər və poemalar /E.Baxış.- Bakı: Gənclik, 1986.- 95 s.

Səma, G. Eldar Baxış - axır sözünü əvvəl deyən adam: (Eldar Baxış xatirələr işığında) /G.Səma //Ədalət.- 2014.- 10 aprel.- S.5.

Yusifli, V. Eldar Baxış nisgili /V.Yusifli //Ədalət.- 2015.- 6 iyun.- S.15.

205 illiyi

Mirzə Fətəli Axundzadə 1812-1878

Dramaturq-maarifçi

Mirzə Fətəli Məmmədtağı oğlu Axundzadə (Axundov) 1812-ci il iyun ayının 30-da Nuxada (indiki Şəki şəhəri) anadan olmuşdur. 1814-cü ildə ailəsi Təbriz şəhərinin yaxınlığındakı Xamnə qəsəbəsinə köçmüşdür. 1821-ci ildə anası Nanə xanım Fətəlinin atası Mirzə Məhəmməd Tağıdan ayrılmış və əmisi Axund Hacı Ələsgərin yanına, Qaradağın Horanid kəndinə (Cənubi Azərbaycan), 1825-ci ildə isə Şəkiyə köçmüşdür. Fətəlinin ruhani olmasını istəyən Axund Hacı Ələsgər 1832-ci ildə onu Gəncəyə aparmış, o, burada məntiq və fiqh elmlərinə, habelə dahi Azərbaycan şairi M.Ş.Vazehdən xəttatlıq sənətinə yiyələnmişdir. Dövrünün müasir elmlərilə maraqlanan Mirzə Fətəli 1833-cü ildə Şəkidə açılmış Rus-tatar məktəbinə daxil olmuşdur. Bir il təhsil aldıqdan sonra 1834-cü ildə Tiflis şəhərinə getmiş, Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunmuş, ömrünün sonunadək burada əvvəl mülki, sonralar hərbi işlər üzrə mütərcim vəzifəsində çalışmışdır. M.F.Axundzadə bədii yaradıcılığa 1837-ci ildə fars dilində yazdığı "Puşkinin ölümünə Şərq poeması"ilə başlamışdır.

M.F.Axundzadə 1850-1855-ci illərdə özünün məşhur altı komediyasını yaratmaqla nəinki Azərbaycan ədəbiyyatında, Şərq dünyasında dramaturgiyanın əsasını qoymuşdur. "Aldanmış kəvakib" povesti və bu dram əsərləri "Təmsilat" adı altında 1859-cu ildə Tiflisdə nəşr edilmişdir.

Mirzə Fətəli Axundovun 1873-cü ilin martında Həsənbəy Zərdabi və Nəcəfbəy Vəzirovun birlikdə Bakı məktəblərinin birində məşhur «Hacı Qara» və aprel ayında səhnəyə qoyulan "Lənkəran xanının vəziri" tamaşaları ilə Azərbaycan teatrının bünövrəsi qoyulur.Görkəmli maarif xadimi ərəb əlifbasının çətinliklərini nəzərə alaraq yeni latın qrafikasında əlifba tərtib etmiş və ömrünün sonuna kimi bu əlifbanın qəbul edilməsi uğrunda mübarizə aparmışdır.

M.F.Axundzadə 1878-ci il fevral ayının 26-da ürək xəstəliyindən vəfat etmiş və vəsiyyətinə görə Tiflisdə Tatar qəbiristanlığında (indiki Nəbatat bağında) müəllimi Mirzə Şəfi Vazehin yanında dəfn olunmuşdur.

Görkəmli mütəfəkkirin əsərləri əsasında "Hacı Qara" (1929, 2002), "Dərviş Parisi partladır" (1976), Mürafiə vəkillərinin hekayəti (film-

tamaşa-2011), İksir ("Hekayəti Molla İbrahim-Xəlil Kimyagər" əsəri əsasında, 2014) filmlər və tamaşalar hazırlanmışdır.

2012-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında M.F.Axundzadə haqqında bioqrafik bədii film çəkilmişdir. "Sübhün səfiri" adlanan film mütəfəkkirin 200 illik yubileyi münasibətilə ekranlara çıxmışdır.

Yazıçı-dramaturq, materialist filosof, ictimai xadim, Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin xatirəsinin əbədiləşdirilməsi məqsədilə 1930-cu ildə bağ salınmış (indiki Səbail rayonunda - heykəltəraş P.Sabsay) və heykəli qoyulmuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Kitabxanasına (indiki Azərbaycan Milli Kitabxanası) M.F.Axundzadənin adı verilmiş, 1962-ci ildə oradaheykəltəraşİ.Zeynalovunhazırladığıbüstü qoyulmuşdur. 1940-cı ildə isə Şəkidə görkəmli mütəfəkkirin ev-muzeyi yaradılmışdır. 1965-ci ildə M.F.Axundzadə adına 3 Respublika Dövlət mükafatının təsis edilməsi haqqında qərar qəbul edilmişdir. 1983-cü ildə Tiflisdə M.F.Axundzadənin ev-muzeyi və Azərbaycan Mədəniyyət Mərkəzi açılmışdır. 2007-ci ildə isə hər iki ad (Tiflisdə M.F.Axundzadənin ev-muzeyi və Azərbaycan Mədəniyyət Mərkəzi) ləğv olunaraq, M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi olmuşdur.

2010-cu ildə aprel ayının 13-də Azərbaycan Respublikasnın Prezidenti M.F.Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında Sərəncam vermişdir.

2011-ci ildə Azərbaycanın Gürcüstandakı səfirliyinin və Tbilisi şəhər bələdiyyəsinin təşəbbüsü ilə paytaxtda onun adını daşıyan 73 saylı Azərbaycan orta məktəbinin binası qarşısında böyük mütəfəkkir M.F.Axundzadənin büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Əsərləri: 3 cilddə /Mirzə Fətəli Axundzadə; tərt. ed. və ön sözün müəl. N.Məmmədov.- Bakı: Şərq-Qərb, 2005.- C. I.- 296 s.

Əsərləri: 3 cilddə /M.F.Axundzadə; tərt. ed. H.Məmmədzadə; ön sözün müəl. Y.Qarayev; red. Ə.Mirəhmədov.- Bakı: Şərq-Qərb, 2005.- C II.- 376 s.

Əsərləri: 3 cilddə /M.F.Axundzadə; tərt. edəni və ön sözün müəl. H.Məmmədzadə.- Bakı: Şərq-Qərb, 2005.- C III.- 296 s.

Bədii və ədəbi-tənqidi əsərləri /Mirzə Fətəli Axundzadə; tərtib edəni, ön sözün müəllifi və red: N.Məmmədov.- Bakı: Çaşıoğlu, 2004.- 280 s.

Mirzə Fətəli Axundzadə - 200: tövsiyə ədəbiyyat göstəricisi: [biblioqrafiya]/ ixt. red., burax. məs. K. Tahirov; red. G. Səfərəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası.- Bakı: Zərdabi LTD, 2012.- 359 s.

Mirzə Fətəli Axundzadə arxivinin izahlı təsviri /A.İbrahimov, M.Q.Məmmədova (ön söz müəl.); red. P. Kərimov; AMEA, M. Füzuli adına Əlyazmalar İn-tu.- Bakı: Elm və təhsil, 2012.- 579 s.

Mirzə Fətəli Axundzadə və Azərbaycan mədəniyyəti: tarix və müasirlik /AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu; red. hey. A. Hacıyeva, K. Bünyadzadə, A. Məmmədova [və b.]. Bakı: Təknur, 2013.- 107 s

Mirza Fatali Akhundzadeh, writer/ playwright, 1812-1878/ Ministry of Culture and Tourism Republic of Azerbaijan; consulting V. Bahmanli; publishing M. Khan; trans. K. Nasibova; editor N. Jabbarli, J. Huseynov; design T. Farzi; art V. Saftarov .-Baku: Khan, 2015.- 36 p.

85 illiyi

Rojdestvenski Robert İvanoviç
1932-1994

Rus şairi

Robert İvanoviç Rojdestvenski 1932-ci il iyun ayının 20-də Qərbi Sibirin Kosixa kəndində anadan olmuşdur. 1934-cü ildən Robert valideynləri və nənəsi ilə Omsk şəhərinə köçmüşdür. Böyük Vətən müharibəsi başlayan zaman anası cəbhəyə yola düşmüşdür. 1943-cü ildə hərbi-musiqi məktəbində təhsil almış, nənəsinin vəfatından sonra anası tərəfindən uşaq evinə verilmişdir.

1945-ci ildə şairin anası öz həmyerlisi İvan Rojdestvenski ilə ailə həyatı qurur. Müharibə qurtardıqdan sonra onlar Leninqrada (indiki Sankt Peterburq), 1948-ci ildə isə Petrozavodsk şəhərinə köçürlər. Robert atalığının familiyasını daşımışdır.

1950-ci ildə Petrozavodsk şəhərində gənc şairin ilk şeirləri çap olunmuşdur. 1950-ci ildə Petrozavodsk Universitetinin tarix-filologiya bölməsinə daxil olmuş, bir il oxuduqdan sonra Ədəbiyyat İnstitutuna dəyişilərək 1956-cı ildə oranı bitirmiş və Moskva şəhərinə köçmüşdür.

İnstitutda təhsil aldığı illərdə 1955-ci ildə Kareliyada "Baharın bayraqları" və 1956-ci ildə "Sınaq" adlı kitabları, bir ildən sonra "Mənim məhəbbətim" adlı poeması çap olunur. 1955-ci ildə Altayda təcrübədə olarkən konservatoriya tələbəsi A.Flyarkovski ilə tanış olmuş və "Sənin pəncərən" adlı ilk mahnısı yaranmışdır. Bundan sonra o, məşhur bəstəkarlarla əməkdaşlıq etmiş (Mikayıl Tarıverdiyev, David Tuxmanov, Maksim Dunayevski, Vladimir Şainski və s.) və onun sözlərinə bəstələnmiş, dillər əzbəri olan onlarla mahnı meydana gəlmişdir. ("Sülh", "Mənim istədiyim kimi ol", "Təqib").

1977-ci ildə R.Rojdestvenski Dövlət mükafatına layiq görülmüşdür.

1986-cı ildən Osip Mandelştampın ədəbi irsi üzrə komissiyanın, Mariya Svetayevanın ədəbi irsi üzrə komissiyanın sədri təyin edilmiş və Moskva şəhərində Svetayevanın ev-muzeyinin açılmasına nail olmuşdur.

Şairin yaradıcılığında əsas yeri məhəbbət mövzusunda yazılmış şeirlər təşkil etsə də, aktual poetik mövzulara da (sülh uğrunda mübarizə, sosial ədalətsiziyin və milli düşmənçiliyin aradan qaldırılması) müraciət etmişdir. Onun şeirləri çox sadə və anlaşıqlı bir dildə yazılmışdır.

Şair bir çox xarici və sovet şairlərinin şeirlərini də tərcümə etmişdir.

Robert Rojdestvenski 1994-cü il avqust ayının 19-da Moskva şəhərində vəfat etmiş, Peredelkino qəbiristanlığında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Sizin üçün yaşayıram: şeirlər və poemalar /R.Rojdestvenski; tərc. ed. C. Novruz ; [red. M. Seyidzadə].- Bakı: Gənclik, 1975.- 94, [2] s.: portr.

Şeirlər poemalar /R.Rojdestvenski; tərc. ed. X.Rza.- Bakı: Gənclik, 1984.- 135, [5] s.: şək.

Песни борьбы и свободы /сост. Я.Богданова; вступит.ст. Р.Рождественского.- Москва: Книга, 1989.- 158 с.

115 illiyi

Zivər Məmmədova 1902-1980

Heykəltəraş

Zivər Nəcəfqulu qızı Məmmədova 1902-ci il iyun ayının 14-də varlı sahibkar Nəcəfqulu Tağıyevin ailəsində anadan olmuşdur. 7 yaşında ikən Zivər Müqəddəs Nina qadın gimnaziyasına daxil olmuş, təhsil aldığı illərdə musiqi və rəsm çəkməyi öyrənmişdir.

1920-1924-cü illərdə Ə.Əzimzadə adına Bakı Ali Rəssamlıq Məktəbində (indiki ADRA) təhsil almış, bir müddət S.D.Erziya və P.V.Sabsayın emalatxanalarında çalışmışdır.

Z.Məmmədova sovet monumental heykəltəraşlığının ən nəhəng layihələrindən biri olan siyasi xadim və inqilabçı S.M.Kirovun abidəsi üzərində iş prosesində SSRİ heykəltəraşlıq məktəbinin korifeylərindən olan P.Sabsayın rəhbərliyi altında iştirak etmiş, təcrübə toplamışdır. Görkəmli şəxslərin fərdi obrazlarını ardıcıl surətdə tədqiq edən Z.Məmmədova 1930-1940-cı illərdə "Ə.Əzimzadə" (büst, gips), "H.Sarabski" (büst-gips), "M.Əzizbəyov", "B.Bağırova", Sovet İttifaqı Qəhrəmanı "İ.Süleymanov"un və başqa tanınmışların büst-portretlərini yaratmışdır.

1950-ci ildə dahi bəstəkar Ü.Hacıbəylinin gipsdən heykəlini hazırlamışdır. Onu da qeyd edək ki, bu abidə Ü.Hacıbəylinin naturadan çəkilmiş yeganə portreti kimi tarixə düşmüşdür.

Zivər xanımın həmçinin "Kolxozçu qadın" (gips, 1940), "Qız gəlincik ilə" (dekorativ fiquru, çini, şirəüstü naxış, 1950), "Rəqqasə" (dekorativ fiqur, çini, şirəüstü naxış, qızılla zərləmə, 1954) və s. əsərləri də böyük uğur qazanmışdır.

Görkəmli heykəltəraşın forma və materialı gözəl bilməsi ona monumental və dəzgah heykəltəraşlığında da özünü sınamağa imkan verirdi. Yaradıcılığında xırda plastikadan - saxsıdan hazırladığı Ü.Hacıbəyovun "Koroğlu" operasındakı rəqqasələri təsvir edən dekorativ nəfis fiqurlar yüngül "musiqili" tərzdə yerinə yetirilmiş və heykəltəraşlıqdan daha çox plastikliyinə görə keramik fiqurlara oxşayır. Məhs bu kiçik formalı heykəltəraşlıq elementləri sənətkəra öz texnikasını təkmilləşdirməyə, yeni iş üsulları öyrənməyə imkan verirdi.

Zivər xanım Azərbaycan mədəniyyəti tarixində nəinki ilk qadın heykəltəraş, həmçinin peşəkar qadın skripka ifaçısı kimi də tanınmışdır. O, gənclik illərində dahi bəstəkar Ü.Hacıbəylinin mühazirələrini dinləmiş, 1922-ci ildə rəhbərlik etdiyi Dövlət Simfonik Orkestrində skripkaçı kimi çalışmış, 1923-cü ildə "Arşın mal alan" operettasının ilk tamaşasında skripkada ifa etmişdir.

Zivər Məmmədova 1980-ci il aprel ayının 22-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Zivər Məmmədova, 1902-1980: heykəltəraşlıq [İzomaterial]; Həyat Abdullayeva, 1912-2007: heykəltəraşlıq; Elmira Hüseynova, 1933-1995 : heykəltəraşlıq /layihənin rəhbəri Ç.Fərzəliyev; mətnin müəl. Ə.Abdullayeva; foto. Ə.Ağasiyev; ing. dilində tərc.: İ.Peart, S.İbrahimova, Ə.Məlikova.- Bakı: Sərvət, [Şərq-Qərb], 2013.-104 s.

Məmmədova Zivər //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1982.- C.VI.- S.506.

Zivər Məmmədova: İlk qadın heykəltəraş //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar=Role Models: Women daring to change /M.Vəzir; Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC).- Bakı, 2008.- S. 33-34.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Zivər_Məmmədova

http://www.anl.az/down/mededi yyet_2006/medeniyyet2006_oktyabr_146.htm

http://www.wikiwand.com/az/

80 illiyi

Zemfira Səfərova 1937

Musiqişünas

Zemfira Yusif qızı Səfərova 1937-ci il iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur.

1945-1955-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) nəzdində olan xüsusi musiqi məktəbində oxumuş, 1955-1960-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olmuş, Musiqi tarixi və nəzəriyyəsi fakültəsini əla qiymətlərlə bitirmişdir. 1962-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aspiranturasına daxil olmuş, orada kiçik elmi işçi vəzifəsindən şöbə müdiri vəzifəsinədək yüksəlmişdir. 1980-ci ildən həmin institutun Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi şöbəsinə böyük uğurla rəhbərlik edir.

1963-cü ildə Moskvaya ezam edilmiş, professor İ.Y.Rijkinin rəhbərliyi ilə namizədlik dissertasiyası üzərində işləmişdir. 1970-ci ildə "Üzeyir Hacıbəyovun musiqi-estetik konsepsiyası" mövzusunda sənətşünaslıq üzrə alimlik dərəcəsi almaq üçün namizədlik dissertasiyasını, 1996-cı ildə "Azərbaycanın musiqi elmi (XIII-XIX əsrlər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1998-ci ildə professor elmi rütbəsini almışdır. Tədqiqatları qədim və orta əsrlər Azərbaycan musiqisinə, o cümlədən, Səfiəddin Urməvi, Əbdülqadir Marağı, eləcə də Mir Möhsün Nəvvab, Ü.Hacıbəyli, Cabbar Qaryağdıoğlu və b.-nın yaradıcılığına həsr edilmişdir. "Azərbaycanın musiqi elmi", "Dədə Qorqudun musiqi dünyası" və s. kitabların müəllifidir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə "Muğam layihəsi" çərçivəsində nəşr edilən (2006-cı ildə) Urməvinin "Kitabi-ədvar" və "Şərəfiyyə", Fətullah Şirvaninin "Musiqi məcəlləsi" risaləsinin ixtisas redaktoru, ön söz və elmi şərhlərinin müəllifi də Zemfira Səfərova olmuşdur.

20-dən çox kitab, 150-dən artıq elmi məqalənin müəllifidir. Bir sıra beynəlxalq elmi simpozium və konqreslərdə çıxış etmişdir.

Z.Səfərova elmi yaradıcılıqla yanaşı geniş elmi-təşkilati fəaliyyətlə də məşğuldur.

Uzun illər Bəstəkarlar İttifaqının üzvü olan Z.Səfərova hal-hazırda ittifaqın Musiqişünaslıq və tənqid bölməsinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın sənətşünaslıq və memarlıq üzrə ekspert komissiyasının sədridir.

İncəsənət sahəsində nailiyyətlərinə görə 1989-cu ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Ardı yaşanılır: Xatirələr /Z.Səfərova.- Bakı: Nurlan, 2000.- 152 s.

Həmişəyaşar ənənələr: Məqalələr toplusu və müsahibələr /Z.Səfərova; Azərbaycan EA, Memarlıq və İncəsənət İn-tu.- Bakı: Elm, 2000.- 320 s.

Azərbaycanın musiqi tarixi /Z.Səfərova //Qobustan.- 2002.- №1.- S.4-24.

Səfiəddin Urməvinin (XIII əsr) risalələrində musiqi alətlərinin şərhi, bərpası və inkişafı haqqında /Z.Səfərova //Musiqi dünyası.- 2011.- №2/47.- S.3-5.

Zemfira Yusif qızı Səfərova: Biblioqrafik göstərici /AMEA, Mərkəzi Elmi Kitabxana: tərt. Ü.Talıbzadə.- Bakı: Elm, 2010.- 146 s.

Xəlilzadə, F. Böyük sənətkarın təkrarsız yaradıcılığı yeni araşdırmalarda /F.Xəlilzadə //Azərbaycan.- 2010.- 10 oktyabr.- S.7.

90 illiyi

Tələt Bakıxanov 1927-2000

Tarzən

Tələt Soltan oğlu Bakıxanov 1927-ci il iyun ayının 13-də Bakı şəhərində anadan olmuşdur. Musiqiçi kimi yetişməsində əmisi Əhməd Bakıxanovun böyük rolu olmuşdur.

1947-1949-cu illərdə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Məktəbində kamança ixtisası üzrə Hafiz Mirzəliyevdən və Firuz Əlizadədən dərs almışdır.

1947-ci ildən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur.

Bir sıra xarici ölkələrdə - Fransa, İndoneziya, Malta, İran, Türkiyə, Suriya və başqa ölkələrdə qastrol səfərlərində olmuş, muğam üçlüyünün tərkibində görkəmli xanəndələri müşaiyət etmişdir. Azərbaycan muğamlarının, xüsusilə, "Segah" instrumental muğamının gözəl ifaçılarından biri kimi tanınmışdır.

Tələt Bakıxanov respublika və beynəlxalq əhəmiyyətli müsabiqələrin, simpoziumların iştirakçısı və qalibi olmuşdur.

1970-1980-ci illərdə Səmərqənddə keçirilən "Yaxın və Orta Şərq xalqları peşəkar musiqisinin ənənələri və müasirlik" mövzusunda birinci və ikinci beynəlxalq simpoziumlarının iştirakçısı olmuş, B.Mansurov, C.Əkbərov, A.Qasımov kimi sənətkarlarla birgə Azərbaycan muğam ifaçılığı sənətini təmsil etmişdir.

Musiqi sahəsində xidmətlərinə görə Azərbaycanın "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

1988-ci ildən Bülbül adına Orta İxtisas Musiqi Məktəbində çalışmışdır.

Tələt Bakıxanov 2000-ci il may ayının 30-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Tələt Bakıxanov //Muğam ensiklopediyası /Heydər Əliyev Fondu; baş red. M.Əliyeva; red.hey. A.Babayev və b.; haz.: G.Abdullazadə və b.- Bakı, 2008.- S.78.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Tələt_Bakıxanov

https://ru.wikipedia.org/wiki/Бакиханов,_Талат_Солтан_оглы

rtv.az/.../17267-bu-gun-taninmis-kamanca-ifacisi-telet-bakix..

70 illiyi

Fidan Qasımova 1947

Opera müğənnisi

Fidan Əkrəm qızı Qasımova 1947-ci il iyun ayının 17-də Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. Hələ uşaq yaşlarından musiqiyə böyük həvəs göstərən Fidan Qasımova ilk musiqi təhsilini Bülbül adına Musiqi məktəbində (indiki Bülbül ad.OİMM) almışdır. Musiqi məktəbini bitirdikdən sonra 1966-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) əvvəlcə simli alətlər (skripka sinfi), sonra isə vokal sinfinə daxil olmuşdur. 1971-ci ildə simli alətlər üzrə professor S.Qəniyevin, 1972-ci ildə vokal üzrə dosent İ.A.Lvoviçin siniflərində ali təhsilini başa vurmuşdur. 1972-1974-cü illərdə P.Çaykovski adına Moskva Konservatoriyasının aspiranturasında təhsil almışdır. 1974-cü ildə Moskva Konservatoriyasının aspiranturasını bitirdikdən sonra Bakıya qayıtmış, elə həmin vaxtdan da Azərbaycan Opera və Balet Teatrının solisti olmuş, həmçinin Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlamışdır. 1990-cı ildən həmin təhsil ocağının professorudur.

F.Qasımova 1973-cü ildə İsveçrənin paytaxtı Cenevrədə keçirilmiş vokalistlərin beynəlxalq müsabiqəsinin finalında C.Puççininin "Bohema" operasından oxuduğu Miminin ariyasına görə gümüş medala layiq görülmüşdür. 1975-ci ildə Niderlandda (Hertogenbos) keçirilən beynəlxalq müsabiqənin iştirakçısı olmuş, 1977-ci ildə İtaliyada (Verçelli ş.) musiqiçilərin C.Viotti adına müsabiqəsinin birinci mükafatına layiq görülmüşdür. Sənətçi beynəlxalq müsabiqələr laureatı adına layiq görülmüş ilk azərbaycanlı qadın müğənnidir.

F.Qasımovanın parlaq ifaçılığının geniş diapazonu (səs tembri-lirik soprano) klassik musiqidən başlayaraq müasir dünya bəstəkarlarının əsərlərini də ifa etməyə imkan verir. Onun zəngin repertuarına Azərbaycan bəstəkarlarından Ü.Hacıbəyli, A.Zeynallı, Q.Qarayev, A.Məlikov, Niyazi, rus bəstəkarlarından M.Qlinka, P.Çaykovski, S.Raxmaninov, Qərbi Avropa bəstəkarlarından A.Stradella, İ.S.Bax, G.F.Hendel və başqalarının kamera-vokal əsərləri, eləcə də xalq mahnılarımız daxildir. F.Qasımova 2015-ci ildə Böyük Britaniyanın Kembric Universitetinin tərtib etdiyi ensiklopediyada dünyanın ən tanınmış ifaçısı adına layiq görülərək xüsusi diplomla mükafatlandırılıb. O, Azərbaycanın musiqi mədəniyyətində bu ali mükafata layiq görülən yeganə ifaçıdır.

F.Qasımova 1978-ci ildə "Əməkdar artist", 1982-ci ildə "Xalq artisti", 1988-ci ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1984-cü ildə isə Dövlət Mükafatı laureatı olmuşdur. 1997-ci ildə ümummilli lider Heydər Əliyevin Fərmanı ilə "Şöhrət" ordeni, 2010-cu ildə isə Prezident İlham Əliyevin Fərmanı ilə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Sən olmasaydın...: esse, oçerk, portret cizgiləri, xatirələr və fotosənədlər toplusu /F.Rəhmanzadə; red. F.Qasımova, X.Qasımova; burax. məs. S.Mikayılqızı.- Bakı: Ziya, 2010.- 333 s.

Fidan Qasımova dünyanın ən tanınmış ifaçısı adına layiq görülüb //Mövqe.- 2015.- 9 iyul.- S.9.

Fidan Qasımovanın adı Kembriç Universitetinin ensiklopediyasında //Mədəniyyət.- 2015.- 8 iyul.- S.4.

Qasımova Fidan Əkrəm qızı //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.133-134.

İ n t e r n e t d ə

http://xeber.azeri.net/sou-biznes/fidan-qasimova-senetin-kamillik-zirvesinde

http://operadivas.info/?id=2&lang=1

http://www.anl.az/down/meqale/movqe/2015/iyul/447888.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2015/iyul/447252.htm

100 illiyi

Cövdət Hacıyev 1917-2002

Bəstəkar

Ədəbiyyat

Onu zaman seçib: poema /C.Hacıyev, F.Ləman; red. və tərc. ed. S.Əhmədli.- Bakı: Qanun, 2008.- 62 s.

Tağızadə, A. Cövdət Hacıyev: dərs vəsaiti /A.Z.Tağızadə (son söz); red. E.Hüseynova; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli ad. BMA.- Bakı: Mütərcim, 2015.- 143 s.

Ötən əsrin musiqi epoxasının son mogikanı: İki dahinin tələbəsi //Azadlıq.- 2011.- 29 oktyabr.- S.14

Юсифова, А. Джевдет Гаджиев (1917-2002): хроника жизни, статьи, высказывания /А.Юсифова; ред.: А.Тагизаде; Л.Абдуллаева; [М-во Культуры и Туризма Азерб. Респ.].- Баку: Тахсил, 2013.- 303 с

İnternetdə

http://kayzen.az/blog/musiqi/12590/Cövdət-hacıyev.html

http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=183&page=2

Əhməd-Cövdət İsmayıl oğlu Hacıyev 1917-ci il iyun ayının 18-də Nuxada (indiki Şəki) anadan olmuşdur. 1924-cü ildə ailəsi ilə birlikdə Bakıya köçən C.Hacıyev ibtidai musiqi məktəbini bitirdikdən sonra Bakı Konservatoriyası (indiki BMA) yanında skripka sinfi üzrə (əvvəlcə N.İ.Simberovun, sonra isə prof. S.L.Bretanitskinin sinfində) fəhlə fakültəsində, 1935-1938-ci illərdə isə Azərbaycan Dövlət Konservatoriyanın (BMA) nəzəriyyə-bəstəkarlıq fakültəsində (L.M.Rudolfun bəstəkarlıq sinfində) təhsil almışdır. 1938-1941-ci illərdə Moskva Konservatoriyasında (A.N.Aleksandrovun sinfində, Q.Qarayevlə birgə) oxumuş, 1947-ci ildə isə (D.D.Şostakoviçin sinfində) təhsilini başa vurmuşdur.

1947-ci ildən ömrünün sonuna qədər bəstəkarlıq fəaliyyəti ilə məşğul olan C.Hacıyev Azərbaycan Dövlət Konservatoriyasında (BMA) polifoniya, alətşünaslıq siniflərində, daha sonra bəstəkarlıq sinfində dərs demiş, 1957-1969-cu illərdə isə bu ali musiqi təhsil ocağının rektoru vəzifəsində çalışmışdır. 1963-cü ildə həmin musiqi ocağının professoru elmi rütbəsini almışdır.

Milli simfonizmin yaradıcılarından biri olan C.Hacıyevin yaradıcılığının formalaşmasında Azərbaycan milli folklorunun, bəstəkarlardan Ü.Hacıbəylinin, D.D.Şostakoviçin böyük təsiri olmuşdur. İlk böyük əsəri birhissəli "Simfoniya"dır (1936) .

C.Hacıyev hələ tələbəlik illərində "Sosialist Azərbaycanı" (1936), A.S.Puşkinin ölümünün 100 illiyinə həsr etdiyi "Sibirə məktub" (1937) simfonik poemalarını, üçhissəli "Azərbaycan süitası" (1939), "Simli kvartet" (1941), Orkestr üçün simfoniyetta" (1938), "Xor, solist və orkestr üçün oratoriya" (1949), "Fortepiano üçün ballada" (1952), və s. əsərləri bəstələmişdir. 1945-ci ildə Q.Qarayevlə birgə Böyük Vətən müharibəsinə həsr olunmuş "Vətən" (libettosu İ.Hidayətzadə, şeir M.Rahim) operasını yazmışdır.

Bəstəkar ümumilikdə səkkiz simfoniya müəllifidir. Bəstəkarın "Onu zaman seçib" (1996) adlı səkkizinci simfoniyası ümummilli lider Heydər Əliyevə həsr olunan monumental əsər kimi tarixə düşmüşdür.

C.Hacıyev 1946 və 1952-ci illərdə iki dəfə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1960-cı ildə Azərbaycan SSR "Xalq artisti" fəxri adına layiq görülmüş, "Oktyabr İnqilabı", "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı", 1998-ci ildə isə "Şöhrət" ordeni ilə və çoxlu sayda medallarla təltif edilmişdir.

Cövdət Hacıyev 2002-ci il yanvar ayının 18-də Bakı şəhərində vəfat etmişdir. Məzarı Birinci Fəxri Xiyabandadır.

Bakı şəhərində 3 saylı 11 illik musiqi məktəbi görkəmli bəstəkarın adını daşıyır.

120 illiyi

Bülbül
1897-1961

Opera müğənnisi

Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül) 1897-ci il iyun ayının 22-də Şuşa şəhəri yaxınlığında, Xanbağı adlanan yerdə (hazırda Xankəndinin cənub ərazisi) anadan olmuşdur. Kiçik yaşlarından məharətli zəngulələrinə, qeyri adi qabiliyyət və xüsusi ustalıqla bülbülləri təqlid etdiyinə görə ona "Bülbül" ləqəbi verilmişdir.

1909-cu ildə Gəncə şəhərinə gəlmiş və müxtəlif tədbirlərdə muğam və xalq mahnıları ifa etməyə başlamışdır. İlk səhnə fəaliyyəti Gəncədə M.C.Əmirovun "Seyfəl-mülk" (1916) operasının tamaşası ilə başlamışdır. 1920-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", Z.Hacıbəyovun "Aşıq Qərib" operalarında İbn Səlam, Kərəm, Qərib rollarını oynamışdır. Koroğlu partiyası bu gün də Bülbülün opera yaradıcılığının əlçatmaz zirvəsi hesab olunmaqdadır.

Bülbül 1921-ci ildə Bakı Konservatoriyasına, professor F.Polyayevin sinfinə daxil olmuş, 1927-ci ildə təhsilini başa vuraraq dövlət tərəfindən İtaliyaya, La-Skala Milan Teatrına təhsil almağa göndərilmişdir. 1931-ci ildə vətənə qayıdan Bülbül Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) dərs demiş, 1940-cı ildə professor elmi rütbəsini almışdır.

Böyük Vətən müharibəsinin (1941-1945) ağır günlərində o, sovet ordusu hissələri ilə İranda, Qafqaz və Bryansk cəbhələrində olmuş, eyni zamanda ölkənin hərbi xəstəxanalarında öz konsertləri ilə yaralı döyüşçüləri mübarizəyə, fədakarlığa ruhlandırmışdır.

1932-ci ildə Bülbülünün təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində xalq musiqisini öyrənən elmi tədqiqat kabineti yaradılmışdır. 25 il ərzində Azərbaycan xalq musiqisinin toplanması, yazılması və nəşr edilməsi sahəsində böyük işlər görmüşdür. Onun təşəbbüsü və təşkilatçılığı nəticəsində opera studiyası, səsyazma kabineti, not nəşriyyatı yaradılmışdır. Azərbaycanda ilk dəfə musiqi Olimpiadasını, İfaçıların Ümumittifaq konfransını, aşıqların qurultayını (1938,1961-ci illər) keçirmişdir.

Bülbül 1938-ci ildə SSRİ-nin "Xalq artisti" fəxri adına layiq görülmüşdür. 1950-ci ildə Dövlət mükafatı laureatı olmuş, Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilmişdir. İki dəfə SSRİ-nin "Lenin", iki "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. İtaliyanın "Qaribaldi" ordeninə layiq görülmüşdür.

Murtuza Məmmədov (Bülbül) 1961-ci il sentyabr ayının 26-da Bakıda vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Bülbül - vokal sənətinin zirvəsidir /tərt.: Bülbülün Memorial Muzeyinin kollektivi; naşir S.Əliyeva.- Bakı: Çaşıoğlu, 2006.- 724 s.

Məmmədova, A. Bizim Bülbül - dünyanın Bülbülü /A.R.Məmmədova.- Bakı: Nağıl evi, 2011.- 588 s.

Çəmənli, M. Bülbül /M.Çəmənli; red. M.Əvəzqızı.- Bakı: Çağdaş As, 2012.- 11 s.

Şuşinski, F. Azərbaycanın musiqi xəzinəsi /F.M.Şuşinski; topl., tərt. ed., nəşrə haz. və ön söz. müəl. A.Kənan red. V.Quliyev.- Bakı: [Vətənoğlu], 2015.- 666 s.

Çəmənli, M. Xalq ruhunun bülbülü //Çəmənli M. Sənət hekayələri.- Bakı, 2014.- S.46-52.

Мамедова, А. Бюль-Бюль вокалист мирового класса /А.Р.Мамедова.- Баку: Хатун Плюс, 2010.- 391 с.

İnternetdə

http://www.byulbyul.az/az/aboutbb

http://portal.azertag.az/node/2466#.VtPXpvmLQdU

100 illiyi

Zəfər Nemətov 1917-1971

Rejissor

Zəfər Paşa oğlu Nemətov 1917-ci il iyun ayının 5-də Bakıda, mühəndis ailəsində anadan olmuşdur.

Uşaqlıqda mütaliəyə, ədəbiyyat və mədəniyyətə maraq göstərmişdir. 37 saylı məktəbdə təhsil almışdır. 1928-1929-cu illərdə Türk İşçi Uşaq Teatrı (indiki Gənc Tamaşaçılar Teatrı) həmin məktəbin 3-cü mərtəbəsində yerləşirdi. Məktəbli Zəfər öz fəaliyyətinə Lətif Kərimovun "Fırtına" pyesinin tamaşası ilə başlamışdır. Şagird ikən, 1929-cu ilin dekabrında Akademik Milli Dram Teatrının bir neçə tamaşasında kütləvi səhnələrdə iştirak edən gənc Zəfər 1931-ci ildə Gənc Tamaşaçılar Teatrına dəvət olunmuş və aktyor truppasının yardım heyətinə qəbul edilmişdir. Həmin ilin sentyabrında M.F.Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbinin (texnikumunun) aktyorluq fakültəsində təhsil almağa başlamışdır. Səhnə danışığını, vərdişlərini müəllimi Abbas Mirzə Şərifzadədən öyrənmişdir.

Teatr rejissorları Aleksandr Tuqanov və Məhərrəm Haşımov 1930-cu illərin ikinci yarısından başlayaraq gənc aktyoru rejissor assistenti kimi də işə cəlb etmişdir. Zəfər Nemətov Jan Batist Molyerin "Zorən təbib", Abdulla Şaiqin "El oğlu", Fridrix Şillerin "Qaçaqlar", Cəfər Cabbarlının "Aydın" əsərlərinin tamaşalarının hazırlanmasında müəyyən rejissorluq təcrübəsi toplamışdır.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda könüllü şəkildə faşist işğalçıları ilə döyüşə yollanmışdır. Bir il sonra ağır yara alaraq ordudan tərxis olunmuş və yenidən doğma kollektivdə səhnə fəaliyyətini rejissor kimi davam etdirmişdir. 1943-cü ilin yanvar ayında Zəfər Nemətovun ilk müstəqil quruluş verdiyi "Məlik Məmməd" (Əyyub Abbasov) nağıl tamaşasının premyerası olmuşdur.

Zəfər Nemətov Gənc Tamaşaçılar Teatrının Azərbaycan bölməsində 1945-1971-ci illərdə "Sənin evin" ("Ağbəniz", Valentina Lyubimova), "Xüsusi tapşırıq" (Sergey Mixalkov), "Odlar içində" (Əbil Yusifov), "Bahar nəğməsi" (Əyyub Abbasov), "Qaraca qız" (Abdulla Şaiq), "Yaşıl sandıqca" (İvan Vasilenko), "Düşmənlər içində" (Novruz Gəncəli), "Tamahkar" (Süleyman Sani Axundov), "Qastello" (İsidorŞtok), "Turp" (Pavel Malyerski), "Gülşən" (Əli Vəliyevin eyniadlı əsəri əsasında səhnələşdirəni Ağəli Dadaşov), "Meşə gölünün sahilində" (Sezar Solodar), "Yaşar" (Cəfər Cabbarlı), "Anacan" (Yusif Əzimzadə), "Bir saatlıq xəlifə" (Abdulla Şaiq), "Göyərçinlər" (Tələt Əyyubov), "İki həyat" (Rauf İsmayılov), "Romeo və Cülyetta" (Vilyam Şekspir) və s. pyeslərini tamaşaya hazırlamışdır.

Teatrın rus bölməsində "Qar kraliçası" (Yevgeni Şvarts), "Müfəttiş" (Nikolay Qoqol), "Sənin evin" və "Qürur məktəbi" (Valentina Lyubimova), "Meşə kənarında göl" (Sezar Solodar), "İyirmi ildən sonra" (Mixail Svetlov), "Polad üzük" (Konstantin Paustovski), "Zorən təbib" (Jan Batist Molyer), "Kasıblıq eyib deyil" (Aleksey Ostrovski), "Afrikadan gələn zərf" (Lyubomir Qarabin), "Bütün bunlar sadəcə işlər deyil" (Gennadi Şmelyov) tamaşalarına quruluş vermişdir.

Rejissor yaradıcılığında əldə etdiyi nailiyyətlərə görə 1954-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli sənətkar 1971-ci il noyabr ayının 19-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Əliağa Ağayev /Z.Nemətov, T.Kazımov; red. H.Sadıqova.- Bakı, 1978.- 42 s.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; layih. rəhb. Ə.Qarayev; layih. koordin. Ə.Vəliyev; mətnin müəl. İ.Rəhimli.- Bakı, 2010.- S.69-72.

Rəhimli, İ. Zəfər Nemətov (12.7.1915-19.11.1971) //Rəhimli İ. Kəsişən paralellər.- Bakı, 2010.- S.19-31.

Yusifli, V. Üçüncüsü? Yox hələlik yetişməyəcək /V.Yusifli //Panorama.- 1997.-25 oktyabr

İ n t e r n e t d ə

www.anl.az

www.tyuz.az

85 illiyi

Hacıbaba Bağırov 1932-2006

Aktyor

Hacıbaba Ağarza oğlu Bağırov 1932-ci il iyun ayının 12-də Bakı şəhərində anadan olmuşdur. Gənc yaşlarından teatra olan həvəsi onu 1947-ci ildə Azərbaycan Dövlət Akademik Dram Teatrı (indiki ADAMDT) nəzdindəki aktyor studiyasına gətirib çıxarmışdı. Teatrda görkəmli sənət korifeylərindən dərs alan H.Bağırov 1950-ci ildə Lənkəran Dövlət Dram Teatrında ilk müstəqil yaradıcılıq fəaliyyətinə başlamışdır.

1960-cı ildə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının (indiki GDDT) aktyor truppasına qəbul olunmuşdur. Bu kollektivdə Fuad ("Almas", C.Cabbarlı), Şahsuvar ("Komsomol poeması", S.Vurğun) və s. müxtəlif səpkili rollar oynayan H.Bağırov 1962-ci ildə Musiqili Komediya Teatrına (indiki ADMT) dəvət almışdır.

Burada fəaliyyət göstərdiyi 26 il ərzində yaratdığı 50-dən çox rolun onun gülüş ustası kimi püxtələşməyində və populyar olmağında böyük təsiri olmuşdur. H.Bağırovun iştirak etdiyi - Soltan bəy, Məşədi İbad ("Arşın mal alan", "O olmasın, bu olsun" Ü.Hacıbəyli), Orduxan ("50 yaşında cavan", Z.Hacıbəyov), Cəbi Cüməzadə ("Həmişəxanım", S.Ələsgərov), Novruzəli ("Hardasan, ay subaylıq?" S.Qədirzadə və S.Ələsgərov), Qulam ("Həyətim mənim-həyatım mənim", Ə.Abbasov), Mitoş, Fərzəli ("Hicran", "Nəğməli Könül", E.Sabitoğlu), Cəsarət ("Nənəmin şahlıq quşu", V.Adıgözəlov), Nadir ("Qızılgül", S.Hacıbəyov), və s. rolları tamaşaçıların dərin rəğbətini qazanmışdır.

H.Bağırovun teatrla yanaşı kino sahəsində də fəaliyyəti uğurlu olmuşdur. Möhsün ("Ulduz", 1964), Arif, (Qanun naminə, 1968), Qaraxalov ("Onun bəlalı sevgisi", 1980), Məmmədəli ("Alma-almaya bənzər", 1975), Şirbala ("Şirbalanın məhəbbəti", 1991) və s. rolları kino həvəskarları tərəfindən maraqla qarşılanmışdır.

H.Bağırov 1989-cu ildə Bakı Tənqid-Təbliğ Teatrını yaratmış, 1996-cı ilədək teatrın direktoru və bədii rəhbəri vəzifələrində çalışmışdır. 1996-cı ildən isə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru, bədii rəhbəri olmuşdur.

H.Bağırovun mədəniyyətimizin inkişafı naminə göstərdiyi xidmətlər daim yüksək qiymətləndirilmişdir. 1974-cü ildə "Əməkdar artist", 1982-ci ildə Azərbaycan SSR "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1998-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2001-ci ildə E.Sabitoğlu ilə T.Vəliyevanın yazdığı "Bankir adaxlı" tamaşasına görə "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür.

Hacıbaba Bağırov 2006-ci il oktyabr ayının 4-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Şəmsizadə, N. Hıçqıran gülüşlər: Azərbaycan gülüş mədəniyyəti və Hacıbaba Bağırov /Nizaməddin Şəmsizadə.- Bakı: Ozan, 2002.- 128 s.

Abbaslı, T. Hacıbaba Bağırov - səhnələrdə, ekranlarda neçə-neçə özgə, həyatda isə öz obrazını yaratmış birincilərimizdən biri... /T.Abbaslı //Mədəniyyət.- 2015.- 12 iyun.- S.12.

Məhərrəmova, T. Hacıbabasız səhnə boş görünür: Səmimi, sadə, uşaq kimi kövrək və qayğıkeş idi... /T.Məhərrəmova //Kaspi.- 2013.- 13 iyun.- S.11.

Sənətdə əbədi iz qoyan üçlük: "O, yaxşı bir xatirədir..." //Azadlıq.- 2013.- 24 oktyabr.- S.14.

Süleymanova, A. Musiqili gülüşün "Hacı babası" /A.Süleymanova //Kaspi.- 2014.- 13 iyun.- S.10.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/medeniyyet/2015/iyun/443534.htm

http://www.anl.az/down/meqale/kaspi_az/2014/iyun/377198.htm

İYUN

25

110 illiyi

Sona Hacıyeva 1907-1979

Aktrisa

Sona Salman qızı Hacıyeva 1907-ci il iyun ayının 25-də Nuxada (indiki Şəki) anadan olmuşdur. Bir yaşında ikən atası vəfat etmiş, babası Əbdülbağı Zülalovun himayəsində böyümüşdür. Anası Əzizə Məmmədova səhnəmizin ilk peşəkar aktrisalarındandır. Əzizə xanım və qızı Sona 1916-cı ildə Tiflisə köçmüş, az sonra Tiflisdən Aşqabad şəhərinə, 1919-cu ildə isə Bakıya qayıtmışlar.

S.Hacıyeva səhnə fəaliyyətinə 1921-ci ildə Bakı Azad Tənqid-Təbliğ Teatrında (indiki ADRDT) başlamış, 1923-1979-cu illərdə Azərbaycan Dram Teatrının (indiki AMDT) aktrisası olmuşdur. 1927-ci ilədək eyni zamanda opera əsərlərində və musiqili komediyalarda uğurla çıxış etmişdir.

1923-cü ildə S.Hacıyeva Azərbaycan Dövlət Dram Teatrının səhnəsində ilk rolunu ifa etmiş, Ə.B.Haqverdiyevin "Pəri-Cadu" əsərində yaratdığı Səlimə obrazı ona uğur gətirmişdir. Sonralar S.Hacıyeva uzun illər bu teatrda çalışaraq müasir və klassik dramaturqların əsərlərinin tamaşalarında diqqəti cəlb edən obrazlar yaratmışdır.

O zamanlar teatrlarda aktrisa çatışmadığı üçün Sona xanım Opera və Balet Teatrında (indiki ADAOBT) da çıxış etmək məcburiyyətində qalırdı. Opera teatrının səhnəsində yaratdığı Leyli, Əsli ("Leyli və Məcnun", "Əsli və Kərəm" Ü.Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib" Z.Hacıbəyov") obrazları tamaşaçılar tərəfindən maraqla qarşılanırdı. Çünki S.Hacıyevaya qədər operada qadın rollarını ancaq kişilər ifa edirdilər.

S.Hacıyevanın yaradıcılığı üçün milli kolarit, təbiilik, özünəməxsus lirizm səciyyəvi idi. 1920-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Dram Teatrının səhnəsində Azərbaycanın klassik dramaturqları ilə yanaşı, dünya dramaturqlarının əsərlərində müxtəlif obrazlar yaratmışdır. Mürəkkəb bir zamanda səhnəyə gələn, 200-dən artıq həm lirik, həm də komik obrazların mahir ifaçısı olan S.Hacıyeva Azərbaycan kino sənətinin də inkişafına öz töhfəsini vermişdir. "Bəxtiyar" (1955), "O olmasın, bu olsun" (1956), "Qızmar günəş altında" (1957), "Səhər" (1960), "Telefonçu qız" (1962) filmlərinə çəkilən S.Hacıyeva milli kinonun tarixində də misilsiz xidmətlərin sahibidir.

S.Hacıyeva 1949-cu ildə Azərbaycan SSR "Xalq artisti" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

Görkəmli sənətkar 1979-cu il dekabr ayının 24-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Ələkbərov, Ə. Azərbaycan SSR xalq artistkası Sona Hacıyeva /Ə.Ələkbərov; red. A.Babayev; Azərb. Teatr Cəmiyyəti. - Bakı: [s.n.], 1959.- 48, [6] s.

Sona Hacıyeva [İzomaterial] /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: İşıq, 1974.- [1] qat. v.

Fərəcov, S. Səhnələrin Sonası /S.Fərəcov //Mədəniyyət.-2014.- 25 iyun.- S.15.

Hacıyeva Sona //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C X.- S.155.

İ n t e r n e t d ə

http://anl.az/el/emb/TEATR/aktyorlar/sona_haciyeva.htm

https://az.wikipedia.org/wiki/Sona_Hacıyeva

50 illiyi

Mövsüm Məmmədov
1967

Milli Qəhrəman

Mövsüm Şahin oğlu Məmmədov 1967-ci il iyun ayının 6-da Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur. Xocalı rayon Canhəsən kənd ibtidai məktəbini bitirdikdən sonra orta təhsilini 1984-cü ildə doğma kəndində başa vurmuşdur. 1985-ci ildə ordu sıralarına çağırılmış, 1987-ci ildə isə ordudan tərxis olunaraq Vətənə dönmüşdür.

O, 1988-ci ildə Şuşa elektrik Şəbəkəsi Birliyində, 1990-cı ildən isə Daxili İşlər orqanlarında çalışmışdır.

Mövsüm Məmmədov Vətənin dar günündə öz fəaliyyətini daxili işlər orqanlarında davam etdirməyi özünə borc bildi. 1992-1993-cü illərdə erməni işğalçılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə vuruşmuş və Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində böyük şücaət göstərmişdir. 1994-cü ildə Şuşa Rayon Polis şöbəsinin Post-Patrul Xidməti (PPX) bölüyünə komandir, 1995-ci ildə Post-Patrul Xidmətinin (PPX) komandiri vəzifəsinə təyin edilmişdir. 1998-ci ildə Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasını bitirmişdir. Şuşa rayon Polis şöbəsinin xidmət üzrə rəis müavini vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı Fərmanı ilə Məmmədov Mövsüm Şahin oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Mövsüm Şahin oğlu Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Şuşa şəhəri polis şöbəsinin əməkdaşı- Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiyinə, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 fevral 1995-ci il//Azərbaycan.- 1995.- 26 fevral.- S.1.

Əsgərov, V. Məmmədov Mövsüm Şahin oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.200.

Məmmədov Mövsüm Şahin oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.140.

Seyidzadə, M. Məmmədov Mövsüm Şahin oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.145.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Mövsüm_Məmmədov
http://www.muallim.edu.az/www.old/arxiv/2010/46/44.htm
http://veten-ugrunda.az/milliqehremanlar/144-mmmdov-mvsm-ahn-olu.html

65 illiyi

İsrafil Şahverdiyev 1952-1994

Milli Qəhrəman

İsrafil Şahverdi oğlu Şahverdiyev 1952-ci il iyun ayının 11-də Laçın rayonunun Unannovu kəndində anadan olmuşdur. 1959-1969-cu illərdə Unannovu kənd orta məktəbini bitirmişdir. 1971-1974-cü illərdə ordu sıralarında xidmət etmişdir.

1975-ci ildə Laçın rayon Daxili İşlər şöbəsində milis nəfəri kimi əmək fəaliyyətinə başlamışdır. Erməni yaraqlıları torpaqlarımıza hücum edərkən İsrafil Şahverdiyev cəsur bir polis işçisi kimi ilk günlərdən torpaqlarımızın müdafiəsinə qalxmışdı. Onun şücaəti nəticəsində Qaladərəsi kəndini keçməyə cəhd edən iki erməni cəsusu yaxalanmışdır. Azərbaycanın Milli Qəhrəmanı jurnalist Salatın Əsgərovanın həyatına qəsd edən quldurların ələ keçirilməsində də onun böyük əməyi olmuşdur.

1991-ci ilin yazında Qaladərəsi kəndini erməni quldurlarından təmizləmək məqsədilə plan hazırlanır. Gecədən səhərə kimi davam edən ağır döyüşdə erməni yaraqlıları güclü müqavimətlə rastlaşdılar və geri çəkilməyə məcbur oldular. İsrafil Şahverdiyev öz rotası ilə 1992-ci il sentyabrın 19-dan noyabrın 17-nə qədər Hocaz qayası və Hocaz kəndi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, dəfələrlə kəşfiyyata getmiş, düşmənin yerinin təyin olunmasında qəhrəmanlıq göstərmişdir. 1994-cü il yanvar ayının 6-da onun rotası Füzuli rayonunun kəndlərini erməni işğalından azad etmək üçün döyüşə gedir. Rota Horadiz qəsəbəsini, eləcə də digər 4 kəndi azad edir.

İsrafil Şahverdiyev 1994-cü il yanvar ayının 13-də gedən ağır döyüşlərdə yaralı yoldaşlarına kömək edərkən düşmən gülləsinə tuş gəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Şahverdiyev İsrafil Şahverdi oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilib. Laçın rayon orta məktəblərindən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Leytenant Şahverdiyev İsrafil Şahverdi oğlu-Azərbaycan Respublikasının suverenliyi və ərazi bü- tövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il// Azərbaycan.-1995.-17 yanvar.-S.-1. (ölümündən sonra).

Əsgərov, V. Şahverdiyev İsrafil Şahverdi oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.267.

Seyidzadə, M. Şahverdiyev İsrafil Şahverdi oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.210.

Şahverdiyev İsrafil Şahverdi oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.193.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/hafta_ichi/2016/yanvar/472281.htm; https://az.wikipedia.org/wiki/İsrafil_Şahverdiyev

50 illiyi

Səfiyar Behbudov 1967-1992

Milli Qəhrəman

Səfiyar Abuzər oğlu Behbudov 1967-ci il iyun ayının 18-də Bərdə rayonunun Mollalı kəndində anadan olmuşdur. 1984-cü ildə 6 saylı Bərdə şəhər orta məktəbini bitirdikdən sonra Sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdır. 1987-ci ildə ordudan tərxis olunduqdan sonra Bərdə rayon Hərbi Komissarlığının təqdimatı ilə zabitlik kursuna göndərilmişdir.

Zabitlik kursunu kiçik leytenant rütbəsi ilə bitirən Səfiyar Behbudov 1988-ci il Milli Azadlıq Hərəkatının fəal iştirakçılarından olmuşdur. O, Bərdədə "Soy" Demokratik Gənclər Təşkilatını yaradaraq rayon gənclərini öz ətrafında toplamışdır. Xocalı soyqırımından sonra tərəddüd etmədən Bərdə özünümüdafiə batalyonuna daxil olmuşdur. Bölmə komandiri təyin edilən Səfiyar Behbudov Tərtər bölgəsində bir neçə uğurlu əməliyyat keçirdikdən sonra, Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

1992-ci il mart ayının 11-də ermənilər Əsgəran yaxınlığındakı posta hücum edərək oranı mühasirəyə alırlar. Öz PDM-i ilə döyüşə atılan Səfiyar Behbudov tapşırığı uğurla yerinə yetirərək düşmənin müqavimətini qırır və mühasirədə olan döyüşçülərimizi xilas etdikdən sonra Əsgərana doğru irəliləyir. O, Qaraqaya deyilən yerdə düşmənin böyük qüvvəsilə qarşılaşsa da, geri çəkilmir. Lakin bir müddət irəlilədikdən sonra cəsur döyüşçü vurulur. Ermənilər onu ağır yaralı vəziyyətdə əsir götürürlər. 10 günlük əsir həyatında işgəncələrə məruz qalan mərd döyüşçü düşmənə heç bir sirr vermir.

Gənc zabitin cəsədini 1992-ci il martın 21-də çətinliklə də olsa almaq mümkün olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992 ci il tarixli 833 saylı Fərmanı ilə Behbudov Səfiyar Abuzər oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bərdə rayonunun Mollalı kəndində dəfn edilmişdir.

Təhsil aldığı 6 saylı Bərdə rayon orta məktəbi qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Behbudov Səfiyar Abuzər oğlu-kiçik leytenant, taqım komandiri-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il//Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Tumas, İ. Simurq ömrü: Azərbaycanın Milli Qəhrəmanı Səfyar Behbudov /İ.Tumas, R.Sahil; red. A.Rəhimli.- Bakı: Elm, 2014.- 127 s.

Behbudov Səfiyar Abuzər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.42.

Əsgərov,V. Behbudov Səfiyar Abuzər oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.53.

Seyidzadə, M. Behbudov Səfiyar Abuzər oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.40.

55 illiyi

Malik Əsədov
1962-1992

Milli Qəhrəman

Malik Hamil oğlu Əsədov 1962-ci il iyun ayının 27-də Yevlax rayonunun Havarlı kəndində anadan olmuşdur. 1979-cu ildə orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılmışdır. Qazaxıstanda hərbi xidmətini başa vurduqdan sonra Mingəçevir şəhər 45 saylı Müstəqil Hərbiləşdirilmiş Yanğından Mühafizə Hissəsində əmək fəaliyyətinə başlamışdır.

Malik Əsədov Xocalıda, Əsgəranda, Ağdamda, Şuşada gedən ağır döyüşlərdə iştirak etmişdir. Çox keçmir ki, onu bölmə müdiri təyin edirlər. Göstərdiyi şücaətlərə görə bir neçə dəfə Daxili İşlər Nazirliyi (DİN) tərəfindən Fəxri Fərman və mükafatlara layiq görülmüşdür.

1992-ci il yanvar ayının 12-də Şuşaya yollanan silahlı döyüşçülərin sırasında Malik də vardı. O, 1992-ci il yanvarın 18-də Şuşa rayonu Nəbilər kəndi yaxınlığında rəhbərlik etdiyi 6 nəfərlik bölüklə düşmənin on qat artıq qüvvəsinə qarşı döyüşə girib, sonda tək qalır, lakin axıra qədər vuruşur. Düşmənin kəndə girməsinə imkan verməyən döyüşçü qəhrəmancasına həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci tarixli 264 saylı Fərmanı ilə Əsədov Malik Hamil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Yevlax rayonunun Havarlı kəndində dəfn edilib.

Təhsil aldığı Havarlı kənd orta məktəbi onun adını daşıyır. Həmin məktəbdə və Mingəçevir şəhərində büstü qoyulub.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında : [Əsədov Malik Hamil oğlu – daxili xidmət serjantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə] : Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S. 1.- (ölümündən sonra).

Əsədov Malik Hamil oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.68-69.

Əsgərov, V. Əsədov Malik Hamil oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.97.

Seyidzadə, M. Əsədov Malik Hamil oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.68.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

https://az.wikipedia.org/wiki/Malik_Əsədov

65 illiyi

Ənvər Fərəcov 1952-1991

Milli Qəhrəman

Ənvər Səyyad oğlu Fərəcov 1952-ci il iyun ayının 28-də Goranboy rayonunun Sarov kəndində anadan olmuşdur. 1968-ci ildə Sarov kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki ADAU) daxil olmuşdur. 1974-cü ildə AKTU-nun (indiki ADAU) mexanizasiya fakültəsini bitirib Goranboy rayonunun "Azərbaycan" kolxozunda baş mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

1981-ci ildən isə həyatını daxili işlər orqanlarına bağlamışdır. O, Türkmənistanın Bezmin şəhərində xüsusi komendaturanın müəssisədən kənar mühafizə şöbəsində növbətçi kimi əmək fəaliyyətinə başlayır. Sonra sahə müvəkkili vəzifəsində çalışır. 1990-cı ildə Özbəkistan Milis Akademiyasını bitirərək Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) sərəncamına göndərilir. Gəncə şəhər DİŞ-ndə rəis köməkçisi işləyir. 1991-ci ildə doğma rayonuna qayıdır və Todan Polis Şöbəsində pasportmasa rəisi vəzifəsində çalışır.

Az keçmir ki, onu Todan Polis bölməsinin rəisi təyin edirlər. Elə bu andan onun həyatının ən narahat və həyəcanlı günləri başlayır. Onun bir ayağı cəbhədə idi. Bir döyüşdən çıxıb o birinə gedirdi.

1991-ci il avqust ayının 18-də Ənvər Fərəcov yoldaşlarını mühasirədən çıxartmaq üçün qeyri-bərabər döyüşə girir. Ermənilərin mühasirəsini yararaq polis əməkdaşlarını itkisiz azad etmişdir. Bu uğurlu əməliyyata görə bölmə rəisi DİN tərəfindən mükafatlandırılmışdır.

1991-ci il sentyabr ayının 11-də ermənilər böyük qüvvə ilə Goranboy rayonunun Erkəç, Mənəşli, Buzluq kəndlərinə hücuma keçmişdi. Bu, Ənvər Fərəcovun son döyüşü idi. O, bu döyüşdə qəhrəmancasına həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 214 saylı Fərmanı ilə Fərəcov Ənvər Səyyad oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı " fəxri adına layiq görülmüşdür.

Goranboy rayonunda dəfn edilmişdir.

Rayonunda büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında : [Fərəcov Ənvər Səyyad oğlu-Goranboy polis şöbəsinin Todan PB-nin rəisi-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il// Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (ölümündən sonra).

Əsgərov, V. Fərəcov Ənvər Səyyad oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2005.- S.101.

Fərəcov Ənvər Səyyad oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.74-75.

Mirməmməd, G. Vətənin dadına yetən igid oğullar: Milli Qəhrəman Ənvər Fərəcov haqqında sənədli filmin təqdimatı /G.Mirməmməd //Mədəniyyət.- 2016.- 20 yanvar.- S.3. Seyidzadə, M. Fərəcov Ənvər Səyyad oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.77.

100 illiyi

Hüseyn Rəsulbəyov 1917-1984

Hərbi xadim

Hüseyn Cümşüd oğlu Rəsulbəyov 1917-ci il iyunun 26-da Dərbənddə, poçt qulluqçusunun ailəsində anadan olmuşdur.

Rəsulbəyov 1938-ci ildən 1941-ci ilə qədər Moskvada Dzerjinski adına Topçu Akademiyasının tələbəsi olmuş, akademiyanı bitirdikdən sonra Odessaya Dəniz Qrupu Qüvvələrinə ezam olunmuşdur.

O, müharibəni Hava Hücumundan Müdafiə 15-ci briqadasının cihazlar üzrə mühəndis vəzifəsində qarşılamışdır. 1941-1945-ci illər müharibəsində HHM qoşunları tərkibində briqada, diviziya birləşmələri qərargahında müxtəlif mühəndis vəzifələrində çalışmış, Odessa, Kerç, Sevastopol və Şimali Qafqazın (Krasnodar, Novorossiysk, Tuapse) müdafiəsində iştirak etmişdir.

1943-cü ildən 1945-ci ilə qədər Zaqafqaziya cəbhəsi HHM briqadasında rəis işləmidir.

1962-ci ildən 1967-ci ilə qədər sovet hökumətinin tapşırığı ilə general Rəsulbəyov Bakı Hava Hücumundan Müdafiə dairəsinin başçılıq etdiyi zenit-raket qoşunları mütəxəssislər qrupu ilə Misir Ərəb Respublikasında xidməti ezamiyyətdə olmuş və ölkənin Hava Hücumundan Müdafiə sisteminin yaradılmasına köməklik göstərmişdir.

H.Rəsulbəyov uzun illər Bakı Hava Hücumundan müdafiə dairəsi qoşunlarında məsul hərbi vəzifələrdə xidmətdə olmuş, 1966-1974-cü illərdə komandan olmuşdur.

Ehtiyata çıxandan sonra (1975) Azərbaycan Respublikasının Rabitə naziri vəzifəsində işləmişdir. Onun Azərbaycanın rabitə xidmətinin inkişafında misilsiz xidmətləri olmuşdur.

H.Rəsulbəyov respublikamızın çoxminli rabitəçilər ordusuna uzun müddət rəhbərlik etmiş nazir kimi, bacarıqlı rabitə təşkilatçısı, böyük insan kimi tanınmışdır.

Heydər Əliyev cənablarının şəxsi təşəbbüsü ilə rabitənin inkişafı ilə bağlı Mərkəzi Komitənin məlum qərarları qəbul edildi. Bu qərarların hazırlanıb qəbul edilməsində, həyata keçirilməsində bir nazir kimi Rəsulbəyovun böyük əməyi olmuşdur. İndi paytaxtımızın ən hündür yerində gözəl Teleqüllə ucalır. Bu möhtəşəm tikinti xalqımızın iki böyük övladının - ümummilli lider Heydər Əliyevin və Hüseyn Rəsulbəyovun adıyla bağlıdır. O, gecə-gündüz çalışırdı ki, Teleqüllə tez istifadəyə verilsin. Bu, onun ən böyük arzusu idi. Bu arzunu gerçəkləşdirmək üçün açılmaz qapılar açırdı, həll edilməsi mümkün olmayan məsələlərə əncam tapırdı.

Ulu öndər Heydər Əliyev cənablarının tapşırığı, göstərdiyi böyük diqqət və qayğı sayəsində Teleqüllə kimi möhtəşəm bir tikinti istifadəyə verildi. Unudulmaz generalın arzusu çin oldu.

Hüseyn Rəsulbəyov 1984-cü ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Rəsulbəyov məktəbi: General Hüseyn Rəsulbəyov haqqında xatirələr /red. Əfrasiyab Məmmədov.- Bakı: İsmayıl, 1997.- 40 s.

Hüseynov, Ö. Yaddaşlarda qaldı... /Ö.Hüseynov //Xalq qəzeti.- 1997.- 21 fevral.- S.5.

215 illiyi

Mirzə Kazım bəy 1802-1870

Şərqşünas, maarifçi

Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu (Mirzə Kazım bəy) 1802-ci il iyun ayının 22-də İranın Rəşt şəhərində anadan olmuşdur. Atası Məhəmməd Qasım Kazım bəy, Dərbəndin (o vaxtlar Azərbaycanın Quba xanlığının tərkibində olmuş, sonralar Rusiya imperiyasına birləşdirilmişdir) tanınmış ruhani şəxslərindən olmuşdur. Bir qədər sonra atası Dərbəndə qazi təyin olunmuş və ailəsi ilə bu şəhərə köçmüşdür. Kazım bəy İslam dininin əsasları, Azərbaycan və fars dillərini kamil şəkildə öyrənməklə yanaşı rus, türk və ərəb dillərinə də mükəmməl şəkildə yiyələnmişdi. Cəmi 17 yaşında isə "Ərəb dilinin qrammatikası" adlı kitabını yazmışdır. Lakin 1820-ci ildə Məhəmməd Qasım Kazım bəy İran əleyhinə cəsusluq fəaliyyətində günahlandırılmış, bütün dini rütbələrindən məhrum edilərək xanımı ilə birgə Həştərxana sürgün edilmişdir. Kazanda olarkən Kazım bəy Karl Fuks adlı tarixçidən Kazan universitetində ərəb və fars dillərindən dərs demək təklifini almış, 1828-ci ildə Britaniya Kral Şərqşünaslar Cəmiyyətinə üzv və Kazan Universitetində yenicə yaranmış türk dilləri fakültəsinə rəhbər təyin olunmuşdur.

1835-ci ildə Rusiya Elmlər Akademiyasına müxbir üzv seçilmişdir. 1839-cu ildə Demidov Mükafatına layiq görüləcək "Türk-tatar dillərinin qrammatikası" adlı fundamental elmi monoqrafiyasını yazmışdır.

1849-cu ildə Kazımbəy Sankt Peterburq Universitetinə yenicə açılmış Şərq dilləri fakültəsinə dekan təyin olunmuş, 1863-cü ildə burada Şərq tarixi kafedrasını təsis etmişdir. O, Şərq mədəniyyətinin öyrənilməsinə maraq göstərən tələbələrin təcrübi ekskursiyalara göndərilməsinin təşkilinə nail olmuşdur. 1854-cu ildə türk dilinə dair yeni - "Türk dillərinin öyrənilməsində kurs dərsliyi" və 6700 sözdən (o dövrün ən irilərindən biri) ibarət rus-türk lüğəti (sözlüyü) nəşr etdirmişdir. Həmin il "Şərq dillərindən törəmiş rus söz və söz birləşmələrinin izahına dair" əsərini də yazmağa müvəffəq olmuşdur.

Kazım bəy müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, Azərbaycan dilinin ilk elmi qrammatikasının yaradıcısı, İranda Babilər hərakatının, Dağıstanda Şeyx Şamil hərakatının ilk tədqiqatçılarından biri, Sədinin "Gülüstan" əsərinin rus dilinə (1829) ilk tərcüməçisidir. 1851-ci ildə "Dərbəndnamə"ni ingilis dilinə tərcüməsi və şərhlərlə birlikdə nəşr etdirmişdir.

Mirzə Məhəmməd Əli Kazım bəy 1870-ci il noyabr ayının 27-də Sankt Peterburq şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Müridzm və Şamil /Mirzə Kazım bəy //Ədəbiyyat qəzeti.-2015.- 25 iyul.- S.8.

Əhmədov, H. Mirzə Kazım bəylə yeni görüş /Əhmədov H. Seçilmiş pedaqoji əsərləri: [25 cilddə].- Bakı, 2014.- C. 22.- S.30-45.

Hüseynov, H. Professor Mirzə Kazım bəy //Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən /elmi red. Y.Rüstəmov; rus dilindən tərc. ed.: A.Hacıyeva [və b.].- Bakı, 2007.- S.124-171.

Hüseynov, H. Professor Mirzə Kazım bəy //Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən.- Bakı, 2006.- Kitab II.-S.156-209.

Mirzə Kazım bəyin seçilmiş əsərləri "Hədəf" nəşrlərində //Mədəniyyət.- 2016.- 12 fevral.- S.13.

Sarıyeva, İ. Azərbaycan mühacir ədəbiyyatında Mirzə Kazım bəylə bağlı məqamlar... / İ.Sarıyeva // Bakı xəbər.-2013.- 9 dekabr.- S.14.

175 illiyi

Həsən bəy Zərdabi 1842-1907

Maarif xadimi

Ə d ə b i y y a t

Həsən bəy Zərdabi xatirələrdə: bioqrafik qaynaqlar /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; tərt. ed. T.Aydınoğlu; red. M.Çəmənli.- Bakı: Aspoliqraf, 2013.- 223 s.

Həsən bəy Zərdabi və "Əkinçi": bioqrafik məqalələr, məktublar, xatirələr, tədqiqatlar /red. hey.: M. Yaqub və b.- Bakı: [s.n.], 2010.- 225 s.

Azərbaycan maarifinin yorulmaz carçısı. H.Zərdabi-170: Respub.-nın kütl. və ixtisas-mış kitabx., MKS-ləri üçün metodik vəsait /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabx.; tərt. A.Abdullayeva; ixt. red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı: [s.n.], 2012.- 46 s.

Rüstəmov, İ. Həsən bəy Zərdabi /İ.Rüstəmov; elmi red. N.Hüseynli; red. Ç.Rüstəmov.- Bakı: Turan Nəşrlər Evi, 2012.- 235 s.

Vəliyeva, S. İşığa gedən yol: roman /S.Vəliyeva; red. F. Hüseyn.- Bakı: Zərdabi LTD, 2016.- 767 s.

Həsən bəy Səlim bəy oğlu Məlikov (Həsən bəy Zərdabi) 1842-ci il iyun ayının 28-də (bəzi mənbələrdə 1837) keçmiş Bakı quberniyasına daxil olan Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhərində), bəy ailəsində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada alan Həsən bəy 1854-cü ildə dörd sinifli Şamaxı məktəbi nəzdində yenicə təşkil olunmuş pansionun ikinci sinfinə qəbul olmuş və oranı əla qiymətlərlə bitirmişdir. 1858-ci ildə Tiflis Qəza Gimnaziyası yanında Blaqarodnı Pansionunun V sinfinə daxil olmuş, 1861-1865-ci illərdə isə Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsinin "Təbiyyat" şöbəsində təhsil almışdır. 1869-cu ildə Bakı Realnı Gimnaziyasına "Təbiyyat tarixi" müəllimi vəzifəsinə təyin edilmişdir. 1873-cü ildə Nəcəf bəy Vəzi-rov və Əsgərağa Adıgözəlovla birgə (Gorani) böyük dramaturq M.F.Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya qoymuşdur.

1875-ci il iyulun 22-də çar hökümətinə müraciətdən sonra Həsən bəy Bakıda qubernatorun mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuş və bununla da milli mətbuatımızın əsası qoyulmuşdur. Lakin "Əkinçi" qəzeti uzun müddət fəaliyyətini davam etdirə bilməmiş, 1877-ci ilin sentyabrında çar senzurası tərəfindən bağlanmışdır.

"Əkinçi" qəzeti bağlandıqdan sonra da Həsən bəy jurnalistlik fəaliyyətini davam etdirmiş, bir müddət "Kaspi" qəzetinin redaktoru olmuşdur. O, həmçinin "Həyat", "Dəbistan", "Obzor", "Novoye obozreniye" (Tiflis), "Zemledelçeskaya qazeta" (Sank-Peterburq) və s. qəzet və jurnallarda məktəb və tərbiyə, sosial, mədəni və digər elm sahələrini əhatə edən məqalələr çap etdirmişdir. Ömrünün sonunadək gərgin yaradıcılıq fəaliyyəti ilə məşğul olan Həsən bəy 1901-ci ildə Bakıda ilk qız məktəbinin açılmasına köməklik etmiş, həmçinin, görkəmli ictimai-siyasi xadim N.Nərimanov və digər mütəfəkkirlərlə birgə 1906-cı ildə Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin I qurultayının işində yaxından iştirak edərək qurultayın sədri olmuşdur.

Həsən bəy Məlikov-Zərdabi 1907-ci il noyabr ayının 28-də Bakı şəhərində iflic xəstəliyindən vəfat etmiş, Bibiheybət məscidinin yaxınlığında dəfn olunmuşdur. 1937-ci ildə həmin ərazi dağıdılmış, 1957-ci ildə H.Zərdabinin vəfatının 50 illiyi qeyd olunarkən onun nəşi Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Həsən bəy Zərdabinin adını xalqımız hər zaman uca tutmuş, xatirəsini əbədiləşdirmişdir. Onun adına 1930-cu ildə Bakıda Təbiət Tarixi Muzeyi yaradılmış, Zərdab şəhərində park salınmış, ev-muzeyi yaradılmış, 1943-cü ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutu fəaliyyətə başlamışdır. Həmçinin, Bakıda və regionlarımızda onun adını daşıyan küçələr var.

XX əsrin 90-cı illərində "Əkinçi" Mətbuat Cəmiyyətinin təşəbbüsü ilə adına fəxri diplom və medal təsis edilmişdir. 2003-cü ildə Nizami Xudiyevin ssenarisi əsasında V.Məmmədzadənin rejissorluğu ilə qısametrajlı bədii-sənədli televiziya filmi çəkilmişdir. 2010-cu ildə Milli Mətbuatın 135 illiyinə həsr olunmuş, üz tərəfində görkəmli publisistin portreti təsvir edilmiş gümüşdən xatirə sikkəsi hazırlanmışdır. 2012-ci ildə Bakı Slavyan Universitetinin filologiya və jurnalistika fakültələrinin yerləşdiyi tədris binasında təmirdən sonra H.Zərdabi adına auditoriya yaradılmışdır.

70 illiyi

Sacidə Əbdülvahabova 1947

Alim

Sacidə Əbdülvahabova 1947-ci il iyun ayının 2-də Bakı şəhərində anadan olmuşdur. 1964-1969-cu illərdə Azərbaycan Dövlət Universitetində təhsil almışdır. 1970-ci ildə dünyada tanınmış Birləşmiş Nüvə Tədqiqatları İnstitutu nəzəri fizika laboratoriyasının aspiranturasında oxumuş, 1974-cü ildə "Cüt-cüt deformasiyaya uğramış nüvələrdə 0+ halları" mövzusunda namizədlik dissertasiyasını Dubna şəhərində "Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda" müdafiə etmişdir. 1995-ci ildə "Mürəkkəb nüvələrdə birbaşa gedən (p,t), (t,p) nüvə reaksiyalarınnın tədqiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Sacidə Əbdülvahabova 1974-cü ildən BDU-nun Maddənin quruluşu kafedrasında işləməyə başlamış, 1995-ci ildə professor elmi rütbəsini almışdır.

Ali Attestasiya Komissiyasında Fizika bölməsi üzrə Ekspert Şurasının elmi katibidir.

S.Əbdülvahabovanın 100-ə yaxın elmi məqaləsi aparıcı beynəlxalq və ölkə mətbuatında çap olunmuşdur. O, ali məktəblər üçün nəşr edilmiş "Nüvə fizikası" dərs vəsaitinin müəllifidir.

Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə səmərəli elmi və pedaqoji fəaliyyətinə görə Sacidə xanım Fəxri Fərmanla təltif edilmişdir.

Elmi və pedaqoji fəaliyyətdən əlavə, o, ölkədə qadın hüquqları və gender inkişafı üzrə ciddi işlər görür. 1997-ci ildə təsis edilmiş, ölkə daxilində və xaricdə qadın institutu kimi tanınmış "Qadın Problemlərinin Tədqiqi Birliyi" qeyri-hökumət təşkilatının direktorudur. Təşkilat hər bir sahədə qadınların kişilərlə bərabər imkanlara malik olmaları istiqamətində iş aparır; kurslar, seminarlar, dəyirmi masalar, konfranslar təşkil edir, kitab və jurnallar nəşr etdirir.

Sacidə Əbdülvahabova dünyanın bir çox ölkələrində demokratiyaya, sülhpərvərliyə, münaqişələrin həllinə, qadın və gender problemlərinə həsr olunmuş konfrans və yığıncaqlarda ölkəmizin mənafeyindən çıxış etmişdir. O, "Gender problemləri sülh mədəniyyəti konsepsiyasında", "İnsan haqları müdafiəsi tarixindən", "Sülh mədəniyyətinin təbliğində qadınların rolu" kitabçalarının, "Gender və sülh təhsili" adlı dərs vəsaitinin müəllifidir.

Sacidə Əbdülvahabova Azərbaycan Respublikasının Ailə və Qadın Problemləri üzrə 2007-2010-cu illər üçün nəzərdə tutulmuş Milli Fəaliyyət Planı, Yoxsulluğun azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramından, Pekin Fəaliyyət Platformasından, "Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyadan, Minilliyin İnkişaf Məqsədlərindən və prezident fərmanlarından irəli gələn istiqamətlər və tədbirlər əsasında yazılmış sənədlərin tərtibində vətəndaş cəmiyyətinin bir nümayəndəsi kimi ekspert seçilmişdir.

Ə d ə b i y y a t

Sacidə Əbdülvahabova //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQS).- Bakı, 2008.- S.93-94.

Кварковая модель в процессах с образованием нейтральных векторных мезонов /С.Абдулвахабова //Вестники Бакинского Университета.- 2013.- №2.- S.114-118.

Когерентное рассеяние нейтронов на нуклонах ядра. Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri /С.Абдулвахабова //AMEA-nın IV Beynəlxalq Konfransı.- Bakı, 2011.- 23-25 noyabr.- S.61.

Рассеяние нуклонов на ядрах с учетом сингулярного потенциала /С.Абдулвахабова //AMEA-nın IV Beynəlxalq Konfransı.- Bakı, 2011.- 23-25 noyabr.- S.60.

Рассеяние протонов на ядрах с выбиванием нуклонных ассоциаций /С.Абдулвахабова //Bakı Universitetinin Xəbərləri.- 2011.- №2.- S.127-131.

25 illiyi

Azərbaycan Respublikası YUNESKO-ya üzv qəbul edilmişdir

BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. Təşkilatın nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanmış, 4 noyabr 1946-cı ildə 20 üzv dövlətdən ibarət YUNESKO öz rəsmi fəaliyyətinə başlamışdır.

Azərbaycan XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən YUNESKO-nun fəaliyyətində aktiv iştirak etmişdir. YUNESKO tərəfindən 1967-ci ildə "Qafqaz xalqlarının ədəbiyyatı" seriyasından fransız dilində M.F.Axundovun komediyaları, "Dünya xalqlarının musiqisi" seriyasından Azərbaycan muğamlarından ibarət iki val və iki audio-kasset buraxılmışdır. Sovet İttifaqı dövründə Azərbaycanın YUNESKO ilə əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, YUNESKO-nun Azərbaycan mədəniyyəti ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak etmişdir. 1983-cü ildə Bakıda təşkil edilmiş "Şərq xalça sənəti" I Beynəlxalq Simpoziumu zamanı Heydər Əliyev YUNESKO-nun Baş direktorunun xüsusi məsləhətçisi Federiko Mayorla görüşmüş və bu dostluq əlaqələri Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycanın YUNESKO ilə münasibətlərinə öz müsbət təsirini göstərmişdir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində YUNESKO-ya üzv qəbul edilmişdir. 1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyev Fransa Respublikasına rəsmi səfəri çərçivəsində YUNESKO-nun baş direktoru Federiko Mayorla görüşmüşdür.

Azərbaycan-YUNESKO münasibətlərinin inkişaf etdirilməsi sahəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər xüsusi əhəmiyyət kəsb edir. Mehriban Əliyeva 1995-ci ildən etibarən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xəttilə Azərbaycan mədəniyyətinin dünyaya tanıdılması istiqamətində uğurla fəaliyyət göstərmişdir. O, Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə YUNESKO tərəfindən 2004-cü ilin sentyabr ayında YUNESKO-nun şifahi və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülmüşdür.

Bu əməkdaşlıq çərçivəsində 2007-ci ildə Heydər Əliyev Fondunda "BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı - YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında ölkəmizdə peşə təhsilinin inkişafını nəzərdə tutan layihənin icra planına dair", 2009-cu ildə "Heydər Əliyev Fondu və YUNESKO arasında qeyrimaddi mədəni irsin qorunması üzrə strateji hədəflərə nail olmaq məqsədi ilə Əməkdaşlıq sazişi" imzalanmışdır. Bu gün ölkəmizdə YUNESKO-nun Muzeylərin Beynəlxalq Şurası (ICOM-International Council of Museums), Beynəlxalq Bioetika Komitəsi (IBC-International Bioethics Committee), İnformasiya Hamı üçün (IFA - Information For All) kimi milli komitələri fəaliyyət göstərməkdədir.

Ədəbiyyat

Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair konvensiya: Paris, 20 oktyabr 2005-ci il /UNESCO.- Bakı: Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 2005.- 33 s.

YUNESKO-Azərbaycan: gələcəyə körpü: təhsilə həsr olunmuş konfrans materialları /tərt. ed.: R.Süleymanov, A.Axundov.- Bakı: Təhsil, 2005.-160 s.

Qobustan kölgələri: Təqdimatda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və baş direktor İrina Bokova iştirak etmişdir //Azərbaycan qadını.- 2014.- payız.- S.58-60

İnternetdə

http://www.mfa.gov.az/content/556

https://az.wikipedia.org/wiki/UNESCO

http://www.aztv.az/readnews.php?lang=az&id=10638

Ətraf Mühitin Mühafizəsi Günü 1972

1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin İsveçin paytaxtı Stokholmda keçirilən iclasında 5 iyun tarixinin Dünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunmasına qərar verilmişdir. Belə bir günün keçirilməsinə 11 may 1971-ci ildə dünyanın 23 ölkəsinin 2200 elm və mədəniyyət xadiminin imzası ilə BMT-nin Baş katibinə ünvanlanan müraciət səbəb olub. Onlar "ya biz çirklənməni qurtarırıq, ya da çirklənmə bizi qurtarar" adlı müraciətləri ilə bəşəriyyətə ətraf mühitin çirklənməsi barədə xəbərdarlıq vermişdilər.

Baş Assambleya bu günün qeyd edilməsi ilə bağlı qətnaməsində BMT-yə daxil olan ölkə və təşkilatları hər il həmin gün ərəfəsində ətraf mühitin qorunması və yaxşılaşdırılmasına yönələn işlər həyata keçirməyə çağırır.

Dünya Ətraf Mühitin Mühafizəsi Gününün hər il geniş tədbirlərlə qeyd edildiyi Azərbaycanda da ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzində olmuşdur. Respublikamızda rəhbərlik etdiyi bütün dövrlərdə ulu öndər Heydər Əliyev ətraf mühitin mühafizəsinə, yaşıllıqların və parkların salınmasına xüsusi diqqət və qayğı ilə yanaşmışdır. 1998-ci ildə "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı", 2000-ci ildə "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir. 2001-ci ildə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir.

Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr vermişdir. Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyində hər il 5 İyun - Dünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilməkdədir.

Ə d ə b i y y a t

Azərbaycanda ətraf mühit 2010: statistik məcmuə /Azərb. Resp.-nın Dövlət Statistika Komitəsi.- Bakı, 2010.- 128 s.

Məmmədov, Q. Ekologiya və ətraf mühit /Q.Ş. Məmmədov, M.Y.Xəlilov; elmi red. B.Ə.Budaqov.- Bakı: Elm, 2004.- 505 s.

Sağlamlıq. Ətraf mühit: Davamlı inkişafa nail olma vasitələrinin idarə edilməsi: Qərar qəbul etmə prosesində iştirak edənlər üçün vəsait: Birgə hesabat /Dünya Səhiyyə Təşkilatı.- İsveçrə: Dünya Səhiyyə Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit üzrə Proqramı.- 2008.- 83 s.

Məhəbbətoğlu, Q. Müharibələrin, silahların ilk qurbanı - ətraf mühit /Q.Məhəbbətoğlu //Zaman.- 2014.- 20 may.- S.13

İ n t e r n e t d ə

http://cte.iteca.az/2014/?p=news__read&t=top&q=13&l=az

http://www.aztv.az/readnews.php?lang=az&id=5405

Milli Qurtuluş Günü
1993

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdü. Qiyamçı hərbi hissənin rəhbərliyi, Baş nazir və Milli Məclis Sədrinin, sonra isə Prezidentin istefasını tələb edirdi. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görürdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdir. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur.

Ulu öndərin Ali Sovetin Sədri seçilməsi Azərbaycanda eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etmişdir. Heydər Əliyev parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdır. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdir. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdir.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş Günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdir. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş Günü kimi qeyd edilir.

Ə d ə b i y y a t

Əliyeva, N. Milli Qurtuluş Günü - millətin özünə inamının bərqərar olduğu gün /N.Əliyeva //Səs .-2015.- 13 iyun.- S. 11.

Hacalıyev, E. Müasir Azərbaycanın Milli Qurtuluş salnaməsi /E.Hacalıyev //Azərbaycan.-2016.- 15 iyun.- S.1.

Həbibbəyli, İ. Böyük xilaskarlıq missiyası - Milli Qurtuluş /İ.Həbibbəyli //Azərbaycan.- 2016.- 15 iyun.- S.3.

Nağıyev, M. 15 İyun Milli Qurtuluş Günü müstəqilliyimizin zəfər yürüşü /M.Nağıyev //Səs.- 2015.- 10 iyun.- S. 6.

15 İyun Milli Qurtuluş Günü çağdaş tariximizin dönüş nöqtəsidir Heydər Əliyev zəkası müasir Azərbaycanın etibarlı bünövrəsini yaratdı //Səs.- 2016.- 11 iyun.- S.13.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/ses/2016/iyun/495569.htm

Azərbaycanda İnsan Hüquqları Günü
2007

18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür. 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" qəbul edilib. Əlamətdar gün Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə təsis olunub.

Fərman əsasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı çərçivəsində isə qanunvericilik və institusional islahatlar həyata keçirildi. Həmçinin qeyd olunan Dövlət Proqramı əsasında, eləcə də ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq, 2002-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) institutu təsis edildi.

Müasir dövrümüzdə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən insan hüquqları istiqamətində ciddi işlər görülür. Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir. Belə ki, dövlətimiz insan hüquqları sahəsində 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və mühüm nüfuzlu beynəlxalq təşkilatların BMT, Avropa Şurası, Beynəlxalq Əmək Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatı və s. üzvüdür. Təkcə bir faktı qeyd etmək lazımdır ki, BƏT-in 70-ə yaxın Konvensiyasına qoşulan dövlətimiz həmin təşkilatın ən mühüm partnyorlarından hesab edilir.

Müasir dövrdə Azərbaycanda insan hüquqlarının təminatı sahəsində ölkəmiz dünyaya nümunə ola biləcək məkandır. Prezident İlham Əliyevin bir əsas fikri bizim üçün çox önəmli-dir ki, fəaliyyətimizin əsasında insan amili durur və bütün fəaliyyətimizin məqsədi də Azərbaycan vətəndaşı üçün, onun bu gerçəklikdə rahat, əmin-aman yaşaması üçündür.

Bugünkü Azərbaycan vətəndaşı hüquqlarını bilən və onun təminatı üçün hər bir şeyi tələb edən mübariz vətəndaşdır. Bu imkanı yaradan dövlətdir. Ümummilli lider Heydər Əliyevin insan hüquqlarının qorunması istiqamətində həyata keçirdiyi siyasət onun layiqli davamçısı - Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunu çoxlu sayda qəbul edilən qərar və sərəncamlardan daha aydın görmək mümkündür.

Ə d ə b i y y a t

18 iyun - Azərbaycan Respublikasında "İnsan Hüquqları Günü"nə, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının, Əhali məsələləri üzrə Qahirə konfransının, Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının 20 illiyinə, BMT-nin Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyasının 35-ci ildönümünə həsr edilmiş "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XII Bakı Beynəlxalq Konfransının materialları: 18-20 iyun, 2014-cü il /red. E.Süleymanova (Ombudsman) (ön söz); tərt.ed. Z.Əliyev, G.Rəhimova.- Bakı, 2014.-311 s.

Məhərrəmli, Z. Azərbaycanda Milli İnsan Hüquqları Günü /Z.Məhərrəmli //525-ci qəzet.- 2015.- 19 iyun.- S.2.

18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür //Mədəniyyət.- 2015.- 12 iyun.- S.12.

Milli Silahlı Qüvvələr Günü 1918

1918-ci il may ayının 28-də yaranmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) cəmi 23 ay yaşamasına baxmayaraq ölkədə çox böyük işlər görmüşdür. Bu işlərdən biri də ölkəni daxili və xarici müdaxilələrdən qorumaq üçün nizami ordunun yaradılması işi idi.

AXC silahlı qüvvələrin təşkilinə cümhuriyyətin elan edildiyi gündən başlamışdır. AXC-i Hökümətinin 1918-ci il 26 iyun tarixli qərarı ilə milli ordunun formalaşdırılmasına başlanmış və əsasən, azərbaycanlılardan ibarət olan Müsəlman korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırılmış, bununla da Cümhuriyyət ordusunun əsası qoyulmuşdur.

Azərbaycan Milli Ordusunun ilk hərbi birləşmələri xalq könüllü dəstələri ilə birlikdə Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun tərkibində bolşevik-daşnak hərbi qüvvələrinə qarşı döyüşlərdə, Bakının azad olmasında (1918, 15 sentyabr) fəal iştirak etmiş, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin düşmənlərinə qarşı Qarabağda, Lənkəranda uğurlu döyüş əməliyyatları aparmış, daşnak-bolşevik hərbi birləşmələrinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımlarının qarşısını almışdır.

Cümhuriyyət dövründə milli ordunun yaradılmasında istedadlı generallar S.B.Mehmandarov, Ə.Şıxlinski, X.B.Sultanov və başqa hərb xadimləri böyük rol oynamışlar.

1920-ci ildə AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasında güllələndi.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Lakin Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğuna başlanmışdı. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi elan edilmişdir.

Ümummilli lider Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalamışdır.

Bu gün ölkədə Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi uğurla davam etdirilir Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun günü hər il Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

Ə d ə b i y y a t

Abbasov, İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun təşkili və fəaliyyəti: 26 İyun Silahlı Qüvvələr Günüdür /İ.Abbasov //Respublika.-2014.- 26 iyun.- S.8.

Ağamirzəyev, F. Qüdrətli ordu milli təhlükəsizliyimizə təminatdır:26 İyun Silahlı Qüvvələr Günüdür /F.Ağamirzəyev //Respublika.- 2014.- 26 iyun.- S.8.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/respublika/2014/iyun/379662.htm

http://www.anl.az/down/meqale/respublika/2014/iyun/379669.htm

Narkomaniya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Günü 1967



"Narkomaniya" yunan sözü olub, narko - bihuşluq, maniya - isə asılılıq deməkdir. Narkomaniya cəmiyyətin meydana gəldiyi, onun ayrı-ayrı siniflərə, sosial təbəqə və qruplara bölündüyü qədim zamanlardan yaranmışdır. Hələ qədim dövrlərdə tiryəkdən bəzi xəstəliklərin müalicəsində istifadə olunurdu. Qədim misirlilər tiryəkdən həvəsləndirici, eləcə də sakitləşdirici vasitələrin hazırlanmasında istifadə etmişlər. Tiryəkdən ilk dərman XVI əsrdə alınmış və onu icad edən isveçrəli həkim Paraselsin şərəfinə adlandırılmışdır. Sonralar isə bunun zəhərli maddə kimi orqanizmə əks təsirini, ölümə səbəb olduğunu müəyyənləşdirmişlər.

XIX əsrin ortalarında leksikona "narkotik", "narkotik vasitələr" terminləri daxil olmuşdur. Erkən yaşından narkotik qəbul etməyə başlayan insanın orta ömrü 35-40 il olur. Narkoman narkotik maddələr qəbul edərkən, ən azı 10-15 nəfəri də narkomanlığa cəlb edə bilər.

BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun "Narkomaniya və Narkotiklərin Qeyri-qanuni Dövriyyəsinə Qarşı Ümumdünya Mübarizə Günü" kimi qeyd olunur.

1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il konvensiyasına qoşulmuşdur. Ümummilli lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" müvafiq Fərman imzalamış və problemin həlli üçün keçirilən tədbirlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. 1999-cu il iyun ayının 18-də "Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunaraq ölkə başçısı tərəfindən imzalanmışdır. 2005-ci ildə görülən işlərin məntiqi davamı kimi beynəlxalq qurumların tövsiyələrinə, qoşulduğumuz Konvensiyaların müddəalarına uyğun olaraq "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən imzalanmışdır. Prezident İlham Əliyevin 28 iyun 2005-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanun narkotiklərlə mübarizə istiqamətində müvafiq dövlət və ictimai qurumlar qarşısında konkret vəzifələr qoymuş və bu istiqamətdə fəaliyyətin hüquqi bazasını təşkil etmişdir.

Ə d ə b i y y a t

Narkomaniya İİV/QİÇS /Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyi; Azərb. Resp. Gənclər və İdman Nazirliyi; tərt. ed. İ.Əsədli; layih. rəhb. A.Xəlilov.- Bakı: Müəllim, 2009.- 39 s.

Narkomaniya, narkobiznes və ona qarşı mübarizədə kitabxanaların rolu: Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait: [metodik tövsiyələr]/Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; Azərbaycan Milli Kİtabxanası; tərt. ed. M.Talıbova; ixtisas red. və buraxılışa məsul K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2012.- 40 s.

Narkomaniya başəriyyəti düşündürən ən böyük problemdir //İki sahil.- 2015.- 21 fevral.- S.30

Narkomaniya cəmiyyətin sosial bəlasıdır //İki sahil.-2014.- 20 may.- S.31.

Narkomaniya ictimai bəladır //İki sahil.-2016.- 20 fevral.- S.15.

İ n t e r n e t d ə

http://www.anl.az/down/narkomaniya.pdf

İYUL

23 iyun
21 iyul
Xərçəng bürcünün Nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

Ş.	1
B.	2
B.E.	3
Ç.A.	4
Ç.	5
C.A.	6
C.	7
Ş.	8
B.	9
B.E.	10
Ç.A.	11
Ç.	12
C.A.	13
C.	14
Ş.	15
B.	16
B.E.	17
Ç.A.	18
Ç.	19
C.A.	20
C.	21
Ş.	22
B.	**23**
B.E.	24
Ç.A.	25
Ç.	26
C.a	27
C.	28
Ş.	29
B.	30
B.E.	31

- *Azərbaycan Polisi Günü (02.07.1998)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.)*
- ***Ağdam rayonunun işğalı günü (23.07.1993)***

300 il Molla Pənah Vaqif 1717-1797



Ölümündən sonra Vaqifin evi talan olunmuş, əlyazmaları yandırılmışdır. Şairin şeirlər "Divan"ı da bu səbəbdən bizə gəlib çatmamışdır. İndi kitablarda nəşr olunan şeirlər isə şairin yaradıcılığının pərəstişkarları tərəfindən bircə-bircə toplanmışdır. Onun şeirləri aşıqların dilindən düşmürdü, xalq arasında əzbər deyilirdi. Bundan başqa şairin şeirləri bəzi adamlar tərəfindən yazıya da alınmışdı. Vaqif irsi hələ şairin yaşadığı dövrdə diqqəti cəlb etmişdir. Vaqifin əsərləri ilk dəfə bir kitab şəklində toplanaraq 1856-cı ildə Teymurxanşurada "Vaqif və sair müasiri" adı altında cap etdirilmişdir. Sonralar Vaqifin əsərlərini M.F.Axundov çap etdirmək istəmişdir. Axundovun topladığı materiallardan istifadə edən Adolf Berje həmin əsərləri 1867-ci ildə Leypsiqdə nəşr etdirmişdir. Vaqifin əsərlərini M.F.Axundovun tapşırığı ilə Hüseyn Əfəndi Qayıbov toplamağa calışmışdır. Lakin onun topladığı əsərlər çap edilə bilməmişdir. Vaqifin əsərləri 1908-ci ildə "Tazə həyat" qəzetinin müdiri Haşım bəy Vəzirov tərəfindən nəşr edilmişdir. 1925-ci ildə Salman Mümtaz Vaqifin şeirlərindən bir hissə toplayaraq "Kommunist" qəzeti nəşriyyatında çap etdirmişdir. Yenə də şairin həmin müəllif tərəfindən toplanılan şeirləri 1937-ci ildə çap olunmuşdur. Vaqifin əsərlərinin elmi nəşri 1945-ci ildə Azərbaycan EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunmuşdur. Vaqif əsərlərinin akad. H.Araslı tərəfindən hazırlanan elmi-tənqidi nəşri 1945-ci ildə Azərbaycan SSR EA tərəfindən çapdan buraxılmışdır. Bunun ardınca Vaqifin əsərləri daha bir neçə dəfə (1952, 1957, 1960 və 1968-ci illərdə) oxuculara təqdim edilmişdir. Bütün bu kitabların tərtibatçısı və nəşrə hazırlayanı akad. Həmid Araslı olmuşdur.

Vaqifin çapdan buraxılan əsərlərinin ən əhəmiyyətli və nisbətən mükəmməl nəşri şairin anadan olmasının 250 illik yubileyi münasibəti ilə 1968-ci ildə Azərnəşr tərəfindən oxuculara çatdırılan "Əsərləri"dir. Kitabda Vaqifin bu vaxta qədər nəşr olunmamış bir sıra şerləri də öz əksini tapmışdır.

Böyük duyğular nəğməkarı M.P.Vaqif haqqında onlarla tədqiqat əsəri, monoqrafiya və elmi məqalə yazılmışdır.

İYUL

2017

Milli ədəbiyyat

Yazıçı Şahbazi Tağı Abbas oğlunun (Tağı Şahbazi Simurğ) (02.07.1892-1937) anadan olmasının 125 illiyi 215

Əməkdar incəsənət xadimi, şairə Ağayeva Kəmalə Ağa qızının (10.07.1937) anadan olmasının 80 illiyi 216

Dünya ədəbiyyatı

Fransız yazıçısı Düma Aleksandrın (Ata) (24.07.1802-05.01.1870) anadan olmasının 215 illiyi 217

Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Xalq rəssamı, heykəltəraş Məmmədov Tokay Həbib oğlunun (18.07.1927) anadan olmasının 90 illiyi 218

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Qənbərov Ramiz Bulud oğlunun (02.07.1962-29.04.1992) anadan olmasının 55 illiyi 219

Azərbaycanın Milli Qəhrəmanı Bağırov Tahir Əminağa oğlunun (14.07.1957-05.02.1993) anadan olmasının 60 illiyi 220

Azərbaycanın Milli Qəhrəmanı Ocaqverdiyev Sərxan Surxay oğlunun (16.07.1967-05.05.1992) anadan olmasının 50 illiyi 221

Azərbaycanın Milli Qəhrəmanı Məhərrəmov Asif Yusif oğlunun (26.07.1952-31.12.1991) anadan olmasının 65 illiyi 222

Azərbaycanın Milli Qəhrəmanı Musayev Fəxrəddin Musa oğlunun (30.07.1957-11.04.1992) anadan olmasının 60 illiyi 223

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Nadir Alış oğlunun (30.07.1962) anadan olmasının 55 illiyi 224

Siyasət. Hüquq. Hərbi iş

Azərbaycanın Tank Qoşunları general-mayoru Bərşadlı Valeh Əyyub oğlunun (06.07.1927-1999) anadan olmasının 90 illiyi 225

Səfəvilər dövlətinin banisi, görkəmli dövlət xadimi Şah İsmayıl Əbül-Müzəffər İsmail ibn Heydər əs-Səfəvi (Şah İsmayıl Xətai) (17.07/23.06.1487-23.05.1524) anadan olmasının 530 illiyi 226

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman), kimya elmləri doktoru, professor Süleymanova Elmira Teymur qızının (17.07.1937) anadan olmasının 80 illiyi 227

Azərbaycanın istiqlal tarixində önəmli rol oynayan Türkiyənin görkəmli hərbi və dövlət xadimi Kazım Qarabəkir Paşanın (23.07.1882-26.01.1948) anadan olmasının 135 illiyi 228

Mədəniyyət.Maarif.Təhsil

Əməkdar elm xadimi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Rüstəmova Azadə Cəfər qızının (18.07.1932) anadan olmasının 85 illiyi 229

Coğrafiya. Geologiya

Geologiya-mineralogiya elmləri doktoru Abdullayev Zakir Bünyad oğlunun (14.07.1937) anadan olmasının 80 illiyi

Riyaziyyat. Fizika. Astronomiya

Akademik Şahtaxtinski Məhəmməd Həbibulla oğlunun (10.07.1932) anadan olmasının 85 illiyi 230

Kimya. Biologiya.Tibb

Kimyaçı alim, geologiya-mineralogiya elmləri doktoru, professor Əfəndiyev Heydər Xəlil oğlunun (01.07.1907-24.01.1967) anadan olmasının 110 illiyi

Tibb elmləri doktoru, professor İbrahimova Bilqeyis İsmayıl qızının (09.07.1917-09.07.1981) anadan olmasının 100 illiyi

Mikrobioloq, tibb elmləri doktoru, professor Bayramova Roza Əli qızının (17.07.1927) anadan olmasının 90 illiyi

Texnika. Mühəndis işi

Elektrotexnik, texnika elmləri doktoru, professor Qədimov Yaqub Bala oğlunun (20.07.1917) anadan olmasının 100 illiyi

Kitabxanaşünaslıq. Biblioqrafiya

Rus kitabşünası, biblioqraf Rubakin Nikolay Aleksandroviçin (13.07.1862-23.11.1946) anadan olmasının 155 illiyi 231

Tarixdə bu gün

Beynəlxalq İdman Jurnalistləri Günü (02.07.1995)

Azərbaycan Polisi Günü (02.07.1998)

Ağdərə şəhərinin və rayonun bir çox kəndlərinin işğalı günü (07.07.1993)

Ümumdünya Əhali Günü (11.07.1989)

Azərbaycan və Türkiyə arasında təmənnasız hərbi yardım haqqında saziş imzalanmışdır (13.07.2007)

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradılmışdır (13.07.2012)

Azərbaycanın milli valyutasının - manatın dövriyyəyə buraxılması barədə Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır (15.07.1992)

Milli Mətbuat və Jurnalistika Günü (22.07.1875) 232

Ağdam rayonunun işğalı günü (23.07. 1993) 233

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır (31.07.2002)

125 illiyi

Tağı Şahbazi Simurğ
1892-1937

Yazıçı, publisist

Ədəbiyyat

Seçilmiş əsərləri /Tağı Şahbazi Simurğ.- Bakı: Şərq-Qərb, 2006.- 168 s.

Qayçı: hekayə /Tağı Şahbazi Simurğ.- Bakı: Gənclik, 1998.- 16 s.

Zeynalova, Ş. Tağı Şahbazi Simurğ /Ş.Zeynalova.- Bakı: Yazıçı, 1997.- 118 s.

Abbaslı, T. "Ömür №37"lərdən...: ictimai - "şifahi" tale imtahanı həm də siyasi "alın yazılı" yazıçılardan... /T.Abbaslı //Mədəniyyət.- 2013.- 10 iyul.- S. 13.

Fərəcov, S. Mollaxanadan rektorluğa: Tağı Şahbazi Simurğ ədəbi təxəllüsünün daşıdığı mənaya uyğun olaraq mədəniyyət və maarif yolunda yorulmadan çalışıb /S.Fərəcov //Mədəniyyət.- 2014.- 2 iyul.- S.15.

İnternetdə

https://az.wikipedia.org/wiki/ Tağı_Şahbazi_Simurğ

https://ru.wikipedia.org/wiki/Шахбази,_Тагы_Аббас_оглы

Tağı Abbas oğlu Şahbazi (Tağı Şahbazi Simurğ) 1892-ci il iyul ayının 2-də Bakıda anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almış, 1902-1905-ci illərdə İçərişəhərdə 9 nömrəli məktəbdə, sonra Həbibbəy Mahmudbəyovun müdir olduğu birinci rus-tatar məktəbində təhsilini davam etdirmişdir.

Realnı məktəbi bitirdikdən bir il sonra 1913-cü ildə Bakıda Üçüncü Gimnaziyada latın dilindən imtahan verib şəhadətnamə almış, onun əsasında həmin il Xarkov Darülfünununun Fizika və riyaziyyat fakültəsinin Təbiyyat şöbəsinə daxil olmuşdur. Tələbəlik həyatı inqilabi hadisələr mühitində keçmişdir. 1914-cü ildə Darülfünununun Tibb şöbəsinə keçməsi onu inqilabçı tələbələrə daha da yaxınlaşdırmışdır.

O, 1915-ci ildə "Sosial-Demokrat Bolşevik Firqəsi"nin tələbə fraksiyasına daxil olmuşdur. 1917-ci ildə Bakıda "Hümmət" təşkilatında, 1918-ci ildə Xarkovda "Cənub türk-tatar işçisi" hərəkatında fəal iştirak etmişdir.

Tağı Şahbazi 1919-cu ildə Ukraynа K(b)P MK yanında "Hümmət" müsəlman bürosunun sədri, RSFSR Xalq Milli İşlər Komissarlığı Zaqafqaziya müsəlmanları şöbəsinin katibi, Şərq Xalqları Kommunist təşkilatları bürosunda məlumat şöbəsinin müdiri olmuşdur.

Simurq 1922-1923-cü illərdə Azərbaycan Xalq Maarif Komissarının müavini, "Maarif və mədəniyyət" jurnalının redaktoru, 1923-1926-cı illərdə Azərbaycan MİK katibi, 1926-1929-cu illərdə Azərbaycan Dövlət Universitetinin ilk azərbaycanlı rektoru, 1930-1937-ci illərdə Azərbaycan Xalq Səhiyyə Komissarının müavini vəzifələrində çalışmışdır.

T.Şahbazi fəal ictimai-pedaqoji fəaliyyətlə yanaşı, "Simurğ" təxəllüsü ilə bədii yaradıcılığı ilə də dövrün ədəbi mənzərəsində görünməyə başlamış, publisistik yazılarla mətbuatda çıxış etmişdir. Yaradıcılığı ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanan yazıçının "Quşlar kimi azadə", "İyi aləm", "Südçü qız", "Şəkərəli çoban", "Aclar" və s. hekayələrində istismar dünyası, dini fanatizm, xalqa yad "ziyalılar" tənqid olunmuşdur. "Haqsızlıq dünyası", "Hacı Salman", "Ağanın kənizi", "Məşədi Qədimin evində bədbəxtlik", "Azadlıq üçün cinayət", "Zərifə", "Küləkli bir axşam" və s. hekayələrində real həyat hadisələri öz əksini tapmışdır. "Ağanın kənizi" (1926), "Azadlıq üçün cinayət" (1928), "Aldanmış ümid" (1926), "Əzab qorxusu" (1926), "Seçilmiş əsərləri" (1983,2006) və s. kitabları çapdan çıxmışdır.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyininin üzvü olmuşdur.

Repressiya qurbanı olmuş Tağı Şahbazi Simurğ 1937-ci ildə güllələnmiş, 1956-cı il sentyabrın 25-də bəraət almışdır.

Bakı şəhərində küçələrdən biri onun adını daşıyır.

80 illiyi

Kəmalə Ağayeva 1937

Şairə

Kəmalə Ağa qızı Ağayeva 1937-ci il iyul ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. 2 saylı şəhər orta məktəbi bitirdikdən sonra, 1953-1957-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun fransız dili fakültəsində təhsil almışdır.

Kəmalə xanım 1957-1961-ci illər ərzində Naxçıvanın Şıxmahmud kənd orta məktəbində, Naxçıvan şəhəri 1 saylı orta məktəbdə fransız dili müəllimi işləmiş, sonralar C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ədəbi hissə müdiri, 2002-ci ildən "Ümid çırağı" jurnalının baş redaktoru olmuşdur.

Kəmalə Ağayeva hələ Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda oxuyanda şeir yazmağa başlamış və institutda fəaliyyət göstərən ədəbi dərnəyin fəal üzvü olmuşdur. "Hilal olaydım" adlı ilk mətbu şeiri 1957- ci ildə "Azərbaycan" jurnalında dərc edilmişdir. İlk kitabı 1961-ci ildə işıq üzü görən "Bahar sözü"dür. Sonralar müxtəlif illərdə "Gül yarpağı", "Sən olmasaydın", "Arpaçayın nəğməsi", "Daş piyalə", "Tanrıya heyranam mən", "Qönçələr" kimi kitabları nəşr olunmuşdur.

Kəmalə xanım həm də 15 mənzum pyesin müəllifidir. Onun dramaturgiyada ilk addımı görkəmli Azərbaycan şairəsi Məhsəti xanım Gəncəvi haqqında yazdığı, 1962-ci ildə tamaşaya qoyulan "Məhsəti" dramıdır. "İsmət", "Apardı sellər Saranı", "O, bizim dağların oğludur", "Mənim tanrım", "Göyçək Fatma", "Məlikməmməd" və s. səhnə əsərləri də müxtəlif teatrlarda müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Şairə 15 şeir kitabının, 200-ə qədər oçerk və bədii yazıların müəllifidir. Bir çox görkəmli fransız şairlərinin şeirlərini dilimizə çevirən mahir tərcüməçidir. O, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Kəmalə xanım Amerikaya səfərində sülh və dostluq mövzusunda oxudugu şeirlərinə görə sovet səfarətxanasında fəxri təşəkkürnamə almışdır.

Azərbaycan Ali soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1965), Naxçıvan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1964) və iki medalla təltif edilmişdir.

1971-ci ildən Teatr Xadimləri İttifaqının üzvüdür.

1984-cü ildə K.Ağayeva Azərbaycanın "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. Prezident təqaüdçüsüdür.

Fransada Azərbaycan günlərində (1984), Türkiyədə Yunis İmrə günlərində (1989-1990) iştirak etmişdir. Ümummilli lider Heydər Əliyevin Fərmanı ilə 2002-ci il 24 dekabrda Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Ağayeva Kəmalə Ağa qızı "Əməkdar incəsənət xadimi" fəxri adı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Qönçələr /K.Ağayeva; red. N.Məmmədli.- Bakı: Nurlan, 2005.- 170 s.

Məhsəti: pyeslər /Kəmalə Ağayeva.- İstanbul, 2001.- 418 s.

Vətənə sevdalıyam /Kəmalə Ağayeva.- Bakı: Nurlan, 2004.- 130 s.

Qələbə tonqalı: şeir /Kəmalə Ağayeva //Azad Azərbaycan.- 2010.- 4 aprel.- S.7.

Şirəliyeva, G. Şair-dramaturq Kəmalə Ağayevanın yaradıcılıq yolu: filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya /G.Şirəliyeva; Azərb. Resp. Təhsil Nazirliyi, Naxçıvan Dövlət Un-ti.- Naxçıvan, 2012.- 143 s.

İ n t e r n e t d ə

http://www.aqra.az/index.php/az/elm/dbiyyat/634-kaemalae-kaemalae-azhha-zh-z-azhhayeva-1937

215 illiyi

Aleksandr Düma (Ata) 1802-1870

Fransız yazıçısı

Ə d ə b i y y a t

Qafqaz /A.Düma; ədəbi red. Q.Paşayev; ön söz. B.Nəbiyev; tərc. ed. Ş.Zamanlı; Qafqazın Strateji Tədqiqatlar İnstitutu.- Bakı: Qafqaz, 2010.- 495, [1] s., [28] v.

Qafqaz səfəri /A.Düma; frans. tərc. ed. Q.Paşayev, H.Abbasov.- [Bakı]: [Qanun], [Əli və Nino], [2014].- 192 s.

Qraf Monte-Kristo: roman /Aleksandr Düma.- Bakı: Altun Kitab, 2008.- 127 s.

Üç muşketyor /A.Düma ; tərc. ed. M.Rzaquluzadə, B.Musayev.- [Bakı]: [Qanun], [Əli və Nino], 2011.- 684 s.

Три мушкетера: роман /А.Дюма.- СПб.: Издательский Дом "Нева", 2006.- 830 с.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/azerbaycan/2010/avqust/130642.htm

https://az.wikipedia.org/wiki/Aleksandr_D%C3%BCma

Aleksandr Düma (Ata) 1802-ci il iyul ayının 24-də Paris şəhərinin yaxınlığındakı Villa-Kortre şəhərciyində anadan olmuşdur

Yazıcı əmək fəaliyyətinə notariat kontorda xidmətlə başlamış, lakin bu iş onu qane etmədiyindən meylini teatra salmışdır. Teatra maraq onun ədəbi fəaliyyətinin başlanğıcını müəyyənləşdirmiş və o, yaradıcılığa 1825-ci ildə dramaturq kimi başlamışdır. "III Henrix və onun sarayı" (1829), "Antoni" (1831), "Nel qülləsi" (1832), "Kin" (1836) pyesləri romantik teatr tarixində mühüm yer tutur.

Dümanı məşhurlaşdıran "Üç muşketyor" (1844), "İyirmi ildən sonra" (1845), "Vikont de Brajelon" (1848-1850), "Kraliça Marqo" (1845), "Xanım Monsoro" (1846), "Qırx beş" (1847-1848), "Qraf Monte-Kristo" (1845-1846) tarixi macəra romanları olmuşdur. Yazıçının romanları maraqlı və dinamik süjet xəttinə malikdir. Romanlarda olan qəhrəmanlar nikbin, cəsur və hər cür maneələri dəf etməyə qadirdirlər. Bunlar Aleksandr Dümanın yaradıcılığına dünya şöhrəti qazandırmışdır.

Aleksandr Düma 1858-ci ildə Rusiyada, Qafqazda, o cümlədən Tbilisidə və Bakıda olmuş, bu münasibətlə "Parisdən Həştərxana" və "Qafqaz" kitablarını nəşr etdirmişdir. Ehtimala görə, Tbilisidə Mirzə Fətəli Axundovla görüşmüşdür. O, həm də Şamaxının ən məşhur, varlı adamlarından olan Mahmud ağanın qonağı olmuşdur. Yazışı Bakıda Xurşidbanu Natəvanla görüşmüş və şairə öz əli ilə tikdiyi , milli naxışlarla bəzədilmiş tütün torbasını Dümaya hədiyyə vermişdir. Fransız ədibinin bu səyahətdən aldığı təəssüratın məhsulu olan "Qafqaz" kitabında Bakının tarixi və mədəni abidələrindən, Bakı neftindən, azərbaycanlıların adət-ənənələrindən, qonaqpərvərliyindən geniş bəhs olunur.

Ədibin "Üç muşketyor" (2004), "Qraf Monte-Kristo" (2009) romanları Azərbaycan dilinə tərcümə edilmiş, "Qanlı qala" pyesi Azərbaycan səhnəsində tamaşaya (1924) qoyulmuşdur.

Yazıçı həyatda çox bədxərc insan olmuş, nəticədə müflisləşmişdir. Ağır vəziyyəti və dalınca düşən kreditorlar onu Belçikaya qaçmaq məcburiyyətində qoymuşdur. Bu vəziyyətdə ikən övladları – qızı və məşhur dramaturq olan oğlu Aleksandr Düma ona dayaq olmuşlar.

Aleksandr Düma 1870-ci il dekabr ayının 5-də vəfat etmiş, Villers-Koteretsdə dəfn edilmişdir.

90 illiyi

Tokay Məmmədov 1927

Heykəltəraş

Tokay Həbib oğlu Məmmədov 1927-ci il iyul ayının 18-də Bakıda anadan doğulmuşdur. Atası Həbib Qurban oğlu Məmmədov texniki elmlər doktoru, anası Zivər xanım isə Azərbaycanın ilk qadın heykəltəraşı olmuşdur. İlk təhsilini anasından alan balaca Tokay həmişə Zivər xanımla bərabər emalatxanaya gələrək rəngli plastilindən müxtəlif fiqurlar düzəldərdi. 1942-ci ildə yeddinci sinfi bitirdikdən sonra Tokay Məmmədov Bakı Rəssamlıq Məktəbinə imtahan vermişdir. O zaman Bakı Rəssamlıq Məktəbinin nəzdində heykəltəraşlıq şöbəsi yenicə təşkil edilmişdi və Tokay bilavasitə ilk milli heykəltəraşımız F.Əbdürrəhmanovdan dərs almağa başlamışdır. 1945-ci ildə Tokay Məmmədov Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin üçüncü kursunu bitirərək Leninqrad şəhərinə getmiş və İ.E.Repin adına Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsinə qəbul olmuşdu. Ali təhsil aldığı dövrdə, yəni 1947-ci ildə o, uşaq vaxtlarından yaxşı tanıdığı Azərbaycanın xalçaçı rəssamı Lətif Kərimovun portret büstünü hazırlamışdır. Tokay Məmmədov ali təhsilini bitirdikdən sonra Leninqradda heykəltəraş kimi işə başlamış və Leninqrad Rəssamlar İttifaqının üzvü seçilmişdir.

Heykəltəraş Bakıya qayıtdıqdan sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətə başlayaraq gənc rəssamlara həm rəsm, həm də heykəltəraşlıqdan dərs deyərək onlara sənətin sirlərini öyrətmişdir.

Heykəltəraş Tokay Məmmədovun yaratdığı portretlər qalereyasında mərmər, tunc, gips materiallardan yüzlərlə portret mövcudur ki, bu cür materiallarda sənətkar birinci növbədə xarici görünüşlə yanaşı, daxili psixoloji keyfiyyətləri də göstərməyə müvəffəq olmuşdur.

Bu qəbildən onun "Üzeyir Hacıbəyov", "Rüstəm Mustafayev", "Vəcihə Səmədova", "Süleyman Rəhimov", "Friderik Şopen" və "Volfqanq Amadey Motsart", ağac materialdan hazırladığı şairlərin, dövlət xadimlərinin və sadə əmək adamlarının portretlərini qeyd etmək olar.

Heykəltəraş həmçinin monumental sahədə Azərbaycan şairi "İmaməddin Nəsimi", "Səməd Vurğun", "Füzuli", Mir Möhsün Nəvvabın və Bülbülün qəbirüstü abidələrini yaratmışdır. T.Məmmədov uzun müddət xalq dastanımızın qəhrəmanı Koroğlunun obrazı üzərində işləmişdir.

Uzun illər SSRİ Rəssamlar İttifaqı İdarə heyətinin üzvü, Azərbaycan Rəssamlar İttifaqının sədri və Ali Sovetin deputatı kimi yüksək vəzifələrdə çalışan Tokay Məmmədov, Ümumittifaq Attestasiya Komitəsi tərəfindən təsdiq edilən ilk heykəltəraşlıq professorudur.

Tokay Məmmədov 1978-ci ildə SSRİ Dövlət mükafatına, 1982-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüş, "Əməkdar incəsənət xadimi", Respublikanın "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, "Şərəf nişanı", "Xalqlar dostluğu", 2002-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Heykəltəraş Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında yetişən gənc heykəltəraşlara sənətin sirlərini öyrədir.

Ədəbiyyat

Abdullayeva, F. Adi daş sənət əsərinə çevriləndə /F.Abdullayeva // Mədəniyyət.- 2011.- 18 fevral.- S.11.

Məsud, R. Sənət incilərini həqiqətin işığında canlandıran sənətkar: Xalq rəssamı Tokay Məmmədov haqqında /R. Məsud//Səs.- 2013.- 24 iyul.- S.12.

Sadıqov, S. Daşlarda canlanan həyatın yaradıcısı /S.Sadıqov //Kaspi.- 2008.- 6 iyun.- S.12.

Şeyxov, Y. Qranitdə donan musiqi: Tokay Məmmədov - 80 /Y.Şeyxov //Mədəniyyət.- 2007.- 13 iyul.- S.3.

İnternetdə

https://az.wikipedia.org/wiki/

55 illiyi

Ramiz Qənbərov 1962-1992

Milli Qəhrəman

Ramiz Bulud oğlu Qəmbərov 1962-ci il iyul ayının 2-də Şuşa şəhərində anadan olmuşdur.

1979-cu ildə H.Hacıyev adına Şuşa şəhər orta məktəbini bitirmişdir. 1980-ci ildə hərbi xidmətə çağırılmış, 1982-ci ildə ordudan tərxis olunaraq Şuşaya qayıtmışdır. 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuş, amma təhsilini başa çatdıra bilməmişdir.

Erməni təcavüzkarlarının başladığı Qarabağ müharibəsi minlərlə qeyrətli Azərbaycan oğulları kimi Ramiz Qəmbərovu da torpaqlarımızın müdafiəsinə qalxmağa məcbur etmişdir. Ramiz 1988-ci ildən xalq hərəkatına qoşulmuş, 1992-ci ildə könüllü özünümüdafiə batalyonu yaratmışdır. Onun taboru Şuşa şəhərinin, Kərkicahan, Kosalar, Nəbilər, Qaybalı, Malıbəyli, Quşçular, Göytala kəndlərinin müdafiəsində mərdliklə vuruşmuşdur.

29 aprel 1992-ci ildə erməni işğalçıları Kosalar və Kərkicahan kəndləri yaxınlığındakı postlara hücum edən zaman Ramiz Qəmbərovun taboru döyüşə atılmış və bu döyüşdə cəsur komandir ağır yaralanmışdır. Bir gün sonra 30 aprel 1992-ci ildə dünyasını dəyişmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Qəmbərov Ramiz Bulud oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ramiz Qəmbərov Şuşa şəhərində dəfn edilmişdir.

Qəhrəmanın xatirəsi əbədiləşdirilmiş – Bakı şəhərindəki küçələrdən birinə onun adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qəmbərov Ramiz Bulud oğlu– sıravi – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il//Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- №13.- S.25.- (ölümündən sonra).

Əsgərov, V. Qəmbərov Ramiz Bulud oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı , 2005.- S.118.

Nazim, N. Qəmbərov Ramiz Bulud oğlu //Nazim N. İstiqlal ulduzları.- Bakı, 1995.- S.93-95.

Seyidzadə, M. Qəmbərov Ramiz Bulud oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.121.

60 illiyi

Tahir Bağırov 1957-1992

Milli Qəhrəman



Tahir Əminağa oğlu Bağırov 1957-ci il iyul ayının 14-də Türkmənistan Respublikasının Krasnovodsk (indiki Türkmənbaşı) şəhərində anadan olmuşdur. Milliyyətcə azərbaycanlıdır. Əli Bayramlı şəhərində 1974-cü ildə 8-ci sinfi bitirmiş, həmin ildə sürücülük sənətinə yiyələnmişdi. 1977-ci ilin may ayından 1979-cu ilin sentyabr ayınadək keçmiş Sovet ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra Azneft-1 istehsalat birliyində İES-də nəqliyyat sexində işləmişdir.

Tahir Bagırov Milli Ordu hissələri təşkil edilməyə başlananda onun sıralarına qoşulmuşdur. 1992-ci ilin 1 mart tarixində 843-cu hərbi hissənin komandirinin əmri ilə Tahir təlim komandirinin müavini təyin olunmuş, sonra isə Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin Mİ-24 helikopterində bort atıcısı vəzifəsinə keçirilmişdi. Qarabağda Ermənistan ekspedisiya korpusuna qarşı keçirilən hərbi əməliyyatlarda iştirak etmişdir.

1992-ci il 11 oktyabrda gedən döyüşlərdə baş çavuş T.Bağırov qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 9 fevral 1993-cü il tarixli Fərmanı ilə Tahir Əminağa oğlu Bagırova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Şirvan şəhərində yaşadığı küçəyə və 11 saylı orta məktəbə qəhrəmanın adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Bağırov Tahir Əminağa oğlu – baş serjant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il//Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1993.- №3.- S.11.- (ölümündən sonra).

Bağırov Tahir Əminağa oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.40-41.

Əsgərov, V. Bağırov Tahir Əminağa oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.34.

Əyyubova, B. Üç səma qartalından biri //Əyyubova B. Qızıl qan.- Bakı , 1997.- S.3-5.

Faxralı, R. Tahir Bağırov //Faxralı R. Ömrün üfüqləri.- Bakı , 1996.- S.119-120.

Seyidzadə, M. Bağırov Tahir Əminağa oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010. - S. 37.

Zeynalov, R. Bağırov Tahir Əminağa oğlu: (1957-1992) //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S. 14.

50 illiyi

Sərxan Ocaqverdiyev
1967-1992

Milli Qəhrəman

Sərxan Surxay oğlu Ocaqverdiyev 1967-ci il iyul ayının 16-da Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 1985-ci ildə Tatarlı kənd orta məktəbini bitirdikdən sonra Xabarovsk şəhərində hərbi xidmətdə olmuşdur. 1988-ci ildə hərbi xidmət borcunu yerinə yetirib Vətənə dönmüş və Gəncə Maşınqayırma Texnikumuna daxil olmuşdur. 1991-ci ildə təhsilini uğurla başa vurub, Gəncə Maşınqayırma Zavodunda əmək fəaliyyətinə başlamışdır.

10 yanvar 1992-ci ildə Goranboy özünümüdafiə batalyonuna üzv yazılmış, Şəfəq, Zeyvə, Tap-Qaraqoyunlu kəndlərinin müdafiəsi zamanı qanlı döyüşlərdə iştirak etmişdir. Sərxan Ocaqverdiyev az müddətdə düşmənin xeyli canlı qüvvəsini məhv edərək, əsl Azərbaycan əsgəri kimi yüksək döyüş nümunəsi göstərmişdir.

Goranboyun Talış kəndi ermənilərə ərazicə ən yaxın kənd hesab olunurdu. Onlar bu kəndə aramsız hucumlar edirdilər. Lakin Goranboyun mərd oğulları sinələrini düşmənin qarşısında sipərə çevirmişdilər.

5 may 1992-ci il... Erməni faşistləri növbəti dəfə Talış kəndinə hucuma keçdilər. Qeyri-bərabər döyüş gedirdi. Vətənin qeyrətli oğlu Sərxan Ogaqverdiyev bu qanlı döyüşdə qəhrəmancasına həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci tarixli 833 saylı Fərmanı ilə Ocaqverdiyev Sərxan Surxay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Goranboy rayonunun Şəfikürd kəndində dəfn edilmişdir.

Təhsil aldığı Tatarlı kənd orta məktəbi qəhrəmanın adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Mudafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında : [Ocaqverdiyev Sərxan Surxay oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlü- yünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il//Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- № 13.-S.25.- (ölümündən sonra).

Quliyeva, N. Ocaqverdiyev Sərxan Surxay oğlu //Quliyeva N. Ölməzliyə gedən yol.- Bakı, 1996.- S.7.

Ocaqverdiyev Sərxan Surxay oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.176.

Seyidzadə, M. Ocaqverdiyev Sərxan Surxay oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010. - S.181.

65 illiyi

Asif Məhərrəmov 1952-1994

Milli Qəhrəman

Asif Yusif oğlu Məhərrəmov 1952-ci il iyul ayının 26-da Ağdam şəhərində doğulmuşdur. 1969-cu ildə Ağdam şəhər 1 saylı orta məktəbini bitirmişdir.

Ermənilərin 1988-ci ildə başlayan təcavüzünə qarşı Ağdam rayonunun Abdal-Gülablı, Xıdırlı, Əmirallar, Şırxavənd, Bağbanlar, Əhmədavar kəndlərində dayaq dəstələri yaradılırdı. 1990-cı ildə Ağdam könüllü özünümüdafiə dəstəsini yaratmış və torpaqlarımızın qorunmasında yaxından iştirak etmişdir.

1991-ci il dekabrın 31-də Xramort kəndinin azad edilməsində rəşadət göstərmiş, Xocalı faciəsi zamanı uşaq və qadınların xilas olunmasında canını əsirgəməmişdir.

A.Məhərrəmov 1992-ci ilin mart ayının 7-də 859 saylı hərbi minaaxtaranlar hissəsinin komandiri təyin edilmişdi.

10 mart 1992-ci ildə məhz onun köməyi nəticəsində Aranzəmin, Pircamal, Dəhraz kəndləri düşməndən azad olunmuşdur. 1992-ci il martın 20-də öz dəstəsi ilə kömək etmək üçün Füzuli rayonuna getmiş və erməni quldurlarını böyük itkilərə məruz qoymuşdur. 24 iyun 1992-ci ildə Naxçıvanik yolunda ağır yaralanmış, bir müddət müalicə olunaraq yenidən cəbhəyə qayıtmışdır. 1993-cü il fevralın 22-də Şelli uğrunda gedən döyüşlərdə iştirak etsə də, 1993-cü il oktyabrın 27-də səhhəti ağırlaşmışdır. O, hərbi hissəni təhvil verib müalicəsini davam etdirmək məcburiyyətində qalmışdır. 1994-cü ildə bu məqsədlə Yaltaya gedən polkovnik-leytenant A.Məhərrəmov həmin il iyulun 1-də vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Məhərrəmov Asif Yusif oğluna (Fred Asif)"Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. "General Məhəmməd Əsədov" mükafatına layiq görülmüşdür.

Bakı şəhəri 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bakı şəhərində adına küçə var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məhərrəmov Asif Yusif oğlu – taqım komandiri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 24.- S.50.- (Ölümündən sonra).

Çəmənli, M. Fred Asif: Azərbaycanın Milli Qəhrəmanı podpolkovnik Asif Məhərrəmova həsr olunmuş sənədli povest /Mustafa Çəmənli.- Bakı: Gənclik, 1996.- 172 s.

Abbasoğlu, B. Od sönər, ad yox... //Abbasoğlu B. Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S. 54-72.

Məhərrəmov Asif Yusif oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.133.

Seyidzadə, M. Ocaqverdiyev Sərxan Surxay oğlu //Seyidzadə, M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010. - S. 153.

Zeynalov R. Məhərrəmov Asif Yusif oğlu (Fred Asif) //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- B., 1996.-S. 48.

60 illiyi

Fəxrəddin Musayev 1957-1992

Milli Qəhrəman

Fəxrəddin Musa oğlu Musayev 1957-ci il iyul ayının 30-da Türkmənistan Respublikasının Bayraməli şəhərində anadan olmuşdur. 1964-cü ildə məktəbə getmiş, 1974-cü ildə orta təhsilini başa vurmuşdur. Qorki Politexnik İnstitutunun gəmiçilik fakültəsinə qəbul olunmuşdur. 1975-ci ildə ordu sıralarına göndərilmişdir. Hərbi xidmətini əvvəlcə Çexoslovakiyadakı Şimal Qoşun Qrupunda, sonra isə Orenburq vilayətinin Orsk şəhərində keçmişdir. Ordu sıralarından tərxis edildikdən sonra, Bakı Məişət Kondisionerləri Zavodunda işləmişdir. 1979-cu ildə Sasovski adına Mülki Aviasiya Məktəbinə daxil olmuşdur. 1982-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirib, təyyarələrin uçuş istismarı ixtisasına yiyələnmişdir. Bakıya qayıdıb, Zabrat-2 Aviasiya İdarəsində öz ixtisası üzrə işə başlamışdır. 1987-ci ildə Kremençuk Hava Uçuş Məktəbində vertolyotun idarə edilməsi ixtisasına yiyələnmişdir. İşləyə-işləyə Leninqrad Hidrometerologiya İnstitunun meterologiya fakültəsinə daxil olmuşdur. Artıq Milli Ordu yarandıqdan sonra, o, təhsilini yarımçıq qoyaraq, Hərbi Hava Qüvvələrində xidmətə başlamışdır. Qarabağda keçirilən hərbi əməliyyatlarda fəal iştirak etmişdir. Dəfələrlə döyüş bölgələrinə uçuşlar etmiş, erməni yaraqlılarına qarşı mərdliklə döyüşmüşdür. 1992-ci il aprel ayının 11-də baş leytenant Fəxrəddin Musayev Füzuli rayonu ərazisində düşmənə raket zərbələri endirərkən faciəli surətdə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Musayev Fəxrəddin Musa oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhramanı" fəxri adına layıq görülmüşdür.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Qusar rayonundakı mərkəzi küçələrdən biri qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Musayev Fəxrəddin Musa oğlu – baş leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Musayev Fəxrəddin Musa oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S152-153.

Faxralı, R. Şəhid pilotlar //Faxralı R. Ömrün üfüqləri.- B., 1996.- S. 94.

Musayev Fəxrəddin Musa oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.152-153.

Seyidzadə M. Musayev Fəxrəddin Musa oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.165.

55 illiyi

Nadir Əliyev
1962-1993

Milli Qəhrəman

Nadir Alış oğlu Əliyev 1962-ci il iyul ayının 30-da Ağdam rayonunun Əliağalı kəndində anadan olmuşdur. 1977-ci ildə Əliağalı kənd orta məktəbinin səkkizinci sinfini bitirmiş, ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Elə həmin il Bakı Politexnik Texnikumuna daxil olmuşdur. 1981-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmiş, az sonra hərbi xidmətə çağırılmışdır.

1983-cü ildə əsgəri xidmətini Qazaxıstanın Leninsk şəhərində başa vurub, Bakı Tunel Tikinti İdarəsində əmək fəaliyyətinə başlamışdır. Bir il tikintidə çalışdıqdan sonra 1984-cü ildə sənədlərini Bakı Dövlət Universitetinə vermiş və hüquq fakültəsinə daxil olmuşdur. 1986-cı ildə bir neçə tələbə ilə birlikdə Moskva DTK-nın Dzerjinsk adına Ali Hərbi Məktəbinə göndərilmiş, 1991-ci ildə təhsilini əla qiymətlərlə başa vurub Bakıya dönmüşdür. Yüksək biliyini, təcrübəsini nəzərə alaraq, onu Milli Təhlükəsizlik Nazirliyinə işə qəbul edirlər. O, burada işləyə-işləyə BDU-da yarımçıq qalmış təhsilini də başa çatdırmışdır.

1993-cü ilin yanvar ayından MTN Ağdam Rayon Şöbəsinə baş əməliyyat müvəkkili vəzifəsinə təyin olunmuşdur. Öz xahişi ilə onu döyüş bölgəsinə göndərirlər. Nadir Əliyev baş əməliyyat müvəkkili kimi Ağdam, Şuşa, Ağdərə, Ağcabədi rayonlarında əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün əlindən gələni əsirgəmirdi. Ağdərə uğrunda gedən döyüşlərin qızğın dövründə N.Əliyev könüllü olaraq cəbhə bölgəsinə ezam olunması barədə raportla müraciət etmiş, MTN-nin xüsusi təyinatlı hərbi dəstəsinin tərkibində Ağdərə rayonunun Sırxavənd kəndində gedən döyüşlərdə şəxsi rəşadət göstərmiş, Ağdam rayonunun Qiyaslı kəndi uğrunda gedən döyüşlərdə düşmənə əsir düşməmək üçün sonadək müqavimət göstərmiş və qəhrəmancasına həlak olmuşdur. O, ana yurdu Ağdamın qoynunda əbədiyyətə qovuşdu.

Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 1994-cü il tarixli 218 saylı Fərmanı ilə Əliyev Nadir Alış oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhramanı" fəxri adına layıq görülmüşdür.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Suraxanı rayonundakı 282 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularına Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında:[Əliyev Nadir Alış oğlu – baş leytenant – Azərbaycan Respublikası suverenliyinin və ərazi bütövlüyünün qorunmasında,Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə,öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 oktyabr 1994-cü il //Azərbaycan Ordusu.- 1994.- 11 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əliyev Nadir Alış oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.61-62.

Əsgərov, V. Əliyev Nadir Alış oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.86-87.

Seyidzadə, M. Əliyev Nadir Alış oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.64.

90 illiyi

Valeh Bərşadlı 1927-1999

Hərbi xadim

Valeh Əyyub oğlu Bərşadlı 1927-ci il iyul ayının 6-da Qubadlı rayonunun Eyvazlı kəndində dünyaya gəlmişdir. On yaşı olanda atası "xalq düşməni" damğası ilə doğma yer-yurdlarından sürgün olunmuşdur. 14 yaşında könüllü hərbi xidmətə getmək istəmiş, ancaq yaşı çatmadığı üçün geri qaytarılmışdır. Bakı Dəmir Yol Texnikumuna daxil olaraq tələbəlik dövrünə qədəm qoymuşdur. 18 yaşında hərbi xidmətə çağırılmış, oradan da birbaşa, 1944-cü ildə Bakı Zenit Artilleriyası Məktəbinə daxil olmuşdur. Məktəb Ukrayna Respublikasına köçürüldüyündən, təhsilini orada davam etdirmiş və 1948-ci ildə Qırmızı Bayraqlı Kiyev Özüyeriyən Artilleriyası Məktəbini bitirmişdir. İlk xidmət yeri Belarusda olub. Sonralar Moldovada, daha sonralar Cəmşid Naxçıvanski adına hərbi məktəbə təyinat almışdır. Azərbaycana gəlməmişdən öncə Almaniyada sovet hərbi kontingentində komandanın birinci müavini olmuş, 1956-cı ildə Zirehli Tank Qoşunları Akademiyasının komandirlik fakültəsini bitirmişdir.Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra, onun təkidi ilə Bakıya gəlmişdir.

1969-cu ildə Sovet ordusunda xidmət edən ilk azərbaycanlı zabit kimi SSRİ Silahlı Qüvvələri Baş Qərərgahının Hərbi Akademiyasını bitirmişdir.

Valeh Bərşadlı 50 yaşında Sovet ordusunda general-leytenant rütbəsi almış ilk azərbaycanlıdır. 43 il SSRİ Silahlı Qüvvələrində xidmət etmiş, tağım komandirliyindən ən nəhəng ordulardan – Almaniya Demokratik Respublikasında yerləşən Sovet qoşun birləşmələrindən birinin müavinliyinə qədər yüksəlmişdir.

Müstəqil Azərbaycanın 1991-ci ildə ilk Müdafiə naziri olmuşdur. 1992-ci ildə tutduğu vəzifədən istefa vermişdir. Elə həmin ildə də xüsusi səlahiyyətlə Silahlı Qüvvələrin Baş Qərargah rəisi təyin olunmuş və Azərbaycan tarixində ilk müvəffəqiyyətli Goranboy və Ağdərə əməliyyatlarını həyata keçirmişdir.

Ömrünün sonuna kimi Cəmşid Naxçıvanski adına hərbi liseyin rəisi vəzifəsimdə çalışmışdır.

Valeh Əyyub oğlu Bərşadlı göstərdiyi xidmətlərinə görə 12 orden və medalla təltif olunmuşdur.

Azərbaycanın Tank Qoşunları general-mayoru Valeh Əyyub oğlu Bərşadlı 1999-cu il may ayının 15-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Mən hamıya demək istəyirəm – sizin generallarınız azərbaycanlıdır... : [Naxçıvanski adına Hərbi məktəbin rəisi, general-leytenant Valeh Bərşadlı ilə müsahibə] /Valeh Bərşadlı //Aydınlıq. - 1993 .- 23 aprel.- S. 7.

Müdafiə Nazirliyindən uzaqlaşdırılmağım ermənilərin çox xoşuna gəldi /Valeh Bərşadlı //Azərbaycan.- 1993.- 9 oktyabr.- S.4.

Qurbani, A. Ömrün davamı: sənədli povest /A.Qurbani.- Bakı: Əbilov, Zeynalov və oğulları, 2000.- 124 s.

530 illiyi

Şah İsmayıl Xətai 1487-1524

Dövlət xadimi



Əbül-Müzəffər İsmail ibn Heydər əs-Səfəvi (Şah İsmayıl Xətai) 1487-ci il iyul ayının 17-də Ərdəbil şəhərində anadan olmuşdur. O, Şeyx Səfiəddin nəslindəndir, atası Şeyx Heydər, anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah bəyimdir.

1488-ci ildə atası Şeyx Heydər döyüşdə öldürüldükdən sonra, İsmayıl anası və qardaşları – Sultanəli və İbrahim ilə birlikdə İstəxr qalasında (Şiraz) həbsdə saxlanılır. Uzun Həsənin oğlu Rüstəm Mirzə hakimiyyət uğrunda mübarizədə 1495-ci ildə onun qardaşı Şeyx Sultanəlini öldürtdürür. Gizli Gilana gətirilən yeddi yaşlı İsmayıl Həsən xanın himayəsi altında Lələ Hüseyn tərəfindən tərbiyə olunur. İsmayıl təqribən 6 il burada qalaraq, tanınmış əmir və alimlərin rəhbərliyi altında özünün dini, dünyəvi və hərbi təlimlərini davam etdirir.

Şah İsmayıl Xətai 1499-cu ilin avqust ayında, 13 yaşında özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan bir neçə qızılbaş tayfa başçısı ilə birlikdə qoşun toplamaq üçün Ərdəbilə yollanmış, ancaq şəhər hakimi tərəfindən təqib olunmuşdur. O, 1500-cü ilin yazında şamlı və rumlu tayfalarından, habelə Qaradağ və Talış əhalisindən ona qoşulmuş 2 minə yaxın qızılbaşla Qarabağ, Çuxursəd, Şuragil, Kağızman, Tərcan yolu ilə Ərzincana gəlmiş, 7 min nəfərlik tərəfdarı ilə 1500-cü ilin axırlarında Şirvana hücum etmişdir. Şamaxını, 1501-ci ilin baharında Bakını ələ keçirmişdir. 1501-ci ilin payızında Təbrizə daxil olan İsmayıl özünü şah elan etmişdir. Bununla da paytaxtı Təbriz olan Azərbaycanda Səfəvilər dövlətinin əsası qoyulmuşdur.

Eyni zamanda klassik Azərbaycan şairidir. Bədii əsərlərini "Xətai" və ya "Xətayi" təxəllüsü ilə yazmışdır. İsmayıl Xətai az yaşamasına, vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq zəngin və çoxcəhətli bir irs yaratmışdır. O, həm əruz, həm də heca vəznində, həm epik, həm də lirik janrlarda qələmini işlətmiş, yaddaqalan, nümunə, örnək ola bilən əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir. Xətainin çoxcəhətli poeziyasında epik əsərlər də mühüm yer tutur. Onun "Nəsihətnamə" məsnəvisi və "Dəhnamə" poeması epik şeirin qiymətli nümunələridir. Şairin irsi sonrakı dövrlərin ədəbiyyatı üzərində dərin izlər buraxmışdır. Füzuli kimi dahi sənətkar Xətainin bir sıra şeirlərinə cavab yazmış, ilk böyük əsəri olan "Bəngü Badə"ni ona ithaf etmişdir. Görkəmli el sənətkarı, hökmdar şairin müasiri Aşıq Qurbani onu "Mürşidi-kamilim, şeyx oğlu şahim" deyə tərənnüm etmişdir. Müslüm Maqomayev "Şah İsmayıl" adlı opera bəstələmişdir. Yazıçı Ə.Cəfərzadənin "Bakı-1501", F.Kərimzadənin "Xudafərin körpüsü", Ə.Nicatın "Qızılbaşlar" romanları və bir sıra bədii əsərlər son illərdə Şah İsmayıl Xətainin həyatı və şəxsiyyətinə olan güclü marağın ifadəsi kimi meydana çıxmışdır.

Şah İsmayıl Xətai 1524-cü il may ayının 23-də Cənubi Azərbaycanın Ərdəbil şəhərində vəfat etmişdir. Şeyx Səfi kompleksində dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Şah İsmayıl Xətai.- Bakı: Oka Ofset, 2005.- 342 s.

Külliyyatı: qəzəllər, qəsidələr, nəsihətnamə, dəhnamə, qoşmalar /Şah İsmayıl Xətai.- Bakı: Əlhudə, 2004.- 534 s.

Qasımlı, M. Şah İsmayıl Xətainin poeziyası /M.Qasımlı.- Bakı: Elm, 2002.- 176 s.

Şah İsmayıl Xətai: məqalələr toplusu /Azərb. SSR Elmlər Akad. Nizami ad Ədəbiyyat İn-tu; red. A. Rüstəmova, O. Əfəndiyev.- Bakı: Elm, 1988.- 236, [4] s.

Elbar. Şah İsmayıl Xətai və Azərbaycan dövlətçiliyi /Elbar //Təzadlar.- 2013.- 17 dekabr.- S.11.

Məmmədova, G. "Vəhdət gülüzarının bülbülü...": Xətai özünü belə adlandırırdı /G.Məmmədova //Hərbi and.- 2006.- 16 iyul.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/%C5%9Eah_%C4%B0smay%C4%B1l_X%C9%99tai

80 illiyi

Elmira Süleymanova 1937

Elmira Teymur qızı Süleymanova 1937-ci il iyul ayının 17-də Bakı şəhərində anadan olmuşdur. 1944-1954-cü illərdə Bakı şəhərindəki 134 saylı orta məktəbdə oxumuş,1955-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra AMEA-nın Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda laborant, kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır.

1967-ci ildə kimya elmləri namizədi, 1980-ci ildə elmlər doktoru elmi dərəcələri almış, 1982-ci ildə isə professor adına layiq görülmüşdür. 3 elmlər doktoru, 15 elmlər namizədi yetişdirmişdir. Elmira xanım Neft-kimya sintezi və incə üzvi sintez üzrə mütəxəssisdir. 200-dən çox elmi məqalənin, 40 ixtiranın müəllifidir.

Elmira Süleymanova 30-dan artıq beynəlxalq konfransın iştirakçısı olmuş, müxtəlif ölkələrdə keçirilmiş 7 neft kimyası və 5 aroma-simpoziumda elmi məruzələrlə çıxış etmişdir.

Azərbaycanda BMT-nin iqtisadi və sosial şurası ilə xüsusi məsləhətçi statusu olan yeganə qeyri-hökumət təşkilatı - Azərbaycan Qadın və İnkişaf Mərkəzinin yaradıcısı və prezidentidir. 30-dan çox beynəlxalq konfransda, BMT-nin Baş Assambleyasının 5 xüsusi sessiyasında iştirak etmişdir.

Elmira xanım 1998-ci ildə "100 qəhrəman qadın" siyahısına düşmüşdür. Haqqında beynəlxalq "Kim kimdir" (İngiltərə, Kembric) kitabında məlumat verilmişdir. İstedadlı alim Elmira Süleymanova kimya elmının inkişafında, yüksəkixtisaslı kadrların hazırlanmasındakı nailiyyətlərinə görə 1979-cu ildə SSRİ-nin "Fəxri kimyaçısı", ətriyyat, qida və lak-boya sənayesində tətbiq olunmuş ixtiralara görə "SSRİ ixtiraçısı", akademik Y.H.Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

2 iyul 2002-ci ildə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə ilk müvəkkili (ombudsman) secilmişdir. 2010-cu ildə təkrarən yeni müddətə seçilmişdir. Dinlərarası və Beynəlxalq Dünya Sülh Federasiyası tərəfindən 2005-ci ildə "Sülhməramlı səfir" fəxri adı verilmişdir. Bu mükafat dinlərarası əməkdaşlığa, beynəlxalq mənəvi dəyərlərə, BMT-nin gücləndirilməsinə, sülh mədəniyyətinin yaradılmasına yardımçı olan şəxslərə təqdim edilir. 2003-cü ildə ABŞ-ın Mədəni Konvensiya qurumu tərəfindən Beynəlxalq Sülh Mükafatı ilə təltif olunmuşdur. Ombudsman bu mükafata insan haqlarının qorunması və həyata keçirilməsi sahəsində səmərəli fəaliyyətinə, insanlıq harmoniyasının yaradılmasında xidmətlərinə görə layiq görülmüşdür.

Keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən, "Şərəf nişanı" ordeni və "Əmək veteranı" medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 16 iyul tarixli Sərəncamı ilə insan hüquqlarının qorunması sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat

Elmira Süleymanova: "Biz gələcəyə inamla baxırıq" /E.Süleymanova; müsahibəni apardı S.Mürvətqızı //525-ci qəzet.- 2012.- 21 sentyabr.- S. 5.

Müstəqilliyimiz və insan hüquqları: 18 oktyabr - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günüdür /E.Süleymanova //Xalq qəzeti.- 2003.- 18 oktyabr.-S.7.

Elmira Teymur qızı Süleymanova: biblioqrafiya /AMEA, Akad. Y.H.Məmmədəliyev ad. Neft-Kimya Prosesləri İn-tu, Mərkəzi Elmi Kitabxana; tərt.: H.Əlimərdanov, Z.Məhərrəmli, V.Quliyeva; red.: V.Abbasov, G.Abbasova.- Bakı: [s. n.], 2013.- 420 s.

İnternetdə

https://az.wikipedia.org/kiS%C3%BCleymanova

http://www.gender-az.org/index_az.shtml?id_main=11&id_sub=37

135 illiyi

Kazım Qarabəkir Paşa 1882-1948

Hərbi xadim

Kazım Qarabəkir Paşa 1882-ci il iyul ayının 22-də İstanbulda anadan olmuşdur. Məhməd Əmin Paşa və Hacı Həvva xanımın ailəsində dünyaya gəlmişdir. Onun ata tərəfdən kökləri oğuz türklərinin Əfşar tayfasına gedib çıxır.

Kazım Qarabəkir Paşa Türkiyənin görkəmli hərbi və dövlət xadimi Atatürkün yaxın silahdaşlarından biri olmuşdur. Ali hərbi təhsil aldıqdan sonra (1912-1913) Birinci Dünya müharibəsində iştirak etmişdir (1914-1918). Hərbi sahədəki xidmətlərinə görə 1918-ci ildə diviziya generalı, sonra ordu generalı rütbəsinədək yüksəlmiş, "Paşa" fəxri tituluna layiq görülmüşdür.

Kazım Qarabəkir Paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı süvarilərinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafiəsi Osmanlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuşdu.

Türkiyənin istiqlal savaşında (1918-1923) fəal iştirak etmiş, Şərq cəbhəsinin komandanı kimi bir sıra əzəli türk torpaqlarının geri qaytarılmasında, ermənilər sülh bağlamağa məcbur etməsində əvəzsiz xidmətlərinə görə "İstiqlal ordeninə" layiq görülmüşdür. Azərbaycanda baş verən hadisələrlə daim yaxından maraqlanmış, Qars konfransında (1921) iştirak etmişdir.

Naxçıvanın mədəni həyatında yaxından iştirak edən Kazım Qarabəkir Paşa şəhərdə teatrın fəaliyyətini bərpa etmiş, Naxçıvan teatrında türk yazıçılarının dram əsərlərini tamaşaya qoymuş, tədris müəssisələri açmış, məktəblər üçün Türkiyədən çoxlu sayda dərsliklər gətirtmişdir. Hərbi vətənpərvərlik təbiyəsinə böyük əhəmiyyət verən və nizami ordu quruculuğunun vacibliyini nəzərə alan Kazım Qarabəkir Paşa bu işi öyrənmək üçün bir qrup gənci Türkiyə məktəblərinə oxumağa göndərmişdir.

Türk xalqının istiqlal mücadiləsi başa çatdıqdan sonra ordudan tərxis olunan Kazım Qarabəkir Paşa millət vəkili kimi fəaliyyət göstərmiş, 1946-cı ildə Türkiyə Böyük Millət Məclisinin başçısı seçilmişdir.

Kazım Qarabəkir Paşa 1948-ci il dekabr ayının 26-da Ankarada vəfat etmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində Türkiyə Dəyanət İşləri Vəqfi tərəfindən məscid inşa edilmişdir. Bu məscidin 1918-1919-cu illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsində böyük rolu olmuşdur. 1999-cu il oktyabrın 13-də yenidən istifadəyə verilmiş məscidin açılışında ümummilli lider Heydər Əliyev və Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir xanım çıxış etmişlər.

Ədəbiyyat

Məmmədova, G. Qarabəkir əfsanəsi: sənədli roman /G.Məmmədova.- Bakı: Zaman, 2001.- 488 s.

Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti: (1917-1921) /İ.Musayev.- Bakı: Elm, 1996.- 312 s.

Ərtoğrul. Hər bir azərbaycanlının qəlbində Kazım Qarabəkir Paşa /Ərtoğrul //Kaspi.- 2010.- 28 dekabr.-S. 12.

Ərtoğrul. Qəlbimizdəki Kazım Qarabəkir Paşa /Ərtoğrul //Kaspi.- 2010.- 24 dekabr.- S.13.

Kazım Qarabəkir Paşa //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası.- Bakı, 2005.- S.77-78.

Səfərli, F. Kazım Qarabəkir Paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi /F.Səfərli //Naxçıvan jurnalı.- 2001.- № 5.- S.23.

85 illiyi

Azadə Rüstəmova 1932-2005

Ədəbiyyatşünas

Azadə Cəfər qızı Rüstəmova 1932-ci il iyul ayının 18-də Bakı şəhərində anadan olmuşdur. 1947-ci ildə Bakı şəhəri 132 saylı məktəbi qızıl medalla bitirmiş, 1951-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olaraq oranı fərqlənmə diplomu ilə başa vurmuşdur. Universitetdə beş il ərzində Məmmədağa Sultanov, Əli Azəri, Mübariz Əlizadə kimi görkəmli alimlərdən fars dili və ədəbiyyatını, Şərq mədəniyyət tarixini mükəmməl öyrənmişdir.

Azadə xanım 1953-1956-cı illərdə Moskva şəhərində SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almışdır. Görkəmli şərqşünas, SSRİ EA-nın müxbir üzvü Y.E.Bertelsin elmi rəhbərliyi altında Füzulinin "Leyli və Məcnun" poeması mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Vətənə döndükdən sonra Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmışdır. Orta əsrlər Azərbaycan ədəbiyyatı, sonra Nizamişünaslıq şöbələrinə uzun müddət rəhbərlik edən Azadə Rüstəmova 1991-ci ildən Orta əsrlər şöbəsində baş elmi işçi olmuşdur. Onun tədqiqatının əsas obyekti klassik Azərbaycan şeirinin tarixi-nəzəri problemlərinin araşdırılması idi. Müəllifin "Nizami Gəncəvi" kitabçası Azərbaycan, rus, ingilis və fars dillərində dəfələrlə nəşr edilmişdir.

300-ə yaxın məqalənin, 20 kitab və monoqrafiyanın müəllifi olan bu fədakar alim əsasən klassik poeziyamızın nümayəndələri haqqında dəyərli, əhəmiyyətini heç vaxt itirməyən tədqiqatlar aparmışdır. "Azərbaycan epik şeirinin inkişaf yolları", "Əsrlərin addımları", "Fələki Şirvani", " Klassik Azərbaycan poeziyasında qəzəl. Janrın tarixi və poetikası", " Məhəmməd Füzuli", "Mütəfəkkir Mövlanə Füzuli", "Nizaminin poeziya sələfləri", " Mövlanə Cəlaləddin Rumi" adlı kitabları ədəbi ictimaiyyətin yaxşı tanıdığı dəyərli tədqiqatlardır.

Azadə xanım Rüstəmova 1971-ci ilin may ayında "XII-XVII əsrlərdə Azərbaycan epik şeirinin inkişaf yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1986-1991-ci illərdə Nizami adina Ədəbiyyat İnstitutunun Nizami şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1990-cı ildə professor adını almışdır. Y.E.Bertelsin anadan olmasının 100 illiyinə həsr olunmuş "Şərq xalqları mədəniyyəti və müasirlik" mövzusunda Moskvada keçirilən Ümumittifaq konfransında "Nizami Gəncəvi irsi Y.E.Bertelsin tədqiqində" mövzusunda məruzəsi ilə çıxış etmişdir. 1992-2000-ci illərdə Azərbaycan Respublikası Prezident Aparatı nəzdində Dövlət Ali Attestasiya Komissiyası Ekspert Şurasının üzvü olmuşdur.

2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

1971-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 1982-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Azadə Rüstəmova 2005-ci il mart ayının 19-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Mənəvi dünənimiz bu günün işığında /A.Rüstəmova; red. T.Kərimli; AMEA, Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 2011.- 593, [3] s.

Azərbaycan ədəbiyyatı: müxtəsər oçerk: [xaricdə yaşayan azərbaycanlılar üçün] /A.Rüstəmova, B.Nəbiyev, Y.Qarayev; red. T.Kərimli; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 2003.- 376 s.

Əlibəyli, G. R.Azadə //Əlibəyli G. Çırpınan dünyamız.- Bakı, 2000.- S.105- 108.

İ n t e r n e t d ə

http: //525.az/site/?name=xeber&news_id=7713

85 illiyi

Məhəmmədəmin Şahtaxtinski 1932-2011

Akademik

Məhəmmədəmin Həbibulla oğlu Şahtaxtinski 1932-ci il iyul ayının 10-da Bakı şəhərində anadan olmuşdur. O, akademik, kimya elmləri doktoru Həbibulla Şahtaxtinskinin oğludur.

1950-ci ildə orta məktəbi bitirdikdən sonra, Moskva Energetika İnstitutunda radiotexnika fakültəsində təhsil almış və 1956-cı ildə ali təhsilini tamamlamışdır.

Əmək fəaliyyətinə 1956-cı ildən Azərbaycan Respublikası Elmlər Akademiyasının Fizika və Riyaziyyat İnstitutunda başlamış və ömrünün sonunadək orada müxtəlif vəzifələrdə çalışmışdır. O, 1968-ci ildən institutda laboratoriya müdiri, 1987-ci ildən şöbə müdiri vəzifələrində işləmişdir. Son illərdə isə Fizika İnstitutunun rəhbəri olmaqla bərabər, Azərbaycan Milli Elmlər Akademiyasının Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi Bürosunun üzvi kimi də fəaliyyət göstərmişdir.

Məhəmmədəmin Şahtaxtinski 1960-cı ildə namizədlik və 1970-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1971-ci ildə professor elmi rütbəsini almışdır. 1980-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Uzun illər ərzində bərk cisimlər fizikasına dair fundamental araşdırmaları ilə tanınan Məhəmmədəmin Şahtaxtinski bu sahədə yeni elmi istiqamətin əsasını qoymuşdur. Alimin tədqiqatları fizikanın yarımkeçiricilər və dielektriklər kimi mühüm bölmələrini əhatə edir. O, yarımkeçiricilərin termodinamikasının öyrənilməsi ilə yanaşı, bir sıra orijinal metodika və qurğuların yaradılması işində də yaxından iştirak etmişdir.

Məhəmmədəmin Şahtaxtinski 250-dən artıq elmi əsərin müəllifidir. Onun apardığı araşdırmaların nəticələrinin böyük qismi ölkəmizin hüdudlarından kənarda xarici dillərdə işıq üzü görmüş və elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. O, fizika sahəsində qazandığı elmi nailiyyətlərinə görə onlarca patent və müəlliflik şəhadətnamələri almışdır. Məhəmmədəmin Həbibulla oğlu Şahtaxtinski 1972-ci ildə Fransada keçirilən Kristalların yetişdirilməsi üzrə Beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. Bu məruzə elm aləmində çox yüksək səviyyədə qəbul edilmişdir.

M.Şahtaxtinski 1991-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, Azərbaycan Fizika Cəmiyyətinin prezidenti və Avropa-Asiya Fizika Cəmiyyətinin vitse-prezidenti seçilmişdir. 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Şahtaxtinski Məhəmmədəmin Həbibulla oğlu 2011-ci il aprel ayının 23-də, ömrünün 79-cu ilində Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Şahtaxtinski Məhəmməd Həbibulla oğlu: ensiklopedik məlumat //ASE: 10 cilddə.- Bakı , 1987.- C.X.- S.480.

Məhəmmədəmin Həbibulla oğlu Şahtaxtinski //Azərbaycan.- 2011.- 24 aprel. - S. 4.

Məhəmmədəmin Həbibulla oğlu Şahtaxtinski: Fizika-riyaziyyat elmləri doktoru M.H.Şahtaxtinskinin vəfatı münasibətilə //Respublika.- 2011.- 24 aprel.- S. 2.

Мухаммедэмин Габибулла оглу Шахтахтинский: Некролог //Бакинский рабочий.-2011. - 26 апреля. - С. 3.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/bakrabochiy/2011/aprel/170753.htm

155 illiyi

Nikolay Aleksandroviç Rubakin 1862-1946

Alim



Nikolay Aleksandroviç Rubakin 1862-ci il iyul ayının 13-də Oraniyenbaum (indiki Lomonosov şəhərində), tacir ailəsində anadan olmuşdur. Atası Oraniyenbaum şəhərinin başçısı olmuşdur.

12 yaşında olarkən macəra romanı və pyes yazmış, 13 yaşında "Стрела" əlyazma jurnalını çap etdirmiş, 16 yaşında isə "Uşaq mütaliəsi" adlı ilk məqaləsi nəşr olunmuş və bu məqalədən qonorar da almışdır.

N.A.Rubakin Peterburq Universitetinin 3 fakültəsini – tarix-filologiya, təbiətşünaslıq və hüquq fakültələrini bitirsə də həyatını kitabxana işinə həsr etmişdir. O, həmçinin Rusiya Savadlanma Komitəsinin katibi və üzvü kimi uzun müddət bu sahənin inkişaf etməsinə çalışmış və Pedaqoji Muzeydə savadlanma şöbəsinin açılmasına naıl olmuşdur. Nikolay Aleksandroviçin XIX əsrdə Rusiya kitabxana-nəşriyyat işinin inkişafında cox böyük əməyi olmuşdur. Belə ki, A.Rubakin O.N.Popova, İ.D.Sitina nəşriyyat firmalarının və "Издатель" Birliyinin rəhbəri kimi xalq arasında ciddi mütaliəyə marağın oyanması uğrunda işlər görmüşdür. O, mütaliə edən insanların tələbatını daim öyrənir, araşdırma aparmaq üçün "Xalq üçün ədəbiyyatın tədqiqi proqramı"nı (1889) tərtib edir. Daha sonra bu proqramı oxumuş insanların rəylərini bir yerə toplayaraq "Mütaliə edən ruslar haqqında etüdlər" kitabını nəşr etdirir.

N.A.Rubakin 1905-1907-ci illərdə Rusiya inqilabında yaxından iştirak etmişdir. Siyasi baxışlarına görə təqib olunmuş və bu səbəbdən də 1907-ci ildə İsveçrəyə köçmüş və ömrünün sonunadək burada yaşamışdır. Həmin illərdə Rubakin Rusiyada çapdan çıxmış kitabları toplayaraq İsveçrədə "Nadir Rus Kitabxanası" təşkil etmişdir.

Görkəmli kitabxanaşünas bütün ömrü boyu kitab təbliği problemlərini işləmiş, bibliopsixologiya nəzəriyyəsini yaratmış, bu sahədə ilk kitab olan "Kitab və oxucunun psixologiyası"nı çap etdirmişdir. "Kitablar arasında" tövsiyə vəsaiti mütəxəssislər arasında çox böyük marağa səbəb olmuşdur. 280 kitab və kitabçanın, 350 məqalənin müəllifidir.

Maarif sahəsindəki xidmətlərinə görə Sovet hökuməti A.N.Rubakinə 1930-cu ildən fərdi pensiya təyin etmişdir.

Rus kitabşünası, biblioqraf, yazıçı, Beynəlxalq Bibliopsixologiya İnstitutunun yaradıcılarından biri olan Nikolay Aleksandroviç Rubakin 1946-cı il noyabr ayının 23-də Lozanna şəhərində vəfat etmişdir. Moskva şəhərində dəfn olunmuşdur.

Vəsiyyətinə görə İsveçrədə təşkil etdiyi "Nadir Rus Kitabxanası" Rusiya Milli Kitabxanasının fonduna verilmişdir.

Ə d ə b i y y a t

Əjdərov, E. Nikolay Rubakinin bibliopsixologiya nəzəriyyəsində informasiya dövriyyəsi /E.Əjdərov //Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri praktiki jurnal.-2011.- № 2.- S.34-42.

Əjdərov, E. Nikolay Rubakinin yaradıcılığında bibliopsixologiya nəzəriyyəsi və kitabxanaşünaslıq /E.L.Əjdərov //Kitabxanaşünaslıq və informasiya.- 2010.- № 3.-S.91-98.

Рубакин, Н. Библиологическая психология /Н.А.Рубакин.- Москва: Академический Проект Трикста, 2006.- 800 с.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/kitabxanashunasliq-informasiya/2_2012/111-117.pdf

Milli Mətbuat və Jurnalistika Günü 1875

22 iyul - Azərbaycanda Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd edilir. 1875-ci il iyulun 22-də Bakıda, Azərbaycan dilində "Əkinçi" qəzetinin çap olunması ilə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur.

"Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurmuşdu. 1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi çap edilmiş, ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur.

"Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Moskvadan Əsğər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Mirzə Fətəli Axundovun " Vəkili-naməlumi millət" imzası ilə məqalələri , Seyid Əzim Şirvaninin şeirləri və Dərbənddən Heydərinin göndərdikləri məktublar dərc olunmuşdur.

"Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük rol oynamışdır. XIX əsrin sonlarında "Ziya", (1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890-cı illər) qəzetləri nəşrə başlamışdı. XX əsrin əvvəllərində C.Məmmədquluzadə, M.Şahtaxtinski, S.Hüseyn, Ö.Faiq Nemanzadə, Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. Bu gərgin mübarizə öz nəticəsini verdi. "Şərqirus" (1903), "Həyat" (1905), "Açıq söz" (1915), "Azərbaycan " (1918) kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxdı. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlanması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu.

Sovet hakimiyyəti dövründə bütün sovet respublikalarında olduğu kimi Azərbaycanda da mətbuat sovet ideologiyasının ruporuna çevrilmişdi. Azad və demokratik mətbuatdan söhbət belə gedə bilməzdi. Yalnız bolşevik rejiminin, kommunist ideyalarının təbliği ilə məşğul olan qəzet və jurnallar nəşr olunurdu. Mətbuat üzərində ciddi senzura hökm sürürdü. Kommunist Partiyasının orqanı olan "Pravda" (bu qəzetin dilimizə tərcüməsi "Həqiqət" olsa da, səhifələri Qərb demokratiyasına qarşı iftiralarla, ictimai və iqtisadi-siyasi həyatın müxtəlif sahələrinə aid yalan informasiyalarla dolu idi) qəzetinin ilk nömrəsinin çapdan çıxdığı gün - 5 may mətbuat günü kimi qeyd olunurdu. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi.

Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan - qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunmağa başladı.

Ə d ə b i y y a t

Əhmədov, R. "Əkinçi" qəzeti və milli maarifçilik: fəls. e. n. a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 09.00.03 /R.Əhmədov; AzEA, Fəlsəfə və Hüquq İn-tu.- Bakı, 1995.- 22 s.

"Əkinçi" qəzeti: 1875-1877: tam mətni /tərt. ed. T.Həsənzadə; müqəd. müəl. və red. Ə.Mirəhmədov.- Bakı: Azərnəşr, 1979.- 463, [1] s.

Məmmədov, V. "Əkinçi" qəzeti və mətbuat məsələləri: Azərbaycan milli mətbuatı - 140 /V.Məmmədov //İki sahil.- 2015.- 16 iyul.- S.15.

Mətbuatımızın banisi anıldı "Əkinçi" qəzeti ilə əsası qoyulan mətbuatımız qısa zaman kəsiyində xalqın özünüdərk prosesində misilsiz rol oynadı: Mətbuat Şurasında Həsən bəy Zərdabinin anım tədbiri keçirilib //Mövqe.- 2013.- 29 noyabr.- S.4.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki Əkinçi -(qəzet)

Ağdam rayonunun işğalı günü 1993

Ərazisi: 1154 km²
Əhalisi: 175400

Bu gün Azərbaycanın Ağdam rayonunun işğalından 24 il keçir.

1993-cü il 23 iyul tarixində birinci Qarabağ müharibəsinin ən geniş miqyaslı əməliyyatlarından biri baş tutmuş, 1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı vermişdir.

Ağdama edilən birinci hücum nəticəsiz qalmış, ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirmiş, iyun ayının 26-da Ağdərə düşmən əlinə keçmişdir.

Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başlamışdır. 600 minlik erməni ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın milli ordusu durmuş, 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatmışdır.

Ərazisi 1154 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometri, rayon mərkəzi ilə birgə 90 kəndi işğal olunmuş, işğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşayır. Bunların 17 mini yaşlı nəslin nümayəndəsidir.

İşğal nəticəsində Ağdam rayonunun 38 kolxozu, 12 sənayesi, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçmişdir.

Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuş, minlərlə insan fiziki şikəstlik qazanmış, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdır.

Ərazisinin 70 faizdən çoxunu itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirmişdir. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda indi 17 min ha sahədə əkin aparılır.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonunun işğalı nəticəsində ölkəmizə ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəymişdir.

Hər bir azərbaycanlı, hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musiqi səslərinə möhtac qalmış bərli-bərəkətli torpaqlarımız, ata-babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək.

O gün uzaqda deyil.

Ədəbiyyat

Abbasoğlu, B. Ağdam ağrıları: [məlumat kitabı] /B.Abbasoğlu; red. V.Quliyev.- Bakı: Şuşa, 2003.- 151 s.

Abbasoğlu, B. Seyidlidə bitən qeyrət /B.Abbasoğlu; red. S.Ağayev.- Bakı: Azərbaycan, 1998.- 128 s.

Tofiqli, V. XX yüzilin Ağdamı /Tofiqli Vüqar (Cəfərov).- Bakı: MHS-Poliqraf, 2014.- 223 s.

Ağdam rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.105-122.

Alıoğlu, S. Ağdam: barıt qoxulu torpaq /S.Alıoğlu //Respublika.-2015.- 23 iyul.- S.6.

Allahverdiyev, R. Biz Ağdama qayıdacağıq /R.Allahverdiyev //Respublika.- 2015.- 23 iyul.- S.6.

İnternetdə

www.anl.az/down/meqale/azerbaycan/2012/iyul/586.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2013/iyul/319496.htm

AVQUST

22 iyul-
23 avqust

Şir bürcünün Nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxilən zəngin olurlar.

Ç.A.	1
Ç.	2
C.A.	3
C.	4
Ş.	5
B.	6
B.E.	7
Ç.A.	8
Ç.	9
C.A.	10
C.	11
Ş.	12
B.	13
B.E.	14
Ç.A.	15
Ç.	16
C.A.	17
C.	18
Ş.	19
B.	20
B.E.	21
Ç.A.	22
Ç.	**23**
C.A.	24
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	29
Ç.	30
C.A.	**31**

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.)*
- ***Cəbrayıl rayonunun işğalı günü (23.08.1993)***
- ***Füzuli rayonunun işğalı günü (23.08.1993)***
- ***Qubadlı rayonunun işğalı günü (31.08.1993)***

300 il Molla Pənah Vaqif 1717-1797



Molla Pənah Vaqif. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004.- 264 s. ("Molla Pənah Vaqif. Əsərləri. Bakı, Azərnəşr, 1968 nəşri əsasında təkrar nəşr). Tərtib edəni və ön sözün müəllifi professor Həmid Araslı.

Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub və ölkə kitabxanalarına hədiyyə edilib.

Vaqifin oxuculara təqdim olunan bu nəşri əlyazmaları əsasında tərtib edilmiş, 1937-ci ildə Azərnəşr tərəfindən Vaqifin çap edilmiş kulliyyatı ilə muqayisə edilib dürüstləşdirilmişdir. Təqdim edilən həmin kitabda Vaqifin bu vaxta qədər nəşr olunmamış bir sıra şeirləri başqa əlifbalarla XIX əsrin əvvəllərində yazıya alınmış əlyazmalarından köcürülmüşdür. Eyni zamanda Qaracadağlı Əndəlibin Leninqrad Şərqşünaslıq İnstitutunun əlyazmaları şöbəsində saxlanılan əsərlərinin sonundakı əlavələrdən və Azərbaycan Elmlər Akademiyasında mövcud olan cünglərdən istifadə edilmişdir. Beləliklə, bu elmi nəşrdə Vaqifin əsərlərinin mühüm bir hissəsi əhatə edilmişdir. Lakin bu hec də o demək deyildir ki, Vaqifin bütün əsərləri kitabda toplanmışdır. Cox ehtimal ki, xüsusi əllərdə olan və tədqiqatçılara çatmayan cüng və əlyazmalarında şairin çap edilməmiş əsərləri vardır.

AVQUST

2017

Milli ədəbiyyat

Şairə Natəvan Xurşidbanu Mehdiqulu xan qızının (15.08.1832-02.10.1897) anadan olmasının 185 illiyi 238

Xalq şairi Dilbazi Mirvarid Paşa qızının (19.08.1912-12.07.2001) anadan olmasının 105 illiyi 239

Şair, publisist Nəsibov Davud Məcid oğlunun (Davud Nəsib) (25.08.1942-26.03.2003) anadan olmasının 75 illiyi 240

Musiqi.Opera.Balet

Xalq artisti, xanəndə Quliyeva Qəndab Nəbi qızının (10.08.1947) anadan olmasının 70 illiyi

Xalq artisti, xanəndə Qasımov Alim Həmzə oğlunun (14.08.1957) anadan olmasının 60 illiyi 241

SSRİ Xalq artisti Maqomayev Müslüm Məhəmməd oğlunun (17.08.1942-25.10.2008) anadan olmasının 75 illiyi 242

SSRİ Xalq artisti, dirijor Hacıbəyov-Tağızadə Niyazi Zülfüqar oğlunun (Niyazi) (20.08.1912-1984) anadan olmasının 105 illiyi 243

Teatr.Kino

Xalq artisti, teatr rejissoru Nemətov Azərpaşa Zəfər oğlunun (13.08.1947) anadan olmasının 70 illiyi 244

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Ehtiram İsrayıl oğlunun (01.08.1972-23.08.1993) anadan olmasının 45 illiyi 245

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Rövşən Nəriman oğlunun (30.08.1972-13.05.1992) anadan olmasının 45 illiyi 246

Azərbaycanın Milli Qəhrəmanı Nəcəfov Yunis İsa oğlunun (31.08.1967-24.08.1992) anadan olmasının 50 illiyi 247

Siyasət.Hərbi iş

Cənubi Azərbaycan demokratik hərəkatının rəhbəri Səttarxan Hacı Həsən oğlunun (15.08.1867-09.11.1914) anadan olmasının 150 illiyi 248

Əməkdar mühəndis, dövlət xadimi Seyidov Həsən Neymət oğlunun (16.08.1932-2004) anadan olmasının 85 illiyi 249

Cənubi Azərbaycan inqilabi hərəkatının görkəmli xadimi (Cavadzadə) Pişəvəri Seyid Cəfər Mir Cavad oğlunun (26.08.1892-11.06.1947) anadan olmasının 125 illiyi 250

Tarix.Din

Tarix elmləri doktoru, professor Quliyev Ələvsət Nəcəfqulu oğlunun (23.08.1922-06.11.1969) anadan olmasının 95 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Tənqidçi, ədəbiyyatşünas, professor Hacıyev Aqil Cəfər Xəndan oğlunun (10.08.1947) anadan olmasının 70 illiyi 251

Ədəbiyyatşünas, tənqidçi, nasir, filologiya elmləri doktoru Ağayev İslam Məmməd oğlunun (20.08.1932) anadan olmasının 85 illiyi

Professor Paşayev Qəzənfər Məmməd oğlunun (27.08.1937) anadan olmasının 80 illiyi 252

Akademik, şərqşünas-alim Məmmədəliyev Vasim Məmmədəli oğlunun (27.08.1942) anadan olmasının 75 illiyi 253

Hərbi-tədqiqatçı, publisist Nəzirli Şəmistan Əmiraslan oğlunun (27.08.1942) anadan olmasının 75 illiyi 254

İqtisadiyyat.Fəlsəfə

Əməkdar elm xadimi, professor, psixoloq-alim Əlizadə Əbdül Əli oğlunun (16.08.1932-22.02.2015) anadan olmasının 85 illiyi

Coğrafiya.Geologiya

Akademik İsmayılzadə Arif Cəfər oğlunun (14.08.1937) anadan olmasının 80 illiyi 255

Riyaziyyat.Fizika.Astronomiya

Fizika elmləri doktoru, professor Abbasova Adilə Ziyat qızının (03.08.1942) anadan olmasının 75 illiyi

Kimya.Biologiya.Tibb

Professor, Əməkdar elm xadimi Mirsəlimov Mirmehdi Mirmövsüm oğlunun (11.08.1897-05.03.1957) anadan olmasının 120 illiyi

Əməkdar həkim, professor Bayişeva-Zeynalova Güləndam Mühəmmədcanovnanın (15.08.1902-01.19.1981) anadan olmasının 115 illiyi

AMEA-nın müxbir üzvü Abasov İsmayıl Teymur oğlunun (21.08.1922) anadan olmasının 95 illiyi

Əməkdar elm xadimi, professor Qasımova Həbibə Süleyman qızının (24.08.1922-19.11.2014) anadan olmasının 95 illiyi

Tarixdə bu gün

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) 256

Azərbaycan Kinosu Günü (02.08.1898) 257

Hərbi Donanma Günü (05.08.1992)

Gədəbəy rayonunun Başkənd qəsəbəsi Azərbaycan Milli Ordusunun hissələri tərəfindən erməni silahlı qüvvələrindən təmizlənmişdir 09.08.1992)

Beynəlxalq Gənclər Günü (12.08.1999)

Beynəlxalq Kimsəsiz Heyvanlar Günü (16.08.1992)

Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu yaradılmışdır (17.08.1942)
Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın heyəti Rusiyaya yola salınmış və hərbi əmlakın bütünlüklə Milli Ordunun briqadasına verilməsi haqqında akt imzalanmışdır (18.08.1992)
Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000)
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü (23.08.2008)
Cəbrayıl rayonunun işğalı günü (23.08. 1993) 258
Füzuli rayonunun işğalı günü (23.08. 1993) 259
Azərbaycan Demokratik Firqəsi müstəqil fəaliyyətə başlamışdır (24.08.1917)
Azərbaycanda Konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçirilmişdir (24.08.2002)
Beynəlxalq Azərbaycan Muğamı Günü (26.08.2010)
Türkiyə Cümhuriyyətinin Zəfər Bayramı Günü (30.08.1923)
Qubadlı rayonunun işğalı günü (31.08.1993) 260

185 illiyi

Xurşidbanu Natəvan 1832-1897

Şairə

Ə d ə b i y y a t

Neçin gəlməz: Toplu /Xurşidbanu Natəvan; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; tərt. ed. M.Çəmənli; elmi red. və ön sözün müəl. P.Əlioğlu.- Bakı: Təhsil, 2012.- 159 s.

Xurşidbanu Natəvan - Səhərgəh nagahan gördüm dili-zarım nihan ağlar /X.Natəvan //Ədalət..-2012.- 3 mart.- S.20.

Xurşid Banu Natəvan- 180 /AMEA, Milli Azərbaycan Tarixi Muzeyi; elmi red. N.Vəlixanlı; tərt. G.Abdulova.- Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, 2012.- 19 s.

Müznib, Ə. Natəvan Xurşidbanu /Ə.Müznib; nəşrə hazırlayan P.Kərimov; red.N.Mustafayeva; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Elm və təhsil, 2012.- 128 s.

Sərvaz. Gözlənilən gəliş: Xurşidbanu Natəvan - 180 /Sərvaz //Ədəbiyyat qəzeti.-2012.- 8 sentyabr.- S.2.

Xurşidbanu Natəvan Mehdiqulu xan qızı 1832-ci il avqust ayının 15-də anadan olmuşdur. Xurşidbanu ailənin yeganə övladı, həm də Qarabağ xanlığının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" deyə çağırmışlar. İlk təhsilini evdə almış, Şərq dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Nəvai, Füzuli və s. klassiklərin əsərlərini dərindən oxumuşdur.

Natəvan Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri olan görkəmli sənətkardır. O, parlaq istedada və qabaqcıl ideyalara malik olan şəxsiyyət olmuşdur. Yaradıcılığa ənənəvi Şərq mövzu və janrlarında şeirlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülüm", "Qərənfil" və s.) tərənnüm olunur. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşma, rədif, məcaz və s. bədii vasitələrdən məharətlə işlədərək, şeirlərinin bədii təsirinin daha da güclənməsinə səbəb olmuşdur. Dərin biliyə malik olan, xüsusən ədəbiyyata yüksək qiymət verən, özü də şeirlər yazan Natəvan 1872-ci ildə Şuşada "Məclisi-üns" adlı şairlər birliyi yaratmış, 2 ildən çox həmin məclisin rəhbəri olmuş və onun maliyyə xərclərini ödəmişdir. Azərbaycanın, əsasən də Qarabağın ən tanınmış şair və ziyalılarını bir yerə toplayan, dərin ədəbi mübahisələr aparan bu ədəbi məclis bir çox tanınmış şair və yazıçıların yetişməsində müstəsna rol oynamışdır.

Dövrünün ziyalılarından olan Xasay xan Usmiyevlə ailə qurmuş, ancaq evliliyi uğurlu alınmamışdır. 1858-ci ildə Qafqaza səyahətə çıxmış məşhur fransız yazıçısı A.Düma ilə Bakıda görüşmüş, öz əl işləri ilə bəzədilmiş tütün qabını ona hədiyyə etmişdir.

Xurşidbanu Natəvan zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş, təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. O, kasıblara əl tutmuş, 1873-cü ildə sudan korluq çəkən Şuşaya su kəməri çəkdirmişdir. Bu su kəməri "Xan qızı bulağı" adı ilə məşhurdur.

O, həm də istedadlı rəssam olmuşdur. Onun bədii tikmələri, "Gül dəftəri" (1886) adlı albomundakı rəsmlər buna sübutdur.

Azərbaycanın Xalq artisti, tanınmış bəstəkar professor V.Adıgözəlov "Xan qızı Natəvan" operasını yazmışdır. M.Rahimin "Natəvan" poeması şairəyə həsr olunmuşdur.

Natəvan 1897-ci ildə vəfat etmişdir. Ağdamın "İmarət" qəbiristanlığında dəfn olunmuşdur. Ömər Eldarovun Natəvanın şərəfinə ucaltdığı heykəl Bakının mərkəzini bəzəyən ən gözəl abidələrdəndir. 2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi olmuşdur.

105 illiyi

Mirvarid Dilbazi
1912-2001

Şairə

Ə d ə b i y y a t

Fikir ümmanında: Əsərlərindən seçmələr /M.Dilbazi; tərt. P.Məmmədli; Azərb.Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: E.L. NPŞ MMC, 2014.- 529 s.

Bayatılar /M.Dilbazi //Azərbaycan.-2012.-№10.- S.111-112.

Mirvarid Dilbazi: Bibliioqrafik göstərici /Azərb. SSR Mədəniyyət Nazirliyi, M.F.Axundov ad. Azərb. Dövlət Kitabxanası; tərt. H.Həmidova; red. Ə.Əfəndiyev; ixtisas red. T.Ağamirova.- Bakı: M.F.Axundov kitabxanası, 1990.- 130 s.

Mirvarid Dilbazi - 100 /toplayıb tərt. ed. və ön söz müəl. S.Xəyal; red. N.Səmədova.- Bakı: [MBM], 2012.- 127 s.

Mahmudova, Ş. M.Dilbazi və uşaq ədəbiyyatı: metodik vəsait /Ş.Mahmudova, Y.Aslanov; elmi red. Q.Namazov.- Bakı, 2013.- 103 s.

Vahid, T."Zamanla üz-üzə": Böyük epoxanın son sözü - Mirvarid Dilbazi /T.Vahid //Mədəniyyət.- 2015.- 12 iyun.- S.15.

Mirvarid Dilbazi 1912-ci il avqust ayının 19-da Azərbaycanın Qazax mahalının Xanlıqlar (indiki Musaköy) kəndində anadan olmuşdur. Orta təhsilini Bakıda Qızlar seminariyasında (1927), ali pedaqoji təhsilini isə APİ-nin dil və ədəbiyyat fakültəsində almışdır (1932). Əmək fəaliyyətinə Bakı və Qubada müəllim kimi başlamışdır. Daha sonra Azərbaycan EA-nın Əlyazmalar fondunda şöbə müdiri (1934-38), Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi (1938-1940) işləmişdir.

M.Dilbazi ədəbi yaradıcılığa 1927-ci ildə "Oktyabr alovları" adlı məcmuədə dərc olunmuş "Qadınların hürriyyəti" şeiri ilə başlamışdır. "Bizim səsimiz" adlı ilk kitabı 1934-cü ildə dərc olunmuşdur. M.Dilbazi ilk şeirindən xalqının zəngin tarixi keçmişini, xalqlar dostluğunu, sülhü və əmin-amanlığı, azadlıq uğrunda mübarizəni və qadın azadlığını tərənnüm etmişdir. Bu baxımdan "Vətənə məhəbət" (1949), "Əlcəzair qızı" (1963), "Yaməmən fəsli" (1976) şeir kitabları şairənin arzu və istəklərini geniş şəkildə tərənnüm edir. M.Dilbazinin 1970-1980-cı illərdə "Bənövşələr üşüyəndə" (1970), "Ana qanadı" (1972), "Dağ çiçəyi" (1977), "Seçilmiş şeirlər" (1979), "Çiçəkdən-çiçəyə" (1991), "Seçilmiş əsərləri" (2004) şeir kitabları çap olunmuşdur. M.Dilbazi həmçinin uşaqların və yeniyetmələrin də sevimli şairəsidir. Məhz ona görə də, yazıçı yaradıcılığının böyük bir qismini onlara həsr etmişdir. Ədəbi yaradıcılıq yolunda tərcüməçiliklə də məşğul olmuş, Evripidin "İppolit" pyesini, Nizaminin, Puşkinin, Mixalkovun, Nəvainin, Seretelinin, Tixonovun və b. əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

M.Dilbazi Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, Ümumittifaq miqyasında simpozium, müşavirə və görüşlərdə fəal iştirak etmişdir. Dəfələrlə SSRİ Yazıçılarının qurultayına nümayəndə və Bakı Sovetinə deputat seçilmişdir. Sovet Sülhü Müdafiə Komitəsinin üzvü olmuşdur (1949).

M.Dilbazinin yazıçı əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, iki dəfə "Şərəf "nişanı və "Qırmızı Əmək Bayrağı", "İstiqlal" ordenləri ilə, beş medalla, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur. 1967-ci ildə Azərbaycan SSRİ-nin "Əməkdar mədəniyyət işçisi", 1979-cu ildə Azərbaycan SSR-in ilk qadın "Xalq şairəsi" fəxri adlarına və 1986-cı ildə Azərbaycan SSRİ-nin Dövlət Mükafatına layiq görülmüşdür.

Mirvarid Dilbazi 2001-ci il iyul ayında vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

75 illiyi Davud Nəsib 1942-2003

Şair

Nəsibov Davud Məcid oğlu (Davud Nəsib) 1942-ci il avqust ayının 25-də Azərbaycanın Qazax rayonunda anadan olmuşdur. Qazax şəhər 2 saylı orta məktəbini bitirdikdən sonra ADU-nun kitabxanaçılıq fakültəsində təhsil almışdır (1959-1963). 1966-1969-cu illərdə Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində incəsənət redaksiyasında redaktor işləmişdir.

Ədəbi fəaliyyətinə 1956-cı ildə "Qalibiyyət bayrağı" (Qazax rayonu) qəzetində dərc edilən "Mənim doğma çayım - mənim Kür çayım" adlı ilk şeiri ilə başlayan Davudun o zaman on dörd yaşı var idi. Həmin vaxtdan fəal poetik yaradıcılıqla məşğul olmuş, 60-cı ilin əvvəllərindən əbəbi-ictimai mühitdə tanınmağa, istedadlı şair kimi nüfuz qazanmağa başlamışdır. Azərbaycan poeziyasında böyük hadisələrin meydana çıxdığı, üslub axtarışlarının genişləndiyi 60-cı illərdə şairin "Gözüm səni axtarır" (1966), "Dağlar danışsaydı" (1969) kitabları nəşr olunur ki, bu böyük uğur idi. 1974-cü ildə Moskvada "Sovetski pisatel" nəşriyyatı tərəfindən "Anama məktublar", 1981-ci ildə isə "Ocaq daşları" şeirlər kitabları çap edilmişdir.

Moskvada, SSRİ Yazıçılar İttifaqı nəzdində olan ikiillik ali ədəbiyyat kursunu bitirdikdən sonra (1971-1972) Bakıya qayıtmış, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, təsviri sənət şöbəsinin müdiri işləmiş, sonra Poeziya şöbəsinə rəhbərlik etmiş, ömrünün sonuna qədər burada çalışmışdır.

Macarıstan Xalq Respublikasında yaradıcılıq ezamiyyətində olmuş (1978-1980) və macar şairi Mikloş Radnotinin şeirlər kitabını doğma dilə çevirmişdir.

Bir-birinin ardınca nəşr edilən "Dağlar danışsaydı" (1969), "Məhəbbət yolları" (1973), "Ürək sözsüz danışır" (1976), "Ümid qatarı" (1979), "Azərbaycan bayatısı" (1984), "Dünya bir körpüdür" (1987) şeirlərdən və poemalardan ibarət kitabları oxucular tərəfindən böyük rəğbət qazanmışdır. 90-cı illərin əvvəllərində Davud Nəsibin müxtəlif illərin yaradıcılıq nümunələri daxil edilmiş sonuncu şeirlər kitabı "Karvan gedir" (1991) çap olundu. Şair artıq nəsrə keçmişdi və onun xəyalında qədim Azərbaycan (Alban) tarixinin hadisələri canlanırdı. Həmin 90-cı illərin tarıxı araşdırmalarının nəticələri olaraq, 2000-ci ildə "Cavanşir", 2001-ci ildə isə "Cavanşirsiz məmləkət" tarixi romanları nəşr edildi. Davud Nəsibə bu romanları məhz 90-cı illərin əvvəllərində Azərbaycanın düşdüyü o ağır şərait yazdırdı.

1969-c ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı (1984), Ümumittifaq komsomolu mükafatı laureatıdır (1986).

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına (1984), Ümumittifaq və Azərbaycan LKGİ-nin Fəxri Fərmanlarına layiq görülmüşdür.

Davud Nəsib 2003-cü il mart ayının 26-da qəzaya uğrayıb dünyasını vaxtsız dəyişmişdir.

Ədəbiyyat

Cavanşir: Tarixi roman /D.Nəsib; red. S.Sərxanlı; rəssam H.Qasımov.- Bakı: Araz, 2000.- 229 s.

Əsrin laylası /D.Nəsib; red. S.Sərxanlı; rəssam H.Qasımov.- Bakı: Gənclik, 1982.-223 s.

Karvan gedir: (şeirlər və poemalar) /D.Nəsib; red. M.Şükür.- Bakı: Yazıçı, 1991.- 192 s.

Cəfərov, N. Təvazökar, səmimi, iddiasız şairin qürurlu,vətənpərvər iddialı yaradıcılıq dünyası /N.Cəfərov //Ədəbiyyat qəzeti.- 2014.- 14 fevral.- S.7.

60 illiyi

Alim Qasımov 1957

Xanəndə

Alim Həmzə oğlu Qasımov 1957-ci il avqust ayının 14-də Şamaxı rayonunun Nabur kəndində anadan olmuşdur. Valideynləri onun musiqiyə və xüsusilə muğama olan istedadını uşaqlıqdan bilsələr də ona musiqi təhsili verməyə imkanları olmamışdır. Alim Qasımov ilk musiqi təhsilini 1978-1980-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində, xanəndə Ağaxan Abdullayevin muğam sinfində almışdır. Təhsil illərində Seyid Şuşinski, Hacıbaba Hüseynov və Azərbaycanın digər görkəmli xanəndələrinin muğam ifaçılığı ənənələrini mənimsəyərək, özünəməxsus dəsti-xəttini yarada bilmişdir. 1983-1989-cu illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) təhsilini davam etdirmişdir. Geniş diapazona malik səsinə və ifa manerasına görə bir çox xanəndələrdən fərqlənən A.Qasımov 1986-cı ildə, 25 yaşında ikən Cabbar Qaryagdıoğlu adına Xanəndələrin I Respublika müsabiqəsində iştirak etmiş və qalib olmuşdur. 1989-cu ildə o, tarzən Bəhram Mansurovla birgə çıxışlara başlamışdır ki, bu da onun üçün əsl sənət məktəbi olmuşdur.

Səhnə fəaliyyətində ən dəyərli uğurlardan biri də 1989-cu ildə Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun rolunda cıxış etməsi olmuşdur. 1990-cı ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olan xanəndə bu teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm, Aşıq Qərib obrazlarını məharətlə yaratmışdır.

On albomu işıq üzü görmüşdür. 1997-ci ildə Avropa Türk İslam Birliyinin, 1999-cu ildə Beynəlxalq IMC UNESCO Musiqi mükafatlarını almışdır.

Onun səsi "ən ecazkar səs" titulunа layiq görülmüşdür. Muğam ifası ilə Fransa, İngiltərə, Almaniya, Belçika, İspaniya, Braziliya, Honq Konq, Yaponiya, İran və Amerika Birləşmiş Ştatları kimi ölkələrdə konsertlərlə çıxış edən sənətçi, bütün dünyaya Azərbaycan muğam sənətini tanıdaraq, Azərbaycan mədəniyyətinin dünyaya yayılması üçün böyük bir rol oynayır.

O, fərqli nominasiyaya layiq görülüb. ABŞ-ın Corctaun Universiteti və mərkəzi İordaniyada yerləşən Strateji Araşdırmalar Mərkəzinin keçirdiyi müsabiqədə "Dünyanın ən nüfuzlu 500 müsəlmanı" arasında 4 azərbaycanlıdan biri olub. Onun səsi yazılmış disklər xaricdə böyük tirajla yayılıb. Musiqi albomları ən çox Fansada satılır. O, bu ölkədə Qrand Prix du Disque mükafatı alib. Fransanın "Le monde" qəzeti onu "ən nadir səs", "New York Times" "Azərbaycan möcüzəsi" adlandırıb.

Xanəndə 1993-cü ildə "Xalq artisti" fəxri adına, 2007-ci ildə "Şöhrət" ordeninə, 2014-cü ildə Heydər Əliyev Fondunun "Qızıl çinar" beynəlxalq mükafatına layiq görülüb.

Ə d ə b i y y a t

Sayılov, Ə. Alim deyil, aləmdi bu! /Ə.Sayılov, P.Xəlilov; red. S.Osmanöğlu.- Bakı: Araz, 2002.- 160 s.

Vəli, K. Səs: muğam işığında təksəsli, çoxsəsli düşüncələr: esse-kollaj /K.Vəli; red. Q.Ağsəs.- Bakı: Nurlan, 2011.- 191 s.

Alim Qasımov - 58: Dünya şöhrətli muğam ustasının yaşının üstünə daha bir yaş gəldi //Bizim yol.-2015.- 15 avqust.- S.11.

Göylərə ucalan səs...: Alim Qasımov-54 //Olaylar.- 2011.- 17 avqust.- S.6.

Odlar Yurdundan məhəbbətlə Alim Qasımov Lissabonda çıxış edib //Mədəniyyət.- 2016.- 22 yanvar.- S.10.

İ n t e r n e t d ə

www.anl.az/down/meqale/express/2011/avqust/195919.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2016/yanvar/473865.htm

75 illiyi

Müslüm Maqomayev 1942-2008

Opera və estrada müğənnisi

Müslüm Məhəmməd oğlu Maqomayev 1942-ci il avqust ayının 17-də Bakı şəhərində anadan olmuşdur. O, böyük sənətkar Ü.Hacıbəylinin sənət dostu, bəstəkar Müslüm Maqomayevin nəvəsidir. İlk musiqi təhsilini Bakı Konservatoriyasının nəzdindəki musiqi məktəbində fortepiano sinfində almışdır. Onun gözəl səsə malik olduğunu görən müəllimləri 1956-cı ildə Müslümü A.Zeynallı adına musiqi məktəbinin vokal sinfinə keçirmişlər. 14 yaşında Dənizçilər klubunda çıxış edən Müslüm ilk uğurunu qazanmışdır. 1962-ci ildə maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VII Ümumdünya Festivalında çıxış edən Müslüm mükafatla qayıtmış və bir müğənni kimi özünü tanıtmışdır. İlk solo konserti 1963-cü ildə Çaykovski adına konsert zalında baş tutmuş və həmin ildən o, Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. 1964-1965-ci illərdə M.Maqomayev "La Skala" Milan Teatrında təcrübə keçmişdir.

Azərbaycan xalqının musiqi ənənələrinin qorunub saxlanmasında və inkişaf etdirilməsində M.Maqomayevin yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət estrada simfonik orkesrti mühüm rol oynamışdır. Hələ 22-23 yaşlarında şöhrəti dünyanı dolaşan M.Maqomayev bir çox operalarda ifa etdiyi partiyalara öz möhürünü vurmuş, "Sevilya bərbəri"ndə Fiqaro partiyası ona geniş şöhrət gətirmiş, "Koroğlu" (Ü.Hacıbəyli), "Şah İsmayıl" (M.Maqomayev), "Toska" (C.Puççini), "Aleko" (S.Raxmaninov) və s. operalarda ifa etdiyi ariyalar tamaşaçıların dərin rəğbətini qazanmışdır. 1968-ci ildə Azərbaycan Konservatoriyasında Şövkət Məmmədovanın vokal sinfini bitirmişdir. M.Maqomayev Sopot (1969, I mükafat) və Kannda (1969 "Qızıl val") keçirilən beynəlxalq mahnı müsabiqələrinin laureatı olmuş, milyonlarla satılan disklərinə görə "Qızıl val"ı buraxılmışdır. Onun repertuarında 600-ədək əsər var .

İfaçılıq sənəti ilə bərabər, müğənni həm də gözəl mahnılar müəllifi idi. Onun Xalq şairi N.Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan "Azərbaycan" mahnısı ölkəmizə ithaf olunmuş ən gözəl əsəridir.

1971-ci ildə Azərbaycanın, 31 yaşında 1973-cü ildə isə SSRİ-nin "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1971-ci ildə "Qıqmızı Əmək Bayrağı", 1980-cı ildə "Xalqlar dostluğu", 1997-ci ildə "Şöhrət", 2002-ci ildə isə "İstiqlal" ordenləri ilə və onlarla müxtəlif mükafatlarla təltif edilmişdir.

Haqqında, 1971-ci ildə "Oxuyur Müslüm Maqomayev" film-konserti çəkilmişdir.

Müslüm Maqomayev 2008-ci il oktyabr ayının 25-də Moskva şəhərində vəfat etmişdir. Nəşi vətəni Azərbaycana gətirilərək Fəxri Xiyabanda dəfn edilmişdir. Qəbri üzərində Xalq rəssamı Ömər Eldarovun yaratdığı heykəli ucaldılmışdır. Xəzər dənizində adını daşıyan gəmi üzür.

Ə d ə b i y y a t

Великий Ланца /М.Магомаев.- Москва: Музыка, 1993.- 208 с.

Любовь моя - музыка /М.Магомаев.- Москва: Вагриус, 1999.- 316 с.

Bəhmənli, V. Maqomayev planeti /V.Bəhmənli; red. N.Məmmədli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Elm və təhsil, 2012.- 119 s.

Rəhmanzadə, F. Sən olmasaydın...: esse, oçerk, portret cizgiləri, xatirələr və fotosənədlər toplusu /F.Rəhmanzadə; red.: F.Qasımova, X.Qasımova; rəssam A.Hüseynov; burax. məs. S.Mikayılqızı.- Bakı: Ziya, 2010.- 333, [3] s.

Bütün zamanların sənətkarı M.Maqomayev //Azərbaycan.- 2014.- 26 oktyabr.- S.8.

105 illiyi

Niyazi 1912-1984

Dirijor

Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov 1912-ci il avqust ayının 20-də görkəmli musiqi xadimlərindən biri Zülfüqar bəy Hacıbəylinin ailəsində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra Moskva şəhərində Qnesinlər adına Musiqi Texnikumuna daxil olmuşdur. 1929-1930-cu illərdə Leninqrad Mərkəzi Musiqi Texnikumunda təhsil almışdır. Ancaq səhhətinə görə təhsilini Azərbaycan Dövlət Konservatoriyasında davam etdirmişdir. 1932-1934-cü illər Dağıstan Xalq Maarif Kommisarlığının elm, ədəbiyyat və incəsənət sektorunun müdiri, 1935-1937-ci illərdə Azərbaycan kinostudiyasının musiqi müdiri, 1937-1938-ci illərdə Azərbaycan Dövlət Estradasının bədii rəhbəri, 1938-1944-cü illərdə təşkilat komitəsinin sədr müavini, 1937-1948-ci illərdə dirijor, baş dirijor, Azərbaycan Opera və Balet Teatrının bədii rəhbəri və baş dirijoru vəzifələrində çalışmışdır.

1960-1961-ci illərdə Leninqrad Opera və Balet teatrının dirijoru olmuş,1979-cu ildən Azərbaycan Filarmoniyasının direktoru işləmişdir. Niyazinin bəstəkarlıq və dirijorluq fəaliyyəti 1930-cu illərdən başlamışdır. O, Zülfüqar Hacıbəylinin "Aşıq Qərib", Üzeyir Hacıbəylinin "Arşın mal alan" və s. əsərlərinin yeni redaksiyalarını hazırlamış, Azərbaycan xalq mahnılarını ("Xumar oldum", "Qaragilə", "Ay bəri bax", "Küçələrə su səpmişəm" və s.) simfonik orkestr üçün işləmiş, 1935-ci ildə "Rast" və "Şur" muğamlarını nota salmışdır. Niyazi 1934-cü ildə "Zaqatala süitası"nı, 1944-cü ildə "Qəhrəmanlıq" simfoniyasını, 1942-ci ildə "Xosrov və Şirin" operasını, 1949-cu ildə isə "Rast" simfonik muğamını yazmışdır.

Niyazi məşhur hind filosofu R.Taqorun "Çitranqoda" fəlsəfi dramı üzrə "Çitra" baletini yazmış, 1974-cü ildə Hindistanın beynəlxalq "Nehru" mükafatına layiq görülmüşdür. 1959-cu ildə "SSRİ Xalq artisti", 1951-1952-ci illərdə iki dəfə II dərəcəli "Stalin" mükafatına, 1982-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Fəaliyyəti dövründə iki dəfə "Lenin" ordeni, "Oktyabr ingilabı", "Qırmızı Əmək Bayrağı", "Şərəf" nişanı ordenləri, Macarıstanın B.Bartok adına medalı və onlarca müxtəlif mükafatlarla təltif edilmiş, 1982-ci ildə Tbilisinin fəxri vətəndaşı seçilmişdir.

1994-cü il sentyabrın 18-də Niyazinin ev-muzeyi yaradılmışdır. Muzeydə 6200-dən çox material qorunub saxlanılır. Burada əsasən Niyazinin şəxsi not əlyazmaları, kitabxanası, not kitabları, proqramları, afişaları, sənədləri, müxtəlif suvenirləri, ona hədiyyə edilmiş əşyalar, mebelləri və digər materiallar nümayiş olunur.

Niyazi 1984-cü il avqust ayının 2-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

2012-ci il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə respublikamızda "Niyazi ili" elan olunmuşdur.

Ə d ə b i y y a t

Rast [Notlar]: simfonik muğam /Niyazi.- Bakı: "EL" Nəşriyyat və Poliqrafiya şirkəti MMC, 2012.- 152 s.

Niyazi: "Dirijorluq mənim xoşbəxtliyimdir" /Niyazi; müsahibə apardı M.Vidadi //Qobustan: sənət toplusu.- 2012.- № 3.-S.9-14.

Niyazi (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə): Biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed.: P.Qurbanova; H.Həşimova, Ş.Məmmədli; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2012.- 198 s.

Niyazinin arxiv materialları Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində: kataloq. Not əlyazmaları. Sənədlər. Proqramlar. Afişalar /Azərb.Resp.Mədəniyyət və Turizm Nazirliyi; Azərb. Musiqi Mədəniyyəti Dövlət Muzeyi; layih. rəhb., elmi red. və ön söz A.Bayramova; tərt. red. R.Bayramov.-Bakı:E.L., 2013.- 83 s.

70 illiyi

Azərpaşa Nemətov 1947

Rejissor

Azərpaşa Zəfər oğlu Nemətov 1947-ci il avqust ayının 13-də Bakı şəhərində anadan olmuşdur. 31 saylı orta məktəbdə oxumuşdur. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, sonra isə Azərbaycan Dövlət Konservatoriyasında dünya şöhrətli bəstəkar Qara Qarayevin sinfində təhsil almışdır. Tələbəlik illərində mahnılar da bəstələmiş, amma sonradan 1965-ci ildə fikrini dəyişərək Teatr İnstitutunun rejissorluq fakültəsinə daxil olmuşdur. Məşhur rejissor Mehdi Məmmədovun kursunu bitirmiş, iki il onun yanında assistent-müəllim işləmişdir.

1972-ci ildə Gənc Tamaşaçılar Teatrında rejissor assistenti, sonra quruluşçu rejissor kimi fəaliyyət göstərmişdir. İlk dəfə "Qardaşım klarnet çalır" (A.Aleksin, R.Rojdestvenski və O.Feltsman) əsərini Gənc Tamaşaçılar Teatrının rus bölməsində tamaşaya qoymuşdur. 1973-1978-ci illərdə Sankt-Peterburqun Gənc Tamaşaçılar Teatrında çalışmaqla yanaşı, Leninqrad Dövlət Teatr, Kino və Musiqi İnstitutunda dərs demişdir. Bakıya qayıtdıqdan sonra 1983-1990-cı illərdə Gənc Tamaşaçılar Teatrında rejissor, baş rejissor və bədii rəhbər vəzifələrində çalışmışdır. 1990-cı ildən Akademik Milli Dram Teatrında quruluşçu rejissor vəzifəsində işləmişdir.

80-ə yaxın tamaşaya quruluş vermişdir. Görkəmli rejissorun Akademik Milli Dram Teatrında quruluş verdiyi "Biganələr oteli" (Rüstəm İbrahimbəyov), "Tufandan əvvəl" (Arif Süleymanov), "Hamlet" (Vilyam Şekspir), "Ah Paris, Paris", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Diaqnoz D" (Elçin) və s. səhnə əsərləri orijinallığı ilə milli teatrımızın ən gözəl nümunələrindən sayılır.

Rejissor Teatr Xadimləri İttifaqında yaradıcı gənclər laboratoriyasını yaratmış və onun rəhbərliyi ilə burada Qurban Səidin "Əli və Nino", Vilyam Şekspirin "12-ci gecə" tamaşaları hazırlanmışdır.

Tamaşaları İstanbulda, Aşqabadda, Moskvada keçirilmiş festival və müsabiqələrdə uğur qazanmışdır. Azərpaşa Nemətov Azərbaycan rejissorları arasında yeganə şəxsdir ki, Popov adına SSRİ ümumittifaq müsabiqəsinin laureatı (1985) mükafatını almışdır. 2004-cü ildən Teatr Xadimləri İttifaqının sədridir.

Azərpaşa Nemətov 1987-ci ildə "Əməkdar incəsənət xadimi", 2002-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

2015-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri - baş rejissoru vəzifəsinə təyin edilmişdir. Həmin il 23 dekabr tarixində TÜRKSOY-un "Haldun Taner" mükafatına layiq görülmüşdür.

2016-cı ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş direktoru vəzifəsinə təyin edilmişdir.

Ədəbiyyat

Azərbaycan dünyanın mədəniyyət mərkəzinə çevrilir /A.Nemətov //Mədəniyyət.-2011.-4 noyabr.-S.5.

Rəhimli, İ. Kəsişən paralellər /İlham Rəhimli; red.: K.Cəfərzadə, V.İbrahim oğlu.- Bakı: Çaşıoğlu, 2010.- 513 s.

Vahid, T. Sənətinin paşası - Azər Paşa Nemətov //Vahid, T. Doxsan imza: mədəniyyət yazıları silsiləsi /red.Q.Ağsəs; baş red. S.Bektaşi; Azərb. Resp.Mədəniyyət və Turizm Nazirliyi.- Bakı, 2014.- S.140-144.

İnternetdə

azdrama.az/rəhbərlik-2/azər-pasa-nemət-2

https://az.wikipedia.org/wiki/Azərpaşa_Nemət

teatrittifaqi.az/struktur.html

45 illiyi

Ehtiram Əliyev 1972

Milli Qəhrəman

Əliyev Ehtiram İsrayıl oğlu 1972-ci il avqust aynın 1-də Ucar rayonunun Qazyan kəndində anadan olmuşdur. 1987-ci ildə burada səkkizinci sinfi bitirdikdən sonra Bakı Maşınqayırma Texnikumuna daxil olmuşdur. 1992-ci ildə texnikumu bitirmiş və Azərbyacan Silahlı Qüvvələri sıralarına çağırılmışdır. Xidmət etdiyi hərbi hissədən Naxçıvan MR-na gondərilmiş, Sədərək və Batabat yaylağında ermənilərə qarşı aparılan döyüş əməliyyatlarında yaxından iştirak etmişdir.

1993-cü ildə E.Əliyevin xidmət etdiyi hərbi hissə Ağdama gondərilir. O, Ağdam, Füzuli, Tərtər və Cəbrayıl rayonlarında aparılan hərbi əməliyyatlarda şücaət göstərmişdir. 1994-cü ildə döyüşlərin birində yaralanmış, müalicə olunduqdan sonra yenidən orduya qayıtmışdır. 1994-cü ildə Tərtər bölgəsinə göndərilmişdir. 1996-cı ilin avgust ayında ordudan təxris olunmuşdur.

1997-1998-ci illərdə Sabunçu rayon Polis idarəsində işləmişdir. 2000-ci ildə Təfəkkür Universitetinə daxil olmuşdur. Nəqliyyat Nazirliyinin Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzalında sərnişindaşımanın təşkili şöbəsinin rəis müavini işləmişdir.

Aləlidir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Əliyev Ehtiram İsrayıl oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1998-ci ildə ümummilli lider Heydər Əliyev Ehtiram Əliyevə "Qızıl Ulduz" medalını təqdim etmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbycan Milli Qəhrəmanı"adı verilməsi haqqında[Əliyev Ehtiram İsrayıl oğlu –Müdafiə Nazirliyi,baş çavuş-Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsi,onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.

Əliyev Ehtiram İsrayıl oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.54-55.

Əsgərov, V. Əliyev Ehtiram İsrayıl oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Sumqayıt, 2010.- S.76.

Seyidzadə, M. Əliyev Ehtiram İsrayıl oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.54.

45 illiyi

Rövşən Əliyev 1972-1992

Milli Qəhrəman

Rövşən Nəriman oğlu Əliyev 1972-ci il avqust ayının 30-da Bakı şəhərində anadan olmuşdur. 1989-cu ildə Xətai rayonundakı 254 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Politexnik İnstitutunun maşınqayırma fakültəsinə daxil olmuş, 1991-ci ilin may ayında könüllü olaraq orduya yazılmışdı. O, döyüşə atılaraq Ağdam rayonunun Sirxavənd, Qarançı kəndlərinin düşməndən azad edilməsində yaxından iştirak etmiş və böyük igidlik göstərmişdir.

13 may 1992-ci ildə ermənilər bizim əsgərləri Dəhraz kəndindən çıxarmaq məqsədilə Abdal kəndinə hücum edirlər. Tələbə döyüşçü Ağbulaq-Dəhraz əməliyyatlarında xüsusilə fərqlənir. Bu kəndlər Rövşən Əliyev kimi oğulların dönməzliyi sayəsində erməni quldurlardan təmizlənir.

1992-ci ilin iyun ayında ermənilər yenidən Dəhraz kəndinə hücum edir. Həmin döyüşlərdə Rövşən yaralı yoldaşlarının düşmən əlinə keçməməsi üçün böyük şücaət göstərərək, onları döyüş meydanından uzaqlaşdırmağa müvəffəq olur. O, komandirini xilas edərkən başından yaralanır və həlak olur.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Əliyev Rövşən Nəriman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Təhsil aldığı 254 saylı orta məktəbə və Bakı şəhərindəki küçələrindən birinə qəhrəmanın adı verlmişdir.

Ə d ə b i y y a t

Azərbyacan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycan Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Əliyev Rövşən Nəriman oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında ,dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igilik və şücaətə görə]Azərbaycan Respublikası Prezidentinin Fərmanı,7 dekabr 1992-ci il //Azərbaycan Respublikası Ali Soveinin məlumatı.- 1992.- №24.- S.50 (Ölümündən sonra).

Əliyev Rövşən Nəriman oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.62-63.

Əsgərov, V. Əliyev Rövşən Nəriman oğlu //Əsgərov V. Azərbaycanın milli qəhrəmanları.- Sumqayıt, 2010.- S.88.

Seyidzadə, M. Əliyev Rövşən Nəriman oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.65.

50 illiyi

Yunis Nəcəfov 1967-1992

Milli Qəhrəman

Yunis İsa oğlu Nəcəfov 1967-ci il avqust ayının 31-də Kəlbəcər rayonunda anadan olmuşdur. 1975-ci ildə Xanlar rayonunun Alabaşlı kəndində məktəbə getmiş, 1985-ci ildə Goranboy rayonunun Qaraqucaq kənd orta məktəbini bitirmişdir. Bakı Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuşdur. İkinci kursdan sonra təhsilini Çelyabinsk Tank Məktəbində davam etdirmişdir. 1989-cu ildə leytenant rütbəsi almış və hərbi hissələrin birində qulluğa başlamışdır. 1990-cı ildə Bakıya gələrək Biləcəri dəmiryol idarəsində çalışmışdır. 1991-ci ildə könüllü olaraq cəbhəyə yollanmış, 701 saylı hərbi hissədə bölük komandiri kimi xidmətə başlamışdır. Kərkicahan, Malıbəyli kəndlərinin, Şuşa şəhərinin müdafiəsində iştirak etmişdir. Kəlbəcər kəndlərinin müdafiəsində iştirak edərək bir neçə kəndin geri alınmasında igidlik göstərmişdir. Baş leytenant Yunis Nəcəfovun son döyüşü 24 avqust 1992-ci ildə olur. O, Vəng kəndinin azad olunması uğrunda gedən döyüşlərdə böyük rəşadət göstərərək şəhid olur.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə baş leytenant Nəcəfov Yunis İsa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Goranboy rayonunun Qazqucaq kəndində dəfn edilmiş, Goranboy rayonunda və Biləcəri qəsəbəsində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbyacna Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycan Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Nəcəfov Yunis İsa oğlu - böyük komandiri - Azərbaycan Respunlikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igilik və şücaətə görə] Azərbaycan Respublikası Prezidentinin Fərmanı,7 dekabr 1992-ci il // Azərbaycan Respublikası Ali Soveinin məlumatı.- 1992.- №24.- S.50 (Ölümündən sonra).

Əsgərov, V. Nəcəfov Yunis İsa oğlu //Əsgərov V. Azərbaycanın milli qəhrəmanları.- Sumqayıt, 2010.- S.225.

Nəcəfov Yunis İsa oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.162.

Seyidzadə, M. Nəcəfov Yunis İsa oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.176.

İ n t e r n e t d ə

www.milliqahraman.az

www.muallim.edu.az

150 illiyi

Səttarxan 1867-1914

Siyasi xadim



Səttarxan Hacıhəsən oğlu 1867-ci il avqust ayının 15-də Cənubi Azərbaycanın Qaradağ vilayətinin Məmmədxanlı mahalında anadan olmuşdur.

1905-1911-ci illər İran inqilabının məskəni Cənubi Azərbaycan, onun lideri isə Azərbaycanın qəhrəman oğlu Səttarxan sayılmışdır. 1905-ci ildə ümumən İranda, o cümlədən də Cənubi Azərbaycanda genişlənən inqilabi hərəkata qoşulmuş, 1906-cı ildə Təbrizin Əmirəxız məhəlləsi mücahidlərin başçısı və "Həqiqət" əncuməsinin üzvü olmuşdur. Səttarxan fədai dəstələrinin sayını artırmağa çağırmış və onlara daim hərbi təlimlər keçmişdir.

1908-ci il iyunun 23-də şah qoşunları İran məclisinə hücum edir, inqilabçılara divan tutulur. Onlar İran vilayətində inqilabı boğduqdan sonra Azərbaycana üz tuturlar. İyulun 18-də Təbrizin Əmiraxız məhəlləsində küçə vuruşmaları zamanı Səttarxanın rəhbərliyi altında fədai dəstələri əksinqilabi qüvvələrə ağır zərbələr endirir, onları geri çəkilməyə məcbur edirlər.

1908-ci ilin sonu 1909-cu ilin əvvəllərinə qədər gedən döyüşlərdə Səttarxan dəstələri tədricən bütün Cənubi Azərbaycanı şah qoşunlarından və mürtəce qüvvələrdən təmizləyirlər. On bir ay davam edən vuruşmada xalq müdafiəsini təşkil edən Səttarxan inqilabi hərəkatın rəhbərlərindən birinə çevrilir.Təbriz üsyanı zamanı inqilabi hökumət - hərbi şura yaradılır. Şuraya Səttarxan, Bağırxan, Əli Müsyo kimi görkəmli şəxslər daxil olurlar.

1909-cu ilin aprelində Rusiyanın köməkliyi ilə şah qoşunları Təbrizə girir və mülkədar burjua hökuməti yaradılır. 1910-cu ilin aprelində yeni liberal mülkədar burjua hökumətinin dəvəti ilə başda Səttarxan olmaqla 100 nəfər fədai dəstəsi Tehrana dəvət olunur. Tehran əhalisi Səttarxanı böyük təntənə ilə qarşılayır. Lakin 1910-cu il avqustun 7-də yeni hökumətin qoşunları tərəfindən mühasirəyə alınan və qəfil hücuma məruz qalan fədai dəstələri tərksilah edilir. Atışma zamanı Səttarxan ağır yaralanır və uzunsürən xəstəlikdən sonra 1914-cü il noyabrın 9-da vəfat edir.

Xalq və vətən qarşısında xidmətlərinə görə Cənubi Azərbaycan əyalət əncüməni Səttarxanı "Sərdari milli" (Millətin sərkərdəsi) adlandırmış, döyüşdə fərqlənənləri təltif etmək üçün "Səttarxan" medalı təsis etmişdir.

Səttarxana dastan, roman, çoxlu şeir, nəğmə, hekayə, oçerk və s. həsr edilmişdir. Adını əbədiləşdirmək üçün Təbrizdə Səttarxanın heykəli qoyulmuş, kuçələrdən birinə onun adı verilmişdir.

Ə d ə b i y y a t

Mişov, D. Səttarxan: Azərbaycanın milli sərdarı /D.Mişov.- Tehran, 2013.- 152 s.

Makulu, A. Səttarxan: roman /Makulu Abbas (Pənahı).- Bakı, 1983.- Kitab I.- 325 s; Kitab II.- 334 s.

Görkəmli inqilabçı Səttarxan /red. B.Hüseynov.-Bakı: Azərnəşr, 1972.-45 s.

Nurəddin, İ. Səttarxan /İ.Nurəddin //Hürriyyət.- 2012.- 7-9 sentyabr.- S.10.

85 illiyi

Həsən Seyidov 1932-2004

Siyasi xadim

Həsən Neymət oğlu Seyidov 1932-ci il avqust ayının 16-da Marneuli rayonunun Qaçağan kəndində anadan olmuşdur. 1939-cu ildə Qaçağan kənd orta məktəbinin I sinfinə daxil olmuş, 1951-ci ildə Cəlaloğlu orta məktəbini bitirmişdir. Həmin ildə Bakıya gələrək, Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olmuşdur. Ali məktəbdə təhsil aldığı illərdə Həsən Seyidov əla oxumaqla yanaşı, institutun ictimai-siyasi həyatında fəal iştirak etmiş, fakültə komsomol komitəsinin katibi vəzifəsində işləmişdir.

Həsən Seyidov əmək fəaliyyətinə 1956-cı ildə SSRİ Kimya və Neft Maşınqayırma Nazirliyinin L.Şmidt (indiki Səttarxan) adına zavodunda usta köməkçisi kimi başlamış, 9 il ərzində mühəndis və baş mühəndisin müavini vəzifələrində çalışmış, 1965-ci ildə zavod direktoru vəzifəsinə təyin olunmuşdur.

1969-cu ildə Həsən Seyidova Azərbaycan SSR-in "Əməkdar mühəndis" fəxri adı verilmişdir.

1971-ci ilin fevral ayında Həsən Seyidov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Sənaye-nəqliyyat şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. 1971-1981-ci illərdə MK-nın katibi, 1971-1989-cu illərdə MK-nın büro üzvü, 1971-1991-ci illərdə Azərbaycan KP MK-nın üzvü və 1971-1990-cı illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

1981-1989-cu illərdə Həsən Seyidov Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində çalışmışdır.

1970-1980-ci illərdə respublika iqtisadiyyatının, xüsusilə sənayenin inkişafında Həsən Seyidovun xüsusi xidmətləri olmuşdur. Həmin dövrdə sənayedə mühüm struktur dəyişiklikləri baş vermiş - elmi-texniki inqilabla bağlı yeni, müasir və daha mürəkkəb istehsal sahələrinin yaradılması prosesi genişlənmiş, neftayırma zavodlarının texniki cəhətdən modernləşdirilməsi və yenidən qurulmasına diqqəti artırmış, maşınqayırma və neft maşınqayırması, qara və əlvan metallurgiya sənaye sahələri xeyli inkişaf etmişdir.

Dövlətimiz Həsən Seyidovun xidmətini layiqincə qiymətləndirmişdir. Onu "Lenin" ordeni, üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif etmişdir. Bundan başqa, o bir neçə dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fəxri diplomu ilə mükafatlandırılmışdır.

1989-cu ilin aprel ayında fəxri təqaüdə çıxdıqdan sonra, Azərbaycan SSR Nazirlər Soveti yanında SSRİ Xarici İqtisadi Əlaqələr Nazirliyinin müvəkkili təyin edilmişdir. 1991-ci ilin noyabr ayında "Azərinkom" informasiya-kommersiya birliyinin, 1997-ci ildən isə "Azərinkom" səhmdar cəmiyyətinin baş direktoru vəzifəsində çalışmışdır.

Həsən Seyidov 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Babakərli, P. Xalqa təmənnasız xidmət nümunəsi Həsən Seyidov – 80 /P.Babakərli //525-ci qəzet.- 2012.- 16 avqust.- S. 4.

İnternetdə

https://az.wikipedia.org/wiki/Həsən_Seyidov_(siyasətçi)

https://az.wikipedia.org/.../Azərbaycan_SSR_Nazirlər_Soveti

www.anl.az/down/meqale/525/2012/avqust/256080.htm

125 illiyi

Seyid Cəfər Pişəvəri 1892-1947

Siyasi xadim

Seyid Cəfər Pişəvəri (Cavadzadə; Xalxali) 1892-ci il avqust ayının 26-da Güney Azərbaycanın Xalxal bölgəsinin Zeyvə kəndində anadan olmuş, ilk təhsilini həmin kənddə almışdır. 1905-ci ildə valideynləri ilə birgə Bakıya köçmüşdür. Bülbülə kəndində təhsilini davam etdirən Pişəvəri, həm də çalışmışdır. 1913-1917-ci ilə kimi Xırdalan kəndində müəllimlik etmiş, dərin mütaliəsi sayəsində ictimai elmləri öyrənməyə və siyasi fəaliyyətə başlamışdır. İlk məqalələrini "Açıq söz" qəzetində çap etdirmişdir.

İran xalqının ağır vəziyyəti onu çox düşündürürdü. Geniş mübarizə meydanı axtaran Pişəvəri 1919-cu ildə İran Ədalət Firqəsinin Bakıda açılmış "İttihad" mədrəsəsində muəllim işləməyə başlamış, Bakıda N.Nərimanov, B.Ağazadə və başqaları ilə sıx əlaqə saxlamışdır.

1919-1920-ci illərdə "Hürriyyət" qəzetinin redaktoru olmaqla yanaşı, İran Ədalət Firqəsi Mərkəzi Komitəsinin xarici bölməsinin katibi vəzifəsinə də seçilmişdir. 1921-ci ilin əvvəlində "Həqiqət" qəzetini nəşr etdirmiş, yorulmadan bütün varlığını irtica və imperializm əleyhinə mübarizəyə həsr etmişdir. 1930-cu ilin dekabr ayında Pişəvəri rejim əleyhinə suçlanaraq həbs olunmuş və 10 il zindanda məhbus həyatı keçirmişdir. Zindanda olduğu müddətdə "Zindan xatirələri dəftərindən", "Ədalət firqəsinin tarixi" siyasi əsərləri, "Nadirə", "Məhin banu" romanlarını və bir sıra ədəbi, bədii, tənqidi məqalələrini tamamlamışdır.

1941-ci ildə məhbusluqdan azad olunaraq, Tehrana getmiş, İran Xalq Partiyasının yaranmasında yaxından iştirak etmişdir. 1943-cü ildə "Acer" adlı demokratik yönümlü qəzet nəşr etdirməyə başlamışdır. Bu qəzet vasitəsilə Rza şahı, onunla birlikdə xalq kütlələrini vəhşicəsinə soyan və İrann müstəmləkəyə çevrilməsinə kömək edən irticanı ifşa etmişdir.

1945-ci ilin yayında Tehrandan həmişəlik Azərbaycana köçmüş və Azərbaycan Demokrat Firqəsini yaratmışdır. Həmin ildə "Azərbaycan" qəzeti nəşr ediməyə başlamışdı. Oktyabr ayında keçirilən ADF-nin I qurultayı Pişəvərini Mərkəzi Komitənin sədri seçmiş, ADF-nin orqanı olan "Azərbaycan" qəzeti vasitəsilə Azərbaycan xalqı qarşısında duran vəzifələri "21 Azər" hərəkatının hazırlanması taktikası Pişəvərinin başçılığı ilə həyata keçirilmişdir. 1945-ci ildə Azər hərəkatının qələbəsi nəticəsində fəaliyyətə başlamış Azərbaycan Milli Məclisinin qərarı ilə Pişəvəri Azərbaycan Milli Hökumətinin Baş naziri təyin edilmişdir. O, "12 şəhrivar", "Qızıl səhifələr" adlı bədii əsərlərin müəllifi və naşiridir.

Seyid Cəfər Pişəvəri 1947-ci il iyun ayının 11-də Gəncə şəhərindən qayıdarkən, Yevlax yaxınlığında müəmmalı şəkildə avtomobil qəzasına düşərək vəfat etmişdir. Məzarı Bakı şəhərində Fəxri Xiyabandadır.

Onun adı çağdaş Güney Azərbaycanda milli azadlıq hərəkatının simvolu kimi yaşamaqdadır.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /S.C.Pişəvəri.- Bakı: "Azərbaycan" Ruznaməsi, 1965.- 591 s.

Xatirələr (1941-1945) /S.C.Pişəvərı; tərt. ed Y.Kani (Nəminli); Azərbaycan Demokrat Firqəsinin nəşri.- Bakı, 2005.- 394 s.

Mustafa Əziz. Seyid Cəfər Pişəvəri - azadlıq və müstəqillik fədaisi /Mustafa Əziz //Zaman.- 2011.- 10-12 dekabr.- S.12.

Rəhimli, Ə. Həyatını millətinin azadlığına həsr etmiş şəxsiyyət /Ə.Rəhimli //Xalq cəbhəsi.-2014.- 12 dekabr.- S.15.

70 illiyi

Aqil Hacıyev 1947

Ədəbiyyatşünas

Ə d ə b i y y a t

Poeziyadan nəsrə /A.Hacıyev; elmi red. N.Cəfərov.- Bakı: [s.n], 2011.- 37 s.

Daim Qafqazı tərənnüm edən ədib - M.Y.Lermontov /A.Hacıyev //Lermontov M.Y. Seçilmiş əsərləri.- Bakı, 2006.- S.5-12.

Dünya ədəbiyyatı Şərq-Qərb kontekstində /A.Hacıyev //Ədəbiyyat qəzeti.- 2014.- 28 noyabr.- S.15.

Программа по литературе для V-XI классов общеобразовательных школ с русским языком обучения /А.Гаджиев (в соавторстве).- Баку: Кевсер, 2006.- 30 с.

Азербайджан в творчестве профессора Бакинского университета В.И.Иванова /А.Гаджиев //"Вестник" БГУ, серия гуманитарная.- 2007.- №2.- С.35-40.

Hacıyev Aqil Cəfər Xəndan oğlu: Biblioqrafiya /tərt. ed. A.Qasımova.- Bakı: Çaşıoğlu, 2007.- 61 s.

www.az.wikipedia.org

Aqil Cəfər Xəndan oğlu Hacıyev 1947-ci il avqust ayının 10-da Şuşa şəhərində, professor Cəfər Xəndan Zeynal oğlu Hacıyevin ailəsində anadan olmuşdur. Bakı şəhərindəki 6 saylı orta məktəbi 1965-ci ildə bitirdikdən sonra, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuşdur. Universitetdə oxuduğu illərdən (1965-1970) jurnalistlik və tərcüməçilik fəaliyyətinə başlamışdır. Məqalələrini "Баку", "Молодежь Азербайджана", "Литературный Азербайджан" jurnallarında dərc etdirmişdir. 1970-ci ildə Moskva Dövlət Universitetinin Rus ədəbiyyatı kafedrası nəzdində aspiranturaya qəbul olunmuş və 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Həmin ildə Azərbaycan Dövlət Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında, 1974-1976-cı illərdə baş müəllim, daha sonralar dosent vəzifəsində işləmişdir. 1982-ci ildə Tbilisidə filologiya elmləri doktoru dərəcəsi almaq üçün doktorluq dissertasiyasını müdafiə etmişdir. Elmi araşdırmalarının nəticəsi olaraq "XIX əsrin I yarısı rus ədəbiyyatında Qafqaz", (rus dilində, 1982), "Rus oçerkinin inkişaf tarxi" (rus dilində, 1984), "Ədəbi qardaşlığın mərhələləri" (rus dilində, 1986), "Puşkinin ətrafında" (rus dilində, 1989), "A.A.Bestujev-Marlinski" (rus dilində, 1992), "P.A.Katenin" (rus dilində, 1999), "Rus ədəbiyyatında Qafqaz tematikası" (Bişkek, qırqız dilində, 2008) kitablarını ərsəyə gətirmişdir.

1983-cü ildə BDU-da Rus ədəbiyyatı tarixi kafedrasının professoru elmi ada layiq görülmüş, 1984-cü ildə həmin kafedranın müdiri, 1982-1984-cü illərdə təbiət elmləri fakültələri üçün Rus dili kafedrasının müdiri, 1990-1992-ci illərdə isə filologiya fakültəsinin dekanı olmuşdur. A.Hacıyev 1987-ci ildən Yazıçılar İttifaqının üzvüdür. Türk folkloruna dair silsilə araşdırmalarına görə 1993-cü ilin sentyabrında Ankaradakı Türkiyə folklor qurumunun fəxri üzvü seçilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Avropa Dilləri və ədəbiyyatları üzrə Tədris-metodiki şurasının, Bakı Dövlət Universitetinin və filologiya fakültəsinin Elmi Şuralarının üzvüdür.

"Литературный Азербайджан», "BDU xəbərləri" jurnalının redaksiya heyətinin, «Научная мысль Кавказа» jurnalının redaksiya şurasının üzvü, "Dil və ədəbiyyat" jurnalının məsul katibi və rus filologiyası şöbəsinin müdiridir.

Müxtəlif illərdə Azərbaycan Ali Attestasiya Komissiyasının eksperti (1992-1993) və humanitar və ictimai elmlər şöbəsinin müdiri (2003-2004), Tələbə Qəbulu üzrə Dövlət Komitəsinin ekspert şurasının sədri, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə Müdafiə Şurasının sədri, rus dili və ədəbiyyatı ixtisası üzrə Müdafiə Şurasının sədr müavini olmuşdur (1994-1996).

Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

80 illiyi

Qəzənfər Paşayev 1937

Ədəbiyyatşünas

Ə d ə b i y y a t

Altı il Dəclə Fərat sahillərində /Q.Paşayev; red. A.Vəfalı.- Bakı: Kitab klubu, 2015.- 310 s.

Dilimiz-varlığımız /Q.Paşayev; elmi red. və ön söz müəl. T.Hacıyev.- Bakı: Ozan, 2011.- 207 s.

Ədəbi məktublar /Q.Paşayev; red və ön sözün müəl. B.Əhmədli.- Bakı: Təhsil, 2015.- 238, [17] s.

Əta Tərzibaşının folklorşünaslıq fəaliyyəti: monoqrafiya /Q.Paşayev; ön söz müəllifi M.Qasımlı; red.: S.Saatçı, M.Naqib.- Bakı: Təhsil, 2016.- 262 s.

Azaflı, M. Qoca Azaflıyam /M.Azaflı; tərt. ed. və ön söz. Q.Paşayev, M.Azaflı; red. M.Qasımlı, G.Azaflı.- Bakı: Nurlan, 2008.- 758, [3] s.

Kərkük sevdalı elm adamı: Məqalələr toplusu /tərt. ed. A.Paşayeva; red.: N.Cəfərov, S.Saatçı, M.Naqib; ön söz S.Rüstəmxanlı.-Bakı: Təhsil, 2013.- 231 s.

Qəzənfər Məhəmməd oğlu Paşayev 1937-ci il avqust ayının 27-də Tovuz rayonunun Düzqırıxlı kəndində anadan olmuşdur. 1946-1956-cı illərdə doğma kəndində orta təhsil almışdır. 1957-ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsinə qəbul olunmuş, 1962-ci ildə həmin institutu bitirmişdir.

Əmək fəaliyyətinə Əli Bayramlı (indiki Şirvan) rayonunun Vladimirovka kəndində ingilis dili müəllimi kimi başlamışdır. 1962-1966 və 1972-1975-ci illərdə İraqda tərcüməçi işləmişdir.

1964-1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda çalışmış, dosent, dekan müavini, kafedra müdiri vəzifələrini icra etmişdir.

1969-cu ildə namizədlik, 1993-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1995-ci ildə professor elmi rütbəsini almışdır. 1990-2000-ci illərdə ADU-nun Qərbi Avropa dilləri kafedrasında çalışmışdır. 2001-2005-ci illərdə AMEA-nın Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində Beynəlxalq əlaqələr şöbəsinin müdiri, 1990-2003-cü illərdə Azərbaycan-İraq Dostluq Cəmiyyətinin sədr müavini, 1997-ci ildən bu günə kimi Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın üzvüdür. 1989-cu ildə SSRİ və Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

Folklor, klassik və müasir ədəbiyyat və aşıq yaradıcılığı üzrə çoxsaylı kitabların müəllifi, tərtibçisi və redaktorudur. Onun fundamental "Qoca Azaflıyam" əsəri məşhur Azərbaycan aşığı Mikayıl Azaflının yaradıcılığından bəhs edir. Professor Q.Paşayev ABŞ, İngiltərə, İraq, Səudiyyə Ərəbistanı, Hindistan, Suriya, Türkiyə, Rusiya, Özbəkistan, Qazaxıstan və başqa ölkələrdə məruzələr etmiş, məqalələri çap olunmuşdur.

İraq xalqının, xüsusən də İraqda məskən salan azərbaycanlıların mədəni və mənəvi dəyərlərinin tədqiqi və təbliği Q.Paşayevin ədəbi-elmi fəaliyyətində mühüm yer tutur.

Q.Paşayev ictimai işlərdə də fəal iştirak etmişdir. O, Təhsil Nazirliyinin nəzdində Qərbi Avropa Dilləri üzrə Elmi Müdafiə Şurasınn elmi katibi, Nizami ad. Dil və Ədəbiyyat İnsitutunun nəzdində Müdafiə Şurasının və 2010-cu ildən institutun Elmi Şurasının üzvü olmuşdur.

İraq Respublikasının "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmiş, eləcə də Kərkük Vəqfinin (1999) və İraq-Türkmən cəbhəsinin (2003) yüksək diplom və ödüllərinə layiq görülmüşdür. 2004-cü ildən Yazıçılar Birliyinin Təftiş Komissiyasının sədridir. 2012-ci ildə folklor üzrə Respublika Problem Şurasının sədri seçilmiş, həmin ildə də anadan olmasının 75 illiyi münasibəti ilə AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

2013-cü ildə Azərbaycan Ağsaqqallar Şurasının üzvü seçilmişdir.

75 illiyi

Vasim Məmmədəliyev 1942

Akademik

Vasim Məmmədəli oğlu Məmmədəliyev 1942-ci il avqust ayının 27-də Bakı şəhərində anadan olmuşdur. 1959-cu ildə orta məktəbi bitirmiş, ADU-nun (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olmuşdur. 1964-1967-ci illərdə təhsilini Tbilisi Dövlət Universitetinin aspiranturasında davam etdirmişdir. Vasim Məmmədəliyev 26 yaşında, Tbilisidə namizədlik dissertasiyasını müdafiə etmiş, 32 yaşında ən gənc elmlər doktoru olmuşdur.

1968-ci ildən ADU-nun Ərəb filologiyası kafedrasında müəllim, professor, kafedra müdiri, dosent (1979-1991), institutun humanitar fakültələr üzrə prorektoru (1991-1992) vəzifələrində çalışmışdır. 1981-1991-ci illərdə BDU-nun şərqşünaslıq fakültəsinin dekanı, 1991-1992-ci illərdə professoru olmuşdur. 1993-cü ildən ilahiyyat fakültəsinin dekanıdır. Azərbaycan Respublikası Təhsil Nazirliyi Şərqşünaslıq üzrə elmi-metodik şuranın sədri (1983-1997), "Bakı Universitetinin Xəbərləri" jurnalının redaktoru (1992-1997) kimi fəaliyyət göstərmişdir. 1997-ci ildən Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədridir.

Vasim Məmmədəliyev ərəb filologiyası və islamşünaslıq sahəsində görkəmli mütəxəssisdir. İndiyədək alimin onlarla kitabı: "Ərəb ədəbi dilində felin zaman şəxs və şəkil kateqoriyaları", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi", "Quran və elm" və s. nəşr olunmuşdur. "Ərəb dilçiliyi" monoqrafiyası demək olar ki, dünya şərqşünaslığına layiqli töhfədir. Vasim Məmmədəliyev humanitar elmlərin müxtəlif sahələrinə dair 10-dan çox monoqrafiyanın, 250-dən çox elmi, elmi-publisistik məqalənin müəllifidir.

Vasim Məmmədəliyev ilk dəfə olaraq akademik Z.Bünyadovla birgə "Qurani Kərim"i Azərbaycan dilinə tərcümə etmişdir. O, nəinki ədəbiyyatımızın, klassik poeziyamızın, eyni zamanda ərəb, fars şeirinin tanınmış araşdırmaçılarından sayılır. Ərəb dilçiliyi və ilahiyyat sahəsində nail olduğu elmi nəticələr ərəblərin özləri tərəfindən yüksək qiymətləndirilmiş, 1989-cu ildən İraq EA-nın üzvü, 1995-ci ildən Suriya Quran Elmləri və Ərəb filologiyası Akademiyasının üzvü seçilmişdir.

Vasim Məmmədəliyev 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, 2002-ci ildə "Şöhrət", 2009-cu ildə "Şərəf" ordenləri ilə təltif olunmuş, 2003-cü ildə Dağıstan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, Misir Ərəb Dili Akademiyasının üzvü, 2004-cü ildə Azərbaycan Prezidenti yanında AAK-in Rəyasət Heyətinin üzvü seçilmişdir.

2007-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.

Ədəbiyyat

Quran və elm /V.Məmmədəliyev; red. V.Qarabağlı.-Bakı: Qismət, 2006.- 128 s.

Qur'ani-Kərim /ərəb dilindən tərc. ed.: Z.M.Bünyadov, V.M.Məmmədəliyev; ön söz. V.M.Məmmədəliyev; məsləhətçi red. Şeyxülislam A.H.Paşazadə.- Bakı: Çıraq, 2005.- 630 s.

Əzizov, E. Mənalı ömrün anları /E.Əzizov; elmi red. M.Ş.Rəhimov.-Bakı: Bakı Universitetinin Nəşriyyatı, 2002.- 78 s.

Vasim Məmmədəli oğlu Məmmədəliyev: biblioqrafiya /Azərb. Milli EA Mərkəzi Elmi Kitabxana; tərt.-müəl.: K.Eyvazova-Yusifova, M.Rəhimzadə, İ.Səfərov; red. A.Əliyeva-Kəngərli.- Bakı: Elm, 2012.- 290, [2] s.

Baxşəliyeva,G. Azərbaycan şərqşünaslığının ağsaqqalı /G.Baxşəliyeva //Ədəbiyyat qəzeti.-2013.- 5 iyul.- S.5.

75 illiyi

Şəmistan Nəzirli
1942

Tədqiqatçı, publisist

Şəmistan Əmiraslan oğlu Nəzirli 1942-ci il avqust ayının 27-də Qərbi Azərbaycanın Noemberyan rayonunun Yuxarı Körpülü kəndində anadan olmuşdur. 1950-ci ildə Yuxarı Körpülü kənd məktəbinin birinci sinfinə getmişdir. 1958-ci ildə ailəsi ilə birlikdə Azərbaycana köçmüş, 1960-cı ildə Dəvəçi rayonundakı 1 saylı şəhər orta məktəbini bitirmişdir. 1960-1961-ci illərdə Bakı şəhərindəki 5 saylı Texniki peşə məktəbində təhsil almışdır. 1962-1965-ci illərdə Keçmiş Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1967-1972-ci illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə indiki N.Tusi adına Pedaqoji Universitetin "Gənc Leninçi" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır. Sonralar Azərbaycan Respublikası Televiziya və Radio Şirkətində Hərbi vətənpərvərlik redaksiyasında redaktor, böyük redaktor və baş redaktor vəzifələrində çalışmışdır. 1991-1992-ci illərdə Azərbaycan Dövlət Ensiklopediyasının "Xatirə" redaksiyasında şöbə müdiri işləmişdir. 1992-ci il avqust ayının 19-dan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi-Elmi Tədqiqatlar İdarəsində Hərb tarixi şöbəsinin rəisi olmuşdur. Polkovnik-leytenant hərbi rütbəsinədək yüksəlmişdir. 1996-1998-ci illərdə Müdafiə Nazirliyində baş elmi işçi vəzifəsində çalışmışdır. Azərbaycan Respublikası Televiziya və Radio Şirkətində "Hərbi proqramlar və Salnamə" baş redaksiyasının baş redaktoru işləmişdir. 2012-ci ildə Müdafiə Nazirliyinin Hərbi Elmi Mərkəzinin Hərb tarixi şöbəsində polkovnik-leytenant rütbəsində baş elmi işçi olmuşdur.

Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən 1958-ci ildə "Sovet Ermənistanı" qəzetində çıxan kiçik məqaləsi ilə başlamışdır. İstedadlı və məhsuldar publisist kimi tanınan Şəmistan Nəzirli eyni zamanda dəyərli tədqiqat əsərləri ilə də tanınmağa başlamışdır. Tədqiqatlarının əsasını Xalq şairi Səməd Vurğun irsinin tədqiqi və Azərbaycanın məşhur hərbçiləri və generalları təşkil edir. Sanballı əsərlərin, məqalələrin müəllifidir.

1995-ci ildə "Qacarlar" əsərinə görə İran-Azərbaycan Dostluq Cəmiyyətinin birinci dərəcəli mükafatına, 1996-cı ildə Xalq şairi Səməd Vurğun haqqında silsilə əsərlərinə görə "Səməd Vurğun" fəxri diplomuna layiq görülmüşdür. 1999-cu ildə hərbi vətənpərvərlik mövzusunda tarixi publisistik əsərlərinə görə "Elm" fondunun "İlin ən yaxşı kitabı" mükafatına, 2002-ci ildə Həsən bəy Zərdabi adına Respublika mükafatına layiq görülmüş, 2004-cü ildə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı ilə, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla, "Səməd Vurğun mükafatı"na, 2012-ci ildə Azərbaycan Mətbuat Şurası tərəfindən "H.B.Zərdabi irsinin tədqiqi, təbliği sahəsindəki xidmətlərinə və onun 170 illik yubileyinə görə" diplomla təltif olunmuşdur.

Hal-hazırda polkovnik-leytenant rütbəsində istefadadır.

Ə d ə b i y y a t

Beş günlük qonaq: [Xalq şairi S.Vurğun haqqında] /Ş.Nəzirli.- Bakı: Oka Ofset, 2013.- 446 səh.

Güllələnmiş Azərbaycan generalları /Ş.Nəzirli.- Əlavələrlə üçüncü nəşri.- Bakı, 2016.- 704 s.

Qoridən gələn qatar /Ş.Nəzirli.- Əlavə ikinci nəşri.- Bakı: Şərq-Qərb, 2011.- 490 s.

Şəmistan Nəzirli: bibliografiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. A.Əliyeva; ixtisas red. və burax. məs. K.Tahirov; red. M.Cəfərova.- Bakı: ["Zərbabi LTD" MMC NPM], 2014.- 191, [1] s.

Трагические судьбы Азербайджанских генералов /Ш.Назирли.- Баку: Ока Ofset, 2012.

Расстрелянные генералы Азербайджана /Ш.Назирли.- Баку: Bizim kitab, 2015.- 575 с.

80 illiyi

Arif İsmayılzadə 1937

Akademik

Arif Cəfər oğlu İsmayılzadə 1937-ci il avqust ayının 14-də Bakı şəhərində anadan olmuşdur. 1959-cu ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsini bitirdikdən sonra bütün əmək və elmi fəaliyyəti həmişəlik AMEA Geologiya İnstitutu ilə bağlı olmuşdur. Onun tədqiqatlarının əsas istiqamətləri geoloji proseslərdə filiz-maqmatik sistemlərin formalaşmasını və onların metallogenik ixtisaslaşmasını şərtləndirən petrologiya və metallogeniyanın başlıca problemlərinin hərtərəfli öyrənilməsidir.

Bu tədqiqatlar alimin 1968-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

1990-cı ildə müdafiə etdiyi "Kiçik Qafqazın kaynozoy bazit maqmatizminin təkamülü" mövzusundakı doktorluq dissertasiyasında öz əksini tapmışdır.

A.C.İsmayılzadə tərəfindən həmkarları ilə birlikdə, geoloji yönümlü xəritələr seriyası "Azərbaycanın geoloji xəritəsi" (1:200000), "Geodinamik əsasda Azərbaycanın geoloji xəritəsi" (1:500000), "Azərbaycanın tektonik xəritəsi" (1:1000000) tərtib olunmuşdur.

Görkəmli alim böyük elmi təşkilatı iş aparır. AMEA Geologiya İnstitutunun Elmi Şurasının, "AMEA-nın Xəbərləri" (Yer Elmləri seriyası) və "Geologiya İnstitutunun əsərləri" jurnallarının redaksiya heyətinin üzvüdür; 1992-ci ildən 2005-ci ilə kimi AR AAK-nın eksperti, 1996-cı ildən "Petrologiya və metallogeniya" seksiyasının rəhbəri, Azərbaycan Geoloqlarının Milli Komitəsinin icraçı-katibi olmuşdur.

A.C.İsmayılzadə 2007-2013-cü illər ərzində AMEA Rəyasət Heyətinin üzvü və Yer elmləri bölməsinin akademik-katibi olmuşdur. O, elmi kadrların hazırlanmasında böyük fəaliyyət göstərir, uzun illər Bakı Dövlət Universitetində seçmə fənləri tədris edir.

Onun tədqiqatlarının nəticələri çoxsaylı hesabatlarında, şəxsən və həmmüəlliflərlə hazırlanmış beş monoqrafiya daxil olmaqla, 160-dan artıq elmi əsərlərində öz əksini tapmışdır. Onların sırasında "Azərbaycan geologiyası" səkkiz cildli fundamental əsəri "Maqmatizm", "Tektonika", "Faydalı qazıntılar" cildləri, "Talışın geologiyası və vulkanizmi" (1978), "Paleogen təkamülü və Cənubi Xəzər hövzəsinin çökmə kompleksləri", (Azərbaycanın Talışı daxil olmaqla) (Cembric Universiteti həmkarları ilə birlikdə, 2005), "Qabbro-hiperbazitlər və Kiçik Qafqaz ofiolitlərin problemləri" (2007) kitabları xüsusi qeyd olunmalıdır.

A.C.İsmayılzadənin elmi fəaliyyəti və onun elmin inkişafına xidmət edən töhfələri Respublika hökuməti tərəfindən yüksək qiymətləndirilmiş, ona "Şöhrət" ordeni təqdim edilmiş, "Əməkdar elm xadimi" və "Azərbaycan Respublikasının Əməkdar geoloqu" fəxri adları verilmişdir. 2007-ci il may ayının 8-də AMEA-nın həqiqi üzvü seçilmişdir.

Ə d ə b i y y a t

Elm və söz dünyası /A.İsmayılzadə //Elm.- 2016.- 13 may.- S.7.

Arif Cəfər oğlu İsmayılzadə: 75-illiyinə həsr olunur: biblioqrafiya /AMEA, Mərkəzi Elmi Kitabxana, Geologiya İn-tu; elmi red. A.İ. Əliyeva-Kəngərli; tərt.: Y.N.Yemelyanova, Z.A.Vəliyev, Y.N.Lətifova; red.M.b.Zeynalov, X.A.Əlizadə.-Bakı: Elm, 2014.- 160 s.

Əlizadə, A. Geologiya elminə həsr olunmuş həyat /A.Əlizadə //Respublika.-2012.-15 dekabr.

Формирование глубинных углеводородов и этапы их эволюции в верхней мантии и земной коре Южно-Каспийской впадины /А.Исмаилзаде //Матер. Всероссийской конф.: "Глубинная нефть".- Москва, Центральная геофизическая экспедиция.- 2014.

http://www.anl.az/down/meqale/elm/2016/may/490543.jpg

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü 2001

Ümummilli lider Heydər Əliyevin 2001-ci il avqust ayının 9-da imzaladığı Sərəncama əsasən avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Dil millətin təşəkkülündə, milli birliyin formalaşmasında vacib olan amillərdən biridir. Azərbaycan dili bu gün dərin fikirlərin ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqdan bir neçə minillik tarixi yaşaması lazım gəlir. Bu mənada biz xoşbəxtik ki, doğma Azərbaycan xalqı həqiqətən də dünyanın ən qədim xalqlarından biridir. Ümummilli lider Heydər Əliyevin məşhur bir fikrini dönə-dönə xatırlamaqla duyduğumuz qürurun bir aləm mənası var: "Millətin milliliyini saxlayan onun dilidir".

Azərbaycan dili zaman-zaman ciddi sınaqlarla üzləşib. Ümummilli lider Heydər Əliyev dilimizin qorunması və təbliği istiqamətində müstəsna tədbirlər gördü. Ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili rəsmi dil statusu əldə etdi.

Müstəqillik illərində ulu öndər Heydər Əliyev tərəfindən milli dilimizin qorunması istiqamətində tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul edildi. Ümummilli lider Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır.

Bu ənənələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. Prezident İlham Əliyev milli dilimizin mühafizəsi və inkişafı yolunda bir neçə fərman və sərəncam imzalamışdır. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi" haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir. Bunun nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı mühüm əhəmiyyət kəsb edir. Məhz Prezident İlham Əliyev tərəfindən Dövlət Proqramı haqqında imzalanan sərəncamda ana dilinin istifadəsinə, tədqiqinə diqqətin artırılması nəzərə tutulub.

Ədəbiyyat

Abbaslı, T. ...Özü haqda - "1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" barədə - elə özü ilə... /T.Abbaslı //Mədəniyyət.- 2014.- 1 avqust.- S.11.

Əlləddinqızı, N. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günüdür /N.Əlləddinqızı //Səs.- 2015.- 1 avqust.- S.11.

Mahmudov, M. Azərbaycan əlifbası türk kontekstində. 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür /M.Mahmudov //Respublika.- 2013.- 31 iyul.- S.5.

Yunisli, F. Xalqın alın yazısı: 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür /F.Yunisli //Mədəniyyət.- 2015.- 31 iyul.- S. 11.

İnternetdə

http://www.anl.az/down/meqale/respublika/2014/avqust/385511.htm

http://www.anl.az/down/meqale/palitra/2015/avqust/450363.htm

Azərbaycan Kinosu Günü
1898

2 avqust - Azərbaycan Kinosu Günüdür. Hər il avqustun 2-i ölkəmizdə kino işçilərinin peşə bayramı kimi qeyd olunur. Azərbaycan kinosunun tarixi 1898-ci il avqust ayının 2-də Bakıda ilk dəfə kinosüjetlərin kütləvi nümayişi ilə başlanıb.

1898-ci il həmin gündə Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon, çəkdiyi bir neçə kinosüjeti nümayiş etdirib. Şəhər sakinləri onun lentə aldığı üç sənədli xronikaya - "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin "Veliki knyaz Aleksey" paroxodunda yolasalma mərasimi", "Qafqaz rəqsi" və bir məzəli süjetə "İlişdin" (Bakı şəhər bağçasında baş vermiş yumoristik əhvalat) tamaşa ediblər. Beləcə, Bakıda incəsənətin yeni növünün - kinematoqrafiyanın əsası qoyulub.

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının mədəni inkişaf sahəsində kino işçilərinin xidmətlərini və ölkəmizdə çəkilmiş kinosüjetlərin ilk kinoseansının həyata keçirildiyi tarixi nəzərə alaraq bu günün qeyd olunması barədə Sərəncam imzalayıb. 2000-ci il 18 dekabr tarixli 558 saylı Sərəncama əsasən 2 avqust Azərbaycan Kinosu Günü elan edilib.

Azərbaycan kinosu tarixi və şərəfli bir yol keçib. Yazıçı İbrahim bəy Musabəyovun eyniadlı pyesi əsasında 1905-ci ildə ekranlaşdırılmış H.Ərəblinskinin çəkildiyi səssiz "Neft və milyonlar səltənətində" filmindən indiyədək 300-dən çox tam və qısametrajlı kinosüjet və 100-dən çox cizgi, 150-dən çox xronikal sənədli, elmi-kütləvi, sifarişli, televiziya bədii və tədris filmləri istehsal edilib tamaşaçıların ixtiyarına verilib.

Son illərdə bu sahədə əldə edilən uğurlar isə təbii ki, dövlətimizin və ilk növbədə respublika Prezidentinin mədəniyyət və incəsənətə göstərdiyi qayğının nəticəsidir.

Ölkə Prezidenti cənab İlham Əliyev 2008-ci ildə imzaladığı müvafiq sərəncamla "Azərbaycan Kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nı təsdiq etdi. Beləliklə də, milli kinomuzun hərtərəfli inkişafı üçün əlverişli imkanlar yarandı.

Hər il olduğu kimi, bu il də, Azərbaycan Kinosu Günü təntənəli mərasimlə qeyd olunacaq, kino işçilərinin peşə bayramı yeni ekran əsərlərinin nümayişi ilə yadda qalacaqdır.

Ə d ə b i y y a t

Əli, A.Bu kino ki var...: 2 Avqust Azərbaycan Kinosu Günüdür! /A. Əli //İki sahil.-2016.- 2 avqust.- S.11.

Kazımzadə, A. Kino tarixi keçmişi yaşadan mənbədir /A.Kazımzadə //Azərbaycan.-2014.- 2 avqust. - S. 4.

Zümrüd.117 yaşlı Azərbaycan kinosu: 2 Avqust Azərbaycan Milli Kino Günüdür /Zümrüd //Səs.-2015.- 1 avqust.- S. 12.

http://www.anl.az/down/meqale/azerbaycan/2014/avqust/385560.htm

http://www.anl.az/down/meqale/iki_sahil/2016/avqust/501502.htm

http://www.anl.az/down/meqale/ses/2015/avqust/450389.htm

Cəbrayıl rayonunun işğalı günü 1993



Ərazisi : 1049 km²
Əhalisi: 54430 nəfər

1993-cü il avqust ayının 23-də Cəbrayıl rayonu işğalçı erməni silahlı qüvvələri tərəfindən zəbt edilmişdir.

1994-cü il Horadiz əməliyyatı zamanı Milli Ordunun hərbi silahlı qüvvələri şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində irəliləsə də, Cəbrayılın yalnız Cocuq-Mərcanlı kəndi düşmən işğalından azad olunmuşdur.

İşğaldan əvvəl rayonda 72 orta və natamam orta məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğu fəaliyyət göstərmişdi. Zəngin eksponatları olan tarix-diyarşünaslıq muzeyi olmuşdu. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi xidmət göstərirdi.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 16 nəfər həlak olmuş, 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişmiş, 90 nəfərə yaxın isə əsir və itkin düşmüşdür. Cəbrayıllılar içərisində 180 nəfər Qarabağ müharibəsi əlili statusu almış, 6 nəfər isə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var.

2006-2007-ci illər ərzində erməni işğalçıları tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilmişdir.

Ölkənin 58 bölgəsinə səpələnən cəbrayıllılar daha çox Beyləqan, İmişli, Sabirabad, Saatlı, Biləsuvar rayonlarında məskunlaşmışlar.

Biz inanırıq ki, qələbə uzaqda deyil. Ali baş komandanın yürütdüyü uzaqgörən siyasət, apardığı danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad olacaq, bütün həmvətənlərimiz öz yurd-yuvalarına dönəcəklər.

Ə d ə b i y y a t

Abuzərov, A. Cəbrayılın qəm karvanı /A.M. Abuzərov.- Bakı: Ulu, 2000.-180 s

Əlimiz çatmayan yurd yerlərimiz. Cəbrayıl və Füzulinin işğalından 22 il ötür //Mədəniyyət .-2015.- 19 avqust.- S. 15.

Qaraca, B. Tarixin dedikləri və demədikləri. Cəbrayılın işğalından 22 il keçir /B.Qaraca //Azərbaycan.- 2015.- 22 avqust.- S.5.

Tapdıqoğlu, N.Qapısı bağlı yollar. Füzuli və Cəbrayıl rayonlarının işğalından 22 il keçir /N.Tapdıqoğlu //Kredo.- 2015.- 4 sentyabr.- S. 14-15.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/yeni_az/2015/avqust/452025.htm

www.anl.az/down/meqale/palitra/2012/avqust/257909.htm

Füzuli rayonunun işğalı günü 1993

- **Ərazisi: 1386 km²**
- **Əhalisi: 105 000**
- **125368 hektar ərazisi işğal olunub**



23 avqust 1993-cü ildə ümumi sahəsi 1386 km² olan Füzuli rayonunun qərb hissəsindən 125368 hektar ərazinin erməni bədxahları tərəfindən işğal olunmasından 24 il ötür.

Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə yenidən təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif vaxtlarda Qaraköpəktəpə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli rayonu ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlamışdır.

İşğaldan əvvəl rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd, 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri - zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi kimi torpaq sahələri olan rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdi. Kənd təsərrüfatı ilə yanaşı, tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə Füzuli sakini döyüşmüş, yüzlərlə insan şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid verən Füzuli rayonunun əhalisi olmuşdur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır.

Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılmışdır.

Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək, minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır.

Qubadlı rayonunun işğalı günü 1993

- **Ərazisi: 802 km²**
- **Əhalisi: 37 400**



Qubadlı rayonunun 31 avqust 1993-cü il tarixində ermənilər tərəfindən işğalından artıq 24 il ötür.

Qubadlı rayonu 1933-cü ildə yaradılmışdır. İnzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid idi. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, Qərbdən Ermənistanla həmsərhəddir.

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil etmişdir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olmuşdur. Rayonda üzümün ilkin emalı üzrə 2 zavod fəaliyyət göstərmişdi. Tam gücü ilə işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət etmişdir. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəmişdi. Qubadlıda 21 rabitə müəssisəsi olmuş, avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində dururdu.

Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərmişdir.

Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 əczaxana əhalinin sağlamlığının keşiyində durmuşdu. Rayon gigiyena-epidemiologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

Erməni işğalçıları Qubadlıda 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırmış və talan etmişlər. İşğala qədər 33 800 nəfər əhalisi olan Qubadlıda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Qubadlının işğalı zamanı 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-diyarşünaslıq Muzeyi də ermənilər tərəfindən talan edilmişdir.

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Rayonda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klub, 6 avtoklub olmuşdur. Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olmuş, Qarabağ müharibəsində isə Qubadlının ümumilikdə 232 sakini şəhid, 146-sı əlil olmuşdur.

22 ildir ki, rayonun 30 min əhalisi məcburi köçkün həyatı yaşayır.

Ə d ə b i y y a t

Səlimov, Ə.Düşmənə sipər Qarağac. Bir ildə 16 şəhid verən bu kəndin sakinləri 22 ildir ki, Sumqayıt şəhərində səbirsizliklə torpaqlarına qayıdacaqları günü gözləyirlər /Ə.Səlimov //Azərbaycan .-2015.- 29 avqust.- S.7.

Sadayoğlu, P. Qubadlı ictimaiyyəti rayonun Ermənistan tərəfindən işğalının 22-ci ildönümü ilə əlaqədar tədbir keçirib /P.Sadayoğlu //Yeni Azərbaycan.- 2015.- 1 sentyabr.- S. 6.

Qaraca, B. Mərd və əməksevər insanların diyarı Qubadlının işğalından 22 il ötür /B.Qaraca //Azərbaycan.- 2015.- 30 avqust.- S.7.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2014/avqust/389543.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2015/avqust/452820.htm

SENTYABR

24 avqust-
23 sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

C.	1
Ş.	2
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	17
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	24
B.E.	25
Ç.A.	26
C.	27
Ç.A.	28
Ç.	29
Ş.	30

- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Neftçilər Günü (20.09.1994)*
- *Beynəlxalq Sülh Günü (21.09.1981)*
- *Beynəlxalq Turizm Günü (27.09.1970)*

300 il Molla Pənah Vaqif 1717-1797

Molla Pənah Vaqifin ağacdan oyma heykəli.
Şuşa bazarına gedən yolda yerləşirdi, yanında kitabxana və texniki peşə məktəbi var idi.
1985-ci il.

SENTYABR

2017

Milli ədəbiyyat

Şair, dramaturq Nağıyev Ramiq Muxtar oğlunun (Ramiq Muxtar) (05.09.1942) anadan olmasının 75 illiyi 264

Yazıçı, publisist Mustafayev Mustafa Şura oğlunun (Mustafa Çəmənli) (10.09.1947) anadan olmasının 70 illiyi 265

Yazıçı Vəzirov Yusif Mirbaba oğlunun (Yusif Vəzir Çəmənzəminli) (12.09.1887-03.01.1943) anadan olmasının 130 illiyi 266

Şair, publisist Alməmmədov Rüstəm Hidayət oğlunun (Rüstəm Behrudi) (14.09.1957) anadan olmasının 60 illiyi 267

Dünya ədəbiyyatı

Rus yazıçısı Tolstoy Aleksey Konstantinoviçin (05.09.1817-10.19.1875) anadan olmasının 200 illiyi

Musiqi.Opera.Balet

Xalq artisti, tarzən Bakıxanov Əhmədxan Məmmədrza oğlunun (05.09.1892-26.03.1973) anadan olmasının 125 illiyi 268

Xalq artisti Əlixanova Firuzə Məmmədqulu qızının (09.09.1917-23.11.1994) anadan olmasının 100 illiyi 269

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Seyidov Məhərrəm Mirəziz oğlunun (07.09.1952-16.01.1990) anadan olmasının 65 illiyi 270

Azərbaycanın Milli Qəhrəmanı Senyuşkin Sergey Aleksandroviçin (15.09.1957-29.02.1992) anadan olmasının 60 illiyi 271

Siyasət

Görkəmli sərkərdə, hərb nəzəriyyəçisi Aslanbəyov İbrahim bəy Allahverdi oğlunun (10.09.1822-07.12.1901) anadan olmasının 195 illiyi

Dövlət xadimi Hacıyev Hüsü Hüseynəli oğlunun (26.09.1897-18.05.1931) anadan olmasının 120 illiyi

Fizika.Riyaziyyat.Astronomiya

Akademik İmanov Lətif Muxtar oğlunun (15.09.1922-12.03.1980) anadan olmasının 95 illiyi 272

Akademik Hüseynov Əşrəf İsgəndər oğlunun (20.09.1907-26.08.1981) anadan olmasının 110 illiyi 273

Kimya.Biologiya.Tibb

Akademik Əliyeva Rəfiqə Əlirza qızının (20.09.1932) anadan olmasının 85 illiyi 274
Azərbaycan Mühəndislər Akademiyasının akademiki, texnika elmləri doktoru, professor Babayev Əbülfəz İsmayıl oğlunun (20.09.1947) anadan olmasının 70 illiyi 275
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Canibəyov Nazil Fazil oğlunun (21.09.1942) anadan olmasının 75 illiyi 276
Tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Əfəndiyev Məmmədəmin Mustafa oğlunun (23.09.1897-1984) anadan olmasının 120 illiyi 277
İlk kimyaçı alim Xanlarov Mövsüm bəy Məhəmməd bəy oğlunun (24.09.1857-23.02.1921) anadan olmasının 160 illiyi
Tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Mahmudbəyov Böyük bəy Mahmud bəy oğlunun (27.09.1902-1988) anadan olmasının 115 illiyi
AMEA-nın müxbir üzvü Alxazov Tofiq Həsən oğlunun (27.09.1932) anadan olmasının 85 illiyi

Tarixdə bu gün

Dövlət Neft Şirkətinin yaradılmasının (13.09.1992) 25 illiyi
Bilik Günü (15.09.2004)
“Greenpeace” (Yaşıl sülh) təşkilatının yaranma günü (15.09.1971)
Ümumdünya Ozon Qatının Mühafizəsi Günü (16.09.1994)
Milli Musiqi Günü (18.09.1995) 278
Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixracat boru kəmərinin təməlinin qoyulmasının (18.09.2002) 15 illiyi 279
Neftçilər Günü (20.09.1994) 280
Beynəlxalq Sülh Günü (21.09.1981) 281
Beynəlxalq Dəniz Günü (24.09.1978)
Azərbaycan Silahlı Qüvvələri Qarabağda Ermənistan işğalçı ordusu ilə apardığı döyüşlərdə Xocavənd (Martuni) rayonunun mərkəzini azad etmişdir (24.09.1992)
Ümumdünya Turizm Günü (27.09.1970) 282
Turizm İşçiləri Günü (27.09.2016)
Quttenberq Bibliyanı çap etmiş və bu hadisə tarixə ilk kitab çapı kimi düşmüşdür (30.09.1472)
Dövlət Dili haqqında Qanunun (30.09.2002) 15 illiyi 283

75 illiyi

Ramiq Muxtar
1942

Şair

Ramiq Muxtar oğlu Nağıyev (Ramiq Muxtar) 1942-ci il sentyabr ayının 5-də Azərbaycanın Naxçıvan şəhərində, ziyalı ailəsində anadan olmuşdur. Ü.Hacıbəyov adına 1 saylı Naxçıvan şəhər orta məktəbini bitirmiş, 1961-1967-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində təhsilini davam etdirmişdir. 1968-1971-ci illərdə "Şərq qapısı" qəzeti redaksiyasında ədəbi işçi, 1971-1978-ci illərdə Şahbuz rayonundakı uşaq musiqi məktəbinin direktoru, 1978-1982-ci illərdə Naxçıvan Nazirlər Soveti Yanında Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, 1988-ci ildən Bakıda Nəsimi rayonundakı Şahmat məktəbinin müdiri vəzifələrində çalışmışdır.

Ramiq Muxtar şair olmaqla yanaşı həm də dama üzrə SSRİ idman ustasıdır. 1984-1986-cı illərdə Ramiq Muxtar Naxçıvan şəhər Dövlət Filarmoniyasının direktoru vəzifəsində işləmişdir. Hazırda Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İxtisaslaşdırma və İxtisasartırma İnstitutunun direktoru vəzifəsində çalışır.

Ramiq Muxtar yaradıcılığa hələ 11 yaşında olarkən başlamış, şeirləri dövri mətbuatda tez-tez çap olunmuşdur. "Üfüqlər qızaranda", "Əgər sevirsənsə", "Şəhərli kürəkən", "Müdirin aqibəti", "Əlvida köhnə dünya", "Doğma səmanın ulduzları", "Qıl körpü" pyesləri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında, həmçinin Bakı, İrəvan, Ağdam, Qazax dövlət dram teatrlarında da uğurla tamaşaya qoyulmuşdur. Hekayələri "Ədəbiyyat və incəsənət", "Sovet Naxçıvanı" qəzetlərində vaxtaşırı dərc edilmişdir.

Ramiq Muxtar həm də nəğməkar şairdir. Onun sözlərinə 120-dən çox mahnı bəstələnmişdir. 1984-cü ildən bəstəkar Nəriman Məmmədovla birlikdə solist-xor orkestri üçün "Çiçəklənən Naxçıvan" suitasının mətnini yazmışdır. 90-dan artıq mahnı mətninin müəllifidir. Ümummilli lider Heydər Əliyevə həsr etdiyi silsilə şeirlərinə "Millət atası", "Arxamca su atsan", "Ürəyimdə Azərbaycan yurdu yaşar", "Sənsən xilaskarımız", "Müstəqildir vətənim" mahnıları bəstələnmişdir.

1980-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

2001-ci ildə Rəsul Rza adına Beynəlxalq mükafatla təltif edilmişdir. Gürcü-Azərbaycan xalqlarının dostluğuna həsr edilmiş son pyesinə görə Gürcüstanın ali mükafatına - "Şərəf" ordeninə layiq görülmüşdür.

Prezident təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /R.Muxtar; red. P.Məmmədzadə.-Bakı: Azərbaycan, 2007.- 264 s.

Dünya azərbaycanlılarının birlik nəğməsi /R.Muxtar //Kafkaz News.- 2010.-24 dekabr.- S.4.

Əsgər qızın nəğməsi /R.Muxtar //Kafkaz News.- 2010.- 24 dekabr.- S.4.

Yaşayan tarix: Naxçıvanın ilk tarixçi alimlərindən biri olan Əli Əliyev haqqında /R.Muxtar //Azərbaycan.- 1996.- 4 dekabr.

Əhmədov, T. Ramiq Muxtar //Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): Ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.758.

70 illiyi

Mustafa Çəmənli
1947

Yazıçı, publisist



Mustafa Şura oğlu Mustafayev (Mustafa Çəmənli) 1947-ci il sentyabr ayının 10-da Ağdam rayonunun Çəmənli kəndində anadan olmuşdur. İlk təhsilini doğma kənd məktəbində, daha sonra Mingəçevir şəhərində almışdır. 1970-1972-ci illərdə Bakıda "Kommunist" nəşriyyatında çapçı köməkçisi, sonra "Paris Kommunası" adına Gəmitəmiri zavodunda qəlibçi kimi çalışmışdır.

1972-1977-ci illərdə ADU-nun jurnalistika fakültəsində təhsil almışdır. 1977-1988-ci illərdə təyinatla göndərildiyi "Yazıçı" nəşriyyatında redaktor, böyük redaktor, klassik ədəbiyyat və folklor redaksiyasının müdiri, 1988-1992-ci illərdə nəşriyyatın nəsr redaksiyasının müdiri vəzifələrində işləmişdir. 1992-2006-cı illərdə "Gənclik" nəşriyyatında baş redaktor vəzifəsində çalışmışdır.

1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1988-ci ildən Yazıçılar Birliyinin üzvüdür.

Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. "Ləpirlər" adlı ilk hekayəsi 1973-cü ildə "Mingəçevir işıqları" qəzetində dərc olunmuşdur. Yazıçının uzun araşdırmalarının nəticəsi olan tarixi romanları oxucular tərəfindən ən çox oxunan kitabların siyahısına düşmüşdür. "Xallı gürzə" romanı 4 dəfə böyük tirajla nəşr edilmiş, tarixi romanlar arasında öz layiqli yerini tutmuşdur.

M.Çəmənlinin xalqımıza etdiyi ən dəyərli xidmətlərdən biri də Azərbaycanın mədəniyyət və incəsənət sahəsində xidmətləri olan görkəmli sənətkarlar haqqında ərsəyə gətirdiyi kitablardır. "Nəğməli xatirələr" (Əbülfət Əliyev haqqında xatirə-povest), "Muğam dünyasının Xanı", "Səsin ruhu" (Səxavət Məmmədov haqqında), "Oxu, gözəl" (Şövkət Ələkbərova haqqında), "Sənətkar ömrünün izləri" (Xanlar Haqverdiyev haqqında), "Leyli və Məcnun" - 100 il səhnədə" (sənədli-bədii ensiklopediya), "Sənət hekayələri" əsərləri belə gərgin əməyin nəticəsidir.

Heydər Əliyev Fondunun "Azərbaycan Respublikasının Xalq artistləri" silsiləsindən nəşr etdiyi - "Arif Babayev - 70", "Habil Əliyev - 80", "Əlibaba Məmmədov - 80", "Əlibaba Məmmədov: Ürək deyir, yaşa hələ...", "Canəli Əkbərov - 70", "Ağaxan Abdullayev - 60" albom-kitablarının mətn müəllifidir. Bununla yanaşı onlarca kitabın kitabın tərtibçisi və ön sözün müəllifidir.

Milli musiqi ifaçılığı sənətinin təbliğinə görə 1993-cü ildə Mətbuat Fondunun "Dan ulduzu" mükafatına, ön cəbhədəki çıxışlarına və hərbi vətənpərvərlik ruhlu məqalələrinə görə Yazıçılar Birliyinin diplomuna, "Xallı gürzə" tarixi romanına görə "Yaddaş" milli mükafatına layiq görülmüşdür. Milli Mədəniyyətin Təbliği Mərkəzinin "Uğur" - 2008, "Mübariz" povestinə görə "Kaspi" qəzetinin xüsusi mükafatı ilə, "Ölüm mələyi" tarixi romanına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatı ilə (2013) təltif edilmişdir. 2010-cu ildə Prezident təqaüdçüsü olmuşdur.

Hazırda "Aspoliqraf" nəşriyyatında şöbə müdiri vəzifəsində çalışır.

Ə d ə b i y y a t

Xallı gürzə: tarixi roman /M.Çəmənli; red. G.Ələkbərqızı; ön söz V.Yusifli; [ill. müəl.: A.Hacıyev, Y.Əsədov].- Bakı: Kitab klubu, 2016.- 391 s.

"Leyli və Məcnun" 100 il səhnədə /M.Çəmənli; elmi red. R.Zöhrabov; Azərb. Respub. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: [s.n.], 2008.- 429, [3] s.

Ölüm mələyi: (tarixi roman) /M.Çəmənli; red. S.Nuruqızı.- Bakı: MHC-poliqraf, 2012.- 295 s.

Ruhların üsyanı: povestlər; hekayələr; esselər; deyimlər; müsahibələr /M.Çəmənli; red. G.Ələkbərqızı.- Bakı: Adiloğlu, 2007.- 320 s.

Sənət hekayələri /M.Çəmənli; red. və ön söz. müəl. Z.Əliyeva; Az.Res. Məd. və Turizm Nazirliyi.- Bakı: Aspoliqraf, 2014.- 568 s.

Üçyaşlı əsir (povest və hekayələr) /M.Çəmənli; red. G.Ələkbərqızı.- Bakı: Elm və təhsil, 2016.- 240 s.

Pənahqızı, T. Yaddaş güzgümüzdəki Mustafa Çəmənli /T.Pənahqızı //525-ci qəzet.- 2015.- 21 fevral.-S.24.

130 illiyi

Yusif Vəzir Çəmənzəminli
1887-1943

Yazıçı, publisist

Yusif Vəzir Məşədi Mirabdulla Mirbaba oğlu Vəzirov (Yusif Vəzir Çəmənzəminli) 1887-ci il sentyabr ayının 12-də Şuşa şəhərində, bəy ailəsində doğulmuşdur. İbtidai təhsilini mollaxanada almış, sonra 1896-cı ildə Şuşa realnı məktəbinin hazırlıq şöbəsinə daxil olmuşdur. Təhsilini rus dilində aldığı üçün 1904-cü ildə həyatından şikayət tərzində yazılmış "Jaloba" adlı ilk şeirini rusca yazmışdır.

Aşqabada getmiş, inqilabi hərəkata qoşulmuşdur. 1906-cı ildə Bakıya qayıtmışdır. Burada realnı məktəbin altıncı sinfində təhsilini davam etdirmişdir. Həmin il ilk mətbu məqaləsi "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur. 1910-cu ildə Kiyev İmperator Universitetinin hüquq şöbəsinə daxil olmuşdur. 1915-ci ildə oranı bitirib vəkil-məsləhətçi işləmişdir. 1919-cu ildə Odessadan İstanbula, oradan Bakıya qayıtmışdır. Burada müvəqqəti hökumət onu Türkiyəyə elçi-səfir təyin etmiş, lakin çox keçmədən istefa vermişdir. 1920-ci ildə Parisə getmiş, Fransa Milli Kitabxanasında çoxlu mütaliə etmişdir. Fransa Kommunist Partiyasının orqanı olan "Paris xəbərləri" qəzeti redaksiyasında işləmiş, "Şərq məktubları"nı qəzetin səhifələrində dərc etdirmişdir. Azərbaycan ədəbiyyatını türk aləminə tanıtmaq üçün 1921-ci ildə "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi-coğrafi və iqtisadi Azərbaycan" adlı kitablarını İstanbulda çap etdirmişdir. 1926-1927-ci illərdə vətənə qayıdıb Bakıda "Bakı işçisi" kooperativ nəşriyyatında Bədii ədəbiyyat şöbəsinin müdiri işləmişdir. "Rusca-Azərbaycanca lüğət"in müəlliflərindən biri olmuşdur. "Qızlar bulağı", "Studentlər", "1917-ci il" adlı romanlarını çap etdirmişdir. 1927-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin aspirantı olmuşdur. 1930-1935-ci illərdə Azərbaycan Dövlət Sənaye İnstitutunda dil və ədəbiyyat kafedrasında assistent-müəllim, 1935-1938-ci illərdə Azərnəşrdə tərcüməçi-redaktor, 1938-1939-cu illərdə Özbəkistanın Ürkənc şəhərində Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dili müəllimi işləmişdir.

1936-1937-ci illərdə "Qan içində" və 1961-ci ildə çap olunmuş "İki od arasında" əsərlərini yazmışdır.

Yusif Mirbaba oğlu Vəzirov Stalin repressiyasının qurbanı olmuş, 1940-cı ildə həbs olunaraq Qorki vilayətinin Suxobezvodnoye həbs düşərgəsinə göndərilmiş, 1943-cü ildə orada vəfat etmişdir.

Ə d ə b i y y a t

İki od arasında: roman /Y.V.Çəmənzəminli; red. Ş.Sadiq; naşir M.Xan; mətn tərtibatı R.Əhmədzadə.- Bakı: Hədəf nəşrləri, 2013.- 290 s.

Çingizoğlu, Ə. Qarabağlı hüquqşünaslar: 1822-1920: Tarixi-ensiklopedik tədqiqat /Çingizoğlu Ənvər.- Bakı: Mütərcim, 2012.- 251 s.

Hümmətli, Ş.. Yusif Vəzir Çəmənzəminlinin elmi-ədəbi irsi yeni faktların işığında /Hümmətli Şəlalə.- Bakı: Elm və Təhsil, 2014.-78 s.

Vəzirov, O. Atam Yusif Vəzir Çəmənzəminli haqqında /O.Vəzirov; red. Q.İlkin.- Bakı: Azərnəşr, 1997.- 120 s.

Axundlu, Y. Çəmənzəminli Yusif Vəzir //Axundlu Y. Ədəbi portretlər.- Bakı, 2009.- S.27.

60 illiyi

Rüstəm Behrudi
1957

Şair, publisist

RüstəmHidayətoğluAlməmmədov (Rüstəm Behrudi) 1957-ci il sentyabr ayının 14-də Azərbaycanın Ordubad rayonundakı Behrud kəndində, müəllim ailəsində anadan olmuşdur. 1964-cü ildə səkkizillik məktəbi bitirdikdən sonra orta təhsilini C.Cabbarlı adına Biləv kənd orta məktəbində almışdır. 1974-1975-ci illərdə doğma kəndindəki kolxozda işləmiş, elə həmin il oxumaq, təhsil almaq həvəsi onu Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsinə qəbul olmağa sövq etmişdir. 1979-cu ildə institutu fərqlənmə diplomu ilə bitirmiş və 1979-1984-cü illərdə Ordubad rayonundakı Unus kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyətə başlamışdır. Kələki və Unus kəndlərində işlədikdən sonra Ordubadda muzeydə çalışmışdır. 1984-cü ildə Bakıya gələn Rüstəm Behrudi 1986-1990-cı illərdə "Yazıçı" bədii ədəbiyyat nəşriyyatında fəhlə, korrektor, kiçik redaktor, poeziya redaksiyasının redaktoru vəzifələrində çalışmışdır. Bir müddət Sabir Rüstəmxanlının rəhbərliyi ilə nəşr edilən "Azərbaycan" qəzetində fəaliyyət göstərmişdir.

Ədəbi fəaliyyətə 70-ci illərdən başlamış, ilk şeirini orta məktəbdə yazmışdır. Şeirləri "Araz", "Azərbaycan" almanaxlarında mütəmadi olaraq çap olunmuşdur. Dövri mətbuatda şeir və publisistik yazıları ilə fəal çıxış edir. Yaradıclığında türkçülüyə və dərviş fəlsəfəsinə üstünlük verir. Şair "Yaddaşlara yazın", "Şaman duası" kitablarının müəllifidir. "Şaman duası" kitabı türkdilli dövlətlərdə böyük maraqla qarşılanmış, kitabdan seçmələr Türkiyədə, İranda, Avstriyada, Almaniyada, Belçikada və s. ölkələrdə çap olunmuşdur.

Yaradıcılığından seçmələr polyak, fransız, rus və çex dillərinə tərcümə edilmişdir.

C.Məmmədquluzadəyə həsr olunmuş "Daha gülə-gülə ağlamaq olmur" poeması mavi ekranda bir aktyorun teatrında ifa olunmuşdur.

Ə d ə b i y y a t

Bir dəli ayrılıq kimi: şeirlər /R.Behrudi.- Bakı: Qanun, 2014.- 230 s.

Salam dar ağacı /R.Behrudi; tərt. ed. və red. T.Kazımlı.- Bakı: Azərnəşr, 2007.- 528 s.

Şaman duası: şeirlər və poema /R.Behrudi; red. Z.Yaqub.- Bakı: Yazıçı, 1988.- 153 s.

Yaddaşlara yazın: şeirlər /R. Behrudi.- Bakı: Yazıçı, 1986.- 72 s.

Çətindir göyü sevib, qayıdıb yerin olmaq: və yaxud bu belə olmamalıydı /Rüstəm Behrudi //Azadlıq.- 2014.- 10 iyul.- S.13.

125 illiyi

Əhməd Bakıxanov 1892-1973

Tarzən



Əhmədxan Məmmədrza oğlu Bakıxanov 1892-ci il sentyabr ayının 5-də Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini İranın Rəşt şəhərində mollaxanada almışdır. 1908-ci ildə məşhur İran musiqişünası Əbülhəsən xandan (İqbal-soltan) musiqi təhsili almış, qısa müddətdə tarda ifa etməyə başlamışdır. 1912-ci ildə ailəlikcə Bakıya köçmüşlər. Əhməd "Səadət" məktəbində təhsilini davam etdirmiş, eyni zamanda o dövrün Məşədi Məmməd Hüseynov, Ələsgər Abdullayev, Cabbar Qaryağdıoğlu, İslam Abdullayev kimi ustadlarının yanına getmiş, musiqi təcrübəsi əldə etmişdir. 1922-1925-ci illərdə evlərdə musiqi dərsləri demiş, 1926-ci ildən tarzən kimi 1 nömrəli məktəbdə pedaqoji fəaliyyətə başlamış, 1927-ci ildən Radio Verilişləri Komitəsində solist kimi çalışmışdır. 1930-cu ildən Üzeyir Hacıbəylinin dəvəti ilə ADK-da muğamdan dərs demişdir. 1941-ci ildə Azərbaycan radiosunun nəzdində Xalq Çalğı Alətləri Ansamblının təşkilatçısı və ömrünün sonuna kimi rəhbəri olmuşdur. Vəfat etdikdən sonra, 1973-cü ildən ansambl Əhməd Bakıxanovun adını daşıyır.

Əhməd Bakıxanovun Azərbaycan xalq musiqisinin, xüsusilə muğamların təbliğində böyük rolu olmuşdur. "Azərbaycan xalq rəngləri" (1964), "Azərbaycan ritmik muğamları" (1968), "Muğam, mahnı, rəng" (1975) kimi not nəşrlərinin müəllifidir. Onun ifasında bəstəkar Nəriman Məmmədov tərəfindən bir çox instrumental muğamlar: "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Humayun", "Şahnaz" nota salınaraq çap olunmuşdur.

Onun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1943-cü ildə "Əməkdar müəllim", 1964-cü ildə "Əməkdar incəsənət xadimi", 1973-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1946-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Əhməd Bakıxanov 1973-cü il mart ayının 26-da Bakı şəhərində vəfat etmişdir.

Sənətkarın mənzilində Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin filialı yaradılmışdır. Burada tarzənin xalq çalğı alətlərindən ibarət zəngin kolleksiyası sərgisi nümayiş olunur. 1994-cü ildən Əhməd Bakıxanovun 100 illiyinə həsr olunmuş tələbə və gənclərin tar alətində muğam ifaçılığı üzrə respublika müsabiqəsi keçirilmişdir.

Ə d ə b i y y a t

Bakıxanovlar ədəbi-mədəni, elmi fikir tarixində /Elmi red. G.Abdullazadə; tərt.: G.İbrahimqızı, H.Əliyeva.- Bakı: Mütərcim, 2010.- 299 s.

Əhməd Bakıxanov xatirələrdə /Tərt. ed. İ.Mirzəbəyli; elmi red. Hacı F.Mirzə; red. H.Əliyeva; məsləhətçi T.Bakıxanov.- Bakı: Mütərcim, 2012.- 177 s.

Ustad ömründən anlar: Əhməd Bakıxanov haqqında xatirələr /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; tərt. ed. İ.Mirzəbəyli; məsləhətçi T.Bakıxanov; elmi red. Hacı Fərhad Mirzə; red. H.Əliyeva.- Bakı: Aspoliqraf, 2013.- 190 s.

Görkəmli tarzən Əhməd Bakıxanovun Azərbaycan Xalq musiqisinin inkişafında və qorunub saxlanmasında rolu //Mədəniyyət.- 2015.- №8.-S.88-89.

100 illiyi

Firuzə Əlixanova 1917-1994

Aktrisa

Firuzə Məmmədqulu qızı Əlixanova 1917-ci il sentyabr ayının 9-da Naxçıvan MR-nın Ordubad şəhərində anadan olmuşdur. Şəhər səkkizillik məktəbində təhsil almış, Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda təhsilini davam etdirmişdir. Şəhərin bayram tədbirlərində şən mahnılar oxuyan Firuzənin ifaçılıq istedadı Səməd Mövləvinin diqqətini cəlb etmiş və onun səyi ilə tələbə qız 1932-ci ildə Naxçıvan teatrına aktrisa kimi dəvət olunmuşdur. 1932-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmiş, həm dram tamaşalarında, həm də opera və musiqili komediyalarda oynamışdır.

İlk dəfə səhnəyə 1932-ci ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında Asya rolunda çıxış etmişdir. Bu kollektivdə şərəfli və şöhrətli yaradıcılıq yolu keçmişdir. Dram tamaşaları ilə yanaşı, musiqili əsərlərdə də yaddaqalan səhnə obrazları yaratmışdır. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli, "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə və Cahan xala, Cəfər Cabbarlının "Almaz" pyesində Almaz, Səməd Vurğunun "Fərhad və Şirin" pyesində Şirin, Süleyman Rüstəmin "Qaçaq Nəbi" pyesində Həcər, Ostrovskinin "Günahsız müqəssirlər" pyesində Kruçinina, Z.Hacıbəylinin "Aşıq Qərib" operasında Şahsənəm, M.Şamxalovun "Qaynana" komediyasında Cənnət, K.Qoldoninin "İki adamın bir nökəri" tamaşasında Beatriça, M.F.Axundovun "Hacı Qara" komediyasında Tükəz, Ə.Haqverdiyevin "Pəri Cadu" pyesində Hafizə xanım, Cəlil Məmmədquluzadənin "Anamın kitabı"nda Zəhrabəyim və s. rollarda oynamış gözəl, yaddaqalan səhnə obrazları yaratmışdır.

Aktrisa incəsənət sahəsindəki xidmətlərinə görə 17 oktyabr 1964-cü ildə Azərbaycan Respublikasının "Əməkdar artist" və 15 noyabr 1974-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Firuzə Əlixanova 1994-cü il noyabr ayının 23-də Naxçıvanda vəfat etmişdir.

Ə d ə b i y y a t

Firuzə Əlixanova /Naxçıvan MSSR Mədəniyyət Nazirliyi.-Bakı: İşıq, 1981.- 6 s.

Fərəcov, S. Həyatdan və səhnədən doymayıb gedirəm /S.Fərəcov //Mədəniyyət.- 2014.- 12 sentyabr.- S.15.

Vəzirov, C. Firuzə xanım tənhalığı /Cəlil Vəzirov //Qobustan.- 2000.- №4.-S.43-45.

Vəzirov, C. Səhnəmizin Leylisi, Əslisi, Gülçöhrəsi /Cəlil Vəzirov //Mədəni-maarif.- 2004.-№5.- S.40-42.

65 illiyi

Məhərrəm Seyidov 1952-1990

Milli Qəhrəman

Məhərrəm Mirəziz oğlu Seyidov 1952-ci il sentyabr ayının 7-də Şərur rayonunun Alışar kəndində anadan olmuşdur. 1969-cu ildə doğma kəndlərində orta təhsilini başa vurmuş və Xerson şəhərinə hərbi xidmətə yollanmışdır. Əmək fəaliyyətinə daxili işlər orqanlarında başlamışdır. Bakı Xüsusi Orta Milis Məktəbini bitirmiş, Şərur rayon Daxili İşlər Şöbəsində inspektor vəzifəsində çalışmışdır. Milis kapitanı idi. 1990-cı ildə ermənilərin Kərki kəndinə hücumunun qarşısını alanlardan biri də Məhərrəm olmuşdur. Minlərlə erməni qulduru Kərkini darmadağın edərək evləri yandırmış, soydaşlarımızı öz doğma yurd-yuvalarını tərk etməyə məcbur etmişdilər. Onlar daha da azğınlaşaraq, Sədərək rayonuna tərəf irəliləyirdilər, vəziyyət son dərəcə gərgin idi. 1990-cı il yanvarın 19-da Sədərəyin müdafiəsi təmin olunsa da xeyli ölən və yaralanan var idi. Kapitan Azər Seyidov mühasirəyə düşmüşdü. Onu azad etmək üçün Məhərrəm yenidən döyüşə atılır. O, öz döyüş yoldaşını mühasirədən çıxarır, lakin özü qəhrəmancasına həlak olur.

Şərur rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə kapitan Seyidov Məhərrəm Mirəziz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Şərur şəhərində adına küçə var, tuncdan büstü qoyulmuşdur. Şərur şəhər 2 saylı orta məktəb onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Seyidov Məhərrəm Mirəziz oğlu-Naxçıvan MR , Şərur RDİŞ nəzdində mühafizə şöbəsinin baş inspektoru, milis kapitanı- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə] : Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Cəmilzadə, H. Məhərrəm Mirəziz oğlu Seyidov //Cəmilzadə H. Azərbaycan polisinin milli qəhrəmanları: Fotokitab /red. S.Nəzərli.- Bakı, 1994.- S.17.

Əsgərov V. Məhərrəm Mirəziz oğlu Seyidov //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları /red. İ.Əhmədov; baş məsləhətçi M.Rəhimov; məsləhətçi: T.Rzayev, E.Səmədov.- Sumqayıt, 2010.- S.257.

Məmmədov, E. "Qayıdacağam"- dedi... qayıtmadı /E.Məmmədov //Azərbaycan.- 2016.- 20 yanvar.- S.9

Seyidzadə, M. Məhərrəm Mirəziz oğlu Seyidov //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi /red. N.Vəliyev; baş məsləhətçi Q.Paşayeva.- Bakı, 2010.- S.205.

Yusifoğlu, İ. Məhərrəm Mirəziz oğlu Seyidov //Yusifoğlu İ. Ölümü tanrıdan gələnlər: məqalələr.- Bakı, 1999.- S.35.

60 illiyi

Sergey Aleksandroviç Senyuşkin
1957-1992

Milli Qəhrəman

Sergey Aleksandroviç Senyuşkin 1957-ci il sentyabr ayının 15-də Samara vilayətinin Sızran şəhərində doğulmuşdur. 1974-cü ildə Sızran şəhər 21 saylı orta məktəbi bitirdikdən sonra Sızran Politexnik İnstitutuna daxil olmuşdur. 1975-ci ildə təhsilini Ali Hərbi Təyyarəçilik məktəbində davam etdirmişdir. 1979-cu ildə məktəbi bitirərək Belorusiya Hərbi Dairəsinə göndərilmişdir. 1989-cu ildə Zaqafqaziya Hərbi Dairəsindəki hərbi hissələrdən birinə komandir müavini təyin edilmişdir. Sergey Aleksandroviç birinci dərəcəli təyyarəçi, paraşüt idmanı üzrə ustalığa namizəd idi. Sergey Mİ-8, Mİ-24 vertalyotunun uçuş proqramını dərindən öyrənmişdi. 1992-ci ildən xidmətini Azərbaycanda davam etdirən Sergey Senyuşkin 843 saylı hərbi hissənin Təlim-məşq Mərkəzinin təyyarəçi-təlimatçısı vəzifəsinə təyin edilmişdir. Qarabağda aparılan döyüş əməliyyatlarında fəal iştirak etmişdir. Əhalinin təhlükəsiz yerlərə daşınmasında müstəsna xidmətləri olmuşdur. Sergey hərbi vertalyotla Xocalıya uçmuş, qoca qadın və uşaqların təhlükəli zonadan çıxarılmasında böyük fədakarlıq göstərmişdir. Yaralansa da, öz borcunu layiqincə yerinə yetirən S.Senyuşkin 1992-ci il fevralın 29-da qəhrəmancasına həlak olmuşdur. Samara vilayətinin Sızran şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı Fərmanı ilə mayor Senyuşkin Sergey Aleksandroviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakının Xətai rayonundakı küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Hərbi-Hava qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: [Senyuşkin Sergey Aleksandroviç-mayor-xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.-№17.-S.33.-(Ölümündən sonra).

Əsgərov V. Senyuşkin Sergey Aleksandroviç //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları; red. İ.Əhmədov; baş məsləhətçi M.Rəhimov; məsləhətçi: T.Rzayev, E.Səmədov.- Sumqayıt, 2010.- S.255.

Senyuşkin Sergey Aleksandroviç //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.183.

Seyidzadə M. Senyuşkin Sergey Aleksandroviç //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi /red. N.Vəliyev; baş məsləhətçi Q.Paşayeva.- Bakı, 2010.- S.203.

95 illiyi

Lətif İmanov
1922-1980

Akademik

Lətif Muxtar oğlu İmanov 1922-ci il sentyabr ayının 15-də Şuşa şəhərində anadan olmuş, orta təhsilini 4 saylı Şuşa şəhər orta məktəbində almışdır. 1944-cü ildə Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini fizika ixtisası üzrə bitirmiş, Azərbaycan EA-nın Fizika İnstitutuna kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur. 1945-ci ildə aspiranturaya daxil olmuş və elmi tədqiqat işini Moskva Dövlət Universitetinin Rəqslər kafedrasının müdiri professor V.V.Miqulinin rəhbərliyi altında davam etdirmişdir.

1950-ci ildə Moskvada namizədlik dissertasiyasını müdafiə edib Bakıya qayıtmış və Azərbaycan SSR EA-nın Fizika-riyaziyyat İnstitutunda H.A.Muxtarovun rəhbərlik etdiyi Radiofizika laboratoriyasında baş elmi işçi vəzifəsində işə başlamışdır. İşləməklə bərabər Azərbaycan Dövlət Universitetində də dərs demişdir. 1952-ci ildən maye və bərk cismlərin dielektrik relaksasiyasının radiospektroskopik üsulla tədqiqi ilə məşğul olmağa başlamışdır. O, laboratoriyanın əməkdaşları ilə birlikdə böyük texniki çətinliklərə qalib gələrək yığdığı ilk qaz radiospektrometri qurğusunu 1959-cu ildə işə salmağa müvəffəq olmuşdur.

Keçən əsrin 70-ci illərində vanadium, tellur və qələvi metal oksidləri əsaslı iki və üç komponentli yarımkeçirici şüşələrin quruluş xüsusiyyətlərinin tədqiqi ilə məşğul olmuşdur. Lətif İmanov elmi tədqiqat işi ilə paralel olaraq ADU-nun fizika fakültəsinin tələbələrinə radiofizikadan və fiziki elektronikadan mühazirələr oxumuşdur.

Lətif İmanov 1976-cı ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, 1979-cu ildə "Əməkdar elm xadimi" adına layiq görülmüşdür.

O, elmi yaradıcılığının qaynar çağında, 1980-ci il mart ayının 12-də ürək tutmasından qəflətən vəfat etmişdir.

Ə d ə b i y y a t

Bakıda Ümumittifaq simpoziumu oktyabrın 6-da öz işinə başlayacaq (Molekulların fırlanma spektri üzrə ümumittifaq simpoziumu haqqında) /L.M.İmanov //Bakı.- 1969.- 4 oktyabr.

Vanadium və fosfor oksidləri əsasında alınmış oksid yarımkeçirici şüşələrdə təklənmiş elektronlar və yükdaşıyıcılar: Xülasə /L.M.İmanov //Azərbaycan SSR EA-nın Xəbərləri.- 1969.- №4.- S.24.

Cilovdarlı, A. Böyük alim və pedaqoq /Abbas Cilovdarlı //Elm.- 2012.- 21 sentyabr.- S.12.

110 illiyi

Əşrəf Hüseynov 1907-1981

Akademik

Ə d ə b i y y a t

İnteqral tənliklər: ali məktəblər üçün dərslik /Ə.Hüseynov; red. A.Abbasov.- Bakı: Maarif, 1981.- 391, [1] s.

Sovet Azərbaycanında riyaziyyat elminin inkişafı: 1920-1960-cı illər /Ə.Hüseynov, M.Cavadov; [red. B. Ağayev].- Bakı: Azərnəşr, 1962.- 137, [3] s.

Akademik Əşrəf Hüseynov /AMEA; red. hey.: M.Kərimov, A.Hacıyev, T.Əliyev; tərt. ed. D.Ə.Hüseynova.- Bakı: Elm, 2007.- 184 s.

Babayev Melik-Baxış: Matematiki Azerbaydjana XX vek.-Baku: OKA OFSET, 2007.-175s.

Abbaslı, T. Hüseynov Əşrəf İsgəndər oğlu /Cəbrayıl alimləri: (Ensiklopedik toplu).- Bakı, 2008.- S.11-14.

Əliyev, T. Akademik Əşrəf Hüseynov və kibernetika /Telman Əliyev //Elm.- 2007.- 22 oktyabr.- S.9.

Прошлое и настоящее Азербайджана /А.Гусейнов //Elm və həyat.- 1980.- № 5.

Əşrəf İsgəndər oğlu Hüseynov 1907-ci il sentyabr ayının 20-də Cəbrayıl qəzasının Əmirvarlı kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndində alan Əşrəf, sonra Karyagin (indiki Füzuli) rayonunda birinci dərəcəli əmək məktəbini bitirmiş, 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin (BDU) fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universitet təhsilini başa çatdırdıqdan sonra Azərbaycan Neft İnstitutunun Riyaziyyat kafedrasında assistent kimi əmək fəaliyyətinə başlamışdır. 1939-1944-cü illərdə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1940-cı ildə MDU-nun elmi şurasında məşhur sovet riyaziyyatçısı A.N.Tixonovun rəhbərliyi altında "Potensiallar nəzəriyyəsinin bir məsələsi haqqında" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi, 1949-cu ildə isə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. 1939-1965-ci illərdən Azərbaycan Dövlət Universitetinin "Funksiyalar nəzəriyyəsi və cəbr", sonra isə "Funksiyalar nəzəriyyəsi funksional analiz" kafedrasının professoru, müdiri vəzifələrində çalışmışdır.

1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir. Akademik 1965-ci ildə Azərbaycan EA Kibernetika İnstitutunun ilk direktoru təyin edilmiş, 1970-1980-cı illərdə isə Azərbaycan EA-nın Fizika-riyaziyyat və texnika elmləri bölməsinin akademik katibi vəzifəsinə seçilmişdir.

Ə.Hüseynov bir çox dərsliklərin və monoqrafiyaların, o cümlədən Azərbaycan dilində nəşr edilən "İnteqral tənliklər" və "Çoxluqlar nəzəriyyəsi" dərsliklərinin müəllifidir.

Akademik Ə.Hüseynovun rəhbərliyi ilə 30-dan çox namizədlik dissertasiyası müdafiə olunmuşdur. Azərbaycanın görkəmli riyaziyyatçıları Q.T.Əhmədov, Y.C.Məmmədov, X.Ş.Muxtarov və A.Ə.Babayevin doktorluq işlərinin məsləhətçisi olmuşdur. Ə.Hüseynov elmi konfrans və qurultaylarda fəal iştirak edirdi. O, funksional analiz üsullarının qeyri-xətti məsələlərə tətbiqi, yeraltı neftin hidroqaz dinamik məsələlərinin riyazi həlli metodlarına həsr olunmuş ümumittifaq konfransına sədrlik etmişdir. 1960-1965-ci illərdə keçmiş SSRİ-nin Ali və Orta Təhsil Nazirliyi yanında riyaziyyat sahəsi üzrə Metodik Şuranın üzvü olmuşdur.

Onun xidmətləri "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, bir sıra medallarla mükafatlandırılmışdır. 1960-cı ildə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli alim, akademik Əşrəf İsgəndər oğlu Hüseynov 1981-ci ildə vəfat etmişdir.

85 illiyi

Rəfiqə Əliyeva 1932

Akademik

Rəfiqə Əlirza qızı Əliyeva 1932-ci il sentyabr ayının 20-də Naxçıvan şəhərində anadan olmuşdur.

1942-ci ildə Naxçıvan şəhər orta məktəbinin 1-ci sinfinə getmiş, 1951-ci ildə orta təhsilini başa vurmuş, elə həmin ildə də Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsinə qəbul olunmuş, 1956-cı ildə ali təhsilini başa vurmuşdur. Əmək fəaliyyətinə BDU-nun kimya kafedrasında başlamış, 1960-cı ildə oranın aspiranturasını bitirmişdir. 1970-ci ildə baş müəllim təyin edilmiş, 1976-cı ildə isə dosent vəzifəsinə seçilmişdir.

1970-ci ildə kimya elmlər namizədi elmi dərəcəsi almaq üçün "Analitik kimya" ixtisası üzrə "Germanium birləşmələrinin bəzi üzvi reagentlər və spektrofotometrik öyrənilməsinə və germaniumun fotometrik üsulla təyini" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1998-ci ildən analitik kimya ixtisası üzrə professor elmi rütbəsini almış, 1999-cu ildə "d-,f-elementləri və germaniumun tərkibinə N-,S-,O- olan liqandlarla müxtəlifliqandlı kompleksləri və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

2000-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

2001-ci ildən BDU-da təşkil edilmiş "Ekoloji kimya və ətraf mühitin mühafizəsi"elmi-tətqiqat laboratoriyasını rəhbərlik edir. Tədqiqatları üzvi reaktivlər ilə elementlərin təyini üsullarına həsr edilmişdir.

1997-ci ildə ana dilimizdə nəşr edilən "Kiçik kimya ensiklopediyası"nın müəlliflərindən biridir. Elmi-pedaqoji fəaliyyəti 450 elmi əsərdə, o cümlədən 2 monoqrafiyada, 20 dərs vəsaitində, metodik vəsaitlərdə, 17 patentdə öz əksini tapmışdır. 18 elmlər namizədi və 2 elmlər doktoruna rəhbərlik etmişdir.

Bir çox beynəlxalq simpozium və konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Amerika Biblioqrafik İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilmişdir. Dünya Azərbaycan Qadınlar Birliyinin fəxri sədridir.

2003-2004-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə, 2005-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Heydər Əliyev adına mükafatla təltif edilmişdir. 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Elə həmin ildə Yusif Məmmədəliyev adına mükafatın laureatı olmuşdur. 2005-ci ildə Bakı Dövlət Universiteti tərəfindən" İlin alimi" seçilmiş, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə 30 oktyabr 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2014-cü ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Ədəbiyyat

Ekologiyanın əsasları: ali məktəblər üçün dərslik /R.Əliyeva, Q.Mustafayev, S.Hacıyeva; red. A.Məhərrəmov.- Bakı: Bakı universiteti, 2006.- 536 s.

Kimyəvi modifikasiya olunmuş sintetik zorbentlə Zn (II) ionunun sorbsiyasının öyrənilməsi /R.Əliyeva //BDU-nun Xəbərləri.- 2007.- №2.- S.28-34.

Əliyeva Rəfiqə Əlirza qızı //Azərbaycan qadını ensiklopediyası /Red. hey. R.Mehdiyev və b; baş red. İ.Vəliyev; müəllif X.Abbasov və b.- Bakı, 2002.- S.119.

Məhərrəmov, A. Rəfiqə Əlirza qızı Əliyeva //Azərbaycan kimyaçıları: (Akademik Yusif Məmmədəliyevin əziz xatirəsinə ithaf olunur) /A.Məhərrəmov, M.Allahverdiyev, R.Əliyeva, red. F.Şiriyev.- Bakı, 1998.- S.274-275.

70 illiyi Əbülfəz Babayev 1947

Alim

Əbülfəz İsmayıl oğlu Babayev 1947-ci il sentyabr ayının 20-də indiki Şərur rayonunun Qarabağlar kəndində anadan olmuşdur. Qarabağlar kənd orta məktəbini bitirdikdən sonra, 1966-1972-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutunun kimya-texnologiya fakültəsində təhsil almışdır. Təyinatla Sumqayıt Sintezkauçuk zavodunda gənc mütəxəssis kimi əmək fəaliyyətinə başlamışdır. 1982-1983-cü illərdə S.Orconikidze adına Moskva Qırmızı Əmək Bayrağı ordenli İdarəetmə İnstitutunun sənaye-tikinti və istehsalın təşkili fakültəsini bitirmişdir. 1991-ci ildə ABŞ-ın Kaliforniya ştatında PEPERDİNE Universitetində "Müasir dövrdə iqtisadiyyatın təşkili" kursunu keçmişdir.

1980-ci ildə D.İ.Mendeleyev adına Moskva Kimya Texnologiya İnstitutunun İxtisaslaşmış Elmi Şurasında "Uzobu+ulen-izopren "sopomilerlərinin oksigen tərkibli monomerlərlə modifikasiyası" mövzusunda namizədlik, 1991-ci ildə isə "Piroliz məhsullarının sənaye texnologiyası ilə ayrılması və təmizlənməsinin elmi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1992-ci ildən professor, 1994-cü ildən Nyu-york EA-nın həqiqi üzvüdür. 1996-ci ildən Beynəlxalq Mühəndislik Akademiyasının akademikidir. Rusiya, ABŞ, İran, Türkiyə, İtaliya, Almaniya, Çexiya və başqa ölkələrdə çap olunmuş 230-dan çox elmi məqalənin, o cümlədən onlarca ixtira və patentin müəllifidir. "Kauçuk-89" konqresi (Praqa, 1989), kataliz üzrə XI Beynəlxalq Amerika Konqresi (ABŞ, 1996), Türkdilli dövlətlərin polimer simpoziumu (İstanbul 1996), Təbii qazların konversiyası simpoziumu (İtaliya,1998) və s. beynəlxalq elmi simpoziumlarda məruzələr etmişdir.

1980-ci ildən indiki Azərbaycan Neft Akademiyasında, Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərir. 1983-2005-ci illərdə Sintezkauçuk İstehsalat Birliyinin baş mühəndisi, Etilen Polietilen zavodunun direktoru, Azərkimya Dövlət Şirkətinin vitse-prezidenti vəzifələrində çalışmışdır. 2005-ci ilin avqust ayından Sumqayıt şəhər bələdiyyəsinin, 30 noyabr 2006-cı ildən Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri seçilmişdir. 1999-cu və 2004-cü illərdə Sumqayıt şəhər bələdiyyələrinin üzvü seçilmiş və yerli iqtisadi inkişaf və yerli ekologiya məsələləri daimi komissiyasının sədri olmuşdur.

Avropa Şurası Yerli və Regional Hakimiyyətləri konqressinin üzvü, Azərbaycan nümayəndə heyətinin rəhbərinin müavinidir.

Ə d ə b i y y a t

Əmtəəşunaslıq və kimya: dərslik /A.H.Həsənov, Ə.İ.Babayev, Ə.P.Həsənov, C.M.Vəliməmmədov, L.İ.Əliyeva; elmi red. A.H.Əzizov.- Bakı: Elm, 2006.-540 s.

Əbədiyaşar lider /Ə.Babayev //Respublika.- 2013.- 4 may.- S.10.

Rəhman, O. Azərbaycan sənayesinin ilk elmlər doktoru: Sumqayıt kimya sənayesi - 70 /O.Rəhman //İki sahil.- 2015.- 21 oktyabr.- S.16-17.

Məhərrəmov, A. Babayev Əbülfəz İsmayıl oğlu //Məhərrəmov A. Azərbaycan kimyaçıları.- Bakı,1998.- S.161-163.

Babayev Əbülfəz İsmayıl oğlu //Naxçıvan ensiklopediyası /AMEA; red. hey. C.Ə.Əliyev, A. A.Əlizadə, İ.Ə.Həbibbəyli və b..- Bakı, 2002.- S.52-53.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Əbülfəz_Babayev

75 illiyi

Nazil Canibəyov
1942

Kimyaçı-alim

Nazil Fazil oğlu Canibəyov 1942-ci il sentyabr ayının 21-də Bakı şəhərində, həkim ailəsində anadan olmuşdur. 1950-ci ildə Bakı şəhər 1 saylı məktəbin 1-ci sinfinə getmiş, 1960-cı ildə məktəbi bitirmiş, elə həmin il Bakı Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunmuşdur. 1965-ci ildə ali təhsilini başa vurduqdan sonra Azərbaycan Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutuna işə qəbul olunmuş, mühəndis və kiçik elmi işçi vəzifələrində çalışmışdır. 1967-1970-ci illərdə Azərbaycan EA NKPİ-nin əyani aspiranturasına daxil olmuşdur.

1986-cı ildən indiyədək Azərbaycan EA NKPİ-də "Polifunksional kompleksonlar və metalkompleks birləşmələr" laboratoriyasına rəhbərlik edir. 1972-ci ildə "Fosfor-kükürd birləşmələrinin polipropilenin qocalmasına qarşı stabilizatorlar kimi tədqiqi" mövzusunda namizədlik, 1987-ci ildə "Fenolların əsasında metalditiofosfatlar-polimer maddələrin stabilizatorları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 185 elmi əsərin, 98 xaricdə çıxmış əsərin, 35 müəlliflik şəhadətnaməsinin və patentin müəllifidir. Bir elmlər doktoru, 6 kimya kimya üzrə fəlsəfə doktoru hazırlayıb.

1994-cü ildə neft-kimyası ixtisası üzrə professor elmi rütbəsini almışdır.

Son illər N.Canibəyov dien karbohidrogenlərinin polimerləşmə prosesləri üçün yeni tip heterogenləşdirilmiş katolik sistemlərin yaradılması sahəsində tədqiqatlar aparır. Alınmış nəticələr göstərir ki, bu tip katalik sistemlər həm aktivliyə, həm də məhsuldarlığı ilə məlum homogen sistemlərdən bir neçə dəfə effektlidir.

Professor N.F.Canibəyov 1989-1990-cı illərdə Nyu-york Politexnik İnstitutunda görkəmli alim H.F.Markın rəhbərlik etdiyi şöbədə elmi stajirovkada, 1986-cı ildə Yaponiyanın Tokio Texnoloji Universitetində, Kioto və Osaka şəhərlərinin universitetlərində, 1991-ci ildə Türkiyənin "Petkim" firmasında uzun müddətli elmi ezamiyyətdə olmuşdur.

Azərbaycan EA-nın NKPİ-nin nəzdində fəaliyyət göstərən doktorluq müdafiəsi üçün ixtisaslaşmış Elmi Şuranın üzvüdür. 1993-1997-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının kimya üzrə eksperti şurasının üzvü və sədri olmuşdur.

Keçmiş SSRİ-nin "Fəxri ixtiraçı" döş nişanı ilə, Dövlət orqanlarının və AMEA-nın Fəxri Fərmanları ilə, "Avropa Nəşr Mətbu Evi"nin Qızıl medalı ilə təltif edilmişdir.

2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Ədəbiyyat

Dienlərin qaz fazada və kütlədə polimerləşmə üsulu /N.F.Canibəyov.- Azərbaycan Patenti.- A2-001,0040,16.03.2011.

Məhərrəmov, A. N.F.Canibəyov // Məhərrəmov A. Azərbaycan kimyaçıları: (Akademik Yusif Məmmədəliyevin əziz xatirəsinə ithaf olunur).- Bakı, 1998.-S.563-565.

Development of Metal-containiny Dithiosystems - Stabilizers of Polyolefins and Components of Bifunctional Catalysts - stabilizers. World Forum on Polymer Application and Theory /Janibekov N. //POLYCHAR - 2002, Janyary, 2002, Dunton, Texas, USA.

İnternetdə

http://www.science.gov.az/forms/lenyikorrespondentyi/72

120 illiyi

Məmmədəmin Əfəndiyev 1897-1984

Alim

Məmmədəmin Mustafa oğlu Əfəndiyev 1897-ci il sentyabr ayının 23-də Şamaxı rayonunda anadan olmuşdur. Ömrünü əhalinin sağlamlığının mühafizəsinə həsr etmiş görkəmli Azərbaycan terapevtidir. 1934-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

M.M.Əfəndiyev 1936-cı ildən tibb elmləri doktoru, professor, Daxili xəstəliklər propedevtikası kafedrasının professoru vəzifəsində işləmişdir. Professor M.M.Əfəndiyevin elmi-tədqiqatları, əsasən kurortologiya, neft sənayesi işçilərinin peşə xəstəlikləri və tibb tarixi problemlərinə həsr edilmişdir. Rus dilindən bir neçə daxili xəstəliklər dərsliyini(müəllifləri: M.V.Çernorudski, M.P.Konçalovski, A.L.Myasnikov) tərcümə etmiş, Azərbaycan dilində tibb terminlərinin işlənib hazırlanmasında böyük xidməti olmuşdur. Respublikada malyariya xəstəliyinin aradan qaldırılmasında böyük işlər həyata keçirmişdir. O, neftçilər arasında təsadüf edilən peşə xəstəliklərinin profilaktika və müalicə üsullarını öyrənmişdir. Əfəndiyevin ixtisaslı kadrlar hazırlanmasında xidmətləri var.

Professor M.M.Əfəndiyev 1944-cü ildən ömrünün sonuna qədər Azərbaycan Tibb İnstitutu I Daxili xəstəliklər propedevtikası kafedrasının müdiri olmuşdur.

1954-cü ildən ömrünün sonuna qədər Azərbaycan Terapevtlər Cəmiyyətinin sədri olmuşdur.

M.M.Əfəndiyevin xidmətləri layiqincə qiymətləndirilmiş, o, 1957-ci ildə Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. "Lenin" ordeni və bir neçə orden və medallarla təltif edilmişdir.

Görkəmli alim Məmmədəmin Əfəndiyev 1984 -cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Terapevtin cib kitabçası: (Həkimlər üçün) /M.M.Əfəndiyev; red. M.Əhmədov.- Bakı: Maarif, 1966.- 141 s.

Məmmədəmin Mustafa oğlu Əfəndiyev //Azərbaycanın 100 tanınmış həkimi: (Ensiklopedik nəşr) /Tərt.ed. və ön söz. müəl. E. İsgəndərzadə.- Bakı, 2001.- S.15.

Məmmədəmin Mustafa oğlu Əfəndiyev //Şamaxı ensiklopediyası /baş red. F.Babayev.- Bakı, 2015.- S.230.

Məmmədəmin Mustafa oğlu Əfəndiyev //ASE: 10 cilddə.- Bakı, 1980.- C.IV.- S.245.

Развитие научной медицинской мысли в Азербайджане /М.Э.Эфендиев.- Баку: АН Аз ССР, 1968.- 232 с.

Milli Musiqi Günü 1995

Sentyabr ayının 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

XX əsrin 70-80-ci illərində maestro Niyazinin təşəbbüsü ilə həmişə bu gün dahi bəstəkarın anadan olduğu gün kimi respublikamızda xüsusi təntənə ilə qeyd edilirdi. XX əsrin 90-cı illərində qarışıqlıq və hərc-mərclik vaxtında bu ənənə də unuduldu.

Unudulmaz Niyazinin təşəbbüsü 1995-ci ildə ulu öndər Heydər Əliyevin dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması haqqında Fərmanı ilə rəsmi status aldı. Bu nəcib qərar bütün insanların, musiqisevərlərin ürəyincə oldu.

Ü.Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi də məşhurdur. Məhz onun fədakar əməyi sayəsində Azərbaycan milli opera sənətinin tarixi Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası ilə başlandı.

Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır.

Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü.Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Bu gün Azərbaycan musiqisi əsl çiçəklənmə dövrünü yaşayır. Ölkəmizdə davamlı olaraq keçirilən beynəlxalq musiqi festivalları, müxtəlif müsabiqələr bütövlükdə, Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqisinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Üzeyir Hacıbəyli həm də Azərbaycan Dövlət himninin müəllifi kimi tarixi bir hadisəyə imza atmışdır. Bu gün Azərbaycan bayrağı məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, şəhərlərimiz, həmçinin, bütün tədbirlərimiz bu himnin sədaları ilə başlayır.

Ü.Hacıbəylinin kimliyi barəsində düşünərkən ilk növbədə, bu dahi insanın öz sözləri yada düşür: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə ölləndən sonra da camaata mənfəət verirlər".

Ə d ə b i y y a t

Qocayev, Ə. 18 sentyabr - Milli Musiqi Günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.23.

Lalə. Odlar yurdunun böyük musiqi bayramı /Lalə //Mədəniyyət.- 2015.- 18 sentyabr.- S.4.

Milli Musiqi Günü təntənəli şəkildə qeyd edilib //Azərbaycan.- 2015.- 19 sentyabr.- S.7.

Sarıyeva, İ. 18 sentyabr - Milli Musiqi Günümüz... : 1995-ci ildən Heydər Əliyevin Fərmanı ilə qeyd edilən bayram mədəniyyətimizin təbliğində böyük rol oynayır /İ.Sarıyeva //Bakı xəbər.- 2015.- 19-21 sentyabr.- S.15.

Turqut, T. Milli musiqimizin "Üzeyir Günü" /T.Turqut //İki sahil.- 2015.- 18 sentyabr.- S.23.

Yusifli, V. Milli iftixarımız: 18 sentyabr Üzeyir Musiqi Günüdür /V.Yusifli //Azərbaycan.- 2014.- 18 sentyabr.- S.6.

http://www.anl.az/down/meqale/azerbaycan/2014/sentyabr/391794.htm

15 illiyi

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxracat Boru Kəməri 2002

1998-ci il oktyabr ayının 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən "Ankara bəyannaməsi"ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. 2005-ci ilin mayında Bakıda kəmərə ilk neft vurulmuş və bu neft bir il sonra Ceyhan limanına çatmışdır. Əsas ixrac neft kəməri- "Azəri-Çıraq-Günəşli" neft yatağının tammiqyaslı işlənilmə layihəsi üzrə hasil olunan neftin Türkiyənin Ceyhan terminalından dünya bazarına ixracını təmin edir. İstismara verilən gündən Ceyhan portundan 118,4 milyon ton Azərbaycan nefti dünya bazarına yola salınmışdır. BTC neft kəmərinin çəkilişi haqqında dövlətlərarası sazişi 1999-ci ildə Türkiyənin İstanbul şəhərində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan prezidentləri imzalamışlar. İnşasına 2002-ci ilin sentyabr ayında Bakıda, Səngəçal terminalında başlanmışdır. Azərbaycanda 443 km, Gürcüstanda 250 km Türkiyədə 1075 km, daim 914-1066 mm neft vurma nasos stansiyalarının sayı 8-dir. İllik neft götürmə qabiliyyəti 50 milyon tondur. Kəmərin çəkilməsinə təqribən milyard dollar vəsait xərclənmişdir. Kəmərlə gündə 900 min barreldən (120 min ton) çox neft nəql olunur. BTC neft kəməri layihəsində Azərbaycan Respublikasının iştirakının təmin edilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi, o cümlədən ölkənin iştirak payının maliyyələşdirilməsi ilə bağlı məsələlər "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri layihəsində Azərbaycan Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli Fərmanı ilə tənzimlənir. Bakı-Tbilisi-Ceyhan Boru kəməri Kompani (BTC Ko) şirkəti bütövlükdə boru kəmərinin tikintisinə və istismarına cavabdehdir.

Ə d ə b i y y a t

Əliyev İlham: İnkişaf məqsədimizdir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar /İlham Əliyev; burax. məsul R.Mehdiyev.- Bakı: Azərnəşr, 2012.- Kitab 10: may 2005-iyun 2005.- 407 s.

Bakı-Tbilisi-Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi /Heydər Əliyev Fondu; Mərkəzi Asiya-Qafqaz İnstitutu, İpək yolu Araşdırmalar proqramı; red. S.F.Starr, S.F.Kornell; müəllif Z.Baran və b.- Bakı: Mərkəzi Asiya-Qafqaz İnstitutu, 2006.- 174 s.

Xəlilov, Q. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri: (monoqrafiya) /Q.Xəlilov; elmi məsləhətçilər R.Mustagayev, R.Məmmədov.- Bakı: Elm və Təhsil, 2009.- 391 s.

Yaqubzadə, M. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmlənməsinə xidmət edir /M.Yaqubzadə //Xalq qəzeti.- 2014.- 18 sentyabr.

Neftçilər Günü
2001

Ulu Öndər Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli Fərmanı ilə hər il sentyabr ayının 20-si Azərbaycanda Neftçilər Günü kimi qeyd edilir. Bu gün Azərbaycanda neft-qaz sənayesində çalışan mütəxəssislərin, mühəndislərin, fəhlələrin, geoloqların və bu sahənin müxtəlif sahələrinə rəhbərlik edən şəxslərin əməyinin qiymətləndirilməsi ilə bağlı peşə bayramıdır.

Neftçilər Günündə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

1994-cü il sentyabrın 20-si müstəqil Azərbaycan dövlətinin inkişafında tarixi mühüm bir gün oldu. Həmin gün xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış neft kontraktları imzalandı. Bu müqavilənin imzalanması ilə Azərbaycan dövləti bir çox Qərb dövlətlərinin, ilk növbədə isə ABŞ-ın Azərbaycanda iqtisadi maraqlarını yaratmaqla onların diqqətini öz problemlərinə cəlb edə bildi. "Əsrin müqaviləsi"nin imzalanması və uğurla həyata keçirilməsi istiqamətində görülmüş işlər nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəlmişdir. "Əsrin müqaviləsi" tezliklə öz bəhrəsini verdi. 1997-ci il noyabrın 12-də "Çıraq-1" platformasında "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına, 2005-ci ilin fevralında isə "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsində ilkin neftin hasilatına başlandı. Bu kontraktlar Azərbaycanın neft və yeni iqtisadiyyat tarixinin şanlı səhifəsini açdı. Azərbaycan ilk dəfə idi ki, 6 ölkəni təmsil edən dünyanın məşhur 10 xarici neft şirkəti ilə belə böyük miqyasda saziş imzalayırdı. Bu saziş Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu, xarici sərmayədarların axınını sürətləndirdi. "Əsrin müqaviləsi"nə ilkin qoşulan şirkətlər bunlardır: "AMOKO", "Yunokal", "Penzoyl" (ABŞ), "Britiş Petroleum", "Remko" (Böyük Britaniya), "Statoyl" (Norveç), "Lukoyl" (Rusiya), "Türk Petrolları" (Türkiyə), "Delta" (Səudiyyə Ərəbistanı), "İtoçu" (Yaponiya), "Amerada Hess" (ABŞ). Azərbaycan Respublikasının Milli Məclisində neft-qaz əməliyyatlarının idarə edilməsi məqsədi ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

Artıq bu gün Azərbaycan regionun lider dövlətidir və iqtisadiyyatının inkişafında neft amilinin böyük rolu var. Artıq neftdən əldə olunan gəlir qeyri-neft sektorunun inkişafına yönəldilir ki, bu da ölkə iqtisadiyyatının bütünlüklə çiçəklənməsi deməkdir.

Ə d ə b i y y a t

Abdullayev, R. "Əsrin müqaviləsi" ilə başlayan tərəqqi və inkişaf yolu /R.Abdullayev //Respublika.- 2013.- 20 sentyabr.- S.5.

Süleymanov, T. Ölkəmizin uğurlu inkişafının qarantı /T.Süleymanov //Respublika.-2014.-20 sentyabr.-S.10.

Yusifzadə, X. Ömrümüzə yazılan gün /X.Yusifzadə //Respublika.- 2015.- 19 sentyabr.- S.3.

Zeynalov, A. Yaşayan, qalib gələn strategiya /A.Zeynalov //Respublika.-2014.-20 sentyabr.-S9.

Beynəlxalq Sülh Günü 1981

21 sentyabr Beynəlxalq Sülh Günüdür. BMT bu günü 1981-ci ildə təsis edib. İlk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib.

Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. Yaponiya Parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılıb. Elə 2007-ci ildə BMT-nin Baş katibi Pan Gi Mun həmin "Sülh Zəngi"ni çalaraq dünyanı bütün döyüş əməliyyatlarını, ədavəti 24 saat ərzində dayandırmağa və bir dəqiqəlik sükuta çağırmışdı. Baş katib "Sülh bizim missiyamızdır; gündəlik axtarışlarımızın mövzusudur" deyə bu ilki müraciətində də dünya ictimaiyyətini sülhə nail olmaq üçün bütün səyləri birləşdirməyə çağırır. Qeyd edək ki, silahların susmasına və qeyri-zorakılığa həsr olunan Beynəlxalq Sülh gününün bu ilki mövzusu diqqəti daha çox aktual sülh və demokratiya məsələsinə cəlb edir.

Bu gün BMT-nin qərarı ilə bütün dünya miqyasında qeyd edilir. Bu tarixi gün insanların sülh diləyini, əmin-amanlıq şəraitində yaşamaq hüququnu və bəşəri dəyərləri özündə təcəssüm etdirən bir gündür. Yer kürəsində insanların sülh şəraitində yaşaması tərəqqipərvər qüvvələrin birgə səylərindən daha çox asılıdır.

Azərbaycan hüquqi və demokratik dövlət olaraq sülhyaratma əməliyyatlarında fəal iştirak etməklə beynəlxalq təhlükəsizliyin qorunub saxlanmasına dəyərli töhfəsini verir. BMT Baş Assambleyasının 12 noyabr 1984-cü ildə qəbul etdiyi Bəyannamədə xalqların sülh hüququnun qorunması bəyan edilmişdir. Bu tarixi sənəd sülhün təmin edilməsinin zəruri olduğunu bir daha təsdiq edir və hər bir dövlətin üzərinə sülhün təmin edilməsi və qorunması öhdəliyini qoyur. Bu günün əhəmiyyəti çox böyükdür.

Beynəlxalq sülh günü BMT-nin 30 noyabr 1981-ci ildəki qərarı ilə bütün dünyada qeyd olunur. Dünyanın 192 ölkəsi yekdil olaraq bu qərarın lehinə səs vermişdir. 1999-cu ildə rejissor Ceremi Cilli insan cəmiyyətinin əsas problemləri və nisbətən təcili həll olunmalı olan məsələlər barəsində "Peace one day"ı yaratdı. Onun əsas cəhd etdiyi o idi ki, heç olmasa ildə bircə gün bütün dünyada insan zorakılığının baş verməsinin qarşısını alsın, atəşkəs olsun. "Peace one day" çalışır ki, praktiki olaraq, 21 sentyabr qeyd edən, zorakılığa etiraz edən, bütün dünyada sülhün lehinə olan cəmiyyətin bütün sektorlarına rəhbərlik də daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatına daxil olan bütün idarəedici təşkilatları, regional və qeyri-hökümət təşkilatlarını bu işə cəlb etsinlər.Dünya - stabil həyatın əsasıdır. Bu bütün ölkələrə və onların vətəndaşlarına aiddir.

21 sentyabr nəinki yalnız xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə köklü zoraklığa qarşı mübarizənin əldə olunmasına nail olmaq üçün bir gündür. Bu səbəbdən də 21 sentyabr bütün planet insanları üçün çox əhəmiyyətli bir gündür.

Ə d ə b i y y a t

Nərimanoğlu, M. Zamanın arzusu: 21 sentyabr Beynəlxalq Sülh Günüdür /M.Nərimanoğlu //Azərbaycan.- 2011.- 21 sentyabr.- S.6.

Pənahov, A. "Qoy dünyada əmin-amanlıq bərqərar olsun!" /A.Pənahov //Azərbaycan ordusu.-2013.- 27 sentyabr.- S.6.

Süleymanova, E. Davamlı sülh-ümumbəşəri dəyərdir: 21 sentyabr Beynəlxalq Sülh Günüdür /E.Süleymanova //Respublika.- 2015.- 20 sentyabr.- S.3.

Ümumdünya Turizm Günü 1970

27 sentyabr Ümumdünya Turizm Günüdür. 1925-ci ildən Cenevrədə müxtəlif adlar altında fəaliyyət göstərən Turizm təşkilatı 1970-ci il 27 sentyabr tarixdə Ümumdünya Turizm Təşkilatı kimi formalaşıb. 1979-cu ildə Baş Qərargahı Madrid şəhərinə köçən təşkilat 27 sentyabr – Ümumdünya Turizm Gününü təsis edib. Zəngin mədəni-tarixi irsə, əlverişli təbii şəraitə malik olan Azərbaycanda turizm sektoru sürətlə inkişaf edir.

Dünya turizm təşkilatlarının məqsəd və vəzifələri turizm sənayesini təşkil edən təşkilat və şirkətlərin maraqlarını təmsil etmək və müdafiə etmək, ölkənin iqtisadi yüksəliş problemlərinin həllində onlara yardım etməkdir. Ümumi xarakterli ilk təşkilat 1925-ci ildə yaradılmış turizm təbliğininin rəsmi assosiasiyalarının Beynəlxalq Konqresidir. O, 1927-ci ildə rəsmi Turizm Təşkilatıarının Beynəlxalq Konqresi, 1930-cu ildə isə turizmin təşkili və Təbliğininin Beynəlxalq İttifaqı adını almışdır. 1947-ci ildə ardıcıl olaraq dəyişən sadalanmış turizm strukturlarının bazasında beynəlxalq qeyri-hökumət təşkilatı - rəsmi turizm təşkilatlarının Beynəlxalq İttifaqı (KTTBİ) təsis edilmişdir. 1969-cu ildə BMT Baş Assambleyasının qətnaməsinə əsasən qeyri-hökumət təşkilatı BRTTİ-nin hökumətlərarası Ümumdünya Turizm Təşkilatına (ÜTT) çevrilməsinə səbəb oldu. 1970-ci ilin sentyabrında KTTBİ-nin fövfqəladə Baş Assambleyasının iclasında (Meksika) bu ittifaqın adının dəyişib hökumətlərarası turizm təşkilatı - Ümumdünya Turizm Təşkilatı (ÜTT) adı alması məsələsinə baxılmışdır. ÜTT-nin Nizamnaməsi 1970-ci il sentyabr ayının 27-də qəbul edilmişdir. 1975-ci ildə Madrid şəhərində (İspaniya), Ümumdünya Turizm Təşkilatının Birinci Baş Assambleyası keçirildi və Robert Lonati Təşkilatın Baş Katibi seçildi. Həmin il rəsmən BMT-nin beynəlxalq ixtisaslaşmış təşkilatı - ÜTT-nin yaranması ili hesab edilir. 1980-ci ildə ildə keçirilmiş 2-ci Baş Assambleyasında hər il sentyabrın 27-nin "Beynəlxalq Turizm Günü" kimi qeyd olunması qərara alındı.

Azərbaycan Respublikasının Avropa ölkələri ilə əlaqəsi Bakı-Ceyhan neft kəmərinin başa çatması, neft hasilatının gəlirlərinin digər sahələrlə istifadəsi avtomobil yollarının restruktizasiyası "Avropa-Asiya dəhlizi" üçün TRASEKA proqramı beynəlxalq turizmin inkişafına şərait yaratmışdır.

Azərbaycan Respublikası 2001-ci ilin sentyabr ayında ÜTT-nin Baş Assambleyasının XIV sessiyasının qərarı ilə bu təşkilatın tam hüquqlu üzvlüyünə qəbul edilmişdir.

Ə d ə b i y y a t

Bilalov, B. Turizm fəaliyyətinin tənzimlənməsi: dərs vəsaiti /B.Bilalov; elmi red. H.Soltanova; elmi məsləhətçi A.M.Qasımov.- Bakı: Mütərcim, 2006.- 275 s.

Bilalov, B. Turizmin tarixi: dərs vəsaiti /B.Bilalov; red. İ.Z.Əliyev.- Bakı, 2008.- 326 s.

Mükərrəmoğlu, M. Azərbaycan yüksək turizm potensialı olan ölkədir /M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2014.-27 sentyabr.- S.6.

Yusifli, R. Turizm qeyri-neft sektorunda prioritet istiqamətlərindən birinə çevrilir /R.Yusifli //Respublika.- 2015.- 24 sentyabr.- S.5.

545 illiyi

İlk kitab çapı 1472



İlk kitab çapının əsasını Çin sənətkarı Bi Şen qoymuşdur. (1041-48). Avropada Almaniya kitab çapının vətəni hesab edilir. Hərəkət edən literlər, çap dəzgahı ilə kitab çapının həyata keçirilməsi alman xalqının XV yüzillikdə ən böyük nailiyyəti hesab olunur. A.Zenefelder 1798-ci ildə litoqrafiyanı kəşf edib, ingilis U.Çörç 1822-ci ildə şriftyığan,1867-ci ildə isə rus P.P.Knyagininski avtomat şriftyığan maşın ixtira ediblər.

Avropada ilk kitab çapı XV əsrin 40-cı illəri İohann Qutenberqin adı ilə bağlıdır. İohann Qutenberq təqribən 1394-1399-cu illərdə Mayns şəhərində anadan olmuşdur. Avropa kitab çap üsulunu yaratmış alman ixtiraçısıdır. Əsrin ikinci onilliyində Qutenberqlər ailəsi Maynsdan Strasburq şəhərinə köçür.

Qutenberqin dahi ixtirası ondan ibarət idi ki, o metal hərfləri tərsinə olaraq, metaldan qabarıq şəkildə hazırlayır. Bu hərflərdən yığılan mətnləri o, sonra kağızın üzərində çap edir. İxtiranı geniş tətbiq etmək üçün onun vəsaiti çatmır və 448-ci ildə Maynsa qayıdan Qutenberq Yohan Faust ilə müqavilə bağlayır və mətbəənin şərikli sahibi olurlar. Ancaq Faust tədricən işdən uzaqlaşır və kiçik maliyyə vəsaiti və heç bir təcrübəyə malik olmayan işçilərlərlə Qutenberq çalışaraq, Fausta böyük məbləğdə faiz ödəyir.

1456-cı ildə o, 5 müxtəlif formada hərflər hazırlayır və Elia Donatın latın qrammatikasını və iki Bibliyanı çap edir. Şriftinin quruluşuna və formatına görə Bibliya orta əsr əlyazmalarının qotik üslublu kitablarına oxşayırdı. Rəngli inisalları və ornamentləri isə rəssamlar tərəfindən hazırlanmışdı. İohann Balbinin 1460-cı ildə çap edilmiş "Katolikon" əsərinin çapını da İohann Qutenberqin adı ilə bağlayırlar. Qutenberq çap işindən gəlir gələnə qədər uzun müddət şərikinə pul verməkdən boyun qaçırır. Faust onu məhkəməyə verərək, faizlərin ödənilməsini tələb edir. Məhkəmədə o, uduzur və mətbəə bütünlüklə Fausta keçir və Qutenberq hər şeyi təzədən başlamalı olur. O, sonra vətəninə Qutenberqə qayıdır və orada yeni çap mətbəəsinin açılması ilə məşğul olur.

Maynsda yaşayan hüqüqşünas Dr. Konrad Humeri ilə Qutenberq arasındakı razılaşmaya əsasən 1468-ci ildə o, çap mətbəəsi yaradır. 1465-ci ildə Qutenberq Nassau zadəganı tərəfindən sarayda çap işinə götürülür. Ona illik paltar, şərab, buğda verilir və vergilərdən azad olunur.

Qutenberq ömrünün sonuna kimi Maynsda yaşayır. 1468-ci ildə vəfat edir. Məzarının yeri məlum deyil.

Ə d ə b i y y a t

Allahverdiyev, B. Kitabşünaslıq: dərs vəsaiti / B.Allahverdiyev; red. R.Abdullayev.- Bakı: ADU, 1974.- 181 s.

Allahverdiyev, B. Ümumi kitab tarixi: tədris metodik vəsait /B.Allahverdiyev; elmi red. İ.O.Vəliyev.-Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyat poliqrafiya Birliyi, 2003.- 384 s.

Mirəhmədov, Ə. Sovet Azərbaycanının kitab mədəniyyəti: kütləvi oçerk /Ə.Mirəhmədov, H.Həsənov; red hey.: C.Ş.İldırımzadə, Ə.R.Xanbabayev, Ə.S.Qasımov, M.M.Əfəndiyev.- Bakı: Azərnəşr, 1975.- 82 s.

Qutenberq İohan //Azərbaycan Kitabxana Ensiklopediyası: AKE /Azərb. Resp. Məd. və Turizm Naz; Azərb.Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b; .-Bakı, 2015.- S.395.

OKTYABR

24 sentyabr-
23 oktyabr

Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə doğulanlar yumşaq xasiyyətli, parlaq zəkalı olurlar.

B.	1
B.E.	**2**
Ç.A.	3
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	8
B.E.	9
Ç.A.	10
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	17
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	24
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	**29**
B.E.	30
C.A.	31

- Beynəlxalq Musiqi Günü (01.10.1975)
- ***Xocavənd rayonunun işğalının 25-ci ildönümü (02.10.1992)***
- *Beynəlxalq Müəllimlər Günü (05.10.1966)*
- *Dövlət Müstəqilliyi Günü (18.10.1991)*
- ***Zəngilan rayonunun işğalı günü (29.10.1993)***

300 il Molla Pənah Vaqif 1717-1797

Qazaxın mərkəzində "Mütəfəkkirlər bağı"nda Vidadi və Vaqifin qoşa heykəlləri ucaldılmışdır.

XX əsrin 70-ci illərindən Qazaxda "Vaqif - Vidadi Xatirə Muzeyi" fəaliyyət göstərir. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1970-ci il 30 yanvar tarixli 29 nömrəli qərarına əsasən Qazax rayonunda M.P.Vaqifin xatirə muzeyi yaradılmış, 2002-ci ildə isə həmin muzey "M.P.Vaqif və M.V.Vidadinin xatirə muzeyi" adlandırılmışdır. Muzey zəngin tərtibatlı 11 salondan ibarətdir. Muzeyin fondunda 1155-dən çox eksponat vardır. Buraya gələnlər mehribanlıqla, xoş rəftarla qarşılanır, hər iki şairin həyat və yaradıcılığı barədə ətraflı məlumat verilir. Xatirə muzeyindəki eksponatlar, fotoşəkillər, rəsmlər, albomlar, kitablar, qəzetlər, hədiyyələr və b. sənədlər layiqincə qorunub saxlanılır. Muzeydə "Vaqif" ədəbi məclisi fəaliyyət göstərir.

Hər il Qazaxda Vaqif Poeziya Günləri keçirilir.

OKTYABR

2017

Milli Ədəbiyyat

Şair, ədəbiyyatşünas Əlizadə Hümmət Əli oğlunun (10.10.1907-1941) anadan olmasının 110 illiyi

Şair Baxışov Hafiz Həbib oğlunun (Hafiz Baxış) (15.10.1932-04.09.1989) anadan olmasının 85 illiyi 288

Xalq şairi Xəlilov Xəlil Rza oğlunun (Xəlil Rza Ulutürk) (21.10.1932-22.06.1994) anadan olmasının 85 illiyi 289

Şair Rasizadə Hüseyn Abdulla oğlunun (Hüseyn Cavid) (24.10.1882-5.12.1941) anadan olmasının 135 illiyi 290

Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Quluzadə Mirzəağa Yüzbaşı oğlunun (25.10.1907) anadan olmasının 110 illiyi

Əməkdar mədəniyyət işçisi Əfəndiyev Adil Ələddin oğlunun (29.10.1907-08.02.1973) anadan olmasının 110 illiyi

Folklor

Aşıq Əfəndiyev Kamandar Həmid oğlunun (21.10.1932-25.10.2000) anadan olmasının 85 illiyi 291

Dünya ədəbiyyatı

İspan yazıçısı Servantes Saavedra Migel denin (09.10.1547-23.04.1616) anadan olmasının 470 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar incəsənət xadimi, heykəltəraş Abdullayeva Həyat Həmdulla qızının (14.10.1912-21.04.2006) anadan olmasının 105 illiyi 292

Xalq rəssamı, Əməkdar incəsənət xadimi Əfqanlı Bədurə Məlikağa qızının (25.10.1912-06.05.2002) anadan olmasının 105 illiyi 293

Musiqi.Opera.Balet

Xalq artisti, opera müğənnisi Ağalarov İdris Fərhad oğlunun (20.10.1917-04.05.1975) anadan olmasının 100 illiyi 294

Xalq artisti, müğənni Ələkbərova Şövkət Feyzulla qızının (20.10.1922-07.02.1993) anadan olmasının 95 illiyi

İtalyan skripkaçısı, bəstəkar Paqanini Nikkolonun (27.10.1782-27.05.1840) anadan olmasının 235 illiyi

Xalq artisti, dirijor Abdullayev Rauf Cahanbaxış oğlunun (29.10.1937) anadan olmasının 80 illiyi 295

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Allahverdiyev Namiq Müslüm oğlunun (05.10.1967-09.07.1992) anadan olmasının 50 illiyi 296

Azərbaycanın Milli Qəhrəmanı Əsədov Rəfael Əvəz oğlunun (27.10.1952-12.11.1992) anadan olmasının 65 illiyi 297

Siyasət.Hərbi iş

Dövlət xadimi Qayıbov İsmət İsmayıl oğlunun (08.10.1942-20.11.1991) anadan olmasının 75 illiyi 298

İctimai xadim, 1-ci dərəcəli müşavir-diplomat Abutalıbov Ramiz Abutalıb oğlunun (27.10.1937) anadan olmasının 80 illiyi 299

Riyaziyyat.Fizika.Astronomiya

Riyaziyyatçı, professor Əhmədov Qoşqar Teymur oğlunun (24.10.1917-13.02.1975) anadan olmasının 100 illiyi



Kimya.Biologiya.Tibb

Akademik Abbasov Vaqif Məhərrəm oğlunun (05.10.1952) anadan olmasının 65 illiyi 300

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, oftalmoloq Musabəyova Umnisə Süleyman qızının (09.10.1902-15.11.1974) anadan olmasının 115 illiyi 301

Tibb elmləri doktoru, professor, Əməkdar həkim, Əməkdar elm xadimi Eyvazov Bahadır Əsgər oğlunun (26.10.1907-1998) anadan olmasının 110 illiyi

Tarixdə bu gün

Beynəlxalq Musiqi Günü (01.10.1975)
Beynəlxalq Ahıllar Günü (01.10.1992) 302
Prokurorluq İşçiləri Günü (01.10.1998)
Xocavənd rayonunun işğalının 25-ci ildönümü (02.10.1992) 303
Beynəlxalq Qeyri-Zorakılıq Günü (02.10.2007)
Ümumdünya Kənd Təsərrüfatı Heyvanları Günü (02.10)
Beynəlxalq Heyvanları Müdafiə Günü (04.10.1931)
Beynəlxalq Müəllimlər Günü (05.10.1966)
Milli Televiziya və Radio Şurası yaradılmışdır (05.10.2002)
Ümumdünya Quşları Müşahidə Günü (5-6.10.1993)
Ümumdünya Statistika Günü (20.10.2010)
Ümumdünya Yaşayış Yerini Qoruma Günü (06.10.1979)

Ümumdünya Poçt Günü (09.10.1970)
Bakı şəhərində “Azadlıq” meydanında Azərbaycan Milli Ordusunun ilk hərbi paradı keçirilib (09.10.1992)
Azərbaycanda «Space» televiziya kanalı yayıma başlamışdır (12.10.1997)
Beynəlxalq Təbii Fəlakətlərdən Qorunma Günü (13.10.2009)
Dövlət Müstəqilliyi Günü (18.10.1991) 304
Beynəlxalq Kulinariya Günü (20.10.2007)
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1945) 305
Rusiyada Böyük Oktyabr Sosialist inqilabı qələbə çalmışdır (25.10.1917) 306
Repressiya Qurbanları Günü (30.10.1974)
Zəngilan rayonunun işğalı günü (30.10. 1993) 307
Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə günü (31.10.2003) 308

85 illiyi

Hafiz Baxış 1932-1989

Şair

Hafiz Həbib oğlu Baxışov (Hafiz Baxış) 1932-ci il oktyabr ayının 15-də Zəngəzur mahalının Qafan bölgəsinin Yuxarı Gilətağ kəndində, müəllim ailəsində anadan olmuşdur. 1950-ci ildə Şəhərcik kəndində orta məktəbi bitirmişdir.

1950-1952-ci illərdə Qovşud kəndində ibtidai sinif müəllimi işləmişdir.

1952-1956-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun teatr və kino aktyorluğu fakültəsində təhsil almışdır. Tələbə ikən 1954-cü ildə Azərbaycan diviziyasında (hərbi hissədə) bədii özfəaliyyət dərnəyinin rəhbəri olmuşdur. 1956-1961-cı illərdə Sumqayıt şəhərində tərbiyəçi, Pionerlər Evinin və Mədəniyyət Sarayının direktoru vəzifəsində çalışmışdır. 1961-ci ildə Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində rejissor köməkçisi, rejissor, yüksək dərəcəli rejissor vəzifələrində işləmişdir.

Şairin "Samur-Dəvəçi kanalına" adlı ilk şeiri 1957-ci ildə "Sosialist Sumqayıtı" qəzetində, "Zirvə" adlı ilk poeması isə "Azərbaycan" jurnalının 1968-ci il 2-ci sayında çap olunmuşdur. O, altı poema qələmə alsa da, lirik şair kimi tanınmışdır. Nəğməkar şairin sadə, ürəyəyatan sözləri bəstəkarların diqqətini cəlb etmiş, iyirmidən çox şeirinə görkəmli bəstəkarlarımız Cahangir Cahangirov, Ələkbər Tağıyev, Emin Sabitoğlu, Cavanşir Quliyev və başqaları musiqi bəstələmişdir. Onun "Azərbaycan oğluyam", "Eşqimi sönməyə qoymaram", "Dağlar üçün darıxmışam", "Mənim dünyam" və s. sözlərinə bəstələnmiş mahnılar bu gün də dillər əzbəridir.

Hafiz Baxış 57 illik ömrünü vətəninin torpağına, təbiətinə, insanlarına olan sevgisini seirlərinə köçürmüşdür. Onun 1980-ci ildə "Azərbaycan oğluyam", 1983-cü ildə "Sona bülbüllər", 1989-cu ildə "Eşqimi sönməyə qoymaram", 2001-ci ildə "Dağlar üçün darıxmışam", 2002-ci ildə "Bu torpağa bağlıyam" kitabları çapdan çıxmış, haqqında məqalələr yazılmışdır.

Hafiz Baxışov 1989-cu il sentyabr ayının 7-də ürək tutmasından vəfat etmiş və Bakı şəhərində dəfn edilmişdir.

Ə d ə b i y y a t

Ana layla deyir /Hafiz Baxış.- Bakı: Zərdabi LTD MMC, 2012.- 296 s.

Bu torpağa bağlıyam: nəğmələr, şeirlər və poemalar /Hafiz Baxış.- Bakı: İqtisad Universiteti, 2002.- 224 s.

Dağlar üçün darıxmışam: şeirlər /Hafiz Baxış.- Bakı: Şirvannəşr, 2001.- 132 s.

Eşqimi sönməyə qoymaram: şeirlər və poemalar /Hafiz Baxış.- Bakı: Yazıçı, 1989.- 86 s.

Abbaslı, T. Hafiz Baxış: misraları, kadrları, insanlığı, dost-yoldaşlığı, naxış-naxış... /T.Abbaslı //Mədəniyyət.- 2014.- 15 oktyabr.- S.13.

"Amansızdır zaman, dağlar!..": nəğməkar şair Hafiz Baxış //Azadlıq.- 2013.- 6 iyun.- S. 14.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

www.adam.az/index.php?option

85 illiyi

Xəlil Rza Ulutürk
1932-1994

Şair



Xəlil Rza oğlu Xəlilov (Xəlil Rza Ulutürk) 1932-ci il oktyabr ayının 21-də Salyan rayonunun Pirəbbə (kənd indi Neftçala rayonuna daxildir) kəndində anadan olmuşdur. 2 saylı Salyan şəhər orta məktəbini bitirdikdən sonra, 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuşdur. 1954-cü ildə universiteti bitirən Xəlil Rza əmək fəaliyyətinə "Azərbaycan qadını" jurnalı redaksiyasında başlamışdır. "Kitab" adlı ilk şeiri 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunan Xəlil Rza 1955-1957-ci illərdə bir sıra məqalə və şeirləri ilə daim dövri mətbuatda çap olunmuşdur. 1957-ci ildə ilk şeirlər toplusu "Bahar gəlir" adlı kitabı nəşr olunmuşdur. Həmin ilin avqust ayında Azərbaycan Yazıçılar İttifaqı (indiki AYB) onu Moskvaya, M.Qorki adına Dünya Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik Ali Ədəbiyyat kurslarına göndərmişdir. 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

1959-cu ildə Bakıya qayıdan şair Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki APU) aspiranturasında təhsilini davam etdirmiş, 1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Bir müddət sonra Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna dəvət olunmuş, elmi-tədqiqat işini davam etdirərək, 1985-ci ildə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1984-cü ildə şairin "Ömürdən uzun gecələr" adlı kitabı və SSRİ xalqlarının dillərindən tərcümə edilmiş poetik əsərlərdən ibarət "Qardaşlıq çələngi" toplusu ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

40 illik ədəbi-bədii yaradıcılığı dövründə öz əsərlərini "Xəlil Xəlilov", "Xəlil Xəlilbəyli", "Xəlil Odsevər", "Xəlil Rza", "Xəlil Rza Ulutürk" təxəllüsləri ilə çap etdirmişdir. 80-ci illərin sonlarında xalq azadlıq hərəkatının vüsət aldığı zaman Xəlil Rza bütün varlığı ilə bu hərəkata qoşulmuş, hər yerdə rus şovinist siyasətini, Dağlıq Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını odlu-alovlu çıxışları ilə ifşa etmişdir. O, "şübhəli şəxs" kimi təqib olunmuş, 1990-cı il yanvarın 26-da keçmiş SSRİ Dövlət Təhlükəsizliyi əməkdaşları tərəfindən həbs edilərək Moskvaya - Lefortovo həbsxanasına göndərilmişdir. 1990-cı il oktyabrın 9-da Bakıya gətirilmiş, bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxılmışdır. 1986-cı ildə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə ona "Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir. Şair 1991-ci ildə M.F.Axundov adına ədəbi mükafatı və "Türk milləti mükafatı" laureatı fəxri adlarına layiq görülmüşdür. 1992-ci ildə "Xalq şairi" fəxri adını almışdır.

Xəlil Rza Ulutürk 1994-cü il iyun ayının 22-də vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə Xalq şairi Xəlil Rza Ulutürk (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə /Xəlil Rza Ulutürk.- Bakı: Şərq-Qərb, 2005.

Seçilmiş əsərləri: şeir və poemalar /Xəlil Rza Ulutürk.- Bakı: Təhsil, 2012.- 559 s.

Seçilmiş əsərləri /Xəlil Rza Ulutürk.- Bakı: [s.n.], 2014.- 607 s.

Dünyaya pəncərə: [Dünya xalqları poeziyasından tərcümələr] /tərt. və tərc. Xəlil Rza.- Bakı: Maarif, 1984.- 302 s.

Turan çələngi /Xəlil Rza Ulutürk.- Bakı: Elm, 1992.- 792 s.

Dəmirli, M. Xəlil Rza Ulutürkün poeziyası /M.Dəmirli.- Bakı: Sabah, 1996.- 136 s.

Yaqub, Z. Məndə yaşayan Xəlil Rza /Z.Yaqub //Ədəbiyyat qəzeti.- 2015.- 7 mart.- S. 18-19.

İnternetdə

https://az.wikipedia.org/wiki/

135 illiyi

Hüseyn Cavid 1882-1941

Şair-dramaturq

Hüseyn Abdulla oğlu Rasizadə (Hüseyn Cavid) 1882-ci oktyabr ayının 24-də Naxçıvanın Kəngərli rayonunun Şahtaxtı kəndində, ruhani ailəsində doğulmuşdur. İlk təhsilini mollaxanada almış, 5 il ərzində ilahiyyat elmini, fars, ərəb dillərini öyrənmiş, 14 yaşında ikən XIX əsrin görkəmli maarifçilərindən olan Məhəmmədtağı Sidqinin təşkil etdiyi "Məktəbi-tərbiyə"yə (1896) daxil olmuşdur. 1898-ci ildə burada təhsilini başa vuraraq Təbrizdəki "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. 1909-cu ildə Türkiyədə İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmişdir. Naxçıvanda, sonra Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir.

Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. 1913-cü ildə "Keçmiş günlər" adlı ilk şeir kitabı çap olunmuşdur. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. "Şeyx Sənan" (1914), "İblis" (1918) mənzum faciələri onun yaradıcılığında mühüm yer tutmuşdur.

Hüseyn Cavid daha çox dramatuq kimi tanınmışdır. "Peyğəmbər" (1922), "Topal Teymur" (1925), "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramlarını 1920-1930-cu illərdə yazmışdır.

Sovetlər Birliyində totalitarizmin dəhşətli dövründə Hüseyn Cavid sosializmin "nailiyyətlər"indən yazmağı özünə rəva bilməmiş, Stalini, Azərbaycan ağalarını mədh etməkdən qətiyyətlə boyun qaçırmışdır. Ona görə də bu mətin şəxsiyyət Sibir buzlaqlarına - Maqadana sürgün edilmiş və 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində həlak olmuşdur.

Şairin xatirəsi xalqımız tərəfindən həmişə əziz tutulmuş, onun 100 illik yubileyi ilə əlaqədar 1982-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və himayəsi ilə cənazəsinin qalıqları İrkutskdan Naxçıvana gətirilərək ev-muzeyinin yaxınlığında dəfn edilmiş, 1996-cı ildə qəbri üzərində möhtəşəm memarlıq-xatirə kompleksi "Hüseyn Cavid məqbərəsi" ucaldılmışdır. Adına məktəblər, küçələr verilmişdir. Bakı şəhərində abidəsi var. Hüseyn Cavidin həyat və fəaliyyətini, zəngin irsini əbədiləşdirmək və təbliğ etməq məqsədi ilə ev-muzeyinin yaradılması ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 21 iyul 1981-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" qəbul etdiyi qərarda nəzərdə tutulmuşdu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 1995-ci ildə 160 saylı qərarına əsasən Bakıda Hüseyn Cavidin 1920-1937-ci illərdə yaşadığı evdə muzeyi "Hüseyn Cavidin Ev Muzeyi" yaradıldı və Azərbaycan Elmlər Akademiyasının tabeliyinə verildi. 24 oktyabr 2002-ci il tarixində, Hüseyn Cavidin 120 illik yubileyi günündə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsən iştirakı ilə muzeyinin rəsmi açılış mərasimi keçirilmiş, ekspozisiyaları geniş tamaşaçı auditoriyasına nümayiş etdirilmişdir.

Ə d ə b i y y a t

Əsərləri: 5 cilddə /H.Cavid; tərt. T.Cavid.- Bakı: Lider, 2005.- 351 s.

Seçilmiş əsərləri /H.Cavid.- Bakı: Çaşıoğlu, 2004.- 640 s.

Əliyev, K. Hüseyn Cavid: həyatı və yaradıcılığı /K.Əliyev.- Bakı: Elm, 2008.- 324 s.

Sarıyeva, İ. Hüseyn Cavid irsinə Heydər Əliyev qayğısı... /İ.Sarıyeva //Bakı xəbər.- 2014.- 17 dekabr.- S.11.

Избранные произведения /Г.Джавид.- Баку: Təhsil, 2014.- 547 с.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

aqra.az/.../huseyn.../422-huseyn-dzavidin-haey.

85 illiyi

Aşıq Kamandar 1932-2000

Aşıq-şair

Kamandar Həmid oğlu Əfəndiyev (Aşıq Kamandar) 1932-ci il oktyabr ayının 21-də Gürcüstanın Borçalı mahalının Sarvan (indiki Marneuli) rayonunun Kürüstü Kəpənəkçi kəndində anadan olmuşdur. Ömrünün erkən yaşlarından saz çalıb, oxumağa hədsiz maraq göstərən Kamandar 1959-cu ildə Bakıda Azərbaycan aşıqlarının IV qurultayının nümayəndəsi olmuşdur. Aşıq Kamandar həmişə yorulmadan öz üzərində işləmiş, aşıq sənətinin ən incə sahələrinə yaradıcı bir tədqiqatçı kimi yollar axtarmışdır. Böyük zəhmətdən sonra Kamandar Həmid oğlu ozan-aşıq sənətində yaradıcı aşıq-şair kimi püxtələşməyə başlamışdır. Dillər əzbəri olan qoşma və gəraylıları, divani və təcnisləri, muxəmməsləri ona böyük şöhrət qazandırmışdır. Ötən əsrin 70-ci illərindən başlayaraq, Aşıq Kamandarın bu qoşma və təcnisləri Gürcüstan radiosu ilə yanaşı, Azərbaycan radio və televiziya verilişlərində də səslənməyə başlamışdır.

1989-cu ildə "Yazıçı" nəşriyyatı tərəfindən ilk "Borçalı laylası" adlı şeirlər kitabı işıq üzü görmüşdür. Aşıq el sənətinə bütün varlığı ilə bağlı olan, Azərbaycan xalqının XX əsrdə yetirdiyi görkəmli filosoflardan biri – əslən Borçalıdan olan mudrik alimimiz Camal Mustafayev bu kitaba yazdığı ön sözdə qeyd edir: "Kamandarın zəngin sənətində saz, səs, söz vəhdət təşkil edir. "Borçalı laylası"nı oxuyanda bir daha yəqin edirsən ki, o, Borçalı yaylaqlarının bulağından su içib bəhrələnmişdir. Bu dağ bulaqlarının saflığını və sağlamlığını öz misralarına hopdura bilmişdir". Ustad aşığın yazmış olduğu şeirlərin hamısından xalq ruhu, xalq nəfəsi və ozan-aşıq sənətkarlığı duyulur. Şair Kamandarın şeirlərinin dadlı və duzlu olması, Azərbaycan poeziyasının məğrurluğundan, dilə yatımlığından şairin xəbərdar olduğunu və "Saz-aşıq-söz" dünyamızın inkişafında Borçalı aşıq, saz-söz məktəbinin rolunu bir daha təsdiqləyir.

İstər Gürcüstanda, Borçalıda, istərsə də Azərbaycanda və eləcə də Turkiyə və İranda Kamandar sənətinin vurğunlarının sayı-hesabı yoxdur. Onun ölməz yaradıcılığı haqqında alimlər, sənətşünaslar, pedaqoqlar, müğənni və xanəndələr, musiqiçi və heykəltəraşlar ürəkaçan sözlər demişlər.

Aşığın 2004-cü ildə "Bənövşə" və 2008-ci ildə "Mən ellər Aşığı Xan Kamandaram" adlı kitabları çapdan çıxmışdır.

Aşıq Kamandar Əfəndiyev 2000-ci il oktyabr ayının 25-də doğma kəndi Kürüstü Kəpənəkçidə vəfat etmişdir.

2013-ci sentyabın 18-də aşığın doğma kəndində büstü və ev-muzeyi açılmışdır. 80 illik yubileyi Tbilisi şəhərində təntənəli şəkildə qeyd edilmişdir.

Ə d ə b i y y a t

Borçalı laylası: şeirlər /Aşıq Kamandar.- Bakı: Yazıçı, 1989.- 142 s.

Xan Kamandar /tərt. M.Nəbioğlu.- Bakı: Elm və təhsil, 2012.- 396 s.

İlməzli, İ. Kamandar aləminə səyahət /İ.İlməzli.- Bakı: Elm və təhsil, 2014.- 143 s.

Əliyev, İ. Ustad aşıq Kamandar Əfəndiyevin doğma kəndində büstü və ev-muzeyi açılmışdır /İ.Əliyev //Ozan dünyası.- 2013.- № 3.- S. 9-10.

İlməzli, İ. "Mən ellər aşığı Xan Kamandaram": Aşıq Kamandarın şeir yaradıcılığı barədə düşüncələr /İ.İlməzli //Kaspi.- 2015.- 2-4 may.- S. 20.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

105 illiyi

Həyat Abdullayeva 1912-2006

Heykəltəraş

Həyat Həmdulla qızı Abdullayeva 1912-ci il oktyabr ayının 14-də Dərbənd şəhərində anadan olmuşdur. O, məşhur balıq sənayeçisi, dövlət xadimi Həmdulla Abdullayevin qızıdır. Atasının "xalq düşməni" adı ilə güllələnməsindən sonra, 1930-cu ildə anası ilə birlikdə Qazaxıstana sürgün edilmişdir. 1942-ci ildə Repin adına Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutuna daxil olmuşdur. Həmin illərdə Həyat xanım "Tutu xanım", "Həsən bəy Zərdabi" kimi əsərlərini yaratmışdır. Həyat Abdullayeva dəzgah heykəltəraşlığı sahəsində ilk ali təhsilli heykəltəraş qadın olmuşdur. Təhsilini başa vurduqdan sonra Bakıya qayıtmış və Bakı Rəssamlıq Texnikumunda dərs demişdir. O, Əzim Əzimzadə adına Rəssamlıq Texnikumunda sənətin sirlərini P.Sabsayın emalatxanasında almışdır.

Həyat xanımın yaratdığı ilk iş "Gənc oğlan"ın portretidir. 1950-ci ildən heykəl portretlərin, monumentlərin və kiçik formalı plastik əsərlərin – "Ana" (1955), "Yeddi gözəl" (1957) heykəlcikləri, "Həcər" (1959), "Gənclik" (1960), "Lay-lay" (1963) heykəl-kompozisiyaların, Molla Pənah Vaqifin abidəsi (1957), "İki qız" (1967), "Vəcihə Səmədovanın portreti" (1970), "Sənsiz" (1972) , "Şah İsmayıl", "Natəvan" və s. müəllifidir. "Lay-lay" kompozisiyasında körpəsinə ayaqları üstündə lay-lay çalan gənc qadın – ana təsvir olunub. Bu əsər naturadan işlənib. Böyük uğur qazanan bu əsər incəsənətimizin qızıl fonduna daxil olub.

H.Abdullayeva heykəltəraşlıq sənətinin inkişafında öz dəsti xətti olan təkrarolunmaz sənətkar olmuşdur. 1950-ci ildə Nizami Gəncəvinin "7 gözəl" əsərinin motivləri əsasında işlədiyi kompozisiya (farfor) tətbiqi sənət sahəsində ən baxımlı işlərdən biridir. Bu işlərdə müəllif qadın portretində rəgarəngliyə, psixoloji tamlığa cəhd etmiş, qəhrəmanın müsbət, kəskin xarakterini, geyimini, düşüncə tərzini, incəliklə, böyük ustalıqla verə bilmişdir.

Həyat xanımın yaradıcılığında uşaqlara həsr etdiyi məzmunlu kompozisiyaları xüsusi yer tutur. Uşaqların sadə təmiz mənəviyyatının təsvirinə, xarakteristikasına tamaşaçıların diqqətini cəlb edə bilmişdir. M.F.Axundov adına Milli Kitabxananın fasadında qoyulmuş Sovet ədəbiyyatının banisi Maksim Qorkinin heykəlini yaratmışdır.

Görkəmli heykəltəraş 1964-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Həyat Abdullayeva 2006-cı il aprel ayının 21-də Bakıda vəfat etmişdir.

2014-cü il martın 14-də Həyat Abdullayevanın 100 illiyi münasibətilə Əməkdar incəsənət xadimi, tanınmış rejissor Yavər Rzayevin "Azanfilm" studiyasında istehsal olunmuş "Gözümün işığı və ya qəribə heykəltəraş ömrü" sənədli filminin təqdimatı keçirilmişdir.

Ə d ə b i y y a t

Həyat Abdullayeva //Azərbaycan qadın ensiklopediyası.- Bakı, 2002.- S. 16-17.

Gözümün işığı və ya qəribə heykəltəraş ömrü //Azərbaycan.- 2014.- 15 mart.- S. 6.

Möhləddinli, P. Qızıl əllər: Həyat Abdullayeva-100 /P.Möhləddinli //Mədəni həyat.- 2012.- № 10.- S. 74.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

105 illiyi

Bədurə Əfqanlı 1912-2002

Rəssam

Bədurə Məlik qızı Əfqanlı 1912-ci il oktyabr ayının 25-də Bakı şəhərində dünyaya göz açmışdır. 1929-cu ildə əvvəlcə Bakı Pedaqoji Texnikumuna daxil olmuş, lakin rəssam olmaq həvəsi 1931-ci ildə onu Bakı Rəssamlıq Məktəbinə gətirmiş, qrafika şöbəsində təhsil almışdır. Teatr rəssamı olmaq qərarına gələn Bədurə xanımın diplom işinin mövzusu V.Şekspirin "Otello" faciəsi olmuşdur. Çəkdiyi eskizlər, qurduğu kompozisiyalar, tapdığı yeni rəng çalarları onun özünəməxsus sənət duyumunu göstərirdi. Diplom işini uğurla başa vurmuşdur. İlk tərtibat verdiyi səhnə əsəri Rza Əfqanlının (Bədurə Əfqanlının həyat yoldaşı) quruluşçu rejissor olduğu "Qaçaq Kərəm" tamaşası olmuşdur. Onlar uzun illər birgə çalışmış, bir çox tamaşalara uğurlu səhnə həyatı vermişlər. Birgə hazırladıqları tamaşalardan "Şeyx Sənan" faciəsini, "Aşıq Qərib" operasını, "1905-ci il", "Sevil" pyeslərini qeyd etmək olar. Hər iki sənətkar bir müddət Türkmənistanda, Aşqabad Dram Teatrında çalışmış, sonra yenidən Bakıya qayıdaraq yaradıcılıq işlərinə doğma şəhərdə davam etmişlər. Bədurə Əfqanlı 1937-ci ildə Azərbaycan Dövlət Dram Teatrına dəvət almış, 1960-cı ilədək bu kollektivdə tərtibatçı və geyim üzrə rəssam olaraq çalışmışdır. Həmçinin Azərbaycan Dövlət Rus Dram Teatrının bir sıra tamaşalarına geyim eskizləri çəkmişdir.

Mütəxəssislər Bədurə Əfqanlının rəssam kimi fəaliyyətindən danışarkən onun istedadı ilə yanaşı, əməksevərliyini, hər zaman axtarmaq həvəsini, peşəkarlığını xüsusi qeyd edirlər. Rejissorlar, dramaturqlar həmişə onunla həvəslə işləyiblər.

1960-cı ildən "Azərbaycanfilm" kinostudiyasında geyim üzrə rəssam işləyən sənətkar "Koroğlu", "Leyli və Məcnun", "Dəli Kür", "Böyük dayaq", "Dədə Qorqud", "O qızı tapın", "Qatır Məmməd" kimi ekran əsərlərinə geyim eskizləri çəkmişdir. Bu gün onun bir çox əsəri Azərbaycan Dövlət Teatr Muzeyi və A.A.Baxruşin adına Rusiya Mərkəzi Teatr Muzeyində (Moskva) saxlanılır.

Görkəmli sənətkarın çeşidli yaradıcılığı həmişə diqqət mərkəzində olmuş, ölkə rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 21 iyul 1949-cu ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1 iyun 1974-cü ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

İlk azərbaycanlı qadın teatr rəssamı Bədurə Əfqanlı 2002-ci il may ayının 7-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Səfərəliyeva, D. Əfqanlı Bədurə /D.Səfərəliyeva.- Bakı: İşıq, 1986.- 80 s.

Əfqanlı Bədurə //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1980.- C.4.- S.243.

Gəncəli, S. Bədurə Əfqanlı //Gəncəli S. Qadın, gözəllik və ülviyyət: (Ensiklopedik toplu).- Bakı, 2001.- S.279.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Bədurə_Əfqanlı

azertag.az/.../BADURA_MALIK_QIZI_AFQANLI-841319

95 illiyi

Şövkət Ələkbərova 1922-1993

Müğənni

Şövkət Feyzulla qızı Ələkbərova 1922-ci il oktyabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 14 yaşında ikən kamança ifaçısı olmuş, 16 yaşından isə müğənniliyə başlamışdır. Üzeyir Hacıbəyli tərəfindən 15 yaşlı Şövkətin Azərbaycan Dövlət Xoruna dəvət olunması ilə Şövkət Ələkbərova böyük səhnəyə gəlmişdir.

1942-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin Azərbaycan xanəndəsi H.Sarabskinin sinfini bitirdikdən sonra 1938-1945-ci illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, 1945-1978-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, 1978-1993-cü illərdə Azərbaycan Dövlət Qastrol-konsert Birliyinin solisti olmuşdur.

Şövkət Ələkbərova fenomeni bir ulduz kimi Azərbaycan səhnəsində yarım əsrdən çox şölə saçmış və bu gün də parlamaqdadır. "Oxu, gözəl, oxu, qoy səsin, ürəklərdə kaman kimi titrəsin!" Deyirlər bu məşhur sətirləri Səməd Vurğun Şövkət xanıma həsr etmiş, Səid Rüstəmov bəstəsini yazmış, nəticədə böyük üçlüyün misilsiz töhfəsi nəsillərə yadigar qalmışdır. Keçmiş SSRİ-nin bir çox şəhərlərində, Fransa, İsveçrə, Şri Lanka, Əfqanıstan, Hindistan, Misir, Əlcəzair, İran, Türkiyə, Polşa və onlarca digər xarici ölkələrdə uğurla çıxış edən Şövkət Ələkbərovanın repertuarına "Segah", "Qatar", "Şahnaz" kimi muğamlar, Azərbaycan bəstəkərlərinin və Orta Şərq xalqlarının mahnıları daxil idi.

1959-cu ildə Şövkət xanım öz məharətini keçmiş SSRİ-nin paytaxtı Moskvada, Böyük Teatrın səhnəsində Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü çərçivəsində təşkil olunan konsertdə göstərmişdir. Müğənninin çıxışları paytaxt tamaşaçılarını da valeh etmişdir.

Məlahətli, yumşaq tembrli səsi olan Şövkət Ələkbərova müxtəlif filmlərin mahnılarını da səsləndirmişdir. Bunlara "Bəxtiyar", "Görüş", "Onu bağışlamaq olarmı?", "Ögey ana", "Mücrü", "İyirmialtılar", "Aygün", "Koroğlu", "Mahnı belə yaranır", "Kölgələr sürünür", "Qızmar günəş altında" və s. filmləri misal göstərmək olar.

İfaçılıqla müəllimlik fəaliyyətini məharətlə uzlaşdıran Şövkət xanım yeni müğənnilər nəslinin yetişməsində önəmli rol oynamışdır. "Bülbüllər" qrupunun rəhbəri Aybəniz Haşımova, Azərbaycanın Əməkdar artisti Aygün Bayramova, Könül Xasıyeva və başqaları onun tələbələri olmuşlar.

Şövkət xanımın yaradıcılığı yüksək səviyyədə qiymətləndirilmiş, müğənni 1954-cü ildə Azərbaycanın "Əməkdar artist", 1959-cu ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Şövkət Ələkbərova 1993-cü il fevralın 7-də Bakı şəhərində vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Yaşadığı evin divarına xatirə lövhəsi vurulmuşdur. Müğənni haqqında film çəkilmiş, adına küçə, poçt indeksi, 20 saylı musiqi məktəbi var. 2014-cü il mayın 1-də Şövkət Ələkbərova adına tanker suya buraxılmışdır.

Ədəbiyyat

Çəmənli, M. Şövkət Ələkbərova /M.Çəmənli.- Bakı: İşıq, 1989.- 76 s.

Çəmənli, M. Oxu, gözəl... /M.Çəmənli.- Bakı: Nağıl evi, 2005.- 226 s.

Qaramollayeva, K. Şövkət Ələkbərova yaradıcılığına nəzər /K.Qaramollayeva //Mədəni həyat.- 2012.- № 11.- S. 65-67.

Məmmədhəsən. Şövkət Ələkbərovanın 93 yaşı tamam oldu /Məmmədhəsən //Azad Azərbaycan.- 2015.- 21 oktyabr.- S. 7.

İnternetdə

https://az.wikipedia.org/wiki/

qadin.net › ... ›

80 illiyi

Rauf Abdullayev 1937

Dirijor

Rauf Cahanbaxış oğlu Abdullayev 1937-ci il oktyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdində onillik musiqi məktəbinə, daha sonra Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Təhsilini T.Quliyevin fortepiano sinfində almış, konservatoryanı fərqlənmə diplomu ilə bitirmişdir. 1960-cı ildə N.A.Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının opera və dirijorluq sinfinə qəbul olunmuşdur. 1968-ci ilin oktyabr ayında M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrına baş dirijor təyin edilmişdir. 1969-cu ildə Q.Qarayevin "Yeddi gözəl", C.Verdinin "Traviata" operasının yeni tamaşasını idarə etmişdir. Q.Qarayevin "Leyli və Məcnun" və F.Qarayevin "Qobustan kölgələri" baletinin premyerasına dirijorluq etmişdir. Bir çox tanınmış məşhur insanlarla çıxış etmiş, təzə opera və baletlərin yeni premyerasının tamaşasını qoymuşdur. 1990-cı ildə İsveçrədə (Luqano, Bazel, Bern), Misirdə (Qahirə, Mənsuriyə, Sureyş şəhərlərində) Azərbaycan Simfonik Orkestrinin kamera heyəti ilə çıxış etmişdir. 1991-ci il yanvar ayında Ankara Opera və Balet Teatrının baş dirijoru təyin edilmişdir. Azərbaycan Dövlət Opera və Balet Teatrının və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətindəki uğurlu mərhələlərdən biri də baş dirijor və bədii rəhbər kimi məhz Rauf Abdullayevin adı ilə bağlıdır. O, teatrın baş dirijoru kimi bu sənət ocağının uzun illər yüksək bədii səviyyəsinin, repertuar zənginliyinin təmin olunmasında böyük rol oynamışdır. Ü.Hacıbəyovun "Koroğlu", M.Maqomayevin "Şah İsmayıl" Ş.Axundovanın "Gəlin qayası", Z.Bağırovun "Aygün", C.Cahangirovun "Xanəndənin taleyi", A.Borodinin "Knyaz İqor", C.Puççininin "Toska" və "Bohema" operalarına, Q.Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", A.Əlizadənin "Babək", A.Məlikovun "İki qəlbin dastanı" və s. baletlərə yüksək səviyyədə dirijorluq etmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Rauf Abdullayev 1970-ci il may ayının 21-də Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına, 1988-ci ildə Dövlət mükafatına layiq görülmüşdür. 1997-ci il dekabr ayının 6-da "Şöhrət" , 2012-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir. Prezident təqaüdçüsüdür.

Professor eyni zamanda 1993-cü ildən 1997-ci ilə qədər baş dirijor kimi çalışdığı Ankara Opera və Balet Teatrında dirijorluq fəaliyyətinə görə iki dəfə "İlin ən yaxşı dirijoru" adına layiq görülmüşdür.

Ədəbiyyat

Cəmaləddinqızı. Bir ruh çırpıntısı /Cəmaləddinqızı.- Bakı: Azərbaycan, 2003.- 216 s.

Fərəcov, S. Maestronun yubiley gecəsi /S.Fərəcov //Mədəniyyət.- 2015.- 14 oktyabr.- S. 8.

Məhərrəmqızı, A. 50 il dirijor pultu arxasında... /A.Məhərrəmqızı //Mədəniyyət.az.- 2015.- № 10.- S. 48-51.

İnternetdə

https://az.wikipedia.org/wiki/

www.adam.az/index.php?option...63

50 illiyi

Namiq Allahverdiyev 1967-1992

Milli Qəhrəman

Namiq Müslüm oğlu Allahverdiyev 1967-ci il oktyabr ayının 5-də Beyləqan rayonunda anadan olmuşdur. 1984-cü ildə 1 saylı orta məktəbi bitirmişdir. 1985-ci ildə hərbi xidmətə çağırılmış, 1987-ci ildə hərbi xidmətini Moskva ətrafında başa vuraraq vətənə dönmüşdür. 1988-ci ildə ermənilərin təcavüzkarlığına dözməyən Namiq könüllü olaraq Vətənin müdafiəsinə qalxmışdır. Onun ilk döyüş yolu 1990-cı ildə Qubadlı rayonundan başlanmışdır. Namiq 1991-ci il avqust ayının 31-də DİN-in XTP dəstələrinə daxil olmuş və yenidən döyüş meydanına atılmışdır. O, Laçın, Əsgəran, Füzuli, Goranboy rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sonuncu döyüşü Tərtər rayonunda olmuşdur. Marquşevan, Kəsənqaya, Malalan, Birinci və İkinci Çaylı kəndlərinin düşməndən azad edilməsində xüsusi fəallıq göstərmişdir. 9 iyul 1992-ci ildə erməni yaraqlıları Cəmilli yüksəkliyinə hücum edərkən, Namiq düşməni qabaqlamaq üçün döyüşçü yoldaşları ilə yüksəkliyə qalxmış və orada əlverişli mövqe tutmuşdur. Lakin tanklardan atılan mərmi onun həyatına son qoymuşdur. Namiq Bakıdakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Allahverdiyev Namiq Müslüm oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Beyləqan şəhər 1 saylı orta məktəb onun adını daşıyır. Rayon mərkəzində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Allahverdiyev Namiq Müslüm oğlu – polis serjantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Allahverdiyev Namiq Müslüm oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.28-29.

Əsgərov, V. Allahverdiyev Namiq Müslüm oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S. 35.

Seyidzadə, M. Namiq Müslüm oğlu Allahverdiyev //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.26.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

www.adam.az/index.php?option...63

65 illiyi

Rəfael Əsədov 1952-1992

Milli Qəhrəman

Rəfael Əvəz oğlu Əsədov 1952-ci il oktyabr ayının 27-də Gəncə şəhərində dünyaya göz açmışdır. 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Tbilisi Ali Artilleriya Məktəbinə daxil olmuşdur. 1973-cü ildə hərbi məktəbi bitirərək, təhsilini Sankt-Peterburq Hərbi Artilleriya Akademiyasında davam etdirmişdir. R.Əsədov ali təhsilini başa çatdırdıqdan sonra SSRİ Silahlı Qüvvələrinin məhdud kontingenti tərkibində Macarıstan, Vyetnam və Əfqanıstanda qulluq etmiş, leytenant rütbəsindən polkovnik rütbəsinədək yüksəlmişdir. 1991-ci il Azərbaycanın başının üstünü qara buludlar alanda gənc zabit qəlbinin hökmü ilə vətənə qayıdaraq, öz taleyini təzəcə yaranmaqda olan Milli Ordu ilə bağlamış, artilleriyanın təkmilləşdirilməsində, müasir zenit batareyalarının yaradılmasında bilik və bacarığını əsirgəməmişdir. Polkovnik Rəfael Əsədov artilleriya korpusunun komandiri təyin edilmiş, Ağdam, Goranboy, Tovuz və Gədəbəy döyüş bölgələrində aparılan hərbi əməliyyatların təşkilatçısı və fəal iştirakçısı olmuşdur. Onun apardığı döyüş əməliyyatlarının əksəriyyəti uğurla nəticələnmişdir. Cəsur komandir 12 noyabr 1992-ci ildə Ağstafa bölgəsində növbəti əməliyyata hazırlıq zamanı döyüş mövqelərinə nəzarət edərkən yaxınlıqda partlayan mərmi qəlpələrindən həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Əsədov Rəfael Əsəd oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhramanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ağstafa şəhərində adına küçə var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əsədov Rəfael Əvəz oğlu – polkovnik – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə 72 yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Əsədov Rəfael Əvəz oğlu //Əsgərov V. Azərbaycan Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S. 98

Quliyeva, N. Rəfael Əvəz oğlu Əsədov //Quliyeva N. Ölməzliyə gedən yol.- Bakı, 1996.- S.44-48.

Seyidzadə, M. Rəfael Əvəz oğlu Əsədov //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.69.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

www.adam.az/index.php?option...65

veten-ugrunda.az/.../241-sdov-rfael-vz-olu.htm...

75 illiyi

İsmət Qayıbov 1942-1991

Dövlət xadimi

İsmət İsmayıl oğlu Qayıbov 1942-ci il oktyabr ayının 8-də anadan olmuşdur. Əslən Qazax mahalında məşhur olan Qayıbovlar nəslindəndir.

1950-1961-ci illərdə Gəncə şəhərindəki 2 saylı orta məktəbdə oxumuşdur.

1961-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinin axşam şöbəsində təhsil almışdır.

1963-cü ildə Ümumittifaq Elmi Tədqiqat Neft Maşınqayırması Layihə-Texnologiya İnstitutunda texnik, sonra isə baş texnik işləmişdir.

1966-cı ildə Respublika DİN-in xüsusi xidmət müfəttişi, 1966-1967-ci illərdə Bakı şəhər Komsomol Komitəsində fəaliyyət göstərmişdir. 1975-1976-cı illərdə Bakı Şəhər Prokurorluğunda Məhkəmədə Cinayət işlərinə nəzarət şöbəsində, 1976-1978-ci illərdə Bakı Şəhər Prokurorluğunda Ümumi nəzarət şöbəsinin rəisi, 1978-1982-ci illərdə təyinatla İsmayıllı rayon prokuroru, 1982-1984-cü illərdə Əli Bayramlı (indiki Şirvan) şəhərində prokuror vəzifələrində işləmişdir. 1984-cü ildə İstintaq İdarəsi – Respublika Prokurorluğunda Daxili orqanlara nəzarət şöbəsinin rəisi təyin olunmuşdur.

1987-1990-cı illərdə Sumqayıt şəhərinin prokuroru kimi fəaliyyət göstərmiş, 1990-1991-ci illərdə Azərbaycan Respublikasının ilk Baş prokuroru vəzifəsinə təyin edilmişdir.

Onun xidmətləri bir çox mükafatlara layiq görülmüş, "Şərəf nişanı" ordeni, "Rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.

1990-cı ildə Azərbaycan KP MK-nin üzvü olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Milli Təhlükəsizlik şurasının, keçmiş SSRİ Hüquqşünaslar İttifaqının üzvü, Sumqayıt şəhərinin deputatı olmuşdur.

III dərəcəli dövlət ədliyyə müşaviri idi.

1991-ci il noyabr ayının 20-də Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 markalı vertolyotun ermənilər tərəfindən vurulması nəticəsində yüksək vəzifəli dövlət xadimləri ilə birlikdə həlak olmuş, I Fəxri Xiyabanda dəfn edilmişdir.

Gəncə şəhərində təhsil aldığı 1 saylı orta məktəb, Bakıdakı Bakıxanov qəsəbə stadionu, neft tankeri, ölkədə bir çox məktəb və küçə İsmət Qayıbovun adını daşıyır.

Ədəbiyyat

Qasımzadə, X. Unudulmaz dövlət xadimi /X.Qasımzadə //Respublika.- 2013.- 20 noyabr.- S. 7.

Qasımzadə, X. Dəniz dərindir durulmaz, Dostluq əbədidir unudulmaz... /X.Qasımzadə //Ədalət.- 2013.- 20 noyabr.- S. 5.

Turan, F. İsmət Qayıbov //Turan F. Doğma evdən başlanır vətən.- Bakı, 2007.- S.132-133.

İnternetdə

www.ayna.az/.../bu-gun-20-noyabr-ismet-qayib.

www.anl.az/down/meqale/adalet/.../213742.htm

https://az.wikipedia.org/wiki/

80 illiyi

Ramiz Abutalıbov 1937

İctimai xadim

Ramiz Abutalıb oğlu Abutalıbov 1937-ci il oktyabr ayının 27-də Gəncə şəhərində anadan olmuşdur.

1962-1965-ci illərdə Azərbaycan Elmi Tədqiqat İşlərinin Əlaqələndirmə Komitəsində elmi katib, baş mütəxəssis, 1965-1968-ci illərdə Respublika Nazirlər Sovetinin elm və texnika şöbəsində baş referent, Parisdə 1971-1979-cu illərdə YUNESKO katibliyinin əməkdaşı, 1980-1984-cü illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri, 1984-1985-ci illərdə Respublika Xarici Turizm Baş İdarəsinin rəisi, 1985-1992-ci illərdə YUNESKO katibliyinin idarə rəisi vəzifələrində çalışmışdır. 1993-2003-cü illərdə Azərbaycan Respublikası XİN-də xüsusi tapşırıqlar üzrə səfir, YUNESKO məsələləri üzrə Azərbaycan Milli Komissiyasının Baş katibi vəzifəsində işləmişdir. 1980-1984-cü illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. "Asiya cəmiyyəti" təşkilatının üzvüdür. "Fransa Azərbaycan dostluq cəmiyyəti"nin baş katibi olmuşdur. Ceyhun Hacıbəyli və Hüseyn Azərməhd ilə birlikdə Parisdə 1992-ci ildə "Azərbaycan evi" cəmiyyəti yaratmışdır. Müasir dövrün mühüm ictimai-siyasi məsələlərinə dair Fransa, Böyük Britaniya, Almaniya və Rusiyada dərc olunmuş məqalələrin müəllifidir. 1918-1920-ci ildə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin, 20-ci ildən sonra mühacirətdə yaşamış Azərbaycanın siyasi xadimlərinin – C.Hacıbəyli, Ə.Topçubaşov və bir çoxlarının həyat və fəaliyyətinə dair sənədlərin və tarixi ədəbi əhəmiyyətə malik materialların aşkara çıxarılmasında, Azərbaycana gətirilib nəşr olunmasında böyük xidməti var. Xarici ölkələrdə çap edilmiş "Dağlıq Qarabağ tarixi sənədlərdə" (1989-cu ildə fransız və ingilis dillərində), "Qafqaz bürosu Dağlıq Qarabağ", "Qarabağ keçmiş və gələcək arasında" (fransız dilində), "M.S.Ordubadi. Qanlı illər" (azərbaycanca ərəb əlifbası ilə), "Azərbaycan-Fransa. Birlikdə XXI əsrə doğru" (fransız dilində) və başqa kitabların tərtibçisi, eyni zamanda naşiridir. 1990-cı ildə Jorj de Molevilin "1915-ci il erməni faciəsi" əsərini müəllifin razılığı ilə Bakıda rus dilində nəşr etdirmişdir. 1990-cı ildə "Beynəlxalq əlaqələr aləmində kim kimdir?" Britaniya ensiklopediyasına adı düşmüş 269 keçmiş SSRİ diplomatı arasında yeganə azərbaycanlıdır. İctimai xadim, I dərəcəli müşavir-diplomat Fransanın "Fəxri legion" ordeni ilə təltif edilmişdir. Tanınmış ictimai xadim, "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyəti idarə heyətinin üzvü Ramiz Abutalıbovu mədəniyyətin və incəsənətin inkişafına verdiyi töhfəyə görə "Puşkin medalı" ilə təltif etmişdir.

Ə d ə b i y y a t

Sadıq, C. Ramiz müəllim haqqında bir əlifba /C.Sadıq //525-ci qəzet.- 2012.- 18 avqust.- S. 25.

Tahirzadə, Ə. Xəzinə-adam /Ə.Tahirzadə //525-ci qəzet.- 2012.- 25 oktyabr.- S. 28.

Микеладзе, Г. А. Гражданский подвиг Рамиза Абуталыбова. Пути и судьбы эмиграции. - Баку: Адильоглы, 2010. - 68 с.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

www.adam.az/index.php?option...61

65 illiyi

Vaqif Abbasov 1952

Akademik

Vaqif Məhərrəm oğlu Abbasov 1952-ci il oktyabr ayının 5-də Tərtər rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya fakültəsini bitirmişdir.

1973-1978-ci illərdə Milli Elmlər Akademiyasının akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aspiranturasında oxumuşdur. 1978-1981-ci illərdə həmin institutda kiçik elmi işçi, 1981-1984-cü illərdə isə baş elmi işçi olmuşdur. Elmi tədqiqatla məşğul olmuş, dissertasiya müdafiə edərək elmlər namizədi, 1991-ci ildə isə kimya elmləri doktoru elmi dərəcəsini almışdır.

1992-ci ildən Bakı Dövlət Universitetinin professorudur.

2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü 2014-cü ildə həqiqi üzvü seçilmişdir.

Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasov ilk dəfə olaraq nitrobirləşmələrin və üzvi turşuların keçid elementləri ilə qarışıq komplekslərinin alınma mümkünlüyünü kəşf etmiş və bu əsasda mövcud analoqlarından yüksək effektivliyi, stabilliyi və çoxfunksiyalılığı ilə fərqlənən antistatik aşqar yaratmışdır. Yenilikçi alim nefti sudan təmizləmək və duzsuzlaşdırmaq üçün "Xəzər" deemulqatoru kəşf etmiş, Azərbaycanın neft emalı komplekslərində tətbiqini həyata keçirmişdir. Dəri sənayesi üçün dünyada analoqu olmayan yeni aşı maddəsi - Bepikoru kəşf etmiş və bir çox ölkədə, o cümlədən Türkiyədə uğurlu sənaye sınaqlarını keçirmişdir. Bu maddənin istifadəsi dəri sənayesində işlənən 8 maddənin istifadəsinə ehtiyacı aradan qaldırmışdır. Dünyada analoqu olmayan müalicəvi Naftalan neftinin strukturqrup tərkibini müasir metodlarla araşdıran kimyaçı alim müalicəvi komponenti olan naften karbohidrogenlərinin dar fraksiyalarının bioloji aktivliyini də tədqiq etmişdir. Müalicəvi Naftalan neftinin istifadə tarixində ilk dəfə olaraq V.M.Abbasovun rəhbərliyi ilə yaradılmış "Ağ naftalan yağı" Azərbaycan Respublikası Səhiyyə Nazirliyində dərman preparatı kimi qeydiyyatdan keçmiş, Ukrayna Səhiyyə Nazirliyinin qərarı ilə Ukraynada dərman preparatı kimi satışına icazə verilmişdir.

Alimln nəşr olunmuş 390-a yaxın elmi əsəri, o cümlədən 7 monoqrafiya, 15 dərslik, 11 dərs vəsaiti mövcuddur. Bu elmi əsərlərdən 76-sı müxtəlif xarici ölkələrdə nəşr olunmuşdur.

Onlarla Beynəlxalq və xarici ölkələrin elmi qurumlarının üzvüdür.

Vaqif müəllim 2005-ci il noyabr ayının 4-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycanın "Əməkdar müəllim" fəxri adına, eyni zamanda Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüş, 2005-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Bioloji varlıqdan şəxsiyyətə ucalmaq yolu: müdrik kəlamlar /V.Abbasov.- Bakı: Qamma servis, 2003.- 272 s.

Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri /V.Abbasov.- Bakı: Təhsil, 2010.- 572 s.

Kimya: abituriyentlər və yuxarı sinif şagirdləri üçün dərs vəsaiti /V.M.Abbasov və b. – Bakı, 2005.- 622 s.

Kərimova, H. Şərəfli ömür yolu: (Vaqif Abbasov-50) /H.Kərimova.- Bakı: Təhsil, 2002.- 208 s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/

www.science.gov.az/forms/deystvitelnyie.../111...

www.azxeber.com/news/21595.htm

www.qu.edu.az/.../Görkəmli-alim-akademik-Va..

115 illiyi

Ümnisə Musabəyli 1902-1974

Oftalmoloq

Ümnisə Süleyman bəy qızı Musabəyli (Umnisə Musabəyova) 1902-ci il oktyabr ayının 9-da Qəbələ rayonunda anadan olmuşdur. 1926-cı ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirmişdir. 1930-cu ildən Göz xəstəlikləri klinikasında assistent, 1932-ci ildən dosent işləmişdir. 1935-ci ildə namizədlik, 1936-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Məşhur Sovet – Azərbaycan oftalmoloqu 1943-cü ildə professor, 1957-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

1967-ci ildə Azərbaycan EA-ya müxbir üzv seçilmişdir. 1945-ci ildən ömrünün sonuna kimi N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasına rəhbərlik etmişdir. Yaxın Şərq və Afrika ölkələrində əhalini traxomadan xilas etmək məqsədi ilə yaradılan ekspedisiyanın rəhbəri olmuş, xaricdə xeyli sayda cərrahiyyə əməliyyatı aparmışdır. Həmin ekspedisiya zamanı katarakta olan İndoneziyanın ilk prezidenti Əhməd Sukarnonun da gözlərini əməliyyatla açmışdır. Anadan kor doğulan uşaqların gözünə işıq vermişdir. O, "Göz xəstəlikləri" adlı Azərbaycan dilində çap olunan ilk dərsliyin müəllifidir. Alimin elmi fəaliyyətində qlaukoma və traxomanın diaqnostikası, klinikası və müalicəsi, hamiləlik patalogiyası və başqa xəstəliklər zamanı görmə orqanının zədələnməsinin tədqiqinə dair məsələlər əsas yer tutur.

Oftalmologiya üzrə latın-rus-azərbaycan terminoloji lüğətin (1934), göz xəstəlikləri barədə bir neçə dərsliyin və bəzi göz xəstəliklərinin diaqnostikası və profilaktikasına dair metodik tövsiyələrin, 3 monoqrafiyanın və 200-ə yaxın elmi məqalənin müəllifidir. Azərbaycanda oftalmologiya elminin banisidir.

Ümumdünya Oftalmoloqlar (Brüssel 1958), Afrika-Asiya ölkələri göz həkimlərinin 1-ci (Qahirə 1958), 2-ci (Tunis 1960), 3-cü (İstanbul 1964), 4-cü (Beyrut 1968) konqreslərinin iştirakçısı, Sovet Sülhü Müdafiə Komitəsinin (1955-1974), Sovet Qadınlar Komitəsinin (1963-1974) üzvü, Azərbaycan SSR Oftalmoloqlar Cəmiyyətinin sədri (1957-1974) olmuşdur. Oftalmoloq alim 1962-ci ildə Azərbaycan EA-nın (indiki AMEA) müxbir üzvü adını almışdır. Keçmiş SSRİ Ali Sovetinə (5-6 çağırış), Azərbaycan SSR Ali Sovetinə (4-cü çağırış) deputat seçilmişdir. Lenin ordeni ilə təltif edilmişdir. Haqqında hələ həyatda olarkən "Ümnisə xanım" adlı sənədli film çəkilmişdir.

Görkəmli alim Ümnisə Musabəyli 1974-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Göz xəstəlikləri: tibb institutu üçün dərslik /Ü.Musabəyli.- Bakı: Maarif, 1972.- 187 s.

Refraksiya, akkomodasiya və optik şüşələrin təyini /Ü.Musabəyli, R.M.Axundova.- Bakı, 1977.- 64 s.

Məhyəddin qızı, Ş. Qaranlıqdan işığa /Ş.Məhyəddin qızı.- Bakı: Nasir, 2012.- 177 s.

Azərbaycan tarixində iz qoyan Musabəyovlar //Azadlıq.- 2013.- 8-11 avqust.- S. 14.

Ümnisə Musabəyli //Azərbaycan Səhiyyəsinin Tarixi.- Bakı, 2002.- S. 152-153.

İnternetdə

anl.az/el/Kitab/2013/Azf-273020.pdf

https://az.wikipedia.org/.../Umnisə_Musabəyov..

Beynəlxalq Ahıllar Günü 1992

BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi "Ahılların müdafiəsi ilə bağlı Qətnamə"yə əsasən, 1 Oktyabr - Beynəlxalq Ahıllar Günü kimi təsis edilmişdir.

Beynəlxalq Ahıllar Günü 1993-cü ildən başlayaraq Azərbaycanda da hər il yüksək səviyyədə qeyd edilir. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, ölkədə 70 yaşına çatmış vətəndaşlar ahıl hesab olunurlar. Rəsmi statistikaya əsasən, respublikamızda belə şəxslərin sayı 400 min nəfərə yaxındır. Həmin insanların hərtərəfli dövlət qayğısı ilə təmin olunması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi ümummilli lider Heydər Əliyevin sosial siyasət kursunun vacib tərkib hissəsi olmuşdur. Milli və bəşəri dəyərlərə söykənən bu siyasət Prezident İlham Əliyev tərəfindən layiqli səviyyədə davam və inkişaf etdirilir. Dövlət başçısı tərəfindən imzalanan fərman və sərəncamlara, 2006-cı il 17 aprel tarixli Sərəncamla təsdiqlənmiş "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na, habelə bir sıra dövlət proqramlarına uyğun olaraq, ötən müddətdə ahılların sosial müdafiəsi sahəsində mühüm işlər görülmüşdür. Ahıl şəxslərin rifahında mühüm yer tutan pensiya təminatı mütəmadi olaraq gücləndirilir. Dövlət qarşısında xüsusi xidmətləri olmuş ahıllar əmək pensiyaları ilə yanaşı, Azərbaycan Prezidentinin təqaüdü ilə də təmin olunurlar. Dövlət başçısının 17 mart 2014-cü il tarixli Fərmanına əsasən, Böyük Vətən müharibəsi əlillərinə verilən Azərbaycan Prezidentinin təqaüdləri cari il aprelin 1-dən I qrup əlillər üçün 110 manatdan 150 manata, II qrup əlillər üçün 85 manatdan 130 manata və III qrup əlillər üçün 60 manatdan 100 manata çatdırılıb. Bu vaxta qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən 1055 nəfər Böyük Vətən müharibəsi əlili minik avtomobili, həmin təbəqədən olan 80 nəfərə yaxın ahıl isə mənzillə təmin edilib.

Azərbaycan Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının 7.3-cü bəndinin icrasını təmin etmək məqsədilə hazırda ƏƏSMN tərəfindən "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı"nın (2016-2020-ci illər) layihəsi hazırlanmışdır. Layihənin hazırlanması zamanı BMT-nin Beynəlxalq Madrid Fəaliyyət Planının və Yaşlaşma Problemləri üzrə Vyana nazirlər konfransının prinsipləri, ahılların layiqli həyat tərzi keçirmələri üçün əlverişli şəraitin yaradılması, onların cəmiyyətə inteqrasiyasının gücləndirilməsi və s. məsələlər diqqətdə saxlanılır.

Ə d ə b i y y a t

Azərbaycanın Prezidenti İlham Əliyev Bakının Bilgəh qəsəbəsində müharibə və əmək əlilləri üçün pansionatda tikilmiş yeni korpusun açılışında iştirak etmiş, burada aparılan yenidənqurma işləri ilə tanış olmuşdur //Azərbaycan.- 2013.- 2 oktyabr.- S. 1-2.

Məmmədli, Q. Ahıllar dövlət qayğısı ilə əhatə olunublar /Q.Məmmədli //Ekspress.- 2015.- 1 oktyabr.- S. 10.

İ n t e r n e t d ə

azertag.az/.../1_Oktyabr_Beynelxalq_Ahillar_G.

aztv.az/readnews.php?lang=az&id=2977

Xocavənd rayonunun işğalının 25-ci ildönümü 1992

Ərazisi: 1458 km²
Əhalisi: 41725 nəfər

Xocavənd rayonunun 1923-cü ilədək adı Aşağı Qaranlıq olmuşdur. Məntəqə adını ərazidəki Qaranlıq dağından almışdır. Ərazidə eyniadlı çay da vardır. Ermənistan ərazisindəki Martuni rayonunun adı da 1946-cı ilədək Aşağı Qaranlıq olmuşdur.

26 noyabr 1991-ci ildə DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır. Rayonun ümumi sahəsi 1458 km², əhalisi 41.725 (o cümlədən azərbaycanlılar – 10.648) nəfərdir. Rayonda 1 şəhər (Xocavənd şəhəri-rayon mərkəzi), 2 iri qəsəbə (Qırmızı Bazar və Hadrut), 81 kənd var. Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) 1,5 milyon il yaşı olan Azıx mağarası, həmçinin qədim tarixə malik Tağlar mağarası, Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid "Ritiş" qalası, Ərgünəş dağının yamacında sıldırım qayalar üzərində yerləşən "Ərgünəş" qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid "Rzaqulu bəy türbəsi" və s. abidələr var. Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

2 oktyabr 1992-ci il tarixdə Xocavənd rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq əmlakları talan edilmiş, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılaraq viran edilmişdir. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə dağıdılmışdır. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 km avtomobil yolları, 32 körpü, 42 su anbarı və 316 km su kəməri xətti dağıdılıb, talan edilərək yararsız hala salınmışdır. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəymişdir. Belə ki, rayonun 1202 ha meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilmişdir.

Xocavəndlilər 13 nəfəri qadın, 13 nəfəri uşaq olmaqla 145 nəfər şəhid vermiş, rayon sakinlərindən 300 nəfərdən çox insan sağlamlığını itirmiş və ya əlil olmuş, 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirmişdir. Müxtəlif dövrlərdə girov götürülmüş 110 nəfər dinc sakinlərdən 49 nəfəri əsir və girovluqda olarkən erməni terroru və vəhşiliyinin qurbanı olmuş, bir ailədən olan 3 uşaq hər iki valideynini itirmişdir.

Ə d ə b i y y a t

Məmmədov, N. Azərbaycan Respublikasının Xocavənd rayonunun tarixi /N.Məmmədov; elmi red. Y.Mahmudov; AMEA, A.A.Bakıxanov ad. Tarix İn-tu.-Bakı: Avrora, 2016.- 678, [1] s.

Tapdıqoğlu, N. Xocavənd ensiklopediyası /N.Tapdıqoğlu.- Bakı: [Zərdabi LTD], 2009.- 543 s.

Xocavənd rayonu //Qarabağ. Yaddaş.- Bakı, 2010.- S.179-186.

Vaqıfqızı, L.Xocavənd rayonunun işğalı yaddaşlarda //Xalq cəbhəsi.- 2015.- 19, 20, 21 noyabr.- S.14.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/xalqcebhesi/2015/noyabr/464106.htm

http://anl.az/down/meqale/xalqcebhesi/2015/noyabr/464428.htm

Dövlət Müstəqilliyi Günü 1991

XX yüzilliyin sonlarında Sovetlər Birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi. Rusiyada demokratik qüvvələrin fəaliyyəti nəticəsində respublikalarda da mərkəzdən qaçma, öz suverenliyinə qovuşmaq istəkləri qarşısıalınmaz həddə çatdı. Belə şəraitdə Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi. Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Beləliklə, 1991-ci ilin bu günü Azərbaycan Respublikası 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı, varisi elan olundu. Ötən əsrin əvvəllərində cəmi 23 ay müstəqil olan Azərbaycan yenidən azadlığa qovuşdu. 1991-ci il dekabr ayının 29-da Azərbaycan Respublikasında ümumxalq səsverməsi - referendum keçirildi. Referendum bülletenlərində yalnız bir sual vardı: "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktına tərəfdarsınızmı?" Azərbaycan xalqı dövlət müstəqilliyinin lehinə səs verdi. 1992-ci ilin mayında Milli Məclis (parlament) Azərbaycan Respublikasının Dövlət himnini (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır), bir müddət sonra isə Dövlət bayrağı və üzərində alov dilləri olan səkkizguşəli ulduz təsvir edilmiş Dövlət gerbini təsdiq etdi. Bütün təbii sərvətlərin xalqa mənsubluğu haqqında qərar qəbul edildi. Elə həmin aktdan bəri Azərbaycan bütün sahələrdə beynəlxalq sazişlərə imza atmağa başladı, müstəqil inkişaf yoluna qədəm qoydu. Konstitusiya aktı həm də siyasi və iqtisadi münasibətlərin yeni fundamental prinsiplərini müəyyən etdi. Müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifə Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin həll edilməsi, işğal olunmuş torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası, didərgin düşmüş vətəndaşlarımızın öz yurdlarına qaytarılması, respublikamızın iqtisadi tərəqqisinə nail olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, iqtisadi islahatların və demokratik proseslərin daha da dərinləşdirilməsidir. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir və hər birimizin borcu onu qorumaq, yaşatmaq, inkişaf etdirmək və dünyanın qabaqcıl dövlətləri səviyyəsinə qaldırmaqdan ibarətdir.

Ə d ə b i y y a t

Dövlət müstəqilliyimizin təminatçısı 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür //Azərbaycan.-2015.- 18 oktyabr.- S. 1.

Hacalıyev, E. Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir: 18 Oktyabr Dövlət Müstəqilliyi Günüdür /E.Hacalıyev //Azərbaycan.-2014.- 18 oktyabr.- S.5.

Mübarizlərdən keçən yol... 18 oktyabr - Azərbaycanın dövlət müstəqilliyi günüdür //Mədəniyyət.az.-2015.- № 10.- S.10-13.

Şabanov, R. Müasir Azərbaycanın müstəqilliyi Heydər Əliyevin adı ilə bağlıdır /R.Şabanov //Respublika.-2014.- 16 oktyabr.- S.5.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2015/oktyabr/459207.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2014/oktyabr/397069.htm

http://www.anl.az/down/meqale/respublika/2014/oktyabr/396747.htm

Birləşmiş Millətlər Təşkilatı Günü 1945

Birləşmiş Millətlər Təşkilatı (BMT) - 1945-ci il oktyabrın 10-da yaradılmış dövlətlərarası beynəlxalq təşkilatdır. Hal-hazırda Vatikandan başqa 193 ölkə bu təşkilatın üzvüdür. BMT-nin qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

Birləşmiş Millətlər Təşkilatı İkinci Dünya müharibəsindən sonra, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqiyyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmışdır.

BMT-nin Nizamnaməsi 1945-ci il iyunun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Üzv ölkələr öz aralarında BMT-nin Nizamnaməsinin - onların dünya birliyinin üzvləri kimi hüquq və vəzifələrini müəyyənləşdirən beynəlxalq müqavilənin prinsipləri ilə əlaqələnirlər.

Birləşmiş Millətlər Təşkilatı aşağıdakı qurumlardan ibarətdir:

1.Altı əsas orqandan ibarət olan BMT-nin özü:

Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Hamilik Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmədən başqa, digər qurumlar Nyu-Yorkda, BMT-nin Mərkəzi idarələrində yerləşirlər.

2.BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin İnkişaf Proqramı (BMTİP) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) kimi inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində fəaliyyətləri həyata keçirən ixtisaslaşmış təşkilatlar.

BMTİP-in Azərbaycan Nümayəndəliyi 24 ildən çoxdur ki, ölkədə fəaliyyət göstərir. BMTIP Azərbaycan Hökuməti ilə 2011-2015-ci illəri əhatə edən Ölkə Proqramı əsasında yaxından əməkdaşlıq edir. Nazirlər Kabineti Hökumətlə Əlaqələndirmə Orqanı rolunu oynayır və nazirlikləri, dövlət komitələrini, elm mərkəzlərini və QHT-ləri proqram fəaliyyəti üçün tərəfdaşlar kimi çıxış etmələrini nizamlayır.

Ə d ə b i y y a t

2016-cı il 25-27 aprel tarixlərində Bakı şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu ilə bağlı əlavə tədbirlər haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 noyabr 2015-ci il /İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti //Azərbaycan.- 2015.- 12 noyabr.- S. 2.

Карташкин, В.А. Организация Объединенных Наций и международная защита прав человека в XXI веке /В.А.Карташкин.- М.: Норма, ИНФРА-М, 2015.- 174 с.

*https://az.wikipedia.org/.../Birləşmiş_Millətlər_*

kayzen.az/.../BMT/.../21-bmt-nin--quruluşu--Əs..

kayzen.az/blog/.../birləşmiş-millətlər-təşkilatı.ht..

www.az.undp.org/content/.../about_undp.html

Zəngilan rayonunun işğalı günü 1993

- **Ərazisi: 707 km²**
- **Əhalisi: 33900 nəfər**

Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da erməni işğalçıları tərəfindən işğal olunmuşdur. Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir.

Zəngilan rayonu 1930-cu ildə təşkil olunmuşdur. Rayonun sahəsi 707 km², əhalisi isə 33900 nəfərdir. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir.

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazılmışdı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da, digər rayonlarımız kimi xəyanətin qurbanı olmuş, təqvimimizdə daha bir qara günün sayı artmışdı - 29 oktyabr 1993-cü il.

Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Ermənilərin hücumu iyunun 29-da olmuş, çox ağır və qanlı döyüşlər iki saat çəkmişdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutmuş, bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalmışdı. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalamışdı. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçmişdi. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşmüşdü. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunmuş, bununla da Zəngilanın mühasirəsi başa çatmışdı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Xalqımızın xilaskarı, ulu öndərimiz H.Əliyev bu dəfə də xalqın köməyinə gəlmişdi. O, İran hökuməti ilə danışıqlar aparmış və Araz çayı üzərindəki bənddə suyu bağlatdırmışdı. Yalnız bundan sonra əhali çayı keçib xilas olmuşdu. Buna görə də, zəngilanlılar Heydər Əliyeva daim minnətdardırlar.

Zəngilanda nəyimiz qaldi?

Zəngilan boyda Vətən;

Dünyada II, Avropada I Nadir Çinar meşələri;

Torpaq üzərində olan bütün vardövlət;

67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmiryol stansiyası, 2 şərab zavodu, konserv zavodu, dəmiryol deposu...

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Ədəbiyyat

Çinarlar yurdundan uzun ayrılıq. Zəngilan rayonunun işğalından 22 il ötdü //Mədəniyyət.-2015.- 30 oktyabr.- S.11.

Faxralı, R. Qara həsrət və yaxud ağla, Rəşid Faxralı /R.Faxralı //İki sahil.- 2014.- 29 oktyabr.- S.16.

Qaraca, B.Bu ağrını yaşadıqca... /B.Qaraca //Ədalət.- 2014.- 30 oktyabr.- S.6.

İnternetdə

http://www.anl.az/down/meqale/medeniyyet/2015/oktyabr/461356.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2013/oktyabr/332958.htm

Repressiya Qurbanları Günü 1974

Nikita Xruşovun dövründə yaradılmış komissiyanın məlumatına əsasən, 1921-1953-cü illərdə keçmiş SSRİ-də 25-26 milyon insan repressiyaya məruz qalmışdır.

17 milyon insanın cəzasını "QULAQ" düşərgələrində çəkdiyi, onlardan onda birinin oradaca öldüyü qeyd olunmuşdur. Repressiya olunanlardan 7 milyonunun mülkü müsadirə edilib, özləri isə sürgün olunmuşlar.

1989-cu ildə SSRİ KGB-si 1921-1953-cü illərdə siyasi repressiyaya məruz qalanların sayını 799 455 nəfər kimi göstərərək onlardan 681 692 nəfərin 1937-1938-ci illərdə repressiya olunduğunu qeyd etmişdir.

Bundan əlavə, II Dünya müharibəsi illərində 153 000 insan hərbi tribunalların qərarı əsasında güllələnmişdir. Daha 115 000 adam istintaq dövründə, böyük ehtimalla, işgəncələrə dözməyərək ölmüşdür.

1940-ci ilin məlumatına əsasən, "QULAQ" düşərgələrində "xalq düşmənləri" və kriminalların sayı məhbusların ümumi sayının yarısından az olmuşdur.

Məhbusların 57%-i xırda oğurluq, əmək intizamının pozulması, "brak" məhsul buraxılması və bu kimi digər pozuntulara görə cəzalandırılmışlar.

"Memorial" təşkilatının məlumatına görə, hazırda Rusiyada repressiya qurbanları və onların övladlarının sayı 800 000 təşkil edir.

1974-cü il oktyabrın 30-da həbs altında saxlanılan dissident Kronid Lyubarskinin təşəbbüsü ilə Mordova və Perm islah düşərgələrində məhbusların aclıq aksiyası keçirilmişdir. O vaxtdan bəri həmin tarix əvvəlcə sovet dissidentləri arasında, sonra isə Rusiyada da repressiya qurbanlarının xatirəsi günü kimi qeyd olunmuşdur.

1991-ci il oktyabrın 18-də Rusiya parlamenti "Siyasi repressiya qurbanlarının anım günü barədə" qanun qəbul edərək ənənəni rəsmiləşdirmişdir.

Repressiya Azərbaycandan da yan keçməmiş, xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşmışdır.

Hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşovun, Gerasimovun, Qriqoryanın, Markaryanın, Qalstyanın, Avanesyanın, Sinmanın və onların Atakişiyev kimi nökərlərinin əlilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi - alim, yazıçı, artist, müəllim, din xadimi, hərbçi - bir sözlə bütün düşünən beyinləri, qeyri-adi təfəkkür sahiblərini məhv etmişlər.

Ə d ə b i y y a t

Aslan, K. XX əsrdə repressiyaya məruz qalanlar /Kənan Aslan; red. və ön sözün müəl. N.Şəmsizadə; rəssam O.Sadıqzadə.- Bakı: Azərnəşr, 2011.- 299, [1] s.

Aslan, K. 1930-cu illərin günahsız qurbanları /Kənan Aslan; ön söz. müəl. İ.Sadıq; red. N.Heydərli; rəssam O.Sadıqzadə.- Bakı: Azərnəşr, 2015.- K.II.-312 s.

Tahirli, A. Repressiya qurbanı olmuş qələm ziyalılarımız: Və ya böyük müsibətin qısa xronologiyası /A.Tahirli //525-ci qəzet.- 2015.- 16 oktyabr.- S. 6.

Джаханнури, Ф. Жертвы сталинских репрессии в Азербайджане /Ф.Джаханнури.- Баку: Мутарджим, 2010.- 417 с.

tarix.info/.../1781-azerbaycanda-represiya-qurb..
*www.bbc.com/.../141030_stalin_terror_public_*
www.az.undp.org/content/.../about_undp.html

NOYABR

24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

Ç.	1
C.A.	2
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	7
Ç.	8
C.A.	9
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	14
Ç.	15
C.A.	16
C.	17
Ş.	18
B.	19
B.E.	20
Ç.A.	21
Ç.	22
C.A.	23
C.	24
Ş.	25
B.	26
B.E.	27
Ç.A.	28
Ç.	29
C.A.	30

- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1992)*
- ***Qarakənd faciəsi (20.11.1991)***
- *Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)*
- *Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)*

300 il Molla Pənah Vaqif 1717-1797

2014-cü ildə poçt markası buraxılmışdır.

Haqqında "Vaqif" (1968), "Molla Pənah Vaqif" (1990, 2011) sənədli filmləri çəkilmişdir.

Bakıda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyinin fasadının lojasında M.P.Vaqifin heykəli - 1940, müəllif: Cəlal Qaryağdı.

NOYABR

2017

Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi Seyidzadə Mehdi Həsən oğlunun (11.11.1907-30.08.1976) anadan olmasının 110 illiyi 313

Nasir, publisist, Əməkdar jurnalist Məmişov Əli İldırım oğlunun (Əli İldırımoğlu) (17.11.1927) anadan olmasının 90 illiyi

Xalq yazıçısı Abbaszadə Hüseyn Abbas oğlunun (22.11.1922-12.12.2007) anadan olmasının 95 illiyi 314

Dünya ədəbiyyatı

Belarus yazıçısı Konstantin Mixayloviç Mitskeviçin (Kolas Yakub) (03.11.1882-13.08.1956) anadan olmasının 135 illiyi 315

Gürcü yazıçısı Çavçavadze İlya Qriqoryeviçin (08.11.1837-12.09.1907) anadan olmasının 180 illiyi 316

Rus şairi Marşak Samuel Yakovleviçin (22.11.1887-04.07.1964) anadan olmasının 130 illiyi

İspan dramaturqu Karpyo Feliksin (Lope de Veqa) (25.11.1562-27.08.1635) anadan olmasının 455 illiyi 317

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Tağıyev Tağı Əzizağa oğlunun (07.11.1917-27.06.1993) anadan olmasının 100 illiyi 318

Beynəlxalq Akademiyanın akademiki, Əməkdar elm xadimi və Əməkdar memar Novruzi Əlibəy Nəzərəli oğlunun (08.11.1942) anadan olmasının 75 illiyi 319

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, bəstəkar Mahmudov Emin Sabit Rəhman oğlunun (Emin Sabitoğlu) (02.11.1937-18.11.2000) anadan olmasının 80 illiyi 320

Xalq artisti, bəstəkar Quliyev Tofiq Ələkbər oğlunun (07.11.1917-05.10.2000) anadan olmasının 100 illiyi 321

Xalq artisti, baletmeyster Zülfüqarova Xumar Rza qızının (15.11.1927) anadan olmasının 90 illiyi

SSRİ Xalq artisti, bəstəkar Əmirov Fikrət Məşədi Cəmil oğlunun (22.11.1922-20.11.1984) anadan olmasının 95 illiyi 322

Əməkdar artist, opera müğənnisi Cabbarova Rəhilə Muxtar qızının (24.11.1922-02.12.2002) anadan olmasının 95 illiyi

Teatr.Kino

Xalq artisti Musayev İsa Həsən oğlunun (27.11.1912-08.02.1976) anadan olmasının 105 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Güləliyev Oqtay Güləli oğlunun (10.11.1962-19.09.1992) anadan olmasının 55 illiyi 323

Azərbaycanın Milli Qəhrəmanı Sayadov Mehman Qəzənfər oğlunun (21.11.1972-09.05.1992) anadan olmasının 45 illiyi 324

Siyasət.Hərbi iş

Dövlət xadimi Namazəliyev Qurban Hüseyn oğlunun (17.11.1947-20.11.1991) anadan olmasının 70 illiyi

Hindistanın siyasi xadimi Qandi İndiranın (19.11.1917-31.10.1984) anadan olmasının 100 illiyi 325

İqtisad elmləri doktoru, Beynəlxalq Mühəndislik Akademiyasının (Rusiya Federasiyası, Moskva) müxbir üzvü Əliyev Natiq Ağaəmi oğlunun (23.11.1947) anadan olmasının 70 illiyi 326

Hərbi xadim, general-mayor Əliyarbəyov Tərlan Abdulla oğlunun (28.11.1892-15.02.1956) anadan olmasının 125 illiyi 327

Tarix.Din

Tarixçi-şərqşünas, tarix elmləri doktoru, professor, Rusiya EA-nın müxbir üzvü, Rusiyanın Əməkdar elm xadimi İsgəndərov Əhməd Əhməd oğlunun (23.11.1927) anadan olmasının 90 illiyi 328

Mədəniyyət.Maarif.Təhsil

Filologiya elmləri doktoru, professor, görkəmli türkoloq alim Məlikova (Melikoff) İren xanımın (07.11.1917-09.01.2009) anadan olmasının 100 illiyi

Dilçi-türkoloq, Əməkdar elm xadimi, professor Mirzəyev Həsən İbrahim oğlunun (Həsən Mirzə) (26.11.1927-25.02.2015) anadan olmasının 90 illiyi



Kimya.Biologiya.Tibb

Akademik, cərrah-onkoloq Əmiraslanov Əhliman Tapdıq oğlunun (17.11.1947) anadan olmasının 70 illiyi 329

Rus genetiki Vavilov Nikolay İvanoviçin (25.11.1887-26.01.1943) anadan olmasının 130 illiyi

Texnika.Mühəndis işi

Texnika elmlər doktoru, professor Kazımzadə Qumral-Rəna Zəki qızının (05.11.1942) anadan olmasının 75 illiyi

Akademik, kosmik tədqiqatlar sahəsində general-leytenant Kərimov Kərim Abbasəli oğlunun (14.11.1917-19.03.2003) anadan olmasının 100 illiyi 330
AMEA-nın müxbir üzvü Calalov Qərib İsaq oğlunun (28.11.1937) anadan olmasının 80 illiyi 331

İdman

İctimai xadim, Əməkdar bədən tərbiyəsi və idman xadimi Abiyev Ağacan Qulam oğlunun (24.11.1937) anadan olmasının 80 illiyi
SSRİ-nin Əməkdar idman ustası, Dağıstan MSSR-nin Əməkdar mədəniyyət işçisi Əliyev Əli Zurkarnayeviçin (29.11.1937) anadan olmasının 80 illiyi

Tarixdə bu gün

Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (01.11.2008)
Televiziya və Radio İşçiləri Günü (06.11.)
Bakı metropoliteninin işə düşməsinin (06.11.1967) 50 illiyi 332
Müharibə və Hərbi Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısınıalma Günü (6.11.2001)
Azərbaycan Bayrağı Günü (09.11.2009) 333
Konstitusiya Günü (12.11.1995) 334
Beynəlxalq Gözdən Əlillər Günü (13.11.1984) 335
Ümumdünya Diabet Günü (14.11.1991)
Milli Məclis Azərbaycan hərbçilərinin Əfqanıstanda beynəlxalq sülhyaratma missiyasında iştirakına razılıq verib (15.11.2002)
Beynəlxalq Tolerantlıq Günü (16.11.1995) 336
Milli Dirçəliş Günü (17.11.1988) 337
Prezident İlham Əliyev Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır (17.11.2007)
Qarakənd faciəsi (20.11.1991)
(Ümumdünya Uşaqlar Günü) Ümumdünya Uşaq Hüquqları Günü (20.11.1954) 338
Ümumdünya Salam Günü (21.11.1973)
Naxçıvanda ulu öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradılmışdır (21.11.1992) 339
Gürcüstanda Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu tikintisinin təməlqoyma mərasimi keçirilmişdir (21.11.2007)
Heydər Əliyev SSR-nin ali rəhbər orqanına - Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmişdir (22.11.1982)
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.1999)
Bakıda GUAM blokunun (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) təşkil edilməsinə dair protokol imzalanmışdır (25.11.1997)
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999) 340
Ümumdünya təbiəti mühafizə cəmiyyətinin yaranması Günü (29.11.1948)
Ümumdünya Ev Heyvanları Günü (30.11.1931) 341
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988)

110 illiyi

Mehdi Seyidzadə 1907-1976

Şair, tərcüməçi

Mehdi (Mirmehdi) Həsən oğlu Seyidzadə 1907-ci il noyabr ayının 11-də Türkmənistanın Aşqabad şəhərində, dənizçi ailəsində anadan olmuşdur. İbtidai təhsilini İranın Məşhəd şəhərində almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. 1920-ci ildə ailəliklə Bakıya köçmüş, ruslar üçün təşkil olunmuş "Məktəbi Ziya"da təhsilini davam etdirmişdir. 1921-1925-ci illərdə Pedaqoji texnikumda təhsil almışdır.

Ədəbi yaradıcılığa 1925-ci ildə "Şərq qadını" jurnalında çap etdirdiyi "Kənd qızı" adlı ilk şeirilə başlamışdır. "Keçəl Səməd" adlı ilk kitabı 1929-cu ildə nəşr olunmuşdur.

1926-1930-cu illərdə Qubadlı və Şəmkir rayon komsomol komitələrində bir il işlədikdən sonra, 1930-1932-ci illərdə Maarif işçiləri kitabxanasına rəhbərlik etmişdir. Mehdi Seyidzadənin 1932-ci ildə ayrıca kitabca şəklində nəşr edilən və mükafata layiq görülən "Şanlı gün" poeması məktəblilərin sevimli əsəri olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun qiyabi şöbəsində təhsil alan yazıçı, 1932-1939-cu illərdə Azərnəşrdə redaktor, şöbə müdiri işləmişdir. 1938-1939-cu illərdə yenidən təşkil olunmuş Uşaqgəncnəşrdə Bədii ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir.

1941-ci ildə Sovet ordusunun tərkibində İranda "Qızıl əsgər" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. Xəstəliyinə görə ordudan tərxis olunmuş, Azərbaycan Radio Verilişləri Komitəsində məsul redaktor, bir ildən sonra, 1944-cü ildə Azərnəşrdə şöbə müdiri təyin olunmuşdur. Sonralar "Balaca təyyarəçi", "Ceyran", "Neft haqqında", "Kim güclüdür", "And" kitabları çapdan çıxmışdır. Müasir mövzuda uşaq şeirləri və nəğmələri, "Zirək Səməd" mənzum nağılını yazmış, "Nərgiz", "Ayaz", "Qızılquş", "Elsevər" və sair mənzum pyesləri tamaşaya qoyulmuş, bir neçə şeirlərinə isə mahnılar (Səid Rüstəmov- "Alma", "Dağlar", "Quzum", "Xəzər" və s.) bəstələnmişdir. Yazıçının Ömər Xəyyam, A.S.Puşkin, Jukovski, Krılov və başqa şairlərdən tərcümələri indi də oxucular tərəfindən sevilə-sevilə oxunur.

Mehdi Seyidzadə 1958-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı, "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Mirmehdi Həsən oğlu Seyidzadə 1976-cı il avqust ayının 30-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

1991-ci ildə Nazirlər Kabinetinin qərarı ilə Belinski adına kitabxanaya, Əmircan kəndində küçələrin birinə onun adı verilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /M.Seyidzadə.- Bakı: Avrasiya Press, 2006.- 320 s.

Xəyyam, Ö. Rübailər /Ö.Xəyyam; tərc. M.Seyidzadə.- Bakı: Lider, 2004.- 104 s.

Yusifli, V. "Xatırlayarsan məni"...: "Ədəbiyyatımızın cəfakeşi" silsiləsindən Mir Mehdi Seyidzadə /V.Yusifli //Ədalət.- 2014.- 13 sentyabr.- S. 14.

Любовь /М.Г.Сеидзаде.- Баку: Детюниздат, 1958.- 135 с.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/.../Mirmehdi_Seyidzadə

95 illiyi

Hüseyn Abbaszadə 1922-2007

Yazıçı

Hüseyn Abbas oğlu Abbaszadə 1922-ci il noyabr ayının 22-də Bakı şəhərində, fəhlə ailəsində anadan olmuşdur. İkinci Dünya müharibəsi başlayanda orta məktəbi bitirmiş Hüseyn dərhal orduya çağırılmış, Zaqafqaziya cəbhəsində kursant, Şimali Qafqaz cəbhəsində radist-kəşfiyyatçı, Bakı Hərbi məktəbində kursant, Leninqrad, I, IV Ukrayna cəbhəsində topçu zabiti kimi döyüşlərdə iştirak etmişdir. Ağır yaralanmış, müalicədən sonra tərxis olunaraq Bakıya qayıtmışdır. 1945-1950-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda teatrşünaslıq fakültəsində təhsil almışdır.

1948-1950-ci illərdə "Pioner" jurnalı redaksiyasında şöbə müdiri, məsul katib, 1958-1966-cü illərdə "Göyərçin" jurnalı redaksiyasında məsul katib, baş redaktor, 1966-1971-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında baş redaktor, yenidən 1972-1975-ci illərdə "Göyərçin" jurnalı redaksiyasında baş redaktor işləmişdir.

1948-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 1975-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi seçilmişdir.

İlk mətbu şeiri "Şanlı bayram" 1940-cı il noyabrın 15-də "Ədəbiyyat" qəzetində dərc olunmuşdur. Fəal ədəbi fəaliyyətə müharibə illərində, cəbhə qəzetlərində çap etdirdiyi şeirləri ilə başlamışdır. "General" (1962), "Ləpədöyəndə" (1965), "Onu tanımadılar" (1967), "Qapı döyülür", "Burulğanlar" (1979), "Çəmbərəkənd balladası" (1982), "Dünyadan gör necə insanlar gedib" (2000), "Qayıdanlardan biri" (2003) əsərləri oxucuların böyük rəğbətini qazanmışdır.

Rus ədəbiyyatından bədii tərcümələri də vardır. 35 kitabı çapdan çıxmışdır.Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. 1973-cü ildə onun hekayəsi əsasında "Dənizə çıxmaq qorxuludur" filmi çəkilmişdir. 1975-ci ildə çəkilən "Dörd bazar günü" filminin ssenari müəlliflərindən biridir.

H.Abbaszadə "Qırmızı ulduz", "Qırmızı Əmək Bayrağı", I dərəcəli "Böyük Vətən müharibəsi", "Şöhrət" (1997) ordenləri, 10-dan çox medallarla təltif edilmişdir. 1984-cü ildə Azərbaycan Dövlət mükafatı laureatı, 1988-ci ildə keçmiş SSRİ Yazıçılar İttifaqının və ÜİHİŞ-nin mükafatı laureatı olmuşdur. 1979-cu ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi", 1991-ci ildə Azərbaycan Respublikasının "Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür.

Hüseyn Abbaszadə 2007-ci il dekabr ayının 12-də Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 2 cilddə /Hüseyn Abbaszadə.- Bakı: Şərq-Qərb, 2006.- 320 s.

Seçilmiş əsərləri: 3 cilddə /Hüseyn Abbaszadə.- Bakı: Azərnəşr, 1983-1984.- 380 s.

Babayev, E. Onlar təkcə yazmağı yox, dostluq etməyi də bacarırdı /E.Babayev //Ədalət.- 2015.- 7 fevral.- S. 3.

Yerfi, R. Sovet ədəbiyyatımızın sonuncu "general"ı /R.Yerfi //Kaspi.- 2015.- 16-18 may.- S. 24.

Генерал: роман /Г.Абасзаде.- Баку: Языcы, 1987.- 266 с.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Hüseyn_Abbaszadə

135 illiyi

Kolas Yakub 1882-1956

Belarus yazıçısı

Konstantin Mixayloviç Mitskeviç (Kolas Yakub) 1882-ci il noyabr ayının 3-də Belorusiyanın Akinçitsı xutoru, indiki Minsk vilayətində meşəbəyi ailəsində doğulmuşdur. Nesvijsk müəllimlər seminariyasını bitirmiş, 1915-ci ildə orduya çağırılmışdır.

1906-cı ildən başlayaraq bədii yaradıcılıqla məşğul olmuş yeni belorus ədəbiyyatının banilərindən biri kimi tanınmışdır. O, "Taras Quşça", "Tamaş Bulava", "Yakub Kolas" imzaları ilə əsərlər yazmış və bir şair, nasir, dramaturq, publisist kimi məşhurlaşmışdır.

Y.Kolasın "Şikayət nəğmələri" (1910) adlı şeirlər məcmuəsi, bədii nəsrini əhatə edən "Hekayələr" (1912), "Doğma surətlər" (1914) kitabları nəşr edilmişdir.

1908-ci ildə yazdığı "Çəkil geri" şeiri satirik və yumorist təsvir vasitələrinə görə onun əsərlərindən fərqlənir. Y.Kolasın bioqrafik xarakter daşıyan əsərləri 1907-ci ildə yazdığı "Bunt", "Yeni torpaq" (1910-1923) poeması, "Polesyenin ucqarlarında" (1923), "Polesyenin dərinliklərində" (1927), "Yol ayrıcında" (1954) adlı trilogiyasında öz əksini tapmışdır.

Y.Kolasın "Yeni torpaq" poemasını haqlı olaraq XIX əsr kəndli həyatının ensiklopediyası adlandırırlar. Y.Kolas geniş epik əsərlər müəllifi kimi, sovet hakimiyyəti illərində məşhur olan 1912-ci ildə yazmağa başladığı "Çalğıçı Simon" poemasını 1925-ci ildə tamamlamışdır. 30-cu illərdə "Bizim günlər" (1937) şeirlər məcmuəsini çap etdirən şairin Böyük Vətən müharibəsi dövründə "Seçilmiş şeirlər" (1942), "Torpağın səsi" (1943) şeir kitabları buraxılmışdır. Əsərləri SSRİ xalqları dillərinə, o cümlədən Azərbaycan dilinə və xarici dillərə tərcümə edilmişdir.

Y.Kolas yeni Belorus ədəbiyyatının yaranması, sosialist məzmunlu, milli formalı sovet belorus mədəniyyətinin inkişafı, ədəbi dilin çiçəklənməsi uğrunda böyük xidmət göstərmişdir.

Y.Kolasın belorus ədəbiyyatında xidmətləri yüksək qiymətləndirilmişdir. 1926-cı ildə ona Belorusiyanın "Xalq şairi" fəxri adı verilmişdir. O, beş dəfə "Lenin" ordeni ilə, "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur.

Yakub Kolas 1928-ci ildən ömrünün sonuna qədər BSSR EA-nın prezident müavini vəzifəsində çalışmış, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü olmuşdur.

Konstantin Mixayloviç Mitskeviç 1956-cı il avqust ayının 13-də Minsk vilayətində vəfat etmişdir.

Ədəbiyyat

Düşmənlərə; İnanmayın; Biz qalib gələcəyik; Nəğməkara; Əmək olsun; Meşə; Balıqçının daxması; Yeni üfüqlərə doğru: (Şeirlər) /Yakub Kolas /Tərc. ed.: Ağacavad Əlizadə //Azərbaycan.-1972.-№4.-S.164-167.

Xəlilov, Ə. Böyük xalq nəğməkarı: Yakub Kolas-100 /Əmirxan Xəlilov //Kitablar aləmində.-1982.-№4.-S.24

Xəlilov, P. Kolas Yaqub //Xəlilov P. SSRİ xalqları ədəbiyyatı: dərslik.- Bakı, 1968.- Kitab 2.- S.184-193.

Колас, Я. Собрание сочинений: В 4-х т. Пер. с. белорус. /Якуб Колас; редкол.: С.Баруздин и др.- М.: Худож. Лит., 1982.-Т.1.-590 с.

İnternetdə

https://ru.wikipedia.org/wiki/Якуб_Колас

180 illiyi

İlya Qriqoryeviç Çavçavadze 1837-1907

Gürcü yazıçısı

İlya Qriqoryeviç Çavçavadze 1837-ci il noyabr ayının 8-də Gürcüstanın Kvareli kəndində, knyaz ailəsində anadan olmuşdur. 1857-1861-ci illərdə Peterburq Univesitetinin hüquq fakültəsində təhsil almışdır. Dördüncü kursdan tələbə hərəkatının iştirakçısı kimi təhsilini yarımçıq qoyub vətənə qayıtmışdır. 1860-cı illərdə Gürcüstanda baş qaldırmış təhkimçiliyə qarşı mübarizə hərəkatının fəal mübarizlərindən olmuşdur. 1864-cü ilin əvvəllərində Kutaisi quberniyasına Kutaisi general-qubernatorunun yanında xüsusi tapşırıqlar üzrə müvəkkil təyin edilmişdir.

1864-1868-ci illərdə Tiflis quberniyasının Duşet qəzasına sulh vasitəçisi, 1874-cü ildə həmin qəzada hakim işləmişdir. Gürcü xalqı arasında savadlılığı yayan cəmiyyətin sədri olmuş, 1906-cı ildə Zadəgan cəmiyyətinin Dövlət Şurasına üzv seçilmişdir.

Yaradıcılığa "Əkinçi", "Ana və oğul", "Müşə" (hambal) kimi kəndlinin hüquqsuzluğuna, mülkədar zorakılığına etiraz xarakterli şeirlərlə başlamışdır. 1859-cu ildə "Xəyal", 1860-cı ildə "Qaçaq Keko" poemalarında, "Dar ağacı yanında" hekayəsində, 1859-1862-ci illərdə yazdığı "Dilənçinin hekayəti" povestində əməkçi xalqın hüquqsuzluğunu ürək ağrısı ilə təsvir etmişdir. 1860-cı illərin əvvəlindən Gürcüstanda geniş ictimai və ədəbi fəaliyyət göstərmiş mütərəqqi "Terqdaleulebi" hərəkatının təşkilatçılarından biri, "İveriya" qəzetinin redaktoru olmuşdur (1877-1902). O, Qafqaz xalqlarının dostluğunu, qarşılıqlı əlaqələri möhkəmlətməyi qabaqcıl adamların müqəddəs vəzifəsi hesab edirdi. Nəşr etdirdiyi "İveriya" qəzetində xeyli Azərbaycan atalar sözü və Mirzə Şəfi Vazehin şeirlərindən tərcümələr verilmişdir. Azərbaycanlılarda gördüyü nəcib sifətləri yazıçı həmyerlilərinə iftixarla danışırdı.

İlya Qriqoryeviç Çavçavadze XIX əsrdə Gürcüstanda milli-azadlıq hərəkatının ideyalarını ifadə edən şəxlərdən idi. Yeni gürcü ədəbiyyatının banisi hesab olunan Çavçavadze peşəkar gürcü teatrının fəaliyyətinin bərpası, ədəbi və teatr tənqidinin formalaşmasından ötrü müstəsna xidmətlər göstərmişdir.

Çar hökuməti İ.Çavçavadzenin şəxsində özünün təhlükəli düşmənlərindən birini görürdü. Təsadüfi deyil ki, İ.Çavçavadze 1907-ci ildə Tiflisdən Saquramoya gedərkən, jandarmın göstərişi ilə vəhşicəsinə öldürülmüşdür.

Sovet dövründə İ.Çavçavadze yaradıcılığı ilə Azərbaycan yazıçıları daha çox maraqlanmış, onun şeirlərindən ayrı-ayrı nümunələri S.Vurğun, Ə.Cəmil, Ə.Ziyatay, A.Babayev, H.Hüseynzadə və b. tərcümə etmişdir. Kvareli kəndində - Saquramodakı malikanəsində, Tiflisdə xatirə muzeyləri açılmış, Tiflisdə heykəli qoyulmuşdur.

Ə d ə b i y y a t

Dilənçinin hekayəti: (hekayələr və məqalələr) /İ.Çavçavadze; tərt. ed; ön söz müəllifi və red. D.Əliyeva; tərc. ed. S.Vurğun, D.Əliyeva; Ə.Sabir; M.Aslanov.- Bakı: Yazıçı, 1987.- 150 s.

Otaröyünün dul qadını: (Povest) /İ.Çavçavadze; layih. müəl. N.Gelashvili; İ.Çavçavadze; tərc. E.Elsevər; rəssam G.Sereteli.- Tbilisi: Qafqaz evi,2008.-156 s.

Xəlilov, P. İlya Qriqoryeviç Çavçavadze //Xəlilov P. SSRİ xalqları ədəbiyyatı: dərslik.- Bakı, 1966.-Kitab 1.- S.148-154.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/İlya_Çavçavadze

www.ebooks.az/book_e5DN4UOW.html

455 illiyi

Lope de Veqa 1562-1635

İspan dramaturqu

Karpyo Feliksin (Lope de Veqa) 1562-ci il noyabr ayının 25-də Madriddə anadan olmuşdur. Dövrünün orta səviyyəli təhsil ocaqlarında dərs keçmişdir. Yeniyetməlik dövründən müxtəlif elmlərlə yanaşı dinə maraq göstərmiş, hətta 1614-cü ildə keşiş rütbəsi almışdır.

Bədii yaradıcılığa başlayan Lope de Veqa öz qələmini bir çox janrlarda sınamış, sonetlər, epik poemalar yazmışdır. Lakin onun uğurları dramaturgiya ilə bağlı olmuş, iki teatr janrında: komediya və auto (dini dram) yazıb-yaratmışdır.

Lope de Veqanın komediyaları süjet baxımından olduqca genişdir. Bəşər tarixi, İtaliyanın tarixi, xüsusilə ispan xalqının dünyanı fəth etdiyi qəhrəmanlıq tarixinin səhifələri, müxtəlif təbəqələrin həyat və məişəti Lope de Veqa teatrında əks olunmuşdur.

Ədibin yaradıcılığında nəsr və poeziya da xüsusi yer tutur. Onun "Arkadiya", "Öz vətənində qərib", "Doroteya", "Viflielli naxırçıları" romanları, iyirmidən çox poeması, çoxlu şeiri vardır. "Bizim dövrümüzdə yeni komediya yazmaq sənəti" (1609) traktatında intibah dram sənətinin əsas prinsiplərini, başlıca estetik göstəricilərini, mövzu, janr məsələlərini, sənətkarlıq xüsusiyyətlərini araşdırmışdır.

XIX əsrin 70-ci illərindən Lope de Veqanın "Qoyun bulağı" (1876), "Sevilya ulduzu" (1886), "Bağban iti" (1893), "Fenizanın toru" (1893) və başqa əsərləri dünya teatrlarında tamaşaya qoyulmuşdur.

Lope de Veqanın məşhur əsərlərindən biri onun 1612-1613-cü illərdə yazdığı "Qoyun bulağı" adlı qəhrəmanlıq dramıdır. Bu əsər ciddi pyesdir. Burada böyük bir faciə ayrıca bir fərdin deyil, bütün xalq kütlələrinin faciəsini canlandırmışdır. Dramaturqun daha bir məşhur əsəri 1623-cü ildə qələmə aldığı "Sevilya ulduzu" pyesidir. Bu əsərdə XVII əsr ispan ictimai-siyasi quruluşunu ifşa etmiş və mütləqiyyət quruluşunu açıb göstərilmişdir.

Lope De Veqa Feliks dünya mədəniyyətində klassik dramaturq kimi tanınmışdır. Yaradıcılığının ilk illərində əsərləri hindu, fransız, alman, ingilis dillərinə tərcümə edilmiş və dövrünün öncül teatrlarında tamaşaya qoyulmuşdur.

O, ömrünün sonunadək yazıb-yaratmışdır. Ölümündən bir neçə gün əvvəl o, özünün məşhur "Qızıl əsr" adlı poemasını yazmışdır. Böyük sənətkar həmişə öz xalqını vəsf etmiş, onun tarixini, müasir əxlaq qaydalarını və hadisələri qələmə almışdır.

Lope de Veqa 1635-ci ildə vəfat etmişdir.

XX əsrdə Lope de Veqa yaradıcılığına maraq daha da artmış, onun əsərləri bir çox ölkələrin teatrlarında uğurla tamaşaya qoyulmuşdur.

Dramaturqun "Sevilya ulduzu", "Valensiya divanələri", "Rəqs müəllimi", "Nə yardan doyur, nə əldən qoyur", "Fuante Ovexuna" əsərləri Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Lope de Veqa.- Bakı: Şərq-Qərb, 2007.- 382 s.

Novruzov, T. XVII əsr Qərb ədəbiyyatı /T.Novruzov.- Bakı, 1994.- 104 s.

Драмы и комедии: пер. с исп. /Лопе де Вега.- Москва: Правда, 1991.- 765 с.

Варга, С. Лопе де Вега /Сюзанн Варга.- Москва: Молодая гвардия, 2008.- 391 с. Жизнь замечательных людей.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Lope_de_Veqa

ebooks.azlibnet.az/bookclsCZ3AJ.html

100 illiyi

Tağı Tağıyev 1917-1993

Rəssam

Tağı Əzizağa oğlu Tağıyev 1917-ci il noyabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur. Uşaqlıqdan rəssam olmaq arzusunda olmuş, istedadının üzə çıxarılmasında Azərbaycanın görkəmli rəssamı və ictimai xadimi Əzim Əzimzadənin mühüm rolu olmuşdur.

T.Tağıyev 1931-1935-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, daha sonra isə 1940-1941-ci illərdə Moskva Rəssamlıq İnstitutunda təhsil almışdır. Əsasən tematik tablolar, natürmort, portret, mənzərə və məişət səhnələrinin müəllifi kimi tanınmışdır.

Yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin təsviri, əmək adamlarının obrazı və əməyin tərənnümü, doğma təbiətin təsviri mühüm yer tutur. "Koroğlu dəsgahı", "Poladəridən", "Qaynaqçı", "Göy-göl", "Qarlı yollar" əsərləri buna misaldır.

Tağı Tağıyev bir çox xarici – Türkiyə, Yunanıstan, İtaliya, Fransa, İspaniya və s. ölkələrdə olmuş və onların həyatını, yaddaqalan xatirələrini tablolarda yaşatmışdır. Rəssam 1954-cü ildə Afrika ölkələrinə səyahətə getmiş, dinindən, dilindən asılı olmayaraq insanları, onların ideyalarını, arzularını bədii boyalarla təsvir etmişdir. Həmin səfərdən sonra yaratdığı "Afrikalı qız" və "Salam, yeni dünya" əsərlərinə bu gün də maraqla baxılır. Bu əsərlərdə zülmə, tabeçiliyə, əsarətə dözməyənlərin duyğuları ustalıqla təsvir olunmuşdur.

Rəssamın bir çox əsərləri: "Qara Qarayev", "Səttar Bəhlulzadə", "Uşaqlıq xatirələri", "Abşeron silsiləsi", "El gözəli", "Qarayanız qız" və bir çox tabloları Praqa, Pekin, Dakar, Bağdad və s. dünyanın müxtəlif ölkələrində nümayiş etdirilmişdir.

1968-ci ildə Bakıda ilk fərdi sərgisi təşkil edilmişdir.

Tağı Tağıyevin əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Şəkil Qalereyası və s. muzeylərdə saxlanılır.

Yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, "Əməkdar incəsənət xadimi", 1982-ci il dekabr ayının 1-də "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Xalq rəssamı Tağı Tağıyev 1993-cü il iyun ayının 27-də Bakıda vəfat etmişdir.

29 mart 2013-cü ildə - vəfatının 20 illiyi münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyində sərgisi açılmışdır.

Ə d ə b i y y a t

Hümbətova, G. Tağı Tağıyevin yaradıcılığı XX əsr Azərbaycan boyakarlığının inkişafı kontekstində: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 6215.01 /G. R. Hümbətova ; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Rəssamlıq Akademiyası..- Bakı, 2016.- 20 s.

Tağı Tağıyev 1917-1993 /mətnin müəl. G.Quliyeva.- Bakı: Şərq-Qərb, 2013.- 104 s.

Hümbətova, G. Tağı Tağıyevin yaradıcılığında tematik əsərlər /G.Hümbətova //Mədəniyyət.az.- 2015.- № 10.- S. 74-76.

Наджафов, М. Таги Тагиев /М.Наджафов.- Москва, 1959.- 67 с.

Таги Тагиев //Искусство Советского Азербайджана: Живопись. Графика. Скульптура. - М., 1970. - С.101-102.

Таги Азиз Ага оглу Тагиев (1917-1993 гг) //Новое время.- 2014.- 5 июня.- С.5.

https://ru.wikipedia.org/wiki/Тагиев,_Таги_Азиз_Ага_оглы

www.nationalmuseum.az/index.php?option=com...

admiu.edu.az/jurnal/27/133-137_27_20.pdf

75 illiyi

Əlibəy Novruzi 1942

Memar



Əlibəy Nəzərəli oğlu Novruzi 1942-ci il noyabr ayının 8-də Bakıda anadan olmuşdur.

172 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun memarlıq şöbəsinə daxil olmuşdur. 1962-ci ildən Moskvada təhsilini davam etdirmiş, 1965-ci ildə Moskva Memarlıq İnstitutunu bitirmişdir. Həmin ildən "Bakıdövlətlayihə" institutunda işləməyə başlamışdır. Gənc yaşlarından fəaliyyətə başlayan memar öz sənətində qeyri-adi yeniliklərə imza ataraq ölkə və ölkə hüdudlarından kənarda tanınmağa başlamışdır.

1967-ci ildə isti iqlim və güclü küləklər şəraitində küləyin gücünü tənzimləyə bilən yaşayış evləri ixtira etmişdir. Belə ki, memarın bu illərdə apardığı elmi tətqiqatlar nəticəsində külək və memarlıq həcmlərinin qarşılıqlı əlaqəsindən əmələ gələn aerodinamik proseslərin mahiyyətini aşkara çıxarmışdır. O, dəlikli strukturların küləyi səmtləşdirmək xüsusiyyətini aşkarlayaraq aerodinamika sahəsində kəşfin, yaşayış evlərinin və tamaşaçı zalının mexaniki qurğularsız təbii havalandırılması sahəsində ixtiraların müəllifi olmuşdur. Bu kəşflər memara hələ gənc yaşında görünməmiş şöhrət gətirmişdir. Memarın bu layihə əsasında çəkdiyi sxem dünya memarlıq jurnallarının üz qabığını bəzəyir, memara, onun memarlığa gətirdiyi yeniliyə geniş mövzular həsr edirlər. Hətta Qərb mətbuatında Novruzi haqda Korbuzyedən çox yazılırdı. Hansı ki, həmin dövrdə mikroiqlim məsələsi memarlıqda ən aktual məsələlərdən biri idi. Bu kəşf elmi əsər kimi bir çox dillərə tərcümə olunmuş və hər yerdə xüsusi termin kimi "Novruzi tipli evlər" kimi vurğulanmışdır.

1974, 1977, 1985-ci illərdə keçmiş SSRİ Memarlar İttifaqı Mükafatı laureatı olmuşdur. Ə.Novruzi 4 il (1986-1989) keçmiş SSRİ-nin "İlin ən yaxşı memarlıq layihəsi" müsabiqəsinin qalibi olmuşdur.

1982-ci ildə "Küləyin binada hərəkəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Sumqayıt şəhərinin baş memarı olmuşdur.

1978-ci ildə Lənkəran şəhərində mərkəzi meydanın rekonstruksiyası və həlak olmuş əsgərlərin abidəsinə görə Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. İki Beynəlxalq Akademiyanın (Şərq Ölkələri Beynəlxalq Memarlıq) akademikidir. Əməkdar elm xadimi və 20 dekabr 1991-ci ildən respublikanın Əməkdar memarıdır. 300-dən çox memarlıq layihəsinin, 150-yə yaxın rəsm əsərinin, 2 kitabın ("Sivilizasiya" (1999) və "Bir portretin tarixçəsi") müəllifidir. Azərbaycan Memarlar İttifaqının üzvü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professorudur.

Ə d ə b i y y a t

Misir piramidalarını araşdıran azərbaycanlı memar /Ə.Novruzi; müsahibə S.Soltanlı //Mədəniyyət.- 2015.- 6 mart.- S. 13.

Naxçıvanda memarlıq yaşayır və inkişaf edir /Ə.Novruzi //Memar.- 2015.- № 7.- S. 143-144.

Arxitektor Əlibəy Novruzi: bələdçi.- Bakı: Şur, 1993.- 56 s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Əlibəy_Novruzi

memarliq.com/?p=1976

80 illiyi

Emin Sabitoğlu 1937-2000

Bəstəkar

Emin Sabit oğlu Mahmudov (Emin Sabitoğlu) 1937-ci il noyabr ayının 2-də Bakı şəhərində, görkəmli yazıçı Sabit Rəhmanın ailəsində anadan olmuşdur. 7 yaşında Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfinə qəbul edilmişdir.

1954-cü ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində, Qara Qarayevin sinfində təhsil almış, iki il sonra elə Q.Qarayevin tövsiyəsi ilə R.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına, professor Y.Şaporinin sinfinə daxil olmuş, 1961-ci ildə oranı bitirmişdur.

1961-ci ildə "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru vəzifəsində çalışmış, sonrakı illərdə Dövlət Filarmoniyasında bədii rəhbər, Ü.Hacıbəyov adına Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) müəllim işləmişdir.

Bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün poemanın və onlarca əsərin müəllifidir.

600-dən artıq mahnı, 9 musiqili komediya, 40-a yaxın filmə musiqi bəstələmişdir. "Dərələr", "Bakı, sabahın xeyir", "Uzaq yaşıl ada", "Dağlar", "İnsaf da yaxşı şeydir", "Gilavar", "Çay", "Kəpənək" və s. mahnıları çox böyük populyarlıq qazanmışdır.

Emin Sabitoğlu iki operetta yazmışdır. Onlardan "Hicran" operettasının ssenarisi atası Sabit Rəhman tərəfindən yazılmışdır. Digər operettası - "Nəğməli Könül" də kifayət qədər populyarlıq qazanmışdır. Bu operetta Azərbaycanla yanaşı Özbəkistanda da səhnəyə qoyulmuşdur. On iki pyes, o cümlədən Anarın "Şəhərin yay günləri" əsərinə yazılan musiqinin müəllifi də E.Sabitoğludur.

30 ildən çox Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dərs demiş, 1978-ci ildə dosent, 1994-cü ildə professor elmi rütbəsini almışdır. Emin muəllim 1994-cü ildən beş il Türkiyədə, İstanbul Texniki Universitetinin nəzdindəki Konservatoriyada çalışmışdır.

E.Sabitoğlunun fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 1978-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 2000-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1987-ci ildə Respublika Dövlət Mükafatı laureatı olmuş, 1997-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Görkəmli bəstəkar Emin Sabitoğlu 2000-ci il noyabr ayının 18-də Bakıda vəfat etmişdir.

19 dekabr 2007-ci ildə, 70 illiyi münasibətilə vaxtilə yaşadığı evin divarına xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t

Əfəndiyeva, İ. Emin Sabitoğlu /İ.Əfəndiyeva.- Bakı: Şərq-Qərb, 2014.- 24 s.

Abbaslı, T. Qəlblər bəstəkarı /T.Abbaslı //Mədəniyyət.- 2015.- 18 noyabr.- S. 13.

Şəfa, Ş. "Ölsəm, bağışla" /Ş.Şəfa //Ədalət.- 2015.- 19 noyabr.- S. 8.

https://az.wikipedia.org/wiki/Emin_Sabitoğlu

haqqinda.az/.../4546-Emin+Sabitoğlu.html

100 illiyi

Tofiq Quliyev 1917-2000

Bəstəkar

Tofiq Ələkbər oğlu Quliyev 1917-ci il noyabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur. 12 yaşında Azərbaycan Dövlət Konservatoriyası nəzdində musiqi məktəbinin fortepiano sinfinə daxil olmuşdur. 1934-cü ildə təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Konservatoriyasına İ.S.Aysberqin fortepiano sinfinə daxil olmuş, fortepiano dərsləri ilə yanaşı, S.Q.Ştrasserin sinfində dirijorluq dərsi də almışdır. Oxumaqla bərabər 1935-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında dirijorluğa başlamışdır. 1931-ci ildə Asəf Zeynallının məsləhəti ilə M.Ə.Sabirin sözlərinə "Məktəbli" mahnısını bəstələmişdir.

Tofiq Quliyev xalq mahnılarını toplamağa hələ 1930-cu illərdə başlamışdır. 1936-cı ildə bəstəkar Z.Bağırovla birgə "Rast", "Segah", "Zabul", "Dügəh" muğamlarını nota salmışdır.

Üzeyir Hacıbəylinin təşəbbüsü ilə təhsilini davam etdirmək üçün 1936-cı ildə P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına göndərilmiş, 1939-cu ildə Bakıya qayıtmış və 1941-ci ildə "Qırmızı Ordu" ansamblını yaratmışdır. 402-ci diviziyanın tərkibində çalışan ansambl üçün müxtəlif vətənpərvərlik ruhunda mahnılar bəstələmişdir.

XX əsrin 40-cı illərindən həm də kino sahəsində işləməyə başlamış, 70-dən çox filmə musiqi bəstələmişdir. "Səbuhi", "Ögey ana", "Telefonçu qız", "Görüş", "Qızmar günəş altında", "Bəxtiyar", "Onu bağışlamaq olarmı?", "Qayınana", "Dərviş Parisi partladır" və s. filmlərə musiqi bəstələmişdir.

1948-ci ildə Moskva Dövlət Konservatoriyasında təhsilini davam etdirmiş, aspiranturaya daxil olmuş və A.Qaukun rəhbərliyi altında elmi iş müdafiə etmişdir. 1951-ci ildə uzun illər topladığı materiallar əsasında "Azərbaycan xalq rəqsləri" və 1955-ci ildə "15 Azərbaycan xalq rəqsləri" toplularını hazırlamışdır.30-dan çox tamaşaya musiqi bəstələmişdir.

1954-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlamışdır. 1958-ci ildə Filarmoniyanın bədii rəhbəri, daha sonra direktoru işləmişdir. 1960-1970-ci illərdə bir çox beynəlxalq konfrans, festival, incəsənət günlərində iştirak etmişdir. 1969-cu ildən 1979-cu ilə qədər Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etmiş, 1990-cı ildən ömrünün sonuna kimi Azərbaycan Bəstəkarlar İttifaqının idarə heyətinin sədri vəzifəsində çalışmışdır.

Azərbaycan SSR Ali Sovetinin (6-cı çağırış) deputatı, Xəzər Universitetinin fəxri doktoru, Dövlət mükafatı laureatıdır.

Bəstəkar 1958-ci ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi", 1964-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. İki "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı", "İstiqlal" (1997) ordenləri ilə təltif edilmişdir.

Tofiq Quliyev 2000-ci il oktyabr ayının 5-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Hal-hazırda Bakı şəhərinin Səbail rayonu 12 saylı musiqi məktəbi və şəhərin küçələrindən biri bəstəkarın adını daşıyır.

Ə d ə b i y y a t

Abdullayeva, Z.K. Ecazkar sənətkar. Tofiq Quliyev /Z.K.Abdullayeva.- Bakı: Çinar-Çap, 2007.- 202 s.

Mehdiyeva, N. Tofiq Quliyev /N.Mehdiyeva.- Bakı: Şur, 1992.- 26 s.

Abbaslı, T. Füsunkar, ecazkar...: Tofiq Quliyev ad-soyadlı, əbədi dünyalı təkrarsız nəğməkar! /T.Abbaslı //Mədəniyyət.- 2014.- 7 may.- S. 13.

Paşayeva, M. Azərbaycan kino musiqisi və Tofiq Quliyev /M.Paşayeva //Qobustan: sənət toplusu.- 2013.- № 1.- S. 32-34.

Бакиханова, З. Тофик Кулиев /З.Бакиханова.- Баку: Ишыг, 1979.- 96 с.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Tofiq_Quliyev

tofiqquliyev.musigi-dunya.az/az/biography.html

95 illiyi

Fikrət Əmirov 1922-1984

Bəstəkar

Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922-ci il noyabr ayının 22-də Gəncə şəhərində, məşhur tarzən və xanəndə ailəsində anadan olmuşdur. Əvvəlcə Gəncədə musiqi məktəbinin tar sinfində, sonra Bakıda musiqi məktəbinin kompozisiya sinfində oxumuşdur. 1939-cu ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Müharibə başlayanda cəbhəyə getmiş, yaralanandan sonra Bakıya qayıtmışdır.

1942-1945-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri, eyni zamanda Gəncə Musiqi Məktəbinin direktoru olmuşdur. 1945-ci ildə konservatoriyada təhsilini davam etdirmiş, 3 il sonra bitirmişdir. 1946-1947-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, 1956-1959-cu illərdə isə M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının direktoru olmuşdur. Azərbaycanı dünyada tanıdan milli bəstəkarlıq məktəbinin ən layiqli nümayəndələrindən biri olan F.Əmirov sağlığında ölməzlik qazanmış sənətkarlardandır. Onun yaradıcılığı XX əsr Azərbaycan musiqi tarixinin ən parlaq səhifələrindəndir. Bəstəkarın yaradıcılıq ideyaları, geniş dinləyici auditoriyasına ünvanlanmışdır. F.Əmirovun əsərləri təkcə ölkəmizdə deyil, həm də Rusiya, ABŞ, Almaniya, İngiltərə, Fransa, Meksika, İran, Türkiyə, Misir, İsveç, Mərakeş və başqa ölkələrdə böyük müvəffəqiyyətlə səslənmiş və dinləyicilərin böyük rəğbətini qazanmışdır. F.Əmirov lirik bəstəkardır. Onun musiqisində ideya, forma, məzmun baxımından asılı olmayaraq lirika həmişə aparıcı amil olmuş, bəstəkarın bütün yaradıcılığına sirayət etmişdir. Onun əsərlərində dramatik, epik obrazlar, fəlsəfi düşüncələr belə lirik planda verilmişdir. F.Əmirov Azərbaycan musiqi tarixinə əsl novator, yeni şair, yeni movzular gətirmiş bir sənətkar kimi daxil olmuşdur. F.Əmirovun simfonik yaradıcılığı rəngarəngdir. Fəlsəfi mahiyyət kəsb edən "Nizami" (1947) simli simfoniyası lirizmi, təsirliliyi, aydın və incə musiqi üslubu ilə fərqlənir. F.Əmirov simfonik müğam janrının yaradıcısıdır. Onun "Şur", "Kürd-ovşarı", "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları, "Azərbaycan" süitası, "Sevil" operası, "Min bir gecə" baleti, "Azərbaycan kapriççiosu", "Nəsimi" xoreoqrafik poeması, "Simfonik rəqslər", vokal instrumental əsərləri dünya musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfə olmuş, musiqimizin qızıl fonduna daxil edilmişdir. 1956-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının, 1975-ci ildə keçmiş SSRİ Bəstəkarlar İttifaqının katibi olmuşdur.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafında göstərdiyi misilsiz xidmətlərinə görə Fikrət Əmirov 1965-ci ildə SSRİ, 1958-ci ildə isə Azərbaycan SSR-in "Xalq artisti", 1982-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarına layiq görülmüşdür. SSRİ (1980) və Azərbaycan (1974) Dövlət mükafatları laureatı olmuş, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni (1967, 1971), iki dəfə "Lenin" ordeni (1959, 1982) ilə təltif olunmuşdur.

Fikrət Əmirov 20 noyabr 1984-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Musiqi aləmində /F.Əmirov.- Bakı: Gənclik, 1983.- 267 s.

Fikrət Əmirov: biblioqrafiya /tərt. T.Məmmədova, A. Novruzova.- Bakı, 2009.- 271 s.

Qasımova, S. Fikrət Əmirov /S.Qasımova.- Bakı: Nağıl evi, 2004.- 208 s.

Təhmirazqızı, S. Fikrət Əmirov /S.Təhmirazqızı.- Bakı: Aspoliqraf, 2012.- 399 s.

Əmirov, T. Fikrət Əmirov /T.Əmirov //Ədalət.- 2015.- 28 oktyabr.- S. 5.

Шарифова-Алиханова, В. Фикрет Амиров: Жизнь и творчество /В.Шарифова-Алиханова.- Баку: Сада, 2005.- 240 с.

İnternetdə

https://az.wikipedia.org/wiki/Fikrət_Əmirov

mim.ucoz.org/publ/7-1-0-11

www.musigi-dunya.az/new/added.asp?...txt...

55 illiyi

Oqtay Güləliyev 1962-1992

Milli Qəhrəman

Oqtay Güləli oğlu Güləliyev 1962-ci il noyabr ayının 10-da Laçın rayonunun Xaçınyalı kəndində anadan olmuşdur. 1982-ci ildə orta məktəbi bitirmiş və hərbi xidmətə çağırılmışdır. 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına daxil olmuşdur. 1989-cu ildə institutun iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirərək, Laçın rayon Daxili İşlər Şöbəsində pasport bölməsində baş inspektor, sonra isə polis rotasının komandiri təyin olunmuşdur. Məlum "Daşaltı əməliyyatı" zamanı onun rotası mühasirəyə düşmüşdür. O, 80 nəfər əsgərimizi təhlükəsiz zonaya çıxarmağa nail olmuşdur. Pircahan kəndi yaxınlığında yaralanan Oqtay hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1992-ci il sentyabrın 19-da Oqtay Güləliyev Laçın dəhlizini götürmək üçün əməliyyat planını hazırlayır. Əvvəlcə Hocaz kəndini, sonra isə Nərgiz yüksəkliyini ələ keçirmək planı hazırlamış, rotası ilə birlikdə düşmənin canlı və hərbi texniki qüvvəsini məhv etmişdir. Sus və Qızılca kəndlərindən keçib yenidən Hocaz kəndinə dönərkən mühasirəyə düşmüşdür. Oqtay Güləliyev yoldaşlarını çətin vəziyyətdən xilas edərək, onları təhlükəsiz yerə keçirsə də, özü qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı Fərmanı ilə Güləliyev Oqtay Güləli oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Laçın şəhərində və Piçənis kəndində adına məktəb var.

2015-ci il noyabr ayının 24-də Laçın rayonundan məcburi köçkünlərin məskunlaşdığı Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində Oqtay Güləliyev haqqında çəkilmiş "Laçın qartalı" sənədli filminin təqdimat mərasimi keçirilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilməsi haqqında: [Güləliyev Oqtay Güləli oğlu – Laçın rayon polis şöbəsinin post-patrul xidməti batalyonunun rota komandiri, polis baş leytenantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 may 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 9 .- S. 55.- (Ölümündən sonra).

Əsgərov, V. Güləliyev Oqtay Güləli oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.103.

Güləliyev Oqtay Güləli oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. A.Həmidova.- Bakı, 2008.- S.76-77.

Seyidzadə, M. Güləliyev Oqtay Güləli oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.70.

Muradov, H. "Səngər xatirələri" /H.Muradov //Laçın yurdu.- 2014.- № 1.- S.63-66.

45 illiyi

Mehman Sayadov 1972-1992

Milli Qəhrəman

Mehman Qəzənfər oğlu Sayadov 1972-ci il noyabr ayının 21-də Qərbi Azərbaycanın Vardenis rayonunun Günəşli kəndində anadan olmuşdur. Yeddinci sinfə qədər doğma kəndində oxumuş, erməni millətçilərinin 1988-ci ildə azərbaycanlıları deportasiya etdikləri zaman ailəsi ilə birlikdə Samux rayonunun Sərkar kəndində məskunlaşmışdır. 8-ci sinfi bu kənddə bitirmiş, təhsilini yarımçıq qoyaraq bir müddət təsərrüfat işləri ilə məşğul olmuşdur. 18 yaşında Sovet ordusu sıralarına çağırılan M.Sayadov 6 ay Sverdlovskidə xidmət etdikdən sonra vətənə qayıtmışdır. 1992-ci ildə "Azərbaycan bayrağı" könüllü batalyonuna üzv yazılaraq cəbhəyə yollanmışdır. Şuşa şəhərinin bir sıra kəndlərinin müdafiəsində qəhrəmanlıq nümayiş etdirmişdir. 1992-ci il mayın 9-da Kosalarda, sonra isə Nəbilər kəndində döyüşən Mehman yoldaşlarının köməyilə düşmənin 70-ə yaxın canlı qüvvəsini və bir neçə hərbi texnikasını məhv etmişdir. Düşmən yenidən qüvvə toplayaraq Nəbilər kəndinə hücuma keçəndə M.Sayadov döyüşərək qəhrəmancasına həlak olmuşdur. Cansız bədəni döyüş meydanında qalmış və onun ətrafında onlarla düşmən meyiti səpələnmişdi. Bu, onun əsl qəhrəmanlığından xəbər verirdi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Sayadov Mehman Qəzənfər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bütün cəhdlərə baxmayaraq qəhrəmanın cəsədini döyüş meydanından çıxarmaq mümkün olmamışdır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sayadov Mehman Qəzənfər oğlu-sıravi-Azərbaycan Respublikasının süverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S. 25.- (Ölümündən sonra).

Əsgərov, V. Sayadov Mehman Qəzənfər oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.254.

Sayadov Mehman Qəzənfər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt. H.Həmidova.- Bakı, 2008.- S.183.

Seyidzadə, M. Sayadov Mehman Qəzənfər oğlu //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.197.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Mehman_Sayadov

100 illiyi

İndira Qandi 1917-1984

Siyasi xadim

İndira Priyadarşini Qandi 1917-ci il noyabr ayının 19-da Hindistanın quzeyindəki Uttar-Pradeş əyalətinin Allahabad şəhərində, Hindistanın ilk Baş Naziri və ölkənin müstəqilliyi yolunda mübarizə aparan qəhrəman Cəvahirləl Nehrunun ailəsində dünyaya gəlmişdir. Hindistanın müstəqilliyi tarixində dördüncü Baş Nazirdir. İlk ali təhsilini İsveçrə, İngiltərə və Hindistanda almışdır. İngiltərədə təhsil alarkən HMK üzvlərindən olan Firuz Qandi ilə tanış olmuş və onunla ailə qurmuşdur. Bir az yaşa dolandan sonra gənclər arasında "Vanara Sena" hərəkatını təşkil etmiş və ona liderlik edərək Hindistanın müstəqillik mübarizəsində önəmli rol oynamağa başlamışdır. İndira Qandi Hindistanla Pakistanın ayrıldığı 1947-ci ildə, Hindistana mühacirət edənlərə köməklik göstərmişdir.

1959-cu ildə Milli Konqresin sədri seçilmişdir. 1964-cü ildən L.B.Şastri hökumətində Məlumat və Radio Verilişləri naziri olmuşdur. 1966-cı ildən, L.B.Şastrinin vəfatından sonra HMK partiyasından parlament fraksiyasının lideri seçilmiş və Baş Nazir olmuşdur. 1971-ci ildə Hindistanla Pakistan arasında müharibə başlanmışdır. Bu müharibədə İndira Qandi Kəşmir problemini dinc danışıqlar yolu ilə həll etmək barədə anlaşma imzalamışdır. Əkinçiliyə xüsusi diqqət ayıran İndira Qandi əkinçilikdə həyata keçirilən "Yaşıl inqilab", südçülükdə də tətbiq edilən "Ağ inqilab"la birgə daha da böyük müvəffəqiyyət qazanmışdır.Hindistanı nüvə ölkəsinə çevirməsi bu qadının beynəlxalq aləmdə də nüfuzunu xeyli artırmışdır. 1975-ci ildə Allahabad Ali Məhkəməsi axırıncı seçkilərdə qanunsuzluqlara yol verdiyini bildirərək İndira Qandinin millət vəkilliyi hüququnu əlindən almış, 1977-ci ildə ölkədə keçirilən seçkilərdə məğlub olmuşdur. 1979-cu ildə keçirilən təkrar seçkilərdə İndira Qandi yenidən Baş Nazir seçilmişdir.

İndira Qandi Bakıya səfər etmiş, öz arzusuyla Atəşgahı ziyarət etmişdir.

İndira Qandi 1984-cü ilin 31 oktyabr günü Yeni Dehlidəki Səfdərcunq küçəsində yerləşən Baş Nazir iqamətgahında, öz mühafizəçiləri tərəfindən 33 güllə yarası ilə qətlə yetirilmişdir. Qandinin cənazəsi yerli adət-ənənəyə görə noyabrın 3-də Mahatma Qandinin xatirəsinə ucaldılan Raj Qal abidəsi önündə yandırılmışdır.

Hind xalqı bu gün də onun xatirəsini ehtiramla yad edir, hər il oktyabrın 31-i onun şərəfinə "Milli birlik günü" kimi qeyd edilir.

Ə d ə b i y y a t

Hacıyev, Y. İndira Qandi: "Görkəmli adamlar" seriyasından tarixi-sənədli roman /Yusif Hacıyev; Red; Z.Hüseynova.- Bakı: Şuşa, 2001.- 248 s.

Nehru, C. Ümumdünya tarixinə bir nəzər /Cəvahirləl Nehru; tərc.ed. T.Paşazadə.-Bakı: Şərq-Qərb, 2006.- 344 s.

Paşayeva, Q. İndira Priyadarşini Qandi //Paşayeva Q. Tarixə adını yazan qadınlar: 3 cilddə.-Bakı, 2011.- Cild 2.- S.111-132.

Mehparə. Atəşgah və İndira Qandi: Suraxanıdakı bu tarixi abidə Hindistanın Baş Nazirinin təşəbbüsü ilə bərpa edilib /Mehparə //Mədəniyyət.- 2008.- 1 mart.- S.7.

70 illiyi

Natiq Əliyev 1947

İctimai xadim

Natiq Ağaəmi oğlu Əliyev 1947-ci il noyabr ayının 23-də Bakı şəhərində anadan olmuşdur.

1965-ci ildə orta məktəbi, 1970-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu dağ mühəndis-geoloqu ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə təyinatla göndərildiyi "Xəzərdənizneft" İstehsalat Birliyinin "Azərdənizneft - kəşfiyyat" trestinin 1 saylı qazma idarəsində qazmaçı köməkçisi kimi başlamışdır.

1971-1974-cü illərdə Azərbaycan SSR EA Geologiya İnstitutunun aspiranturasında təhsil almışdır. 1974-cü ildə geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsini almış, böyük elmi işçi vəzifəsində işləmişdir. 1984-cü ildən Azərbaycan KP MK Neft və kimya şöbəsində təlimatçı, daha sonra Sosial-iqtisadi şöbənin bölmə müdiri vəzifələrində çalışmışdır. 1989-cu ildən 1991-ci ilədək Azərbaycan KP MK-nin İctimai-iqtisadi departamentinin şöbə müdiri olmuşdur.

1993-cü ildən 2005-ci ilə qədər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti və Direktorlar Şurasının sədri, 1994-cü ildən Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə layihənin Rəhbər komitəsinin sədri, 2002-ci ildən Bakı-Tbilisi-Ceyhan Şirkətinin (BTC Ko) Direktorlar Şurasının sədri olmuşdur.

2005-ci ildə Azərbaycan Neftçilər Konqresinin prezidenti seçilmişdir. Natiq Əliyevin 100-dən artıq elmi məqaləsi, 4 monoqrafiyası və kitabları nəşr olunmuşdur. Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı üzrə 30-dan çox elmi məqalənin müəllifidir. 1994-cü ildən Beynəlxalq Şərq Neft Akademiyasının akademiki, 2008-ci ildən iqtisad elmləri doktorudur.

2008-ci ildə Beynəlxalq Mühəndislik Akademiyasının (Rusiya Federasiyası, Moskva) müxbir üzvü seçilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 18 noyabr 2009-cu il tarixli qərarı ilə Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının üzvüdür.

Neft sənayesinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının "Şöhrət" , Gürcüstanın "Şərəf" , Fransanın "Milli Fəxri Legion" , Polşanın "Böyük Komandor Xaçı" ordenləri və müxtəlif Beynəlxalq Akademiyaların orden və medalları ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının "Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2004-cü il tarixli Fərmanına əsasən Sənaye və Energetika Nazirliyi yaradılmış və Natiq Əliyev nazir təyin edilmişdir.

2013-cü ildən Azərbaycan Respublikasının Energetika naziridir.

Ə d ə b i y y a t

Neft sənayesinin intibah dövrü /N.A.Əliyev; burax. məs.: R.Məmmədov, A.Mənsimli; Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi.- Bakı: Qanun, 2013.- 119 s.

Avropa ittifaqı - Azərbaycan: Strateji əməkdaşlıqda yeni üfüqlər /N.Əliyev //Azərbaycan.- 2009.- 21 fevral.- S.3.

Əliyev Natiq Ağaəmi oğlu //Azərbaycanda kim kimdir?:(Ensiklopedik sorğu kitabı) /Müəl. Tariyel Cahangir; Red: Əliağa Cəfərov.- Bakı, 2010.- S.96.

Əliyev Natiq Ağaəmi oğlu //Böyük iqtisadi ensiklopediya: 5 cilddə: /İdeya müəllifi və baş red. Z.Səmədzadə.- Bakı, 2012.- Cild II.- S.128-129.

https://az.wikipedia.org/wiki/Natiq_Əliyev

125 illiyi

Tərlan bəy Əliyarbəyov 1892-1956

General-mayor

Əliyarbəyov Tərlan Abdulla oğlu 1892-ci il noyabr ayının 28-də Azərbaycanın qədim Şamaxı rayonunda anadan olmuşdur. 1908-ci ildə Şamaxıdakı altıillik şəhər məktəbini bitirmişdir. 1911-ci ildə üçüncü Qafqaz alayının əlaçı əsgəri olan Tərlan bəy Əliyarbəyov Tiflisdəki Mixaylovsk hərbi piyada məktəbinə oxumağa göndərilmişdir. Hərbi məktəbi birinci dərəcəli diplomla bitirmiş və podporuçik Əliyarbəyov Şamaxıdakı 205-ci piyada alayında xidmətə başlamışdır. 1914-cü ilin yayında, Birinci Dünya müharibəsi zamanı xidmət etdiyi 205-ci alay Qərb cəbhəsinə göndərilmişdi. Rota komandiri olan Əliyarbəyov batalyon komandiri kimi məsul vəzifəyə təyin edilmişdir. 1916-cı ilin mayında onun sinəsini üçüncü dərəcəli "Müqəddəs Stanislav" və üzərində "İgidliyə görə" yazılmış dördüncü dərəcəli "Müqəddəs Anna" ordenləri bəzəyirdi. Verden şəhəri ətrafında gedən vuruşlarda o, general Əliağa Şıxlinski ilə görüşmüşdür.

Axırıncı dəfə sinəsindən aldığı yaranın müalicəsi ilə bağlı Brest şəhərində müalicə aldıqdan sonra Bakıya göndərilmişdir. 1918-ci ilin noyabrında Əliağa Şıxlinskinin yaratdığı Əlahiddə Müsəlman Korpusuna könüllü gələn Tərlan bəy Əliyarbəyov ikinci alayın komandir köməkçisi təyin edilmişdir. 1920-ci ildə Bakı qəzasında və 1921-ci ildə bütün respublikada səfərbərliyi yüksək bacarıqla həyata keçirmişdir.

1923-1929-cu illərdə Azərbaycan Sovet Sosialist Respublikası hərbi komissarının köməkçisi və ərazi idarəsinin rəisi vəzifəsində çalışmışdır. 1925-1931-ci illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvlüyünə namizəd seçilmişdir. Azərbaycan SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuş, 1927-ci ildə M.V.Frunze adına Hərbi Akademiyada Ali komanda heyəti kursunu bitirdikdikdən sonra Bakıya qayıdan Əliyarbəyov hərbi istedadını milli hərbi kadrların yetişdirilməsinə sərf etmişdir.

1932-ci ildə Azərbaycan Neft İnstitutunda hərbi-pedaqoji fəaliyyət göstərmişdir. O, ikinci dəfə (1941-ci il) M.V.Frunze adına Ali Hərbi Akademiyanı bitirəndə Böyük Vətən Müharibəsi başlanmışdı. Cəbhəyə səfərbər olunan polkovnik Tərlan bəy Əliyarbəyov 1942-ci il oktyabrın 15-də azərbaycanlılardan ibarət 416-cı diviziyanın komandir müavini, üç ay sonra isə komandiri təyin edilir. Müharibə illərində Tərlan bəy Əliyarbəyovun döyüş xidmətləri yüksək qiymətləndirilərək 1944-cü il fevralın 9-da ona general-mayor rütbəsi verilmişdir.

1946-1948-ci illərdə Azərbaycan SSR Maarif nazirinin müdafiə işləri üzrə müavini olmuş, 1948-ci ildə istefaya çıxmışdır. General Tərlan bəy Əliyarbəyov altmış dörd illik ömür yolunda üç müharibənin iştirakçısı olmuşdur. O, Birinci Dünya müharibəsində, 1918-1920-ci illərdə Azərbaycan Milli Ordusunda və Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuşdur.

"Lenin" , "Qırmızı Bayraq", "Qırmızı ulduz" ordenləri və medallarla təltif olunmuşdur.

Peşəkar hərbçi, igid general Tərlan bəy Əliyarbəyov 1956-cı il fevral ayının 15-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Dünyaya gəldiyi Şamaxı şəhərindəki və Bakıdakı küçələrdən biri Tərlan bəy Əliyarbəyovun adını daşıyır.

Ə d ə b i y y a t

Əliyarbəyov Tərlan Abdulla oğlu //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: iki cilddə /Baş red. Yaqub Mahmudov.- Bakı, 2004.- Cild1.- S.360-361.

Əliyarbəyov Tərlan Abdulla oğlu //Biz birlikdə qalib gəldik: faşizm üzərində Qələbənin 65 illiyinə həsr olunmuş məqalələr toplusu /AMEA; Azərb. Tarixi Muzeyi; elmi red. N.Vəlixanlı.- Bakı, 2010.- S.73-77.

Nəzirli, Ş. General Tərlan bəy Əliyarbəyov //Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları.- III nəşri.- Bakı, 2016.- S.565-572.

Nəzirli, Ş. Hərb tariximizdə nələr olmuşdur? /Ş.Nəzirli //Azərbaycan.- 2001.- 9 fevral.- S.5.

Nəzirli, Ş. "Şamaxı tərlanı" //Nəzirli Ş. Azərbaycan generalları.- Bakı, 1991.- S.138-141.

90 illiyi

Əhməd İsgəndərov 1927

Tarixçi-şərqşünas

Əhməd Əhməd oğlu İsgəndərov 1927-ci il noyabr ayının 11-də Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. Bakının 8 saylı orta məktəbində təhsil almışdır. 1943-cü ildə Bakı Memarlıq Texnikumuna daxil olaraq bir il orada oxumuş, 1944-cü ildə yenicə yaranmış Hərbi-dəniz hazırlıq məktəbinə daxil olsa da təhsilini yarımşıq qoymuş, 1945-ci ildə Moskva Xarici Dillər Hərbi İnstitutuna daxil olmuşdur. Xarici Dillər Hərbi İnstitutunda 5 il oxumuş, 1950-ci ildə baş leytenant rütbəsi almışdır. İki il həmin institutda işlədikdən sonra, 1953-cü ildə SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olmuşdur. 1955-ci ildə isə Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. 1958-ci ildə Yaponiya tarixi üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1957-1963-cü illərdə keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun elmi işçisi, 1960-1969-cu illərdə "Dünyanın və sosializmin problemı" jurnalının əməkdaşı, 1969-1970-ci illərdə Beynəlxalq Fəhlə Hərəkatı İnstitutunun direktor müavini olmuşdur. 1970-ci ildən SSRİ EA Ümumi Tarix İnstitutunun direktor müavini işləmişdir. 1969-cu ildə tarix elmləri doktoru, 1970-ci ildə professor elmi rütbəsini almışdır. 1979-cu ildə SSRİ EA müxbir üzvü, Asiya və Afrika ölkələri Sovet Həmrəylik Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur. Yaponiyanın feodalizm dövrünə, beynəlxalq milli azadlıq hərəkatına həsr olunmuş təqribən 80-dək elmi əsərin müəllifidir. "Üçüncü dünya: problemlər və perspektivlər" (rus dilində) kollektiv monoqrafiyanın əsas müəlliflərindəndir. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

Bir çox keçmiş SSRİ medalları ilə təltif olunmuşdur. 1987-ci ildən "Tarix məsələləri" jurnalının baş redaktorudur. 2002-ci ildə "İmperiyanın qürubu" kitabı çapdan çıxmışdır. 1978-ci ildə RSFSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1987-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t

Мировой революционный процесс на современном этапе /А.Искендеров.- М.: Знание, 1966.- 47 с.

Национально-освободительное движение /А.Искендеров.- М.: Международное отношения, 1970.- 392 с.

Освободившиеся страны к 2000 году /А.Искендеров.- М.: Международное отношения, 1986.- 67 с.

Феодальный город Японии XV1 столетия /А.Искендеров.- М.: Изд.вост.лит., 1961.- 116 с.

İ n t e r n e t d ə

adam.az/index.php?option=com...53

arxiv.az/az/azertag.az/3163012

https://az.wikipedia.org/wiki/Əhməd_İsgəndərov

70 illiyi

Əhliman Əmiraslanov 1947

Akademik

Əhliman Tapdıq oğlu Əmiraslanov 1947-ci il noyabr ayının 17-də Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində, ziyalı ailəsində anadan olmuşdur. 1965-ci ildə məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1974-1977-ci illərdə SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin aspirantı olmuş, 1977-ci ildə "Bədxassəli şişlərlə əlaqədar aşağı ətrafların amputasiyasından sonra xəstələrin reabilitasiyası" mövzusunda namizədlik dissertasiyası, 1984-cü ildə "Osteogen sarkomalı xəstələrin kompleks müalicə üsulları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1985-ci ildə Ə.T.Əmiraslanov "Sümük sarkomaları" adlı orijinal monoqrafiyasına görə SSRİ Tibb Elmləri Akademiyasının N.N.Petrov adına mükafatına və diplomuna layiq görülmüşdür. 1987-ci ildə ÜOEM-in Ümumi onkologiya şöbəsində aparıcı elmi işçi vəzifəsinə təsdiq edilmiş, 1989-cu ildə həmin şöbədə professor elmi rütbəsini almışdır.

1992-ci ildən 2015-ci ilədək Azərbaycan Tibb Universitetinin rektoru vəzifəsində çalışmışdır. 1993-cü il martın 23-də müsabiqə yolu ilə Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 2007-ci ildən həm də universitetin Onkoloji klinikasının direktorudur.

Ə.T.Əmiraslanov 1998-ci ildə Polşa Tibb Elmləri Akademiyasının, həmçinin 2001-ci ildə indiki Rusiya Elmlər Akademiyasının xarici üzvü və 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibinin müavini seçilmişdir. 2006-cı ildən UNESCO-nun "Bioetika, elmi biliklərin və texnologiyaların etikası" Komitəsinin Rəyasət Heyətinin üzvü, UNESCO-nun ekspertidir.

2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Biologiya Elmləri Bölməsinin akademik-katibi seçilmişdir. 2010-cu ildə ölkə Prezidentinin Sərəncamına əsasən Elmin İnkişafı Fondunun Himayədarları Şurasının, Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının, həmçinin "Azərbaycan Respublikasının Milli Atlası"nın tərtibi üzrə redaksiya heyətinin üzvü təyin olunmuşdur.

1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin deputatı və 2010-cu ildə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir.

2011-ci ildə Avropa Tibbi-Onkologiya Cəmiyyətinin həqiqi üzvü, UNESCO-nun eksperti, Türkdilli Ölkələrin Parlament Assambleyasının Parlamentlərarası Komissiyasının (TÜRKPA) sədridir. Akademik 450-dən çox elmi əsərin, 19 monoqrafiyanın, 29 dərsliyin müəllifidir. Elmi işlərindən 200-dən çoxu xarici mətbuatda çap olunmuşdur (2015-ci ilə qədər).

1991-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Onkologiya: dərslik /Ə.T.Əmiraslanov, A.Y.Qazıyev; rəyçi: C.Əliyev, B.Ağayev.- Bakı: Təhsil, 2010.- 910 s.

Heydər Əliyev və Azərbaycan tibb elmi, tibb təhsili sistemi /Ə.Əmiraslanov //Respublika.- 2014.- 7 may.- S.6.

Süleymanoğlu, M. Azərbaycan Tibb Universitetinin rektorları: [portret bədii-publisistik oçerklər] /M.Süleymanoğlu; elmi red. R. Ə. Çobanov; məsləhətçi. A. Ə. Namazova .-Bakı: Elm və təhsil, 2010.- 301 s.

100 illiyi

Kərim Kərimov 1917-2003

Hərbi xadim

Kərim Abbasəli oğlu Kərimov 1917-ci il noyabr ayının 14-də Bakıda, neft mühəndisi ailəsində anadan olmuşdur. 1936-cı ildə Azərbaycan Sənaye İnstitutuna daxil olan Kərim Kərimov Azərbaycan radiosuna işə qəbul edilmiş, bir müddət işlədikdən sonra isə Mərdəkan radioqovşağının müdiri təyin olunmuşdur. 1941-ci ildə Azərbaycanda Sənaye İnstitutunu elektrik mexanikası üzrə mühəndis diplomu ilə bitirmiş, istedadı nəzərə alınaraq 1942-ci ildə Dzerjinski adına Artilleriya Akademiyasına göndərilmişdir. Biliyi yoxlandıqdan sonra institutun V kursuna qəbul olunmuş və 1943-cü ildə bu təhsil müəssisəsini topçu-mühəndis ixtisası üzrə bitirmişdir.

Gənc mütəxəssis "Katyuşa" adı ilə tanınan "BM-13" atəş qurğusu üçün mərmilərin zavodlarda istehsalına nəzarət etmək tapşırığı almışdı. Elə o vaxtlardan həyatını raket texnikası ilə bağlamış, 1945-ci ildən SSRİ Müdafiə Nazirliyi sistemində raket texnologiyaları yaradan konstruktor büroları və zavodlarında çalışan Kərim Kərimov bir neçə elmi ixtiranın müəllifi olmuşdur. "Don" radioölçmə sisteminin elmi-texniki göstəriciləri sonradan kosmik sənayedə tətbiq olunmağa başlanmış, bu nailiyyətinə görə Kərim Kərimov 1950-ci ildə ilk dəfə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Baykonur kosmodromunun əsası qoyulan gündən o, Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir. Nəticədə ilk kosmonavt Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdıqdan sonra Kərim Kərimov SSRİ-nin ən yüksək ordeni – "Lenin" ordeni ilə təltif olunmuşdur. 1945-ci ildə böyük mühəndis vəzifəsində çalışmağa başlayan Kərim Kərimov 1965-ci ildə Kosmik Vasitələr İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. 1966-cı ildə K.Kərimova yenidən yüksək etimad göstərilmiş, o, Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri təyin olunmuş, 25 il ərzində bu vəzifədə çalışmışdır. 1991-ci ildə istefaya çıxan Kərim Kərimov ömrünün sonunadək kosmik sahə ilə əlaqəsini kəsməmiş, Uçuşları İdarəetmə Mərkəzinin məsləhətçisi olmuşdur. İstehsalat-təşkilat və elmi fəaliyyətinə görə general-leytenant Kərim Kərimov "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına, iki dəfə "Lenin" ordeninə, "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenlərinə layiq görülmüş və çoxlu medalla təltif olunmuşdur. Kərim Kərimov iki dəfə Dövlət mükafatı almışdır. O, həmçinin Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir.

Kərim Kərimov 2003-cü il mart ayının 29-da Moskvada vəfat etmişdir.

Ə d ə b i y y a t

General-leytenant Kərim Abbasəli oğlu Kərimov //Azərbaycan generalları: Kataloq /Azərbaycan Milli Elmlər Akademiyası; Azərbaycan tarixi Muzeyi.- Bakı, 2005. - S.143-150.

Kərim Kərimov- Azərbaycan diasporunun tanınmış siması //Olaylar.- 2013.- 27-29 aprel.- S.15.

Musaqızı, L. Kosmosun atası: 25 il SSRİ Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri işləyən azərbaycanlı general-leytenant Kərim Kərimovun maraqlı həyat yolu olub /L.Musaqızı //Kaspi.- 2015.- 24 iyul.- S.21.

Mustafa, Ə. Kərim Kərimov - SSRİ-ni kosmos dövləti edən dahi azərbaycanlı /Ə.Mustafa //Zaman.-2013.- 24, 25 aprel; 1, 2, 8 may.- S.12.

80 illiyi

Qərib Calalov 1937

Alim

Qərib İsaq oğlu Calalov 1937-ci il noyabr ayının 28-də Şəki rayonunun Baş Göynük kəndində, ziyalı ailəsində anadan olmuşdur. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsinə qəbul olunmuş, universiteti bitirdikdən sonra Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi vəzifəsinə işə qəbul edilmişdir.

1964-cü ildə institutun qiyabi aspiranturasına daxil olmuş və 1967-ci ildə "Quyuların debitləri müxtəlifliyinin və layın qeyri-bircinsliyinin sulaşma prosesinə təsiri məsələləri" mövzusunda namizədlik dissertasiyası, 1991-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1992-ci ildə professor elmi rütbəsini almışdır.

Q.Calalov 100-dən çox çap olunmuş elmi məqalənin, o cümlədən "Çatlı kollektorların hidroqazodinamikası" və "Fluyüdlərin qərarlaşmamış süzülməsi şəraitində deformasiya olunan layların süzülmə-tutum parametrlərinin identifikasiyasının metodikası" adlı monoqrafiyaların müəllifidir.

2001-ci ildə neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmişdir. 2003-cü ildən indiyə qədər AMEA Geologiya və Geofizika institutunda Layın hidroqazdinamikası şöbəsinin rəhbəri işləyir.

Q.İ.Calalovun bilavasitə iştirakı ilə ilk dəfə olaraq ABŞ-ın "Yunokal" kompaniyası ilə müştərək, çoxtəbəqəli neft yataqlarında süzülmə prosesinin kompleks tədqiqinə uyğun hidrodinamik məsələlər üçün alınmış həllər əsasında göstərilən prosesi EHM-də modelləşdirməyə, sistemi xarakterizə edən parametrlərin qiymətlərini hesablamağa imkan verən proqram paketi yaradılmışdır. O, uzun müddət "AMEA-nın Xəbərləri (Yer elmləri)" jurnalının məsul katibi, Azərbaycan EA-nın Yer Elmləri bölməsinin Redaksiya Nəşriyyat Şurasının və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer elmləri bölməsinin elmi katibi vəzifələrində fəaliyyət göstərmişdir.

180-dən çox elmi məqalənin (bunlardan 30-u xaricdə çap olunmuşdur), 2 monoqrafiyanın müəllifidir. İndiyədək onun rəhbərliyi ilə 8 nəfər elmlər namizədi alimlik dərəcəsinə yiyələnmişdir. Amerika Beynəlxalq Mühəndis Neftçilər Cəmiyyətinin üzvüdür.

1985-ci ildə "Əmək veteranı" medalı ilə təltif edilmiş, 1996-cı ildə Amerikanın Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı" və "Nailiyyətin qızıl diki" titullarına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat

Моделирование процесса обработки призабойной зоны газоконденсатных скважин газами различного состава /М.Т.Абаов, З.Я.Аббасов, Х.А.Фейзуллаев //Изв. НАН Азерб. Сер. «Науки о Земле», 2012.- №2.

Deformasiya olunan kollektorlu məsaməli mühitdə qazlı mayenin süzülməsi zamanı nisbi faza keçiriciliklərinin identifikasiyası /Q.Calalov, A.Ə.Əliyev //AMEA-nın Xəbərləri: Yer elmləri ser.- 2012.- № 2.

Qərib Calalov //Şəki. Alim və ziyalılar.- Bakı, 2002.- S.80.

Aydəmir, Ş. Ömrünün payız fəslini yaşayan alim: "Şöhrət" ordenli Qərib Cəlalov ABŞ-ın məşhur YUNOKAL Kompaniyası ilə müştərək proqram paketini necə hazırladı? /Ş.Aydəmir //Həftə içi.- 2012.- 28 noyabr.- S.6.

50 illiyi

Bakı Metropoliteni işə başlamışdır 1967

Yaxın Şərqdə ilk, SSRİ sıralarında isə 5-ci olan yeraltı sərvətimiz Bakı metropoliteni ilk dəfə 1967-ci il noyabrın 6-da fəalliyətə başlamışdır. Həmin gün "Bakı Soveti" (indiki "İçərişəhər") stansiyasından ilk qatar uzunluğu cəmi 9.56 km olan xətt üzrə işə salınmışdır. Bu xətt üzərində o vaxt "Bakı Soveti"ndən başqa daha 4 stansiya - "26 Bakı komissarı" ("Sahil"), "28 Aprel" ("28 May"), "Gənclik" və "Nəriman Nərimanov" stansiyaları da yerləşirdi.

Bakı Metropoliteninin fəaliyyətdə olan 23 stansiyasından 14-ü, ümumi uzunluğu 31,5 km olan metro xətlərinin 22,3 kilometri məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə istifadəyə verilmişdir.

1970-ci il aprelin 17-də "Ulduz", 1972-ci il noyabrın 6-da "Məşədi Əzizbəyov" ("Koroğlu"), "Avrora" ("Qara Qarayev"), "Neftçilər", 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil", 1985-ci ildə "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi", 1989-cu ildə "Xalqlar dostluğu" və "Əhmədli", 1993-cü ildə "Cəfər Cabbarlı" stansiyaları istismara verilmişdir. 2002-ci ildə "Həzi Aslanov" stansiyasının yeraltı nəqliyyat konveyerinə qoşulması ilə Bakı metropoliteni xətlərinin uzunluğu 31,5 km-ə çatdı.

2006-2009-cu illərdə böyük tikinti erası və metropoliten xətlərinin inkişaf etdirilməsi başlandı və birbirinin ardınca "Nəsimi", "Azadlıq prospekti", "Dərnəgül" stansiyaları, "28 May" stansiyasının ikinci çıxışı sərnişinlərin istifadəsinə verildi. 2008-ci ildə "İçərişəhər" stansiyasının tam yenidən qurulması ilə metropolitendə daha bir istiqamətdə yeniləşmə dövrü başlandı. Bunun ardınca, 2011-ci ildə "Məşədi Əzizbəyov" stansiyası yenidən qurularaq "Koroğlu" adı ilə sərnişinlərin istifadəsinə verildi.

Yeni əsrin ilk onilliyində metropolitenin vaqon parkı daha da genişləndi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə daha 116 yeni vaqon alındı. Bu da öz növbəsində, metropolitendə qatarların hərəkət intervalını azaltmağa, sərnişinlərə xidmət səviyyəsini yüksəltməyə imkan verdi.

2011-ci il martın 18-də Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə metropoliten xətlərinin konseptual inkişaf sxemi təsdiq olunmaqla, perspektiv planın 2011-2015-ci illər üçün Dövlət Proqramı təsdiq edildi. Müvafiq proqrama əsasən 2030-cu ilə qədər metropolitenin 3 yeni xətt də əlavə olunmaqla 53 stansiyasının inşa olunması nəzərdə tutulmuşdur.

Hərəkətin təşkilini və təhlükəsizliyini təmin etmək məqsədilə stansiyalarda və qatarlarda 3 funksiyalı videomüşahidə sistemi yaradılmış, SOS qurğuları quraşdırılmışdır.

Cənab İlham Əliyev hər zaman metropolitençilərin əməyini orden və medallarla, xüsusi diplomlarla və yüksək mükafatlarla qiymətləndirmişdir.

Prezidentin 29 oktyabr 2006-cı il tarixli Sərəncamı ilə hər il 6 noyabr - Metro İşçilərinin Peşə Bayramı Günü kimi qeyd edilir.

Ə d ə b i y y a t

Bakı metropoliteni 35 il: sənədli puplisistika /tərt.: Ə.Babazadə, Ə.Fərəcov, Y.Yusifzadə; red. T.Əhmədov.- Bakı: Turan Nəşrlər Evi : [Maqnat MMM], 2002.- 238, [2] s., [16] v.

XXI əsrin Bakı metropoliteni: [Bakı metropoliteni - 45] /ideya müəl. Tağı Əhmədov.- Bakı: [Metro qəzetinin redaksiyası], 2012.- 604 s.

Heydər Əliyev: "Bakı metropoliteni Azərbaycan xalqının milli sərvətidir": Bakı metropoliteni işçilərinin peşə bayramı qarşısında //Azərbaycan.- 2014.- 24 oktyabr.- S.6.

Bakı Metropoliteni tarixinin ən yüksəlişli dövrünə qədəm qoyub //Respublika.- 2014.- 31 oktyabr.- S.2.

Azərbaycan Bayrağı Günü 2009

Azərbaycan Respublikasının Dövlət bayrağı Dövlət gerbi və Dövlət himni kimi Azərbaycan Respublikasının müstəqilliyini təcəssüm etdirən rəsmi dövlət rəmzidir.

1991-ci il oktaybrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını qəbul etmişdir.

İlk dəfə Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng-islam sivilaziyasına mənsubluğu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkiz guşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə Azərbaycanın dövlət rəmzləri ilə bağlı qanunvericilik bazası formalaşdı, "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" 1998-ci il 13 mart tarixində Sərəncam imzalandı. Bu siyasətin davamı olaraq cənab Prezident İlham Əliyev tərəfindən 2004-cü ildə Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında Qanunun təsdiq edilməsi, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Heraldika Şurasının yaradılması, 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında fərmanın imzalanmasını xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında sərəncamına əsasən hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməyə başlanmışdır. Bununla yanaşı 17 noyabr 2007-ci il tarixli Sərəncama əsasən Dövlət Bayrağı Meydanı yaradılmışdır.

Ə d ə b i y y a t

Dövlət Bayrağı Meydanı.- Bakı: [s.n.], 2010.- 75 s.

Əhmədov, S. Azərbaycan Respublikasının Dövlət Bayrağı /Səbuhi Əhmədov, Vüqar Məmmədov.- Bakı, 2010.- 153 s.

9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür: Üçrəngli bayrağımız dövlətimizin müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin və mənəvi dünyasının rəmzidir //Yeni Azərbaycan.- 2014.- 8 noyabr S. 2.

Ələkbərov, Y. Möhtəşəm bayrağımız: 9 noyabr Dövlət Bayrağı Günüdür /Yusif Ələkbərov //Respublika.- 2013.- 9 noyabr.- S.5.

www.azerbaycanli.org

Konstitusiya Günü 1995

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk Azərbaycan Konstitusiyası hüquqi dövlət, demokratik cəmiyyət və azad bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycanda siyasi sistemin modernləşdirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının sərhədlərinin dəqiq müəyyənləşdirilməsinə, hakimiyyət bölgüsü prinsipinin tam şəkildə bərqərar olmasına imkan yaratmışdır. Eyni zamanda, bu, Azərbaycanın müstəqil dövlətçilik tarixinin ilk Əsas Qanunudur.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiya qəbul etmək mümkün olmamışdı. Sovetlər dönəmində qəbul edilmiş konstitusiyalar isə mahiyyət etibarilə müstəqil dövlətçilik və suveren xalq anlayışlarına uyğun gəlməyən formal sənədlər idi. Sovet dönəmində Azərbaycanda dörd dəfə Əsas Qanun qəbul olunumuşdur. 1921-ci ildə sovet Azərbaycanının ilk Konstitusiyası 1-ci Ümum-azərbaycan sovetlər qurultayında qəbul olunmuşdur. Həmin sənəddə sosialist Azərbaycanının suveren respublika olması, deklarativ şəkildə də olsa, qeyd edilmişdir. 1925-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul olunanda respublika "Zaqfederasiya" deyilən qurama birliyin subyekti idi. 1936-cı ildə SSRİ-də Stalin Konstitusiyasının qəbulu ilə Zaqfederasiya ləğv olundu, müttəfiq respublikaların konstitusiyaları isə daha mürtəce şəkil aldı. 1937-ci ildə qəbul edilən Azərbaycan SSR-in sayca üçüncü konsitusiyasında hər şey Moskvaya tabe olunmuşdu. Hətta Azərbaycan SSR-də dövlət dilinin də rus dili olduğu təsbitlənmişdi. 1978-ci ildə Azərbaycanda sovet dönəminin sonuncu Əsas Qanunu qəbul edildi. O vaxt respublikaya rəhbərlik edən Heydər Əliyevin səyləri ilə həmin Konstitusiyada "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" müddəası əksini tapmışdı.

1995-ci ilin 12 noyabrında qəbul olunmuş Azərbaycan Konstitusiyası beş bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət idi. Konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayırılması idi. Əsas Qanunun təxminən üçdə biri (3-cü fəsil, 48 maddə) məhz bu sahəni əhatə edir.

2002-ci il avqustun 24-də keçirilən ümumxalq referendumunda Konstitusiyaya 24 maddə üzrə 39 dəyişiklik edildi. Yenidən 2009-cu il martın 18-də Konstitusiya ümumxalq səsverməsi ilə islahata məruz qaldı. Əsas Qanunun ümumilikdə 29 maddəsinə əlavə və dəyişikliklər edildi. O cümlədən Konstitusiyanın 101-ci maddəsində bir şəxsin ard-arda iki dəfədən artıq prezident seçilməsini qadağan edən müddəa aradan qaldırıldı.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir, dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir.

Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi - referendum 2016-cı il sentyabrın 26-da keçirilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Konstitusiyası: 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi - referendumla qəbul edilmişdir. 27 noyabr 1995-ci ildən qüvvəyə minmişdir: 24 avqust 2002-ci il tarixdə ümumxalq səsverməsi - referendumla qəbul edilmiş əlavə və dəyişikliklərlə : 18 mart 2009 cu il tarixdə ümumxalq səsverməsi - referendumla qəbul edilmiş əlavə və dəyişikliklərlə: 13 dekabr 2005 -ci il tarixli № 7 - II-IKQD Konstitusiya Qanunu ilə edilmiş əlavələrlə.- Bakı: Qanun, 2014.- 63 s.

Abdullayev, M. Hüquqi dövlətin inkişafının mükəmməl konstitusion islahat modeli: 26 sentyabr Azərbaycanda ümumxalq səsverməsi (referendum) günüdür /M.Abdullayev //Azərbaycan.- 2016.- 9 sentyabr.- S.9.

Cəbrayılov, R. Dünyəvi dəyərlərə xidmət edən Konstitusiya /Rəfael Cəbrayılov //Azərbaycan.-2015.- 12 noyabr.- S. 4; //Xalq qəzeti.- 2015.- 13 noyabr.- S.5.

Nağıyev, F. Heydər Əliyev müstəqil Azərbaycan Respublikası konstitusiyasının banisidir /Fəxrəddin Nağıyev //Dövlət İdarəçiliyi.- 2013. - №2(42).- S.145-150.

Beynəlxalq Gözdən Əlillər Günü 1984

Ümumdünya Səhiyyə Təşkilatının qərarına əsasən 13 noyabr 1984-cü il dünyada Beynəlxalq Gözdən Əlillər Günü kimi qeyd olunur. Bu gün 1745-ci il 13 noyabr tarixində doğulan məşhur fransız pedaqoqu Valentin Hayuinin adı ilə bağlıdır. O, gözdən əlilliyi olan şəxslər üçün məktəb və müəssisələrin əsasını qoymuş, 1784-cü ildə isə öz evində görmə qüsuru olan işçilərin emalatxanası adlı məktəb açmış və ixtira etdiyi şriftlərdən istifadə etməklə onlara təlim keçmişdir. 1829-cu ildə Paris Milli İnstitutunun yetirməsi olan Lui Brayl gözdən əlilliyi olan insanlar üçün bütün dünyada geniş yayılmış universal brayl şriftini hazırlamışdır.

Hazırda dünyada 124 milyon, Azərbaycanda isə 40 minə yaxın gözdən əlilliyi olan şəxslər var. Ölkəmizdəki gözdən əlil olan şəxslərin 30-35%-i 18 yaşa qədər olan şəxslərdir.

1931-ci ildən fəalliyyətə başlayan Gözdən Əlillər Cəmiyyəti yarandığı gündən gözdən əlil insanların rifahını yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir.

Azərbaycan Korlar Cəmiyyətinin (indiki Gözdən Əlillər Cəmiyyətinin) təşəbbüsü ilə 1981-ci il iyunun 1-də Gözdən Əlillər üçün Respublika Kitabxanası həmin cəmiyyətin tabeliyində "Mərkəzi Korlar Kitabxanası" kimi fəaliyyətə başlamışdır. Kitabxananın vəzifəsi I və II qrup gözdən əlillərə kitabxana informasiya xidməti göstərməkdir. Oxucuların tam fiziki imkansız olanlarına səyyar kitabxana xidməti göstərilir. Kitabxananın fondunu brayl kitabları, audiokassetlər, CD-lər və dövri mətbuat təşkil edir. 1994-cü il yanvarın 1-dən etibarən kitabxana Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə keçmiş və "Respublika Korlar Kitabxanası" adlandırılmışdır. 2006-cı ilin mart ayından isə kitabxananın adı yenidən dəyişdirilib "Gözdən Əlillər üçün Respublika Kitabxanası" adlandırılmışdır.

2002-ci ildən Azərbaycan Gözdən Əlillər Cəmiyyətində yaradılan studiyada milli dildə kitab yazılışına, 2006-cı ildən isə yeni yaradılan tipoqrafiyada brayl şrifti ilə Azərbaycan dilində kitabların çapına başlanmışdır.

Heydər Əliyev Fondu, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və BMT-nin İnkişaf Proqramının birgə həyata keçirdikləri layihə əsasında məhdud imkanlı insanların informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının artırılması məqsədilə Gəncə və Naxçıvan şəhərində regional informasiya resurs mərkəzləri yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti tərəfindən hər zaman əlillərə xüsusi diqqət və qayğı göstərilir. Həyat və yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə müavinətləri artırılır, mənzillər tikilib istifadələrinə verilir.

Ə d ə b i y y a t

Fiziki qüsurlu şəxslərə kitabxana xidmətinin təşkili: metodik tövsiyələr tövsiyələr /tərt. ed. L.Əhmədova; ixtisas red. və burax. məsul K.Tahirov; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 27 s.

Məmmədli, Q. Gün işığına həsrət insanlar: 13 noyabr Ümumdünya Gözdən Əlillər Günüdür; Ölkəmizdə Gün işığına həsrət insanlar: 13 noyabr Ümumdünya Gözdən Əlillər Günüdür: 40 minə yaxın gözdən əlil yaşayır /Qənirə Məmmədli //Ekspress.- 2014.- 14 noyabr.- S.9.

Rəşad, R. Azərbaycanda 40 min gözdən əlil var /Rəşid Rəşad //Ekspress.-2015.- 13 noyabr.- S.10.

Beynəlxalq Tolerantlıq Günü 1995

16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür. Tolerantlıq insan hüquqları və vicdanı ilə bağlıdır, insan azadlıqları və hüqüqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır. 1995-ci il noyabrın 16-da keçirilmiş UNESKO Baş Konfransının 28-ci sessiyasında Tolerantlıq prinsiplərinə dair Bəyannamə qəbul olunmuşdu.

"Tolerans" sözü latınca "tolerantia" sözündəndir. Mənası dözüm, qatlanma, səbr, həzm etmə, xoş davranma deməkdir. Dilindən, dinindən və irqi mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının vicdan azadlığı hüququ Konstitusiyamızda və "Dini etiqad azadlığı haqqında" Qanunda parlaq ifadəsini tapmışdır. Konstitusiyamızın 48-ci maddəsinə görə, "hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, həmçinin dini ayin və mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir." Qanunda təsbitini tapmış bu müddəalar ölkəmizdə tolerantlığın inkişafına müsbət təsir göstərirmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. 1995-ci ildə bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. "Mədəniyyət haqqında" Qanunun 11-ci maddəsi ilə dövlət Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə önəm verdiyini bir daha sübut etdi. Eləcə də "Təhsil haqqında" Qanunda hər kəsin öz dilində təhsil almaq hüququ və ayri-seçkiliyə yol verilməməsi məsələsi öz əksini tapdı.

Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Bu gün dünya üçün multikultural dəyərlər nə qədər yeni olsa da, Azərbaycan bu dəyərlər sisteminə - yəni, eyni bir ölkədə yaşayan müxtəlif xalqların hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə min illərdir bəşəriyyətə nümunə göstərir. Azərbaycanın dünya ölkələrinə təqdim etdiyi multikultural model xalqların dostluq və mehriban şəraitdə birgə yaşamasını təmin edən modeldir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir.

Ə d ə b i y y a t

Əliyeva, L. Tolerantlıq bizim həyat tərzimizdir...: [Böyük Britaniya parlamentində keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" adlı konfrans haqqında] /Leyla Əliyeva //Azərbaycan qadını.-2013.- qış.- S.62-63.

Əliyeva, Y. Azərbaycanın tolerantlıq təcrübəsi nümunədir: 16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür /Yeganə Əliyeva //İki sahil.-2015.- 14 noyabr.- S.11.

Sevinc. Bu gün Ümumdünya Tolerantlıq Günüdür: Ekspertlər Azərbaycanda özünəməxsus tolerantlıq nümunəsinin olduğunu bildirirlər /Sevinc //Həftə içi.-2013.- 16-18 noyabr.- S.6.

Milli Dirçəliş Günü 1992

1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

Bu bayram 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda başlayan milli azadlıq hərəkatı ilə bağlıdır. 1988-ci il noyabrın 17-də Ermənistanın torpaq iddiaları, SSRİ rəhbərliyinin Dağlıq Qarabağ bölücülərinə dolayı dəstək verməsi, Azərbaycan hakimiyyətinin ərazi bütövlüyünün müdafiəsində qətiyyətsizliyi əleyhinə Bakıda tələbə hərəkatı fəallarının başladığı etiraz aksiyaları ümummilli mitinqlərlə nəticələndi.

Milyonlarla insan indiki Azadlıq meydanına yığışaraq, Moskvanın anti-Azərbaycan siyasətinə qarşı çıxdı. Dekabrın əvvəllərində mitinqlər SSRİ-nin daxili qoşunları tərəfindən dağıdılsa da, Moskva Azərbaycan xalqının milli azadlıq hərəkatının qarşısını ala bilmədi.

Moskvanın, xüsusən də, SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişi ilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular.

1988-ci il fevralın əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində iğtişaş törətdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb, Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdılar.

1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında sovet dövlətinin xalqımıza qarşı apardığı anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq, Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanmasında əsas amil sayılır.

Azərbaycan xalqı uzun illər arzusunda olduğu müstəqilliyinə qovuşdu. Öz haqqı, azadlığı və torpaqlarına sahib çıxmaq istəyən xalqımız bu müqəddəs ideallar naminə birlik və bərabərliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

Ə d ə b i y y a t

Hacalıyev, E.Müstəqillik uğrunda mübarizənin yüksəliş mərhələsi: 17 noyabr Milli Dirçəliş Günüdür /E.Hacalıyev //Azərbaycan.- 2015.- 17 noyabr.- S.5.

Müstəqilliyin simvollarından biri - 17 noyabr Milli Dirçəliş Günü //Bakı xəbər.- 2015.- 17 noyabr.- S.15.

Seyidzadə, T. Şərəfli tarixin başlanğıcı - Milli Dirçəliş Günü 1988-ci ilin 17 noyabrında Azərbaycan xalqı milli birliyin, əzmini sübut etmək üçün meydanlara axışdı /T.Seyidzadə //Azad Azərbaycan.-2013.- 17 noyabr.- S.2.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/azerbaycan/2015/noyabr/463801.htm

http://anl.az/down/meqale/baki_xeber/2015/noyabr/463539.jpg

Qarakənd faciəsi 1991

Qarakənd faciəsi - 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV prokuroru İqor Aleksandroviç Plavski, DQMB Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnik-leytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, videooperator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov, Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdir.

Üstündən uzun zaman keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Məsələn, nə üçün bu qədər dövlət rəsmisi eyni zamanda bir helikopterdə toplanmışdır? Nə üçün döyüş zonasında mühafizə üçün onu hərbi helikopter müşayiət etməmişdir? Uçuşun dəqiq marşrutunu ermənilər haradan bilmişdir? Yeri gəlmişkən, həmin məlumata yalnız Qarabağda sovet silahlı qüvvələrinin komandanlığı malik olmuşdur. Helikopterin vurulduğu raketin mənbəyi də məlum deyil. Qarabağda o zaman ən çox istifadə edilən silah təyyarəvuran zenit raketləri və eyninövlü "Alazan" raketləri idi. İstilik raketlərindən istifadə edilmirdi. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır.

Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Hazırda isə cinayət işi üzrə istintaq dayandırılmış və buna səbəb terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır.

Ə d ə b i y y a t

Alıoğlu, S. 20 noyabr faciəsindən 23 il ötür. Jurnalist Salman Alıoğlu: "Vertolyot Qarakənd üzərində olarkən ruslarla bizimkilər arasında atışma baş verib" /S.Alıoğlu; müsahibəni apardı Ceyhun Abbasov //525-ci qəzet.- 2014.- 20 noyabr- S.4.

Verdizadə, S. Qarakənd səmasında donan kadr: Azərbaycanın Milli Qəhrəmanı, şəhid operator Fəxrəddin Şahbazovun xatirəsinə /S.Verdizadə //Zaman.- 2015.- 25 iyul.- S.6.

Ümumdünya Uşaq Hüquqları Günü 1954

Gələcəyin qurucuları olan uşaqları haqsızlıqlardan qorumaq bəşəriyyəti daim narahat edən məsələlərdəndir. 20 Noyabr Ümumdünya Uşaq Hüquqları Gününün bayram kimi qeyd olunması da bu zərurətdən doğmuşdur. Ümumdünya Uşaq Hüquqları Gününün qeyd olunması haqqında qərar Beynəlxalq Demokratik Federasiyasının 1949-cu ilin noyabrında keçirilmiş xüsusi sessiyasında qəbul olunmuşdur.Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilk dəfə 1950-ci ilin 1 iyununda qeyd olunmuşdur. BMT bu təşəbbüsü bəyənmiş və uşaqların hüquqlarını, həyat və sağlamlıqlarının öz fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi elan etmişdir. BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya" adlı sənədi uşaqların hansı dövlətdə yaşamasından asılı olmayaraq, onların hüquqlarını tam əhatə edir. 20 Noyabr Ümumdünya Uşaq Hüquqqları Günü 1954-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən 1956-cı ildən bütün dövlətlərə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayramdır. BMT Baş Məclisinin 20 noyabr 1959-cu il tarixli qətnaməsi ilə "Uşaq Hüquqları Bəyannaməsi" elan edilmişdir. Konvensiyanın mühüm prinsipi irqi ayrı-seçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq öz hüquqlarından istifadə etməlidirlər.

1978-ci ildə Polşa hökuməti tərəfindən BMT-nin İnsan Hüquqları Komissiyasına uşaq hüquqları haqqında konvensiya təqdim olunmuşdur. Nəhayət 1989-cu il noyabrın 20-də Uşaq Hüquqları Konvensiyası BMT-nin Baş Məclisinə təqdim edilmiş və qəbul olunmuşdur. Bayram BMT-nin dünya uşaqlarının əmin-amanlığının təmin olunmasına, yaxşılaşdırılmasına, möhkəmləndirilməsinə yönəlib. Bayram olaraq dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da hər il qeyd olunur.

Azərbaycan Respublikası 1992-ci il tarixdə Uşaq Hüquqları haqqında BMT-nin Konvensiyasına, 2002-ci ildə isə konvensiyanın iki əlavə protokoluna qoşulub. 1999-cu ildə ölkəmizdə BMT-nin "Uşaq Hüquqları Haqqında" müddəaları özündə əks etdirən "Uşaq Hüquqları Haqqında" Qanun qəbul edilib.

Ə d ə b i y y a t

Abdullayeva, N. Xarici Dillər Təmayüllü Gimnaziyada Ümumdünya Uşaq Hüquqları Günü ilə bağlı konfrans keçirilmişdir /Nigar Abdullayeva //Palitra.-2013.- 21 noyabr.- S.5.

Əliyeva, İ. Ölkəmizdə uşaq hüquqları yüksək səviyyədə qorunur: 20 Noyabr Ümumdünya Uşaq Hüquqları Günüdür /İradə Əliyeva //Azərbaycan.- 2014.- 20 noyabr.- S.8.

Kərimova, S. Uşaqların müdafiəsi daim diqqət mərkəzindədir /Samirə Kərimova //Azərbaycan müəllimi.- 2010.- 4 iyun.-S.2.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2014/noyabr/403939.htm

http://www.anl.az/down/meqale/respublika/2013/noyabr/336685.htm

25 illiyi

Yeni Azərbaycan Partiyası 1992

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan SSR Ali Soveti tərəfindən Müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş respublikalardan biri kimi Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi – 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Yeni Azərbaycan Partiyası 1992-ci il dekabr ayının 18-də Ədliyyə Nazirliyində qeydiyyata alınmış və Azərbaycanın bütün rayonlarında, qısa müddətdə rayon təşkilatları və özəkləri yaradılmışdır.

Ə d ə b i y y a t

Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası: [konfrans materialları] /Yeni Azərbaycan Partiyasının İcra Katibliyi.-Bakı: Azərnəşr, 2011.-950, [2] s.

Həsənov, Ə. Yeni Azərbaycan Partiyası: (yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri) /Ə.Həsənov, Ə.Mirzəzadə.- Bakı: Azərbaycan, 2002.- 200 s.

Əliyev, Q. YAP ümumxalq partiyasıdır: Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranıb /Q.Əliyev //Azad Azərbaycan.- 2014.- 21 noyabr.- S. 2.

Ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur //Yeni Azərbaycan.- 2014.- 7 may.- S. 6-7.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/.../Yeni_Azərbaycan_P...

www.yap.org.az/www.president.az/articles/6667

Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü 1999

Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 1999-cu il 17 dekabr tarixli qərarına əsasən, hər il noyabr ayının 25-i bütün dünyada Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü elan edilmişdir. Bu, 1961-ci ildə Dominikan Respublikasında baş verən hadisədən qaynaqlanır. Həmin vaxt Dominikan prezidenti Rafael Truxilonun əmri ilə siyasi fəallardan olan 3 tibb bacısı vəhşicəsinə öldürülmüşdür. Qadınların zorakılığa qarşı mübarizə simvolları ağ lentdir.

2000-ci il 31 oktyabr tarixində isə təşkilatın Təhlükəsizlik Şurası qadın, sülh və təhlükəsizlik məsələləri ilə bağlı qətnamə qəbul etmiş, qadın zorakılığına qarşı beynəlxalq mübarizənin gücləndirilməsi Minilliyin Deklarasiyasında əksini tapmışdır. BMT-nin hesabatlarında göstərilir ki, dünyada hər üç qadından biri həyatında, heç olmasa bir dəfə zorakılığa və ya kobud rəftara məruz qalır. Avropa Şurası dövlətlərində aparılmış tədqiqatların nəticələrinə görə, qadınların 45 faizi belə sərt davranışlarla üzləşmiş, 20-25 faizi həyatlarında az da olsa fiziki zorakılığın qurbanı olmuşlar. Avropa Şurasının 2006-cı ildə keçirilən Madrid konfransında isə "Məişət zorakılığı daxil olmaqla, qadınlara qarşı zorakılıqla mübarizə" kampaniyasına başlanılmışdır. Azərbaycan Respublikası da bu kampaniyaya ilk qoşulan ölkələrdən olmuş, Milli Məclis bununla bağlı 2006-cı il dekabrın 21-də xüsusi bəyanatla çıxış etmişdir.

1995-ci ilin noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının ilk Konstitusiyasında qadınların kişilərlə bərabər hüquqlu elan edilmişdir.

Respublikamız 1995-ci ildə BMT-nin "Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv olunması haqqında" Konvensiyasını qəbul etmiş və həmçinin Azərbaycan qadınları IV Ümumdünya qadınlar konfransında iştirak etmişlər.

1998-ci il yanvarın 14-də respublikada gender siyasətinin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Sərəncamı ilə komitənin adı dəyişdirilmiş, "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" kimi yenidən formalaşdırılmışdır. Təşkilat Cənubi Qafqazda gender sahəsində fəaliyyət göstərən yeganə dövlət strukturudur.

2000-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı təsdiq edilmiş (2000-2005-ci illər), 2000-ci il martın 3-də "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalanmış, 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

"Heydər Əliyev Fondu", "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" BMT ilə birlikdə "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə", "Yeni idarəetmədə qadın liderliyi", "Erkən nikahlara yox" şüarı altında "Erkən nikahlar: 50 suala 50 cavab", "Qadınlara qarşı zorakılığa yox deyək" layihələrini uğurla həyata keçirmişdir.

Azərbaycan xalqının adət-ənənələrində qadına çox böyük hörmət və qayğı ilə yanaşılır.

Ə d ə b i y y a t

Qadın hüquqları üzrə bələdçi.- Bakı: Hüquq ədəbiyyatı, 2012.- 199 s.

Qaracayev, C.Y. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası /C.Y.Qaracayev.- Bakı, 2011.- 131 s.

Əliyeva, İ. Ölkəmizdə qadın hüquqlarının müdafiəsinə etibarlı təminat mexanizmləri mövcuddur: 25 Dekabr Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günüdür /İradə Əliyeva //Azərbaycan.-2014.- 25 noyabr.- S.4.

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988

Qlobal informasiya cəmiyyətində informasiya təhlükəsizliyi bütün bəşəriyyəti narahat edən problemə çevrilmişdir. 1988-ci il noyabrın 30-da Stenford Universitetinin tələbəsi Robert Morris tərəfindən yaradılmış "Morris soxulcanı" adlanan ilk kompyuter virusu Amerikanın elmi-tədqiqat institutlarının, hərbi idarələrinin, hətta Pentaqon da daxil olmaqla, ARPANET-in minlərlə qovşağının fəaliyyətini iflic vəziyyətinə saldı. Onun məqsədi isə sırf tədqiqat xarakteri daşıyırdı. Morris yaratdığı proqramın davamlığını təcrübədən keçirmək istəyirdi. İlk kompyuter virusunun vurduğu ziyan isə təxminən 100 milyon dollar dəyərində qiymətləndirilirdi. Bu hadisə bəşəriyyətin kompyuter təhlükəsizliyi haqqında təsəvvürlərini dəyişdi və mütəxəssislər informasiya təhlükəsizliyinin təmini məsələlərinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladılar.

Həmin ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (Computer Security Day) elan etdi. Bu səbəbdən müvafiq beynəlxalq qurumlar informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində intellektual potensialını səfərbər edərək qarşıda duran vəzifələri birgə həll etməyə çalışırlar.

Beynəlxalq təcrübədə qlobal informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə bir sıra proqramlar, layihələr, mexanizmlər işlənib. Onların sırasında 2002-ci ildə BMT tərəfindən qəbul etmiş Qlobal İnformasiya Təhlükəsizliyi Mədəniyyəti haqqında Qətnaməni, 2008-ci ildə Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən qəbul olunmuş Qlobal İnformasiya Təhlükəsizliyi proqramını göstərmək olar. Bununla yanaşı, 2010-cu ildə NATO-nun Lissabon sammitində qəbul olunan Bəyannamənin 40-cı maddəsinə əsasən, 2012-ci ildə Tam Operativ Hazırlıq (Full Operational Capability, FOC) mərkəzləşdirilmiş qurumu yaradılıb. Bu qurum NATO-nun bütün infrastrukturunun informasiya təhlükəsizliyini həyata keçirir. O təhlükəsizliyin əsas tərkib hissələrindən biridir və bu sahədə normativ-hüquqi bazanın formalaşması informasiya cəmiyyəti quruculuğunda prioritet məsələlərdən hesab olunur.

Ölkəmizdə də informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm konseptual sənədlər, normativ-hüquqi aktlar qəbul edilmişdir. Bunlara misal olaraq 2007-ci ildə qəbul olunan "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası"nı, eləcə də, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında", "Elektron sənəd və elektron imza haqqında", "Elektron ticarət haqqında", "İnformasiya əldə etmək haqqında", "Telekommunikasiya haqqında" qanunları və s. göstərmək olar.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" 26 sentyabr 2012-ci il tarixli Fərmanı informasiya resurslarının mühafizəsi, vətəndaşların informasiyalara sərbəst çıxışının təmini məsələləri ilə bağlı əhəmiyyətli işlərin görüldüyü və müvafiq sahədə ölkə başçısının apardığı siyasətin dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Ə d ə b i y y a t

Əliquliyev, R. İnformasiya təhlükəsizliyi insidentləri /R.M.Əliquliyev.- Bakı, 2012.- 218 s.

Васильков, А.В. Безопасность и управление доступом в информационных системах: учебное пособие для студентов образовательных учреждений среднего профессионального образования /Александр Васильевич Васильков.- Москва: Форум, 2010.- 367 с.

www.ikt.az

DEKABR

23 noyabr-
21 dekabr

Oxatan bürcünün Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar.

C.	1
Ş.	2
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	17
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	24
B.E.	25
Ç.A.	26
Ç.	27
C.A.	**28**
C.	29
Ş.	30
B.	31

- *QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)*
- *Beynəlxalq Əlillər Günü (03.12.1992)*
- ***Xankəndinin işğalı günü (28.12.1991)***
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

300 il Molla Pənah Vaqif 1717-1797

Şuşada, evinin yerində Vaqifin heykəli

Şuşada Poeziya Evinin açılışında ulu öndər Heydər Əliyev tədbir iştirakçılarına müraciətlə demişdir: "Əlamətdar haldır ki, Şuşada Vaqifin məqbərəsinin təntənəli surətdə açıldığı gün Poeziya Evi də açılmışdır. Gərək çalışasınız ki, bu ev şəhərin əsl poeziya mərkəzinə çevrilsin..."

Çevrildi də, amma heç kəsin ağlına gəlməzdi ki, on ildən sonra bu dilbər guşələrdə bayquşlar ulayacaq. Faşist ermənilər şuşalıları öz dədə-baba ocaqlarından didərgin salacaqlar. "Çatladı Vaqifin goru Şuşada" naləsini çəkən şair Şahmar Əkbərzadə yazırdı:

Baxır həsrət-həsrət əsir məzarlar,
Orda Vaqif qalıb, Xan qızı qalıb.
Hayla dəliləri Koroğlu kimi,
Pənah xan nərənə tamarzı qalıb.

Yağı tapdağına çevrilən Şuşanın sinəmizə çəkdiyi dərdin şırımları çox dərin və böyükdür. Bakıda Vurğunun ruhu narahat, Şuşada Vaqifin məzarı yandı, Üzeyirin, Bülbülün, Xan qızının heykəlləri güllələndi. Dolama yolları bizsiz qalan, sinəsində yağılar gəzən Şuşa əliyaylıqlı Natəvan olub övladlarını çağırır. Şuşa qızı çağırır. Şuşa bizi çağırır...

DEKABR

2017

Milli ədəbiyyat

Əməkdar mədəniyyət işçisi, yazıçı Əlibəyov Cəmil Adil oğlunun (05.12.1927) anadan olmasının 90 illiyi 347

Şair, tərcüməçi Qənbərov Əhəd Muxtar oğlunun (Əhəd Muxtar) (12.12.1937-23.05.1998) anadan olmasının 80 illiyi

Yazıçı Ağayev Eynulla Xankişi oğlunun (31.12.1907-05.11.1978) anadan olmasının 110 illiyi 348

Şair Abbasov Bəhmən Kalış oğlunun (Bəhmən Vətənoğlu) (31.12.1932-2009) anadan olmasının 85 illiyi

Folklor

Aşıq-şair Nəbiyev Əhməd Mustafa oğlunun (21.12.1932) anadan olmasının 85 illiyi

Dünya ədəbiyyatı

Alman yazıçısı, Nobel mükafatı laureatı Böll Teodor Henrixin (21.12.1917-16.07.1985) anadan olmasının100 illiyi 349

Türk şairi Tofiq Fikrətin (Mehmet Tevfik Fikret) (24.12.1867-19.08.1915) anadan olmasının 150 illiyi 350

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar incəsənət xadimi, boyakar və teatr xadimi Şərifzadə Sadıq Hüseyn oğlunun (05.12.1912-02.01.1986) anadan olmasının 105 illiyi

Əməkdar mühəndis, Əməkdar memar Ələsgərov Abbas Abbas oğlunun (13.12.1937) anadan olmasının 80 illiyi

Akademik, Xalq rəssamı, heykəltəraş Eldarov Ömər Həsən oğlunun (21.12.1927) anadan olmasının 90 illiyi 351

Əməkdar rəssam Babayev Rasim Hənifə oğlunun (31.12.1927-24.04.2007) anadan olmasının 90 illiyi 352

Musiqi.Opera.Balet

Xalq artisti Hüseynov Elxan Ağahüseyn oğlunun (08.12.1942) anadan olmasının 75 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Rzayeva Ağabacı İsmayıl qızının (15.12.1912-04.07.1975) anadan olmasının 105 illiyi 353

Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Kazımov (Kazımi) Oqtay Məmməd oğlunun (27.12.1932-09.08.2010) anadan olmasının 85 illiyi 354
SSRİ Xalq artisti, professor Bədəlbəyli Fərhad Şəmsi oğlunun (27.12.1947) anadan olmasının 70 illiyi 355
Xalq artisti, bəstəkar Məmmədov Nəriman Həbib oğlunun (28.12.1927-06.04.2015) anadan olmasının 90 illiyi 356
Xalq artisti Babayev Rauf Yusif oğlunun (30.12.1937) anadan olmasının 80 illiyi 357
Əməkdar artist, opera müğənnisi Mehdiyev Firudin Mehdi oğlunun (31.12.1927-01.02.2006) anadan olmasının 90 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Əliyar Yusif oğlunun (14.12.1957-03.10.1992) anadan olmasının 60 illiyi 358

Siyasət.Hərbi iş

Dövlət xadimi, publisist Ağamalıoğlu Səməd ağa Həsən oğlunun (27.12.1867-06.10.1930) anadan olmasının 150 illiyi 359

Tarix

Akademik Quliyev Cəmil Bahadur oğlunun (16.12.1927-27.12.2010) anadan olmasının 90 illiyi 360
AMEA-nın müxbir üzvü, tarixçi-etnoqraf Abbasov Arif Akim oğlunun (22.12.1937) anadan olmasının 80 illiyi 361

Fəlsəfə.İqtisadiyyat.Hüquq

Akademik Əliyev Həsən Əlirza oğlunun (15.12.1907-02.02.1993) anadan olmasının 110 illiyi 362

Mədəniyyət.Maarif.Təhsil

Əməkdar mədəniyyət işçisi, ədəbiyyatşünas Seyidov İmran Sultan oğlunun (16.12.1922-10.05.2001) anadan olmasının 95 illiyi 363
Filologiya elmləri doktoru, professor, tənqidçi, ədəbiyyatşünas Əlimirzəyev Xalid Əlimirzə oğlunun (16.12.1932-30.01.2016) anadan olmasının 85 illiyi 364
Filologiya elmlər doktoru, professor, Əməkdar müəllim, tənqidçi Əbilov İmamverdi Xankişi oğlunun (19.12.1927-09.04.2016) anadan olmasının 90 illiyi 365
Əməkdar elm xadimi, ədəbiyyatşünas Məmmədov Kamran Dadaş oğlunun (21.12.1922-06.04.1989) anadan olmasının 95 illiyi
Əməkdar mədəniyyət işçisi, ictimai xadim Axundov Şəmsəddin Əşrəf oğlunun (03.12.1932) anadan olmasının 85 illiyi 366
Ədəbiyyatşünas, mətnşünas, filologiya elmləri doktoru, professor Səfərli Əlyar Qurbanəli oğlunun (28.12.1937) anadan olmasının 80 illiyi 367

Coğrafiya.Geologiya

AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya doktoru, professor Məmmədov Xudu Surxay oğlunun (14.12.1927-15.10.1988) anadan olmasının 90 illiyi 368

Riyaziyyat.Fizika.Astronomiya

Akademik Hacıyev Akif Cəfər oğlunun (08.12.1937-03.02.2015) anadan olmasının 80 illiyi 369



Kimya.Biologiya.Tibb

Azərbaycan infeksionisti İmaməliyeva Gülzar Manaf qızının (05.12.1907-1997) anadan olmasının 110 illiyi
Tibb elmləri doktoru, professor, Əməkdar həkim və Əməkdar müəllim Baxşıyev Bahadur Ələkbər oğlunun (12.12.1932) anadan olmasının 85 illiyi
Tibb elmləri doktoru, professor Hüseynova Tamara Hacıbaba qızının (14.12.1937) anadan olmasının 80 illiyi
Əməkdar elm xadimi, zooloq Rüstəmov Ənvər Göyüş oğlunun (17.12.1917-2005) anadan olmasının 100 illiyi
Əməkdar elm xadimi, həkim Qədirova Törə Qədir qızının (31.12.1927-04.08.1997) anadan olmasının 90 illiyi

Texnika.Mühəndis işi

SSRİ-nin fəxri energetiki Salmanov Sarvan Qarakişi oğlunun (21.12.1927-2003) anadan olmasının 90 illiyi
SSRİ-nin Əməkdar ixtiraçısı Süleymanova Fatma Həmzə qızının (23.12.1912-02.12.1978) anadan olmasının 105 illiyi
Kimya elmləri doktoru Sadıqzadə Sadıq İsmayıl oğlunun (29.12.1917-03.11.1988) anadan olmasının 100 illiyi

Tarixdə bu gün

Ümumdünya QİÇS-lə Mübarizə Günü (01.12.1996) 370
Beynəlxalq Əlillər Günü (03.12.1992) 371
Beynəlxalq Könüllülər Günü (05.12.1985)
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı (06.12.2006)
Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti Mərkəzi İcraiyyə Komitəsi (DQMV MİK) seçilmişdir (07.12.1922)
Nobel Mükafatı Təqdimatı Günü (10.12.1901)
Sosialist Federativ Respublikasının yaradıldığı elan olunmuşdur (10.12.1922)
Beynəlxalq Dağlar Günü (11.12.2003)
Beynəlxalq İnsan Hüquqları Günü (10.12.1950) 372
Ermənistanın işğalçı qoşunları tərəfindən Qubadlı və Zəngilan rayonlarının Şayıflı, Seyidlər, Ərkənd, Bərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbar, Yuxarı Qayalı kəndlərinin işğalının 25-ci ildönümü (10-12.12.1992)

Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakı ilə I Zaqafqaziya Sovetlər Qurultayı işə başlamış, qurultayda Zaqafqaziya Sovet Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (12 dekabr)
Ümummilli lider Heydər Əliyev "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalayıb (18.12.1997)
M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki BSU) fəaliyyətə başlamışdır (20.12.1952)
Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqını yaranmış və Azərbaycan SSR bu ittifaqa daxil olmuşdur (22.12.1922)
SSRİ Nazirlər Soveti "Ermənistanın SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul etmişdir (23.12.1947)
"Azad Azərbaycan" televiziyası fəaliyyətə başlamışdır (25.12.2002)
Xankəndinin işğalı günü (28.12.1991)
Beynəlxalq Kino Günü (28.12.1895) 373
SSRİ yaradılmış, Azərbaycanın formal müstəqilliyinə tamamilə son qoyulmuşdur (30.12.1922)
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991) 374

90 illiyi

Cəmil Əlibəyov 1927-2014

Yazıçı

Cəmil Ədil (Adil) oğlu Əlibəyov 1927-ci il dekabr ayının 5-də Füzuli rayonunun Dədəli kəndində anadan olmuşdur.

İlk təhsilini kəndlərindəki məktəbdə aldıqdan sonra 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinə daxil olmuşdur. Beşinci kursda oxuyarkən dövlətə qarşı ittihamda günahlandırılaraq, institutdan xaric edilmişdir. Günahsız olduğu sübut edildikdən sonra tarix fakültəsinə qəbul edilmiş, 1949-cu ildə təhsilini tamamlamışdır.

Əmək fəaliyyətinə 1949-cu ildə "Azərbaycan gəncləri" qəzetində başlamışdır. Ömrünün iyirmi ilini həmin qəzetdə ədəbi işçi, şöbə müdiri, məsul katib, baş redaktor kimi məsul vəzifələrdə çalışmışdır. Azərbaycan Komsomolu Mərkəzi Komitəsi bürosunun üzvü, Gənclərin Ümumittifaq və Respublika təşkilatlarının qurultaylarına nümayəndə seçilmişdir.

1970-ci ildə Respublika Radio və Televiziya Verilişləri Komitəsinə sədr müavini vəzifəsinə təyin olunmuşdur. "Bulaq" radio verilişinə görə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

C.Əlibəyov 1940-cı ildən 1984-cü ilədək "Azərbaycanfilm" kinostudiyasının direktoru işləmiş, onun rəhbərliyi dövründə istehsal olunmuş "Dədə Qorqud", "Babək", "Dərviş Parisi partladır", "Tütək səsi", "İstintaq", "Ad günü", "Qayınana", "Papaq" filmləri ümumittifaq, beynəlxalq və respublika mükafatlarına layiq görülmüş və kinomuzun qızıl fonduna daxil edilmişdir.

1984-1988-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor və direktor, 1988-1990-cı illərdə "Kommunist" ("Xalq qəzeti") qəzetində baş redaktor, 1990-cı ildə "Yazıçı" nəşriyyatında təsisçi direktor vəzifələrində çalışmışdır.

"Sınaq", "Mənim analı dünyam", "Həyatın özü", "Dözümlü məhəbbət" romanları, "Qayaların göz yaşı" povesti Moskvada rus dilinə tərcümə olunmuş, "Dünyanın o biri ucu", "İlk məhəbbət" romanları və "Özümü axtarıram", "Anam Arazım mənim" və s. povestləri, ömrünün son illərində isə "Zəmanələrlə üz-üzə" adlı irihəcmli bioqrafik əsəri işıq üzü görmüşdür. "Gülüstanda qətl" pyesi Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

Cəmil Əlibəyov həm də tərcüməçi kimi geniş fəaliyyət göstərmiş, Çingiz Aytmatovun "İlk qələm", "Ana tarla", "Ağ gəmi" povestlərini, J.Sandın "İndiana", S.Solovyovun "Sənin haqqında kitab", Albert Lixanovun "Həyat haqqında danışmaq istəyirəm" adlı əsərlərini dilimizə tərcümə etmişdir.

Ümumiyyətlə, 40-dan çox bədii əsərin müəllifidir. C.Əlibəyov qələm və fotoaparatı ilə dörd qitənin ölkələrini səyahət etmiş, ABŞ-dan, Türkiyədən, Rusiyadan (Sibirdən), Avstriyadan, İrandan və b. ölkələrdən yazdığı səfər oçerkləri maraqla qarşılanmışdır.

C.Əlibəyov yüksək hökumət mükafatlarına – orden, medal, fərmanlara layiq görülmüşdür. Əmək təqaüdçüsü olmuşdur.

Görkəmli yazıçı Cəmil Əlibəyov 2014-cü il oktyabr ayının 27-də vəfat etmişdir.

Ədəbiyyat

Sınaq: roman /C.Əlibəyov; red. S.Məmmədova.-Bakı: Gənclik, 1970.- 283 s.

Sand, J. İndiana: roman /Jorj Sand; tərc. ed.: C.Əlibəyov, Z.Babayev.- Bakı: Qanun : Əli və Nino, 2014.- 294 s.

Zəmanələrlə üz-üzə /C.Əlibəyov.- Bakı: Nurlan, 2008.- 480 s.

Mənim həyatım- "Azərbaycan gəncləri": "Zəmanələrlə üz-üzə" kitabından /C.Əlibəyov //Ədəbiyyat qəzeti.- 2012.- 7 dekabr.- S.4.

Cəmil Əlibəyov - 85 //Ədəbiyyat.- 2012.- 7 dekabr.- S.4.

Poladova, M. Cəmil Əlibəyov Universiteti /M.Poladova //525-ci qəzet.- 2014.- 7 noyabr.-S.8

İnternetdə

http://www.anl.az/down/meqale/edebiyyat/2012/dekabr/282490.htm

110 illiyi

Eynulla Ağayev 1907-1978

Nasir

Eynulla Xankişi oğlu Ağayev 1907-ci il dekabr ayının 31-də Bakının Ramana kəndində, neftçi ailəsində doğulmuşdur. İbtidai təhsilini kənd məktəbində almışdır.

1926-cı ildə Sabir adına 23 saylı ikinci dərəcəli məktəbdə təhsilini davam etdirmişdir. Suraxanı neft mədənlərində fəhləlik etmişdir.

Hərbi xidmət illərində Nuxa (indiki Şəki) və Dağlıq Qarabağda cinayətkarlara qarşı mübarizədə iştirak etmişdir.

Hələ orta məktəbdə oxuduğu vaxtdan ədəbiyyata güclü meyl göstərmiş, ilk şeirlərini, məqalə və qeydlərini "Gənc işçi", "Kommunist", "Yeni yol" qəzeti redaksiyalarına göndərmişdir. "Balıqçı Kamil" adlı ilk hekayəsi 1928-ci ildə Tiflisdə buraxılan "Qızıl şəfəq" jurnalının 12-ci sayında çap olunmuşdur. Bundan sonra o, ədəbi dərnəklərdə müntəzəm iştirak etmiş, 1931-ci ilin noyabrında "Kommunist" qəzetinin Partiya şöbəsinə ədəbi işçi qəbul olunmuşdur. Eyni zamanda Pedaqoji İnstitutda təhsilini qiyabi davam etdirmiş, 1935-ci ildə institutu bitirdikdən sonra "Yeni yol" qəzetinin Ədəbiyyat və incəsənət şöbəsində müdir, sonra isə məsul katib işləmişdir.

II Dünya müharibəsinin ilk günlərindən səfərbərliyə alınmışdır. Kerç döyüşlərində ağır yaralanmış, müalicədən sonra yenidən ön cəbhəyə qayıtmışdır. 416-cı Taqanroq diviziyasının tərkibində ağır döyüş yolu keçmiş, Mozdok, Kuban, Krım, Qərbi Ukrayna, Polşa, Çexoslovakiya, Macarıstan uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmış, Krakovda hərbi xəstəxanada müalicədən sonra, 1946-cı ilin martında ordudan tərxis olunmuşdur.

1946-cı ilin mayından "Azərbaycan pioneri" qəzetinin məsul redaktoru olmuş, bütün yaradıcılığını gənc nəslin yetişdiriliməsinə həsr etmişdir.

"Qırmızı ulduz", "Şərəf nişanı", "Hərbi xidmətə görə", "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər İkinci Dünya müharibəsinin qələbəsi uğrunda" ordenlərlə və müxtəlif medallarla təltif olunmuşdur.

Eynulla Ağayev 1978-ci il noyabr ayının 5-də Bakıda vəfat etmişdir.

Bakı şəhər orta məktəblərindən biri onun adını daşıyır.

Ə d ə b i y y a t

Dağlarda şimşək çaxır (povest) /E.Ağayev.- Bakı: Gənclik, 1967.- 202 s.

Yağış mahnısı /E.Ağayev.- Bakı: Gənclik, 1968.- 174 s.

Eynulla Ağayev //Əhmədov T. Azərbaycan Yazıçıları (XX-XXI yüzilliklərdə).- Bakı, 2011.- S.212.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Eynulla_A%C4%9Fayev

100 illiyi

Teodor Haynrix Böll 1917-1985

Alman yazıçısı



Haynrix Teodor Böll 1917-ci il dekabr ayının 21-də Reyn çayı sahilində yerləşən Köln şəhərində dünyaya gəlmişdir.

1928-ci ildən 1937-ci ilə qədər bu şəhərdəki Kayzer Vilhelm gimnaziyasında oxumuş, 1937-ci ildən bir müddət Kölndəki kitab mağazasında işləmiş, atasının emalatxanasında ona kömək etmiş, 1939-cu ildə Köln Universitetinin germanistika və qədim filologiya fakültəsində təhsil almağa başlamışdır. Lakin İkinci Dünya müharibəsi onun bütün planlarını pozmuşdur. O dövrdə hərbi xidmətə çağırılan Böll əvvəlcə Polşa, sonra da Fransa cəbhələrində vuruşmuş, yaralandığı üçün bir il Almaniya hospitallarında müalicə olunduqdan sonra 1943-cü ildə Rusiya cəbhəsinə göndərilmişdir. Krımda, Odessada, Rumıniyada döyüşmüş, yaralanmış hospitalda müalicə olunduqdan sonra saxta sənəd düzəldib bir daha cəbhəyə qayıtmamışdır.

1945-1947-ci illər arasında 10 müxtəlif jurnalda 60-a yaxın hekayəsi çap olunmuşdur. Böll bədii yaradıcılığa romanla başlamışdır. İlk irihəcmli "Qatar vaxtında gəldi" əsəri 1949-cu ildə çap olunsa da, bir yazıçı kimi ilk uğurunu 1951-ci ildə "47-lər dərnəyi" adlı əsəri mükafata layiq görüldükdən sonra qazanmışdır.

1960-1970-ci illərdə Böll bir çox dünya şöhrətli romanların müəllifi kimi tanınsa da, hekayə janrı onun üçün "ən çox sevdiyi, ən cazibədar nəsr forması" kimi qalmış və bu janrda "Xəbər", "Yolçu yolun düşsə Spara...", "Körpüdə", "Mənim qəmli sifətim", "Çörəyin dadı" və bu kimi gözəl nümunələr yaratmışdır.

Böllün əsərləri 50-ci illərin ortalarından başlayaraq müxtəlif dillərə tərcümə olunmağa başlamışdır. "Saat onun yarısında bilyard oyunu" (1959), "Bir təlxəyin düşüncələri" (1963), "Xanımla kollektiv portret" (1971) romanları ona dünya şöhrəti qazandırmışdır.

Böllün roman və povestlərində sadə almanların müharibədən əvvəl və sonrakı illərdə ağır həyatı, faşizmə, militarizmə, burjua cəmiyyətinə, dini riyakarlığa nifrət əks olunmuşdur.

1972-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı laureatı olmuşdur.

Haynrix Teodor Böll 1985-ci ildə vəfat etmiş, Köln yaxınlığında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /H.Böll; tərc. ed. və ön söz müəll. V.Hacıyev; rus dilindən tərc. ed. Ə.Əylisli; alman dil. tərc. ed.: V.Hacıyev; C.Qurbanlı; A.Nəbi; red. A.Dadaşov; bədii tərtibat vı dizaynın müəl. T.Qorçu.- Bakı: Şərq-Qərb, 2009.- 599 s.

Hekayələr /H.Böll; alman dilindən tərc. ed. V.Hacıyev.- Bakı: Qanun, 2014.- 171 s.

Heynrix Böll və Paşa Araz: Niyə məhz Heynrix Böll? //Paritet.- 2011.- 26-27 aprel.- S.14.

150 illiyi

Tofiq Fikrət 1867-1915

Türk şairi

Tofiq Fikrət (Mehmet Tevfik Biren) 1867-ci il dekabr ayının 24-də İstanbulun Kadırqa səmtində dünyaya gəlmişdir.

Orta təhsilini Mahmudiyyə Rüştiyəsində, sonra da Qalatasaray Sultaniyəsində almışdır. 1888-ci ildə Galatasarayı bitirdikdən sonra Xarici İşlər Nazirliyinin İnformasiya dairəsində katib olaraq işə qəbul edilmişdir. Daha sonra müxətlif yerlərdə məmur kimi çalışmış, əlavə olaraq Ticarət Məktəbi Alisində xətt ve fransız dili müəllimi işləmişdir. 1891-ci ildə Mirsad dərgisinin təşkil etdiyi şeir yarışmasında birinci olduğu üçün ədəbiyyat sahəsində diqqəti cəlb etmişdi. 1892-ci ildə Qalatasaray Sultaniyəsinə türk dili müəllimi kimi işə qəbul edilmiş, 1894-cü ildən Hüseyn Kazım Kadri (1870-1934) və Əli Əkrəm Bolayırla (1867-1937) birlikdə "Məlumat" dərgisi (1894-1895) çıxarmağa başlamışlar. Rəcaizadə Əkrəm onu "Sərvəti-Fünun" dərgisinin sahibi Əhməd İhsan ilə tanış edərək elmi jurnalı ədəbiyyat jurnalına çevirməyə razı saldıqdan sonra onlar jurnalın 256-cı nömrəsindən sonra ədəbiyyat jurnalı kimi dərc etməyə başladılar (1895), lakin 1900-cü ildə Əhməd İhsanla dərginin idarə edilməsində fikir ayrılıqlarına görə dərgidən ayrılmışdır. 1895-ci ildə dövlət büdcəsi ilə əlaqədar olaraq əmək haqlarını yüzdə on azaldılmasına etiraz olaraq Qalatasaraydakı vəzifəsindən istefa etmişdir. 1896-cı ildən "Sərvəti-Fünun" dərgisində redaktor işləmiş, daha sonra Amerika müəssisəsi olan Robert Kollecinə Osmanlı-Türk dili müəllimi kimi dəvət almış və vəfat edənə qədər burada çalışmışdır. Sultan Əbdülhəmidin idarəçiliyi dönəmində T.Fikrətin bir dostunun evində II Əbdülhəmiddən bəhs edən şeirini oxuduqdan sonra gözaltına alınmış və evində aparılan axtarış nəticəsində həmin şeir əldə edilmədiyi üçün azad edilmişdir. Lakin bundan sonra bir bəhanə ilə yenidən həbs edilmişdir. 1901-1905-ci illərdə Rumeli hisarında Robert Kollecinin yamacında öz Aşiyan adlı evini tikdirmişdir. Bu gün həmin ev Tevfik Fikrətin ev-muzeyi kimi fəaliyyət göstərir. Bu dönəmdə o, hər kəsdən kənara çəkilərək savaş ruhlu əsərlər yaratmışdır. İlk nəşr olunmuş "Rübabı şikəstə" (Qırıq saz), "Sis", "Sabah Olursa", "Bir Lahza-i Taahhur" və digər kitabları, əsərləri oxucular tərəfindən sevilərək oxunmuş və oxunmaqdadır.

Azərbaycan mətbuatında ilk dəfə 1906-cı ildə "Füyuzat" jurnalının ikinci nömrəsinin iyirmi səkkiz – otuzuncu səhifələrində Tofik Fikrətdən bəhs edən "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı yazı və onun "Köyün məzarlığı", "Ramazan sədəqəsi", "Şəhidlikdə" adlı şeirləri dərc edilmişdir.

Tofiq Fikrət 1915-ci ildə vəfat etmişdir. 1945-ci ildə evi muzey kimi təsis edildikdən sonra, 1961-ci ildə məzarı oraya köçürülmüşdür.

Ədəbiyyat

Seçilmiş əsərləri /T.Fikrət.- Bakı: Şərq-Qərb, 2006.- 176 s. Dünya ədəbiyyatı.

Seyidzadə, Ə. Tofiq Fikrət və həyatına dair kitabiyyat.- [S.l.]: [s.n.], 1923.- 112 s.

Qəribli, İ. Məhəmməd Hadi Azərbaycanda Tofiq Fikrət irsinin ilk araşdırıcısı kimi: Axtarışlar /İ.Qəribli //Ədəbiyyat qəzeti.- 2010.- 30 aprel.- S.6.

Tofiq Fikrət //Cəlil Məmmədquluzadə Ensiklopediyası.- Bakı, 2008.- S.283.

İnternetdə

https://az.wikipedia.org/wiki/Tofiq_Fikrət

www.azadliq.org/a/25249413.html

90 illiyi

Ömər Eldarov 1927

Akademik

Ömər Həsən oğlu Eldarov 1927-ci il dekabr ayının 21-də Dağıstan Muxtar Respublikasının Dərbənd şəhərində anadan olmuşdur.

1942-1945-ci illərdə Azərbaycan Rəssamlıq Məktəbinin heykəltəraşlıq bölməsində təhsil aldıqdan sonra, 1951-ci ildə Sankt-Peterburqda İ.Y.Repin adına Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq fakültəsini bitirmişdir.

1958-1968-ci illərdə Rəssamlar İttifaqının Katibliyinə üzv seçilmiş, 1970-ci ildən SSRİ Rəssamlıq Akademiyasının heykəltəraşlıq üzrə Bakıdakı yaradıcılıq emalatxanasının rəhbəri təyin edilmişdir.

1969-1973-cü illərdə Bakı Sovetinin deputatı seçilmiş və burada mədəni-maarif işi üzrə komissiyanın rəhbəri vəzifəsində çalışmışdır.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur.

Bakıda bəstəkar Üzeyir Hacıbəylinin (1955, Bakı), şairə X.Natəvanın (1960), şair M.Füzulinin (1962), Zərdabda maarifçi H.Zərdabinin (1973), Sevastopolda "77-ci Azərbaycanın diviziyasına" (1975), rəssam Səttar Bəhlulzadənin (1974 , Bakı), "Sapun dağı" (1978), Düşənbədə İbn Sinanın (1980), bəstəkar və caz musiqiçisi Vaqif Mustafazadənin (1984 il, Bakı), bəstəkar Fikrət Əmirovun (1988, Bakı), akademik Həsən Əliyevin (1987, Naxçıvanda, 1988, Bakı) "Elegiya" abidəsinin (1989), dirijor Niyazinin (1989, Bakı), yazıçı Süleyman Rəhimovun (1991, Bakı), yazıçı-dramaturq Hüseyn Cavidin (1993), Azərbaycanın görkəmli oftalmoloq-alimi Zərifə xanım Əliyevanın (1995, Bakı), ümummilli lider Heydər Əliyevin (Naxçıvan, 1987), şərqşünas-tarixçi, akademik Ziya Bünyadovun (2000, Bakı), Qarsdakı heykəllərin (2001) müəllifidir.

Akademik Ömər Eldarov 1959-cu ildə keçmiş SSRİ-nin "Şərəf nişanı", 1962-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1982-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, elə həmin ildə "Xalq rəssamı" adına layiq görülmüşdür. 1986-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1997-ci ildə isə müstəqil Azərbaycanın ən ali mükafatı - "İstiqlal" ordenləri, 2002-ci ildə Rusiya Federasiyasının "Dostoynomu" medalı (2002) ilə təltif olunmuşdur. "Birlik ulduzları - 2014" mükafatının laureatı olmuş, 18 aprel 2014-cü ildə Azərbaycan mədəniyyətinin və monumental heykəltəraşlıq sənətinin inkişafındakı xidmətlərinə görə Üzeyir Hacıbəyli adına mükafata layiq görülmüşdür.

Ömər Eldarov Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektorudur.

Ə d ə b i y y a t

Ömər Eldarov [İzomaterial]: heykəltaraşlıq /lay. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. G.Qacar; ing. dilinə tərc.: S.Geoghegan, Ə.Məlikova; fotolar Ə.Ağasiyev; baş dizayner İ.Eldarova.- Bakı: Şərq-Qərb, 2013.- 96 s.

"Əsl yaradıcılıq standartlıqdan uzaq olmalıdır" /Ö.Eldarov; müsahibəni apardı S.Soltanlı //Mədəniyyət.-2016.- 13 aprel.- S. 10.

Ulu öndər mədəniyyət xadimlərinin də əsl hamisi idi /Ö.Eldarov //Xalq qəzeti.- 2015.- 12 dekabr.- S.7.

Eldarov Ömər Həsən oğlu //Azərbaycan Sovet Ensiklopediyası.- Bakı, 1979.- C.3.- S.598.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/xalqqazeti/2015/dekabr/467888.htm

https://az.wikipedia.org/i/%C3%96m%C9%99r_Eldarov

http://azerbaijans.com/content_965_az.html

https://777word.wordpress.com/2010/11/05/om%C9%99r-eldarov/#more-36

90 illiyi

Rasim Babayev 1927-2007

Rəssam

Rasim Hənifə oğlu Babayev 1927-ci il dekabr ayının 31-də Bakıda anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1945-1949-cu illərdə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində, 1949-1955-ci illərdə Surikov adına Moskva Rəssamlıq İnstitutunda təhsil almışdır. Azərbaycan rəngkarlığının və qrafikasının inkişafında xidmətləri olmuşdur.

Müxtəlif janr və mövzularda, xüsusən boyakarlıq və dəzgah qrafikası sahəsində yaratdığı rəsm əsərləri ilə tanınmışdır. Onun yaratdığı tablolar özünün monumental kompozisiyası, lakonik xətti və rəng zənginliyi ilə seçilir. Rəssam həmçinin kitab təbliği və illüstrasiyası sahəsində uğurla fəaliyyət göstərmişdir. S.S.Axundovun "Qorxulu nağıllar" (1958), M.Füzulinin "Meyvələrin bəhsi" (1960), A.Şaiqin "Tıq-tıq xanım" (1961), "Cırtdan" (1963) və s. belə əsərlərindəndir. "Əjdaha ili", "Yuxu", "Sindibadın gəmiləri" seriyaları, "Qaçqınlar" silsiləsindən olan əsərləri isə R.Babayevin 1980-1990-cı illərə dair yarardıcılığını çevrələyir. Onun həmçinin "Sumqayıt", "Daşkəsən" və "Abşeron" linoqravüra silsilələrinin, "Yer" və "Göy", "Dağlar", "Mənim bağım", "Neftdaşıyan" boyakarlıq əsərlərinin, "Ağaclar", "Qobustan", "Xınalıq kəndi" linoqravüraları, həmçinin "Qız", "Rəssam S.Bəhlulzadə" və s. portretlərinin müəllifi olmuşdur.

1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində Azərbaycan xalqının üzləşdiyi faciələri əks etdirən tabloları dərin emosional təsir qüvvəsi ilə seçilir. Bakıda 20 Yanvar faciəsini (1990) əks etdirən "Qanlı general" tablosunu yaratmışdır. R.Babayev "Müharibə olmasın", "Berlin-63", "Ölüm düşərgəsi", "Qardaş xatirəsi" və s. əsərlərində müharibə əleyhinə olan hisslərini tərənnüm etmişdir.

Rasim Babayevin çəkdiyi tablolar İngiltərə, Kanada, Türkiyə, Finlandiya və dünyanın bir sıra ölkələrində nümayış etdirilmişdir. Onun yaradıcılığı nəinki ölkəmizdə, ölkəmizin hüdudlarında da maraqla qarşılanmışdır. Əsərlərindən bəziləri Rusiyanın Tretyakov qalereyasında, Müasir Sənət Muzeyi və Şərq Xalqları İncəsənəti Muzeyində, ABŞ-ın Zummerli Muzeyində, Fransanın "Qaleri de Frans" qalereyasında saxlanılır.

Rəssam 1964-cü ildə Azərbaycan SSR-in "Əməkdar rəssam", 1988-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 1991-ci ildə Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Rasim Babayev 2007-ci il aprel ayının 22-də Bakı şəhərində vəfat etmişdir.

Vəfatından sonra da onun yaradıcılığı qürurla sərgilənməkdədir. 2014-cü il oktyabrın 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə Sankt-Peterburqda Rus Muzeyinin Mərmər Sarayında, həmin ilin aprel ayının 15-də Kazan Ermitajında "Həqiqət axtarışında" adlı əsərlərinin sərgiləri açılmışdır.

Ədəbiyyat

Babayev Rasim //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2010.- S.586.

Rasim Hənifə oğlu Babayev //Xalq qəzeti.- 2007.- 25 aprel.- S.7.

İnternetdə

http://az-kaz.com/index.php/528-kazanda-ressam-rasim-babayevin-heqiqet-axtarishinda-adli-sergisi-achilib.html

105 illiyi

Ağabacı Rzayeva 1912-1975

Bəstəkar

Ağabacı İsmayıl qızı Rzayeva 1912-ci il dekabr ayının 15-də Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1927-ci ildə Pedaqoji Texnikuma daxil olmuş, eyni zananda Əbilov adına kluba yazılaraq tar çalmağı öyrənmişdir. Texnikumu bitirdikdən sonra Bakının Saray kəndində müəllim işləmiş, bir müddətdən sonra Musiqi Texnikumuna daxil olmuşdur. Musiqi Texnikumunda Üzeyir Hacıbəylidən dərs almış, 1935-ci ildə dahi bəstəkarın təşkil etdiyi Azərbaycanda ilk dəfə notla çalan Xalq Çalğı Alətləri Orkestrinə qəbul edilmişdir. Bununla da Ağabacı Rzayeva tam professional bir musiqiçi kimi ömrünü sevdiyi sənətə həsr etmişdir.

1941-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olmuş, Azərbaycanın ilk musiqişünaslarından olan Xurşud xanım Ağayevadan, Qara Qarayevdən, Cövdət Hacıyevdən, Əfrasiyab Bədəlbəylidən dərs almışdır.

1942-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqına üzv seçilmişdir.

Ağabacı Rzayeva bir sıra instrumental əsərlər - xalq çalğı alətləri üçün "Şənlik süitası", "Rəqs", "Yallı", "Cəngi"; simli kvartet üçün variasiyalar; tar, kamança və qaboy üçün pyeslər yazmışdır.

Azərbaycanın ilk qadın bəstəkarı olan A.Rzayevanın 1965-ci ildə bəstəkar İsmayıl Quliyevlə birlikdə, Həzi Məmmədovun librettosu əsasında bəstələdiyi "Höcət eləmə" musiqili komediyası Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Uşaqlar üçün yazdığı "Kukla", "Qaranquş", "Pioner qalstuku", "Vətənimiz", "Ağ göyərçinim" əsərləri bu günə gədər öz əhəmiyyətini itirməmişdir.

Ağabacı Rzayeva yaradıcılıqla yanaşı, ictimai işlərlə də məşğul olmuş, üç dəfə - 1950, 1953, 1955-ci illərdə Bakı Sovetinə, 1963-cü ildə Azərbaycanın Ali Sovetinə deputat seçilmişdir.

A.Rzayeva "Azərbaycanda musiqi sənətinin inkişafında xidmətlərinə görə", "Əməkdə fərqlənməyə görə", "Qafqazın müdafiəsinə görə" medalları, 1959-cu ildə "Qırmızı Əmək Bayrağı"ordeni, Azərbaycan Ali Sovetinin Fəxri Fərmanları ilə təltif edilmiş, 1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1972-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

Ağabacı Rzayeva 1975-ci il iyul ayının 5 Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Mahnılar: fortepiano ilə oxumaq üçün /A.Rzayeva; söz. S.Əsəd, M.Əkbər, M.Dilbazi, M.Rahim.-Bakı: Azərnəşr, 1970.- 16 s.

Vətən oğlu unudulmaz [Notlar]: Romans və tenor və ya soprano üçün /A.Rzayeva; söz. S.Rüstəm.- Bakı, 1975.- 4 s.

Babayeva, H. Ağabacı Rzayeva: monoqrafiya /H.Babayeva; Az. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Aspoliqraf, 2013.- 103 s.

Əhmədova, M. Ağabacı Rzayevanın mahnı yaradıcılığı milli ənənələr kontekstində /M.Əhmədova //Musiqi dünyası.- 2015.- 4/65.-S.41-44.

Xəlilzadə, F. Sənət xəzinəmizin bəzəyi: A.Rzayeva - 100 /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 13 dekabr.- S.7.

85 illiyi

Oqtay Kazımi 1932-2010

Bəstəkar

Oqtay Məmməd oğlu Kazımov (Kazımi) 1932-ci il dekabr ayının 27-də Astara şəhərində anadan olmuşdur.

Orta məktəbi Astarada bitirmişdir. Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin xor-dirijorluq fakültəsinə daxil olmuş və Hacı Xanməmmədovun sinfində təhsil almışdır.

Musiqi məktəbində oxuyarkən, "Bəxtəvər uşaqlar" adlı ilk mahnısını bəstələmişdir. 1957-ci ildə Ü.Hacıbəyov adına Konservatoriyanın bəstəkarlıq fakültəsinə daxil olmuş və Cövdət Hacıyevin sinfində təhsil almışdır.

1966-1967-ci illərdə Sumqayıt musiqi texnikumunda müəllim, sonra isə dərs hissə müdiri kimi əmək fəaliyyətinə başlamışdır. Sumqayıtda çalışdığı illərdə O.Kazımi "Eksperiment" estrada orkestrini yaratmışdır. Sonralar bəstəkar Azərbaycan Dövlət Filarmoniyasında musiqi redaktoru vəzifəsində çalışmış və Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində xalq çalğı alətləri fakültəsində dərs demişdir.

O.Kazımiinin mahnıları uzun illər "Dan ulduzu" ansamblının repertuarında xüsusi yer almışdır. Onun xalq çalğı alətləri üçün konsertləri, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr etdiyi "Millətin oyaq gecəsi" adlı vokal simfonik poeması, "Qarabag rapsodiyası", Təntənəli uvertüraları, 60-a qədər teatr tamaşalarına bəstələdiyi musiqiləri (Akademik Dram Teatrında səhnəyə qoyulmuş "Büllür sarayda", "Qılınc və Qələm", "Fitnə", "Ümid", "Ədirnə Fəthi" və s.), Rus Dram Teatrında səhnələşdirilmiş "Şeyx Sənan", Kamera Teatrında səhnəyə qoyulmuş "İtlər", Azərbaycan Dövlət Musiqili Teatrında səhnələşdirilmiş ("Qızıl Toy", "Danabaş kəndinin əhvalatları", "Dəli dünya") operettaları, müxtəlf səpkili mahnıları Azərbaycan incəsənətində özünəməxsus yer tutmuş, tarixilik baxımından əhəmiyyətliliyi ilə fərqlənmişdir.

O, Azərbaycanda ilk rok operanın müəllifidir. Qeyd etmək lazımdır ki, görkəmli bəstəkarın əsərlərinin bir hissəsi hələ də geniş auditoriya kütləsinə təqdim edilməmişdir.

Bəstəkar O.Kazımiinin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1992-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Prezident təqaüdçüsü idi.

Oqtay Kazımi 2010-cu il avqust ayının 9-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Hava tam qaralmayıb /O.Kazımov //525-ci qəzet.-2011.- 3 sentyabr.- S.27.

Yusifova, T. Oktay Kazımiinin musiqi dünyası /T.Yusifova //Müasir mədəniyyətşünaslıq: elmi, metodiki, publisistik jurnal.- 2010.- № 4.(6) S.95-97.

The golden wedding: Musical in two parts /O.Kazimov; libretto R.Heydarov; transl. T.N.Mahmudova.- Bakı: Ixlas, 2010.- 41 p.

İ n t e r n e t d ə

http://www.oqtaykazimi.az/

70 illiyi

Fərhad Bədəlbəyli
1947

Bəstəkar-pianoçu

Fərhad Şəmsi oğlu Bədəlbəyli 1947-ci il dekabr ayının 27-də Bakı şəhərində anadan olmuşdur.

Beş yaşından başlayaraq onillik Orta İxtisas Musiqi Məktəbinin bünövrəsini qoyan və uzun illər həmin təhsil müəssisəsinin direktoru vəzifəsində çalışan Kövkəb Səfərəliyeva onunla məşğul olmağa başlamışdır.

1965-1969-cu illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında professor M.R.Brennerin sinfində, 1969-1971-ci illərdə isə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında dosent B.Davidoviçin sinfində oxumuşdur. Fərhad Bədəlbəyli B.Smetana adına (Çexslovakiya, 1967, III mükafat və Smetana əsərinin ən yaxşı ifaçısı mükafatı) və Viana da Mota adına (Portuqaliya, 1968, I mükafat) beynəlxalq müsabiqələrdə uğurla çıxış etmiş və virtuoz pianoçu kimi ad qazanmışdır..

1971-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlamışdır.

Xalq artisləri Fidan və Xuraman Qasımovalarla, Rauf Atakişiyevlə, Rasim Abdullayevlə, SSRİ Xalq artisti Bella Rudenko ilə, məşhur skripkaçı Dmitri Sitkovestki və b. görkəmli sənətkarlarla tərəf müqabili olmuşdur. Bəstələdiyi "Pərvərdigara" (1994), "Şuşa" (2001) romanslarının, "Anamız Azərbaycan" (1998) himninin ilk ifaçıları Fidan və Xuraman Qasımovalar olmuşlar.

Fortepiano üçün "Prelüd" (1965), səs, kamera orkestri və fortepiano üçün "Poema" (1967), "Azadlıq məşəli" sənədli filminə bəstələnmiş musiqi (1968), üç fleyta üçün "Skertso" (1969), simli kvartet üçün "Miniatürlər" (1973), səs və fortepiano üçün "Musiqili məktub" romansı (2007), xor və orkestr üçün "Türkiyə-Azərbaycan" marşı (2006) və s. əsərlərin müəllifidir.

1983-cü ildə professor elmi rütbəsini almışdır.

Bu gün F.Bədəlbəyli fəal konsert yaradıcılığı ilə məşğuldur. Pianoçunun qastrol səfərləri – Bolqarıstan, Almaniya, Yunanıstan, Danimarka, İsrail, İtaliya, Kuba, Norveç, Portuqaliya, Tunis, Türkiyə, Finlandiya, Fransa, Çexoslovakiya, İsveçrə, Yuqoslaviya, Yaponiya və b. əhatə edir.F.Əmirovun "Sevil" operası(1998), Ə.Bədəlbəylinin "Qız qalası" baleti (1998), Ü.Hacıbəylinin Vyanada "Arşın mal alan" operettasının (2006) səhnəyə qoyulması onun rejissorluq fəaliyyətinə misaldır.

1986-1989-cu illərdə Azərbaycan Musiqi Cəmiyyətinin idarə heyəti sədrinin I müavini, 1987-1996-cı illərdə Bakı İncəsənət Mərkəzinin rəhbəri olmuşdur. 1989-cu ildən Azərbaycan Musiqi Xadimləri Cəmiyyətinin sədridir. 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun üzvü seçilmişdir.

1972-ci ildı Azərbaycan SSR-in "Əməkdar artist", 1978-ci ildə "Xalq artisti", 1990-cı ildə isə SSRİ-nin "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1986-cı ildə Azərbaycan SSRİ Dövlət mükafatı laureatı olmuşdur.

Hal-hazırda Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektorudur.

Ə d ə b i y y a t

Fortepianoda çalmaq üçün vəsait: dərslik : XI sinif /F.Bədəlbəyli, O.Rəcəbov (tərt.), N.Quliyeva (tərt.); elmi məsl. F.Əlizadə; elmi red.: O.Abasquliyev, G.Abdullazadə.- Bakı: [Çıraq], 2013.- 288, [1] s.

Məqalələr, materiallar /F.Bədəlbəyli; tərt.: T.Seyidov, A.Hüseynova .- Bakı: Qapp-Poliqraf, 1997.- 182 s.

Bədəlbəyli Fərhad //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2011.- C.3.- S.540.

Hüseynova, K.Q. Azərbaycan musiqi mədəniyyətinin inkişafında Fərhad Bədəlbəyli yaradıcılığının yeri və rolu: sənətşünaslıq namizədlik alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya /K.Hüseynova.- Bakı, 2008.- 213 s.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/F%C9%99rhad_B%C9%99d%C9%99lb%C9%99yli

90 illiyi

Nəriman Məmmədov 1927-2015

Bəstəkar

Nəriman Həbib oğlu Məmmədov 1927-ci il dekabr ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvanda uşaq musiqi tar məktəbini bitirmiş, A.Zeynallı adına Bakı Musiqi Məktəbində təhsilini davam etdirmiş və burada Ə.Bakıxanov, Z.Adıgözəlov, S.Şuşinski, A.Gəray və s. kimi görkəmli musiqişünaslardan dərs almışdır. N.Çumakovun (nəzəriyyə), G.Şarayevin (pianino) ixtisası üzrə siniflərini, ikinci dəfə isə C.Hacıyevin bəstəkarlıq sinfini bitirmişdir.

A.Zeynallı adına Bakı Musiqi Texnikumunda, 1960-cı ildən isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında müəllim kimi çalışmışdır. Bakı Musiqi Akademiyasının Xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

Yeddi əsas muğamı instrumental halda nota köçürmüş, Bakıda və Moskvada nəşr edilmişdir. AMEA-nın İncəsənət və memarlıq İnstitutunun hazırladığı 10 cildlik "Muğam antologiyası"nda onun nota köçürdüyü "Rast", "Şur", "Cahargah", "Rübab", "Şahnaz" və s. müğamları da nəşr olunmuşdur. Nəriman Məmmədov ömrünü Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının professoru olaraq, pedaqoji fəaliyyətə, gənc bəstəkar və müsiqişünas kadrların yetişdirilməsinə həsr etmişdir.

O, dəyərli yaradıcılığı ilə zəngin irsə sahib olmuşdur. Onun bəstəkarlıq fəaliyyəti 2 muzikl, 2 balet, 3 musiqili komediya, 7 simfoniya, 7 instrumental konsert, 3 oratoriya, 3 kontata, simfonik poema, kamera əsərləri, xalq çalğı alətləri orkestri üçün pyeslər, vokal simfonik, xor, orqan üçün əsərlər, yüzlərlə mahnı və romans, nota köçürdüyü Azərbaycan muğamları, 25-dən artıq dram tamaşasına musiqi və digər musiqi əsərləri ilə zəngindir.

Onun əsərləri Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Azərbaycan Dövlət Televiziya və Radiosunun orkestrləri, ansambllar tərəfindən səsləndirilmiş, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulmuş, görkəmli sənətkarların repertuarlarında ifa olunmuşdur. Görkəmli bəstəkar, muğam tədqiqatçı və pedaqoqun "Humay" baleti 1981-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında uğurla səhnəyə qoyulmuş, musiqili-səhnə əsərlərindən Tofiq Bakıxanovla birgə yazdığı 3 musiqili komediyası – "Altı qızın biri Pəri", "Qız görüşə tələsir" və "Məmmədəli kurorta gedir" musiqili-komediyaları tamaşaçıların rəğbətini qazanmışdır.

Proqram xarakterli simfoniyaları – Hüseyn Cavidə həsr olunmuş IV simfoniyası, Xocalı faciəsinə həsr olunmuş VII simfoniyası və "Fərhad və Şirin" poeması mütəxəsisslər tərəfindən xüsusi qiymətləndirlmişdir. Bəstəkarın "Xumar baxışlar", "Kaş səni görməyəydim", "Üzmə məni", "Sənin eşqin" və s. lirik mahnıları öz səmimiliyi ilə xalqın qəlbinə yol tapıb. Professor Əhməd İsazadə ilə birlikdə iki hissədən ibarət "Xalq mahnı və oyun havaları" adlı kitabı da çap olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, "Əməkdar incəsənət xadimi", "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Nəriman Məmmədov 2015-ci il aprel ayının 6-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Sadıqoğlu, A. Bəstəkarın əbədiyaşar əsərləri /A.Sadıqoğlu //Xalq qəzeti.- 2016.- 17 aprel.- S.7.

Görkəmli bəstəkar Nəriman Məmmədov dünyasını dəyişib //525-ci qəzet.- 2015.- 8 aprel.- S.7.

Nəriman Həbib oğlu Məmmədov: [nekroloq] //Azərbaycan.- 2015.- 7 aprel.- S.6.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Nəriman_Məmmədov

az.trend.az › Siyasət

80 illiyi

Rauf Babayev 1937

Estrada müğənnisi



Rauf Yusuf oğlu Babayev 1937-ci il dekabr ayının 30-da Ermənistanın Leninakan şəhərində (Gümrü) anadan olmuşdur.

1956-cı ildə Bakı Musiqi Texnikumunu, 1962-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

1961-ci ildən "Qaya" vokal instrumental qrupunun üzvü olmuşdur. 1995-ci ildə "Bəri bax" vokal qrupu yaratmış və bədii rəhbəri olmuşdur (1995-2001). Yeni üslubda və yeni səpkidə yaranmış ansambl Azərbaycan, rus, Qərbi Avropa bəstəkarlarının əsərlərini və müxtəlif ölkələrin xalq mahnılarını məharətlə ifa etməklə tez bir zamanda şöhrət tapmışdır. 2001-ci ildən "Qaya" Dövlət Ansamblının bədii rəhbəridir.

R.Babayev 40 ilə yaxın bir müddət ərzində klassik estrada, caz ifaçılığı məktəbinin yüksək ənənələrini təbliğ etmişdir. Bu müddət ərzində Azərbaycan mədəniyyətini Əlcəzairdə, Kubada, Almaniyada, Rusiyada, Ukraynada, Belorusiyada, Rumıniyada, Cənubi Afrikada, Amerikada və bir çox xarici dövlətlərdə ləyaqətlə təmsil etmişdir.

2002-ci ildə "Bəri bax" ansamblı Vitebsk şəhərində keçirilən "Slavyan bazarı" Beynəlxalq musiqi festivalının bir neçə mükafatını qazanmışdır.

Rauf Babayev 1978-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist", 2006-cı ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Prezident təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Ey həyat, sən nə qəribəsən /R.Babayev //Üç nöqtə qəzet.-2011.- 19 noyabr.- S. 15.

Əfsanəvi "Qaya" /R.Babayev //Mədəniyyət.- 2008.- 20 noyabr.- S.7.

"O vaxtın Bakısı tamam başqa aləm idi...": Rauf Babayev: "Gəncliyi ötən əsrin 60-cı illərinə düşən insanlar xoşbəxtdirlər..." //Ekspres.-2013.- 20-22 aprel.- S. 20.

Babayev Rauf Yusif oğlu //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2010.- S.586.

İ n t e r n e t d ə

http://www.adam.az/

60 illiyi

Əliyar Əliyev 1957-1992

Milli Qəhrəman

Ə d ə b i y y a t

Əliyar Yusif oğlu Əliyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Batalyon komandiri, mayor – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 10 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S. 30.- (Ölümündən sonra).

Nəriman oğlu, H. Dağlar oğlu: Azərbaycanın Milli Qəhrəmanı, batalyon komandiri Əliyar Əliyev /H.Nərimanoğlu; Red. M.Əmirova.- Bakı: İşıq, 1994.- 56 s.

Əsgərov, V. Əliyev Əliyar Yusif oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.80-81.

Şəhid idmançılar /D.Q.Quliyev; red. Q. Aslan.- Bakı: İşıq, 1995.-H.1.-88 s.

Əliyar Yusif oğlu Əliyev 1957-ci ildə dekabr ayının 14-də Qubadlı rayonunun Qazyan kəndində anadan olmuşdur. 1975-1979-cu illərdə Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdır. Bir müddət Qubadlının Dondarlı kəndin orta məktəbində müəllim işləmiş, 1980-ci ildə hərbi xidmətə getmişdir. 1982-ci ildə ordudan tərxis olduqdan sonra Saransk Dövlət Universitetində müəllim işləmişdir. 1983-cü ildə atasının vəfatı ilə əlaqədar olaraq öz doğma yurduna qayıtmış və rayon orta məktəbində müəllim işləmişdir. "Məhsul" kənd Könüllü İdman Cəmiyyətində məşqçi, 1985-ci ildə Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin rayon Şurasının sədri seçilmişdir. Klassik güləş üzrə respublika, ümumittifaq və beynəlxalq yarışlarda dəfələrlə qalib gəlmiş, bir çox yarışların hakimi, baş hakimi olmuşdur. Səkkiz yetirməsi respublika və SSRİ çempionu, 1 nəfər isə olimpiya yığma komandasına üzv seçilmişdir.

Qarabağ müharibəsinə ilk könüllü yazılanlardan olmuşdur. 1990-cı ilin aprel ayında Başarat kəndinə hücum gözləndiyini bilən tabor komandiri düşmənin ya gecə yarıdan keçmiş, ya da səhər açılmamış başlayacağını əvvəlcədən müəyyən edə bilmişdi. Dan yeri sökülməmiş Topağac yüksəkliyi toplardan şiddətli atəşə tutulmuş, lakin Ə.Əliyevin başçılıq etdiyi dəstə düşmənə əks-zərbə endirərək xeyli canlı qüvvəsinin və hərbi texnikasının itirməsinə səbəb olmuşdur. Nəticədə düşmən geri çəkilmişdir. 1992-ci il sentyabrın 30-da Ə.Əliyevin komandanlıq etdiyi tabor Laçın rayonunu azad etmək üçün güclü hücum əməliyyatına başlamış və qısa müddətdə 30-dan artıq mövqeyi dağıtmağı bacarmışdı. Xocalı soyqırımından sonra Əliyarın batalyonu Gorusa etdiyi hücüm nəticəsində 336-ı erməni ölüsünün olduğunu Moskvanın "Xəbərlər" proqramı rəsmi açıqlama vermiş, Ermənistan 3 günlük matəm elan etmişdi. Bundan sonra düşmənin ümummilli hərəkatının lideri Paruyr Ayrikyan şəhər meri vəzifəsindən qovulmuşdu. Çünki o, Gorusa Qarabağa dəhliz açmaq niyyəti ilə gəlmişdi. Teatr meydanında keçirilən matəm mitinqində Əliyarın, topçular Qocanın, Qeysin, Nurunun başına pul təyin etmişdilər. Gorusun Şurnuxa kəndində keçirilən əməliyyat zamanı Ermənistanın silah anbarı partladılmış, 26 nəfər muzdlu və erməni əsir alınmışdı. 1992-ci ildə aprelin 16-da 50 nəfərlik diversiya qrupu "qara bəbir" ləqəbli Suriya ermənisi Karlenin başçılığı ilə Əliquluşağı istiqamətində hücumu əvvəlcədən müəyyən edilmiş və Əliyarın batalyonu 11 nəfər həmin zirehli muzdurları və "Niva"lı Karleni öldürərək 20 nəfərdən çox Xocalı əsirləri ilə dəyişməyə nail olmuşdu. 1992-ci il iyunun 24-də 16 radələrində ermənilərin rayon mərkəzini bombardman etməsi haqda informasiya əldə etmişdirlər. "Aparıcı" vertalyotu birini sərrast atəşlərlə Bərgüşad çayının sahilinə salınmış (düşdükdən sonra isə yanmışdı), ikincisini Teymur Miskanlı kəndinin içində yerə dəyib tüstülənməyə başlayanda tez söndürmüşlər. Üçüncüsü isə yerə enməyə məcbur edilsə də fürsət tapıb qaçmış, lakin sərhəddi keçməyə az qalmış alovlanıb yerə çırpılmışdı. Bu Qarabağ savaşında Əliyarın rəhbərliyi ilə həyata keçirilmiş uğurlu əməliyyatlardan bir neçəsidir.

1992-ci il 30 sentyabrdan sonra onun dəstəsi Laçın istiqamətində hücuma başlamış, 20-dən artıq kəndi geri qaytara bilmişdirlər. Oktyabrın 3-ü onun taboru "Şurumbaşı yüksəkliyi"ni də geridə buraxaraq "Tikanlı zəmi" uğrunda savaşırdı. Təəssüf ki, həmin tarixdə düşmən gülləsi ondan yan keçməmiş, Vətən daha bir qəhrəmanını şəhid vermişdir.

Qubadlı rayonunun Qazyan kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 1992-ci il 10 noyabr tarixli 301 saylı Fərmanı ilə Əliyar Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

150 illiyi

Səməd ağa Ağamalıoğlu 1867-1930

Dövlət xadimi



Səməd ağa Həsən oğlu Ağamalıoğlu 1867-ci il dekabr ayının 27-də Qazax qəzasının (Ağstafa rayonu) Qıraq Kəsəmən kəndində anadan olmuşdur.

1887-ci ildə Vladiqafqaz hərbi progimnaziyasını bitirmişdir.

1905-1907-ci illər inqilabında iştirak etmişdir.

1917-ci ilin aprelindən RSDFP-nin birləşmiş Komitəsi İcraiyyə Komitəsinin və Yelizavetpol Sovetinin üzvü olmuşdur.

1918-ci ilin fevralında Tiflisə köçmüş, yerli menşevik "Hümmət" təşkilatının, sonra isə Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının üzvü olmuşdur.

1918-ci ilin sonunda Bakıya gəlmiş, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər fraksiyasının lideri və aqrar komissiyasının sədri olmuşdur.

1920-ci il aprel işğalından sonra antisovet Gəncə üsyanının (1920, may) yatırılmasında fəal iştrak etmişdir. 1920-ci ildən Sovet İKP üzvü olmuşdur.

1921-ci ildə yaradılmış Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri olan Ağamalıoğlu, Azərbaycanda və Sovet Şərqinin digər respublikalarında yeni latın əlifbasına keçilməsinə rəhbərlik etmişdir. O, həmçinin geniş publisistik fəaliyyət ilə də məşğul olmuşdur.

Azərbaycan SSR-də Xalq Torpaq Komissarı (1920-22), 1921-ci ildə Azərbaycan SSR MİK sədrinin müavini, SSRİ MİK-in sədri (1922-29), habelə ZSFSR MİK-in sədrlərindən biri və SSRİ MİK-in Rəyasət Heyətinin üzvü olmuşdur. 1927-ci ildə yaradılmış Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri, Azərbaycan və SSRİ-in digər türk respublikalarında yeni latın əlifbasına keçilməsinə rəhbərlik etmişdir. "Gələcək" və "Pobujdeniye" qəzetlərinin redaktoru olmuşdur.

Səməd ağa Ağamalıoğlu 1930-cu il oktyabr ayının 6-da Moskvada vəfat etmiş, əvvəlcə orada, sonra isə nəşi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Ağamalıoğlu Səməd ağa //Azərbaycan Milli Ensiklopediyası.-Bakı, 2010.- S.162-163.

Dünyaminqızı, Q. Özününküləri aşağılayan bolşevik /Q.Dünyaminqızı //Kaspi.- 2016.- 14 iyun.- S.15.

Xəlilov, B. Səməd Ağamalıoğlu: Yeni əlifba islahatçısı /B. Xəlilov //Ədəbiyyat qəzeti .-2016.- 5 mart.- S.28.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Səməd_ağa_Ağamalıoğlu

adam.az/index.php?option=com_sobi2...sobi2Id...

http://www.anl.az/down/meqale/edebiyyat/2016/mart/480984.jpg

90 illiyi

Cəmil Quliyev 1927-2010

Akademik

Cəmil Bahadur oğlu Quliyev 1927-ci il dekabr ayının 16-da Şuşa şəhərində anadan olmuşdur. Ağdam şəhəri 1 nömrəli məktəbdə orta (1934-1944), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsində (1946-1949) ali təhsil almışdır. 1949-1952-ci illərdə isə həmin ali təhsil ocağının aspiranturasında oxumuş, 1952-ci ildə namizədlik, 1971-ci ildə adlı doktorluq dissertasiyası müdafiə etmişdir.

1972-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1980-ci ildə isə həqiqi üzvü seçilmidir.

Bakı Dövlət Universitetində Tarix kafedrasının müəllimi (1952-1953), Az. KP MK yanında Partiya Tarixi İnstitunun baş elmi işçisi (1953-1958), 1958-ci ildən isə bu institutda elmi hissə üzrə direktor müavini, Azərbaycan Sovet İKP Tarixi kafedrasının dosenti (1953-1959), Partiya Tarixi İnstitutunda elmi işlər üzrə direktor müavini (1958-1972)vəzifələrində şalışmışdır.

1972-1978-ci illərdə Azərbaycan SSR EA-nın Tarix İnstitutunun direktoru, 1972-1978-ci illərdə Az. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru , Azərbaycan SSR EA-nın vitse-prezidenti (1981-1990), Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun baş elmi işçisi (1990-1997), 1997-ci ildən ömrünün sonunadək AMEA-nın Rəyasət Heyətinin üzvü, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi (1997-2001), 2007-ci ildən etibarən isə Milli Elmlər Akademiyasının müşaviri olmuşdur.

400-ə yaxın məqalənin müəllifidir. Onun rəhbərliyi və yaxından iştirakı ilə bir sıra fundamental əsərlər işıq üzü görmüşdür. 1975-ci ildən Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru olmuşdur. Ömrünün on üç ilini Azərbaycan Ensiklopediyasının yaradılmasına həsr etmişdir. İkicildlik "Uşaq Ensiklopediyası"nın və "Naxçıvan Ensiklopediyası"nın redaktoru olmuşdur.

Cəmil Quliyevin ölkəmizdə ictimai elmlər sahəsində araşdırmaların daha geniş miqyasda öyrənilməsi, onların dövrün tələblərinə uyğun aparılması və Azərbaycan tarixinin yeni mənbələr əsasında tədqiq edilməsində xidmətləri əvəzolunmazdır. İyirmi ilə yaxın bir müddətdə doktorluq dissertasiyalarının müdafiəsi üzrə Elmi Şuranın sədri olmuşdur. Alim bir sıra beynəlxalq konfrans və simpoziumlarda çıxışları ilə Azərbaycan tarix elmini layiqincə təmsil etmişdir.

Cəmil Quliyev ölkəmizdə tarix elminin inkişafına töhfələr verən alim kimi "Qırmızı Əmək Bayrağı" ordeni (1982), Azərbaycan SSR-in "Əməkdar elm xadimi" (1982) fəxri adına layiq görülmüşdür. "Əmək veteranı" (1986) medalı, "Şöhrət" (1997) və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur.

Akademik Cəmil Quliyev 2010-cu il dekabr ayının 27-də, ömrünün 84-cü ilində vəfat etmişdir.

Ə d ə b i y y a t

Daxili suverenliyimizi mənsub olduğumuz millətin suverenliyi kimi dərk etməliyik /C.Quliyev //Elm.- 1997.- dekabr.

Xalqa elm lazımdır /C.Quliyev //Müqəddəs elm məbədi.- Bakı, 1996.- S.51-53.

Cəmil Bahadur oğlu Quliyev: Biblioqrafiya /Azərbaycan Milli Elmlər Akademiyası, Mərkəzi Elmi Kitabxana; tərt.: Ç.N.Əhmədova, A.H.Orucova.- Bakı: Elm, 1999.- 90 s.

Elmi prinsiplərə sadiq tarixçi //Azərbaycan.- 1999.- 11 mart.

İ n t e r n e t d ə

http://www.xalqqazeti.com/az/news/education/8281

80 illiyi

Arif Abbasov
1937

Tarixçi-etnoqraf



Arif Akim oğlu Abbasov 1937-ci il dekabr ayının 21-də Naxçıvan şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetini bitirmiş (1961), 1974-cü ildə "Azərbaycanın dağ-mədən sənayesi fəhlələrinin müasir məişət və mədəniyyəti" mövzusunda namizədlik, 1995-ci ildə "Azərbaycanın yeni şəhərlərinin həyat tərzi (etnososioloji tədqiqatlar üzrə)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Moskvada keçmiş SSRİ Elmlər Akademiyasının Etnoqrafiya İnstitutunda təcrübə keçmişdir. Azərbaycan EA-da müxtəlif vəzifələrdə - Tarix İnstitutunun direktor müavini və etnososioloji tədqiqatlar şöbəsinin müdiri (1978-93), Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru (1993-2005) işləmişdir.

2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Etnomədəni, etnososioloji prosesləri tədqiq etmişdir. 50-dən artıq elmi məqalənin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. 10 nəfər elmlər namizədinə rəhbərlik etmişdir.

Alim monoqrafiyalarında və məqalələrində etnik xüsusiyyətlərin göstərilməsi ilə kifayətlənməmiş, həm də onların müəyyən sosial-iqtisadi şəraitdə perspektivlərini araşdıraraq müasir ictimai elmdə mühüm əhəmiyyət kəsb edən nəticələr əldə etmişdir.

Tarixçi-etnoqrafın elmi kadrların hazırlanmasında, ayrı-ayrı ölkələrdə keçirilən beynəlxalq konfranslarda iştrak etmiş və ölkəmizin təmsilində böyük xidmətləri olmuşdur.

Ə d ə b i y y a t

Abbasov Arif Akim oğlu //Azərbaycan Milli Ensiklopediyası.-Bakı, 2010.- S.17.

Образ жизни в новых городах Азербайджана.- Баку, 1987.

Современный быт и культура горнопромышленных рабочих Азербайджана.- Баку, 1980.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/Arif_Abbasov_(etnoqraf)

http://azertag.az

110 illiyi

Həsən Əliyev 1907-1993

Akademik

Həsən Əlirza oğlu Əliyev 1907-ci il dekabr ayının 15-də Zəngəzur qəzasının (Sisyan) Comərdli kəndində anadan olmuşdur. 1917-1924-cü illərdə Naxçıvan şəhərində muzdur işləmiş, həmçinin 1924-1930-cu illərdə Naxçıvan şəhərində kənd axşam məktəbində təhsil almışdır. 1924-cü ildə həmin şəhərdə Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1930-1932-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirmişdir. 1932-1934-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun aspirantı olmuşdur.

1927-ci ildə Naxçıvan MSSR Torpaq Komissarlığı zərərvericilərlə mübarizə şöbəsinin baş fəhləsi, "Pambıqbirliyi"nin aqrotexniki, Gəncə şəhərində Qarayeri sovxoz və partiya məktəblərində müəllim, Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun ilk partiya təşkilatının katibi (1932-1934), Azərbaycan KTPİ Şirvan Zona-Təcrübə Stansiyasının direktoru (Ucar rayonu), SSR EA Azərbaycan filialı partiya təşkilatının katibi (1937-1941), Ümumittifaq Coğrafiya Cəmiyyətinin üzvü (1939) və s. kimi əmək sahələrində fəaliyyət göstərmişdir. Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. 1944-1949-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim (1945-1949), Azərbaycan SSR Elmlər Akademiyası Botanika İnstitutunun direktoru (1949-1952), Azərbaycan SSR Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi (1952), Azərbaycan SSR EA-nın akademik-katibi (1952-1957), Azərbaycan SSR EA Torpaqşünaslıq və Aqrokimya İnstitunda laboratoriya müdiri (1957-1967), Azərbaycan SSR EA Coğrafiya İnstitunun direktoru (1968-1993), Azərbaycan SSR Ali Sovetinin (10-11-ci çağırış) deputatı, Az.SSR EA-nın həqiqi üzvü (1952) və s. kimi bir çox yüksək mövqelərdə çalışmışdır.

Alim 1945-ci ildə "Qırmızı ulduz" ordeni və "Əmək igidliyinə görə", 1946-cı ildə "Böyük Vətən müharibəsində əmək rəşadətinə görə 1941-1945-ci illər" medalları ilə, 1950-ci ildə "Şərəf nişanı" ordeni ilə, 1982-ci ildə "50 il Sov. İKP-də" fəxri döş nişanı və bir çox başqa orden və medallarla təltif edilmişdir.

H.Əliyev coğrafiya elmləri üzrə bir sıra problem şuralarının sədri və üzvü olmuşdur. Azərbaycan Respublikası Təbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətinin sədri, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti (1975-1990), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975-ci ildən) olmuşdur.

Görkəmli xadim Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumıniya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), Almaniya (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir.

Həsən Əliyev 1993-cü il fevral ayının 2-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Həyəcan təbili /H.Əliyev.- Bakı: Azərnəşr, 1976.- 135 s.

Həkəriçay hövzəsinin dağ-meşə torpaqları və onlardan səmərəli istifadə edilməsi: Laçın rayonu ərazisi daxilində /H.Əliyev, Ş.Mirzəyev; red. X.Həsənov; AzSSR Coğrafiya İn-tu.- Bakı: Elm, 1979.- 124 s.

Meşələrin torpaq proseslərinə təsiri: Pirqulu stasionarı nümunələrində /H.Əliyev, X.Həsənova.- Bakı: Elm, 1973.- 112 s.

Həsən Əlirza oğlu Əliyev: biblioqrafiya /tərt. ed.: E.T.Məmmədova, Ç.N.Əhmədova; elmi red. Q.Məmmədov; red. Z.V.Mustafayeva.- Bakı: İsmayıl, 2002.- 128 s. Azərbaycanın elm və mədəniyyət xadimləri.

İ n t e r n e t d ə

http://www.baki-xeber.com/

95 illiyi

İmran Seyidov 1922-2001

Ədəbiyyatşünas

İmran Sultan oğlu Seyidov 1922-ci il dekabr ayının 16-da Quba şəhərində anadan olmuşdur.

Ədəbi fəaliyyətə "Yeni iliniz mübarək" şeiri ilə başlamışdır. Şeir 1939-cu ildə "Gənc fəhlə" qəzetində nəşr olunmuşdur. Bundan sonra mətbuatda müntəzəm dərc olunmağa başlamışdır.

1940-cı ildə Bakıda 1 saylı orta məktəbi bitirmişdir, 1940-1945-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Dövlət Sənaye İnstitutunun Energetika fakültəsində təhsil almışdır.

1945-1946-cı illərdə Azərbaycanın Elmlər Akademiyasının Energetika İnstitutunda kiçik elmi işçi, 1946-1948-ci illərdə Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, 1948-1970-ci illərdə ictimai elmlər bölməsində elmi katib, 1959-1987-ci illərdə "Sovetskaya türkologiya" jurnalı redaksiyasında baş redaktorun müavini, 1987-1995 Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1995-2001-ci illərdə Azərbaycan EA Milli Münasibətlər İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır.

1943-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1966-cı ildən Azərbaycan Yazıçılar İttifaqının rus bölməsinin rəhbəri olmuşdur. 1977-ci ildən Jurnalistlər Birliyinin üzvü seçilmişdir.

Bakı, Moskva, Penza, Minsk, Tbilisi və s. şəhərlərin dövri mətbuat orqanlarında əsərləri işıq üzü görmüşdür.

İmran Seyidov tərcümə işi ilə də məşğul olmuşdur. "Koroğlu" dastanını Azərbaycan dilindən rus dilinə filoloji tərcümə etmişdir.

1981-ci ildə "Şərəf nişanı" ordeni, Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. 1982-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına, 1984-cü ildə "Əmək veteranı" və başqa medallara layiq görülmüşdür. "Kamil sənətkar", "Səməd Vurğun - 90", "Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində fəal iştrakına görə" (1995) fəxri diplomlarla təltif olunmuş və "Qızıl qələm" mükafatına layiq görülmüşdür (1996).

İmran Seyidov 2001-ci il may ayının 10-da vəfat etmişdir.

Ə d ə b i y y a t

Hicran F. Qarabağda talan var /Fəridə Hicran (Vəliyeva); tərcümə edən. İ.Seyidov; Red. N.Həsənzadə, M.Əvəz qızı, R.Paşabəyova. Bakı: Gənclik, 1992.-160 s.

İmran Seyidov //Əhmədov T. Azərbaycan Yazıçıları (XX-XXI yüzilliklərdə).- Bakı: Nurlar, 2011.- S.473.

85 illiyi

Xalid Əlimirzəyev
1932-2016 Ədəbiyyatşünas-alim

Xalid Əlimirzə oğlu Əlimirzəyev 1932-ci il dekabr ayının 16-da Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmuşdur.

Mirzəbəyli kənd orta məktəbini bitirdikdən sonra 1947-1951-ci illərdə Bakı Dəmiryol Texnikumunda təhsilini davam etdirmişdir.

1951-ci ildə ADU-nun (indiki BDU) fililogiya fakültəsinə daxil olmuş, 1956-cı ildə təhsilini bitirdikdən sonra Qəbələ rayonunun Hacallı kənd orta məktəbində müəllim və dərs hissə müdiri işləmişdir.

1960-cı ildə ADU-nin aspiranturasına daxil olmuşdur. 1964-cü ildə "C.Məmmədquluzadənin ədəbi-ictimai görüşləri" mövzusunda namizədlik, 1972-ci ildə isə "C.Məmmədquluzadənin dramaturgiyası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1963-1966-cı illərdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının baş müəllimi, dossenti (1966-73) və 1973-cü ildən isə Azərbaycan ədəbiyyatı kafedrasının professoru olmuşdur.

1971-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki Xalid Əlimirzəyev 1992-1993-cü illərdə Azərbaycan Respublikası Təhsil nazirinin birinci müavini vəzifəsində işləmiş, müxtəlif illərdə bir çox ictimai təşklatların, elmi və müdafiə şuralarının, Akademik Dövlət Dram Teatrının bədii şurasının üzvü olmuşdur.

300-dən artıq elmi məqalənin, 20-dən artıq kitabın müəllifidir. Əsərlərində "Dədə Qorqud" dastanını, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Hüseyn Cavid, Cəfər Cabbarlı və müasir dövr yazıçılarının yaradıcılığını tədqiq və təhlil etmişdir. Teatr sənətinin ardıcıl və istedadlı təbliğatçılarından biri kimi tanınmışdır. Onun görkəmli yazıçıların yaradıcılığı, bədii əsərlər, ədəbiyyatımızın müasir problemləri, dramaturgiya və teatr tamaşaları haqqında televiziyada, radioda apardığı silsilə verilişlər, müxtəlif konfranslarda etdiyi çıxışlar ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

X.Əlimirzəyev elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuş, "Səadət sorağında" pyesi Akademik Dövlət Dram Teatrında, "Daşa dönmüş ürəklər" əsəri Bələdiyyə Teatrında tamaşaya qoyulmuşdur. 2008-ci ildə povest, hekayə, pyes və ssenarilərindən ibarət "Bələdçi" adlı seçilmiş əsərləri çap olunmuşdur.

Görkəmli ədəbiyyatşünas-alim Xalid Əlimirzəyev 2016-ci il yanvar ayının 30-da Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Dahi sənətkar böyük vətəndaş: C.Məmmədquluzadənin həyatı, dövrü, mühiti, ədəbi-ictimai fəaliyyəti: monoqrafiya /X.Əlimirzəyev; red.: T.Mütəllimov, F.Davud qızı.- Bakı: Elm və təhsil, 2010.- 638 s.

Dramaturgiya, teatr və səhnə sənəti /X.Əlimirzəyev; elmi red. N.Şəmsizadə.- Bakı: Nurlan, 2004.- 186 s.

Mənəvi borc: Mir Cəlal haqqında xatirələr /X.Əlimirzəyev; red. T.Mütəllimov.- Bakı: Nurlan, 2006.- 192 s.

Nizami Gəncəvinin insan konsepsiyası: monoqrafiya /X.Əlimirzəyev; elmi red. Ə.Səfərli.- Bakı: Gənclik, 2001.- 354 s.

Cəbrayıloğlu, E. Xaqanidən üzü bəri... : Professor Xalid Əlimirzəyev klassiklərimizin ideal və poetik sənət dünyasını araşdırıb /E.Cəbrayıloğlu //Ədalət.- 2010.- 9 fevral.- S.7.

90 illiyi

İmamverdi Əbilov 1927-2016

Alim

İmamverdi Xankişi oğlu Əbilov 1927-ci il dekabr ayının 19-da Neftçala rayonunun Qoltuq kəndində anadan olmuşdur. Qoltuq kənd yeddiillik məktəbini tamamladıqdan sonra 1946-cı ildə Buzovna Pedaqoji məktəbinə göndərilmiş, sonra isə S.M.Kirov adına Azərbaycan Dövlət Darülfununun (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1942-ci ildə balıq vətəgəsində başlamışdır. 1946-1955-ci illərdə Neftçala Rayon Partiya Komitəsinin Təbliğat-təşviqat şöbəsinin müdiri, 2-ci katibi, Neftçalada ədəbiyyat müəllimi kimi fəaliyyət göstərmişdir. İ.Əbilov elmi-ədəbi-publisistik fəaliyyətlə məşğul olmuş, 1960-cı ildə ilk "Rəsul Rza" kitabı kütləvi tirajla çapdan çıxmış və həmin il o, respublikanın "Qabaqcıl maarif xadimi" adına layiq görülmüşdür. 1970-ci ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi rütbəsini almışdır.

1988-ci ildə Moskvada keçirilən Ümumittifaq təhsil işçilərinin qurultayında, 1989-cu ildə isə pedaqoji cəmiyyətlərin təsis qurultayında (Moskva) nümayəndə olmuşdur. Publisistik əsərlərindən bəzi nümunələr orta məktəblərdə tədris olunan "Ailə" dərsliyinə daxil edilmişdir.

Moskvada, Tehranda, Bağdadda, Zaqafqaziya respublikalarının paytaxtlarında keçirilən elmi simpozium və konfranslarda respublika elmi-ədəbi ictimaiyyətini təmsil etmişdir. Yeni dərsliklər yaradılması üzrə respublika komissiyasının üzvü olan İ.Əbilovun Respublika və keçmiş ittifaqın bir sıra mətbuat orqanlarında elmi, ədəbi, nəzəri, pedaqoji məsələlərdən bəhs edən 700-dən artıq məqalə və resenziyası dərc olunmuşdur. Azərbaycan Elmlər Akademiyası Rəyasət heyətinin Neftçalada keçirdiyi "Yeni dövr və ziyalı mövqeyi", "Ziyalı və zaman", "Elmlər Akademiyası - 50", "Füzuli - 500", "İlk milli Konstitusiyamız və Azərbaycan dili", "Dədə Qorqud - 1300" mövzularına həsr olunmuş elmi-nəzəri konfranslar İmamverdi Əbilovun təşəbbüsü və yaxından iştirakı ilə keçirilmişdir.

"Zamanla Vaxt arasında", "Xalqla xidmət-el məhəbbətinə körpüdür", "Ömrün anları", "Təbiətin və təfəkkürün möcüzəsi", "Dünənin... Sabahın... Çağdaş dahisi" və s. bir çox əsərlərin müəllifidir.

1985-ci ildə SSRİ maarif əlaçısı olmuş, 1990-cı ildə isə Krupskaya adına Ümumittifaq pedaqoji mükafatına layiq görülmüşdür. Türk Dünyası Araşdırmaları Uluslararası EA-nın üzvü, "Fəxri xeyriyyəçi" qızıl medalına, bir çox təltiflərə, diplomlara layiq görülmüşdür. 1993-cü ildə Azərbaycan Respublikasının "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

İmamverdi Əbilov 2016-cı il aprel ayının 9-da Neftçala rayonunda, 89 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Dünənin... sabahın... çağdaş dahisi: sənədli esse: [ümummilli lider Heydər Əliyev haqqında] /İ.Əbilov; red. T.Əhmədov.- Bakı: Nurlar, 2007.- 88 s., [4] v.

Ömrün dan qızartısından qürub şəfəqlərinədək... /İ.Əbilov; red. T.Tofiq qızı.- Bakı: Təhsil, 2001.- 348 s.

Ömrün və elmin romantikası /İ.Əbilov; tərt.ed. Azər Turan.- Bakı: Letterpress, 2015.- 749 s.

Təbiətin və təfəkkürün möcüzəsi /İ.Əbilov; red.: E.İskəndərzadə.- Bakı: Vektor NE, 2005.- 74 s.

"Heydər Əliyev təkrarsız şəxsiyyət idi": Əməkdar müəllim, Prezident təqaüdçüsü, professor İmamverdi Əbilovla söhbət /İ.Əbilov; söhbəti apardı E.Umudlu //Azərbaycan müəllimi.-2016.- 16 aprel.- S.7.

Nəbiyev, B. El ağsaqqalı, elm fədaisi İmamverdi Əbilov /B.Nəbiyev.- Bakı, 2007.- 32 s.

http://libraries.az/
http://neftchala.cls.az

85 illiyi

Şəmsəddin Axundov 1932

İctimai xadim

Ə d ə b i y y a t

Azərbaycanda aviasiyanın tarixi: Azərbaycan dilində materialların biblioqrafiyası /Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyəti Milli Aviasiya Akad., Azərb. Resp. Mədəniyyət və Turizm Naz-yi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; baş məsləhətçi A.M.Paşayev; elmi red. N.Paşayeva; tərt. Ş.Axundov; ixtisas red. və buraxılışa məsul. K.M.Tahirov.- Bakı: [s. n.], 2012.- 252, [4] s.

Mir Cəlal: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət Nazirliyi, M. F. Axundov ad. Azərb. Milli Kitabxanası; tərt.-müəl. N.P.Nağıyeva; elmi red. Ş.Ə.Axundov; ixt. red. K.M.Tahirov; red. M.Ə.Vəliyeva.- Bakı: Adiloğlu, 2006.- 259, [1] s.

История авиации в Азербайджане: библиография материалов на русском языке /Закрытое Акционерное Общество "Азербайджан Хава Йоллары"; Национальная Академия Авиации ; М-во Культуры и Туризма Азерб. Респ., Азерб. Национальная Библиотека имени М.Ф.Ахундова ; сост. Ш.Ахундов; науч. ред. Н.Пашаева; гл. консультант А.М.Пашаев; спецред. и отв. за вып. К. Тахиров.- Баку: [s.n.], 2012.- 279, [1] с.

Şəmsəddin Əşrəf oğlu Axundov 1932-ci il dekabr ayının 3-də Bakı şəhərində, sadə bir ailədə dünyaya göz açmışdır. Bakı şəhərinin 51 saylı orta məktəbini əla qiymətlərlə başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika şöbəsinə daxil olmuş, 1956-cı ildə universiteti bitirdikdən sonra müxtəlif hökumət qurumlarında, ictimai-siyasi təşkilatlarda işləmişdir. Harada işləməsindən, hansı vəzifədə çalışmasından asılı olmayaraq mənəvi keyfiyyətləri, yüksək intellekti, peşəkarlığı və sədaqəti ilə seçilmiş, fərqlənmişdir.

Şəmsəddin Axundov 1956-1965-ci illərdə Mədəniyyət Nazirliyində (indiki Mədəniyyət və Turizm Nazirliyi) metodist-inspektor, baş metodist, şöbə müdiri vəzifələrində çalışmışdır. 1965-cı ildən Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində məsul katib, 1967-ci ildən sədr vəzifələrində çalışan Ş.Axundov 1969-1981-ci illərdə Azərbaycan Həmkarlar İttifaqları Şurasında şöbə müdiri işləmişdir.

Ş.Axundov 1981-1987-ci illərdə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının Elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 1988-ci ildə o, Mədəniyyət Nazirliyinin Mədəni-maarif Müəssisələri İdarəsinə rəis təyin olunmuşdur. Burada bir çox vəzifələrlə yanaşı, 1991-2001-ci illərdə nazir müavini vəzifəsində işləmiş, həmçinin Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə Mədəniyyət Nazirliyi Kollegiyasının üzvü təyin olunmuşdur.

2005-ci ildən Şəmsəddin Axundov Milli Aviasiya Akademiyasında prorektor vəzifəsində çalışır. O, burada Aviasiya Tarixi Muzeyinin fəal qurucularından biri və ilk direktoru olmuşdur. Onun gərgin əməyi sayəsində Muzeydə Azərbaycanda aviasiya tarixinə dair, xalqımızın ilk qəhrəman aviator oğlan və qızları haqqında zəngin material toplanmışdır.

Topladığı məhz bu dəyərli materiallar əsasında Azərbaycanda ilk dəfə olaraq Azərbaycan və rus dillərində aviasiya tarixinə dair "Azərbaycanda aviasiyanın tarixi: Biblioqrafiya" adlı fundamental kitab tərtib etmişdir. Azərbaycanda aviasiyanin tarixindən, ilk aviatorlarından hərtərəfli məlumat verən bu vəsait illər keçsə də həmişə aktual və əhəmiyyətlidir.

Şəmsəddin Axundov harada və hansı işi görməsindən asılı olmayaraq, vəzifəsini böyük həvəs və ürəklə yerinə yetirmiş, həyatda nail olduqlarını zəhməti bahasına qazanmışdır.

85 yaşlı yubilyarın əməyi layiqincə qiymətləndirilmiş, o, "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" ordenləri, "Əla mədəniyyət işçisi" medalı, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmiş, "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Hal-hazırda Milli Aviasiya Akademiyasında İctimaiyyətlə əlaqələr üzrə prorektordur.

80 illiyi

Əliyar Səfərli
1937

Ədəbiyyatşünas

Əliyar Qurbanəli oğlu Səfərli 1937-ci il dekabr ayının 28-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Anabad kəndində anadan olmuşdur.

İbtidai təhsilini 1943-1947-ci illərdə Anabad kənd məktəbində almış, 1947-1951-ci illərdə Gənzə kənd yediillik məkətbində və Ordubad şəhər Pedaqoji məktəbində təhsilini uğurla davam etdirmişdir. Bu uğurun davamı olaraq 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirdikdən sonra, 1960-cı ildə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində baş laborant vəzifəsinə təyin edilmişdir.

1966-cı ildə "Məsihi və onun "Vərqa və Gülşa" poeması" mövzusunda namizədlik, 1983-cü ildə isə "XVII-XVIII əsrlər Azərbaycan epik ədəbiyyatı" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

1992-1994-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyində Ədəbiyyatşünaslıq bölməsinin sədri vəzifəsində çalışdıqdan sonra, 1994-1998-ci illərdə ümummilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur.

1997-ci ildə İqtisadi Əməkdaşlıq Təşklatının (EKO) Daimi Nümayəndələr Şurasının yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin olunmuşdur.

1998-ci ildə Bakı Dövlət Universitetinin Azərbaycan Ədəbiyyatı tarixi kafedrasının professoru elmi rütbəsini almışdır.

2000-2004-cü illərdə AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutuna baş elmi işçi, 2001-2002-ci illərdə BDU-nun M.Cəlal adına Azərbaycan ədəbiyyatı tarixi kafedrasının kafedra müdiri, Nizami ad. Ədəbiyyat İnstitutunda Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi və s. vəzifələrdə çalışmışdır.

Ə.Səfərlinin yaradıcılığı 50-dən artıq elmi kitab və 500-dən artıq elmi məqalədə əks olunmuşdur. O, "Xətayi. Əsərləri" (2005), "Məsihi. Divanı" (1998), "M.Füzuli. Qoy məni dərdimlə" (1960), "Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən" (1988), "M.Füzuli. Hədiqətüs süəda" (1993), "Məhəmməd Şəhriyar" (1987, 2006) və s. kimi elmi tədqiqat əsərlərinin müəllifidir.

Ədəbiyyatşünas, mətnşünas, maarif xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ə.Səfərli 2007-ci ildə AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Dastani-Əhməd Hərami /Tərtib ed.Ə.Səfərli.- Bakı: Şərq-Qərb, 2004.- 119 s.

Əmani. Əsərləri /Əmani; tərt. ed. və ön sözün müəl. Ə. Səfərli ; red. X. Yusifov.- Bakı: Şərq-Qərb.- 2005.-726 s.

M.Füzuli. Hədiqətüssuəda /Ə.Səfərli.- Bakı: Şərq-Qərb.- 2005.-223 s.

Məhəmməd Şəhriyar /tərt., ön söz və lüğətin müəl. Ə.Səfərli.- Bakı: Şərq-Qərb, 2006.- 214 s.

Əlyar Səfərli: biblioqrafiya /Tərt. ed. İ.Səfərov; red. A.Əliyeva-Kəngərli.- Bakı: Elm, 2008.-124 s.

90 illiyi

Xudu Məmmədov 1927-1988

Alim

Xudu Surxay oğlu Məmmədov 1927-ci il dekabr ayının 14-də Ağdam rayonunun Mərzili kəndində dünyaya gəlmişdir. Kəndlərində dördüncü sinfi bitirdikdən sonra Novruzlu kəndində yeddiillik məktəbə getmişdir.

Ağdamda orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinin geologiya şöbəsinə daxil olmuş, 1951-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vurduqdan sonra müəllimi Heydər Əfəndiyevin təkidi ilə Azərbaycan Elmlər Akademiyasının Kimya İnstitutuna təyinat almışdır.

SSRİ EA-nın Kristalloqrafiya İnstitutunun aspiranturasına daxil olmuş, 1955-ci ildə kristalloqrafiya və kristallofizika ixtisası üzrə "Ksonolit və vollastonit minerallarının kristal quruluşu" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1970-ci ildə isə geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

1973-cü ildə professor elmi rütbəsini almış, 1976-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

1957-ci ildən Azərbaycan Elmlər Akademiyası Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun Struktur kimya laboratoriyasının müdiri vəzifəsində çalışmışdır.

Bir neçə illik tədqiqatların yekunu olaraq, 1960-cı ildə "Kalsium-silikatları və hidrosilikatların kristallokimyası" monoqrafiyasını yazmışdır.

Əsas elmi işləri kristallokimyəvi sahəsində olmuşdur. Silikat birləşmələrindən bir çoxunun quruluşunu müəyyənləşdirmiş, həmin birləşmələr sinfi ilə boratlar, karbonatlar, yarımkeçiricilər və s. arasında kristallokimyəvi qohumluq olmasını aşkara çıxarmış, 50-dən artıq üzvi liqandlı kompleks birləşmənin molekul və kristal quruluşunu öyrənmiş, tədqiqatlarında elektronoqrafiya, rentgen-spektral analiz və hidrotermal sintez üsullarından geniş istifadə etmişdir.

Xudu Məmmədovun Azərbaycan televiziyasında uzun müddət aparıcısı olduğu "Elm və həyat" verilişi neçə-neçə gəncin elmə marağının formalaşmasında böyük rol oynamışdır. Bu veriliş elm adamlarının, ziyalıların mənəvi-intellektual ehtiyaclarını ödəmək baxımından bu gün də TV kanalları üçün bir örnək, ən gözəl nümunədir.

Milli Azadlıq Qərargahı təşkilatının qurucularından biri olmuş (1969), Böyük Britaniya Kral Akademiyasının fəxri üzvü (1957) seçilmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Xudu Məmmədov 1988-ci il oktyabr ayının 15-də Bakıda vəfat etmişdir.

Bakı şəhərindəki küçələrdən biri Xudu Məmmədovun adını daşıyır. Haqqında "Dünya vətəndaşı. Xudu Məmmədov" adlı qısametrajlı sənədli televiziya filmi çəkilmişdir.

Ə d ə b i y y a t

Elim köməyim olsun: Kitab Xudu Məmmədovun nəşr edilmiş əsərlərindən və arxivində olan əlyazmalardan tərtib olunub /Xudu Məmmədov.- Bakı, 2002.- 121 s.

Qurdum ki, izim qala... /X.Məmmədov; red. C.Məmmədli.- Bakı, 2007.- 358 s.

Ölümdən sonra yaşayan insan – Xudu Məmmədov //Təzadlar.-2013.- 17,24, 26 yanvar.

Məmmədov Xudu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1982.-C.6.- S.503.

İ n t e r n e t d ə

https://az.wikipedia.org/wiki/C9%99mm%C9%99dov

http://www.tezadlar.az/sagm/4668-xudu-mmmdov-haqqnda-yeni-toplu.html

80 illiyi

Akif Hacıyev 1937-2015

Akademik

Akif Cəfər oğlu Hacıyev 1937-ci il dekabr ayının 8-də Bakı şəhərində anadan olmuşdur.

1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetində (indiki - Bakı Dövlət Universiteti) təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun Funksiyalar nəzəriyyəsi şöbəsində kiçik elmi işçi kimi başlamışdır.

1961-1967-ci illərdə elmi katib, 1967-1978-ci illərdə baş elmi işçi, 1978-1992-ci illərdə Həqiqi dəyişənli funksiyalar nəzəriyyəsi şöbəsinin müdiri kimi vəzifələrdə çalışmışdır.

A.Hacıyev 1964-cü ildə fizika-riyaziyyat elmləri üzrə "Bəzi operatorlar ailələrinin yaxınlaşma xüsusiyyətləri" mövzusunda namizədlik, 1982-ci ildə "Çoxölçülü bürünmə tipli operatorlar nəzəriyyəsi üzrə tədqiqatlar" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1985-ci ildən riyazi analiz ixtisası üzrə professor, 1989-cu ildə AEA-nın müxbir üzvü, 2001-ci ildən isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

1992-1999-cu illərdə Türkiyə Dövlətinin dəvəti ilə Ankara Universitetinin professoru kimi fəaliyyət göstərmişdir. Həmin illərdə Ankara Universitetinin "matematik" bölümündə "Xətti müsbət operatorlar və yaxınlaşmalar nəzəriyyəsi", "Harmonik funksiyalar", "Delta nüvəli inteqral operatorlar", "Fürye çevirmələri" və s. kimi kurslar üzrə mühazirələr oxumuş və həmin müddətdə çoxlu sayda magistr, fəlsəfə doktorları hazırlamışdır. 1995-ci ildə türkiyəli alim, professor H.Hacısalihoğlu ilə birlikdə "Xətti müsbət operatorlar ardıcıllığının yığılması" adlı kitab çap etdirmişdir.

1999-cu ildə yenidən ölkəmizə qayıdaraq Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitunda şöbə müdiri, 2001-ci ildən AMEA Fizika-Riyaziyyat və Texnika Elmləri bölməsinin akademik-katibi seçilmişdir. 2004-2013-cü ilə qədər AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru işləmiş, 2013-cü ildən AMEA-nın vitse-prezidenti olmuşdur.

Dörd monoqrafiyanın, 210-dan artıq elmi əsərin müəllifidir. Alim ölkəmizdə və bir sıra xarici ölkələrin mühüm nüfuzlu orqanlarında çap olunmuşdur. Məsələn, A.Hacıyevin sinqulyar inteqral operatorlar nəzəriyyəsi sahəsində aldığı mühüm nəticələr görkəmli riyaziyyatçılar S.Q.Mixlin və S.Prössdorfun 1986-cı ildə ABŞ-da çap etdirdikləri "Sinqulyar inteqral operatorlar" kitabına daxil edilmişdir.

27 nəfər riyaziyyat üzrə fəlsəfə doktoru və fizika-riyaziyyat üzrə elmlər doktorları hazırlamışdır. Müxtəlif Respublika və Beynəlxalq simpozium, konfrans və forumlarda çıxış etmişdir.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni, "Əməkdə fərqlənməyə görə" və "Əmək veteranı" medalı, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmiş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Fəxri Fərmanı ilə mükafatlandırılmışdır.

Akif Hacıyev 2015-ci il fevral ayının 3-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Akademik Akif Hacıyev vəfat etdi: Nekroloq //Ekspress.-2015.- 5 fevral.- S.15.

Akif Cəfər oğlu Hacıyev // Azərbaycan.-2015.-5 fevral.-S.4.

Mərdanov M. Şərəfli alim ömrü /M.Mərdanov, V.Quliyev //Respublika.- 2015.- 14 mart.

Бабаев, М.-Б. Математики Азербайджана XX век /М.-Б.Бабаев, Э.Тагизаде, К.Мусаев; науч. ред. А.Д.Гаджиев.- [Баку]: ["OKA Ofset"], [2007].- 175, [1] с.

Акиф Джафар оглу Гаджиев //Бакинский рабочий.-2 015.- 5 февраля.- С.3.

http://www.anl.az/down/meqale/bakrabochiy/2015/fevral/418910.htm

Ümumdünya QİÇS-lə Mübarizə Günü 1996



1 Dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür. XX əsrdə bəşəriyyətin qarşılaşdığı ən böyük problemlərdən biri QİÇS - Qazanılmış İmmun Çatışmazlığı Sindromudur. Xəstəliyin beynəlxalq işarəsi AİDS-dir (ing: Acquired Immune Deficiency Syndrome).

QİÇS - İnsanın İmmunçatışmazlıq Virusu (İİV) tərəfindən törədilən infeksion xəstəlikdir. Belə ki, İİV digər viruslardan fərqli olaraq, məhz immun kompitent hüceyrələrə hücum edir. Digər hallarda orqanizmə daxil olan virusu müdafiə hüceyrələri qabaqlayıb immun sistemi işə salırsa, İİV onun "yaddaşını pozur", bununla da normal immun hüceyrələrin sayı getdikcə azalır, immun çatışmazlıq yaranır. Nəticədə insanların immun-müdafiə sistemi kəskin zəifləyir və onlar bir çox xəstəliklərə asanlıqla tutulur. İnkubasiya dövrü (gizli dövr) 3-6 həftədir. Sonra xəstəliyin kəskin mərhələsi başlanır. Əsas əlamətləri: titrətmə, angina, limfa düyünlərinin böyüməsi, dəridə səpgilər və s. Sonra əlamətlər keçib gedir, xəstə virusgəzdirici kimi sağlam adamlardan seçilmir. Növbəti mərhələdə boyun, qoltuqaltı, dirsək və s. limfa düyünlərinin böyüməsi, uzunmüddətli subfebril (37) qızdırma əlamətləri, bəzi xəstələrdə titrətmə ola bilər. Sonrakı mərhələdə isə xəstəliyə aid olmayan əlamətlər özünü büruzə verir: qızdırma, çox arıqlama, ümumi zəiflik, iş qabiliyyətinin və yuxunun pozulması və s. QİÇS ikincili infeksiyalar və bədxassəli şişlərlə müşayiət olunur və ölümə səbəb olur. Narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya, natəmizlik - bütün bunlar QİÇS-in yaranmasında və yayılmasında mühüm rol oynayır.

QİÇS xəstəliyinə yoluxma əsasən 3 yolla baş verə bilir. Cinsi yolla, virus olan qan qalıqları ilə təmasda olan tibbi və digər alətlərdən istifadə ilə, transplasentar yolla (xəstəliyin xəstə anadan bətndaxili dövrdə cift vasitəsilə dölə keçməsi). Xəstə anadan uşağa bu xəstəlik laktasiya (süd vermə) yolu ilə də keçə bilər. Əslində virus insan orqanizmindəki digər maye formalarında aşkar olunsa da, yoluxdurabilmə qabiliyyəti daha çox qan, sperma və ana südündə aşkar olunub. İİÇV bilavasitə qaraciyər, ürək, sümük və başqa orqanların hüceyrələrini zədələyir.Orqanizmdə "gizli" qala bilir və daşıyıcı olur, yoluxdura bilir. 1996-cı ildə Milli Məclisdə "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında" qanun qəbul edilib. Lakin sonrakı dövrlərdə bu xəstəliyin qurbanlarının sayı get-gedə artdığı üçün həmin qanuna yenidən nəzər salınıb, Cinayət Məcəlləsində müəyyən dəyişikliklər edilib. İndi bu sindromu bilərəkdən yayanları 3 ildən 7 ilədək həbs cəzası gözləyir.

Ə d ə b i y y a t

Piriyev, C. Bəşəriyyətin bəlası-QİÇS /C.Piriyev //İki sahil.- 2014.- 13 mart.- S.1

Ramid. 3600 vətəndaşımızı "sümürən" bəla… : Azərbaycanda QİÇS fəlakəti və bu xəstəliyin qurbanlarının durumu müzakirəyə çıxarıldı /Ramid //Bizim yol.-2013.- 14 noyabr.- S.13.

İ n t e r n e t d ə

http://www.anspress.com/

http://www.aztv.az/

Beynəlxalq Əlillər Günü 1992

3 Dekabr - Beynəlxalq Əlilliyi Olan Şəxslər Günü kimi qeyd olunur. Dünya əhalisinin təxminən 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. 1982-ci ildə BMT Baş Məclis tərəfindən qəbul edilmiş əlillərə münasibətdə Ümumdünya hərəkət proqramında xüsusi təkliflər göstərilib. Bundan sonra Beynəlxalq Əlillər Günü Rusiya Federasiyasının təşəbbüsü ilə 3 dekabr 1992-ci ildə BMT-nin Baş Assambleyasında qəbul edilib.

Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb.

Ulu öndər Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşıb, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görüb.

Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği də hər il artırılır. Pensiya islahatları çərçivəsində ölkədə sığorta-pensiya sisteminin inkişafına dair 2009-2015-ci illəri əhatə edən Dövlət Proqramı qəbul edilib. Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva da əlillərin problemlərini daim diqqətdə saxlayır. Fondun "Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanların informasiya kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində zəif görən uşaqlar üçün respublika internat məktəbində gördüyü işlər Mehriban xanım Əliyevanın bu qəbildən olan insanlara qayğısının göstəricisidir.

Ə d ə b i y y a t

Məmmədli, M. Azərbaycanda 530 min əlil var. 3 dekabr - Beynəlxalq Əlillər Günüdür /M.Məmmədli //Ekspress .-2015.- 3 dekabr.- S.10.

Nərimanoğlu, M. Əlillərə qayğı dövlət siyasətinin tərkib hissəsidir. 3 dekabr Beynəlxalq Əlillər Günüdür /M.Nərimanoğlu //Azərbaycan .-2015.- 3 dekabr.- S. 6.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/express/2015/dekabr/466097.jpg

http://www.anl.az/down/meqale/azerbaycan/2015/dekabr/466183.htm

Beynəlxalq İnsan Hüquqları Günü 1948

1948-ci il dekabr ayının 10-da BMT-nin Baş Məclisi tərəfindən "İnsan hüquqları haqqında ümumi bəyannamə" qəbul edilmişdir. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-u bütün dünyada "Beynəlxalq İnsan Hüquqları Günü" kimi qeyd olunnmağa başlanmışdır.

Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli "Avropa İnsan Hüquları Konvensiyası" mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu konvensiyaya əsaslanan və eyni zamanda real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir.

Azərbaycanda Milli İnsan Hüquqları günü 18 iyunda qeyd olunur. Azərbaycan dünyada öz Milli İnsan Hüquqları Gününü qeyd edən yeganə ölkədir. Prezident İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə ulu öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunduğu nəzərə alınaraq Azərbaycanda Milli İnsan Hüquqları Günü təsis edilib.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olub. İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən ulu öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi.

Azərbaycanda aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaratmış, bu müddət ərzində ölkəmiz bir çox hüquqi aktlara qoşulmuşdur. BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" Memorandum imzalanıb.

Ə d ə b i y y a t

Hacalıyev, E.Azərbaycanda insan hüquq və azadlıqları yüksək səviyyədə təmin edilib. 10 Dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür /E.Hacalıyev //Azərbaycan.- 2015.- 10 dekabr.- S.10.

Məhərrəmli, Z. Azərbaycanda Milli İnsan Hüquqları Günü /Z.Məhərrəmli //525-ci qəzet.- 2015.- 19 iyun.- S.2.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2015/dekabr/467752.htm

Xankəndinin işğalı günü 1991

Ərazisi: 1048 km²
Əhalisi: 57 000 nəfər

Yuxarı Qarabağın mərkəzi olan Xankəndi şəhəri 28 dekabr 1991-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, separatçı rejim yaradılmışdır.

1991-ci il dekabr ayının 28-da Xankəndinin itirilməsi, qarşıda Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilanın işğalına yol açdı.

Yuxarı Qarabağın mərkəzi, Qarqar çayının sahilində, Qarabağ silsiləsinin Şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşən Xankəndi, Azərbaycanın inkişaf etmiş sənaye mərkəzi idi. Şəhərdə yüngül və yeyinti sənayesi müəssisələri var idi. Elektrotexnika, avtomobil təmiri və asfaltbeton zavodları, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris istehsalat kombinatları belə müəssisələrdən idi.

Tarixi sənədlərə görə Xankəndi şəhəri XVIII əsrin axırlarında, o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdı. Elə şəhərin adı da buradan yaranmışdır. 1813-cü ilədək bircə nəfər erməninin də yaşamadığı Xankəndində sonralar çar Rusiyası tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bura İrandan köçürülən ermənilər yerləşdirilmişdir.

SSRİ dövründə Xankəndində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da güclənmiş, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılmışdır. 1923-cü ildə Rusiya İmperiyasının siyasətilə Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Bundan sonra vilayətin ermənilərşdirilməsi siyasəti aktivləşmiş, 6 oktyabr 1923-cü ildə ermənilərin müraciəti nəzərə alınaraq Xankəndinin adı dəyişdirilərək Azərbaycan xalqına qarşı genosid törətmiş cinayətkar Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılmışdır. Muxtar Vilayətdə rəhbər vəzifələrə ermənilər irəli çəkilmiş, beləliklə də, Xankəndi erməni işğalı altına düşmüş, keçmiş SSRİ dövründə Xankəndində yaşayan azərbaycanlılar tədricən buradan didərgin salınmışlar.

1988-ci il hadisələri başlayanda Xankəndində erməni əhalisi azərbaycanlılara nisbətdə xeyli çoxluq təşkil edirdi. Həmin vaxt azərbaycanlıların sayı 17 minə yaxın idisə, ermənilər artıq 40 min nəfərədək artmışdılar.

1988-1989-cu ildə Xankəndi artıq erməni separatizminin mərkəzinə çevrilmişdi. Moskvanın himayəsilə güclənən erməni separatizmi sonuncu azərbaycanlıları 28 dekabr 1991-ci ildə Xankəndindən qovmağa nail olmuş, şəhərin işğalı və etnik təmizləmə tam başa çatdırılmışdı.

Ə d ə b i y y a t

Qaraca ,B.Xankəndinin işğalı Kərkicahandan başladı /B.Qaraca //Azərbaycan .-2014.- 28 dekabr.- S.7.

Qaraca.Xankəndidən, Kərkicahandan başlayan işğallar //Azərbaycan .-2015.- 26 dekabr.- S. 7.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/azerbaycan/2015/dekabr/470301.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2014/dekabr/411572.htm

Dünya Azərbaycanlılarının Həmrəylik Günü 1991



31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Tarixən dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdürlər. Hazırda azərbaycanlılar müxtəlif məqsədlərlə dünyanın fərqli ölkələrində yaşayırlar.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi əlaqələri bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhədlərə qarşı xalqın etiraz etməsi əsasında qoyulmuşdur. "Sərhəd hərəkatı" adı ilə başlanan bu siyasi aksiya 1989-cu il dekabrın axırlarında - SSRİ-nin son günlərində, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüşü, Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması kimi hadisələrlə tarixdə iz qoydu. İki totalitar rejimin ciddi təzyiqlərinə baxmayaraq, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. 1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. 1991-ci il 16 dekabrda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ümummilli lideri Heydər Əliyev - "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik" ideologiyasını rəhbər tutaraq dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi və onun sərəncamına müvafiq olaraq 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Qurultay dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Qurultay Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi. Türk dünyasının böyük lideri Heydər Əliyev minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi idi.

Hazırda dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Əlli milyona yaxın olan azərbaycanlılar YUNESKO-nun məlumatına görə, 30 milyon Cənubi Azərbaycanda, 3 milyon Türkiyədə, 2 milyondan artıq Rusiyada, 1,5 milyon ABŞ-da, 500 min Ukraynada, 300 min Almaniyada, 180 min Fransada, 175 min Kanadada, 350 min Hindistan və Pakistanda, 700 min İraqda, 430 min Əfqanıstanda yaşayır (2011).

Ə d ə b i y y a t

Azərbaycan diasporuna dövlət qayğısı: Müasir mərhələ /buraxılışa məs., ön söz. N. İbrahimov; tərt. N. Qurbanov, R. Hüseynov, E. Miraləm; Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi; [fotolar. AzərTac]; Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi.-Bakı: Çaşıoğlu, 2006.-171 s.

- *Bu bölmədə 2017-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz.*

300 il Molla Pənah Vaqif 1717-1797



Vaqif öz şeirlərində Şuşanı məhəbbətlə vəsf edərək onun sıldırımlı qayalıqlarına, uca dağlarına vurulduğunu dəfələrlə söyləyib. Bu səbəbdən də onu qayalı təpənin üstündə dəfn etmişdilər. Şairin əzəmətli məqbərəsi də orada ucalmışdı. Qarabağın çox yerindən görünürdü. Abidənin müəllifləri memar Ə.Salamzadə, heykəltəraş A.Mustafayevdir. 18 metrdən hündür olan məqbərə dördtilli qüllə şəklində idi. Divarlara bayır tərəfdən çəhrayı, içəri tərəfdən ağ Qarabağ mərmərindən üz çəkilmişdi. Məqbərənin içərisinə pəncərələrin şəbəkəşəkilli barmaqlıqlarının arasından işıq süzülürdü. Məqbərənin mərkəzində qara mərmərdən yonulmuş sarkofaq vardı. İçəri tərəfdən giriş qapısı ilə üzbəüz səmtdə Vaqifin ağ mərmərdən yonulmuş büstü qoyulmuşdu. Kompleks Şuşa şəhərinin görkəmli yeri olan Cıdır düzünə yaxın bir ərazidə, dahi şairin məzarı üstündə inşa edilmişdir. Burada M.P.Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan səksənə yaxın eksponat da sərgilənirdi.

Məqbərə qədim və gözəl Şuşamızın simasının ayrılmaz hissəsinə çevrildi.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarsa eksponat məhv edilmiş, aparılması mümkün olanlar isə daşınmışdır.

2017

Milli ədəbiyyat

Şair Qətran Təbrizi Əbu Mənsurun (1012-1088) anadan olmasının 1005 illiyi 381
Şair Vaqif Molla Pənah Mehdi ağa oğlunun (1717-1797) anadan olmasının 300 illiyi 382
Şair Nəbati Seyid Əbdülqasım Möhtərəm oğlunun (1812-1873) anadan olmasının 205 illiyi
Şairə Qonçabəyimin (təq.1827-?-) anadan olmasının 190 illiyi
Əməkdar incəsənət xadimi Babayev Əbdülhüseyn Mikayıl oğlunun (1877-1961) anadan olmasının 140 illiyi
Tərcüməçi, publisist İbrahimov Xəlil İbrahim oğlunun (1892-1938) anadan olmasının 125 illiyi
Dramaturq Hümmətov İsgəndər Məhəmməd oğlunun (İsgəndər Coşqun) (1927-10.12.1996) anadan olmasının 90 illiyi

Folklor

Aşıq-şair Talıb Ələsgər oğlunun (Aşıq Talıb) (1877-21.05.1979) anadan olmasının 140 illiyi

Dünya ədəbiyyatı

İraq şair və tədqiqatçısı, ədəbiyyatşünas Bəndəroğlu Əbdüllətifin (1937-07.02.2008) anadan olmasının 80 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Memar Hacıbababəyov Qasım bəy Hacıbaba bəy oğlunun (1812-1874) anadan olmasının 205 illiyi
Görkəmli memar Qarabaği Kərbəlayı Səfixan Sultanhüseyn oğlunun (1817-1910) anadan olmasının 200 illiyi
Rəssam Nəzərli Nəcəfqulu Cavad oğlunun (Nəcəf Rasim) (1882-1929) anadan olmasının 135 illiyi
Heykəltəraş Quliyev İbrahim Hilal oğlunun (1902-1941) anadan olmasının 115 illiyi

Musiqi.Opera.Balet

Xanəndə Fərzəliyev Məşədi Məmmədin (1872-1962) anadan olmasının 145 illiyi 383
Əməkdar incəsənət xadimi, tarzən Məşədibəyov Ağası Abutalıb oğlunun (1912-1984) anadan olmasının 105 illiyi

Xalq artisti Məlikaslanov Ramiz Lütfəli oğlunun (1942) anadan olmasının 75 illiyi
Xalq artisti, rəqqasə Bayramova Cəmilə Əsədulla qızının (1957) anadan olmasının 60 illiyi

Teatr.Kino

Əməkdar artist, aktyor Kazımovski Mirmahmud Mirələkbər oğlunun (1882-01.12.1940) anadan olmasının 135 illiyi 384
İlk qadın aktrisa Gövhər Əhməd qızı Qazıyeva (Göyərçin xanım) (1887-1960) anadan olmasının 130 illiyi 385
Əməkdar artist Məmmədova Əzizə Əbdülbaği qızının (1892-14.08.1961) anadan olmasının 125 illiyi 386
Əməkdar artist Lizina Nataliya Davıdovnanın (İsmayılova) (1892-1957) anadan olmasının 125 illiyi
Əməkdar artist Məmmədov Əhməd Musa oğlunun (1897-1953) anadan olmasının 120 illiyi
Əməkdar artist Kələntərli Münəvvər Səməd qızının (1912-05.02.1963) anadan olmasının 105 illiyi 387

Siyasət.Hərbi iş

Sacilər dövlətinin başçısı Yusif İbn Əbu Sac Divdadın (912-927) anadan olmasının 1105 illiyi
Azərbaycan sərkərdəsi, dövlət xadimi, səyyah Oruc bəy Bayatın (1567-1605) anadan olmasının 450 illiyi
Dövlət xadimi, siyasətçi Behbud ağa Azad ağa oğlu Cavanşir (Behbud ağa Cavanşir) (1887-18.07.1921) anadan olmasının 130 illiyi 388
Xalq qəhrəmanı Məmmədov Məmməd Əli oğlunun (Qatır Məmməd) (1887-18.09.1919) anadan olmasının 130 illiyi
Dövlət xadimi və alim Aydınbəyov Salam Müqtədir oğlunun (1912-1967) anadan olmasının 105 illiyi
Dövlət xadimi, jurnalist Seyidzadə Bağır Qasım oğlunun (1912-1968) anadan olmasının 105 illiyi 389
Sovet İttifaqı Qəhrəmanı Məmmədov Qafur Nəsir oğlunun (1922-19.10.1942) anadan olmasının 95 illiyi

Tarix

Ərəb tarixçisi Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqidinin (747-823) anadan olmasının 1270 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Azərbaycan milyonçusu Ağa Musa Hacı Nağı oğlu Nağıyevin (Musa Nağıyev) (1842/49-04.03.1919) anadan olmasının 175 illiyi 390
Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, publisist, yazıçı Əfəndizadə Şəfiqə Məhəmmədəmin qızının (1882-29.07.1959) anadan olmasının 135

illiyi 391

Fəlsəfə.İqtisadiyyat

Azərbaycan alimi, filosof Səəd əd-Din Mahmud ibn Əbdul Kərim ibn Yəhya Şəbustəri Təbrizinin (Mahmud Şəbüstəri) (1287-1320) anadan olmasının 730 illiyi 392

Neftçi, SSRİ-nin Əməkdar mühəndisi Əliyev Məmmədəli Dostəli oğlunun (1912-1965) anadan olmasının 105 illiyi

Coğrafiya.Geologiya

Əməkdar elm xadimi, geodezist Əliyev Məmmədqasım Hüseyn oğlunun (1882-20.07.1967) anadan olmasının 135 illiyi

Geologiya-mineralogiya elmləri doktoru, professor Ağayev Vahid Bəhram oğlunun (1937) anadan olmasının 80 illiyi

Kimya.Biologiya.Tibb



Böyük Vətən müharibəsi Qəhrəmanı, həkim Rüstəmbəyova Aliyə Fətulla qızının (1907-1942) anadan olmasının 110 illiyi 393

Kitabxanaşünaslıq.Biblioqrafiya

Cəlilabad Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1922) 95 illiyi

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının yaradılmasının (1922) 95 illiyi

Nəsimi Rayon MKS-nin X.R.Ulutürk adına 3 saylı filial kitabxanasının yaradılmasının (1927) 90 illiyi

Suraxanı Rayon MKS-nin O.Sarıvəlli adına 5 saylı Əmircan qəsəbə filial kitabxanasının yaradılmasının (1932) 85 illiyi

Gədəbəy Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1932) 85 illiyi 394

Quba Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1932) 85 illiyi 394

Şəmkir Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1932) 85 illiyi 395

Sabunçu rayon MKS-nin 10 saylı Bilgəh qəsəbə filial kitabxanasının yaradılmasının (1937) 80 illiyi

Culfa Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1937) 80 illiyi

Şüvəlan qəsəbə Kütləvi Kitabxanasının yaradılmasının (1947) 70 illiyi

İmişli Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1947) 70 illiyi 395

İsmayıllı Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1947) 70 illiyi

BDU-nun Kitabxanaçılıq fakültəsinin yaradılmasının (1947) 70 illiyi 396

Abşeron Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1952) 65 illiyi

Yasamal rayonu Q.Musabəyov adına Kütləvi Kitabxananın yaradılmasının (1957) 60 illiyi

Xanlar Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1962) 55 illiyi

Bərdə Rayon Mərkəzi Kitabxanasının yaradılmasının (1967) 50 illiyi

Qaradağ Rayon MKS-nin 2 saylı Sahil qəsəbə filial kitabxanasının yaradılmasının (1977) 40 illiyi
Şuşa Rayon MKS-nin yaradılmasının (1977) 40 illiyi
Şərur Rayon MKS-nin yaradılmasının (1977) 40 illiyi
Daşkəsən Rayon MKS-nin yaradılmasının (1982) 35 illiyi
Tərtər Rayon MKS-nin yaradılmasının (1982) 40 illiyi
Qaradağ Rayon MKS-nin 8 saylı Ələt qəsəbə uşaq kitabxanasının yaradılmasının (1987) 30 illiyi
Samux Rayon MKS-nin yaradılmasının (1992) 25 illiyi
Siyəzən Rayon MKS-nin yaradılmasının (1992) 25 illiyi

Tarixdə bu gün

Bizans memarlığının görkəmli abidəsi, Ayasofiya – Müqəddəs Sofiya Məbədinin (532-537) yaradılmasının 1485 illiyi 397
Araz çayı üzərində Xudafərin körpüsünün salınmasının (1027) 990 illiyi 398
Şair və mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) vəfatının 600-cü ildönümü 399
Ağa Məhəmməd şah Qacarın Şimali Azərbaycana yürüşləri başlanmışdır (1742-1797)
Ağa Məhəmməd şah Qacar Şuşaya ikinci dəfə hücum etmiş və qala təslim olmuşdur (1797)
Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınmasının (1817) 200 illiyi 400-401
Qarabağ xanlığı ləğv edilmişdir (1822)
Şəkidə ilk ipək emalı fabrikinin təsis olunmasının (1827) 190 illiyi 402
Dağlıq Qarabağ ərazisində köçürmələr nəticəsində ermənilərin sayı 34,8%-ə çatdırılmışdır (1832)
Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsərini yazmışdır (1847)
İlk dəfə alman coğrafiyaşünası Ferdinand fon Rixthofen tərəfindən Böyük İpək Yolu termini işlədilmişdir (1877)
Bakıda konka nəqliyyatı işə düşmüşdür (1887)
Bakıda ilk rus-Azərbaycan məktəbinin əsası qoyulmuşdur (1887)
M.Ə.Rəsulzadə tərəfindən "Müsəlman gənclik təşkilatı"nın yaradılmasının (1902) 115 illiyi
"Leyli və Məcnun" operasının yazılmasının (1907) 110 illiyi
"Səadət" Xeyriyyə Cəmiyyətinin açılmasının (1907) 110 illiyi
Tanınmış xeyriyyəçi Hacı Əjdər bəy Aşurbəyov tərəfindən Bakı şəhərində Hacı Əjdər bəy məscidi (Göy məscid) tikilib istifadəyə verilmişdir (1912) 403
Azərbaycan Dövlət Sirkinin açılmasının (1912) 105 illiyi
Bakı-Tiflis arasında birbaşa teleqraf xətti çəkilmişdir (1912)
Azərbaycan Prokurorluğunun yaranmasının (1922) 95 illiyi
Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində olmaqla Muxtar Respublika elan edilmişdir (1922)

Azərbaycan Rəssamlar İttifaqının yaradılmasının (1932) 85 illiyi
«Badamlı» Mineral Sular Zavodu fəaliyyətə başlamışdır (1947)
Ermənistanda toplum şəkildə yaşayan 150 min nəfərdən artıq azərbaycanlı SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycana köçürülmüşdür (1947-1953)
İçərişəhərin qala divarları bərpa edilmişdir (1952-1957)
Televiziya və radio verilişlərinin həftəlik proqramı çap olunmağa başlamışdır (aprel 1957)
Bakı-Krasnovodsk bərə yolunun açılmasının (1962) 50 illiyi
Ulu öndər Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri seçilmişdir (1967)
"Mədəni-maarif" (indiki "Mədəniyyət.az") jurnalının nəşrinin (1967) 50 illiyi
Azərbaycanda Novruz bayramı ilk dəfə dövlət səviyyəsində keçirilməsinin (1967) 50 illiyi 404
"Ulduz " jurnalının nəşrə başlamasının (1967) 50 illiyi
Nəriman Nərimanovun Xatirə Muzeyinin yaradılmasının (1977) 45 illiyi
Ulu öndər Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosuna üzv seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin I müavini təyin edilmişdir (1982)
Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri ərazilərinin bir hissəsi Ermənistana verilmişdir (1982)
Xankəndə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məqsədi güdən bədnam erməni seperatçıları baş qaldırmışdır (11.1987)
"Bakı-Novorossiysk" neft-boru kəməri çəkilmişdir (1987)
Öncə Qafan rayonundan, sonra isə Meğri rayonundan etnik azərbaycanlılar sıxışdırılaraq qovulmağa başlanmış, Azərbaycanlıların deportasiyasının 2-ci güclü mərhələsi başlanmışdır (1987 noyabr)
Akademik A.Aqambekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişiklikərdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edilmişdir (1987)
Ermənilər Xankəndinin küçələrində vərəqələr yaymış, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlamışlar (İyun-iyul 1987)
Azərbaycan Velosiped Federasiyası yaradılmışdır (1992)
Ümumdünya "Planeti zibildən təmizləyək" aksiyası keçirilmişdir (09.1993)
Ramazan bayramı 405
Qurban bayramı 406

1005 illiyi

Qətran Təbrizi 1012-1088

Şair



Qətran Əbu Mənsur Təbrizi 1012-ci ildə Təbriz yaxınlığındakı Şadiabad kəndində anadan olmuşdur.

İlk təhsilini Şadiabadda almış, sonra Təbrizdə oxumuşdur. Təhsilini başa vurduqdan sonra Şəddadilər dövlətinin paytaxtı olan, inkişaf etmiş Gəncə şəhərinə gəlmiş, tezliklə Şəddadilərin sarayına dəvət olunaraq az bir vaxtda böyük nüfuz qazanmışdır. Həmin dövrdə Qətran bir çox şeirlərini ölkənin hökmdarı Əbdülhəsən Ləşkəriyə və onunla əlaqədar baş vermiş hadisələrə həsr etmişdir. Bir müddət Naxçıvanda, yerli hakimlərin saraylarında yaşadıqdan sonra vətəni Təbrizə dönmüş, 1046-cı ildə Təbrizdə böyük İran şairi və filosofu Nasir Xosrovla görüşmüşdür. Hələ sağlığında ikən istedadlı şair, müdrik filosof və alim kimi bir çox ölkələrdə şöhrət qazanmışdır. Özünün yazdığına görə, onu Xorasanda və İraqda yaxşı tanıyır və sevirdilər.

Qətran poeziya ilə gənc yaşlarından məşğul olmağa başlamış və bu sahədə böyük yaradıcılıq uğurları qazanmışdır. "Tövsnamə", "Quşnamə", "Vamiq və Əzra" adlı əsərlərin və əsasən qəsidələrdən ibarət irihəcmli divanın müəllifidir.

XII əsrdə yaşamış Orta Asiya şairi Rəşid Vətvat yazır ki, o ömrü boyu bircə həqiqi şair tanımışdır - həkim (müdrik) Qətran Təbrizini. Şeir yaradıcılığında əsas yeri dövrün müxtəlif hökmdarlarını tərif edən qəsidələr tutur. Əsərlərində Azərbaycan dilinin ifadə formalarından, xüsusən atalar sözlərindən, xalq deyimlərindən geniş istifadə etmişdir. Bu əsərlər müasir oxucu və tədqiqatçılar üçün qəsidələrdə mədh olunan qəhrəmanların saraylarında baş verən tarixi hadisələri, onları tarix baxımından öyrənmək üçün çox qiymətlidir.

Orta əsr mənbələrinə əsaslanan Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksikoqrafiyası tarixində fars dilinin ilk izahlı lüğətinin yaradıcısı olmuşdur. Fars dili Qətranın ana dili deyildi və o, farsca yazan ilk Azərbaycan şairi olmuşdur. Alimlərin əksər qismi bu lüğəti yaradıcısının adı ilə sadəcə "Lüğəti-Qətran", yaxud "Fərhəngi-Qətran" (hər iki ifadə "Qətranın lüğəti" anlamına gəlir) kimi qeydə almışlar. Sonralar isə bu lüğət "Təfasir fi lüğatül-fürs" ("Fars dili sözlərinin izahları"), yaxud qısa şəkildə "Təfasir" ("İzahlar") adlandırılır.

Qətran Təbrizi 1088-ci ildə Təbrizdə dünyasını dəyişmiş və Surxab məhəlləsindəki məşhur Şairlər məqbərəsində dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Divan /Q.Təbrizi; fars dilindən çevirən və çapa haz. Q.Beqdeli; red. M.Quluzadə; Azərb.SSR EA Nizami ad. Ədəbiyyat və Dil İn-tu.- Bakı: AzSSR EA, 1967.- 439 s.

Qətran Təbrizi - 1000 /toplayıb tərt. ed. və ön söz müəl. S.Xəyal; elmi red. T. Həsənzadə.-Bakı: [MBM], 2012.-159 s.

Sadıqova, N. Qətran Təbrizinin tarixi mənzumələri: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 10.01.01 /N.F.Sadıqova; Azərb. Respub. Təhsil Nazirliyi, BDU.- Bakı, 2012.- 30 s.

"Qətran adlı gözəl bir şair...": Təbrizdən Gəncəyə yolçuluq... //Azadlıq.- 2013.- 27 mart.- S.14.

Namazov, Q. Min yaşlı Qətran Təbrizi /Q.Namazov //Ədəbiyyat qəzeti.- 2012.- 28 dekabr.- S.4.

300 illiyi

Molla Pənah Vaqif 1717-1797

Şair

Molla Pənah Mehdi ağa oğlu Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. 1759-cu ildə ailəsi ilə Qarabağ xanlığına - Tərtərbasar kəndinə köçmüşdür. Şairin bu dövr yaradıcılığında maddi və mənəvi sıxıntıları öz əksini tapmış və məşhur "Bayram oldu" qoşmasının məhz həmin dövrdə qələmə alındığı bildirilir. Bir müddət sonra Vaqif Şuşa şəhərinə köçmüş və burada məktəb açaraq müəllimlik fəaliyyətini davam etdirmişdir.

Şairin hörmətini eşidən Qarabağ hökmdarı İbrahim xan Vaqifi sarayına dəvət edərək, eşik ağası (yəni daxili işlər üzrə vəzir) təyin etmişdir. O, sarayda böyük nüfuz qazanaraq 27 il müddətində sarayın ən mötəbər adamlarından biri kimi tanınmışdır.

1797-ci ildə Şah Qacar ikinci dəfə Şuşaya hücum etmiş və nəticədə Vaqif həbs edilərək zindana salınmışdır. Qacarın ölümündən sonra xanlıqda hakimiyyəti müvəqqəti ələ alan İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Çavanşir 1797-ci ildə şairi oğlu Əli ilə birlikdə Şuşa şəhərində edam etdirir. Vaqifin ölümündən sonra onun evi talan olunur, əsərlərinin çox hissəsi məhv edilir.

XVIII əsrdə Azərbaycan poeziyasına ideya-sənətkarlıq və janr-üslub cəhətdən yeni keyfiyyətlər qazandıran görkəmli şair Molla Pənah Vaqif Şərq poeziyasının bütün klassik formalarında: qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi, mərsiyələr yazmışdır. "Heyran olmuşam", "Sonalar kimi", "Tel nazik", "Ala gözlü, sərv boylu dilbərim", "Yasəmən tellərin, nərgiz gözlərin" və s. şeirlər bu gün də dillər əzbəridir. O, nə qədər saray mühitində yazıb-yaratsa da, şeirlərində xalq ruhunun ifadəsi mühüm yer tutur. Yaradıcılığında ərəb-fars sözlərinə az yer vermiş, xalq dilinin obrazlı ifadələrindən istifadə edərək poeziya dilimizi zənginləşdirmiş, yeni çalarlar bəxş etmişdir.

1856-cı ildə Teymurxanşurada Vaqifin ilk kitabı çap olunmuşdur. Daha sonralar Mirzə Fətəli Axundov çox zəngin bir material toplayaraq məşhur şərqşünas Adolf Berjeyə vermiş, o, bu əsəri 1867-ci ildə Leypsiq şəhərində nəşr etdirmişdir. Vaqifin əsərlərinin elmi nəşri 1945-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutu tərəfindən həyata keçirilmişdir.

Şeirlərini ilk dəfə rus dilinə XIX əsrin 40-cı illərində polyak şairi və tərcüməçisi Tadeuş Zabloski tərcümə etmişdir.

Görkəmli bəstəkarlardan C.Cahangirov, Q.Hüseynli, V.Şirinov, Ə.Abbasov, G.Muradova şeirlərinə musiqi bəstələmiş, Ramiz Mustafayev "Vaqif" operasını, Xalq şairi Səməd Vurğun "Vaqif" dramını yazmış, müxtəlif illərdə haqqında sənədli filmlər çəkilmişdir.

2016-2017-ci illərdə YUNESKO-nun yubileylər proqramı çərçivəsində Molla Pənah Vaqifin 300 illik yubileyi beynəlxalq səviyyədə qeyd ediləcək.

Ə d ə b i y y a t

Əsərləri /M.P.Vaqif; tərtibçi H.Araslı.-Bakı: Çaşıoğlu, 2004.- 264 s.

Qurban olduğum /M.P.Vaqif; tərtib edəni və red. M.Ələkbərli.-Bakı: Gənclik, 1994.- 120 s.

Sevmək gərək: lirik şeirlər kitabı /M.P.Vaqif; [tərt.ed. A.Sarovlu ; red. Ç. Əlioğlu].- Bakı: Gənclik, 1987.- 125, [2] s.

Müxəmməs /M.P.Vaqif //Ədəbiyyat qəzeti.- 2013.- 1 fevral.- S.3.

Əfəndiyev, P. Molla Pənah Vaqif və Molla Cümə /P.Əfəndiyev //Kredo.-2014.- 5 iyul.- S.9.

Kamal, R. Molla Pənah Vaqif: Gözün tarixi /R.Kamal //Ədəbiyyat qəzeti.- 2015.- 31 oktyabr.- S.12.

Kazımlı, K. Vaqif poeziyasının işığında /K.Kazımlı //Mədəni həyat.- 2014.- № 2.- S.32.

Kamal, R. Molla Pənah Vaqif və Səməd Vurğun: felin enerjisi: Linqvistik etüd /R.Kamal //Ədəbiyyat qəzeti.- 2015.- 13 fevral.- S.5.

145 illiyi

Məşədi Məmməd Fərzəliyev 1872-1962

Xanəndə

Məşədi Məmməd Fərzəliyev 1872-ci ildə qədim Şuşa şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini Şuşada, Xarrat Qulunun məktəbində almışdır. Toy məclislərində və xalq şənliklərində çıxış etmiş, ilk dəfə Şuşada Xandəmirovun teatrında verilən "Şərq konserti"ndə böyük uğur qazanmışdır. O, nadir hallarda təsadüf edilən güclü nəfəsə, geniş diapazonlu gur səsə malik olmuşdur.

Erkən yaşlarından doğma şəhərini tərk etmiş, bir müddət Gəncədə, sonralar Zaqafqaziyada, Orta Asiyada, Türkiyədə, hətta Avropanın bir çox ölkələrində yaşamış, xanəndəlik etmiş, şan-şöhrət qazanmışdır. Oxuduğu "Bayatı-Kürd", "Rast", "Şur", "Çahargah", "Zabul-Segah", "Kürd Şahnaz" muğam-dəsgahları, "Heyratı", "Mənsuriyyə", "Səmayi-Şəms", "Qarabağ şikəstəsi", "Arazbarı", "Kərəmi", "Əfşarı" zərbi-muğamları dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Xüsusilə, xanəndəlik sənəti tarixində "Şüştər" muğamının mahir ifaçısı kimi tanınmışdır. O, qədim Azərbaycan mahnıları və təsniflərini: "Qarabağda bir dənəsən", "Alma", "Nəbi", "Vətən şərqisi", "Mən bir türkəm", "Axşam oldu" mahnılarını böyük məharətlə ifa etmişdir.

M.M.Fərzəliyev Azərbaycan xanən-dəsi kimi milli musiqimizi xaricdə geniş surətdə təbliğ etmiş, 1912-1915-ci illərdə "Sport-Rekord" (Varşava) və "Ekstrafon" (Kiyev) səhmdar cəmiyyətlərinin dəvəti ilə tarzən Qurban Pirimovun müşayiəti ilə 40-a qədər muğam, təsnif və mahnı oxuyub vala yazdırmışdır.

M.M.Fərzəliyev həmçinin geniş konsert fəaliyyəti ilə də məşğul olmuş, teatr tamaşalarında çıxış etmişdir. 1913-cü ilin yazında Zubalov adına xalq evi tərəfindən Tiflisə dəvət edilmiş, Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında Zeyd rolunu oynamışdır.

1923-cü ildə Gəncədə açılan şəhər musiqi məktəbində muğamatdan dərs demək üçün dəvət almış, gənc xanəndələrin yetişməsinə böyük töhfələr vermişdir.

M.M.Fərzəliyev 1926-cı ildən muğam üçlüyünün müşayiəti ilə Polşa, Almaniya, Fransa, Belçika, İngiltərə, Avstriya, Rumıniya, Türkiyə, İran və Rusiyanın bir çox şəhərlərində dəfələrlə konsertlər vermişdir.

Keçmiş Sovet hökumətinin, onun repressiyalarının ağır təzyiqlərinin əlindən qaçan Məşədi Məmməd Fərzəliyev 1929-cu ildə Türkiyənin İstanbul şəhərinə qastrol səfərinə çıxmış, bir daha Azərbaycana qayıtmamışdır. Uzun illər İstanbulda yaşayan xanəndə 1962-ci ildə, 90 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Fərəcov, S. İstanbulda başa çatan ömür /S.Fərəcov //Mədəniyyət.-2012.- 11 aprel.- S. 14.

Fərzəliyev Məşədi Məmməd //Muğam ensiklopediyası.- [Yersiz]: Heydər Əliyev Fondu, 2008.- S.75-76.

Xəlilzadə, F. Avazı gözəl, səsi zil: Unudulmazlar /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 28 yanvar.- S.7.

Muğamla dünyanı dolaşan ustad xanəndə: Şuşalı Məşədi Məmməd Fərzəliyev //Azadlıq.-2013.- 3 mart.- S.14.

135 illiyi

Mirmahmud Kazımovski 1882-1940

Aktyor, rejissor

Mirmahmud Mirələkbər oğlu Kazımovski 1882-ci ildə Bakıda anadan olmuşdur. Hələ uşaq yaşlarından teatra maraq göstərmiş, məktəb illərində dram dərnəklərinə gedərək bir sıra tamaşalarda epizodik rollar yaratmışdır. Səhnə fəaliyyətinə 1898-ci ildə M.F.Axundovun "Lənkəran xanının vəziri" tamaşasında oynadığı nökər rolu ilə başlamışdır. 1906-cı ildə o, Bakı müsəlman dram cəmiyyətinin təşkilatçılarından biri, həm də üzvü olmuşdur. Azərbaycanda aktrisa olmayanda bir sıra qadın rollarında da çıxış etmişdir.

N.Nərimanovun yaxından köməyi və iştirakı ilə 1921-ci ilin noyabr ayında Bakıda açılmış Tənqid və Təbliğ Teatrında mədəni tərəqqi naminə mübarizə yolunu seçən sənətkarlar arasında Mirmahmud Kazımovski də var idi.

Unudulmaz aktyor Qoqolun "Müfəttiş" (Filippoviç), N.Vəzirovun "Pəhləvani zəmanə" (Cahangir bəy), "Müsibəti-Fəxrəddin" (Əhməd), Ş.Saminin "Gavə" (zabit və kəndli), eləcə də bir sıra Qərbi Avropa dramaturqlarının əsərlərində uğurla çıxış etmiş, maraqlı obrazlar yaratmışdır. Mütəxəssislərin fikrincə, Mirmahmud Kazımovskinin yaratdığı obrazlar arasında V.Şekspirin "Otello" faciəsindəki rolu xüsusi yer tutur.

M.Kazımovski səhnə üçün müxtəlif həcmli əsərlər də yazmışdır. Əsərlərinin əksəriyyəti: "Vurhavur", "Daşım-daşım", "Vəfasız məşuqə", "Molla Cəbi", "Səməd bəy", "Həmişəri mənzili", "Qadın və zülm", "Əyalət divanı" və s. dəfələrlə tamaşaya qoyularaq rəğbətlə qarşılanmışdır. Hətta bəzi əsərləri Orta Asiyanın bir çox şəhərlərində də tamaşaya qoyulmuş, tamaşaçı məhəbbətinə səbəb olmuşdur. Mirmahmud Kazımovski opera teatrı üçün dörd operetta, dram teatrı üçün "Kəndxuda", "Nadanlar", "Uşaqlar mənimdir" pyeslərini də qələmə almışdır.

Onun həm də çox gözəl səsi var idi. Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında M.Kazımovski Leylinin anası rolunu ifa etmiş, eləcə də altıncı, yeddinci ərəb rollarında çıxış etmişdir.

Çoxcəhətli yaradıcılığa malik olan Mirmahmud Kazımovski Azərbaycanda idmana aid yazılmış ilk dərsliyin müəllifidir. Ömrünün 42 ilini Azərbaycan səhnəsinə bağlayan M.Kazımovski Azərbaycan kino sənətinin inkişafında da fədakarlıqla çalışmış, "Neft və milyonlar səltənətində", "Bismillah", "Bakılılar", "Kəndlilər", "Sovqat" adlı filmləri çəkmişdir. Görkəmli pedaqoq, dramaturq və rejissor Azərbaycan SSR-in "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Mirmahmud Kazımovski 1940-cı il dekabr ayının 1-də 58 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Cümşüdov, H. Mirmahmud Kazımovski /H.Cümşüdov; [red. S.Mustafayev]; Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: Azərnəşr, 1972.-73, [3] s.

Xəlilzadə, F. Ehtiramla anılanlar /F. Xəlilzadə //Azərbaycan.- 2012.- 4 dekabr.- S.7.

Mirmahmud Kazımovski //Səhnədən keçən yollar /tərt. ed. R. Quliyev (tərc. ed.); A.Paşayev, M.Teymur.- Bakı, 1983.- S.111-112.

Кязимовский М. //Театральная энциклопедия /глав. ред. П.А.Марков - Москва, 1964.- Том 3.- С.686.

130 illiyi

Gövhər Qazıyeva 1887-1960

Aktrisa

Gövhər Əhməd qızı Qazıyeva (Göyərçin xanım) 1887-ci ildə Tiflis şəhərində, ziyalı ailəsində anadan olmuşdur. İlk olaraq rus məktəbində təhsil almış, orta təhsilini başa vurduqdan sonra Tiflisdə Nəcib Qızlar İnstitutuna daxil olmuş, rus və Azərbaycan dillərində mükəmməl təhsil almışdır.

Bu dövrdə Tiflisdə Azərbaycan teatr truppası, Mirzə Əli Abbasovun rəhbərlik etdiyi "Dram cəmiyyəti" yaradılmış, sonra Həbib bəy Köçərlinskinin rəhbərlik etdiyi "Səadət" teatr truppası fəaliyyətə başlamışdır.

1906-cı ildən səhnə fəaliyyətinə başlayan Gövhər Qazıyeva hər iki truppanın tamaşalarında uğurla çıxış etmişdir. Onun Tiflis zadəgan teatrında iştirak etdiyi ilk tamaşa 1910-cu il oktyabrın 9-da səhnələşdirilmiş Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi olmuşdur. Həmin il oktyabrın 30-da "Səadət" dram truppasının tamaşaya hazırladığı Şəmsəddin Saminin "Gaveyi-ahəngdar" pyesində isə Gövhər xanım Xubçöhr rolunda çıxış etmişdir.

1911-ci ildə Tiflisdə aktrisanın benefisi keçirilmişdir. Bu gecədə ilk dəfə Zülfüqar Hacıbəyovun "On bir yaşlı arvad" pyesi göstərilmiş, Gövhər xanım da əsas rolu canlandırmışdır.

Bir-birinin ardınca oynadığı uğurlu rollar onu Tiflisin mədəni həyatında çox tez tanıtmış və Bakı qəzetlərində haqqında məqalələr dərc edilmişdir. Bakıda da bir çox tamaşalarda çıxış edən Gövhər xanım Azərbaycan teatrının ilk qadın Leylilərindəndir.

Aktrisanın repertuarı geniş və əhatəli olmuşdur. O, H.Heynenin "Əlmənsur", N.Kamalın "Qara bəla", Azərbaycan dramaturqlarından N.Nərimanovun "Nadir şah", Ə.Haqverdiyevin "Pəri cadu", Z.Hacıbəyovun "Evliykən subay" əsərlərində rol almış, Ü.Hacıbəylinin "O olmasın, bu olsun" tamaşasında Gülnaz obrazını özünəməxsus şəkildə canlandırmışdır.

Gövhər Qazıyeva Azərbaycan teatr səhnəsinin bir çox görkəmli aktyorları - Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Mir Seyfəddin Kirmanşahlı və başqaları ilə birgə tərəf müqabili olmuşdur.

1913-cü ildə Polşaya getmiş, Varşavada "Müqəddəs Sofiya" tibb məktəbinə daxil olmuş, 1915-ci ildə təhsilini başa vuraraq Bakıya qayıtmış, tibb ixtisası üzrə çalışmışdır.

Bir müddət keçdikdən sonra İrana köçmüş və uzun illərdən sonra, 1937-ci ildə bir neçə günlüyə Bakıya gəlmiş, keçmiş səhnə yoldaşları ilə birgə Cəfər Cabbarlının "Almaz" pyesinin tamaşasına baxmışdır.

Azərbaycan teatrının ilk qaranquşu kimi tanınan "Göyərçin" təxəllüslü Gövhər Qazıyeva 1960-cı ildə Cənubi Azərbaycanda vəfat etmişdir.

Ə d ə b i y y a t

Fərəcov, S. Sənət tariximizdə iz qoyanlar: Gövhər Qazıyeva /S.Fərəcov //Mədəniyyət.- 2015.- 30 oktyabr.- S.15.

Sarıyeva, İ. Bir səmanın üç ulduzu - Ulduz Əliyeva, Səkinə Axundzadə və Göyərçin xanım... /İ.Sarıyeva.- 2015.- 4 sentyabr.- S.15.

125 illiyi

Əzizə Məmmədova 1892-1961

Aktrisa

Əzizə xanım Əbdülbağı qızı Məmmədova 1892-ci ildə Tiflisdə anadan olmuşdur. Atası Əbdülbağı Zülalov dövrünün tanınmış xanəndəsi idi. Atasından ilk musiqi təhsili alan Əzizə uşaq yaşlarından yaxşı qarmon çalmağı öyrənmişdir. Erkən yaşlarında ailə quran Əzizə xanım bir müddət Tiflisdə, Aşqabadda yaşamış, 1919-cu ildə Bakıya köçmüşdür.

Musiqiyə, incəsənətə maraq göstərən Əzizə xanım əvvəl Əbilov adına, bir müddət sonra isə qadınlardan ibarət Əli Bayramov adına klubların fəal üzvlərindən olmuşdur. 1921-ci ilin payızında Bakı Türk Azad Tənqid və Təbliğ Teatrı təşkil olunanda onun yaradıcılarından Mirzağa Əliyev və Hacıağa Abbasov müəyyən səhnə təcrübəsi toplayan Əzizə Məmmədovanı teatra dəvət etmişlər.

1923-cü ildə Akademik Milli Dram Teatrına dəvət alan sənətkar üç ilə qədər hər iki sənət ocağında çalışmışdır. 1925-ci ilin axırlarında isə yalnız Akademik Teatrda və 1930-cu illərdə qısa müddətdə yenə Bakı Türk İşçi Teatrında (əvvəlki Bakı Türk Azad Tənqid və Təbliğ Teatrı) çalışmışdır. Tükəzban (“Vaqif”, S.Vurğun), Sonanın anası, Pəri xanım (“Hacı Qara” və “Lənkəran xanının vəziri”, M.F.Axundzadə), C.Cabbarlının dramlarında Gülsüm (“1905-ci ildə”), Fatmanisə və Xanımnaz (“Almaz”), Şərəbanı (“Yaşar”), Gülgəz (“Oqtay Eloğlu”), Güllü (“Qardaşlar”, Rəsul Rza), Sədaqət xala (“Yadigar”, İslam Səfərli), Lətifə (“İldırım”, Cabbar Məcnunbəyov), Terentyevna (“Dubrovski”, Aleksandr Puşkin), Tokarçuk (“İntervensiya”, Lev Slavin), Zalxa (“Toy”, Sabit Rəhman) aktrisanın bu teatrdakı rollarındandır.

Ə.Məmmədova eyni zamanda “Azərbaycanfilm”də istehsal olunan “Almaz”, “İsmət”, “Hacı Qara”, “Görüş”, “Yeni horizont”, “Səhər” filmlərində müxtəlif epizodik rollara çəkilmiş, 50-60-cı illərində “Ögey ana”, “Qara daşlar”, “Kazbek qutusu”, “Bir məhəlləli iki oğlan”, “Səhər” və başqa filmlərində aktyor sənətinin klassik ənənələrindən bəhrələnərək yeni tipli qadın rolları ifa etmişdir. “İsmət” filmində İsmətin həyat yoldaşı Səmədin anası rolu ilə aktrisa çox maraqlı bir obraz yaratmış, o dövr kinomuza yeni qadın qəhrəmanı gətirmişdir.

Azərbaycan teatr və kino sənətinin inkişafında öz yeri və rolu olan aktrisa Əzizə xanım Məmmədova göstərdiyi xidmətlərə görə 1 fevral 1936-cı ildə Azərbaycan Respublikasının “Əməkdar artist” fəxri adına layiq görülmüşdür. “Qırmızı Əmək Bayrağı”, “Şərəf nişanı” ordenləri və müxtəlif medallarla təltif olunmuşdur.

Əzizə Məmmədova 1961-ci il avqust ayının 14-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Xəlilzadə, F. Bir nəslin hekayəti /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 14 avqust.- S.7.

Kazımzadə, A. Onlar birinci olmuşlar /Aydın Kazımzadə //Mədəniyyət.- 2012.- 7 mart.- S. 10.

Rəhimli, İ. Əzizə Məmmədova (1892-14.8.1961) //Rəhimli İ. Azərbaycan teatr tarixi: dərslik /elmi red. Timuçin Əfəndiyev.- Bakı, 2005.- S.117.

105 illiyi

Münəvvər Kələntərli 1912-1963

Aktrisa

Münəvvər Səməd qızı Kələntərli 1912-ci ildə Lənkəranda anadan olmuşdur. Təhsilini Lənkəranda almış, 17 yaşında ikən Bakıya gəlmişdir. Məlahətli və həzin səsi olan Münəvvər xanım qardaşı ilə konsertlərdə xalq mahnılarını, xüsusilə də Lənkəranda dəbdə olan el nəğmələrini ("Aman nənə", "Kişmiri şal", "Lolo") gözəl ifa etmişdir. Ustad tarzən Qurban Pirimovun, kamançaçı Qılman Salahovun və qarmonçalan Teymur Dəmirovun müşayiəti ilə həzin səsi ilə muğam da oxumuşdur. Bundan xəbər tutan bəstəkar Müslüm Maqomayev 1933-cü ildə Münəvvər Kələntərlini operaya dəvət etmiş, 1933-cü ildən etibarən o, səhnə fəaliyyətinə başlamışdır. Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli və Leylinin anası, "Əsli və Kərəm"də Əsli, "O olmasın, bu olsun"da Sənəm obrazlarını yaratmışdır.

Musiqili Komediya Teatrının səhnəsində F.Əmirovun "Gözün aydın", S.Ələsgərovun "Ulduz", T.Quliyevin "Qızıl axtaranlar", S.Rüstəmovun "Durna", A.Rzayevin "Aya səyahət" və başqa tamaşalarda müvəffəqiyyətlə çıxış etmişdir. Geniş yaradıcılıq imkanlarına malik təbiətən ciddi insan olan aktrisa yaratdığı hər bir obraza öz möhürünü vurmuşdur.

Münəvvər Kələntərlinin kinostudiyada oynadığı rollar həmişə bir dubla çəkilmişdir. 1945-ci ildə ekranlara çıxan və dünyanın 136 ölkəsində nümayiş etdirilən "Arşın mal alan" filmində canlandırdığı Cahan xala obrazına görə 1946-cı ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Sonralar "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi bir sıra filmlərdə müxtəlif xarakterik obrazlar yaratmışdır. "Bəxtiyar" musiqili filmində Gülzar xala, "Əmək və qızılgül"də Daqmaranın anası Sonu, "Qızmar günəş altında"da Gülbahar nənə, "Görüş"də Münəvvər, "O olmasın, bu olsun"da Yengə, "Kazbek qutusu"nda Məlikovun hikkəli arvadı, "Kölgələr sürünür"də Məsmə, "Yeni il gecəsi"ndə ev sahibəsi rollarında oynamış, unudulmaz obrazlar yaratmışdır.

Münəvvər Kələntərli 1953-cü ildə "Vətən" kinoteatrına direktor müavini təyin olunmuşdur. Bundan sonra teatrdan çıxmış, ancaq filmlərə çəkilmişdir.

Teatr və kino tariximizdə çoxcəhətli fəaliyyəti ilə seçilən, yaratdığı obrazların daxili dünyasını özünəməxsus çalarlarla təqdim etməyi bacaran sevilən sənətkarımız 1959-cu ildə "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Unudulmaz aktrisa Münəvvər Kələntərli 5 fevral 1963-cü ildə, 51 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Abbaslı, T. Münəvvər Kələntərli. Görkəmli sənət "Xala"sı, gözəl həyat xanımı... /T.Abbaslı //Mədəniyyət.- 2016.- 5 fevral.- S.13.

Fərəcov, S. Yaddaşlarda izi, könüllərdə yeri var /S.Fərəcov //Mədəniyyət.-2014.- 5 fevral.- S. 15.

Xəlilzadə, F. Kinolentlərin yaddaşı, yaxud köhnə tanışlar: Münəvvər Kələntərli - 100 /F.Xəlilzadə //Azərbaycan.- 2012.- 7 fevral.- S.7.

Qiyas, X. Münəvvər Kələntərli Milli kinonun unudulmaz xalası /X.Qiyas //Ekspress.- 2014.- 7-9 iyun.- S.14.

140 illiyi

Behbud ağa Cavanşir 1877-1921

Dövlət xadimi



Behbud ağa (Behbud xan) Azad ağa oğlu Cavanşir 1877-ci ildə Tərtər nahiyəsinin (indiki Tərtər rayonu) Azad Qaraqoyunlu kəndində anadan olmuşdur. O, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın nəticəsidir. Behbud ağa 1890-cı ildə alman dili təmayüllü Tiflis realnı məktəbinə daxil olmuş və 1898-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 1902-ci ildə Almaniyada Frayberq Dağ-Mədən Akademiyasına qəbul olan Behbud ağa neft sahəsi üzrə mükəmməl təhsil almış və mühəndis ixtisasına yiyələnmişdir. O, bu ölkədə Akademiyanı fərqlənmə diplomu ilə bitirən ilk azərbaycanlı idi. Behbud ağa alman, ingilis, fransız, rus, gürcü və erməni dillərini mükəmməl bilirdi.

Qərbi Avropadakı həyatı onun bir siyasi və ictimai xadim kimi formalaşmasına təsir etmişdir. 1906-cı ildə Əhməd bəy Ağayevin "Difai" partiyasına daxil olmuş, "Nicat" Cəmiyyətinin və "Rusiya texniki cəmiyyəti"nin Bakı şöbəsinin üzvü seçilmişdir.

1916-cı ildə Azərbaycana qayıdan Behbud ağa Cavanşir Bakı neft müəssisələrində baş mühəndis vəzifəsində çalışmışdır. Doğma xalqının maariflənməsi uğrunda mübarizə aparan Behbud ağa Bakı Müsəlman xeyriyyə cəmiyyətinin rəhbərliyinə seçilmişdir.

Behbud ağa Fətəli xan Xoyskinin 1918-ci il iyun ayının 17-də Gəncədə yaratdığı 2-ci hökumət kabinetində Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri vəzifəsini tuturdu. O, nazir işlədiyi dövrdə, Gəncə quberniyasının 9 qəzasında polis orqanları təsis edilmiş, Bakıda İçərişəhərdə 1200 müdavimin təhsil alması üçün nəzərdə tutulmuş polis məktəbi açılmışdır. 1918-ci il oktyabrın 6-da Azərbaycan hökumətinin tərkibində kabinədaxili dəyişikliklərdən sonra Daxili İşlər naziri olmaqla bərabər, həm də Ticarət və Sənaye naziri vəzifəsini yerinə yetirmişdir.

1919-cu ilin oktyabrında parlamentdə fəaliyyət göstərən Behbud ağa Cavanşirin də daxil olduğu bitərəflər fraksiyasında parçalanma baş vermiş, həmin vaxt Fətəli xan Xoyski hökuməti ilə birgə Behbud xan da tutduğu vəzifədən istefa vermişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov Behbud ağanı işlə təmin etmiş, qısa zamanda Zaqafqaziya xarici ticarət müvəkkili təyin etmişdir. Rus hökumətinin əsarətindən qurtarmaq üçün ölkəni tərk etmək qərarına gələn Behbud ağa xanımı Tamara Cavanşir, qardaşları Surxay xan və Cəmşid xanla birgə 1921-ci ildə neft-mədən avadanlığı almaq adı ilə Almaniyaya yola düşmüşdür. İstanbula gələn Behbud ağa Əhməd bəy Ağayevin qonağı olmuşdur.

Görkəmli dövlət xadimi, maarifpərvər ziyalı Behbud ağa Cavanşir 1921-ci il iyul ayının 18-də İstanbulun "Pera-Palas" otelinin önündə "Daşnaksütun" partiyasının üzvü və Ermənistan ordusunun keçmiş əsgəri Misak Torlakyan tərəfindən qətlə yetirilmişdir. Qatil həbs edilsə də cəzasız qalmış, ermənilər tərəfindən Türkiyədən uzaqlaşdırılmışdır.

Ə d ə b i y y a t

Behbud xan Cavanşirin məhkəmə prosesi /Müqəddimənin müəllifi və türk nəşrləri əsasında işləyib hazırlayan V.Quliyev; elmi məsləhətçi. E.Mahmudov; red. A.Rüstəmli.- Bakı: Ozan, 2008.- 352 s.

Çingizoğlu, Ə. Behbud ağa Azad ağa oğlu //Çingizoğlu Ə. Cavanşir eli: Sarıcalılar.- Bakı, 2015.- S. 111-112.

Əliyeva, İ. Cavanşir nəslinin nazir oğlu: Erməni terrorunun qurbanları /İ.Əliyeva //Azərbaycan.- 2015.- 9 avqust.- S.5.

Qəribov, M. Behbud xan Cavanşir: Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimi erməni terrorunun qurbanı olub /M.Qəribov //Respublika.- 2015.- 11 yanvar.- S.7.

Quliyeva, S. İstiqlal yolunun şanlı mücahidləri - Cümhuriyyət dövrünün dövlət və hökumət xadimləri /S.Quliyeva //525-ci qəzet.- 2015.- 21 may.- S.6.

105 illiyi

Bağır Seyidzadə 1912-1968

Dövlət xadimi

Bağır Mirqasım oğlu Seyidzadə 1912-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda anadan olmuşdur. Kiçik yaşlarından zəhmətə qatlaşan bu yeniyetmə 14 yaşında Bakıda toxuculuq fabrikində əmək fəaliyyətinə başlamışdır. Lakin ali təhsil almaq istəyən gənc 1926-cı ildə Bakıda axşam işçi fakültəsində (rabfak) oxumuş, gündüzlər isə fabrikdə işləmişdir. Dörd ildən sonra işçi fakültəsini müvəffəqiyyətlə bitirmiş və bir neçə ay "Kəndli" qəzetində korrektor kimi çalışmışdır.

1930-cu ildə keçmiş Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş, neft texnologiyası fakültəsində neft emalı sahəsində mühəndis-texnoloq ixtisası üzrə təhsil almışdır. İnstitutda oxuyarkən 1932-ci ildən "Gənc işçi" qəzetində tərcüməçi, məsul katib, redaktor və şöbə müdiri vəzifələrində işləmişdir.

1940-cı ildə Azərbaycan Gənclər İttifaqı Komitəsinin üzvü, sonra təbliğat və təşviqat üzrə MK katibi və büro üzvü seçilmiş, 1943-1944-cü illərdə Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin ikinci katibi olmuşdur.

Uzun illər respublikada rəhbər vəzifələrdə çalışmışdır. Moskvada ali diplomatiya kurslarını bitirdikdən sonra İranda (Cənubi Azərbaycanda), Makuda SSRİ-nin vitse-konsulu, sovet hərbi hissəsində komissar işləmiş, Təbriz şəhərində baş konsul vəzifəsini icra etmişdir. Cənubi Azərbaycanda milli hökumətin qurulmasında böyük xidməti olmuş, sonralar İran milli hökumətinin ali mükafatı "21 Azər" ordeni ilə təltif edilmişdir.

Təbrizdə konsulluq bağlandıqdan sonra B.Seyidzadə 1948-ci ilin dekabr ayında Bakıya qayıtmış, 1949-cu ilin fevralında Azərbaycan Kinematoqrafiya naziri vəzifəsinə təyin olunmuşdur.

Onun nazir olduğu dövrdə "Bakı" kinostudiyasında Bakı neftçilərinin fəaliyyətindən bəhs edən "Bakının işıqları" bədii, müxtəlif mövzularda istehsal olunmuş "Böyük yol", "Hədiyyə xalçası", "Quba bağlarında", "Tərtərçay vadisində", "Mingəçevir", "Sovet Naxçıvanı", "Yeni həyat qurucuları", "Əməyə eşq olsun!", "Gədəbəyin sərvəti", "Abşeronun ocaqları", "Səhər nəğməsi", "Sovet Azərbaycanı", "Azərbaycanın müalicə ocaqları", "Elmlə dostluq şəraitində", "Arazın sahillərində", "Gözlərinizi qoruyun", "Xəzər neftçiləri haqqında dastan" və s. sənədli və elmi-kütləvi filmlər çəkilmişdir.

1960-cı ildə "Xəzər neftçiləri haqqında dastan" və "Dənizi fəth edənlər" sənədli-bədii filmlərinə görə yaradıcı qrupun bir neçə üzvü Lenin mükafatına layiq görülmüşdür.

1958-ci ildə Mədəniyyət nazirinin müavini vəzifəsində işləmişdir. O, "Görkəmli adamların həyatı" silsiləsindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

"Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, bir sıra medallarla təltif edilmişdir.

Ensiklopedik biliyə malik olan görkəmli ictimai xadim Bağır Seyidzadə 1968-ci ildə Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Bağır Seyidzadə 100: miniatür kitabı /Azərbaycan Respublikası "Kitab" Cəmiyyəti.- Bakı: İndiqo, 2012.- 175 s.

Abdin, T. Oralarda kimlər var: Bağır Seyidzadə /T.Abdin //525-ci qəzet.- 2013.- 2 mart.- S.23.

Azəri, L. Mədəniyyət tariximizdə iz qoyanlar Məşhur Seyidzadələr nəslinin iki görkəmli nümayəndəsinin yubileyi qeyd olundu /L.Azəri //Mədəniyyət.- 2012.- 7 noyabr.- S. 13.

Kazımzadə, A. Seyidzadələr nəslinin iki qanadı /A.Kazımzadə //Azərbaycan.- 2014.- 6 noyabr.- S. 6.

Nuriyeva, T. O, məşhur Seyidovlar nəslindən idi: Tanınmış ictimai xadim Bağır Seyidzadənin anadan olmasının 100 ili tamam olur /T.Nuriyeva //Xalq qəzeti.- 2012.- 9 avqust.- S. 6.

175 illiyi

Ağa Musa Nağıyev 1842/49-1919

Xeyriyyəçi

Ağa Musa Hacı oğlu Nağıyev 1842/49-cu ildə Bakının Biləcəri kəndində saman satmaqla məşğul olan Hacı Nağının ailəsində dünyaya göz açmışdır. 11 yaşından ailəsinə kömək etmək məqsədilə çalışmağa başlamış, hambalçılıq etmişdir. Vardövlət sahibi olana qədər ağır bir həyat yolu keçmişdir. O, üç-beş qəpiyə ona-buna daşıdığı şələlərin pulunu yığıb Balaxanıda neft təbəqələri dayazda yerləşən, quyu qazdırmaq nisbətən asan olan yerdə balaca sahə almış, nəhayət, tale üzünə gülmüş, neft quyusunun fontan vurması nəticəsində milyonçu olmuşdur.

1887-ci ildə "Musa Nağıyev" adlı neftayırma firmasını təsis etmişdir. 1891-ci ildə Ağa Musa Nağıyev Bakı Neft Sənayeçiləri Qurultayı şurasının, Bakı Ağ Neft Zavodları İttifaqının və Sərəncam Komitəsinin üzvü olmuşdur. 1893-cü ildə Ağa Musa Nağıyev I gildiya taciri vəsiqəsini almışdır. Ağa Musa Nağıyev 1898-1899-cu illərdə daha bir neftayırma zavodu quraşdırmışdır. 1904-1908- ci illərdə Ağa Musanın neft buruqlarından əldə etdiyi qara qızılın miqdarı 12,3 mln. puda, 1908-ci ilin sonunda isə 13 mln. puda çatmış və o, bu sahədə rekord vurmuşdur. 1909-cu ildə "Zaqafqaziya balıq sənayesi cəmiyyətinin" təsisçisi olmuşdur.

Neft milyonçusu kapitalına və tikdirdiyi binalarının sayına görə Bakı milyonçuları arasında seçilmişdir. Məhz bu keyfiyyətlərinə görə Rusiya çarı II Nikolay onu "Neft kralı" adlandırmış, III dərəcəli "Müqəddəs Stanislav" ordeni, 1910-cu ildə isə "Zolotaya şeynaya Andreyevskoy lentoy" medalı (Andreyev lenti ilə boğazdan asılan qızıl medal) ilə təltif etmişdir.

Ağa Musa Nağıyev tikdirdiyi arxitektur binaları ilə Azərbaycanı dünyaya tanıtdırmışdır. Binalarının üzərindəki firmasına məxsus emblema "MN" və ya "AM", "Venzel" (daş kitabə) təsvir olunmuşdur.

Aga Musa Nağıyevin vərəm xəstəliyi səbəbindən dünyadan erkən köçən oğlu Ağa İsmayılın xatirəsinə tikdirdiyi məşhur "İsmailiyyə"nin əsası 1907-ci ildə qoyulmuşdur. 1913-1920-ci illərdə Müsəlman Xeyriyyə Cəmiyyətinin qərargahı kimi istifadə olunan bina, hal-hazırda AMEA-nın Rəyasət Heyətinin binası kimi istifadə edilir. Bakının memarlıq incilərindən sayılan binanın memarı İosif Ploşko olmuşdur.

Çoxlu sayda mədəni məişət obyektləri tikdirmiş, yüzlərlə yoxsul ailəni himayəyə götürmüş, hər il 25 müsəlman qızının ibtidai sinifdə oxuması üçün iri məbləğdə ianə ayırmışdır. 35 yoxsul ailə başçısının vəsiyyətinə əməl edib dəfnlərini Kərbəlada keçirmiş, şəxsi vəsaiti hesabına çoxlu sayda soydaşlarımızın təhsil almalarında vasitəçi olmuşdur. Bakıya və eləcə də Qara şəhərə həyat rəmzi sayılan Şollar suyunun çəkilməsində böyük məbləğ sərf etmişdir.

Ağa Musa Nağıyev 1919-cu il mart ayının 4-də Bakıda vəfat etmişdir. Vəsiyyətinə əsasən Kərbəlada dəfn edilməli olan M.Nağıyev imkansızlıq ucbatından "Çəmbərəkənd" qəbiristanlığında dəfn olunmuşdur. Milyonçunun nəşi yalnız 1998-ci ilin 23 iyulunda nəvəsi Dilarə xanımın və xeyriyyəçi Axund Hacı Əvəzin təşəbbüsü ilə Biləcəri qəbiristanlığında əbədi məzara qovuşmuşdur. Qəbrin üstü oğlunun xatirəsinə tikdirdiyi İsmailiyyə binasının maketi əsasında tərtib edilmişdir.

Ə d ə b i y y a t

Nağıyeva, D. Xalq üçün ömrünü şam kimi əridən...: (Ağa Musa Nağıyev haqqında xatirələr və faktlar) /Dilarə Nağıyeva.- Bakı: 2007.- 248 s.

Nağıyeva, D. Zamanın sorağında: milyonçu Ağa Musa Nağıyevin fəaliyyəti və xeyriyyəçiliyi haqda /Dilarə Nağıyeva; elmi red. A.Həşimov; red. K.Muxtarqızı.- Bakı: Elm, 2011.- 229, [3] s.

Tahirqızı, Ü. Milyonlar içində keçmiş ömür: Ağa Musa Nağıyev Bakıda xeyli binalar tikdirib /Ülviyyə Tahirqızı //Xalq cəbhəsi.- 2013.- 13 sentyabr.- S.13.

İ n t e r n e t d ə

http://anl.az/el/n/nd_xuoshke.pdf

http://web.anl.az/el/n/nd_xuoshke.pdf

http://anl.az/el/Kitab/Azf-268536.pdf

http://www.anl.az/down/meqale/xalqcebhesi/2013/sentyabr/325725.htm

135 illiyi

Şəfiqə Əfəndizadə 1882-1959

Maarifçi

Şəfiqə xanım Məmmədəmin qızı Əfəndizadə 1882-ci ildə Gürcüstanın Astxuri kəndində anadan olmuşdur. Atası tanınmış pedaqoqlardan olmaqla yanaşı, Şərq və Avropa ədəbiyyatının mahir bilicisi idi. Şəfiqə ilk təhsilini atasından almış, ərəb, fars, rus dillərini öyrənmişdir. Hələ on dörd yaşında ikən Şəfiqə xanım atasının Şəkidə işlədiyi Darrüssiyada qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlamışdır.

1901-ci ildə Tiflis Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək müəllimlik attestatı aldıqdan sonra H.Z.Tağıyevin və N.Nərimanovun təşəbbüsü ilə Bakıya dəvət olunmuşdur.

1901-ci ildə Bakıda açılmış ilk rus-müsəlman qız məktəbinin ilk pedaqoqlarından biri də Şəfiqə xanım Əfəndizadə idi.

1917-ci ilin aprelində Bakıda "İsmailiyyə" binasında keçirilmiş Zaqafqaziya müsəlmanlarının qurultayında müxtəlif təbəqələrdən olan kişilərlə yanaşı, cəmi üç qadın - Tiflisdən Sara Talışinskaya, Bakıdan Şəfiqə Əfəndizadə və Sara Vəzirova iştirak etmişlər. Fars, rus və ərəb dillərini yaxşı bilən, Şərq ədəbiyyatını mükəmməl öyrənən, Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanımın səlis, aydın və savadlı çıxışı hamını heyran etmişdir.

O, müəllimliklə yanaşı jurnalist kimi də fəaliyyət göstərmiş, ilk mətbu yazısı "Şərqi-rus" qəzetində dərc edilmiş, sonralar "Dəbistan" məcmuəsində (1906-1908-ci illərdə), "Rəhbər", "Məktəb" jurnallarında məqalələri çap olunmuşdur. Şəfiqə xanım sonralar "Açıq söz", "İstiqlal", "Bəsirət" və "Əfkari-mütəllimin" kimi tanınmış mətbu orqanlarda müntəzəm çıxış etməyə başlamışdır.

Jurnalistika və publisistika sahəsində tanınması əsasən 1911-1912-ci illərdə çap olunan "İşıq" qəzeti ilə bağlıdır. 1914-cü ildə "İki yetim, yaxud Kərimin hümməti" adlı bədii kitabı nəşr olunmuşdur. 1918-ci ilin martında ermənilər tərəfindən törədilən mart faciəsi Şəfiqə xanımın da həyatına ağır zərbələr vurmuşdur. Bir müddət Qubada, Azqurda və İstanbulda yaşamış, lakin Azərbaycanda baş verən hadisələri mütəmadi olaraq izləmiş və münasibət bildirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsindən sonra 1919-cu ilin aprelində Bakıya qayıdan Şəfiqə xanım yenidən pedaqoji işinə bərpa olunmuşdur.

Şəfiqə Əfəndizadə keçmiş sovetlər dövründə də müəllimliklə yanaşı, publisistik fəaliyyətini davam etdirmiş, 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinin üzvü seçilmiş, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur.

1932-ci ilə qədər pedaqoji fəaliyyətlə məşğul olan Şəfiqə xanım Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilən qadın konfrans və qurultaylarında nümayəndə kimi iştirak etmişdir.

Görkəmli Azərbaycan ziyalısı, ömrünü Azərbaycan qadınının maariflənməsinə, azadlığına həsr edən Şəfiqə xanım Əfəndizadə 1959-cu ildə Bakıda vəfat etmişdir.

Hazırda Bakı şəhəri Yasamal rayonundakı 13 saylı orta məktəb Şəfiqə xanım Əfəndizadənin adını daşıyır.

Ə d ə b i y y a t

Dünyaminqızı, Q. Öz millətini ucaldan xanım: Şəfiqə xanım Əfəndizadə /Q.Dünyaminqızı // Kaspi.-2015.- 15 sentyabr.- S.9-10.

İsmayıl. İlk azərbaycançı qadın jurnalist...: Şəfiqə xanım Əfəndizadənin publisistikası geniş tədqiq olunmalıdır /İsmayıl //Şərq.- 2014.- 2 dekabr.- S.11.

Mikayıl qızı, P. Şəfiqə Əfəndizadənin qadın azadlığı uğurunda mübarizəsi /P.Mikayıl qızı //Kaspi.- 2015.- 15 sentyabr.- S.14.

Səfərov, R. İlk maarifpərvərlərdən biri: Şəfiqə xanım Əfəndizadənin pedaqoji fəaliyyəti haqqında bəzi qeydlər /R.Səfərov //Kaspi.- 2015.- 15 sentyabr.- S.11.

Tahirqızı, Ü. "Cəhalətdən çıxmağın dərmanı elmdir, maarifdir...": Şəfiqə Əfəndizadə həm jurnalist, həm də pedaqoq kimi maarifin, elmin əhəmiyyətini "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında təbliğ edirdi /Ü.Tahirqızı //Xalq cəbhəsi.- 2014.- 17 oktyabr .- S.11.

730 illiyi

Mahmud Şəbüstəri 1287-1320

Filosof

Səadəddin Mahmud ibn Əbdül-Kərim ibn Yəhya Şəbüstəri (Mahmud Şəbüstəri) 1287-ci ildə Təbriz yaxınlığındakı Şəbüstər kəndində, ilahiyyatçı ailəsində anadan olmuşdur. Öz şəxsi mütaliəsi sayəsində ensiklopedik bilik əldə edib, ilahiyyat, fəlsəfə, astronomiya, tibb, filologiya və başqa elm sahələrinə dərindən bələd olmuşdur. Mahmud Şəbüstəri hələ cavanlıq illərindən Misir, Hicaz, Suriya, İraq və başqa ölkələrə səyahətlər etmiş, görkəmli alimlərlə tanış olmuşdur.Məhəmmədəli Tərbiyətin yazdığına görə, şirvanlı səyyahlardan biri Şəbüstərinin Kirmanda da olduğunu iddia edir. O, Kirmanda evlənmiş və orada uşaq və nəvələri də olmuşdur. Şəbüstərinin nəslinin nümayəndələri arasında elm və ədəbiyyat xadimləri də yetişmiş, oğlu şair olmuş və atasının məşhur "Gülşəni-raz" əsərinə şərh yazmışdır.

Görkəmli filosof qısa ömür sürsə də, özündən sonra zəngin bir ədəbi irs qoyub getmişdir. "Səadətnamə", "Kənzul-həqaiq" ("Həqiqətlər xəzinəsi"), "Həqqul-yəqin fi Mərifəti rəbbul aləmin" ("Aləmin yaradıcısını dərk etmək üçün şəksiz həqiqətlər"), "Miratul-Muhəkkikin" ("Həqiqət axtaranların aynası") əsərləri və dünya şöhrətli "Gülşəni-raz" ("Sirlər gülşəni") poeması onun qələminə məxsusdur. "Sirlər gülşəni" ("Gülşəni-raz") məsnəvisi yazıldığı dövrdən təsəvvüfün təməl kitablarından sayılır.

Şəbüstəri özünün ilk fəlsəfi əsərlərini nəsrlə yazmışdır. XVII yüz ilin Osmanlı müəllifi Sarı Abdullah ana dilində yazdığı "Səmərətul-Fuad" əsərində "Gülşəni-raz" əsərinə istinad etmişdir. Bu əsər orta yüzilliklərdə iki dəfə türkcəyə tərcümə edilmişdir.

1426-cı ildə "Gülşəni-raz" Azərbaycan şairi Şirazi tərəfindən ana dilimizə-Azərbaycan türkcəsinə tərcümə etmiş, 1944-cü ildə isə Əbdülbaqi Gölpınarlı əsəri Osmanlı türkcəsinə çevirmişdir. XIX əsrdən başlayaraq poema müxtəlif müəlliflər tərəfindən bir çox Avropa dillərinə çevrilmiş və dəfələrlə dərc olunmuşdur. Əsər yarandığı gündən bütün Şərqin sufiləri arasında böyük rəğbətlə qarşılanmışdır. Şəbüstərinin fəlsəfəsinə dair kitabında Şaiq İsmayılov XIV-XVIII əsrlər arasında bu əsərə fars dilində şərh yazmış 18 müəllifin adını çəkir.

1319-1320-ci ildə Şəbüstəri özünün ikinci mənzum fəlsəfi əsəri olan "Səadətnamə"ni qələmə almışdır. Bu, həcmcə əvvəlki poemadan daha böyükdür. Üç min beytdən ibarət "Səadətnamə" əsərində müəllif fəlsəfi düşüncələrindən başqa öz həyat və fəaliyyəti, səyahətləri haqda məlumatlar vermiş, müəllimləri və sevimli kitabları haqda söz açmışdır.

O, ərəb dilindən fars dilinə tərcümə ilə də məşğul olmuşdur. Məşhur filosof İmam Qəzalinin "Minhacul-abidin" ("Zəvvarların yolu") adlı əsərini fars dilinə çevirmişdir.

Şəbüstəri qısa ömür yaşamış, 1320-ci ildə vəfat etmişdir. Doğulduğu kəndin qəbiristanlığında, müəllimi Yaqub Təbrizinin yanında dəfn olunmuşdur. Məzarı üstündə türbə inşa edilmiş, üzərinə mərmərdən xatirə lövhəsi vurulmuşdur. Qəbrin sinə daşında: "Böyük şeyx 33 yaşında bu cismani dünyadan əbədi dünyaya köçdü" sözləri yazılmışdır.

Ədəbiyyat

Fərəcov, S. Sufi dünyasında zəngin irs sahibi /S.Fərəcov //Mədəniyyət.- 2014.- 8 avqust.- S.15.

Görkəmli sufi alimi Mahmud Şəbüstəri: Ensiklopedik bilikli filosof //Azadlıq.- 2013.- 8 aprel.- S.14.

İnternetdə

http://www.anl.az/down/meqale/azadliq/2013/aprel/301325.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2014/avqust/386089.htm

110 illiyi

Aliyə Rüstəmbəyova 1907-1942

Hərbi həkim

Aliyə Fətulla qızı Rüstəmbəyova 1907-ci ildə Şuşada anadan olmuşdur. Hələ kiçik yaşlarında ikən ailələri Bakıya köçmüşdür. Atası Fətulla Rüstəmbəyov neft sənayesində çalışmış, savadlı mühəndis-texnoloq kimi Azərbaycanda neft sənayesinin yenidən qurulmasının təşkilatçılarından biri olmuşdur. Aliyə Bakıdakı 3 saylı orta məktəbi bitirmiş, Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. Təhsilini 1-ci Leninqrad (indiki Sankt-Peterburq) Tibb İnstitutunda davam etdirmiş və bu ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Özbəkistana işləməyə göndərilmiş, 1938-ci ildə təcrübəli həkim-terapevt kimi Moskvaya çağırılmış, Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışmış, elmi tədqiqatlar aparmışdır.

A.Rüstəmbəyovanın müharibə həyatı 1939-cu ildən başlamışdır. Sovet İttifaqı ilə Finlandiya arasında gedən müharibədə həkim kimi cəbhəyə, Kareliya bərzəxində gedən döyüşlərə göndərilmişdir. 1940-cı ilin martında Aliyə Rüstəmbəyova Moskvaya qayıtmışdır. 1941-ci il iyun ayının 22-də isə faşist Almaniyası ilə Sovet İttifaqı arasında dəhşətli müharibə başlayanda Aliyə yenidən cəbhəyə getmiş, Volokolamsk şəhərində yerləşən Qırmızı Ordu hissələrindən birinin tibb-sanitar batalyonuna hərbi həkim təyin olunmuşdur. O, əvvəlcə Moskva ətrafında, sonra Smolensk-Bryansk cəbhə xəttində tibb-sanitar batalyonunda çalışmış, yüzlərlə yaralı əsgəri ölümdən xilas etmişdir.

1941-ci ilin dekabrında ağır döyüşlərin birində yaralanmış və əsir düşmüşdür. Almanlar onun həkim olduğunu bilib, ondan həkim kimi istifadə etmək istəmiş, o isə əsirlikdən qaçmaq və partizanlara qoşulmaq üçün vaxt və imkan qazanmaq məqsədilə almanların təklifi ilə razılaşmışdır. Cəsur və qorxmaz partizan həkim 1942-ci ilin fevralında bir qrup əsir döyüşçü ilə əsirlikdən qaçmış, Smolensk meşələrində "Deduşka" adlı partizan dəstəsində çalışmışdır. 1942-ci ilin yayında almanlar öz hərbi hissələrini birləşdirərək partizan dəstələri üzərinə yeni qüvvələr göndərmiş, düşmənə ciddi müqavimət göstərən partizanlar çox ciddi itki vermişlər. 1942-ci il iyunun axırlarında həmin qanlı döyüşlərin birində Aliyə Rüstəmbəyova qəhrəmancasına həlak olmuşdur.

Ulu öndər Heydər Əliyev vaxtilə Aliyə Rüstəmbəyova haqqında yüksək fikirlər söyləmişdir. 1972-ci ildə "Oktyabr" jurnalının 6-cı sayında ümummilli lider Heydər Əliyevin A.Rüstəmbəyova haqqında dediyi bu sözlər qeyd olunub: "Mən Smolensk vilayətində partizan dəstələrindən birində döyüşən şərəfli azərbaycanlı qızı, hərbi həkim Aliyə Rüstəmbəyovanın igidliyini yüksək dərəcədə səciyyəvi hesab edirəm".

Azərbaycanın vətənpərvər qızının qəhrəmanlığı ədəbiyyat və incəsənət nümayəndələrinin də nəzər-diqqətindən kənarda qalmamışdır. Şairə Mirvarid Dilbazi 1972-ci ildə "Partizan Aliyə" poemasını yazmış, heykəltəraş Aslan Rüstəmov 1962-ci ildə onun büst-portretini hazırlamışdır.

Ə d ə b i y y a t

Aliyə Rüstəmbəyova //Azərbaycanlılar Belorusiya uğrunda döyüşlərdə /tərt. ed. N. Qılınclı; [red.: U.Bədəlova, T.Nəbiyeva].- Bakı, 2010.- S.170-172.

Rüstəmbəyovların iki gənc istedadı?: Partizan həkim Aliyə //Azadlıq.- 2013.- 8 sentyabr.- S.14.

Tahirqızı, Ü. Həkim, partizan və döyüşçü…: "Deduşka"nın şuşalı qəhrəman qızı /Ü.Tahirqızı //Xalq cəbhəsi.- 2013.- 7 dekabr.- S.14.

85 illiyi

Gədəbəy Rayon Mərkəzi Kitabxanası 1932

Ə d ə b i y y a t

Gədəbəy Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi //Azərbaycan Kitabxana Ensiklopediyası /AR MdTN; Azərb. Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b..-Bakı, 2015.- S.245.

www.gadabey.cls.az

Gədəbəy rayonunda ilk dəfə kitabxana (qiraətxana) çox az nüsxə kitabla 1932-ci ildə yaradılmışdır. Gədəbəy Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1978-ci ildə təşkil olunmuşdur. 1981-ci ildə rayon mərkəzi kitabxanası əsasında mərkəzləşdirilmiş sistemdə birləşdirilmişdir.

1985-ci ilə qədər rayonda cəmi 69 kitabxana fəaliyyət göstərmişdir. Hazırda Gədəbəy Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi üzrə 75 kitabxana fəaliyyət göstərir. Onlardan 1 mərkəzi, 1 uşaq, və 73 kənd kitabxana filiallarından ibarət olan şəbəkəni özündə birləşdirir. Rayon MKS-nin ümumi kitab fondu 2014-ci ildə 341.167 nüsxə təşkil etmişdir. O cümlədən Azərbaycan dilində kiril qrafikası ilə 180.658, latın qrafikası ilə 144.461 və rus dilində 16.048 nüsxədir. Mərkəzi kitabxananın kitab fondu 10.640, uşaq şöbəsinin kitab fondu 9.747 və kənd kitabxanalarının filiallarının fondu isə 320.780 nüsxədən ibarətdir. Gədəbəy rayon mərkəzi kitabxanası hər bir oxucuya fərdi yanaşma yolu ilə maksimum oxucu cəlbinə nail olmuşdur. Belə ki, 2014-ci ildə Mərkəzi kitabxanadan 30.850 nəfər oxucu istifadə etmişdir ki, onlara da 431.500 nüsxə kitab verilmişdir. MKS-in işçilərinin sayı 232 nəfərdir.

85 illiyi

Quba Rayon Mərkəzi Kitabxanası 1932

Ə d ə b i y y a t

Quba Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi //Azərbaycan Kitabxana Ensiklopediyası /AR MdTN; Azərb.Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b..- Bakı, 2015.- S.390.

www.guba.cls.az

Quba Rayon Mərkəzi Kitabxanası 1932-ci ildə yaradılmışdır. Bu dövrədək müxtəlif formalarda qiraətxanalar, kitabxanalar da faəliyyət göstərmişdir. Quba Rayon Mərkəzləşdirilmiş Kitabxana sistemi 1978-ci ildə təşkil edilmişdir. MKS-ə 1 Mərkəzi Kitabxana, 1 şəhər, 89 qəsəbə və kənd kitabxana filialı daxildir. 2002-ci ildə Quba Rayon Mərkəzi Kitabxanasında kənd rayonları arasında ilk dəfə olaraq Resurs-İnformasiya Mərkəzi - Kompüter zalı açılmışdır. MKS 2003-cü ildə fəaliyyət dairəsinə görə II qrupa keçirilmişdir.

MKS "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Qanunları, Respublika Prezidentinin kitabxana işi ilə bağlı bütün qərar və sərəncəmlarını, digər direktik sənədləri rəhbər tutaraq fəaliyyət göstərir.

2014-cü ildə MKS-in ümumi kitab fondu 614 min nüsxə, oxucuların sayı 30 min nəfər olmuşdur. Mərkəzləşdirilmiş kitabxanada Wi-Fi zonası yaradılmış və oxucuların istifadəsinə verilmişdir. MKS-də 145 işçi çalışır.

85 illiyi

Şəmkir Rayon Mərkəzi Kitabxanası 1932

Şəmkir Rayon Mərkəzi Kitabxanasının əsası 1932-ci ildə rayon ziyalıları Mirhəbib Seyidov, Məhərrəm Əliyev və Məhəmməd Həsənov tərəfindən qoyulmuşdur. Onlar kitabxananı iki il ictimai əsaslarla idarə etmişlər. 1934-cü ildə kitabxanaya yeni bina və iki nəfər ştat vahidi verilmişdir. Həmin vaxtdan kitabxana rayon Mərkəzi Kitabxanası kimi fəaliyyət göstərmişdir. Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1980-cı ildə təşkil edilmişdir. Hazırda Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1 Mərkəzi Kitabxananı, 71 qəsəbə və kənd kitabxana filialını özündə birləşdirir. MKS-də 217 işçi çalışır. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin kitab fondunda 417 min nüsxədən çox kitab saxlanılır.

Ə d ə b i y y a t

Şəmkir Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi //Azərbaycan Kitabxana Ensiklopediyası /AR Md TN; Azərb.Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b..- Bakı, 2015.- S.574.

shamkir.cls.az.

70 illiyi

İmişli Rayon Mərkəzi Kitabxanası 1947

İmişli Rayon Mərkəzi Kitabxanasının əsası 1947-ci ildə qoyulmuşdur. Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1977-ci ildə təşkil edilmişdir. Hazırda Mərkəzləşdirilmiş Kitabxana sisteminə 49 kitabxana, o cümlədən 1 Mərkəzi Kitabxana, 2 şəhər kitabxanası, 46 kənd kitabxana filialı daxildir. 2014-cü ildə MKS-in kitab fondu 342 min nüsxədən çox olmuşdur. Hazırda MKS-də 114 nəfər işçi çalışır.

Ə d ə b i y y a t

İmişli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi //Azərbaycan Kitabxana Ensiklopediyası /AR Md TN; Azərb.Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b..- Bakı, 2015.- S.273.

İ n t e r n e t d ə

imishli.cls.az

70 illiyi

BDU-nun Kitabxanaçılıq fakültəsi 1947

Kitabxanaçılıq-İnformasiya fakültəsi Bakı Dövlət Universitetində kitabxanaşünas-informasioloq, kitabşünas və nəşriyyat redaktoru ixtisasları üzrə kadr hazırlayan aparıcı humanitar fakültələrdən biridir. Fakültə Kitabxanaçılıq şöbəsi kimi 1947-1948-ci tədris ilində BDU-nun filologiya fakültəsinin nəzdində təşkil olunmuş, bununla da Azərbaycanda ali kitabxanaçılıq təhsilinin əsası qoyulmuşdur. Xalq yazıçısı Süleyman Rəhimov, təcrübəli kitabxana mütəxəssisləri Əliheydər Qəhrəmanov, Hüseyn Tağıyev və Məryəmxanım Səmədova şöbənin ilk ixtisas müəllimləri kimi fəaliyyət göstərmişlər. Şöbədə 1955-ci ildə qiyabi Azərbaycan, 1959-cu ildə isə qiyabi rus bölmələri açılmışdır. 1958-ci ildən Kitabxanaçılıq şöbəsi şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərmişdir. Kitabxanaçılıq şöbəsi 1962-ci ilin oktyabr ayından öz fəaliyyətini ADU-nun müstəqil fakültəsi kimi davam etdirməyə başlamışdır. Fakültənin ilk dekanı vəzifəsinə t.e.n. Abuzər Xələfov təyin edilmişdir. 1962-2012-ci illərdə kitabxanaçılıq-informasiya fakültəsinə 3 dekan 1962-1970; 1979-1993-cü illərdə tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov; 1970-1979-cu illərdə Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Hüseyn oğlu Əliyev; 1993-2012-ci illərdə tarix elmləri doktoru, professor Xəlil İsmayıl oğlu İsmayılov başçılıq etmişdir. 2012-ci ildən kitabxanaçılıq-informasiya fakültəsinin dekanı fizika-riyaziyyat elmləri namizədi, dosent Azad İsa oğlu Qurbanovdur. Fakültədə "Kitabxanaçılıq və informasiya", "Kitabşünaslıq" ixtisasları üzrə bakalavr kadrları; "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabxana fondlarının formalaşması və istifadəsi", "Nəşriyyat işi redaktəetmə" ixtisaslaşmaları üzrə isə magistr kadrlar hazırlanır. Fakültənin maddi-texniki bazası, elmi-pedaqoji potensialı tədrisin dünya standartları səviyyəsində təşkilinə imkan verir. Fakültədə 4 kafedra: Kitabxanaşünaslıq; Biblioqrafiyaşünaslıq; Kitabxana resusları və informasiya-axtarış sistemləri; Kitabşünaslıq və nəşriyyat işi kafedraları fəaliyyət göstərir. 2003-cü ildə kitabxanaçılıq fakültəsinin adı dəyişdirilərək "Kitabxanaçılıq-informasiya fakültəsi" adlandırılmış, onun maddi-texniki bazası yaxşılaşdırılmış və kadr potensialı gücləndirilmişdir. Fakültə ABŞ-ın İllinoys və Urbana-Şampeyn universitetlərinin, Fransanın Nitsa Universitetinin Lion Ali məktəbinin, Belçikanın Namur Ali Kitabxanaçılıq məktəbinin, eləcə də Rusiya ali məktəblərinin təcrübələrindən geniş istifadə edir və 2008/2009-cu tədris ilindən Boloniya prosesinə qoşulmuşdur. Hazırda fakültədə bakalavr pilləsi üzrə 430, magistratura pilləsində isə 40 tələbə təhsil alır, 5 aspirant və 18 dissertant elmi axtarışlarını davam etdirir. Kitabxanaçılıq-informasiya fakültəsi Azərbaycanda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq təhsili üzrə elmi-tədqiqat mərkəzi kimi dissertasiya işlərinin hazırlanması və müdafiəsi, monoqrafiyaların çap edilməsi, müvafiq sahələr üzrə tədris-metodik nəşrlərin hazırlanması və çap edilməsi, elmi və elmi-kütləvi xarakterli məqalələrin yazılması və dərc edilməsi işlərinə rəhbərlik edir. Fəaliyyəti dövründə fakültə əməkdaşlarının 3500-dən çox elmi əsəri çap olunmuşdur.

Ə d ə b i y y a t

Kitabxanaçılıq-İnformasiya Fakültəsi //Azərbaycan Kitabxana Ensiklopediyası /AR Md TN; Azərb.Milli Kitabxanası; lay. rəh. Ə.Qarayev; baş red.K.Tahirov; elmi red.A. Xələfov və b..- Bakı, 2015.- S.361.

1485 illiyi

Ayasofiya – Müqəddəs Sofiya Məbədi 532-537

Dünyanın ən gözəl şəhərlərindən biri İstanbulun göz-bəbəyi olan Ayasofiya bu şəhərə gələn turistlərin ən çox ziyarət etdikləri yerlərdəndir. Hər il minlərlə insan bu möhtəşəm tikilini ziyarət edir. Türkiyənin İstanbul şəhərində yerləşən, əvvəl provoslav kilsəsi, daha sonra məscid, hal-hazırda isə muzey olan məbəd bizans dövrünə aid olan Ayasofiya Bizansın "qızıl əsrinin" simvoludur. 532-537-ci ildə İmperator Yustinianın dövründə Konstantinopolda Trallı Anfimi və Miletli İsidor tərəfindən tikilmişdir. Gündə min usta və on min işçinin çalışması ilə 5 il 11 ay 10 günə inşaat başa çatmışdır. Ayasofiyanın tarixinə onlarla əfsanə sığdırılıb. Bütün bu əfsanələr "Ayasofiya əfsanələri" adlı kitabda toplanılıb. Kitabda yer alan məlumata görə, məbədin təməli 70 metrdir. Binanın təməlinin möhkəm olması üçün qızıl və gümüş doldurulub. Sarayla Ayasofiya arasında gizli keçid olub. Dalğaların binanı aşındırmaması üçün bina sütunlar üzərində qurulub. Ayasofiyanın ümumilikdə 361 qapısı var. Bunların 101-i böyük və tilsimlidir. Bəzi qapılar iddiaya görə, Nuhun gəmisinin taxtalarındandır. Kitabda yer alan məlumata görə, latın kapitan Henrikus Dandolistan İstanbulu işğal etmək istəyirdi. 80 yaşında o bu istəyinə çatmadan öldü. Gəlib-keçənin onun məzarını tapdalaması üçün Ayasofiyada basdırılıb. Digər bir məluma görə Peyğəmbər (s.ə.s) doğulanda məbədin qübbəsi çöküb. Uzun müddət təmir edilməyib. Xızır əleyhisəllam "Həzrəti Məhəmmədin tüpürcəyindən alıb, zəmzəm suyu ilə qatıb təmir edin" deyib.

Başqa bir rəvayətdə yazılır ki, "Fateh Sultan Mehməd İstanbulu mühasirəyə alsada hələ tuta bilməmişdi. Bir gün o məbədin qübbəsində nur gürdü. Bu əsgərləri çox sevindirdi və bir neçə gün sonra İstanbul alındı. 1453-cü ildə Türklər şəhəri fəth etdikdən sonra II Sultan Mehməd Fateh qələbənin rəmzi kimi kilsəni cameyə çevirərək Ayasofiya adlandırmışdır. Fateh Sultan daha sonra "bu qübbə peyğəmbərin ağız suyu ilə dayanır" deyərək içəriyə böyük qızıl top asdırıb".

Minarələri memar Sənan təmir etdirib. Memar Sənanın layihəsinə görə, 3 nəfər birlikdə minarənin içi ilə bir birini görmədən gəzə bilər. Ayasofiya məcsidə çevriləndən sonra içinə bir çox İslam motivi yerləşdirildi. İçəridə Allah, Məhəmməd, Əbubəkr, Ömər, Osman, Əli yazılan 7,5 metrlik iri lövhələr asıldı. Bu lövhələr 1935-ci ildə bura muzeyə çevriləndə söküldü. Lakin onları zamanında məscidin içərisində yığdıqları və çox iri olduqları üçün qapıdan çıxarmaq mümkün olmadı.

Yarımgünbəzlərin və parusların ritmik "uçuşu", günbəzin oturacağında açılmış 40 pəncərədən süzülən işıq nəhəng günbəzin səmada sərbəst pərvaz etməsi effektini yaradır. Ayasofiyanın monumental xarici görünüşü dəyişdirilmiş, əlavə tikililərlə (minarələr və s.) zənginləşdirilmişdir. Ayasofiyanın 1935-ci ildən muzeydir, 10 fevral 1991-ci ildən qismən came kimi də fəaliyyət göstərir.

Ə d ə b i y y a t

Ayasofiya //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2010.- C.2.- S.423.

990 illiyi

Xudafərin körpüsü 1027



Xudafərin Azərbaycan memarlıq sənətində möhtəşəm tarixi abidələrimizdəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü bizə məlumdur. Böyük Xudafərin körpüsünün dayaqları çay yatağında sıralanan təbii qayalar üstündə tikildiyindən onun tağ aşırımları müxtəlif ölçülüdür. Körpülərdən birincisi "Baş Xudafərin körpüsü" adlanır, uzunluğu 130 m., eni 6m., hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200 m., eni 4,5 metr, hündürlüyü 10 metrdir. Salamat qalmış üç tağ aşırımlardan yalnız orta tağda sivrilik hiss olunur.

Azərbaycanın memarlıq sənətində bu əzəmətli abidələr haqqında dünyanın bir çox alimləri qiymətli fikirlər söyləsələr də, körpülərin nə vaxt inşa edilməsi haqqında tarixdə yekdil fikrə rast gəlinmir. Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal edilir. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi və Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. Bəzi mənbələrdə isə ikinci körpünün e.ə. 558-529-cu ildə ağacdan müvəqqəti qurğu kimi inşa edilməsi, Elxanilər dövləti zamanında 13-cü yüzildə isə daş və kərpiclə üzlənməsi haqqında mülahizələr yürüdülür. Xudafərin körpüsü haqqında İran tarixçisi və coğrafiyaçı Həmdullah Qəzvini əsərlərində körpülərin adını "Xuda-Afərin" kimi yazır ki, bu da farsca "Allah tərəfindən yaradılmış", "Allaha Mərhəba" mənalarını verir. Qəzvini yazır : Zəngilan yaxınlığında Araz çayı üzərində Xudəfərin körpüsü var ki, onu hicri 15-ci ildə (miladı 636) Məhəmməd peyğəmbərin (s.a.s) silahdaşlarından biri olmuş Əbu Bəkr ibn Abdullah tikdirmişdir. Araşdırmaçıların çoxunun fikrincə, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib. Hələlik Xudafərin körpüləri sirlərini açmayıb.

XIX əsr tarixçisi A.Bakıxanov da "Gülüstani-İrəm" əsərində hicri 22 (miladi 644)-ci il hadisələrindən bəhs edərkən mənbə göstərmədən bildirmişdir ki, Muğan vilayətlərini işğal edən zaman Bukayr ibn Abdullah Araz üzərində Xudəfərin körpüsünü tikdirdi. Araşdırıcılar Ə.Salamzadə, K.Məmmədzadə bu tarixi məlumatlara əsaslanaraq VII əsrdə ərəblərin Xudafərin dərəsində ordunun sürətli keçişini təmin etmək üçün müvəqqəti körpü quraşdırdıqlarını və ya mövcud uçuq körpünü təmir etdiklərini güman edirlər.

XVII əsrin osmanlı-türk alimi Münəccimbaşıya görə, Azərbaycan Şəddadi hökmdarı 1-ci Fəzl 1027-ci ildə Araz çayı üzərində böyük və möhkəm bir körpü tikdirmişdir. Münəccimbaşının "Əsəri Əzim" (böyük əsər) adlandırdığı bu körpünü tarixçi V.Minorski onbeş aşırımlı Xudafərin körpüsü hesab edir. Tarixçi A.Bakıxanovun yazdığına görə "Ağa Məhəmməd xan Qacar 1795-ci ildə Qarabağı fəth etmək istəyəndə qarabağlı İbrahim xanın uçurtduğu Xudafərin körpüsünün tikintisini bərpa etdi", İran tarixşisi Z.Mənsuri də təsdiq edir ki, Qarabağ xanı İbrahim Xəlil Cavanşir gözlənilən hücum zamanı Ağa Məhəmməd xan Qacarın ordusunun qarşısını almaq məqsədi ilə böyük Xudafərin körpüsünü dağıtmışdır. Xudafərin körpüləri 1797-ci ildə Ağa Məhəmməd xanın Qafqaza ikinci hərbi yürüşündə də dağıdılmışdır.

Ə d ə b i y y a t

Qaliboğlu, E. Azərbaycanı birləşdirən rəmzi abidə: Xudafərin körpüləri həm də ayrılıq simvoludur /E.Qaliboğlu //P.S. Elm, təhsil və həyat.- 2010.-15 yanvar.- S.3.

Qiyasi, C. Dərdi dərin Xudafərin /Cəfər Qiyasi //Yeni Mədəni-maarif.- 2009.- №4.- S.26-29.

600 ili

İmadəddin Nəsiminin vəfatı 1369-1417

Altı yüz ildir ki, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir. Altı yüz ildir ki, məsləki uğrunda dara çəkilib, dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirində, aşıqların sazında tərənnüm edilir. Nəsimi Azərbaycan dilində şeirin ilk gözəl nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli sənətkarlardan biri olmuşdur. Onun ana dilindən başqa ərəb və fars dillərində də yaratmış olduğu divanlar şairin adının öz vətənindən çox-çox uzaqlarda, bütün Yaxın Şərqdə şöhrətlənməsinə səbəb olmuşdur.

Nəsimi 1369-cu ildə Şamaxıda sənətkar ailəsində anadan olmuş, mükəmməl təhsil almış, fars və ərəb dillərini öyrənmişdir. Şairin Yulidəmu ləqəbli Şah Xəndan adlı bir qardaşı da olmuşdur. Şah Xəndan gözəl şeirlər yazmışdır. Təbii ki, bununda Nəsiminin bir şair kimi yetişməsində rolu az olmamışdır. X əsrdə yaşamış həllac Hüseyn Mənsurun sufi görüşləri Nəsimini özünə cəlb etmiş və onları yaymışdır. Təsadüfi deyildir ki, yaradıcılığının ilk dövrlərində "Hüseyni" təxəllüsü ilə şeirlər yazmışdır. Sonralar Fəzlullah Nəiminin hürufi görüşlərini mənimsəmiş, özünü onun müridi adlandırmış və "Nəimi" sözü ilə həmqafiyə "Nəsimi" sözünü özünə təxəllüs götürmüşdür.

Nəiminin edamından sonra onun vəsiyyətinə uyğun olaraq əvvəl Təbrizə sonra Türkiyəyə, İraqa və Suriyaya getmişdir. Nəhayət Hələb şəhərinə gəlib orada məskən salmışdır. Nəsimi Hələb şəhərinə gəldikdən sonra ətrafına tərəfdarlar toplayıb hürufi ideyalarını yaymağa başlamışdır. Az keçmədən şəhər ruhanilərinin məclisində Nəsimini mühakimə edib onu "kafir" adlandırmış və dinsizlikdə günahlandıraraq 1417-ci ildə vəhşicəsinə edam etmişlər.

Nəsimi şeirlərində həyat sevgisi, dünyaya bağlılıq, ictimai quruluşdan, feodal ideologiyasından narazılıq və ona qarşı üsyan xüsusilə aydın görünür. Şair insanları azad, xoşbəxt görmək arzusu ilə yanır, həyatın gözəlliklərindən zövq almağa çağırır.

Şairin şeirlərinin bir qismini dini-fəlsəfi əsərlər təşkil edir. Bu şeirlərin çoxunda o "Seyid", "Hüseyni, "Seyyid Hüseyni" təxəllüslərini işlətmişdir.

Nəsiminin şeirləri hələ sağlığında İraqda, Suriyada, Kiçik Asiyada, Orta Asiyada, hətta Uzaq Şərqdə yaşayan uyğurlar arasında çox populyar olmuşdur. Onun əsərlərinin üzü köçürülərək insanlar arasında geniş yayılmışıdır.

1546-cı ildə Nəsimi haqqında ilk müfəssəl məlumat təzkirəçi Lətif Qəstəmoğlu tərəfindən verilmişdir. Görkəmli ədəbiyyatşünas Salman Mümtaz 1926-cı ildə Nəsimi divanını ərəb əlifbası ilə nəşr etdirmişdir. İstanbulda "Təsviri-əfkar" mətbəəsində 1844-cü ildə Nəsiminin "Divanı" nəşr edilmişdir. Nəsiminin divanı Azərbaycanda Həmid Məmmədzadə tərəfindən 1972-ci ildə çap olunmuşdur. 1973-cü ildə bəstəkar Fikrət Əmirov şairə həsr etdiyi "Nəsimi dastanı" baletini, C.Cahangirov isə "Nəsimi" kantatasını yazmışdır. Azərbaycan xalqı, eləcə də dünyanın bütün ədəbi ictimayyəti 1973-cü ildə Nəsiminin anadan olmasının 600 illiyini YUNESKO xətti ilə beynəlxalq miqyasda qeyd etmişdir.

Ədəbiyyat

"Cahana sığmayan şair": biblioqrafik göstərici /Sumqayıt Şəhər Mərkəzi Kitabxanası; tərt. ed.: N.Cəfərova, N.Axundzadə, M.Əliyeva; red. Y.Əhmədova.- Sumqayıt, 2014.- 50 s.

Əsgərova, T. Nəsimi dilinin frazeologiyası /T.M.Əsgərova; elmi red. S.Mehdiyeva; AMEA, Nəsimi ad. Dilçilik İn-tu.- Bakı: Elm və təhsil, 2015.- 239, [1] s.

Həsənoğlu, Ə. İmadəddin Nəsiminin "İraq divanı"na şərhlər /Ə.Həsənoğlu.- Bakı: Mütərcim, 2015.- 575, [1] s.

İmadəddin Nəsimi: biblioqrafiya /AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu; tərt. ed. A.C.Xəlilov, red. N.Göyüşov.- Bakı: Elm və təhsil, 2013.- 111, [1] s.

Imadaddin Nasimi, poet, 1369-1417 /Ministry of Culture and Tourism Republic of Azerbaijan; consulting V.Bahmanli; editor: N.Jabbarli, J.Huseynov; design T.Farzi.- Baku: Khan, 2015.- 36, p.

200 illiyi Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınması 1817

Tarixdə özünəməxsus yönü, xarakteri, mədəniyyəti olan alman xalqının Azərbaycanda da nümayəndələri yaşayır. Bunun maraqlı tarixi var. Almanlar Azərbaycanda ilk dəfə Yelizavetpolda (Gəncə), sonra onun yaxınlığındakı Yelenendorfda (Göygöl), Hacıkənddə, Şəmkirdə, Bakıda və s. ərazilərdə məskunlaşıblar, ölkəmizdə təhsili, həmçinin üzümçülüyü, şərabçılığı, tikinti-inşaat işlərini inkişaf etdiriblər. Böyük Vətən müharibəsindən sonra almanların yüksək inkişafını görən Sovet imperiyası onları Sibirə və Qazaxıstana sürgün edib. "Azərbaycan almanları" Azərbaycanda yaşamış alman icmasına verilən ümumi addır. 1817-ci ildə general Yermolov almanların ilk dəstələrinin Azərbaycana yerləşdirilməsi barədə göstəriş verib. Azərbaycana yerləşdirilmiş ilk almanların çoxu Vürtemburq krallığının sakinləri olmuşdular.

Cənubi Qafqazın ilk alman koloniyası bugünkü Gürcüstan ərazisində salınmışdı. 1818-ci il sentyabrın 21-də çar I Aleksandrın dəvətilə Qafqaza köçən Vürtemberq kəndliləri Tiflis yaxınlığında Marienbaum adında şəhərcik saldılar. Növbəti il ərzində Avropadan köçən almanlar daha 5 koloniya qurmuşdu: Elizabettal, Yeni Tiflis, Aleksandrdorf, Petersdorf və Katarinenfeld (indiki Bolnisi).

Tiflis və onun ətrafları Cənubi Qafqaz almanlarının qeyri-rəsmi mədəni mərkəzi idi. 1906-1922-ci illərdə burada alman dilində buraxılan "Kaukasische Post" qəzeti çap edilirdi. O, Qafqazın yeganə alman qəzeti idi. 1918-ci ildə Gürcüstanda alman kəndlərinin sayı 20-dən yuxarı idi. 1941-ci ildə Sovet hakimiyyəti buradan 20423 etnik almanı sürgün etmişdi.

1819-cu ilin yayında Tiflisdən Yelizavetpola (Gəncəyə) köçən 194 alman ailəsi Şamxor (Şəmkir) yaxınlığında Helenendorf və Annenfeld adlı iki koloniya salmışdı. Sovet vaxtı Helenendorf inqilabçı Xanlar Səfərəliyevin şərəfinə Xanlar adlandırıldı, Annenfeld isə Şəmkirlə birləşdi. Sonralar Gəncə və Qazax qəzalarında salınan koloniyalar Georqsfeld (1888-ci il, indi Şəmkir rayonunun Çinarlı qəsəbəsi), Alekseyevka (1902-ci il), Qrünfeld (1906-cı il, indi Ağstafa rayonunun Həsənsu kəndi), Ayxenfeld (1906-cı il, indi Şəmkir rayonunun İrmaşlı kəndi), Traubenfeld (1912-ci il, indi Tovuz şəhəri), Yelizavetinka (1914-cü il, indi Ağstafa şəhəri) və Marksovka (1920-ci illər, sonralar Ağstafa ilə birləşdi) idi. Onların əhalisi ilk koloniyalar sakinlərinin nəslindən ibarət idi. Helenendorfda yerləşən almanlardan bir neçə ailə Goranboy rayonunun Todan kəndi yaxınlığında məskunlaşmışdılar. Hazırda da almanların yerləşdiyi həmin yerlər yerli əhali tərəfindən "Lemsə bağı", "Lemsə bulağı" kimi tanınır. 1918-ci ildə bütün Azərbaycandakı koloniyalarda yaşayan almanların sayı cəmi 6 min nəfər idi. Onların əsas peşəsi əvvəllər əkinçilik, sonralar isə şərabçılıq idi. Təkcə helenendorflu Forer və Hummel qardaşları tərəfindən buraxılan çaxır bütün Qafqaz bölgəsində istehsal edilən çaxırın 58%-ni təşkil edirdi.

Cənubi Qafqaz almanlarının əksəriyyəti etirazçılığa (protestantlığa) etiqad edirdi. Azərbaycanın ilk etirazçı kilsəsi məhz Helenendorfda 1857-ci ildə tikilmişdi. Sonralar lüteran kilsələr Gədəbəydə 1868-ci ildə, Şamaxıda 1869-cu ildə, Bakıda 1897-ci ildə və Annenfelddə 1911-ci ildə də tikilmişdi.

Azərbaycan Demokratik Respublikası dövründə yerli almanlar ilk koloniyanın salınmasının 100 illiyini təntənə ilə qeyd etdilər. 1941-ci ildə Sovet hakimiyyətininəmrilə22.841almanAzərbaycandan çıxarılıb SSRİ-nin Asiya bölgələrinə sürgün edilmişdi. Şimali Qafqaz və Gürcüstandakı kimi, bütün alman mənşəli şəhər və kənd adları rus və Azərbaycan adları ilə əvəz edilmişdi. Gürcüstan və Azərbaycandan fərqli olaraq alman mühacirləri indiki Ermənistan ərazisində yaşayış məntəqə qurmamışdılar. Əsasən Sovet dövründə İrəvanda məskunlaşırdılar. Tarix boyu bu ölkədə onların sayı 500-dən artıq olmayıb. 1941-ci ildə buradan 212 alman köçürülmüşdü. 1878-1918 illərdə Rusiya tərkibində olan Qarsda aktiv mühacirət prosesləri baş verirdi. Mühacirlərin əksəriyyəti tərk etmiş müsəlmanların yerini alan və hakimiyyət dəstəyi ilə məskən salan məsihilər: ermənilər, ruslar, aysorlar, yunanlar,polyaklar və almanlar idi. 1891-ci ildə burada Petrovka adlı ilk alman kəndi yarandı. Birinci dünya müharibəsindən bir az əvvəl daha iki kənd Vladikars və Estonka salınmışdı. Burada baş verən hərbi əməliyyatlardan və təhlükədən canlarını qurtaran almanlar müharibənin sonundan öncə Azərbaycana qaçıb, oradakı Ayxenfeld koloniyasında məskunlaşdılar. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bolşevik rejiminin bütün qaydaları: dinə qarşı təbliğat, repressiyalar və bu kimi hallar alman koloniyalarına da qarşı tətbiq edilirdi. Arxivdə AK(b)P təşviqat və təbliğat şöbəsi nəzdində alman seksiyasının hesabatları, yazışmaları, protokolları da saxlanılır. Arxivdə alman koloniyalarında aparılan kollektivləşdirilmə haqqında sənədlər və Elenendorf Kənd Sovetinın fəaliyyəti haqqında sənədli məlumatlar, habelə AK(b)P katibi – M.C.Bağırovun Telman adına kolxozun komsomol katibi – R.Kriqer ilə 17 fevral 1936-cı il müsahibəsinin qeydləri də mövcuddur. Təhsil sahəsinə ciddi fikir verən alman kolonistləri yaşadığı ərazilərdə öz övladları üçün məktəblər tikmiş və sovet dövründə burada orta ixtisas təhsil ocağı da açılmışdı. Ali təhsil almaq istəyənlər isə respublikanın paytaxtında yerləşən təhsil ocaqlarına üz tuturdular. Arxiv sənədləri arasında Azərbaycan SSR-nın alman koloniyalarında təhsil sahəsində olan vəziyyət haqqında sənədlər saxlanılır. Almanlar məskən saldıqları yerlərdə mədəni mərkəzlər, qəzetlər və klublar da açırdılar. Almanların yerli əhali ilə sıx mədəni əlaqələrinə baxmayaraq, onlar öz etnik xüsusiyyətlərini qoruyub saxlamışdılar. Arxivdə bu mövzuya dair bir sıra sənədlər saxlanılır: alman fəhlə klublarının fəaliyyəti haqqında, alman koloniyalarıda yaşıyan alman gəncləri arasında aparılan iş haqqında (1936). Ancaq almanların Azərbaycanda və ümumiyyətlə SSRİ-nin mərkəzi ərazilərində məskunlaşdıqları yerlərdə onların sabit həyat tərzinə 1941-ci ildə başlayan Böyük Vətən müharibəsi son qoydu. 11 oktyabr 1941-ci ildə SSRİ Daxili İşlər Xalq Komissarı L.Beriyanın imzası ilə 001487 saylı sərəncama əsasən Gürcüstan, Azərbaycan və Ermənistan SSR-də yaşayan almanların deportasiyasına başlandı. Bu sərəncama əsasən güc strukturları almanları Qazaxıstan və Sibirə sürgün etdilər. Deportasiya zamanı sərt həyat şəraiti bir çox almanların həyatına son qoydu. Qeyd olunan tarixi faktlar arxivdə mühafizə olunan sənədlərdə öz əksini tapıb.

Ə d ə b i y y a t

Almanların Azərbaycanda məskunlaşmasının 190 illiyinə həsr olunmuş "Almanların Azərbaycanda" Beynəlxalq elmi praktik konfransın materialları: [6-7 aprel 2009, Bakı: 12 aprel, Göygöl rayonu] /Bakı Slavyan Universiteti; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; Alman-Azərbaycan Cəmiyyəti.-Bakı: BSU, 2009.- 99 s.

İbrahimov, N.Azərbaycan tarixinin alman səhifələri /N.A.İbrahimov; elmi red. M.İsmayıl; red. N.Əliyev.- Bakı: Azərbaycan, 1997.-336 s.

Müseyibli, N. Azərbaycan arxeologiya elmində almanlar: Yakov Hummel /N.Müseyibli //Xalq qəzeti.- 2016.- 18 sentyabr.- S.10.

Uğur. Almanlar Azərbaycanda /Uğur //Xalq cəbhəsi.- 2016.- 4 mart.- S.13.

İ n t e r n e t d ə

http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/mart/480232.htm

190 illiyi

Şəkidə ilk İpək Emalı Fabriki 1827

Azərbaycanda ipəkçilik ən qədim və mühüm təsərrüfat sahəsi olmuşdur. İpəkçilik V əsrdə Azərbaycanda geniş yayılmağa başlamışdır. İpəkçiliyin və ipək toxuculuğunun tarixini öyrənmək üçün arxeoloji qazıntılar zamanı əldə edilən materiallardan görünür ki, əhali bizim eramızdan əvvəl hələ III minillikdə toxuculuq sahəsi ilə məşğul olmağa başlamışdır. Azərbaycanın kənd təsərrüfatı tarixinin inqilabaqədərki tədqiqatçıları sübut etmişlər ki, Azərbaycanda ipəkçiliyin inkişafı daha qədim dövrlərə təsadüf edir. IX-X əsrlərdə Azərbaycanda ipəkqurdunun bəslənməsi geniş yayılmış, Şamaxı, Bərdə, Şəki, Gəncə və bir sıra digər vilayətlərdə bilavasitə ipəkçiliklə məşğul olurdular. Həmin müddətdə Azərbaycanın şəhərlərində toxuculuq sənəti getgedə inkişaf edirdi. Gəncə ipəyi öz gözəlliyinə görə başqa ölkələrin ipəyindən üstün idi. İpəkçilik Azərbaycanın bütün əyalətlərində, o cümlədən Şamaxıda, Şəkidə, Culfada, Ordubadda və sair bölgələrdə getdikcə inkişaf edir və əhalinin əsas məşğuliyyətlərindən birinə çevrilmişdi. XIX əsrə qədər ipəkçilik və xam ipək tədarükü Azərbaycan əhalisinin iqtisadiyyatında əsas yerlərdən birini tuturdu. 1827-ci ildə səhmdarlar cəmiyyəti yaradıldı. Cəmiyyət Şəki (Nuxa) şəhərini özünün daimi yaşayış məskəni seçdi. Ən qədim zamanlardan başlayaraq bu günədək Şəki rayonunda yaşayan əhalinin əsas peşələrindən biri kümdarlıq olmuşdur. Qədim zamanlarda insanlar öz ehtiyaclarını ödəmək üçün ipəkdən cürbəcür əşyalar hazırlayırdılar. Şəki, Zaqatala, Balakən, Qax rayonları qədim zamanlardan kümçülük peşəsinin vətəni hesab olunurdu. İqtisadi cəhətdən Şəki şəhəri Azərbaycanda (bəlkə də bütün Qafqazda) birinci ticarət mərkəzi idi. 1929-cu ildə Şəkidə işə salınmış ipəksarıma fabriki manufaktura tipli idi. XIX əsrdə bütün Cənubi Qafqazdan ixrac olunan barama və həmçinin ipəyin üçdə iki hissəsini Nuxa verirdi. 1852-ci ildə Şəkidə istehsal edilən ipək sapın Londonda ən yüksək qiymətə satıldığı qeyd olunur. Fransa tacirləri təkcə bir ildə Şəkidən gümüş pulla 250 min manatlıq ipək almışdılar. "Azərbaycan Lionu" adlandırılan Şəkinin ipək fabriklərinin əksəriyyəti texnikanın son nailiyyətləri əsasında qurulmuşdu. İpək istehsalında elektrik enerjisi ilk dəfə Nuxada tətbiq edilmişdir. Təsadüfi deyildir ki, hökumət ipəkçiliklə əlaqədar tədbirləri Şəkidə keçirirdi. 1909-cu ildə Şəkidə ipəkçilik üzrə sərgi-müsabiqəsi təşkil olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ipək sənayesi yenidən bərpa olundu. Hazırda "Şəki-İpək" ASC-nin rəhbərliyi tərəfindən müəssisə texniki cəhətdən yenidən qurulmuş, xaricdən baramaaçan avadanlıqları alınaraq quraşdırılmış və istifadəyə verilmişdir. İpəkçiliyin inkişafı ilə əlaqədar "Şəki-İpək" ASC-nin mütəxəssisləri tərəfindən "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafı konsepsiyası" hazırlanmış, İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim edilmişdir. İpəkçiliyin yenidən inkişaf etdirilməsi tariximizin və mədəniyyətimizin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması yolunda atılan mühüm bir addım kimi qiymətləndirilməlidir.

Ə d ə b i y y a t

Pənahov, İ. Şəki ipəyi - mədəni irsimizin maddi daşıyıcısı /İlham Pənahov //Respublika.-2015.- 5 aprel.- S.5

İ n t e r n e t d ə

http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/region/item/8112-shaeki-ipaeyi-maedaeni-irsimizin-maddi-dash-y-dz-s

105 illiyi

Əjdər bəy məscidi 1912

Əsrin əvvəllərində dövrünün tanınmış xeyriyyəçilərindən sayılan Əjdər bəy Aşurbəyov Bakıda daha bir ibadət yeri tikmək fikrinə düşmüş, həm dini, həm də nadir memarlıq abidəsi kimi tanınan Əjdər bəy məscidi 1912-ci ildə inşa olunmuşdur. Əjdər bəy Aşurbəyov Qədim zadəgan nəslin – Aşurbəyovların nümayəndəsi idi. O, "Neft sahəsindəki canlanma" dövründə tanınmış neft sənayeçisinə çevrilmiş, 5 böyük neft mədəninin sahibi olmuşdur. Onun hər bir mədənində ildə 1 mln. pud neft istehsal olunurdu. İcarəyə verdiyi quyulardan çıxarılan neftin dörddə bir hissəsi ona çatırdı ki, bu da 1 mln. pud neft təşkil edirdi. Kommersiya və sahibkarlıq işlərində Əjdər bəy Aşurbəyovun firması hədsiz inam qazanmış, özü isə 10 ildən çox Bakı Şəhər Dumasının üzvü seçilmişdir. Şahidlərin xatirələrinə əsasən, Əjdər bəyin bircə sözü istənilən vekseldən və ya iltizamdan daha sanballı tutuma malik imiş.

Məscidin tikilmə tarixi çox maraqlıdır. Deyilənlərə görə, Nabat xanım Xocabəy qızı Aşurbəyli-Rzayeva Təzəpir məscidini tikdirməyə başladıqda qardaşı Əjdər bəy ona kömək təklif edir. Nabat xanım isə cavabında, "əgər belə imkanınız və hünəriniz varsa, gedin, özünüz bir məscid tikdirin" – deyir və köməkdən imtina edir. Belə olduqda Əjdər bəy Aşurbəyov məscid tikdirmək qərarına gəlir və indiki Göy məscidin əsası qoyulur. Beləliklə, məscidin tikilməsi maraqlı təsadüf nəticəsində baş verir. Məscid indiki Səməd Vurğun küçəsində, o zaman Qanlı təpə adlanan ərazidə inşa edilir. Səxavətilə ad çıxaran Əjdər bəy Aşurbəyov tanınmış memar, Təzəpir və digər nadir memarlıq abidələrində iz qoyan Zivər bəy Əhmədbəyova məscidin layihəsini sifariş verir. İstedadlı memar bu sifarişə də yaradıcı yanaşır. Həm Məkkədəki müqəddəs Kəbə evinin, həm Kərbəla məscidinin, həm də Qüdsün elementlərini özündə əks etdirən bir layihə hazırlayır. Əjdər bəy bu maraqlı layihəni bəyənir və tikintiyə başlamaq barədə tapşırıq verir. Ötən əsrin əvvəllərini araşdıranlar üçün ən etibarlı mənbələrdən sayılan "Kaspi" qəzetinin məlumatına görə təzə məscidin təməli 1912-ci ilin martında qoyulur. İnşaat işləri bir il müddətinə yekunlaşır. Yenə "Kaspi"nin köməyi ilə öyrənirik ki, məscid 1913-cü ilin dekabrında dindarların ixtiyarına verilir.

Əjdər bəyi həmişə ehtiramla yad edən Bakının yaşlı sakinlərinin xatirələrinə görə, məsciddə məşhur xeyriyyəçinin ayrıca otağı olub. O, dini ayinləri ailə üzvləri ilə birlikdə həmin otaqda icra edərmiş. Həmin otaq sonrakı dövrlərdə sökülsə də Əjdər bəy Aşurbəyovun məscidin girişindəki məzarını qorumaq mümkün olur.

Günbəzinin rənginə görə, tikili el arasında Göy məscid adı ilə çağırılır. Əjdər bəy rəhmətə getdikdən sonra məscidə onun adı əlavə olunur. Bu nadir memarlıq nümunəsini Bakıya bəxş etmək üçün şəxsi vəsaitini xərcləyən Əjdər bəy Aşurbəyovun xatirəsini yaşadan insanlar bura "Əjdər bəy məscidi" də deyirlər.

Ə d ə b i y y a t

Nağıyeva, D. Əjdər bəy Aşurbəyov //Zamanın sorağında: milyonçu Ağa Musa Nağıyevin fəaliyyəti və xeyriyyəçiliyi haqda.- Bakı, 2011.- S.22-23.

Əjdər bəy, Göy məscid və ya İttifaq məscidi //Mədəniyyət.- 2009.- 25 sentyabr.- S.16.

İ n t e r n e t d ə

http://anl.az/down/meqale/medeniyyet/medeniyyet_sentyabr2009/90335.htm

50 illiyi

Novruz bayramının ilk dəfə dövlət səviyyəsində keçirilməsi 1967

Novruzun üç min il yaşı var. 11-ci ordunun süngüləri üstündə Azərbaycana sovet hakimiyyəti gətiriləndən sonra bir çox bayramlar kimi Novruz da repressiyaya məruz qaldı. Rəsmi bayram olmasa da, bəzən qadağan edilsə də, bəzi hallarda qorxulu olsa da, xalq Novruzu qeyd edirdi. 1960-cı illərdə Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin katibi Şıxəli Qurbanov Novruz bayramına "bəraət" verilməsi, Novruzun rəsmi bayram kimi qeyd edilməsi üçün mübarizəyə başladı. Təhlükəli təşəbbüs idi. Mərkəzi Komitənin I katibi Vəli Axundov da Şıxəli Qurbanovu təhlükəli iş gördüyü barədə xəbərdarlıq etmiş, amma o, geri çəkilməmişdi. 1967-ci ildə Novruz ilk dəfə rəsmi bayram kimi dövlət səviyyəsində qeyd edildi. 1967-ci ilin Novruz tonqalları yalnız küçələri, meydanları yox, həm də ən başlıcası illərin dözülməz ağırlığı altında sıxılan, boğulan, mühitin qaranlıqlarına bürünən ürəkləri, beyinləri işığa qərq etdi. Təhlükəli olsa da, Şıxəli Qurbanov uzunmüddətli fasilədən sonra 1967-ci ildə Azərbaycanda ilk dəfə dövlət səviyyəsində Novruz bayramının keçirilməsinə müvəffəq oldu. Məqsədi Azərbaycan xalqının milli şüurunu oyatmaq idi. Həmin gün sanki bütün insanlar oyanmışdı, kim olduqlarını dərk etmişdilər. Qız qalasına doğru insanların axını dayanmırdı, hamının üzündə ürkək sevinc hissləri var idi. Şıxəli istəyinə nail olmuşdu, amma həyatı bahasına...

Düşünülmüş şəkildə tərtib olunmuş Novruz bayramı şənlikləri Azərbaycanın bütün bölgələrində, xüsusən Bakı şəhərində ümumxalq şənliyi səviyyəsinə qaldırıldı. Möhtəşəm Qız qalasının ətrafı Novruz bayramının qeydolunma mərkəzinə çevrildi. Axın-axın insanların toplaşdığı Qız qalası qarşısında xalq oyun-tamaşaları böyük rəğbət hissi ilə qarşılandı. Həmin ilin Novruz bayramına Azərbaycan mətbuatı da xüsusi səhifələr ayırdı. O vaxt yeganə olan Azərbaycan Dövlət Televiziyası və Radiosu verlişlərini bilavasitə Novruz bayramına həsr etdi. Vertolyotlardan "Yaz - Novruz bayramınız mübarək!" yazılmış vərəqələr Bakının küçə-meydanlarına səpələndi. Ağpaltarlı Bahar qızı (aktrisa Səfurə İbrahimova) keçdiyi yerlərdə hamı tərəfindən gül-çiçəklə qarşılandı. Dənizkənarı bulvarda, şəhər meydanlarında bayram yarmarkaları təşkil olundu. Bakı əhalisi Şıx çimərliyində Novruz bayramı - ağacəkmə bayramı iməciliyi keçirdi.

Azərbaycana Şıxəli Qurbanovun adına Novruz bayramının belə təntənəli keçirilməsi münasibətilə Özbəkistandan, Qırğızıstandan, hətta İraqdan təbrik teleqramları gəlmişdi. Təbii olaraq sonrakı illərdə sovet rejimi Novruz bayramının, eləcə də digər xalq ayin-mərasimlərinin qarşısına öz keçilməz sipərini çəkdi. Bununla belə, Şıxəli Qurbanovun təşəbbüsü, cəsarəti ilə 1967-ci ildə böyük təntənə ilə qeyd olunmuş Novruz bayramı ürəklərdə kövrək iz qoydu.

Şıxəli Qurbanovun bu ümumxalq tədbirinin keçirilməsi üçün göstərdiyi şücaət yaddaşlara yazılıb.

Ə d ə b i y y a t

Tahirqızı, Ü. Şıxəli Qurbanovun pasport aldığı Novruz... Moskvaya donos yazaraq Şıxəli Qurbanovu millətçilikdə, dini bayrama milli don geydirməkdə günahlandırmışdılar /Ü.Tahirqızı //Xalq cəbhəsi.- 2014.- 20 mart.- S.13.

Uğur. 1967-ci ilin Novruz bayramı... Şıxəli Qurbanovun bu ümumxalq tədbirinin keçirilməsi üçün göstərdiyi şücaət yaddaşlara yazılıb /Uğur //Xalq cəbhəsi.- 2013.- 20 mart.- S.13.

http://www.anl.az/down/meqale/xalqcebhesi/2014/mart/358918.htm

Ramazan bayramı

"Ramazan" hicri-qəməri aylardan doqquzuncusunun adıdır. Bu ay müsəlmanların oruc tutmaqla mükəlləf olduqları, dinimizcə uca və müqəddəs qəbul edilən bir aydır. "Ramazan" ərəb sözü olub "ramda" sözündən alınmış, yaz sonunda, payız mövsümünün əvvəlində yağıb yer üzünü tozdan təmizləyən yağış mənasını verir. Bu yağışın yer üzünü təmizlədiyi kimi, Ramazan ayı da möminlərin günahlarını təmizləyir.

Ramazan ayına "On bir ayın sultanı"da deyilmişdir. Müqəddəs kitabımız olan Qurani Kərimdə də adı açıq olaraq keçən tək ay Ramazan ayıdır. Qurani-Kərim bu ay içərisində endirilmişdir. Uca Rəbbimiz "Ramazan ayı elə bir aydır ki, insanlara doğru yolu göstərən, hidayəti və haqqı batildən ayırmağı açıqlayan Quran, bu ayda endirildi" (əl-Bəqərə, 2/185) deyə buyurmuşdur. Müqəddəs kitabda "Min aydan daha xeyirli" olduğu ifadə olunan Qədr gecəsi də məhz bu ay içərisindədir.

Ramazan ayının girməsini iki yolla müəyyən etmək olar. Onlardan biri Ramazan ayparasının görülməsiylə (Ru'yet-i Aypara), ikinci isə əgər aypara hər hansı bir səbəbdən görülə bilməzsə, Şaban ayı otuza tamamlanaraq Ramazan orucuna başlanar. Məhəmməd Peyğəmbər (s.ə.s) bu mövzuda belə buyurmuşdur: "Ramazan ayının ayparasını görüncə oruc tutun, Şəvval ayının ayparasını görüncə iftar edin, oruc tutmağı buraxın. Əgər göy üzü bağlıdırsa Şaban ayının günlərini otuza tamamlayın"

Oruc tutan insan Allah-Təalanın əmrini yerinə yetirməsi üçün sübh azanından şam azanına qədər orucu pozan bir sıra əməllərdən uzaq durmalıdır. Orucluğun başa çatdığı gün "Fitr bayramı" adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir. Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Ramazan bayramının məqsədlərindən biri müsəlmanların toplanması və görüşməsidir. Müsəlmanlar bayramda görüşür, bir yerdə namaz qılırlar. Bayramın başqa məqsədlərindən də, müsəlmanların bir-birini ziyarət etməsi, qohum-əqrabalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür. Bayramda kasıblar və yoxsullar da sevinməlidir, onlar da yeni paltar geyərək bütün müsəlmanlarla bir yerdə namaza gəlməlidirlər. Məhz buna görə fitrə zəkatı buyurulmuşdur ki, yoxsul müsəlmanlar da bayramı keçirsinlər.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdi. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən, 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır.

Qurban Bayramı 1992

Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (c.c.) İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdi. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdı. Lakin uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdi. Buna görə də bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Çox sevdiyi övladını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti olmuş, ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırmışlar.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Qurbanın bir hissəsindən din xadimlərinə pay göndərilir, bir hissəsi isə kasıblara paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə ehtiyacı olanlar bayram günü ac qalmasınlar deyə daha çox onlara qurban payı verilməsi məqsədəuyğun hesab edilir.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar - Allaha xoş gedən əməli icra etdikləri və ehtiyacı olanları sevindirdiklərinə görə, kasıblar isə - dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmət və qayğıya görə.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Allah kəsilən bütün qurbanlarımızı qəbul etsin!

Əlifba göstəricisi

A

Abasov İsmayıl Teymur oğlu ---------- 236
Abasova Elmira Əbdülhəmid qızı ----------6,17
Abbasov Arif Akim oğlu---------- 344,361
Abbasov Bəhmən Kalış oğlu (bax: Bəhmən Vətənoğlu)
Abbasov Ələddin Aslan oğlu---------- 148,161
Abbasov Vaqif Məhərrəm oğlu---------- 286,300
Abbasova Adilə Ziyat qızı ---------- 236
Abbaszadə Hüseyn Abbas oğlu ---------- 310,314
Abdullayev Əsgər Ələkbər oğlu ----------7,33
Abdullayev Kamal Cahanbaxış oğlu ---------- 6
Abdullayev Rauf Cahanbaxış oğlu ------ 286,295
Abdullayev Zakir Bünyad oğlu ---------- 213
Abdullayeva Aida Həmdulla qızı -------- 113,123
Abdullayeva Həyat Həmdulla qızı ------ 285,292
Abiyev Ağacan Qulam oğlu ---------- 312
ABŞ-da Azərbaycana qarşı tətbiq edilən qadağanın "Azadlığa dəstək aktı»na 907 saylı düzəlişin qüvvədən düşməsi barədə ---------- 8
ABŞ-ın Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıması ---------- 8
Abşeron Rayon Mərkəzi Kitabxanası ------- 378
Abutalıbov Ramiz Abutalıb oğlu -------- 286,299
Ağa Məhəmməd şah Qacarın Şimali Azərbaycana yürüşləri ---------- 379
Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci dəfə hücum etməsi ---------- 379
Ağabəyli Rəna Ağaxan qızı ---------- 7
Ağalarov İdris Fərhad oğlu ---------- 285
Ağamalıoğlu Səməd ağa Həsən oğlu---- 344,359
Ağayev Eldar Baxış oğlu (bax: Eldar Baxış)
Ağayev Eynulla Xankişi oğlu ---------- 343,348
Ağayev İslam Məmməd oğlu ---------- 236
Ağayev Vahid Bəhram oğlu ---------- 378
Ağayeva Kəmalə Ağa qızı ---------- 212,216
Ağayeva Sima Abbas qızı ----------76
Ağdam rayonunun işğalı günü ---------- 214,233
"Ağdam-Şuşa" marşrutu ilə uçan "Mİ-8" mülki vertolyotunun erməni terrorçuları tərəfindən vurulması---------- 8
Ağdərə şəhərinin və rayonun bir çox kəndlərinin işğalı günü ---------- 213
Axundlu Yavuz İbrahimxəlil oğlu ---------- 5
Axundov Ağamusa Ağası oğlu ---------- 40,61
Axundov İsmayıl Əbdülxalıq oğlu ---------- 7
Axundov İsmayıl Hüseyn oğlu ---------- 113,120
Axundov Qüdrət Əli oğlu ---------- 181
Axundov (Axundzadə) Mirzə Fətəli Məhəmmədtağı oğlu ----------179,184-185
Axundov Ruhulla Əli oğlu ---------- 6
Axundov Şəmsəddin Əşrəf oğlu -------- 344,366
Axundov Vahid Cümşüd oğlu ---------- 40,56
Akademik A.Aqambekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi ------- 380
Akif Əli ---------- 39,45
Alxazov Tofiq Həsən oğlu ---------- 263
Allahverdiyev Məhəddin İsmayıl oğlu ------ 150
Allahverdiyev Namiq Müslüm oğlu ---- 286,296
Almas İldırım ---------- 75,84
Alməmmədov Rüstəm Hidayət oğlu (bax: Rüstəm Behrudi)
Arzumanlı Vaqif Minad oğlu ---------- 76,98
Aslanbəyov İbrahim bəy Allahverdi oğlu --- 262
Aşıq Kamandar ---------- 285,291
Aşıq Mirzə Bilal ---------- 75,86
Aşıq Şakir ----------5,12
Aşıq Talıb ---------- 376
Ayasofiya – Müqəddəs Sofiya Məbədi-- 379,397
Ayaz Vəfalı ---------- 113
Aydınbəyov Salam Müqtədir oğlu ---------- 377
"Azad Azərbaycan" televiziyası ---------- 346
Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşulub ---------- 115
Azərbaycan Avropada adi silahlar haqqında. 150
Azərbaycan Bayrağı Günü ---------- 312,333
Azərbaycan Demokratik Firqəsi ---------- 237
Azərbaycan Dövlət Himni ---------- 150,176
Azərbaycan Dövlət Sirki---------- 379
Azərbaycan Əlifbası Dili Günü --------- 236,256
Azərbaycan Hərbi Hava Qüvvələri Günü -----41
Azərbaycan Kinosu Günü ---------- 236,257
Azərbaycan Kitabxana işçilərinin I Qurultayı --- ---------- 115,142
Azərbaycan Milli valyutasının - manatın

dövriyyəyə buraxılması barədə fərman ------ 214
Azərbaycan Milli Olimpiya Komitəsi -------8,35
Azərbaycan Milli Ordusunun ilk hərbi paradı- 287
Azərbaycan Polisi Günü ---------- 213
Azərbaycan Prokurorluğunun yaranması---- 380
Azərbaycan Respublikası Fələstin arasında diplomatik əlaqələr ---------- 115
Azərbaycan Respublikası Macarıstan arasında diplomatik əlaqələr ---------- 115
Azərbaycan Respublikası Mərkəzi Bankı ---- 41
Azərbaycan Respublikası Milli Məclisinin Parlament Kitabxanası ----------77,105
Azərbaycan Respublikası Rusiya arasında diplomatik əlaqələr ---------- 115
Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu ---------- 237
Azərbaycan Respublikası Türkiyə arasında diplomatik əlaqələr ---------- 7
Azərbaycan Respublikasının ATƏT-ə üzvü olunması ---------- 8
"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında" fərman - 214
"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanun ---------- 8
Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv qəbul olunması ------ 41
Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə günü -------- 287
Azərbaycan Rəssamlar İttifaqı ---------- 380
Azərbaycan Silahlı Qüvvələri Qarabağda Xocavənd (Martuni) rayonunun mərkəzini azad etmişdir ---------- 263
Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti Mərkəzi İcraiyyə Komitəsi seçilmişdir ------ 345
Azərbaycan Velosiped Federasiyası --------- 380
Azərbaycan və Türkiyə arasında təmənnasız hərbi yardım haqqında saziş ---------- 213
Azərbaycan Yazıçılar İttifaqı---------- 115
Azərbaycanda Konstitusiyaya dəyişikliklərlə bağlı referendum ---------- 237
Azərbaycanda Milli İnsan Hüquqları Günü ----------
---------- 181,208
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü ---------- 181
Azərbaycanda Novruz bayramının ilk dəfə dövlət səviyyəsində keçirilməsi ---------- 380,404
Azərbaycanda «Space» televiziya kanalı yayıma başlamışdır ---------- 287
Azərbaycanın BMT-nin Uşaq hüquqları Konvensiyasına qoşulması ---------- 181
Azərbaycanın BMT-yə qəbul olunması günü - 78
"Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı --- 78
Azərbaycanın YUNESKO-ya üzvlüyü-- 181,205
Azərbaycanlıların deportasiyasının II mərhələsi
---------- 380
Azərbaycanlıların soyqırımı günü -- 78,110-111

B

Babanlı Məhəmməd Baba oğlu ---------- 7
Babanlı Tofiq Xanlar oğlu ----------41
Babanlı Vidadi Yusif oğlu ---------- 5,10
Babayev Əbdülhüseyn Mikayıl oğlu --------- 376
Babayev Əbülfəz İsmayıl oğlu---------- 263,275
Babayev Məhərrəm Pirverdi oğlu ----------7,29
Babayev Nəriman İbadulla oğlu ---------- 149
Babayev Rasim Hənifə oğlu---------- 343,352
Babayev Rauf Yusif oğlu---------- 344,357
«Badamlı» Mineral Sular Zavodu ---------- 380
Bağır Cəfər (bax Cəfər Bağır)
Bağırov Adil Kamil oğlu---------- 148
Bağırov Cəfər Səfər oğlu (bax: Cəfər Bağır)
Bağırov Hacıbaba Ağarza oğlu ---------- 180,194
Bağırov Tahir Əminağa oğlu ---------- 212,220
Baxışov Hafiz Həbib oğlu (bax: Hafiz Baxış)
Baxşıyev Bahadur Ələkbər oğlu ---------- 345
Bakı Metropoliteni---------- 312,332
Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu --- 312
Bakıda GUAM bloku---------- 312
Bakıda ilk rus-Azərbaycan məktəbi ---------- 379
Bakıda konka nəqliyyatı ---------- 379
Bakıxanov Əhmədxan Məmmədrza o.-- 262,268
Bakıxanov Tələt Soltan oğlu ---------- 179,189
Bakı-Krasnovodsk bərə yolu ---------- 380
"Bakı-Novorossiysk" neft-boru kəməri ----- 380
Bakı-Tiflis arasında birbaşa teleqraf xətti --- 379
Bayat Oruc bəy (bax: Oruc bəy Bayat)
Bayişeva-Zeynalova Güləndam Mühəmmədcanovna ---------- 236
Bayramova Cəmilə Əsədulla qızı---------- 377
Bayramova Roza Əli qızı ---------- 213

BDU-nun Kitabxanaçılıq fakültəsi ------ 378,396
Behbud ağa Cavanşir ---------- 377,388
Behbudov Ənvər Məcid oğlu ---------- 76
Behbudov Səfiyar Abuzər oğlu ---------- 180,198
Behrudi Rüstəm (bax: Rüstəm Behrudi)
Beynəlxalq Ahıllar Günü ---------- 286,302
Beynəlxalq Ailə Günü ---------- 150,172
Beynəlxalq Ana Dili Günü ---------- 41,71
Beynəlxalq Azərbaycan Muğamı Günü ----- 237
Beynəlxalq Bioloji Müxtəliflik Günü -- 150,175
Beynəlxalq Dağlar Günü ---------- 346
Beynəlxalq Dəniz Günü ---------- 263
Beynəlxalq Ekoloji Bilik Günü ---------- 115
Beynəlxalq Elektronrabitə Günü ---------- 150
Beynəlxalq Əqli Mülkiyyət Günü ---------- 115
Beynəlxalq Əlillər Günü ---------- 345,371
Beynəlxalq Gözdən Əlillər Günü ------- 312,335
Beynəlxalq Gənclər Günü ---------- 236
Beynəlxalq Heyvanları Müdafiə Günü ------ 286
Beynəlxalq Humanitar Yardım Günü -------- 237
Beynəlxalq İdman Jurnalistləri Günü ------- 213
Beynəlxalq İqlim Günü ---------- 150
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü ---
---------- 312,341
Beynəlxalq İnsan Hüquqları Günü ----- 345,372
Beynəlxalq İnternet Təhlükəsizliyi Günü -----41
Beynəlxalq Kimsəsiz Heyvanlar Günü ----- 236
Beynəlxalq Kino Günü ---------- 346
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü---
---------- 115,145
Beynəlxalq Könüllülər Günü ---------- 345
Beynəlxalq Kulinariya Günü ---------- 287
Beynəlxalq Qadınlar Günü ----------78,106
Beynəlxalq Qan Donor Günü ---------- 181
Beynəlxalq Qeyri-zorakılıq Günü ---------- 286
Beynəlxalq Quşlar Günü ---------- 115
Beynəlxalq Mədəniyyət Günü ---------- 115,143
Beynəlxalq Musiqi Günü ---------- 286
Beynəlxalq Muzeylər Günü ---------- 150
Beynəlxalq Müəllimlər Günü ---------- 286
Beynəlxalq Novruz Günü----------78,108
Beynəlxalq Olimpiya Qaçış Günü ---------- 181
Beynəlxalq Rəqs Günü ---------- 115
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü - 150
Beynəlxalq Sülh Günü ---------- 263,281
Beynəlxalq Teatr Günü ----------78,109
Beynəlxalq Təbii Fəlakətlərdən Qorunma Günü
---------- 287
Beynəlxalq Təcavüzə Məruz Qalmış Uşaqlar
Günü ---------- 181
Beynəlxalq Tolerantlıq Günü ---------- 312,336
Beynəlxalq Uşaq Kitabı Günü ---------- 115,140
Bədəlbəyli Əfrasiyab Bədəlbəy oğlu---- 113,122
Bədəlbəyli Fərhad Şəmsi oğlu ---------- 344,355
Bədən Tərbiyəsi və İdman Günü ----------78
"Bəhlul" satirik jurnalı ---------- 150,174
Bəhmən Vətənoğlu ---------- 343
Bəndəroğlu Əbdüllətif ---------- 376
Bərdə Rayon Mərkəzi Kitabxanası ---------- 379
Bərşadlı Valeh Əyyub oğlu---------- 212,225
Biləndərli Abbas Əliməhəmməd oğlu ---------77
Bilik Günü ---------- 263
Birləşmiş Millətlər Təşkilatı Günü ---- 287, 306
Böll Teodor Henrix ---------- 343,349
Bülbül ---------- 180,192

C

Cabbarova Rəhilə Muxtar qızı ---------- 310
Calalov Qərib İsaq oğlu---------- 312,331
Canibəyov Nazil Fazil oğlu ---------- 263,276
Cavad Əhməd (bax: Əhməd Cavad)
Cavadov Maqsud Əlisimran oğlu---------- 114
Cavadzadə Mirməmməd Cavad oğlu --- 149,168
Cavanşir Behbud ağa (bax: Behbud ağa Cavanşir)
Cavid Hüseyn (bax: Hüseyn Cavid)
Cəbrayıl rayonunun işğalı günü --------- 237,258
Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu --- 114,136
Cəfərxanova Roza Heydər qızı ----------39
Cəfər Bağır ---------- 148
Cəfərov Ayaz Rza oğlu (bax: Ayaz Vəfalı)
Cəlilabad Rayon Mərkəzi Kitabxanası ------ 378
Cənubi Qafqazda alman yaşayış məntəqələri ---
----------379,400-401
Corc Vaşinqton ---------- 40,57
Culfa Rayon Mərkəzi Kitabxanası ---------- 378

Ç

Çavçavadze İlya Qriqoryeviç ---------- 310,316
Çəmənli Mustafa (bax: Mustafa Çəmənli)
Çəmənzəminli Yusif Vəzir---------- 262,266

Çukovski Korney İvanoviç ---------- 75

D

Dadaşov Aydın Ərşad oğlu ---------- 76,97
Dadaşov Məmmədağa Ağakərim oğlu ------- 113
Dağıstanlı İsmayıl Yusif oğlu ----------6,23
Dağlıq Qarabağ ərazisində köçürmələr ----- 379
Dağlıq Qarabağın Sırxavənd, Qaraqaşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndlərinin işğalı ---------- 78
Daxili Qoşunlar Günü ---------- 78
Daşdəmirov Əfrand Firudin oğlu ---------- 76,95
Daşkəsən Rayon MKS-i ---------- 379
Davud Nəsib ---------- 235,240
Dikkens Çarlz ---------- 39
Dilbazi Mirvarid Paşa qızı ---------- 235,239
Dövlət Dili haqqında qanun ---------- 263
Dövlət Qulluqçularının Peşə Bayramı ------ 181
Dövlət Müstəqilliyi Günü ---------- 287,304
Dövlət Neft Şirkəti yaradılmışdır ---------- 263
Düma Aleksandr (Ata) ---------- 212,217
Dünya Azərbaycanlılarının Həmrəylik Günü ---
---------- 346,374
Dünya Qoruqlar və Milli Parklar Günü--------- 8

E

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü -------- 150
Eldar Baxış ---------- 179,183
Eldarov Ömər Həsən oğlu ---------- 343,351
Emin Sabitoğlu ---------- 310,320
Erməni terrorçuları tərəfindən Qazax rayonu ərazisi ---------- 78
Ermənilər Xankəndinin küçələrində vərəqələr yaymış, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlamışlar --------- 380
Ermənilər Şuşa şəhərinin müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə etmişlər ---------- 115
Ermənistanda toplum şəkildə yaşayan 150.000 nəfərdən artıq azərbaycanlının köçürülməsi - 380
Ermənistanın işğalçı qoşunları tərəfindən Qubadlı və Zəngilan rayonlarının kəndlərinin işğalı - 345
Eyvazov Bahadır Əsgər oğlu ---------- 286
Eyvazov Qorxmaz Abış oğlu ---------- 114,131
Eyvazova Roza Hüseyn qızı ---------- 114
Eyvazova Şəfiqə Alxas qızı ---------- 76,87

Ə

Əbdülvahabova Sacidə Qafar qızı ------- 181,204
Əbdürrəhmanov Yusif Ələkbər oğlu --------- 149
Əbilov İmamverdi Xankişi oğlu --------- 344,365
Əbluc Həsən Abbasqulu oğlu ---------- 114,127
Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqid --
---------- 377
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü ---- 312
Əfəndiyev Adil Ələddin oğlu ---------- 285
Əfəndiyev Ağamalı Əhməd oğlu ---------- 75
Əfəndiyev Heydər Xəlil oğlu ---------- 213
Əfəndiyev Kamandar Həmid oğlu (bax: Aşıq Kamandar)
Əfəndiyev Məmmədəmin Mustafa o. --- 263,277
Əfəndiyeva Fəridə Məmməd qızı ---------- 41
Əfəndizadə Azad Əli oğlu ---------- 77,104
Əfəndizadə Şəfiqə Məhəmmədəmin q. - 377,391
Əfqanlı Bədurə Məlikağa qızı ---------- 285,293
Əhəd Muxtar ---------- 343
Əhməd Cavad ---------- 148,151
Əhmədov Qoşqar Teymur oğlu ---------- 286
Əjdər bəy məscidi ---------- 379,403
Əkbərov Akif Abbas oğlu ---------- 40,50
Əkbərov Əkbər Qurban oğlu (bax: Məftun Əkbər)
Ələkbərova Şövkət Feyzulla qızı -------- 285,294
Ələsgərov Abbas Abbas oğlu ---------- 343
Ələsgərov Hənifə Əlisgəndər oğlu ---------- 5
Əli İldırımoğlu ---------- 310
Əli Səbri ---------- 113,117
Əlibəyov Cəmil Adil oğlu ---------- 343,347
Əlixanov Ənvər Nəzər oğlu ---------- 114
Əlixanova Firuzə Məmmədqulu qızı ---- 262,269
Əlimirzəyev Xalid Əlimirzə oğlu -------- 344,364
Əliyarbəyov Tərlan Abdulla oğlu -------- 311,327
Əliyev Ehtiram İsrayıl oğlu ---------- 235,245
Əliyev Əli Zurkarnayeviç ---------- 312
Əliyev Əliyar Yusif oğlu ---------- 344,358
Əliyev Əziz Məmmədkərim oğlu ----------6,26
Əliyev Habil Mustafa oğlu ---------- 148,158
Əliyev Həsən Əlirza oğlu ---------- 344,362
Əliyev Məmmədəli Dostəli oğlu ---------- 377
Əliyev Məmmədqasım Hüseyn oğlu --------- 378
Əliyev Nadir Alış oğlu ---------- 212,224

Əliyev Natiq Ağaəmi oğlu ---------- 311,326
Əliyev Rafiq Əziz oğlu ---------- 41,66
Əliyev Rövşən Nəriman oğlu ---------- 235,246
Əliyeva Nəcibə Abbas qızı ---------- 41
Əliyeva Rəfiqə Əlirza qızı ---------- 263,274
Əlizadə Aqşin Əliqulu oğlu ---------- 148,157
Əlizadə Elbrus Kərim oğlu ---------- 77,100
Əlizadə Əbdül Əli oğlu ---------- 236
Əlizadə Firəngiz Əliağa qızı ---------- 148,159
Əlizadə Hümmət Əli oğlu ---------- 285
Əlizadə Məsud Ağamehdi oğlu ---------- 149
Əmirxanov Həbibulla İbrahim oğlu ----- 114,138
Əmiraslanov Əhliman Tapdıq oğlu ------ 311,329
Əmirov Fikrət Məşədi Cəmil oğlu ------ 310,322
Əsədov Malik Hamil oğlu ---------- 180,199
Əsədov Rəfael Əvəz oğlu ---------- 286,297
Əsədov Vaqif Firudin oğlu ---------- 113,125
Ətraf Mühitin Mühafizəsi Günü -------- 181,206
Əzimzadə Gülbəniz Yusif qızı ---------- 114,129
Əzimzadə Yusif Əhmədulla oğlu ---------- 39,44
Əzizov Tofiq Müseyib oğlu ---------- 7

F

Faşizm üzərində Qələbə Günü ---------- 150,170
Fərəcov Ənvər Səyyad oğlu ---------- 180,200
Fərəcov Fərəc Səttar oğlu ---------- 5
Fərəcova Kübra Yəhya qızı ---------- 149
Fərzəliyev Məşədi Məmməd ---------- 376,383
Fəthi Xoşginabi ---------- 75,82
Firuz Mustafa ---------- 180
Füzuli rayonunun işğalı günü ---------- 237,259

G

Gədəbəy Rayon Mərkəzi Kitabxanası -- 378,394
Gədəbəy rayonunun Başkənd qəsəbəsi erməni silahlı qüvvələrindən təmizlənmişdir -------- 236
Gənclər Günü ---------- 41,68
Gəraybəyli Ağasadıq Ağəli oğlu ---------- 76,91
Gorani Əsgər ağa ---------- 149,166
Gömrük İşçiləri Günü ---------- 8
Göyərçin xanım (Qazıyeva Gövhər) ---- 377,385
“Greenpeace” Təşkilatının Yaranma Günü - 263
Güləliyev Oqtay Güləli oğlu ---------- 311,323
Günəş Günü ---------- 150

H

Hacıbababəyov Qasım bəy ---------- 376
Hacıyev Akif Cəfər oğlu ---------- 345,369
Hacıyev Aqil Cəfər Xəndan oğlu -------- 236,251
Hacıyev Əhməd Cövdət İsmayıl oğlu --- 180,191
Hacıyev Əşrəf Əhmədpaşa oğlu ---------- 75
Hacıyev Hüsü Hüseynəli oğlu ---------- 262
Hacıyev Rauf Soltan oğlu ---------- 148,155
Hacıyev Şakir Şahverdi oğlu (bax: Aşıq Şakir)
Hacıyeva Sona Salman qızı ---------- 180,195
Hafiz Baxış ---------- 285,288
Haşımov Məhərrəm Kazım oğlu ---------- 39,48
Haşımova Şahnaz Həsən qızı ---------- 179
Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixracat boru kəməri ---------- 263,279
Heydər Əliyev Mərkəzinin açılışı ------ 150,171
Heydər Əliyev “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanı ---------- 346
Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosuna üzv seçilmişdir ---------- 312
Heydər Əliyevin Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədri seçilməsi ---------- 380
Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosuna üzv seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin I müavini təyin edilmişdir ---------- 380
Həmidov Məmmədşərif Həbibulla oğlu --- 40,58
Hərbi Donanma Günü ---------- 236
Həsən bəy Zərdabi (bax: Zərdabi Həsən bəy)
Həsən Mirzə ---------- 311
Hikmət Nazim (bax: Nazim Hikmət)
Hüqo Viktor Mari ---------- 39
Hümmətov İsgəndər Məhəmməd oğlu (bax: İsgəndər Coşqun)
Hüseyn Cavid ---------- 285,290
Hüseynov Elxan Ağahüseyn oğlu ---------- 343
Hüseynov Elman Süleyman oğlu ---------- 40,55
Hüseynov Əşrəf İsgəndər oğlu ---------- 262,273
Hüseynov Rövşən Şəmil oğlu ---------- 40,52
Hüseynova Tamara Hacıbaba qızı ---------- 345

X

Xankəndə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məqsədi gedən erməni separatçıları baş qaldırmışdır ---------- 380
Xankəndinin işğalı günü ---------- 346,373
Xanlar Rayon Mərkəzi Kitabxanası ---------- 379
Xanlarov Mövsüm bəy Məhəmməd bəy o.-- 263
Xələfova Rəxşəndə Əhməd qızı ----------77
Xəlil Rza Ulutürk ---------- 285,289
Xəlil Zahid (bax: Zahid Xəlil)
Xəlilov Əmirxan Məhərrəm oğlu---------- 40,63
Xəlilov Səlahəddin Sədrəddin oğlu ----------40
Xəlilov Zahid Abdulla oğlu (bax: Zahid Xəlil)
Xətai Şah İsmayıl (bax: Şah İsmayıl Xətai)
Xızır Nəbi bayramı ---------- 150
Xocalı soyqırımı ---------- 41,72-73
Xocavənd rayonunun işğalı---------- 286,303
Xocavənd r-nun Qaradağlı kəndinin işğalı - 41,70
Xoşginabi Fəthi (bax: Fəthi Xoşginabi)
Xudafərin körpüsü ---------- 379,398
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü ---------- 237

İ

İbrahimov Xəlil İbrahim oğlu ---------- 376
İbrahimov İbrahim İbiş oğlu ---------- 41,64
İbrahimov Rasim Səxavət oğlu ---------- 114,134
İbrahimova Bilqeyis İsmayıl qızı ---------- 213
İçərişəhərin qala divarlarının bərpası -------- 380
İldırımoğlu Əli (bax Əli İldırımoğlu)
İlk dəfə alman coğrafiyaşünası Ferdinand fon Rixthofen tərəfindən «Böyük İpək Yolu» termini işlədilmişdir---------- 379
İlk kitab çapı ---------- 263,283
İmaməliyeva Gülzar Manaf qızı ---------- 345
İmanov Lətif Muxtar oğlu ---------- 262,272
İmişli Rayon Mərkəzi Kitabxanası ----- 378,395
İnsan Alverinə Qarşı Mübarizə Günü ------- 150
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü- 78
İsgəndər Coşqun ---------- 376
İsgəndərov Əhməd Əhməd oğlu --------- 311,328
İsgəndərov İsgəndər Etibar oğlu ----------39
İsmayıllı Rayon Mərkəzi Kitabxanası ------- 378
İsmayılov İnqilab Ələkbər oğlu---------- 40,54
İsmayılov Məmmədsaleh Cəmil oğlu -------- 113
İsmayılzadə Arif Cəfər oğlu ---------- 236,255
İstanbulda Azərbaycanın da iştirakı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı -------- 181
"İzvestiya" qəzeti ----------78

K

Katayev Valentin Petroviç ---------- 5
Kazım Qarabəkir Paşa---------- 213,228
Kazımov (Kazımi) Oqtay Məmməd o.-- 344,354
Kazımovski Mirmahmud Mirələkbər o. 377,384
Kazımzadə Qumral-Rəna Zəki qızı ---------- 311
Kəlbəcər rayonunun işğalı günü -------- 115,141
Kəlbəcərdə Ağdaban soyqırımı ---------- 115
Kələntərli Münəvvər Səməd qızı -------- 377,387
Kələntərli Yavər Əli qızı ---------- 76,88
Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü ---------- 312
Kəngərli Bəhruz (Şamil) Şirəlibəy oğlu -----5,14
Kərimov Kərim Abbasəli oğlu ---------- 312,330
Kərimzadə Fərman İsmayıl o.---------- 75,80
Kolas Yakub ---------- 310,315
Konstitusiya Günü ---------- 312,334
Korneyçuk Nikolay Vasilyeviç (bax: Çukovski Korney İvanoviç)
"Koroğlu" operası ---------- 115,146
Krasnovodskdan Bakıya üzən sərnişin bərəsi - 7

Q

Qacar Ağa Məhəmməd şah Qovanlı ------- 76,94
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü ---------- 312,340
Qandi İndira ---------- 311,325
Qarabağ xanlığı ləğv edilmişdir ---------- 379
Qarabaği Kərbəlayı Səfixan Sultanhüseyn o. 376
Qaradağ Rayon MKS-nin 2 saylı Sahil qəsəbə filial kitabxanası---------- 379
Qaradağ Rayon MKS-nin 8 saylı Ələt qəsəbə uşaq kitabxanası ---------- 379
Qarakənd faciəsi ---------- 312,338
Qarayev Siyavuş Fərhad oğlu ---------- 114
Qarayeva Ninel İsrafil qızı---------- 150
Qasımov Alim Həmzə oğlu---------- 235,241

Qasımov Əlfi Səhlik oğlu---------- 5,9
Qasımov Əli Camal oğlu (bax: Əli Səbri)
Qasımov Həsən Məmməd oğlu ---------- 179
Qasımov Xəlil Məmmədəli oğlu----------41
Qasımova Fidan Əkrəm qızı ---------- 179,190
Qasımova Həbibə Süleyman qızı ---------- 236
Qasımzadə Ənvər Əli oğlu ---------- 39,46
Qaşqay Mirəli Seyidəli oğlu----------7,31
Qatır Məmməd (Məmmədov Məmməd Əli o.)377
Qayıbov İsmət İsmayıl oğlu ---------- 286,298
Qazax rayonunun Aşağı Əskipara kəndi işğal 78
Qazax rayonunun Xeyrimli kəndi işğal -------78
Qazax rayonunun Qızıl Hacılı kəndi işğal -- 150
Qazax rayonunun Sofulu kəndi işğal -------- 115
Qazax r-nun Yuxarı Əskipara kəndinin işğalı-181
Qazıyeva Gövhər (bax Göyərçin xanım)
Qazıyeva Zəhra Kərim qızı---------- 149
Qədimov Yaqub Bala oğlu---------- 213
Qədimova Sara Bəbiş qızı ---------- 148,160
Qədirova Törə Qədir qızı ---------- 345
Qədri Fatma Qədir qızı---------- 113,126
Qəhrəmanov Cahangir Vahid oğlu --------- 40,62
Qəlbinur Paşa (bax: Paşa Qəlbinur)
Qənbərov Əhəd Muxtar oğlu (bax: Əhəd Muxtar)
Qənbərov Ramiz Bulud oğlu ---------- 212,219
Qətran Təbrizi ---------- 376,381
Qiyasi Cəfər Əli oğlu---------- 77,99
Qızıl Aypara Günü ----------78
Qonçabəyim ---------- 376
Quba Rayon Mərkəzi Kitabxanası ------ 378,394
Qubadlı rayonunun işğalı günü --------- 237,260
Qubadov Hüsnü Baba oğlu ---------- 6
Quliyev Cəmil Bahadur oğlu---------- 344,360
Quliyev Əli Musa oğlu---------- 150
Quliyev Əliağa Eyvaz oğlu---------- 148,153
Quliyev Ələvsət Nəcəfqulu oğlu ---------- 236
Quliyev Hətəm Hidayət oğlu---------- 7
Quliyev İbrahim Hilal oğlu---------- 376
Quliyev İsrafil Piri oğlu ---------- 40,59
Quliyev Novruz Məhəmməd oğlu---------77,102
Quliyev Ramiz Əyyub oğlu ---------- 113,124
Quliyev Tofiq Ələkbər oğlu ---------- 310,321
Quliyeva Qəndab Nəbi qızı---------- 235
Quliyeva Lalə Hüseyn qız ---------- 114
Quliyeva Səmayə Əli qızı ---------- 181
Quluzadə Mirzəağa Yüzbaşı oğlu ---------- 285
Quluzadə Zümrüd Əliqulu qızı ---------- 76,96
Qurban bayramı ---------- 380,406

L

Laçın rayonunun işğalı ---------- 150,173
Leonardo da Vinçi ---------- 113
“Leyli və Məcnun” operası ---------- 379
Lizina Nataliya Davıdovna (İsmayılova) ---- 377
Lope de Veqa ---------- 310,317

M

M.Ə.Rəsulzadə tərəfindən “Müsəlman gənclik təşkilatı”nın yaradılması ---------- 379
M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu ---------- 346
M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası ---------- 378
Mahmud Şəbüstəri ---------- 378,392
Mahmudbəyov Böyük bəy Mahmud bəy o.- 263
Mahmudbəyova Məhbubə Kərim qızı ------- 181
Mahmudov Emin Sabit Rəhman oğlu (bax: Emin Sabitoğlu)
Mahmudov Ərəstun İspəndi oğlu---------- 40,53
Maqomayev Müslüm Məhəmməd oğlu- 235,242
Mansurov Eldar Bəhram oğlu---------- 39,47
Mansurov Mirzə Mansur Məşədi Məlik o. --6,16
Marşak Samuel Yakovleviç---------- 310
Mehdiyev Firudin Mehdi oğlu ---------- 344
Məcidov Balababa Fərəc oğlu ----------77
“Mədəni-maarif” jurnalının nəşri ---------- 380
Mədətov Fariz Ələvsət oğlu---------- 114,135
Məftun Əkbər ---------- 113,118
Məhərrəmov Asif Yusif oğlu ---------- 212,222
Məhərrəmov Ziyəddin Həmil oğlu ---------- 149
Məlikaslanov Ramiz Lütfəli oğlu---------- 377
Məlikov Firuz Əli oğlu---------- 7
Məlikova Afaq Süleyman qızı ----------6,18
Məlikova (Melikoff) İren xanım ---------- 311
Məmməd Rahim ---------- 113,119
Məmmədbəyov Lütfi Şahbaz oğlu---------- 39,49
Məmmədəliyev Həbib Mehdi oğlu ----------77
Məmmədəliyev Vasim Məmmədəli o. -- 236,253
Məmmədli Cahangir Əbdüləli oğlu ---------- 5
Məmmədli Qulam Məmməd oğlu ---------- 75,85

Məmmədov Aytəkin İsrayıl oğlu--------- 149,163
Məmmədov Böyükağa Mircəfər oğlu--------6,19
Məmmədov Əhməd Musa oğlu ---------- 377
Məmmədov Xudu Surxay oğlu ---------- 345,368
Məmmədov Kamran Dadaş oğlu ---------- 344
Məmmədov Qafur Nəsir oğlu ---------- 377
Məmmədov Qərib Şamil oğlu----------7,30
Məmmədov Mehmanəli Əkbər oğlu ------- 41,67
Məmmədov Mövsüm Şahin oğlu -------- 180,196
Məmmədov Murtuza (bax: Bülbül)
Məmmədov Nəriman Həbib oğlu-------- 344,356
Məmmədov Pərviz Ziya oğlu ---------- 7
Məmmədov Tokay Həbib oğlu---------- 212,218
Məmmədova Əzizə Əbdülbağı qızı ----- 377,386
Məmmədova Səidə Müslüm qızı ---------- 148
Məmmədova Şövkət Həsən qızı --------- 113,121
Məmmədova Zivər Nəcəfqulu qızı ------ 179,187
Məsud Afaq ---------- 179,182
Məşədibəyov Ağası Abutalıb oğlu---------- 376
Mikayıl Mirzə ---------- 6,21
Mikayılov Bilal Mustafa oğlu (bax:Aşıq Mirzə Bilal)
Milli Dirçəliş Günü ---------- 312,337
Milli Qurtuluş Günü ---------- 181,207
Milli Məclis Azərbaycan hərbçilərinin Əfqanıstanda beynəlxalq sülhyaratma missiyasına razılıq verib ---------- 312
Milli Mətbuat və Jurnalistika Günü ---- 214,232
Milli Musiqi Günü ---------- 263,278
Milli Silahlı Qüvvələr Günü ---------- 181,209
Milli Teatr Günü ----------78,107
Milli Televiziya və Radio Şurası ---------- 286
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü ----------78
Minsk qrupu yaradılmışdır ----------78
Mirsəlimov Mirmehdi Mirmövsüm oğlu ---- 236
Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsəri ---
---------- 379
Mirzəyev Həsən İbrahim oğlu (bax: Həsən Mirzə)
Mirzə Kazım bəy ---------- 180,202
Mirzəyev Knyaz İbrahim oğlu ---------- 149
Mirzəyev Mikayıl Şahvələd oğlu (bax: Mikayıl Mirzə)
Mirzəyev Osman Mirzə Hüseyn oğlu--- 113,116
Mirzəyev Şirin Vəli oğlu ----------6,24
Mitskeviç Konstantin Mixayloviç (bax: Kolas Yakub)
Molyer Jan Batist ---------- 5
Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri ərazilərinin bir hissəsi Ermənistana verilmişdir ---------- 380
Mövsümov Cəfər Hacı Həsən oğlu ---------- 6
Muxtar Əhəd (bax Əhəd Muxtar)
Musabəyova Umnisə Süleyman qızı ---- 286,301
Musayev Fəxrəddin Musa oğlu ---------- 212,223
Musayev İsa Həsən oğlu ---------- 311
Musayev Paşa İsmayıl oğlu (bax: Paşa Qəlbinur)
Mustafayev Alı Mustafa oğlu ---------- 114,132
Mustafayev Firuz Qədimalı oğlu (bax: Firuz Mustafa)
Mustafayev Mustafa Şura oğlu (bax: Mustafa Çəmənli)
Mustafa Çəmənli ---------- 262,265
Müharibə və Hərbi Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısınıalma Günü -- 312

N

Naxçıvan SSR Azərbaycanın tərkibində olmaqla MR elan edilmişdir ---------- 380
Naxçıvanda ulu öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradılmışdır ---------- 312,339
Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın heyəti Rusiyaya yola salınmışdır ---------- 237
Nağıyev Ağa Musa ---------- 377,390
Nağıyev Ramiq Muxtar oğlu (bax: Ramiq Muxtar)
Namazəliyev Qurban Hüseyn oğlu ---------- 311
Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ---------- 181,210
Natəvan Xurşidbanu ---------- 235,238
Nazim Hikmət ---------- 5,13
Neftçilər Günü ---------- 263,280
Nemətov Azərpaşa Zəfər oğlu ---------- 235,244
Nemətov Zəfər Əlipaşa oğlu ---------- 180,193
Nəbati Seyid Əbdülqasım Möhtərəm o. ----- 376
Nəbiyev Əhməd Mustafa oğlu ---------- 343
Nəcəf Rasim ---------- 376
Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu ------- 76,93

Nəcəfov Yunis İsa oğlu---------- 235,247
Nəriman Nərimanovun Xatirə Muzeyi------- 380
Nəsib Davud (bax: Davud Nəsib)
Nəsibov Davud Məcid oğlu (bax: Davud Nəsib)
Nəsibov Mərifət Əhməd oğlu ---------- 149,163
Nəsimi rayon MKS-nin X.R.Ulutürk adına 3 saylı filial kitabxanası ---------- 378
Nəsimi İmadəddinin vəfatının 600 ili -- 379,399
Nəzərli Nəcəfqulu Cavad oğlu (bax: Nəcəf Rasim)
Nəzərova Balacaxanım Teymur qızı ----------40
Nəzirli Şəmistan Əmiraslan oğlu -------- 236,254
Niyazi Hacıbəyov-Tağızadə ---------- 235,243
Nobel Mükafatı Təqdimatı Günü ---------- 346
Novruzi Əlibəy Nəzərəli oğlu---------- 310,319
Novruzov Abbasəli Ramazan oğlu ---------- 149
Novruzov Şövqi Heydər oğlu ---------- 149

O

Ocaqverdiyev Sərxan Surxay oğlu ----- 212,221
Orhan Pamuk ---------- 179
Oruc bəy Bayat---------- 377
Orucov Sabit Atabala oğlu---------- 149
Ordubadi Məmməd Səid Hacağa oğlu ----- 75,83
Osmanlı İsmayıl Osman oğlu ---------- 114,128

P

Paqanini Nikkolo ---------- 285
Parklara Yürüş Günü ---------- 115
Paşa Qəlbinur----------77,103
Paşayev Qəzənfər Məmməd oğlu-------- 236,252
Pişəvəri Seyid Cəfər Cavadzadə --------- 235,250
Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və ASAN Xidmət Mərkəzləri ---------- 214
Prezident Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə Sərəncam imzalamışdır- 312
Prokurorluq İşçiləri Günü ---------- 286

R

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı ---------- 345
Radio və Televiziya Verilişləri Komitəsi ---- 181
Rahim Məmməd (bax: Məmməd Rahim)
Ramazan bayramı ---------- 380,405
Ramazanzadə Malik Heydər oğlu ----------77
Ramiq Muxtar ---------- 262,264
Rasizadə Hüseyn Abdulla oğlu (bax: Hüseyn Cavid)
Repressiya Qurbanları Günü ---------- 287,307
Respublika Günü ---------- 150,177
Rəfibəyli Xudadat bəy Ələkbər bəy oğlu----6,27
Rəhmanzadə Fazil Şamil oğlu ---------- 39,43
Rəsulbəyov Hüseyn Cümşüd oğlu------- 180,201
Rəsulov Qeybulla İbadulla oğlu ----------75
Rojdestvenski Robert İvanoviç ---------- 179,186
Rostropoviç Mstislav Leopoldoviç--------- 76,89
Rubakin Nikolay Aleksandroviç--------- 213,231
"RUH" Azərbaycan Jurnalistlərinin Müdafiəsi Komitəsi---------- 150
Rusiyada Böyük Oktyabr Sosialist inqilabının qələbəsi ---------- 287
Russo Jan Jak----------39
Ruzvelt Franklin Delano ---------- 6
Rüstəm Behrudi ---------- 262,267
Rüstəmbəyova Aliyə Fətulla qızı -------- 378,393
Rüstəmov Ənvər Göyüş oğlu ---------- 345
Rüstəmov İsfəndiyar Adil oğlu ---------- 179
Rüstəmov İzzət Əşrəf oğlu ----------40
Rüstəmov Səid Əli oğlu---------- 148,154
Rüstəmova Azadə Cəfər qızı ---------- 213,229
Rzayeva Ağabacı İsmayıl qızı ---------- 343,353
Rzayeva Həqiqət Əli qızı ---------- 148,156

S

Sabir Mirzə Ələkbər ---------- 148,152
Sabitoğlu Emin (bax: Emin Sabitoğlu)
Sabunçu Rayon MKS-nin 10 saylı Bilgəh qəsəbə filial kitabxanası---------- 378
Sadıxov Kamil İsmayıl oğlu---------- 41,65
Sadıqova Məhluqə Ələsgər qızı---------- 114,130
Sadıqzadə Sadıq İsmayıl oğlu---------- 345
Salahova Zərifə Teymur qızı ----------40,60
Salayeva Zəhra Məmməd qızı ----------77,101
Salmanov Məmməd Əhəd oğlu----------7,32
Salmanov Sarvan Qarakişi oğlu ---------- 345
Samux Rayon MKS-i ---------- 379
Sayadov Mehman Qəzənfər oğlu -------- 311,324
Senyuşkin Sergey Aleksandroviç -------- 262,271

Seretelli Georgi Yefimoviç ---------- 148
Servantes Saavedra Migel de ---------- 285
Seyid Hüseyn Sadıqzadə ----------5,11
Seyidov Həsən Neymət oğlu ---------- 235,249
Seyidov İmran Sultan oğlu ---------- 344,363
Seyidov Məhərrəm Mirəziz oğlu -------- 262,270
Seyidov Nadir Miribrahim oğlu --------- 115,139
Seyidzadə Bağır Qasım oğlu ---------- 377,389
Seyidzadə Mehdi Həsən oğlu ---------- 310,313
"Səadət" xeyriyyə cəmiyyəti ---------- 379

Səbri Əli (bax: Əli Səbri)
Səfərəliyeva Kövkəb Kamil qızı----------5,15
Səfərli Əlyar Qurbanəli oğlu ---------- 344,367
Səfərov Cəlil Əziz oğlu ----------6,25
Səfərova Zemfira Yusif qızı ---------- 179,188
Səhiyyə İşçiləri Günü ---------- 181
Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü ---------- 237
Səttarxan Hacı Həsən oğlu ---------- 235,248
Simurğ Tağı Şahbazi (bax: Tağı Şahbazi Simurğ)
Siyəzən Rayon MKS-i ---------- 379
Siyəzən rayonu yaradılmışdır ----------41
SSRİ Nazirlər Soveti "Ermənistanın SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" - 346
SSRİ-nin yaradılması ilə Azərbaycanın formal müstəqilliyinə tamamilə son qoyulması ---- 346
Sultanov Həsən Abbas oğlu ---------- 149
Sumbatzadə Əlisöhbət Sumbat oğlu ---------6,28
Suraxanı rayon MKS-nin O.Sarıvəlli adına 5 saylı Əmircan qəsəbə filial kitabxanası ---------- 378
Süleymanov Manaf Fərəc oğlu ---------- 75,79
Süleymanova Elmira Teymur qızı ------- 213,227
Süleymanova Fatma Həmzə qızı ---------- 345

Ş

Şah İsmayıl Xətai ---------- 212,226
Şahtaxtinski Məhəmməd Həbibulla o. -- 213,230
Şahverdiyev İsrafil Şahverdi oğlu ------- 180,197
Şamaxı zəlzələsi ----------8,37
Şamoyev Firudin İsa oğlu ---------- 40,51
Şaşıqoğlu Nodar İzzətoviç---------- 76,90
Şəbüstəri Mahmud (bax: Mahmud Şəbüstəri)
Şəkidə ilk ipək emalı fabriki ---------- 379,402
Şəmkir Rayon Mərkəzi Kitabxanası ---- 378,395
Şərifzadə Sadıq Hüseyn oğlu---------- 343
Şərur Rayon MKS-i ---------- 379
Şubert Frans Peter ---------- 6
Şuşa Rayon MKS-i ---------- 379
Şuşa rayonunun işğalı ---------- 150,169
Şuşa rayonunun Quşçular və Malıbəyli kəndlərinin işğalı ---------- 41,69
Şuşa yaxınlığında Daşaltı əməliyyatı ---------- 8
Şükürov Şahlar Əvəz oğlu---------- 149,162
Şüvəlan qəsəbə Kütləvi Kitabxanası --------- 378

T

Tağı Şahbazi Simurğ ---------- 212,215
Tağıyev Eyyub İsmayıl oğlu ---------- 7
Tağıyev Şamxal Kərim oğlu----------77
Tağıyev Tağı Əzizağa oğlu ---------- 310,318
Tağızadə Zərəngiz Əli qızı ----------77
Talıblı Böyükağa Mirqasım oğlu ----------75
Tarixi Abidələrin Mühafizəsi Günü ----- 115,144
Tarverdiyev Fuad Cəfər oğlu---------- 148
Televiziya və Radio İşçiləri Günü ---------- 312
Televiziya və radio verilişlərinin həftəlik proqramı ---------- 380
"Televiziya və Radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu ------- 181
Teymurov Rizvan Rəhman oğlu --------- 114,133
Təhmasib Məmmədhüseyn---------- 114,137
Tərbiyət Mirzə Məhəmmədəli xan ------ 149,167
Tərtər Rayon MKS-i ---------- 379
Tolstoy Aleksey Konstantinoviç ---------- 262
Topçubaşov Əlimərdan bəy ---------- 149,165
Tofiq Fikrət ---------- 343,350
Turizm İşçiləri Günü ---------- 263
Türkiyə Cümhuriyyətinin Zəfər Bayramı --- 237

U

"Ulduz " jurnalı nəşrə başlamışdır ---------- 380
Ulutürk Xəlil Rza (bax: Xəlil Rza Ulutürk)
Uşaqların Beynəlxalq Müdafiəsi Günü ----- 181
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü ---------- 346

Ü

Ümumdünya Aviasiya və Kosmonavtika Günü ---------- 115
Ümumdünya Balıqçılıq Günü ---------- 150
Ümumdünya Diabet Günü ---------- 312
Ümumdünya Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik Günü ---------- 150
Ümumdünya Ev Heyvanları Günü ---------- 312
Ümumdünya Əhali Günü ---------- 213
Ümumdünya Əməyin Mühafizəsi Günü ---- 115
Ümumdünya Gülüş Günü ---------- 115
Ümumdünya Hemofiliya Günü ---------- 115
Ümumdünya Xərçəng Günü ----------41
Ümumdünya İnformasiya Cəmiyyəti Günü - 150
Ümumdünya Kənd Təsərrüfatı Heyvanları Günü ---------- 286
Ümumdünya Qaçqınlar Günü ---------- 181
Ümumdünya QİÇS-ə Qarşı Mübarizə Günü ---------- 345,370
Ümumdünya Quşları Müşahidə Günü ------ 286
Ümumdünya Meşələr Günü ----------78
Ümumdünya Meteoroloq Günü ----------78
Ümumdünya Metrologiya Günü---------- 150
Ümumdünya Mülki Müdafiə Günü----------78
Ümumdünya Okeanlar Günü ---------- 181
Ümumdünya Ozon Qatının Mühafizəsi Günü ---------- 263
Ümumdünya Planeti zibildən təmizləyək aksiyası keçirilmişdir---------- 380
Ümumdünya Poçt Günü ---------- 287
Ümumdünya Sağlamlıq Günü ---------- 115
Ümumdünya Salam Günü ---------- 312
Ümumdünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü ---------- 181
Ümumdünya Statistika Günü ---------- 312
Ümumdünya Su Günü ----------78
Ümumdünya Su Məməlilərinin Mühafizəsi Günü----------41
Ümumdünya Televiziya Günü ----------41
Ümumdünya Təbiəti Mühafizə Cəmiyyətinin Yaranması Günü ---------- 312
Ümumdünya Turizm Günü ---------- 263,282
Ümumdünya Tütünlə Mübarizə Günü ------- 150
Ümumdünya Uşaq Hüquqları Günü ---- 312,339
Ümumdünya Yaşayış Yerini Qoruma Günü 286
Ümumdünya Yer Günü ---------- 115
Ümumxalq hüzn günü ----------8,36

V

Vaqif Molla Pənah Mehdi ağa oğlu ----- 376,382
Vaşinqton Corc (bax: Corc Vaşinqton)
Vavilov Nikolay İvanovic---------- 311
Vəkiova Fatma İsmayıl ağa qızı ----------77
Vəkilova Leyla Məhəd qızı----------6,20
Vəliyev Yusif Abdulla oğlu---------- 76,92
Vəliyeva Afaq Məsud qızı (bax: Afaq Məsud)
Vətənoğlu Bəhmən (bax: Bəhmən Vətənoğlu)

Y

Yasamal rayonu Q.Musabəyov adına Kütləvi Kitabxana ---------- 378
Yeni il ----------7,34
Yusif İbn Əbu Sac Divdad---------- 377
Yüzbaşov Faiq Hüseyn oğlu ----------

Z

Zaqafqaziya Sovet Sosialist Federativ Respublikasının yaradılması ---------- 345
Zaqafqaziya SSR-lar Federativ İttifaqı yaranmış və Azərb.SSR bu ittifaqa daxil olmuşdur -----346
Zeynalov Bahadır Qasım oğlu ---------- 150
Zeynalova Şəfiqə Mikayıl qızı ---------- 179
Zəngilan rayonunun işğalı günü -------- 287,308
Zülfüqarova Xumar Rza qızı ---------- 310
Zahid Xəlil---------- 75,81
Zeynalov Eldəniz Məmməd oğlu----------6,22
Zərdabi Həsən bəy---------- 180,203

İstifadə olunmuş ədəbiyyat

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.-Bakı, 2004-2005.
Azərbaycan Kitabxana Ensiklopediyası: AKE.- Bakı: [M. F. Axundzadə adına Milli Kitabxana], 2015.- 630, [2] s.
Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.-404 s.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C.1-2 .-Bakı, 2009-2010.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi" .-Bakı, 2007.- 884 s.
Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1976-1986.
Azərbaycan tarixi günbəgün: kitab-təqvim.- Bakı, 2008.-368 s.
Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı.- Bakı, 2010.- 392 s.
Azərbaycanın elmi elitası-elmlər doktorları: məlumat kitabçası.- Bakı, 2011.- 320 s.
Azərbaycanın tanınmış xanımları=Famous ladies of Azerbaijan.-Bakı, 2002.- 270 s.
Cəfərov,T. Məktəblinin ədəbiyyat lüğəti.- Bakı, 2007.- 219 s.
Cəlil Məmmədquluzadə ensiklopediyası.- Bakı: Şərq Qərb, 2008.- 320 s.
Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar.- Bakı,2008.- 135 s.
Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət.- Bakı, 2006.- 267 s.
Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.-1056 s.
Əlizadə,Y.M. Azərbaycan efiri:tarix və müasirlik.- Bakı: Nurlan, 2006.- 184 s.
Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları .- Bakı, 2010.- 288 s.
Fəxri Xiyaban=The Honorary Cemetery.- Bakı, 2007.- 208 s.
Qarabağ:Yaddaş.-Bakı, 2010.-192 s.
Qocayev, Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- 152 s.
Mərdanov, M.Azərbaycan təhsil tarixi:3 cilddə.-Bakı, 2011.
Muğam ensiklopediyası.- Bakı, 2008.- 215 s.
Naxçıvan Ensiklopediyası.-Bakı, 2002.- 594 s
Nicat, Ə. Müdriklik məbədi /Əlisa Nicat.- Bakı, 2005.-1108 s.
Rəhimli, İ. Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005 - 864 s.
Rəhimli, İ. Üç əsrin yüz otuz ili.-Bakı: "Qapp-poliqraf" korporasiyası, 2003.-264 s.
Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- 252 s.
Şərif, A. XX əsr Azərbaycanın yaradıcı nəsilləri=Творческие династии Азербайджана в XX веке.- Bakı, 2007.-120 s. +120 s.
Üzeyir Hacıbəyli Ensiklopediyası.-Bakı: Şərq-Qərb, 2008.-239 s.
Varlıq: ensiklopedik toplu.- Bakı, 1998.- 283 s.
İnternet resursları.

Mündəricat

Yanvar 4-37

Fevral 38-73

Mart 74-111

Aprel 112-146

May 147-177

İyun 178-210

İyul 211-233

Avqust 234-260

Sentyabr 261-283

Oktyabr 284-308

Noyabr 309-341

Dekabr 342-374

Əlavələr 375-406

Əlifba göstəricisi 407-417

İstifadə olunmuş ədəbiyyat 418

2017

Əlamətdar və tarixi günlər təqvimi

Təqvim Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmışdır.

Nəşriyyat redaktoru:
Mehriban Cəfərova
Dizayner:
İlham Zəkəryəyev

Ünvan:
AZ-1000 Bakı ş., Xaqani küç.57
E-mail: contact@anl.az
URL: www.anl.az

Sifariş №: 30
Çapa imzalanmışdır: 21.10.2016
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov

"Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş №
Tel.: iş (012) 514 73 73
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru